# 100 yaşlı
# “AZƏRBAYCAN”

**Redaktor:**
**Bəxtiyar SADIQOV,**
*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı,*
*Əməkdar jurnalist*

**Buraxılışa məsul:**
**İxtiyar HÜSEYNLİ,**
*Əməkdar jurnalist*




**"Azərbaycan" qəzeti peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.**

**İlham ƏLİYEV**

# "Azərbaycan" qəzetinin kollektivinə

Sizi "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müstəqil dövlətçilik tariximizdə öz yeri olan, milli mətbuatımızın inkişafına əvəzsiz töhfələr verən "Azərbaycan" qəzeti 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamışdır. Cəmi iki il işıq üzü görmüş və birinci respublikanın süqutu ilə fəaliyyətini dayandırmış qəzet nəşr olunduğu qısa dövr ərzində görkəmli ziyalıların, tanınmış ictimaiyyət nümayəndələrinin tribunasına çevrilərək, xalqımızın maariflənməsində, müstəqillik ideallarının gerçəkləşməsində, mədəniyyətinin yüksəlişində, mənəvi dəyərlərinin qorunmasında önəmli rol oynamışdır.

XX əsrin sonlarında ölkəmiz yenidən müstəqilliyə qovuşduqdan sonra nəşri bərpa olunmuş "Azərbaycan" qəzeti öz ənənələrini davam etdirərək, milli dövlət quruculuğu prosesində fəal iştirakı ilə seçilmişdir. Demokratik inkişafın tərkib hissəsi kimi söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün əlverişli şəraitin yaradılması milli mətbuatımızın, o cümlədən "Azərbaycan" qəzetinin öz missiyasını daha səmərəli şəkildə yerinə yetirməsinə yeni imkanlar açmışdır. Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.

Respublikamızın dinamik inkişaf etdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə, habelə çoxsaylı informasiya resurslarının fəaliyyəti ilə şərtlənən rəqabət mühitində mətbuatımız ümummilli məsələlərin həlli, cəmiyyətimizin rifahı naminə üzərinə düşən vəzifələri daha böyük əzmlə yerinə yetirməyi bacarmalıdır. Əminəm ki, "Azərbaycan" qəzetinin kollektivi də qarşıdakı dövrdə bu çətin və şərəfli işin öhdəsindən uğurla gələcək.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 sentyabr 2018-ci il**




# B.Y.Sadıqovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:*

**Azərbaycan Respublikasında milli mətbuatın inkişafındakı xidmətlərinə görə Bəxtiyar Yusif oğlu Sadıqov "Şöhrət" ordeni ilə təltif edilsin.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 sentyabr 2018-ci il**

# "Azərbaycan" qəzetinin əməkdaşlarına "Əməkdar jurnalist" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:*

Azərbaycan Respublikasında milli mətbuatın inkişafındakı xidmətlərinə görə "Azərbaycan" qəzetinin aşağıdakı əməkdaşlarına "Əməkdar jurnalist" fəxri adı verilsin:

**Cavadov Seyran Qubad oğlu**
**Əzizli Bəxtiyar Məhərrəm oğlu**
**Hüseynli İxtiyar Kərim oğlu**
**Quliyev Lazım Məmmədqulu oğlu.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 sentyabr 2018-ci il**

# "Azərbaycan" qəzeti əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:*

Azərbaycan Respublikasında milli mətbuatın inkişafındakı xidmətlərinə görə "Azərbaycan" qəzetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsin:

**Cəfərov Rəşad İslam oğlu**
**İmanquliyev Bahadır Bəkir oğlu**
**Mütəllibov Rüstəm Kamal oğlu**
**Vəliyev Elçin Vaqif oğlu.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 sentyabr 2018-ci il**



**Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.**

**Heydər ƏLİYEV**

# "Azərbaycan" qəzetinin kollektivinə

Əsası 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti kimi nəşr olunmuş "Azərbaycan" xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir.

Məlum tarixi səbəblər üzündən AXC kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutdu.

Müstəqilliyimizə düşmən kəsilmiş daxili və xarici qüvvələr öz çirkin məqsədlərinə nail olmaq üçün bu gün də azğın niyyətlərindən əl çəkmirlər. Məlum oktyabr hadisələri onların mürtəce təbiətini bir daha aşkarladı. Amma Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq öz qanuni Prezidentini, müstəqil dövlətçiliyini müdafiə etdi. Fərəhli haldır ki, həmin həlledici məqamda "Azərbaycan" qəzeti öz sayıqlığını bir an belə itirmədi.

"Azərbaycan" qəzetinin 1000-ci sayının çapdan çıxdığı bu əlamətdar gündə sizi təbrik edir, müstəqil dövlətimizin həyatının işıqlandırılmasında yaradıcı heyətə uğurlar diləyirəm.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**6 dekabr 1994-cü il**

# "Azərbaycan" qəzetinin kollektivinə

Azərbaycanın dövlət müstəqilliyi tarixində xüsusi rol oynamış "Azərbaycan" qəzetinin 80 illiyi tamam olur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli-azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəsinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran "Azərbaycan" qəzeti xalqımızın 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində ölkəmizin digər mətbuat orqanları kimi, "Azərbaycan" qəzetinin də üzərinə böyük vəzifələr düşür. İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş "Azərbaycan" qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirərək xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcəkdir.

Ölkəmizin adını daşıyan və demokratik, milli dövlətçiliyimizin yaşıdı olan "Azərbaycan" qəzetinin 80 illiyi münasibətilə sizi ürəkdən təbrik edir, kollektivinizə daha böyük yaradıcılıq uğurları arzulayıram.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**15 sentyabr 1998-ci il**



آذربايجان



Цѣна номера 1 руб.

Издания годъ первый

АЗЕРБАЙДЖАНЪ

Выходитъ два раза въ недѣлю.

Воскресенье 22 Сентября 1918 года.

№ 3

ПРАВИЛА

Постановленія Правительства

Приказы.

Отъ редакціи.



آذربايجان

اعلان



RƏSMİ DÖVLƏT QƏZETİ

BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ, BİR DAHA ENMƏZ!

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİNİN ORQANI

Миллəт вəкиллəри тəрəддүд етди. Нијə?

Јенилик нə верəчəк?

Он чəкəдə



Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

Вəтəнə, халга, дөвлəтə сəдагəт анды

Азəрбајҹан Республикасынын Президенти Һејдəр Əлирза оғлу Əлијевин анд ичмə мəрасими

Азəрбајҹан мүстəгил, демократик, һүгуги дөвлəт гуручулуғуну инамла давам етдирəрəк јени-јени наилијјəтлəр газанаҹагдыр

Азəрбајҹан Республикасынын Президенти Һејдəр Əлирза оғлу Əлијевин анд ичмə мəрасиминдə нитги



Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!

Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

Demokratik və bəşəri dəyərlərə sadiq müdrik rəhbər

ƏBƏDİYAŞARLIQ RƏMZİ

Heydər Əliyev yolu milli inkişafın rəhbəridir

Heydər Əliyev Partiyası - zəfər istinadgahı



Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

Aprel döyüşləri Azərbaycan dövlətinin, xalqının və ordusunun şanlı tarixi qələbəsidir

Bir il öncə Silahlı Qüvvələrimiz Lələtəpədə Azərbaycan bayrağını dalğalandırdılar

İLHAM ƏLİYEVİN APREL ZƏFƏRİNİN YARATDIĞI DƏYİŞİKLİKLƏR



AZƏRBAYCAN

26 avqust 2018-ci il

13

ŞƏRƏFLİ ÖMRÜN SƏMİMİ ANLARI



**Bəxtiyar SADIQOV,**
*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı*

*Ön söz əvəzi*

# 100 YAŞLI "AZƏRBAYCAN"

***"Səni yüz yaşa" – ulularımızın ən çox sevdiyi alqışlardandır. Ömrü Allah versə də, nədənsə çox azına bu qədər pay ayırır.***

***Ancaq seçilmişlərə yüz il yaşamaq nəsib olur!***

***Onlardan biri də bu gün 100 yaşını qeyd etdiyimiz rəsmi dövlət qəzeti, Azərbaycan Respublikası Milli Məclisinin orqanı "Azərbaycan" qəzetidir.***

***"Azərbaycan"ın dünyaya gəlişi qeyri-adi, keçdiyi "həyat yolu" bənzərsiz, taleyi uğursuz, həm də şərəfli olub.***

***Bu bir cümlənin içərisində maraqlı tarix, dərin və zəngin mənalar gizlənib. Onları birlikdə nəzərdən keçirək.***

Müstəqil dövlət olmaq, azad və müstəqil yaşamaq hər bir xalqın arzusudur. Lakin hamı bu istəyini gerçəkləşdirə bilmir. Çünki müstəqil dövlət qurmağın da, onu yaşatmağın da şərtləri çətindir, hər kəs üçün əlçatan deyil!

Ən əvvəl, vətən saydığın ərazin, torpağın olmalıdır. Sonra yeraltı, yerüstü sərvətin, torpaq-iqlim şəraitin xalqını rahat yedirib saxlamağa kifayət etməlidir. Ən nəhayət, qurduğun dövləti idarə və müdafiə etməyi, dünya birliyinə daxil olmağı, dövlətlərlə siyasi, iqtisadi və diplomatik münasibətlər yaradaraq özünü təsdiq etməyi, tanıtmağı və əməkdaşlığı da bacarmalısan!

XX əsrin əvvəllərində dünya çalxalanmağa, bulanmağa, müharibələr alovunda yanmağa başladı. Bu təlatümlər bəzi imperiyaların dağılmasına da səbəb oldu. Odur ki, həmin imperiyaların tərkibində yaşayan xalqlara müstəqilliyə qovuşmaq, öz dövlətini yaratmaq şansı yarandı. İstəyi, münasib şəraiti və tələb olunan şərtlərə cavab vermək imkanı olan xalqlar ələ düşən fürsətdən bəhrələnməyə cəhd etdilər.

Onlardan biri də çar Rusiyasının tərkibində olan Azərbaycan idi!

Avropada və Rusiyada inqilabi ideyaların, demokratik fikirlərin genişləndiyi bir vaxtda Azərbaycanda da yeni ziyalılar nəsli yetişirdi. Müxtəlif ölkələrdə ayrı-ayrı ixtisaslar üzrə təhsil alaraq vətənə qayıdan həmin gənclər həm də özləri ilə təzə ab-hava gətirirdilər. Əvvəlcə mədəni muxtariyyət, sonra müstəqil dövlət qurmaq uğrunda mübarizəyə başlayan bu insanlar çox çətinlikdən sonra maneələrə üstün gəlməyə, məqsədlərinə çatmağa nail oldular.

Beləliklə, 28 may 1918-ci ildə "İstiqlal Bəyannaməsi" qəbul edilərək Azərbaycanın dövlət müstəqilliyi elan edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 may 2017-ci il tarixli sərəncamında bu barədə deyilir: "Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü".

**"Azərbaycan" qəzeti yarandığı gündən milli-azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir.**

***Heydər ƏLİYEV***

Sərəncamda xalq cümhuriyyətinin demokratik prinsiplərə, insan haqlarının qorunmasına yetirdiyi diqqətə də yüksək qiymət verilir: "Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq, bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi".

Cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə imzaladığı bu sənəddə bugünün müstəqil Azərbaycanının əsrin əvvəllərində yaradılan, lakin 23 aydan artıq yaşaya bilməyən dövlətin varisi olduğunu da xüsusi qeyd edir: "1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, xalq cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 may gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir".

❖❖❖

Xalqın ürəyində bəslədiyi ən müqəddəs arzu həyata keçdi. Bununla bağlı "İstiqlal Bəyannaməsi"nin 1-ci bəndində deyilir: "Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Qafqaziyanı əhatə edən Azərbaycan da tamhüquqlu müstəqil bir dövlətdir".

Lakin ulu öndər Heydər Əliyevin dediyi kimi, müstəqil dövləti yaşatmaq müstəqilliyi elan etməkdən qat-qat çətindir! Tarix dahi rəhbərin bu fikrinin həqiqiliyini dəfələrlə sübuta yetirib. Azərbaycan adlı müstəqil dövləti quranları qarşıda ciddi çətinliklər və sınaqlar gözləyirdi. Onlar bir çox problemlərin həllinə nail oldular, Azərbaycanı dünya birliyinə tanıtdılar, dövlət quruculuğu sahəsində müəyyən uğurlar qazandılar. Təəssüf ki, qurduqları dövlətin taleyi də öz taleləri kimi uğursuz oldu! Lakin çəkdikləri zəhmət, gördükləri iş itmədi. XX əsrin sonlarında Azərbaycan yenidən dövlət müstəqilliyini elan etdi, ulu öndər Heydər Əliyev isə müasir Azərbaycanın qurucusuna və memarına çevrilərək onu yaşatmağı, əbədiliyə çevirməyi bacardı!

Görüləcək işlər nə qədər çox olsa da, onların təbliği, yeni hökumətin fəaliyyətinin işıqlandırılması, qəbul edilən qərarların və qanunların xalqa çatdırılması da böyük əhəmiyyət kəsb edirdi. Odur ki, yeni qəzetin yaradılmasına da ciddi ehtiyac duyulurdu. Lakin...

Azərbaycan dövlət müstəqilliyini müəyyən səbəblər üzündən Tiflisdə elan etmişdi. Bakıya köçmək isə hələ mümkün deyildi! Yeni hökumətin ora köçməsi üçün ilk növbədə şəhər işğalçılardan təmizlənməli idi.

Lakin ordu yox, silah-sursat yox, vəsait yox...

On səkkiz gün qürbətdə qaldıqdan sonra Azərbaycan Milli Şurası Gəncəyə köçdü. Sonra Milli Şura buraxıldı, ali qanunverici və icraedici hakimiyyət Fətəli xan Xoyski kabinetinin əlində cəmləşdi.

"Azərbaycan" qəzetinin ilk nömrəsi də məhz burada – Gəncədə, Yelizavetpol qubernatorunun mətbəəsində çap edildi.

❖❖❖

Qeyd edək ki, S.Şaumyanın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti Azərbaycan Xalq Cümhuriyyətini beşikdə boğmağa çalışırdı. Onlar iyunun 10-da 18 minlik döyüşçü ilə Gəncə istiqamətində yürüşə başladılar. Göyçay ərazisində Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu ilə iki həftə davam edən ağır döyüşlərdə bolşevik-daşnak ordusu darmadağın edildi! Sonra Bakıya doğru yürüşə başlandı.

Sentyabrın 15-də Qafqaz İslam Ordusu ölkə paytaxtını azad etdi və sentyabrın 17-də Azərbaycan hökuməti Nuru paşanın dəvəti ilə qatarla Gəncədən Bakıya gəldi, paytaxtın qəhrəman əsgərlərimiz tərəfindən azad edilməsi münasibətilə mitinq keçirildi, bu münasibətlə Fətəli xan Xoyski təbrik nitqi söylədi.

Hökumətin Bakıya birdəfəlik gəlişi isə sonra baş tutdu.

"Azərbaycan" qəzetinin ilk nömrəsi də (birinci nömrədə qəzetin adının sağ tərəfində "Hələlik həftədə iki dəfə nəşr olunan siyasi, elmi və iqtisadi türk qəzetəsidir" sözləri yazılıb) məhz bu hadisəyə həsr edilmişdi! Bəli, dövlətin ilk rəsmi qəzeti xoş xəbərlə nəşrə başladı və öz sevincini ilk olaraq oxucuları ilə bölüşdü!

Şübhəsiz, ilk nömrənin baş yazısı "Bakının süqutu" adlı məqalə olmuşdur. Məqalədə deyilir: "Bakının süqutu. Dün gecə Azərbaycan Cümhuriyyəti Riyasəti namına Nuri paşa həzrətləri tərəfindən böylə teleqraf keşidə edilmişdir: "Bismihil-kərim, Bakı şəhəri, 15.9.34 saət 9 əvvəldə qitəatimiz (hissələrimiz) tərəfindən zəbt olundu.

Qafqaz İslam Ordusu komandanı Farik Nuri".

❖❖❖

"Azərbaycan"ın Gəncə dövrü on gün davam etmiş, həmin müddətdə qəzetin dörd nömrəsi işıq üzü görmüşdür. Həm də iki dildə – Azərbaycan və rus dillərində. Sonuncu, 4-cü nömrəsi 25 sentyabrda çıxmış, bundan sonra redaksiya da Bakıya köçmüşdür. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Nazirlər Şurası "Metropol" mehmanxanasında (indiki AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyində), "Azərbaycan" qəzetinin redaksiyası isə həmin bina ilə üzbəüz, Kolyubakinski (indiki Nigar Rəfibəyli) küçəsindəki Adamovlara məxsus yaşayış binasında yerləşdi (Təəssüf ki, indiyədək həmin ünvana xatirə lövhəsinin vurulması kimsənin yadına düşməmişdir). "Azərbaycan" bu sayından (5-ci nömrəsindən) özünün "gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsi" olduğunu bəyan etdi. Sərlövhənin altında "rəsmi dövlət qəzetəsi" sözləri yazılmasa da, "Azərbaycan" xalq cümhuriyyətimizin ilk dövlət qəzeti idi. Bu qəzet hökumət başçısının təşəbbüsü və dəstəyi ilə yaranmışdı, dövlət tərəfindən maliyyələşirdi və "Dövlət mətbəəsi"ndə gündəlik çap olunurdu. "Azərbaycan" qəzetinin Gəncə nüsxələrində olduğu kimi, Bakıda çıxan nömrələrində də xalq cümhuriyyətinin təkamül dialektikası, dövlət strukturlarının fəaliyyəti, qanun və qərarların icrası məsələləri prioritet sayılaraq geniş işıqlandırıldı.

Hökumətlə birlikdə Gəncədən Bakıya köçən "Azərbaycan", əslində, öz fəaliyyəti ilə milli mətbuatımız tarixində yeni cığır, yeni dövr açdı.

Həsən bəy Zərdabi "Əkinçi" qəzeti ilə Azərbaycan milli mətbuatının və jurnalistikasının əsasını qoydu. "Əkinçi" özünədək olmayan bir sıra məsələləri və mövzuları qəzet səhifəsinə çıxardı. Demokratik fikir və ideyaların, elm və maarifin təbliği, dini xurafata qarşı mübarizə yazıların ana xəttini təşkil edirdi. Lakin digər – "Əkinçi"yədək başqa qəzetlərdə olmayan mövzulardan da geniş bəhs olunub. Kənd təsərrüfatına dair bilgilərin təbliğinə, ana dili, poeziya, musiqi və s. məsələlərə müəyyən yer ayrılıb.

"Əkinçi"dən sonra onun yolunu davam etdirən qəzet və jurnallar mövzu dairəsini daha da genişləndirdi. Xüsusən 1905-1907-ci illər inqilabından sonra yaranan şərait nəticəsində meydana çıxan mətbu orqanlar məişətdən tutmuş siyasətədək, mədəniyyətdən iqtisadiyyatadək ən müxtəlif mövzularda yazmış, müzakirələr açmış, fikir və mövqelər bildirmişlər. "Kaspi", "İrşad", "Həyat", "Tazə həyat", "Tərəqqi", "Səda", "Açıq söz" qəzetləri, pedaqoji və uşaq jurnalları, daha sonralar müxtəlif partiyalara məxsus nəşrlər mövzu palitrasını daha da zənginləşdirdilər. "Molla Nəsrəddin" jurnalının yaranması ilə Azərbaycanda satiranın və felyeton janrının inkişafına yeni nəfəs gəldi. "Molla Nəsrəddin" ədəbi məktəbi, "mollanəsrəddinçilər" adlı yeni qələm əhli söz meydanında mövqe qazandılar. Bütün bunlar dünyada gedən proseslərin nəticəsi, Azərbaycan ziyalılarının və jurnalistlərinin xalqın inkişafı yolunda gördükləri işlərin real nəticələri idi.

Bunlardan sonra yaranmasına baxmayaraq, "Azərbaycan" qəzetlər bolluğunda öz yerini tutmağa, milli mətbuatımıza yeni nəfəs və istiqamət gətirməyə, jurnalistikamızı janr və tematika cəhətdən daha da zənginləşdirməyə nail oldu. Qəzet fərdi maraqlara, partiya mənafeyinə yox, bütövlükdə dövlətə, xalqa xidmət etməyə başladı. "Azərbaycan"ın ilk redaktoru Ceyhun bəy Hacıbəyli bu məqamı nəzərdə tutaraq yazırdı: "Azərbaycan" bir firqənin, bir sinfin və ya bir kastanın orqanı deyildi. "Azərbaycan" milli bir orqan idi və feilən rəsmi hökumət heyətinin rəy və mülahizəsini izah edəcəyinə öz yolunu sərbəstcəsinə cızıb, öz qənaətini bəyan edirdi".

Bütün bu dəyişikliklərin əsasında o vaxtadək olmayan hadisələrin baş verməsi, qəzetin qarşısında yeni vəzifələrin dayanması, ona yeni tələblər verilməsi dururdu.

Əvvəla, tarixdə ilk dəfə olaraq Azərbaycan xalqı özünə müstəqil dövlət qurmuş, parlament yaratmış və demokratik inkişaf yolunu tutmuşdu.

İkincisi, "Azərbaycan" heç bir fərdə, siyasi partiyaya, qrupa məxsus olmayan, müstəqil dövlətə və onun maraqlarına xidmət edən yeni tipli qəzet idi.

Ən nəhayət, həmin dövrdə ilk dəfə baş verən hadisələr və proseslər qəzetin mövzu və janr cəhətdən dəyişməsini, yeniləşməsini tələb edirdi.

**Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq öz qanuni Prezidentini, müstəqil dövlətçiliyini müdafiə edəndə, həmin həlledici məqamda "Azərbaycan" qəzeti öz sayıqlığını bir an belə itirmədi.**

***Heydər ƏLİYEV***

❖❖❖

"Rəsmi dövlət qəzeti" statusu ilə çıxan hər bir orqanın hər sözü dövlətin sözü sayılır, odur ki, mövqeyi daim təmsil etdiyi dövlətin mövqeyi ilə üst-üstə düşməlidir. Təbii ki, müstəqil dövlət ilk dəfə qurulduğundan "dövlət mövqeli qəzet" anlayışı da yeni idi.

"Azərbaycan"ın qarşısında duran bir nömrəli vəzifə dövlətin gördüyü işləri xalqa çatdırmaq və təbliğ etmək sayılırdı!

"Azərbaycan" bu vəzifənin öhdəsindən uğurla gəldi.

Azərbaycan Məclisi-Məbusanının fəaliyyətə başlaması da dövr üçün təzə hal sayılırdı. Parlamentin işi, müzakirə olunan məsələlər, fikir çarpışmaları, parlament mədəniyyətinin formalaşması, qəbul edilən hüquqi aktlar və onların mahiyyəti – bütün bunlar da yeni mövzular və məsələlər idi. Bu mövzuların işıqlandırılmasında qəzetin redaktoru Üzeyir bəy Hacıbəylinin xüsusi xidmətləri olmuşdur. "Azərbaycan"da ayrı-ayrı iclasların stenoqrafik hesabatları ilə yanaşı, Üzeyir bəy tərəfindən peşəkarlıqla hazırlanan "parlament hesabatları" da müntəzəm surətdə dərc edilirdi. Bu gün həmin hesabatları oxumaqla Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin fəaliyyəti barədə geniş bilgilərə malik olmaq mümkündür.

Parlament fəaliyyəti dövründə 200-dən çox qanun qəbul etmişdir. İstər qəbul edilən qanunlar, istərsə də digər hüquqi aktlar təkcə Azərbaycan dövləti üçün deyil, xalqımız üçün də yenilik idi. Odur ki, onların bütün mətninin dərci, mahiyyətinin xalqa çatdırılması və təbliği xüsusi əhəmiyyət daşıyırdı. "Azərbaycan" bu missiyasını da layiqincə yerinə yetirmişdir.

Müstəqil daxili və xarici siyasət yürüdən dövlətin rəsmi qəzeti də bu mövzunu daim diqqət mərkəzində saxlamalı, siyasətin mahiyyətini xalqa çatdırmağı, görülən işləri təbliğ etməyi bacarmalıdır. "Azərbaycan" siyasi mövzu və məsələlərə daim önəm vermiş, Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransı ilə bağlı fəaliyyətini yetərincə işıqlandırmışdır.

❖❖❖

Mətbuat tarixini araşdıranlar "Azərbaycan"ın dövrünün ensiklopedik nəşri səviyyəsinə yüksəldiyini söyləyirlər. Əgər bunun səbəblərindən biri dövrlə, yeni tipli dövlətin qurulması və onun inkişafı ilə bağlı görülən çoxcəhətli işlərin ilk dəfə qəzetdə işıqlandırılması ilə bağlı idisə, digər səbəb qəzetin redaktor və müəlliflərinin yüksək savadı və dünyagörüşü, müasir düşüncə tərzi və yazı yazmaq bacarığı, peşəkarlığı ilə bağlı idi. Məsələn, Üzeyir bəyin parlamentdən hazırladığı hesabatlar "stenoqrafik" xarakterli deyil. Yəni kim nə deyibsə, onu oxucuya çatdırmaqla kifayətlənməyib. Müzakirə və mübahisələrin "kökünə gedib", bəhs olunan məsələyə müəyyən aydınlıq gətirib, xeyli maarifçilik işi aparıb. Əslində bu şərhlərdə cümhuriyyət dövrü parlamenti özünün "ikinci həyat"ını yaşayıb.

Qəzetin digər yazarları da geniş dünyagörüşləri, mövzulara dərindən bələdlikləri, fikirlərini sərbəst, anlaşıqlı və maraqlı formada oxucuya çatdırmaq məharətləri ilə fərqləniblər. Bu mənada "Azərbaycan" qəzeti dil-üslub cəhətdən də həmin dövrdə çıxan bir sıra qəzetlərdən müsbət mənada fərqlənib. Azərbaycan dilinin imkanlarından bu qəzetdə daha bacarıqlı istifadə edilib. Heç də təsadüfi deyil ki, qəzetin əməkdaşları və daimi müəllifləri arasında xeyli sayda yazıçı, şair və dramaturq da olub.

❖❖❖

"Azərbaycan"ın həm cümhuriyyət, həm də müasir dövrdəki fəaliyyətinə ən yüksək qiyməti ulu öndər Heydər Əliyev verib. Qəzetin 80 illiyi münasibətilə onun 15 sentyabr 1998-ci ildə redaksiyaya ünvanladığı təbrik məktubunda deyilir: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli-azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideyalarının formalaşması işinə önəmli töhfə vermişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran "Azərbaycan" qəzeti xalqımızın 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır".

Həmin məktubda qəzetin fəaliyyəti yüksək qiymətləndirilməklə yanaşı, kollektivin üzərinə düşən məsul vəzifələr də aydın və yığcam şəkildə göstərilmişdir: "İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş "Azərbaycan"



CEYHUN BƏY HACIBƏYLİ



ÜZEYİR BƏY HACIBƏYLİ



ŞƏFİ BƏY RÜSTƏMBƏYLİ



XƏLİL İBRAHİM

qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirərək xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcək".

❖❖❖

Jurnalistikada maraqlı bir fikir var: hər bir qəzet öz redaktoruna bənzəyir!

Bəli, redaktorun dünyagörüşündən, savadından, qəzetçiliyin qayda və prinsiplərinə bələdliyindən və zövqundən çox şey asılıdır. Əslində qəzet redaktoru qəzetin simasının – həm məzmun, həm də dizayn cəhətdən – müəyyənləşməsində əsas rol oynayır. Doğrudur, dövlət nəşrlərində ümumi istiqaməti redaktor təyin etmir. Amma həmin istiqamətə xidmət göstərən müxtəlif yazıların hazırlanması, ümumi hədəfə tuşlanan ayrı-ayrı materialların nə vaxt işlənərək səhifəyə qoyulması, illüstrativ materialların seçilməsi, sərlövhə, sərlövhəaltı, rubrika və podborkaların müəyyənləşməsində əsas söz sahibidir. Adətən yaradıcı kollektiv redaktorun zövqünə köklənir.

"Azərbaycan"ın birinci dövründə müxtəlif vaxtlarda dörd redaktoru olub. Onların hər biri yüksək savadı, müasir dünyagörüşü, Avropa mədəniyyətinə və elminə dərindən bələdliyi, cilalanmış qələmi və fitri istedadı ilə fərqlənib. Rəsmi qəzetdə işləyənədək çoxsaylı qəzetlərlə əməkdaşlıq etmiş, bəzilərində çalışmış, imzaları tanınmış və kifayət qədər təcrübə toplamışdılar.

"Azərbaycan"ın redaktorları barədə tərcümeyi-hal xarakterli qısa informasiyaları diqqətə çəkirik.

Cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin (Azərbaycan və rus dili variantlarının) dörd redaktoru olub. Nömrələr üzrə redaktorlar belə paylaşıb: 6-cı nömrədən "Azərbaycan"ın, 5-ci nömrədən isə rus dilindəki "Azerbaidjan"ın redaktorları Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli, 50-ci nömrədə müdir göstərilmir, 51-ci nömrədən 1919-cu ilin 16 yanvarında çıxmış 89-cu nömrəyə qədər müdir və baş mühərrir Ceyhun bəy Hacıbəyli, 89-cu nömrədən 4 iyul 1919-cu il tarixli 216-cı nömrəyə qədər müvəqqəti müdir Üzeyir bəy Hacıbəyli, 4 iyul 216-cı nömrədən 1 sentyabr 265-ci nömrəyə qədər müvəqqəti müdir Xəlil İbrahim, 1 sentyabr 265-ci nömrədən 31 dekabr 1919-cu il tarixli 358-ci nömrəyə və 1 yanvardan 28 aprel 1920-ci il tarixli 85-ci nömrə də daxil olmaqla müdir Üzeyir bəy Hacıbəyli olmuşdur.

**ÜZEYİR BƏY HACIBƏYLİ**dən başqa "Azərbaycan"ın bütün redaktorlarının həyatı məşəqqətli və faciəli sonluqla başa çatmışdır. Üzeyir bəy Hacıbəylini isə musiqi dühası həbs, sürgün və ya güllələnmədən xilas etmişdir! Sovet dövründə ona hücumlar olmuş, müsavatçı damğası vurmaqla həbsinə cəhdlər göstərilmişdir. Belələrinə cavab da vermişdi: "Danışırlar ki, "Azərbaycan" qəzeti guya "Müsavat" partiyasına məxsus firqəvi bir qəzet imiş. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir. "Azərbaycan" qəzetinin məsləki vətən istiqlalı yolunda çalışmaqdan ibarətdir".

Üzeyir bəy öz xoşu ilə heç bir partiyaya üzv olmamışdır. Lakin 1938-ci ildə Stalinin göstərişi ilə namizədlik stajı keçmədən birbaşa Sov.İKP sıralarına qəbul edilmiş və öz əcəli ilə dünyasını dəyişmişdir.

**CEYHUN BƏY HACIBƏYLİ** "Azərbaycan" qəzetinin ilk redaktorlarından biri olub. 1891-ci ildə anadan olan Ceyhun bəy Üzeyir bəyin qardaşı idi. Dünyagörüşünün formalaşmasında və jurnalistika sahəsindəki uğurlarında qardaşı Üzeyir bəyin böyük rolu və təsiri olmuşdur. 1910-1916-cı illərdə Peterburq Universitetində oxumuş, sonra isə Fransanın Sorbonna Universitetini bitirərək vətənə qayıtmış, "İrşad", "Tərəqqi", "İttihad", "Bakı", "Proqres", "Kaspi" və başqa mətbu orqanlarla əməkdaşlıq edərək yüzlərlə məqalə yazmışdır. Onun "Azərbaycan"a rəhbərliyi dövründə qəzetin ətrafına dövrün tanınmış ziyalıları, ictimai-siyasi xadimləri, millət fədailəri toplaşmışlar.

1919-cu ildə Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin Parisdə Versal sülh konfransına göndərdiyi nümayəndə heyətinin tərkibinə Məmmədhəsən Hacınski, Əhməd bəy Ağayev, Əkbərağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov və Miryaqub Mirmehdiyevlə bərabər Ceyhun bəy Hacıbəyli də daxil edilir.

Səfərdə əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtmağa nail olmaq idi. 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarına qədər fasilələrlə davam edən həmin konfransda Antanta Azərbaycan Cümhuriyyətinin istiqlaliyyətini tanıdı. Bu, Sovet Rusiyasının qəzəbinə səbəb oldu.

Ceyhun bəy Parisdə olarkən AXC süqut edir. Sovet hökumətinin Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyətini ona heç zaman bağışlamayacağını yaxşı bilən Ceyhun bəy vətənə qayıtmağa ehtiyat edir. Üzeyir bəyin də qardaşının bağışlanaraq geriyə dönməsi üçün dəfələrlə əlaqədar təşkilatlara müraciəti cavabsız qalır.

Ceyhun bəy Hacıbəyli xaricdə çox çətin durumda yaşayırdı. Üzeyir bəyin ömrünün sonuna qədər göndərdiyi müəyyən məbləğdə pul yardımı olmasaydı, kim bilir, güzəranı necə keçərdi. Hələ bu azmış kimi, öz adını daşıyan oğlu Ceyhunun 1937-ci ildə Paris Hərbi Akademiyasını bitirəndən sonra alman faşizminə qarşı vuruşmaq üçün cəbhəyə gedərək döyüşdə həlak olması onun vətən həsrətinin üzərinə oğul dərdi də gətirir...

Xaricdə Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini yetərincə təbliğ edən Ceyhun bəy Hacıbəyli 1962-ci ildə Fransada vəfat edərək Parisin Sen-klu qəbiristanlığında torpağa tapşırılıb.

**ŞƏFİ BƏY RÜSTƏMBƏYLİ** "Azərbaycan"ın rus variantının ilk redaktoru olub. O, eyni zamanda Azərbaycan parlamentinin deputatı idi. 1893-cü ildə Ağdaş qəzasının Məmmədli kəndində doğulmuş, orta təhsilini Gəncədəki klassik gimnaziyada almışdı. 1911-ci ildə Kiyev Universitetinin Hüquq fakültəsinə daxil olmuş, 1916-cı ildə oranı bitirmişdi. Kiyev həyatı onun ictimai-siyasi xadim kimi yetişməsində böyük rol oynamışdı. Universitetdə yaradılmış Azərbaycan Həmyerlilər Təşkilatının başçılarından və fəal üzvlərindən olmuşdur. 1917-ci ildə Bakıda keçirilən Azərbaycan müsəlmanlarının qurultayında, habelə həmin ilin may ayında Moskvada baş tutan Rusiya müsəlmanlarının qurultayında iştirak etmişdir. Şəfi bəy Azərbaycan Milli Şurasının Tiflisdə və Gəncədə yaranmış bölmələrində çalışmış, dövlət qurumlarının yaradılmasında böyük əmək sərf etmişdir. O, "Azərbaycan" qəzetinin baş redaktoru və parlament üzvü olmaqla yanaşı, AXC-nin Daxili İşlər Nazirliyinin dəftərxana müdiri, 1920-ci il martın əvvəllərindən isə nazir müavini vəzifələrini icra etmişdir.

1920-ci il 28 aprel hadisələrindən sonra Şəfi bəy Rüstəmbəyli Tiflisə köçməli olur. 1921-ci ilin fevralında Gürcüstan da qırmızı ordu tərəfindən işğal edildikdən sonra Türkiyəyə – İstanbula köçür və ömrünün qalan hissəsini mühacirətdə sıxıntı içərisində keçirir.


Nə qədər ki Azərbaycan var, Mən də varam.
Mən isə Azərbaycanda əbədi olacağam!

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

Müstəqil Azərbaycan dövlətinin qurucusu


Mən İlham Əliyevə özüm qədər inanıram

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

YENİ dövrün lideri


AZƏRBAYCAN

İLHAM ƏLİYEVİN OLİMPİADASI


AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

ZƏFƏRİN BAYRAQDARI

Sahibkarların böyük hamisi

Şəxsiyyət zirvəsi

Xalqın sənindir, zəfər sənindir...


Azərbaycan 56-cı medalını qazandı

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

BAŞ MƏŞƏLDAR

I Avropa Oyunlarında ölkələrin medal göstəriciləri


Azərbaycan medalların sayına görə II yerdədir

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

AZƏRBAYCAN ARTIQ QALİBDİR!

I Avropa Oyunlarında ölkələrin medal göstəriciləri


AZƏRBAYCAN www.azerbaijan-news.az

24 dekabr 2017-ci il

Şəxsiyyət zirvəsi


14 26 avqust 2018-ci il

AZƏRBAYCAN www.azerbaijan-news.az

Mehriban Əliyevanın idman missiyası


AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

Azərbaycana həsr edilən ömrün məntiqi

Angela MERKEL:
"Azərbaycan çox sürətli inkişafa nail olub"

Xeyirxahlıq ilahəsi

Mehriban Əliyevanın idman missiyası

Almaniyanın Kansleri Angela Merkel Azərbaycana səfərə gəlib

...Şahidlər söyləyirlər ki, parlamentin son iclasında M.Ə.Rəsulzadə dərin bir kədər və hüznlə istilanın Azərbaycana yetişdiyini söyləyərkən arxadan hönkürtü ilə ağlamaq səsi eşidilir və hamı kədərlə geriyə dönür. Ağlayan "Azərbaycan" qəzetinin baş redaktoru Şəfi bəy Rüstəmbəyli idi!

O, gənc bir dövlətin süqutuna və gələcəkdə yaşayacağı həsrət dolu kədərli ömrünə sanki irəlicədən yas tuturdu...

**XƏLİL İBRAHİM** ibtidai təhsilini Şuşada almış, realnı məktəbi isə Bakıda bitirmişdi. Bədii və publisistik yaradıcılıqla məşğul olan Xəlil İbrahim mücadilə tariximizə ədəbiyyat, mədəniyyət xadimi, eyni zamanda ictimai xadim, tənqidçi, teatrşünas və tərcüməçi kimi daxil olmuşdur. Xalq Cümhuriyyəti yıxıldıqdan sonra Xəlil İbrahim qürbətə üz tutmayaraq vətənində qalır, ədəbi-bədii yaradıcılıqla məşğul olur.

1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində elmi terminologiyanın işlənib hazırlanması üzrə komissiya yaradılır. Xəlil İbrahim əvvəlcə bu komissiyanın üzvü, sonra isə məsul katibi olur. Müxtəlif sahələr üzrə terminologiyanın hazırlanmasında fəal iştirak edir və komissiyanın "Dilimizin silahı" adlı mətbu orqanının redaktoru olur. 1930-cu ildən başlayaraq "Azərnəşr"də bədii ədəbiyyat üzrə redaktor işləyən X.İbrahim ictimai-siyasi ədəbiyyatın, dünya ədəbiyyatı klassiklərinin (Şekspir, Şiller, A.Tolstoy və başqaları) ana dilimizə tərcüməsinə xüsusi əmək sərf edir. İctimai xadim Xəlil İbrahim ictimai-siyasi məsələlərlə bağlı, mədəni-maarif, teatr, dil və ədəbiyyat problemlərinə aid 200-dən çox məqalənin müəllifidir.

Heç kəs unudulmur, heç nə yaddan çıxmır! Qırmızı hökumət Xəlil İbrahimin bir zamanlar "Azərbaycan" qəzetinə redaktorluq etdiyini unutmamışdı. 1938-ci ilin qaranlıq gecələrinin birində Xəlil İbrahimin də qapısı döyüldü. Bir neçə gün çəkən "ənənəvi" sorğu-sualdan sonra "Azərbaycan"a redaktorluq etmiş bu insanı "xalq düşməni" ittihamı ilə 25 martda – 45 yaşı tamam olan gün güllələdilər!

❖❖❖

Tale elə gətirib ki, Şimali Azərbaycan bir əyalət (yaxud "müttəfiq respublika") kimi uzun müddət Rusiyanın tərkibinə qatılıb. Əlbəttə, bunların heç biri (təqdimedilmə formasına baxmayaraq) könüllü şəkildə baş verməyib, milli sərvətimizin hansısa formada mənimsənilməsinə xidmət edib. Hər dəfə Rusiya imperiyası zəifləyəndə və ya parçalananda tərkibindəki dövlətlər müstəqilliyə can atıblar. Bu, 1917-ci ilin rus inqilabları nəticəsində Rusiyada çar mütləqiyyətinin yıxılması zamanı da, qırmızı imperiyanın çöküşü vaxtı da belə olub. Lakin heç bir dönəmdə bu dəyişikliklər, xüsusən müstəqillik arzusunun gerçəkləşdirilməsi asan başa gəlməyib, qansız ötüşməyib! Əvvəla, belə bir niyyətə görə Azərbaycan xalqına ciddi "qulaqburması" verilib, müxtəlif üsullarla cəzalandırılıb. Sonra isə hazır "Qarabağ kartı"ndan istifadə olunub. Alət millət sayılan ermənilər qızışdırılaraq və silahlandırılaraq üstümüzə göndərilib, onlara təkcə hərbi yox, digər sahələrdə də dəstək verilib. Üstəlik Azərbaycan ərazilərindən qoparılan torpaqlar hesabına Cənubi Qafqazda erməni dövləti yaradılıb.

Ötən əsrin sonlarında SSRİ-nin çöküşü zamanı da belə oldu! Yenə tarix təkrarlandı, yenə məlum ssenari işə salındı.

İkinci dəfə müstəqillik yoluna qədəm qoyan Azərbaycan yenə eyni problemləri həll etməli oldu.

XX əsrin 80-ci illərinin sonlarında SSRİ-yə rəhbərlik edən M.Qorbaçov (Sov.İKP-nin Baş katibi, faktiki dövlət rəhbəri) superdövləti dağılmaqdan xilas etmək üçün müxtəlif vasitələrə əl atdı (Sonralar onun kapitalist dünyası tərəfindən ələ alınaraq SSRİ-nin dağıdılmasında istifadə edildiyi barədə söz-söhbət yayıldı). Ağıl, bacarıq və intellekt sarıdan lazımi səviyyədə olmadığından onun "yenidənqurma" adı ilə başladığı oyun istənilən nəticəyə gətirmədi. Başqalarına görk olsun deyə bəzi müttəfiq respublikaların cəzalandırılma aktları da lazımi effekti vermədi. Əksinə, SSRİ rəhbərliyinə nifrəti artıraraq mərkəzdənqaçma meyillərini daha da gücləndirdi. 1990-cı ildə Bakıya ordu qüvvələri yeridilərək 20 Yanvar qırğınının törədilməsi də bu qəbildən idi.

Günahsız və silahsız insanların öldürülməsi təkcə əli Azərbaycan xalqının qanına batmış M.Qorbaçova deyil, bütövlükdə sovet ordusuna və Sovet İttifaqı Kommunist Partiyasına qarşı nifrətə çevrildi. İnsanlar partiya sıralarını kütləvi şəkildə tərk etməyə, partiya biletlərini nümayişkaranə şəkildə yandırmağa başladılar. Artıq Sov.İKP-nin siyasi meydanı, ilk növbədə dövlətə rəhbərliyi tərk etməsi, ölkənin beynəlxalq qayda və prinsiplər əsasında idarə edilməsi zərurətə çevrilirdi. M.Qorbaçov SSRİ-nin birinci və sonuncu prezidenti oldu, Sov.İKP vahid partiya statusunu itirdi, zorla SSRİ-nin tərkibinə qatılmış müttəfiq respublikaların müstəqilliyinə şərait yarandı. Müttəfiq respublikaların parlamentləri daimi işlək quruma çevrildi, prezidentlik idarəetməsinə keçidə hazırlıq görüldü. Çökən SSRİ-nin "bazası" əsasında müstəqil dövlətlərin yaranacağı şübhə doğurmurdu.

Yenidən Qarabağ problemi ilə üzləşən Azərbaycan bu məsələlərdə daha həssas və fəal idi.

1990-cı ildə yeni parlament seçkiləri keçirildikdən sonra müəyyən dəyişikliklərə rəvac verildi.

❖❖❖

Sovet dövründə Azərbaycanın baş qəzeti "Kommunist" sayılırdı. Qəzet Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Azərbaycan SSR Nazirlər Sovetinin orqanı idi. Dəyişikliklər ərəfəsində "baş strukturlar"ın hər biri özünə yeni qəzet yaratmağa başladı. "Kommunist" Azərbaycan KP MK-nın orqanı kimi qaldı, Nazirlər Soveti "Respublika" adlı qəzet təsis etdi. Ali Sovet isə ənənəyə əsasən "Azərbaycan" qəzetini açmalı idi. Lakin həmin dövrdə Qarabağa Xalq Yardımı Komitəsinin "Azərbaycan" adında yeni qəzeti çıxırdı. Mövcud qanunvericiliyə görə, eyni adda iki qəzet buraxıla bilməzdi. Komitəyə məxsus "Azərbaycan" öz adını güzəştə gedərək Ali Sovetə (Milli Məclisə) qaytarmadı. Odur ki, 1991-ci ildən Ali Sovetin orqanı kimi "Həyat" qəzetinin çapına başlanıldı. Ona həm də "rəsmi qəzet" statusu verildi.

Əslində bu, "Azərbaycan" qəzetinin başqa adla bərpası, ikinci ömrünə başlaması demək idi.

"Həyat" 1992-ci ilin 22 sentyabrınadək dövlət və parlament qəzeti kimi fəaliyyət göstərdi. Cəmi 440 nömrəsi çıxdı. Sonra "Azərbaycan" adı qanuni sahibinə qaytarılaraq tarixi ədalət bərpa edildi.

"Azərbaycan" qəzeti yenidən Azərbaycan Xalq Cümhuriyyəti dövründəki missiyasının davamına başladı.

Hər bir qəzetin özü üçün müəyyən etdiyi hədəflər, qarşısına qoyduğu vəzifələr, habelə işıqlandırmalı olduğu mövzuların və məsələlərin "sanbal yükü" bir sıra parametrlərə təsir göstərir. "Azərbaycan" qəzeti də yaranışından bugünədək qarşısına qoyulan tələblərə cavab verməyə çalışıb və daim buna uyğun yaradıcı kollektivi formalaşıb.

Rəsmi dövlət qəzeti statusu daşıdığından "Azərbaycan"da səsləndirilən hər bir fikir, yanaşma, mövqe hökmən dövlətin mövqeyi ilə üst-üstə düşməlidir. "Fikir azadlığı", "fikir plüralizmi", "sərbəst düşüncə" və s. kimi demokratik qayda və prinsiplərə hörmətlə yanaşsa da, "Azərbaycan" üçün iki və ya çoxmövqelilik tamamilə yaddır. Dövlətin qəbul etdiyi qərarlar, dövlət başçısının fərman, sərəncam və tapşırıqları "Azərbaycan"da müzakirə edilmir, yalnız təbliğ olunur, oxucuya çatdırılır!

Yeri gəlmişkən, jurnalistikamız üçün "sirr kimi" görünən bir məqama da toxunmaq istərdik. "Azərbaycan" qəzetində faktların təqdimi, şərhi, məsələyə yanaşmada xüsusilik, habelə materialların tərtibi, hansı səhifədə, hətta səhifənin harasında yerləşdirilməsi, ardıcıllığı və dizaynı ilə bağlı çox ciddi qayda və prinsiplər mövcuddur. Bunları bir yerə toplayıb sistemə salsan və "ümumi qaydalar" formasında tərtib etsən, heç qəzetin bir nömrəsinə belə sığışmaz! Lakin həmin qayda və prinsiplər heç bir jurnalistika nəzəriyyəsində yazılmayıb, jurnalistikaya dair heç bir dərsliyə düşməyib.

Deməli, bu qayda və prinsiplər heç bir universitetin jurnalistika fakültəsi və şöbələrində tədris edilmir, öyrənilmir. Bunların böyük əksəriyyəti ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib, "yazılmamış qanun" səviyyəsinə yüksəlib! Ulu öndər həm də biz jurnalistlərin yaxın dostu idi, mətbuatla daim təmas qururdu. Bütün görüşlərində, nitq, məruzə və çıxışlarında daim mətbuat işçilərini nəzərə alırdı. Nitqini elə qururdu ki, görüşdə iştirak edən jurnalist məsələnin mahiyyətini dərhal tutur, hansı faktları necə qabartmağı, məğzini oxucuya çatdırmağı öyrənir və beləliklə, yazı prosesində heç bir çətinlik çəkmirdi.

**"Azərbaycan" qəzeti respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi nümayiş etdirir.**

***Heydər ƏLİYEV***

Ümummilli lider Heydər Əliyev daim redaksiyamızla əlaqə saxlayıb, tövsiyə, məsləhət və iradları ilə bizi öyrədib, peşəkarlığımızın yüksəlməsinə şəxsi töhfəsini verib.

Jurnalist yaradıcılığına bu qayğını möhtərəm Prezidentimiz İlham Əliyevdən də görürük.

❖❖❖

"Azərbaycan" qəzetinin özünəməxsus elitar oxucu auditoriyası var. Bizim oxucularımız çox ciddi və tələbkardırlar. Hətta orfoqrafik səhvlərimizi belə bağışlamır, dərhal redaksiyaya zəng edərək bildirirlər. Oxucularımızın əsas hissəsi dövlət məmurları, siyasətçilər, hüquqşünaslar, iqtisadçılar, idarəetmənin müxtəlif pillələrində çalışan insanlar, öz sahələrinin biliciləri, mütəxəssislərdir. Necə deyərlər, gözlərindən heç nə yayınmır! Siyasətlə yeni maraqlananlar, idmançı gənclər, xaricdə yaşayan soydaşlarımız (internet versiyası əsasında) daimi

oxucular sırasındadır. Bütün bunlar bizi daim məsuliyyətli, dəqiq və obyektiv olmağa sövq edir. Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları elə bil "Azərbaycan" qəzetinin əməkdaşları üçün yazılıb.

Bizə dəqiqliyimizə, doğru yazdığımıza görə inanırlar. Odur ki, dərindən bilmədiyimiz məsələ barədə danışmır, yoxlayıb dəqiqliyinə əmin olmadığımız faktı qəzet səhifəsinə çıxarmırıq!

Çox maraqlı bir fakt. 2015-ci ilin Aprel döyüşləri zamanı və sonrakı günlərdə qəzetimizin elektron versiyasına xarici ölkələrdən giriş on min dəfədən də çox artmışdı. Qarabağ uğrunda müharibənin alovlanmasından narahat olan dünya azərbaycanlıları həqiqəti olduğu kimi öyrənmək üçün bizə üz tuturdular.

Heç bir qəzetdə hansı yazının hansı səhifədə və hansı ardıcıllıqla verilməsi bizdəki qədər diqqətlə izlənilmir və reaksiya doğurmur.

❖❖❖

Milli Məclisin orqanı olmağımız da məsuliyyət yükümüzü xeyli artırır. Müstəqillik dövründə parlament tərəfindən minlərlə qanun və qərar qəbul olunmuş, müxtəlif komitələrin qanun yaradıcılığı ilə bağlı saysız-hesabsız iclasları, habelə plenar iclasları keçirilmiş, çoxsaylı qonaqlar təşrif gətirərək fikir mübadiləsi aparmışlar. Bütün bunlar "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapmış, tarixə çevrilmişdir. Bu iclaslarda və görüşlərdə iştirak edən hər bir jurnalist məsələnin mahiyyətini tutmağa, onu olduğu kimi oxucuya çatdırmağa, təkcə dövlət quruculuğu sahəsində yox, qanun yaradıcılığında da görülən nəhəng işləri vaxtında və düzgün işıqlandırmağa çalışıb.

Heç bir qəzet Milli Məclisin həyatını, bu ali qanunverici orqanda görülən işləri bizim qədər dolğun, geniş və əhatəli işıqlandırmayıb. "Azərbaycan" bu gün də müstəqillik dövrünün ensiklopediyasıdır. Müasir tariximizin ən obyektiv, doğruçu və fədakar salnaməçisidir. Milli Məclisin deputatları ilə ən çox təmas quran, qəzet səhifələrində onlara ən çox yer ayıran da bizik! "Azərbaycan"ın yazıları heç zaman stenoqrafik xarakterli, cansıxıcı olmur. Daim canlı yazmağa, insanların fikir, hiss və həyəcanlarını, sevinc və qayğılarını olduğu kimi əks etdirməyə çalışırıq.

❖❖❖

Jurnalist əməyinə ən yüksək qiyməti və dəyəri ulu öndər Heydər Əliyev verib: "Jurnalist əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir". Doğrudan da düşünməkdən və yazmaqdan beyni qabar olan (əlləri və barmaqları yox) insan əməyinə bundan yüksək qiymət vermək mümkün olmazdı!

Jurnalist əməyi həm də ona görə qeyri-adidir ki, o, yaxşı yazı yazanda, oxunaqlı və maraqlı nömrə buraxanda oxucusu razı qalsa da, bunu adi hal hesab edir. Kiçicik bir səhvi, yanlışlığı isə heç zaman diqqətdən kənarda qalmır, irad və danlaq başının üstündən əskik olmur...

Müstəqilliyin daimi yol yoldaşı olan "Azərbaycan"ın toxunduğu bütün mövzu və məsələlər barədə bir məqalə daxilində söhbət açmaq mümkün deyil! Xüsusən də nəzərə alsaq ki,

keçdiyimiz dövr hadisələr baxımından zəngin, quruculuq sarıdan qeyri-adi, inkişaf cəhətinə görə möhtəşəm olub! Odur ki, müstəqillik tariximizdə iz buraxan ayrı-ayrı faktlar, dövlətimizin inkişafına böyük töhfə verən layihələr və xalqımızın yaddaşında daim yaşayacaq hadisələr barədə qısaca xatırlatmalarla kifayətlənirik.

❖❖❖

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müstəqilliyimizin ilk günlərindən dövlətimizə və xalqımıza böyük problemlər yaşadan, iyirmi mindən çox vətən övladının şəhidliyinə səbəb olan, bir milyondan çox insanı hər şeyindən məhrum edərək doğma yurd-yuvasından didərgin salan, şəhər, kənd, qəsəbələrimizin, tarixi abidə, muzey, mədəniyyət ocaqları və müqəddəs ziyarətgahlarımızın dağıdılmasına, bütövlükdə ölkəmizə 320 milyard ABŞ dolları həcmində zərər vuran və indiyədək həll edə bilmədiyimiz yeganə problemdir.

Qəzet nömrələrində bu problem çoxşaxəli formada işıqlandırılıb: ATƏT-in Minsik qrupu çərçivəsində aparılan danışıqlar, dövlət başçıları – ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin görüş, danışıq və müzakirələri, beynəlxalq qurum və təşkilatlarda aparılan işlər, şəhidlərə hörmət və ehtiram, şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına dövlət qayğısı, ordu quruculuğu, qaçqın və məcburi köçkünlərin sosial rifahının yaxşılaşdırılması sahəsində atılan addımlar və s. Azərbaycan xalqının məsələyə marağını nəzərə alaraq bu mövzuya öncül mövqe verilmiş, kifayət qədər yer ayrılmışdır.

Problemin çözümündə və görülən işlərin qəzetdə işıqlandırılmasında həlledici məqam Heydər Əliyevin xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtması və qurtuluş missiyasına başlaması olub.

Azərbaycanı bir dövlət kimi məhvolmadan qurtaran, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirən bu qayıdış və dönüş xalqımızın çoxəsrlik tarixində mühüm əhəmiyyətə malikdir. "Azərbaycan" qəzeti baş verənlərə məhz bu rakursdan yanaşmış və onu bir neçə mühüm aspektdən işıqlandırmışdır:

Ölkədə sabitliyin bərpası, müharibədə atəşkəsə nail olunması;

Qanunsuz silahlı dəstələrin ləğvi, əhalidəki külli miqdarda silah-sursatın yığılması;

Ümummilli böhranın aradan qaldırılması, iqtisadiyyatın dirçəldilməsi;

Beynəlxalq qurum və təşkilatlarla sıx əməkdaşlığa başlanılması, dünya birliyinə inteqrasiya;

Bazar iqtisadiyyatı münasibətlərinə keçid, özəlləşdirmə proqramlarının hazırlanması və icrası;

Ordu quruculuğu sahəsində atılan uğurlu addımlar və s.

❖❖❖

Hər xalq öz tarixində fitri istedadı, parlaq zəkası, qeyri-adi bacarığı, böyük müdrikliyi və uzaqgörənliyi ilə fərqlənən şəxsiyyətlər yetişdirir. Onların sayı çox olmur! Lakin tarixin elə dönəmlərində meydana girərək, elə nəhəng işlərə imza atırlar ki, nəticədə yeni dövlət qurulur, dövlətçilik yaranır, xalq inkişafının yeni, daha yüksək mərhələsinə qədəm qoyur! Heydər Əliyev də tarixin neçə yüz ildən bir yaratdığı nadir simalardandır. Məhz onun qorxmazlığı,

qətiyyəti, uzaqgörənliyi, fədakarlığı və təşkilatçılıq məharəti sayəsində XX əsrin sonlarında ikinci dəfə dövlət müstəqilliyinə nail olan Azərbaycan əvvəllərdə olduğu kimi, kiçik xanlıqlara parçalanma, müstəqilliyini itirərək bir dövlət kimi dünya xəritəsindən silinmə təhlükəsindən qurtuldu, inkişafının daha yüksək və parlaq mərhələsinə qədəm qoydu. Ulu öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri sağlığında özünün layiqli siyasi varisini hazırlaması, müstəqil Azərbaycanı möhkəm və etibarlı əllərə tapşıraraq əbədiyyətə qovuşması oldu. Heydər Əliyev siyasi kursunu ləyaqətlə davam etdirən Prezident İlham Əliyev müstəqil Azərbaycanı iqtisadi cəhətdən qüdrətli, demokratik, dünya birliyində özünəməxsus yeri və sözü olan dövlətə çevirməyi bacardı, onun yeni, müasir imicini formalaşdırdı.

"Azərbaycan" qəzeti ulu öndər Heydər Əliyevin əziz xatirəsini daim uca tutur, onun həyatı, fəaliyyəti, nadir şəxsiyyəti barədə daim, sistemli və maraqlı yazılar, məqalələr, xatirələr dərc edir. Ulu öndərin müstəqil Azərbaycan naminə gördüyü çoxcəhətli və qeyri-adi işlərdən bəhs edən, "Azərbaycanın özü qədər əbədi", "Heydər Əliyev mənim həyatımda" rubrikaları ilə verilən materiallar böyük oxucu rəğbəti və məhəbbəti qazanmışdır. Müəyyən dövrdən sonra kollektivimiz Prezident Administrasiyasının tövsiyə və dəstəyi ilə həmin materialların bir qismini kitab şəklində çap etdirərək ulu öndərə bir daha hörmət və ehtiramını göstərdi. Bu kitabların ilki 2003-cü ildə nəşr etdirdiyimiz "HEYDƏR ƏLİYEV DÜNYANIN GÖZÜ İLƏ" adlı rəylər və fikirlər, ulu öndərə verilən dəyərlər toplusudur.

**"Azərbaycan" qəzeti azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak edir, demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır.**

***Heydər ƏLİYEV***

Heydər Əliyev yorulmadan yaratmış, qurmuş, bir sıra yeniliklərə imza atmışdır. Onun güclü məntiqi, parlaq nitq qabiliyyəti, insanları inandırmaq və səfərbər etmək məharəti vardı. Lakin nə nəzəriyyə məsələləri ilə məşğul olmuş, nə də memuar yazmışdır. Gördüyü işlərin, həyata keçirdiyi tədbirlərin isə həmişə dərin elmi bünövrəsi və möhkəm nəzəri əsası olmuşdur. Akademik Ramiz Mehdiyevin ümummilli liderimizin coşqun fəaliyyətini dərin və yüksək elmi-nəzəri səviyyədə təhlil edən əsərləri bu sahəyə də gur işıq salmış, ulu öndərin tarixi irsinin öyrənilməsində və təbliğində müstəsna rol oynamışdır. Bütövlükdə Heydər Əliyevin siyasi irsinin öyrənilməsində və gələcək nəsillərə çatdırılmasında uzun illər boyu ardıcıl, sistemli və məqsədyönlü işlər görülmüşdür. Bu vacib missiya indi də uğurla davam etdirilir.

"Azərbaycan" qəzetinin layihəsi isə ulu öndərin bir şəxsiyyət kimi böyüklüyünü, mərhəmət və xeyirxahlığını, insanlara arxa durmaq, dayaq olmaq məqamlarını əks etdirir. Məhz Heydər Əliyevin sayəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin müxtəlif şəhərlərinin tanınmış ali məktəblərində təhsil alaraq vətənə qayıtmış, yüzlərlə insan vəzifə pilləsi ilə yüksələrək xalqına xidmət göstərmişdir. Saysız-hesabsız əmək qəhrəmanları Heydər Əliyevin sayəsində tanınmış, dövlət mükafatları almış, ev-eşik, xoş güzəran sahibi olmuş, övladlarına təhsil verərək ailə sahibi etmişlər. Ulu öndər neçə-neçə xəstə insanın müalicə olunaraq yenidən həyata qayıtmasına yaxından kömək göstərmiş, hətta qocalaraq ehtiyac içində olanlara yüksək Prezident təqaüdü verərək güzəranını yaxşılaşdırmışdır. Heydər Əliyev həm də

maraqlı müsahib, zarafatcıl insan idi. O, adamlarla ünsiyyət qurmağı, onlara unudulmaz, xoş anlar bəxş etməyi də bacarırdı.

Vaxtilə Heydər Əliyevlə birgə oxumuş, işləmiş, onunla ünsiyyət quraraq köməyini görmüş bir çox insanların xatirələri "Heydər Əliyev mənim həyatımda" rubrikası ilə "Azərbaycan" qəzetinin səhifələrində işıq üzü gördükdən sonra eyni adlı kitaba çevrildi.

2005-ci ildə birinci nəşrindən sonra redaksiyaya ulu öndərə məhəbbətlə dolu o qədər yazı daxil oldu ki, 2013-cü ildə kitabı yenidən – bu dəfə iki cilddə nəşr etdirdik.

"HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA" kitabının unikallığı ondadır ki, müəlliflər əsasən sadə insanlardır və söhbətləri səmimidir, ulu öndərin şəxsiyyətinin əzəmətini həyati misallarla göstərirlər. Həm də bu kitablar belə mövzuda yazılmış birinci və axırıncıdır. O dövrdə müxbirimiz Naxçıvana ezam olunaraq Heydər Əliyevin sinif yoldaşları Firuzə Rzayeva, Zərqələm Əliyeva, Dövlət Məmmədovla görüşdü, xatirələrini qələmə aldı.

Daha belə kitab yazmaq mümkün deyil! Çünki xatirə sahiblərinin çoxu dünyasını dəyişmişdir. Təəssüf ki, bu nadir kitaba indiyədək lazımi diqqət göstərilməmişdir... Xarici dillərə tərcümə edilməmiş, dünyaya yayılmamış, Azərbaycana gələrək beynəlxalq tədbirlərdə iştirak edən əcnəbilərə hədiyyə verilməmişdir.

Axı dünya görkəmli şəxsiyyətlər haqqında olan kitabları sevir və oxuyur...

❖❖❖

Həm ulu öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin respublikaya rəhbərliyi dövründə bir sıra məsələlərdən ilk dəfə yazmalı olmuşuq. Nədənsə ilk dəfə yazmaq həm biz jurnalstlər üçün məsuliyyətli, çətin və şərəflidir, həm də tale qismətidir. Bir neçə il öncə ölkəmizdə iki milyard ton neftin çıxarılması qeyd edildi. Bir milyard ton neft isə sovet dövründə çıxarılmışdı. Amma heç zaman həmin neftdən Azərbaycan xalqı və dövləti bəhrələnə bilməmişdi. Çünki ondan qazanılan vəsait "ümumittifaq fondu"na – mərkəzə göndərilirdi. Respublikaya isə neftin korladığı, əkinə yaramayan torpaq sahələri qalırdı...

Tariximizdə ilk dəfə olaraq Azərbaycan xalqı öz sərvətinə sahib çıxdı. Bu ilki və sevinci bizə ulu öndər Heydər Əliyev yaşatdı! 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamaqla! Bəli, ilk dəfə Azərbaycan öz neftini qeyri-ənənəvi marşrutla – Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri ilə dünya bazarına çıxardı! Amma bunun baş tutmaması üçün nə qədər maneələr yaradıldı, məkrli planlar quruldu. Hətta terror aktları belə törədildi. O dövrdə neft danışıqlarının fəal iştirakçılarından biri cənab İlham Əliyev idi. Müəyyən mərhələdə danışıqların baş tutmaması təhlükəsi də yaranmışdı. Lakin İlham Əliyevin diplomatik məharəti, möhkəm iradəsi, qətiyyətli mövqeyi hər şeyə üstün gəldi.

Bakı–Tbilisi–Ərzurum təbii qaz kəmərinin, habelə Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin çəkilişində də oxşar ssenarilər işə salındı. Azərbaycanın dövlət başçıları bütün maneələrə üstün gəlməyi, xalqın və dövlətin maraqlarını qorumağı bacardılar. Çoxsaylı görüşlər keçirildi, danışıqlar aparıldı, maliyyə mənbələri tapıldı, inşaat işləri uğurla getdi... Ən nəhayət, müstəqil Azərbaycanın müəllifi, icraçısı olduğu transmilli layihələr həyata vəsiqə qazandı. Azərbaycan Avropanın təbii qaz təchizatçısına, logistika mərkəzinə çevrildi. Dənizə birbaşa çıxışı olmayan ölkə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradıcısıdır, onların qovşağında yerləşir!

## Son 15 ildə "Azərbaycan" qəzeti redaksiyası tərəfindən




"Heydər Əliyev dünyanın gözü ilə"
Bakı – 2003




"Heydər Əliyev mənim həyatımda"
Bakı – 2005




"Vətəndaş cəmiyyətinə yol açan ideyalar"
Bakı – 2006




"Yeni siyasət: inkişafa doğru" (ikicildlik)
Bakı – 2008




"Azərbaycan"–90"
Bakı – 2008




"İctimai və humanitar elmlər:
zaman kontekstində baxış"
Bakı – 2010




"İnkişafın Azərbaycan modeli"
Bakı – 2010

## 14 adda 19 cilddə (kitablardan beşi ikicildlikdir) kitab nəşr edilmişdir




"Müasir Azərbaycan dövrün baxışında" (ikicildlik)
Bakı – 2011




"Vəkil məsləhətləri toplusu"
Bakı – 2012




"Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" (ikicildlik)
Bakı – 2012




"Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" (ikicildlik)
Bakı – 2013




"Heydər Əliyev mənim həyatımda" (ikicildlik)
Bakı – 2013




"İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı"
Bakı – 2017




"Xocalı şahidləri danışır"
Bakı – 2018

Bütün bunlar barədə "Azərbaycan" dönə-dönə, fəxrlə, fərəhlə yazdı! Bu layihələrin xalqımıza və dövlətimizə gətirdiyi faydalardan konkret faktlar və misallar əsasında söhbət açdı. Bu gün də yazır və sevinir!

❖❖❖

Təəssüf ki, xoşagəlməz "ilk"lərdən də yazmalı olmuşuq! 4 oktyabr 1994 və 13-18 mart 1995-ci illərin dövlət çevrilişi cəhdləri də bir sınaq oldu! Dövlətə və dövlətçiliyə sədaqət sınağı, iqtidarla xalqın birliyi sınağı! Bütün bu həlledici anlarda "Azərbaycan" qəzeti daim dövlətin yanında oldu, müstəqilliyi sevdiyini və müdafiə etdiyini sübuta yetirdi.

Sabitliyin və əmin-amanlığın qədrini bilməyə çağırdı. Bu gün də eyni mövqedədir.

❖❖❖

Cənab İlham Əliyev prezidentlik dövründə Azərbaycanı düşünülmüş, sürətli və davamlı inkişaf yoluna çıxarmışdı. Ümumi daxili məhsul istehsalındakı artım tempinə görə ölkəmiz dünyanı heyrətə salıb. 15 il ərzində ölkə iqtisadiyyatı 3 dəfə artıb, işsizlik və yoxsulluq 49 faizdən 5 faizə enib, ölkənin valyuta ehtiyatları 44 milyard dolları keçib. 4 su anbarı, 30 elektrik stansiyası tikilib, 15 min kilometrdən çox avtomobil yolu çəkilib, 443 körpü salınıb, ölkə yenidən tikilib-qurularaq abadlaşdırılıb. Bütövlükdə dünya tərəfindən qəbul edilərək maraqla öyrənilən İnkişafın Azərbaycan Modeli yaranıb.

Hazırda əsaslı islahatlar aparılaraq bu model təkmilləşdirilir, qeyri-neft sektorunun inkişafında yeni uğurlar qazanılır.

Qürur doğuracaq bu inkişafdan dönə-dönə, şövq ilə yazan "Azərbaycan" bu modelin cəhət və xüsusiyyətlərindən bəhs edən yeni bir kitab da hazırlayaraq oxucuların ixtiyarına verib. 2010-cu ildə çapdan çıxan "İNKİŞAFIN AZƏRBAYCAN MODELİ" təkcə iqtisadçıların yox, geniş oxucu kütləsinin də rəğbətini qazandı.

❖❖❖

Qaçqın və məcburi köçkün mövzusunun qəzetdə işıqlandırılmasının özünəməxsus cəhətləri var. Bu gün Avropanın "qaçqın" adından imtina edərək onları "miqrant" adlandırması məsələnin mahiyyətini heç də dəyişmir. Bu qəbil insanlar cəmiyyətin ən həssas təbəqəsini, həm də daim diqqət və qayğı tələb edən qrupunu təşkil edir. Qəflətən, qısa müddətdə hər şeyini itirən, ömrü boyu yaratdığından və yığdığından məhrum olan insanların əsəbi də daim gərilidir. Onların arasında əlillər, şəhid ailələri, ailə başçısını itirmiş insanlar daha çoxdur. Bütün bunlar jurnalistlərdən də həssaslıq, mövzuya bələdliklə yanaşma tələb edir. Artıq Azərbaycan mətbuatı qaçqın və məcburi köçkün mövzusunun işıqlandırılmasında püxtələşib. 1988-ci ildə Ermənistanda yaşayan soydaşlarımız zorla dədə-baba torpaqlarından qovularkən Azərbaycan sovet mətbuatında onların öz adları ilə adlandırılmasına, "qaçqın" deyilməsinə icazə verilmirdi. "Daimi yaşayış yerini müvəqqəti tərk etmiş insanlar" əcaib terminindən istifadə olunurdu. Bütün bunlar məsələnin mahiyyətinin gizlədilməsinə xidmət edirdi. Faktiki isə ortada yüz minlərlə qaçqın ordusu vardı. Hətta sonradan məcburi köçkünlər də onlara əlavə olunduğundan sayları milyonu keçdi.

Bu qədər sayda köməyə ehtiyacı olan insan toplusu dövlət üçün də, iqtisadiyyat üçün də çox ağır yükdür. Onları yedirtmək, yerləşdirmək, sosial problemlərini yoluna qoymaq, işlə təmin etmək – həm də qısa zamanda – o qədər də asan deyil!

Yalnız ulu öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra dövlət bu sahədə planlı, ardıcıl, sistemli iş aparmağa başladı. Beynəlxalq təşkilatlara müraciət olundu, ulu öndər şəxsi nüfuzundan istifadə edərək yardım üçün dost dövlətlərlə əlaqə yaratdı. Ölkə ərazisinin bir neçə yerində qaçqın düşərgələri salındı. "Çadır şəhərcikləri" adlandırılan bu yeni yaşayış məskənlərində heç bir kommunal şərait olmasa da, insanların daldalanması, onlara sistemli yardım göstərilməsi, uşaqların təhsillərini davam etdirməsi, düzgün uçotun qurulması üçün irəliyə doğru addım idi.

Ulu öndər daim qaçqın və məcburi köçkünlərin yanında idi, onların problem və qayğılarını öyrənir, həlli üçün mümkün olan köməyi göstərirdi. Sonralar bu çətin və gərgin missiyanı cənab İlham Əliyev öz üzərinə götürdü. Qaçqın və məcburi köçkünlərin ən yaxın dostuna, hamisinə çevrildi. İlk dəfə olaraq Dövlət Neft Fondundan vəsait ayrılaraq onlar üçün müasir, hər cür şəraiti olan qaçqın şəhərcikləri və yaşayış komplekslərinin salınmasına başlandı. Artıq yüzdən çox bu tipli yeni yaşayış məskəni salınıb. Cənab İlham Əliyev prezidentliyinin ilk ilində tezliklə ölkədə bir dənə də olsun çadır şəhərciyinin qalmayacağını bəyan etdi. Dövlət başçısı öz vədinə vaxtından da tez əməl etdi.

"Azərbaycan" qəzeti üçün də doğma sayılan bu mövzu bir neçə aspektdən işıqlandırılır:

Prezident İlham Əliyevin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gördüyü işlər, görüş və danışıqlar;

Beynəlxalq qurum və təşkilatlarda Qarabağ probleminin müzakirəsi, qəbul edilən qərarlar;

ATƏT-in Minsk qrupunun fəaliyyəti;

Qaçqın və məcburi köçkünlərlə bağlı dövlət proqramlarının icrası;

Dövlət başçısının qaçqın və məcburi köçkünlərlə görüşü, bu mövzudakı nitq və çıxışlarının təbliği;

Yeni qaçqın şəhərciklərinin və yaşayış komplekslərinin istifadəyə verilməsi və s.

❖❖❖

Azərbaycanlıların soyqırımı da ölkənin bir nömrəli probleminə daxil olan mövzulardandır. Ulu öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci ildə verdiyi fərmandan sonra bu məsələ daim qəzetin diqqət mərkəzində dayanıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət!" kampaniyasına başlaması və onunla əlaqədar olaraq dünya ölkələrində görülən işlər, əldə olunan müsbət nəticələr mövzunun işıqlandırılmasına yeni impuls verdi.

Görülən işlərin təbliği, bu fəaliyyətlə məşğul olan insanlara ideoloji cəhətdən kömək göstərilməsi, onların dəqiq faktlarla təmin olunması üçün redaksiya tərəfindən 2012-ci ildə iki cilddən ibarət "AZƏRBAYCANLILARIN SOYQIRIMI: TARİXİN QANLI SALNAMƏSİ" və "XOCALI ŞAHİDLƏRİ DANIŞIR" adlı (2018-ci il) iki kitab da buraxılıb.

❖❖❖

Hazırda demokratik və sülhsevər Azərbaycanın dünyaya təqdiminin formalarından biri də idmandır. Cənab İlham Əliyevin müdrik və çoxcəhətli fəaliyyəti nəticəsində idman həm də

ölkəmizin müasir imicinin ştrixlərindən birinə çevrilib. Halbuki müstəqilliyin ilk illərində idman tamamilə unudulmuş, idman qurğuları və zalları dağıdılaraq sıradan çıxmış, respublika stadionu və velotrek isə "tolkuçka"ya çevrilmişdi.

Ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra bu sahədə də ciddi dönüş yarandı.

Cənab İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi isə Azərbaycan idmanına yeni həyat verdi, onun güclü yüksəlişinin əsası oldu. İlham Əliyev idman sahəsindəki səmərəli fəaliyyəti ilə özünün yüksək təşkilatçılıq bacarığını, xarizmasını ortaya qoydu. Gördüyü işlər, gənclərə göstərdiyi qayğı və diqqət ilə onların əsl dostu, hamisi olduğunu sübuta yetirdi. Azərbaycan idmançıları və Azərbaycan bayrağı altında çıxış edən digər idmançılar bu münasibətin nəticəsi olaraq qısa müddətdə görünməmiş uğurlara imza atdılar.

Deyilənləri qısa şəkildə rəqəmlərin dili ilə ifadə edək.

Son 6 olimpiya oyunlarında idmançılarımız həvəslə iştirak edərək müxtəlif növlər üzrə 44 medal qazanıblar. Bunlardan 7-si qızıl, 12-si gümüş, 25-i isə bürünc medaldır. Azərbaycan atletləri Pekin, London, Rio-de-Janeyroda keçirilən yarışlarda daha yüksək zirvələr fəth etdilər. Nüfuzlu beynəlxalq yarışlarda Azərbaycanın iştirakının və qazandığı nəticələrin ilbəil yaxşılaşması bu sahənin düzgün istiqamətdə inkişafına dəlalət edir. İlham Əliyevin rəhbərliyi dövründə idman kütləvi xarakter almış, gənclərin sevimli məşğuliyyətinə çevrilmişdir. İndiyədək ölkə üzrə 44 olimpiya idman kompleksi tikilmişdir. Son illər Bakıda ən yüksək beynəlxalq standartlara cavab verən 18 müasir idman arenası inşa olunmuşdur. Artıq Azərbaycan olimpiya, dünya, Avropa yarışlarının keçirildiyi ən əlverişli məkana çevrilmişdir. Fərəhli haldır ki, ilk Avropa Oyunlarının təşkili və keçirilməsi məhz Azərbaycana etibar edilmişdir. Mehriban xanım Əliyevanın rəhbərliyi və təşkilatçılığı ilə baş tutan I Avropa Oyunlarını yüksək standartlar əsasında keçirən Azərbaycan ona öz möhürünü vurmağa nail olmuşdur.

Üstəlik, Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının iştirak etdiyi bu yarışlarda 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medala sahib olduq. Bu həm də Azərbaycan idmanının Avropadakı yerindən və mövqeyindən xəbər verir. Bu sınaqdan sonra Azərbaycan dünyanın nüfuzlu idman yarışlarının keçirildiyi mərkəzə çevrildi. Artıq elə bir il yoxdur ki, ölkə paytaxtında bir neçə beynəlxalq yarış baş tutmasın. I Avropa Oyunlarından sonra Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarının təşkilatçılığını da öz üzərinə götürdü. Yenə ən yüksək göstəriciyə nail oldu: 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla, bütövlükdə, 162 medal qazanaraq birinci yerə sahib çıxdıq. Artıq dalbadal 3 ildir ki, yarım milyarddan çox tamaşaçısı olan "Formula-1" qran-pri yarışmaları da Azərbaycanda keçirilir.

Prezident İlham Əliyev idmana təkcə sağlamlıq mənbəyi, gənclərin asudə vaxtının səmərəli təşkili və pis vərdişlərdən uzaqlaşdırılması vasitəsi kimi baxmır. İdman dövlət siyasətinin bir hissəsi sayılır. Bu mənada "Azərbaycan" qəzeti də idmanın təbliğinə və keçirilən yarışların maraqlı formada işıqlandırılmasına xüsusi diqqət yetirir və geniş yer ayırır. 2013-cü ildə redaksiyamız Milli Olimpiya Komitəsinin yaranmasının 20-ci, Azərbaycanda Olimpiya hərəkatının İlham Əliyev dövrünün başlanmasının 15-ci ildönümü münasibətilə "AZƏRBAYCANDA OLİMPİYA HƏRƏKATI: DAİM YÜKSƏLİŞDƏ" adlı ikicildlik kitab nəşr etdirdi.

❖❖❖

Ulu öndər Heydər Əliyevin böyük müdriklik və uzaqgörənliklə söylədiyi "Azərbaycan dünyaya günəş kimi doğacaqdır" sözləri öz yerini tutmuşdur. İqtisadi sahədə qazandığı nailiyyətlərə görə Azərbaycan MDB məkanının liderləri sırasındadır. Dünyanın ən nüfuzlu beynəlxalq qurumları tərtib etdikləri reytinq cədvəllərində ölkəmizi öncül mövqelərdə yerləşdirirlər. Bütün bunlar müstəqilliyin qısa dövründə qazanılan qələbələrdir.

Azərbaycan dünyaya həm də nadir mədəniyyət nümunələri, mənəvi dəyərləri ilə çıxır. Qədim muğamlarımız, aşıq sənəti, tar ifaçılığı, Novruz bayramı UNESCO-nun Qeyri-maddi, Mədəni İrs Siyahısına daxil edilmişdir. Sülhün, sivilizasiyalararası dialoqun tərəfdarı kimi çıxış edən ölkəmiz hər il dünyanı düşündürən və narahat edən məsələlərlə bağlı humanitar forumların keçirilməsinin təşəbbüsçüsü və təşkilatçısı olur. Artıq Azərbaycan beynəlxalq humanitar tədbirlərin keçirildiyi mərkəz kimi də məşhurlaşmışdır.

Azərbaycanın multikulturalizm sahəsindəki nailiyyətləri bütün dünyada nümunə kimi öyrənilir, tədris edilir, sabitlik və əmin-amanlıq amili kimi bəşəriyyətə öz töhfəsini verir.

❖❖❖

Sülhün, əməkdaşlığın və dinc yanaşı yaşamağın carçısı olsaq da, ordunun qüdrətlənməsi daim diqqət mərkəzində saxlanılır. Ermənistan kreativ danışıqlardan boyun qaçırır, torpaqlarımızı işğalda saxlamağı davam etdirir. Ali Baş Komandan İlham Əliyev isə qətiyyətli mövqeyində israrlı olduğunu daim bəyan edir: "Azərbaycan bir qarış torpağını da heç kimə güzəştə getməyəcək, öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!" Bu mövqe hərbi sahədə də təsdiqini tapır. 2016-cı ilin aprel ayında düşmən təxribatına əkshəmlə ilə cavab verən ordumuz, Lələtəpə yüksəkliyi də daxil olmaqla, 2 min hektar torpağı işğaldan azad etdi, bir o qədər ərazini də nəzarət altına aldı. Cənab İlham Əliyevin göstərişi əsasında Cocuq Mərcanlı kəndi qısa müddətdə yenidən bərpa edildi, abadlaşdırıldı, yeni yol çəkildi, sakinləri geri qaytarılaraq təsərrüfat işləri ilə məşğul olmağa başladılar. Bu il isə Naxçıvan Əlahiddə Qoşun Birləşmələrinin qəfləti və uğurlu əməliyyatı nəticəsində bir çox strateji yüksəkliklər, habelə Günnüt kəndi, bütövlükdə isə on bir min hektar ərazi geri qaytarıldı. Bütün dünya sülhpərvər Azərbaycanın hərbi qüdrətinin şahidi oldu! Bu mövzuda qürur və iftixarla yazan "Azərbaycan" Dövlətqaçqınkomla birlikdə "İLHAM ƏLİYEV BİZİ COCUQ MƏRCANLIYA QAYTARDI" adlı yeni kitabını nəşr etdirdi.

Bütövlükdə son 15 ildə "Azərbaycan" qəzeti redaksiyası tərəfindən 14 adda 19 cilddə (kitablardan beşi ikicildlikdir) kitab buraxılmışdır. Onların siyahısını təqdim edirik:

1. *"Heydər Əliyev dünyanın gözü ilə". Bakı – 2003*
2. *"Heydər Əliyev mənim həyatımda". Bakı – 2005*
3. *"Vətəndaş cəmiyyətinə yol açan ideyalar". Bakı – 2006*
4. *"Yeni siyasət: inkişafa doğru" (ikicildlik). Bakı – 2008*
5. *"Azərbaycan"–90". Bakı – 2008*
6. *"İctimai və humanitar elmlər: zaman kontekstində baxış". Bakı – 2010*
7. *"İnkişafın Azərbaycan modeli". Bakı – 2010*

*8. "Müasir Azərbaycan dövrün baxışında" (ikicildlik). Bakı – 2011*
*9. "Vəkil məsləhətləri toplusu". Bakı – 2012*
*10. "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" (ikicildlik). Bakı – 2012*
*11. "Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" (ikicildlik). Bakı – 2013*
*12. "Heydər Əliyev mənim həyatımda" (ikicildlik). Bakı – 2013*
*13. "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı". Bakı – 2017*
*14. "Xocalı şahidləri danışır". Bakı – 2018*

Hazırda həftə içi hər gün Azərbaycan dilində nəşr edilərək bütün ölkə ərazisində yayılan "Azərbaycan" qəzeti multimedia texnologiyalarının inkişafı sahəsində əldə olunmuş ən son nailiyyətlərdən səmərəli şəkildə faydalanır. Qəzetin redaksiyası tam kompüterləşdirilərək elektron sistemə keçmiş, redaksiyanın qlobal informasiya şəbəkəsinə – internetə çıxışı, nüsxələrin rəngli çapı təmin edilmişdir. Beləliklə, "Azərbaycan" qəzetinin geniş oxucu auditoriyası bütün dünyanı əhatə edir, qəzetin ölkəmizin beş regionunda müxbiri çalışır. Yaradıcı heyət əsas etibarilə ali jurnalist təhsilli peşəkarlardan ibarətdir. Ölkəmizdə ilk dəfə "Azərbaycan" qəzeti redaksiyası nəzdində "Heydər Əliyev və Azərbaycan mətbuatı" muzeyi yaradılmışdır. Qəzet 1 avqust 2001-ci ildən tam latın qrafikalı Azərbaycan əlifbasına və çoxsəhifəli nömrələrə keçib. 9 oktyabr 2008-ci ildən rəngli çapı təmin edilib.

Dövlət müstəqilliyinin atributu, yadigarı, həmyaşıdı və tərənnümçüsü olan "Azərbaycan"ın 100 yaşı tamam olur. Bu münasibətlə qəzetimizin bütün oxucularını, Azərbaycan xalqını ürəkdən təbrik edir, səhifələrimizdən daim xoş xəbərlər, xalqımızın və dövlətimizin yeni nailiyyətləri barədə bol-bol materiallar oxumalarını arzu edirik!

# Azərbaycanın
# "Azərbaycan"ı

# İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

***1918-ci ilin 28 mayı Azərbaycan tarixinin dan yeridir. Həmin gün qaranlıqlar söküldü və Azərbaycan Xalq Cümhuriyyəti adlı bir günəş parladı. Bu millət uzun illərdir o işığa həsrət, o aydınlığa təşnəydi. Azadlığını, dövlətinin müstəqilliyini əlindən alanlar, məmləkətini işğal edərək torpaqları ilə bərabər ürəyini də ikiyə bölənlər bəsirət gözünü bağlamaq, tərəqqiyə aparan yolunu zülmətə boyamaq, arzularını, ümidlərini qaraltmaq üçün illərdir səylərini əsirgəmirdilər.***

## Düşmənləri amansız vətən...

Bu millətin azadlıq işığını söndürmək istəyənlər çox oldu. Torpaqlarını işğal etmək, müstəmləkə boyunduruğuna salmaq üçün tarixin ayrı-ayrı dönəmlərində amansız müharibələr baş verdi. Azərbaycana zaman-zaman dəhşətli faciələr yaşatdılar. XIX əsrin əvvəllərində Rusiya–İran müharibələrinin ən böyük ağrısını da bu millətə çəkdirdilər. İmzaladıqları iki müqavilə – 1813-cü ilin "Gülüstan", 1828-ci ilin "Türkmənçay" müqavilələri ilə Azərbaycan xalqının ayrılıq hökmünü verdilər. Məmləkətimizi böldülər, şimal hissəsinə Rusiya, cənubuna İran sahibləndi. Müstəmləkə buxovu vurub tərəqqi yollarını da ləngitdilər. Ancaq bu millətin gözünün odunu almaq, əsarətə boyun əydirmək asan olmadı. Azərbaycanda milli kimlik, milli özünüdərk hisləri getdikcə gücləndi.

Sıraları genişlənən Azərbaycan ziyalıları da mübarizələrini ilk vaxtlarda, əsasən maarifin, təhsilin, elmin, səhiyyənin, ədəbiyyatın, mətbuatın... inkişafı uğrunda çalışmaları ilə ifadə edirdilər. Onlar əmin idilər ki, soydaşlarının böyük əksəriyyətinin başına gətirilən bəlaların mahiyyətinə varmaq iqtidarında belə olmamasının, səfalətə sürüklənməsinin, əsarətə boyun əyməsinin başlıca səbəblərindən biri cahillikdir. Odur ki, millətdaşlarının öz hüquqlarını, haqlarını tələb edəcək səviyyəyə çatmaları üçün savadlanmalarını ön plana çəkirdilər. Buna görə Azərbaycan ziyalıları yeni üsullu, dünyəvi elmlərin tədris olunduğu məktəblərin açılması üçün xüsusi fəallıq göstərirdilər. Amma millət övladlarının maariflənməsi, gözlərinin açılaraq yaxşını pisdən ayırması yolunda digər vasitələrin də əhəmiyyəti unudulmurdu. Mətbuat orqanlarının yaradılması, kitabxanaların, qiraətxanaların, mətbəələrin açılması kimi mühüm işlər planlaşdırılır, çarizmin müvafiq idarələrinə müraciətlər edilirdi.

Böyük əraziləri zəbt etmiş çar Rusiyasının müstəmləkəsi altında olan ölkələrə ögey münasibəti göz önündə idi. Bu da aşkar idi ki, dili, dini ayrı millətlər daha çox haqsızlıqla üzləşir, tərəqqisinə maneələr yaradılırdı. Ancaq çar üsuli-idarəsindən narazı qalanlar yalnız müstəmləkə ölkələrinin əhalisi deyildi. Hələ 1825-ci ilin 14 dekabrında Rusiyada tarixə Dekabristlər üsyanı kimi daxil olmuş inqilabi hərəkat baş vermişdi. Böyük Fransa inqilabından təsirlənmiş gənc hərbçilər o zaman taxta çıxan I Nikolaya and içmədilər.

Üsyançılar təhkimçiliyin ləğvini, mütləqiyyətin devrilməsini, yaxud məhdudlaşdırılmasını, respublika və konstitusiyalı quruluşun bərqərar olunmasını tələb edirdilər.

Üsyan yatırıldı. Çarizm məğlub etdiyi dekabristlərə qarşı amansız oldu, bəziləri edama, bəziləri Sibirə, bəziləri isə Qafqaza sürgünə məhkum edildi. Qafqaza göndərilən gənc inqilabçılar yerli əhali ilə dostlaşdı. Burada ictimai-siyasi düşüncənin formalaşmasında onların əhəmiyyətli təsiri oldu.

Rusiyada təhkimçilik hüququ 1861-ci ildə ləğv edildi. Azərbaycanda isə 1870-ci il 14 may tarixli "əsasnamə"yə əsasən təhkimçilik hüququ ləğv olundu. Çar Rusiyası bundan sonra əyalətlərdə istibdadı davam etdirmək üçün yeni vasitələrə əl atdı. Azərbaycan ziyalıları ruhdan düşmədilər, uzun illər mübarizələrini müxtəlif formalarda davam etdirdilər.

XX əsr təlatümlərlə gəldi. Əsrin ilk illərindən inqilablar, müharibələr, xalqların milli azadlıq hərəkatları gücləndi. Əsrin əvvəllərində çarizmin zülmlərinə qarşı çıxan və qurtuluş yolu axtaran qruplar və təşkilatlar yaranmağa başladı. Müstəmləkə ölkələrinə xas olaraq çar Rusiyasının ərazilərində də sinfi mübarizə deyil, milli azadlıq mübarizəsi önə çıxdı. Milli azadlıq hərəkatı haqsızlıqlara, zülmlərə məruz qalan, ədalətsizliklərlə üzləşən millətin ictimai-siyasi, mədəni hərəkatının başlıca qayəsi oldu. 1902-ci ildə 17 yaşlı Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycanda rus müstəmləkəsinə qarşı mübarizə aparan ilk siyasi təşkilat – "Müsəlman gənclik təşkilatı" yarandı. Bu təşkilatdan sonra qısa müddətdə milli zülmdən qurtuluş digər partiyaların da əsas şüarına çevrildi. Azərbaycanda müxtəlif ideya istiqamətinə malik partiyaların sayı artmağa başladı. 1911-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ideya-siyasi istiqamətini müəyyənləşdirən "Müsavat" partiyası yarandı. Ölkəsinin, millətinin azadlığını özünə şüar edən bu partiya 1918-ci ilin 28 mayınadək Azərbaycanda muxtariyyət uğrunda ardıcıl siyasət yürütdü.

1917-ci ilin fevral inqilabı Azərbaycan xalqının da azadlıq mübarizəsində mühüm rol oynadı. Üç yüz illik Romanovlar sülaləsi taxt-tacdan məhrum edildikdən sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssislər Məclisinə seçkilər keçirdi. Siyasi çarpışmaların davam etdiyi günlərdə Müvəqqəti hökumət də uzun müddət qərar tuta bilmədi. 1917-ci il oktyabrda yenidən hakimiyyət çevrilişi baş verdi.

Bu inqilablar çarizmin əsarətindən qurtulan millətlərə müstəqilliklərini qazanmaq imkanı yaratdı. Amma bolşevik Rusiyası da gözlərini Azərbaycandan çəkmədi. Leninin rəhbərlik etdiyi bolşevik hökuməti Bakı neftini əldən vermək fikrində deyildi. Azərbaycanın müstəqilliyini bərpa etməsinin qarşısını almaq üçün bu dəfə də bolşevik Rusiyası ermənilərlə razılığa gəldi. Məkrli planlar quruldu. Birinci Dünya müharibəsində döyüşmüş, kifayət qədər peşəkar hərbçilər Azərbaycana yönəldildi. 1918-ci ilin əvvəllərində artıq Bakıda bolşevik-daşnak birləşmələrindən ibarət çox güclü silahlı dəstələr var idi.

Oktyabr inqilabından sonra Rusiyaya gedə bilməyən, Cənubi Qafqazdan Ümumrusiya parlamentinə – Müəssislər Məclisinə seçilmiş azərbaycanlı, gürcü və erməni deputatlar 1918-ci il fevralın 14-də Tiflisə yığışdılar. Birlikdə Cənubi Qafqaz (Zaqafqaziya) Seymini yaratdılar.

## Böyük yolun zirvəsi – Azərbaycan Xalq Cümhuriyyəti

Qabaqcıl övladlarının Azərbaycanın azadlığını rəsmiləşdirmək uğrunda mübarizə apardıqları mürəkkəb, ziddiyyətli günlərdə düşmən də boş oturmamışdı. Lenin tərəfindən Qafqaza fövqəladə komissar kimi göndərilən Stepan Şaumyanın başçılığı ilə güclü qüvvəyə çevrilmiş daş-

nak-bolşevik birləşmələri 1918-ci ilin yanvarından hücuma hazır idilər. Əlverişli fürsətin yarandığını düşündükləri anda ilk atəşi açdılar. Həmin günün səhəri – martın 31-dən Bakıda azərbaycanlılara qarşı soyqırımına başladılar. Şəhəri taladılar, yerli əhalidən rastlarına çıxanları işgəncələr verərək şəhid etdilər, sağ qalanlar canlarını götürüb qaçdılar. Bakını işğal etdilər. Bakı Xalq Komissarları Soveti hakimiyyəti ələ aldı. Ancaq Şaumyanın rəhbərliyi ilə qətllər, qarətlər bundan sonra da davam etdirildi.

Bakıda milli qırğınlardan sonra azğınlaşmış daşnak-bolşevik birləşmələri Azərbaycanın müxtəlif bölgələrində yerli əhalini qırmağa başladılar...

Aprelin 22-də Zaqafqaziya Seyminin deputatları Zaqafqaziya Demokratik Federativ Respublikasının yarandığını elan etdilər. Bir ay sonra federasiya dağıldı. Mayın 26-da Tiflisdə Zaqafqaziya Seyminin son iclası oldu. Zaqafqaziya Seyminin süqutunun səhəri günü – mayın 27-də qurumun azərbaycanlı deputatları fövqəladə iclas keçirərək Azərbaycanın müvəqqəti Milli Şurasını yaratdılar. Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə, müavini Həsən bəy Ağayev, katibi Mustafa Mahmudov, İcraiyyə Komitəsinin (hökumətin) sədri isə Fətəli xan Xoyski seçildi.

Milli Şura Tiflis şəhərində, Qafqaz Canişin sarayının ikinci mərtəbəsindəki böyük salonda 1918-ci ilin 28 mayında ilk iclasını keçirdi. İclasda Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan olundu, Azərbaycanın 6 bənddən ibarət "İstiqlal Bəyannaməsi" imzalandı.

Milli demokratik qüvvələr çətin bir zamanda Azərbaycanın dövlət müstəqilliyinə nail oldular. Azərbaycan Xalq Cümhuriyyəti millətin çox ağır günlərində dərdlərinə çarə, yaralarına məlhəm kimi gəldi. Tarixin qarışıq zamanında xilaskar kimi yetişdi. Dövr o qədər təlatümlü idi ki, yeni respublika paytaxtı olmalı şəhərdə – Bakıda deyil, Tiflisdə öz varlığını bəyan edə bildi. 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurasının üzvləri və Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Cümhuriyyət hökumətinin yaradıcıları böyük coşqu ilə illərdir qurduqları xəyallarını gerçəkləşdirməyə, ən ülvi arzularını həyata keçirməyə başladılar.

1918-ci ilin qanlı-qadalı hadisələri isə davam edirdi. Daşnak-bolşevik birləşmələrinin Azərbaycanın ayrı-ayrı yerlərində törətdikləri vəhşiliklərin acı nəticələri göz önündəydi. İşgəncələr görən, doğmaları gözlərinin qabağında əzabla qətlə yetirilən, evləri başlarına uçurulan, ocaqları söndürülən azərbaycanlılar bir tərəfdən də aclıqla, yoxsulluqla imtahana çəkilmişdilər.

Bakı Kommunası 1918-ci il 31 iyulda səlahiyyəti öz üzərindən götürdükdən sonra Bakıda əksinqilabçı Sentrokaspi diktaturası yaradıldı. Bolşevizm pərdəsi altında Azərbaycan xalqına qarşı soyqırımına bundan sonra da son qoyulmadı...

## "Azərbaycan" qəzetinin yaranmasını zəruri edən səbəblər

Yox yerdən dövlət quranlar onu qoruyub yaşadacaqlarına sonsuz ümid bəsləyərək, bütün sahələrdə əzmlə işə başlamışdılar. Həyata keçiriləcək mühüm tədbirlərdən biri də mətbuatın inkişaf etdirilməsi idi. Cümhuriyyət qurucularının əksəriyyəti çox gənc yaşlarından həm də publisist kimi fəaliyyət göstərirdi. Onlar mətbuatın mütərəqqi fikirləri ifadə etmək, milləti tərəqqiyə çatdıracaq yola səsləmək, düşmənlərinə iradələrini göstərmək üçün ən gərəkli vasitə, mötəbər tribuna olduğunu yaxşı bilirdilər. Odur ki, qarşılarına qoyduqları vacib məsələlərdən biri də hökumətin siyasi kursunu xalqa izah edən mətbuat orqanı yaratmaq idi.

Azərbaycan Xalq Cümhuriyyətinin bəlkə də ən çox bu məsələdə bəxti gətirmişdi. Mətbuat sahəsində, necə deyərlər, əliyalın, təcrübəsiz deyildi. İlk milli qəzetimizdən – "Əkinçi"dən başlayan, "Ziya" və "Ziyayi-Qafqasiyyə"dən, "Kəşkül"dən, "Şərqi-Rus"dan, "Molla Nəsrəd-

din"dən, "Həyat"dan, "İrşad"dan, "Füyuzat"dan, "Tərəqqi"dən, "Kaspi"dən, "İqbal"dan, "Açıq söz"dən, "Dirilik"dən, "Təkamül"dən... və daha neçə-neçə mətbuat orqanından keçib gələn yol onun idi. Daha doğrusu, Azərbaycan Xalq Cümhuriyyəti o yolun yetişdiyi zirvə idi. Həmin qəzet və jurnalların nəşrinə əzab-əziyyətlərlə nail olanların əksəriyyəti sözlə silahlanaraq millətin istiqbalı naminə döyüşmüşdülər. Azərbaycanın müstəqillik ideyasını ən böyük idealları, ən müqəddəs amalları kimi qəlblərində daşımışdılar. Onlar milləti oyatmaq, ona milli kimliyini xatırlatmaq, dünyanın inkişaf etmiş ölkələrinin vətəndaşları ilə eyni cərgədə addımlamaq naminə çalışdılar. Bunun üçün Həsən bəy Zərdabi, Hacı Səid, Cəlal və Kamal Ünsizadə qardaşları, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Haşım bəy Vəzirov, Nəriman Nərimanov, Sultan Məcid Qənizadə və başqa təəssübkeş övladları uzun illər qələmin qüdrətindən, sözün gücündən istifadə etdilər. Onlar öz yazılarında hər zaman tarixlə müasirliyi tutuşdurur, yatmış vulkan kimi susqun görünən doğma millətin azadlıq duyğusunu, milli düşüncəsini oyatmağa çalışırdılar. Keçmişini xatırladır, ancaq öyərək, "qəhrəmansan" deyib onu arxayınlaşdırmırdılar. Milləti öz tarixindən öyrənməyə, qürurverici səhifələrindən dərs almağa, yanlışlıqlarından və başına gətirilən müsibətlərdən nəticə çıxarmağa, sükunətdən, ətalətdən qurtularaq sabahına doğru əmin addımlarla irəliləməyə səsləyirdilər.

Dövlətin istiqlalını müdafiə etmək, qorumaq, yaşatmaq üçün zəruri olan bütün addımlar atılırdı. Gəncədə fəaliyyətə başlayan cümhuriyyət hökuməti ən gərgin günlərində siyasətini vətəndaşlarına izah edən mətbu orqan yaratmağı vacib məsələlərdən biri kimi qarşıya qoydu.

1918-ci ilin 25 iyununda yeni qəzetin büdcəsini tərtib etmək, hökumətin təsdiqinə göndərmək, Gəncədəki mətbəəni bu nəşrin çapına hazırlamaq üçün müvafiq tapşırıq verildi. Tiflisdən mətbəə ləvazimatı almaq nəzərdə tutuldu. Yeni formalaşan hökumət 1918-ci il iyulun 3-də "Azərbaycan Cümhuriyyəti hökuməti xəbərləri"nin nəşrinə başlamaq qərarını qəbul etdi. "Hökumət xəbərləri" həftədə iki dəfə buraxılmalı, əsasən milli hökumətin, ayrı-ayrı nazirliklərin qərarları, təlimatları, xəbərləri, elanları və digər məlumatları dərc etməli idi. Avadanlıqlarla təmin olunma ərzaq nazirinə tapşırıldı. "Hökumət xəbərləri"nə rəhbərlik isə 27 iyul tarixli qərarla xalq maarif nazirinə həvalə edildi. Ancaq bu da qaneedici olmadı. Maddi çətinliklərə baxmayaraq, hökumət sentyabrın əvvəllərində Gəncədə "Azərbaycan" adlı qəzetin nəşrinə başlamaq barədə tarixi qərar qəbul etdi.

## Mətbuatımızda "Azərbaycan" adı...

Hər bir mətbuat orqanının ilk uğuru ona uyğun ad seçimindən başlayır. "Azərbaycan" adı ilə qəzet, jurnal nəşr etmək isə uzun illərin arzusuydu. Hələ 1891-ci ildə "Kəşkül" bağlandıqdan iki ay sonra Ünsizadə qardaşları – əvvəlcə Cəlal, sonra Kamal bu adda qəzetin nəşrinə icazə almaq məqsədilə baş mətbuat idarəsinə müraciət etdilər və rədd cavabı aldılar.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalının təsiri ilə Təbrizdə "Azərbaycan" adlı satirik jurnal fəaliyyətə başladı. 1918-ci ildə isə Bakıda İran demokratlarının "Azərbaycan" adlı qəzeti nəşr olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin, eləcə də mətbuat tariximizin ilk rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın birinci nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə şəhərindəki Yelizavetpol qubernatorunun mətbəəsində işıq üzü gördü. Azərbaycan dilində buraxılmış səhifələrin başında qəzetin adı ilə yanaşı, "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" yazıldı.

"Rəsmi dövlət qəzetəsi" qeydi olmasa da, hökumət başçısının təşəbbüsü və dəstəyi ilə yaranan, dövlət tərəfindən maliyyələşən "Azərbaycan" bu vəzifəni uğurla yerinə yetirirdi. Onun məsuliyyəti böyük idi! Bir millətin qürurverici tarixinə sadəcə yol yoldaşı olmayacaqdı. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyətinin ən mötəbər tribunalarından birinə çevriləcəkdi. Səhifələrindən cümhuriyyət hökuməti öz vətəndaşlarına müraciətlərini ünvanlayacaq, dostlarına, düşmənlərinə mövqeyini nümayiş etdirəcəkdi. Belə müqəddəs vəzifəni daşımaq üçün yaradılan qəzet üçün ən münasib, ən doğru ad elə "Azərbaycan" idi!

Qəzetin ilk nömrəsi A-3 formatda, dörd səhifə həcmində, iki dildə çıxdı. İki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində oldu. Rusca nəşri xırda istisnalarla azərbaycancanın tərcüməsi idi.

"Azərbaycan" qəzeti ölkəsinə qələbə xəbəri ilə gəldi. Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimiz Bakını bolşevik-daşnak işğalından azad edərək qalibiyyətlə şəhərə daxil olmuşdular. Qəzetin birinci nömrəsini bu möhtəşəm günə həsr olunmuş xəbərlər, təbrik teleqramları bəzədi. "Bakının süqutu" adlı məqalədə yazılırdı: "Bakının süqutu. Dün gecə Azərbaycan Cümhuriyyəti Riyasəti namına Nuri paşa həzrətləri tərəfindən böylə teleqraf keşidə edilmişdir: "Bismihil-kərim, Bakı şəhəri 15.9.34 saət 9 əvvəldə qitaətimiz tərəfindən zəbt olundu. Qafqaz İslam Ordusu komandanı Farik Nuri".

Qürurverici, sevinc dolu xəbərlər ard-arda gəlirdi. Nuru paşa sentyabrın 15-də Gəncəyə göndərdiyi növbəti teleqramda Azərbaycan hökumətini Bakıya dəvət edirdi: "Gəncədə Azərbaycan Cümhuriyyəti Rəyasəti-Alisinə. Azərbaycan Cümhuriyyətinin paytaxtı olan Bakı şəhərini ziyarət etmək üzrə Heyəti-Vükəlanın yarın Bakıya təşriflərinə müntəzirəm, əfəndim. 15.09.18. Yavərani-həzrəti-şəhriyaridən. Farik Nuri".

Azərbaycan Xalq Cümhuriyyəti Heyəti-Vükəla (Nazirlər Şurası) rəisi Fətəli xan Xoyskinin cavab teleqramında isə yazılırdı: "Qafqaz İslam Ordusu komandanı səadətli Nuri paşa həzrətlərinə. Təhti-komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşməndən xilas edildiyi münasibətilə millətin zati-həmiyyətpərvəranələrinizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğunu ərz etməklə iftixar edərim, əfəndim. Heyəti-Vükəla rəisi Fətəli xan".

"Azərbaycan" qəzeti hökumət üzvlərinin sentyabrın 17-də qatarla Gəncədən Bakıya yola düşdüklərini yazdı. Kişi gimnaziyasının qarşısında onları gənc vətənpərvərlər alqışlarla qarşılamışdılar. Paytaxtın qəhrəman əsgərlər tərəfindən azad olunması münasibətilə keçirilən bu izdihamlı nümayişdə Fətəli xan Xoyski təbrik nitqi söyləmişdi.

Qəzet ilk nömrəsində xəbər verirdi ki, Qafqaz İslam Ordusu Bakını azad edərkən 30 minədək silahlı düşmən əsir alınmış, şəhərdə sakitlik bərqərar olmuşdur. Həmin nömrədə dövrün məşhur şairi Məhəmməd Hadi "Türk nəğməsi" adlı şeirində türk əsgərinin qəhrəmanlığını belə vəsf edirdi:

*Türkün tökülən qanları bihudə gedərmi?*
*Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?*
*Dörd ildə verilmiş bu qədər can hədər olmaz,*
*Məfkurə yolunda tökülən qan hədər olmaz*
*Qiymətli olan xuni-şəhidan hədər olmaz,*
*Dul qalmış köhəni-nisvan hədər olmaz.*

*Bax sən sonuna, hümməti-türkan hədər olmaz,*
*Bədbəxt olan əfqani-yetiman hədər olmaz.*
*Türkün tökülən qanları bihudə gedərmi?*
*Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?*

## "Azərbaycan" qəzetinin Gəncə dövrü

Gəncə şəhəri, Bulatov küçəsindəki 26 nömrəli ev... "Azərbaycan" qəzeti redaksiyasının ilk ünvanı... Müstəqil Azərbaycanın birinci rəsmi qəzetində yer alan materialların qayğısı, mürəttib çatışmazlığı, kağız və şrift qıtlığı ilə bağlı çətinliklər bu evdə yaşanırdı. Əslində, hökumət idarələri kimi, "Azərbaycan" da bu ünvanda qonaq idi. Qəzetin rus dilində sentyabrın 19-da çapdan çıxan ikinci nömrəsində yazılırdı: "Hökumət idarələri hələlik Gəncədə fəaliyyət göstərir. Bu günlərdə hökumət ilk imkan düşən kimi mərkəzi idarələri Bakıya köçürəcəkdir".

"Azərbaycan"ın üçüncü nömrəsi sentyabrın 22-də, dördüncü nömrəsi isə sentyabrın 25-də çapdan çıxdı. Dörd səhifəlik, üç səhifəsi rus, bir səhifəsi Azərbaycan dilində olan dördüncü buraxılışda "Azərbaycan" qəzetinin Bakıya köçməsi barədə elan verildi. Qəzetdə rus dilində "Gəncə, 25 sentyabr 1918" sərlövhəli yazıda məlum edilirdi ki, Azərbaycan hökuməti 3 aylıq fəaliyyətdən sonra Gəncəni tərk edərək öz paytaxtına köçdü. Məqalədə Gəncənin Azərbaycan dövlətçiliyi tarixində əhəmiyyətli yer tutduğu da xatırlanırdı. "Azərbaycan"ın həmin nömrəsində "İdarədən" verilən xəbərdə bildirilirdi: "Qəzetimiz bu gündən Bakıya köçdüyünə binaən hər bir sifarişat üçün bundan sonra bu ünvana müraciət etməli: Bakı, "Azərbaycan" qəzeti idarəsinə".

"Azərbaycan"ın on günlük Gəncə dövrü bitdi... 1918-ci il sentyabrın 25-də "Azərbaycan" qəzetinin heyəti-idarəsi (redaksiya heyəti) Nazirlər Şurası və mühüm dövlət idarələri ilə birlikdə Bakıya köçdü.

## "Azərbaycan" qəzetinin Bakı dövrü

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Heyəti-Vükəla "Metropol" mehmanxanasında (indiki AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində) yerləşdi. Həmin binanın qarşısındakı – Kolyubakinski (indiki Nigar Rəfibəyli) küçəsindəki Adamovlara məxsus yaşayış binası isə "Azərbaycan" qəzetinin yeni ünvanı oldu.

Qəzetin ana dilində 5-ci nömrəsi 1918-ci il oktyabrın 3-də "Heyəti-təhririyyə" imzası ilə 4 səhifə olmaqla Bakıda işıq üzü gördü. İlk dəfə həmin nömrədə "Azərbaycan" adının altında "Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir" yazıldı. Nömrənin ilk səhifəsində "Hökumət qərardadı", maliyyə naziri Ə.Əmircanovun "Elanı", Heyəti-Vükəla rəisi F.X.Xoyskinin, ticarət və sənaye naziri A.Aşurbəyovun "Azərbaycan Cümhuriyyətindən əhalinin nəzərinə" sərlövhəli 1 oktyabr 1918-ci il tarixli müraciəti dərc olundu. Müraciətdə "Azərbaycan Cümhuriyyəti ümum Bakıdakı mədənlərdə və fabriklərdə işləyən fəhlələr bu gündən işlərinə şüru etməgə dəvət" edilirdi. Çünki Bakı artıq dinc həyatına qovuşmuşdu. Bütün sahələrdə – iqtisadi, sosial, mədəni sahələrdə işlər canlanmağa başlamışdı.

Bakının azad edildiyi gün Məhəmməd Əmin Rəsulzadə Avropa dövlətlərinin iştirakı ilə İstanbulda keçirilən konfransda Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinə başçılıq edirdi. Buna görə onun Fətəli xan Xoyskiyə göndərdiyi təbrik teleqramı bir az gec – "Azərbay-

can" qəzetinin 5-ci sayında yer aldı. Teleqramda deyilirdi: "Paytaxtımızın istirdadından dolayı təhti-idareyi-alilərində bulunan hökumətimizi səmimi təbrik ilə Bakının yeni türk ellərini istixlas (xilası) üçün sarsılmaz bir qəleyi-mətin olması ümidilə bütün arkadaşlarımla öpüşürüz.

Azərbaycan heyəti-mürəxxəsəsi namına Rəsulzadə Məhəmməd Əmin".

Həmin nömrədə "C.Dağıstani" imzalı, "Tarixi gün" sərlövhəli məqaləsində Ceyhun bəy Hacıbəyli Bakının erməni-bolşevik işğalından azad olunmasından bəhs edirdi: "8 zilhiccə – 15 eylülün bütün türk və İslam aləminin ən səadətli, ən şövkətli günlərində nədd olunacağı şübhəsizdir.

Haman gün türk və İslam tarixinə zərin bir səhifə işğal edəcəkdir.

...Bismihil-kərim, düşmənlər öz maraqlarına yetmədilər, məyus oldular. Türkün qəhrəman oğulları öz istedadlarını, öz rəşadətlərini, özlərinin yaşamaq üçün ölməyə hazır olmalarını bütün aləmin gözünə çırpdılar və bununla böylə, yüzillərcə başqalarının təhti-təzyiqində əzilən milyonlarca dindaş və millətdaşlarımıza böyük-böyük ümidlər bəxş etdilər".

Qəzetdə elan verilmişdi: "Sabiqdə Gəncədə rus dilində nəşr olunan "Azərbaycan" qəzetəsi şənbə günündən etibarən Bakıda nəşr olunmağa başlayacaqdır. Ünvan: Bakı, Kolyubakinski küçədə "Azərbaycan" idarəsi".

"Azərbaycan" öz vədinə sadiq qaldı və oktyabrın 7-də Bakıda rus dilində ilk nəşrini oxuculara təqdim etdi.

Bakıdakı ilk ünvanında "Azərbaycan" qəzetinin redaksiyası 1918-ci ilin 3 oktyabrından 28 noyabrınadək fəaliyyət göstərdi. Qəzetin 29-cu nömrəsindən isə ünvan belə qeyd olundu: "Məhəlli-idarə: Bakı, Voronsovski və Qubernski küçələrinin küncündə 4 nömrəli evdə. "Azərbaycan" idarəsi" (indiki İslam Səfərli ilə Nizami küçələrinin kəsişməsində yerləşən, 1867-1895-ci illərdə milyonçu Mantaşevin sifarişi ilə İtaliya memarlıq üslubunu özündə yaşadan üçmərtəbəli yaşayış binası).

Altıncı nömrəsinədək qəzet "Heyəti-təhririyyə" (redaksiya heyəti) imzası ilə çıxdı. Noyabrın 28-dən Azərbaycan dilində olan nömrələr Ceyhun bəy Hacıbəylinin, rus dilində olan nömrələr Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə təqdim olundu. Azərbaycan və rus dillərində nəşrlərdə bir-birindən tərcümə deyil, fərqli materiallar verilirdi.

1918-ci il dekabrın 31-dək qəzetin ana dilində 75, rusca 70 nömrəsi işıq üzü gördü. "Azərbaycan" qəzeti adını daşıdığı müstəqil Cümhuriyyət dövləti ilə birlikdə ümid dolu yeni ilə – 1919-cu ilə qədəm qoydu...

## "Bir gözəl sevdim ki, vətən dedilər!"

"Azərbaycan" XX əsrin əvvəllərində fəaliyyət göstərmiş mətbuat orqanları – "Həyat", "İrşad", "Füyuzat" və onların ardıcılları kimi "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideallarını uca tuturdu.

Qəzetin səhifələrində yer verilən yazılarda əsasən azadlıq, istiqlal arzuları ifadə olunurdu. "Azərbaycan"ın təqdim etdiyi poeziya nümunələrində sevgili deyə vəsf edilən gözəl belə daha çox vətənin özü idi. Qəzetin 25 fevral 1920-ci il tarixli sayında türkiyəli şair Feyzulla Sacidin yazdığı kimi:

*Sevilən gözəllər gözəl deyildir,*
*Bir gözəl sevdim ki, vətən dedilər!*

**1918-ci il dekabrın 7-si Azərbaycan Cümhuriyyəti Parlamentinin açılış günü olub. Bu münasibətlə həmin tarixi gündə "Azərbaycan" qəzeti xüsusi nömrə buraxmışdır. Həmin nömrəni olduğu kimi latın qrafikası ilə oxuculara təqdim edirik.**

Şənbə 2 rəbiül-əvvəl sənə 1337. | Birinci sənə dəvamiyyəsi | 7 kanuni-əvvəl 1918 sənə | № 58

Türk və İslamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin ediyor.

**ABUNƏ ŞƏRAİTİ:**
Yanvarın 1-dək Bakı üçün 24, başqa şəhərlərə 35 rüblədir. 1 aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rüblədir.

**MƏHƏLLİ-İDARƏ:**
Bakı, Voronsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə
**"Azərbaycan" idarəsi**
**Telefon nömrə 60-39**
**Tək nüsxəsi 70 qəpik.**

**ELAN FİYATI:**
Sətri 3 rüblə, kərratla gedən elanlar üçün güzəşt edilir.

گوندەلك سياسى، اجتماعى، ادبى، اقتصادى تورك غزتەسيدر.

# AZƏRBAYCAN

**Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir.**

***1918-ci il dekabrın 7-si Azərbaycan Cümhuriyyəti Parlamentinin açılış günü olub. Bu münasibətlə həmin tarixi gündə "Azərbaycan" qəzeti xüsusi nömrə buraxmışdır. Parlamentin fəaliyyətə başlamasının 95 illiyi ilə əlaqədar 1918-ci il 7 dekabr tarixli "Azərbaycan" qəzetini olduğu kimi latın qrafikası ilə oxuculara təqdim edirik.***

## "Azərbaycan" heyəti-təhririyyəsi Məclisi-Məbusan güşadını təbrik edir və istiqlali-milliyə uğrunda səbat, istiqamət və mətanət ibrazı gözliyor

***Bakı, 7 kanuni-əvvəl***

Bir çoxu əvvəllərdə təşrini-saninin 16-cı gününə intiqadi təyin edilmiş parlamanı bu gün açılan parlamanımız ilə bir nəzərdə tutmağa iman edəmiyorlar.

"O vəqt başqa idi, indi isə başqa bir vəqtdir"-diyorlar.

"O vəqt siyasi vəziyyətimiz digər idi, indi isə digərdir"-söyliyorlar.

Buna görə də bir qədər soyuqluq, bir qədər tərəddüd, bir qədər şübhə, bir qədər skeptizm müşahidə ediliyor.

Oylə əsəbi nazik və tez hissiyatə uğruyan qardaşlarımız bunu bilməlidir ki, nə qədər "siyasi vəziyyət" dəgişəcəksə-dəgişsin, nə qədər "bu vəqt" o "vəqtə" bənzəmiyəcəksə-bənzəməsin, lakin qayə və amal birdir.

İnsan qəlbində bəslədigi amalın və idealın tərvicinə vəqt müsaidəsi istəməz. Nə vəqt olursa-olsun, nə zəman olursa-olsun, hal və övza nə dürlü dəgişir-dəgişsin, mətanəti-qəlbiyyə ilə müəyyən bir amal və qayəyə xidmət edən şəxs tərəddüdə uğraşmamalıdır.

Bəd: bu gün parlamanımız açılması özü buna dəlalət edir ki, "siyasi vəziyyət" bir o qədər də dəyişməmişdir. Lakin aralıqda bir qədər müşkülat törəmişdir ki, onun dəfinə çalışmaq həmin parlamanımızın vəzifəsindənədd olunacaqdır. Bu etiqadla heç bir tərəddüdə yer verməksizin, Azərbaycan türkləri bu gün milli parlamanlarının güşadını alqışlamaqla onun fəaliyyətinə və iş görməsinə yardım etməlidirlər

Yaşasın milli parlamanımız!
Yaşasın istiqlaliyyətimiz!

## Tarixi günümüz

1337 sənəyi-hicrisi rəbiüləvvəlin 2-ci günü Türk-Azərbaycan tarixində xüsusi bir yer tutub böyük bir əhəmiyyəti haiz olacaqdır.

Bu gün o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb, Azərbaycan təkmil bir hökumət şəklinə girir.

Yüz, yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu topraq üzərində qurulmuş olan saxta və əməli hüdudları silinib-süpürülüb müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyonu mütəcaviz nüfusilə Azərbaycan Cümhuriyyəti namini daşımağa kəsbi-ləyaqət etdi.

Pəs bu gün haman bu Azərbaycan Cümhuriyyətinin Milli Parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmamə yetir.

Parlamanımız daxilən və xaricən nə şərait içində açılır?

İstiqlalımızın felən yürüdülməsinə qarşı bugünki cahan zorluları tərəfindən məmaniətlər göstərilmiyorsa da, qəbuluna da hələ qol qoyanlar yoxdur. Məsələnin həlli, istiqlalımızın rədd və ya qəbulu gələcək sülh konfransının baxacaq işlərindəndir.

Bir tərəfdən dəxi türk Azərbaycan Cümhuriyyətində vətəndaşcasına yaşamaq, asayiş və istirahətimizin təmini yolunda əl-ələ verib çalışmağa dəvət etdiyimiz qeyri-müsəlmanlar arasında öylələri tapıldı ki, uzatdığımız ələ arxalarını çevirib parlamanımızı və hətta Cümhuriyyətimizi belə "namüssəm" ədd edərək istiqlalımıza qarşı bədxah olduqlarını indidən bildirdilər. Bunların içində hətta "boykot" sözünün istemalı kimi qabalıq və nəzakətsizlik göstərənlər də olmadı deyil.

Daxilən dəxi quldurluqları və ya rəsmi hökumət məmurluqları hələlik bizcə bəlli olmayan bir takım müsəlləh ermənilərin hüdudumuza təcavüz edib Azərbaycan müsəlmarları həqqində icra etdikləri qətl və qarət, zülm və cəfa xəbərləri cümləmizi mükəddər və mütəhəyyus etməkdədir.

Bu şərait, nə qədər mucibi-məsərrət olmasa da, parlamanımızın açılmasına qarşı məmaniət təşkil etmədi; biləks, Məclisi-Millimizin tezlik ilə açılmaq lüzumiyyətini meydanə qoydu.

Çünki yuxarıda icmalən zikr etdiyimiz əhvalatın bilaxirə Türk Azərbaycan Cümhuriyyəti üçün mübarək və müsaid bir yola düşməgi - məhz parlamanımızın vücudindən və çalışmasından asılı bir məsələdir.

Böylə olan surətdə, deməli, qəlbimizdə bəslədigimiz ümid - parlamanımızadır. Və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsuli yolunda var qüvvəsilə çalışacaq və siyasi imtəhanını xaricilər ənzari qarşısında parlaq bir surətdə verməklə vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır.

Yaşasın Türk-Azərbaycan Cümhuriyyətinin cavan parlamanı!

***Hacıbəyli Üzeyir***

## Azərbaycan Parlamanı dəvəti münasibətilə

### -4-

Bu gün Azərbaycanın həqiqi sahibləri-xəlq öz nümayəndələri lisanilə parlaman kürsi-xitabətindən öz arzu və amallarını aləmi-bəşəriyyət hüzurunda nümayiş etdirəcəklərdir.

Azərbaycan türkləri məhkum ikən hüquqi-milliyyə və istiqlal mübarizəsi düsturu olaraq meydanə atmış olduğu "yaşa və özgələrə yaşamaq imkanı ver" şüarına sadiq qalaraq məhkum ikən tələb etdigi mütənasib nümayəndəlik əsasını müstəqil olduqda da unutmayaraq Azərbaycanda əqəliyyət təşkil edən millətlərin də mütənasib nümayəndəlik həqqinə riayətlə bu əsas üzərinə parlaman çağırmağı lazım bildilər.

Azərbaycan türkləri həmişə ağalıq, hakimlik üçün degil, hüquqi-milliyyə və bəşəriyyənin təmini üçün çalışdıqlarını bir daha isbat edərək cümhuriyyətimiz daxilində yaşayan ümum vətəndaşlarımızı həyatımızın quruluşunda iştirakə dəvət etdilər, Azərbaycanda heç millət, heç sinif, heç silk hakim, ya məhkum ola bilməz, hamı vətənin həm ağasıdır, həm nökəri. Hər bir vətəndaş gərək ümumi vətənin səadətilə məsud, ələmilə mövləm olsun.

Hamı özünü müsavülhüquq vətəndaş hiss etsin. Bu isə məmləkət daxilində yaşayan bütün vətəndaşların gərək nəşriyyə və gərək icraiyyə müəssisələrində miqdarına mütənasib nümayəndəliklə iştirak etməsilə hasil ola bilər. Bu mülahizə ilədir ki, Azərbaycan parlamanına da hər millətin miqdarına görə nümayəndəlik dəvət edilmişdir.

Parlamanın bugünki iclasında bütün millətlərin nümayəndəligi üz-üzə gələrək məmləkətimizin gələcək müqəddəratını təyinə şüru ediləcəkdir.

Fəqət bu iclasda milli nümayəndəlik əsasına riayətlə bərabər vətənimizin mənafei və bütün istiqlalımızın bu heyət əlində olduğu nəzərə alınaraq burasına diqqət verməlidir ki, parlamana milli nümayəndəlik bayrağı altında hər təsadüfi gəldi-keçər nümayəndələr daxil olmuyub, ancaq Azərbaycan vətəndaşları iştirak etsinlər. Buraya gələcək nümayəndələr və onları göndərən təşkilat özlərini Azərbaycan vətəndaşı hiss edərək gəlməli və göndərilməlidirlər. Bu gün parlaman açılmasilə hökumət təşkili məsələsinin də növbəti gəldigi və həllinin tamamilə parlamandan asılı olduğu nəzərə alınarsa, bu məsələnin əhəmiyyəti bir qat daha artır. Həftələrdən bəri mövzuyi-bəhs olan hökumət təşkili məsələsində millətlər, firqələr və siyasi cərəyanlar arasında hələ bu vəqtədək ümumi bir dil tapılmamış və uzlaşma hasil olmamışdır.

Müştərək hökumət təşkili məsələsi hal-hazırda ən ixtilaflı bir məsələdir. Bunun ətrafında bu gün hirs və təmələr qaynaşaraq min dürlü qeydlər, şərtlər qoyulur. Bəziləri müştərək Azərbaycan hökuməti təşkilinə iştirak etmək üçün Ümumrusiya Məclisi-Müəssisanının Azərbaycan Hökuməti tərəfindən qəbul və təsdiqini şərt qoyurlar.

Digərləri bizə müttəhid Rusiyanın qəbul və təsdiqini təklif ediyorlar. Fəqət hankı Rusiyayı tanımalıyız - bilmiyoruz. Biz müttəhid Rusiya prinsipini əsas etibarilə danmıyoruz. Fəqət hal-hazırda Rusiyanı yoxdan var etmək azərbaycanlıların əlində degildir. Hətta Ümumrusiya hökuməti adında bir neçə hökumət var ki, bu da müttəhid Rusiya şüarından uzaqdır. Bu məsələnin qövldən felə gətirilməsi və surəti-həllində bütün dünya mənfəətdar olduğundan beynəlmiləl mühüm bir məsələ təşkil ediyor ki, həlli də beynəlmiləl bir məclisə bağlıdır: bu da hamının gözlədigi beynəlmiləl Sülh konfransından ibarətdir. Fəqət biz nə yapalım. O məclis çağrılaraq Rusiya məsələsini həll edənədək (hələ surəti-həllindən sərfi-nəzər) ayağımızı ayağımız üstündən aşıraraq laqeyd oturub da məmləkəti hökumətsiz, başsız buraxalımmı? Bu suala cavab vermək üçün darısqal firqə proqramı, yaxud mənsəb həvəsini buraxıb da xəlqin mənafei, cəmaətin arzusuna riayətlə məsələyə bu nöqteyi-nəzərdən yaklaşmalıdır.

Onların mənafeyi isə Rusiyanın təcdidi millətlərin münasibat və müqəddəratını daha səlahiyyətli cahan →

Nömrə 58 ◄ AZƏRBAYCAN ► səhifə 2

# Yaşasın Azərbaycan Cumhuriyyəti! Yaşasın Azərbaycan Məclisi-Məbusanı, paydar olsun milli istiqlalımız!

← konqresinə buraxıb da bu gün məhəlli dərdlərimizə çarə tapmağı tələb ediyor. Ona görədir ki, bu gün parlamana cəmləşəcək olan Azərbaycan vətəndaşları ancaq səlahiyyətdar olduqları məsələlərin müzakirə və həllilə iştiğal edib min dürlü müsibət və məşəqqət çəkmiş olan fəqir əhalinin yaralarına mərhəm qoymalı, onların sükut və asayişlə yaşamalarını təmin etməlidirlər.

Niza və ixtilafı kənara ataraq cəmaətin mənafeini hər şeydən uca tutmaq və onun təmini üçün çalışmaq lazımdır.

Ümidvar oluyoruz ki, keçirdigimiz ağır və məsuliyyətli tarixi günlərdə xalq nümayəndələri ümumi bir lisan taparaq öhdələrinə düşən vəzifəyi şərəflə ifa edərlər.

*Xəlil İbrahim*

## Parlamandan nə tələb olunur?

Üçüncü Aleksandr rus təxtinə çıxar-çıxmaz rıcali-kibardan bir məclis tərtib verilmişdi ki, haman məclis Rusiyada parlaman üsulunu tərtib vermək üçün bir proqram yapsın. Proqram yapılıb imperatorun hüzurunda müzakirə olunur və ümumin meyl və məhəbbətini qazanır.

Bu halda, Rusiyanın misyonerlər ocağı pərəstarı və hamisi Mitofa Pobedonovsev imperator hüzurunda səcdəyə düşüb gözləri yaşlı bir halda sübutlar və dəlillər ilə “Parlamanın” müzürr bir şey olduğunu isbata yetirir və məraminə də nail olur: məclis qapadılır və proqram da yandırılır.

Pobedonovsevin dəlillərindən biri də bu idi ki, “Avropa parlamanlarında boş-boş danışıqlardan başqa əhalinin mənfəətinə dair heç bir iş görülmüyor! Odur ki, böylə məclislərə-parlaman, yaxud parlamento demişlər ki, mənası da “göftügüxanə” deməkdir”.

Bu nöqteyi-nəzərlə Pobedonovsev parlaman kəlməsini ruscaya tərcümə edib “qovorilnaya” adı qoymuşdur. Bu kəlmənin lüğəvi mənalarından biri də “göftügüxanə” deməkdirsə də, lakin istehza təriqilə söylənmiş bu kəlmənin doğruca mənası: “laqqırtıxanə” deməkdir.

İştə rus “laqqırtıxanəsi” düzəlmədi! Pobedonovsev gözəlcə anlıyordu ki, “qovorilnaya” tərtib yapılarsa, misyonerlərin tamamən paxırları açılacaqdır. Mədəni Avropa əhalisi biləcəkdir ki, Rusiyanın qeyri-rus taifələrı, əzöncümlə milyonlarca tatarlar, qırğızlar, nuqaylar, başqırdlar ... misyonerlər əlilə zorən xristian dinini qəbul ediyorlar: qəbul etməyənlərin əllərindən suları, torpaqları cəbrən alınıb rus mühacirlərinə verilir, biçarələrin yüzlərcə məktəbləri qapadılır, şkollardan türk-tatar dili qovulur, mətbuata, cəridəyə, kitab və risalə təbinə izn verilmiyor, daha nə cəbr və zülmlər olur!

Söz yoxdur ki, bu işlər açıldığı halda Avropa parlamanlarında da bu barədə bəhs açılacaq idi və olur ki, misyonerlik məsələsi tamamən qaldırılmasa idi, yenə də qeyri-rus taifələrinə olan cövr və zülmün qabağına ya bir hədd, ya bir sədd çəkilə idi.

Bu gün açılan Azərbaycan parlamanına biz pobedonosevlər nöqteyi-nəzərilə baxmayıb “ laqqırtıxanə” yox, haşa, hətta “göftüguxanə” belə demiyoruz!

Bu-müqəddəs bir yerdir ki, orada millətin dərdi, vətənin haləti müzakirə olunub çarələri üçün də tədbirlər ittixaz olunacaqdır.

Əlbəttə, məbusan arasında bəliğ və uzun-uzadı nitq söyləyənlər də az degil, lakin onlardan millət naminə rica olunur ki, fəsahət və bəlağət qabiliyyətlərini və nitqçilik məharətini sair “asari-nəfisə” məclislərinə buraxıb parlamanımızda ancaq dərdlərimizdən danışsınlar: əlaclar yapsınlar.

Bunların hamısından sonra məclis xitamə irdikdə millətimiz məbuslarımızdan nə iş gördüklərini tələb edəcəklər. Bu-gərək hər bir qədəmdə, hər bir hərəkətdə məbusanın yadından çıxmasın.

Məbusanın görəcəgi işləri hədsiz və hesabsızdır. Burada hamısını zikr etmək mümkün olmadığı üçün zehnimizi işğal edən və ən dəgərli məsələlərdən bir neçəsini burada zikr edirəm.

1) Azərbaycanın ənva nöqtələrində bu gün aclıq davam ediyor. Birinci çarə gərək bu dərdə olsun. Zira aclıq bəlasını çəkən milləti mədəniyyətə və sair islahata dəvət etmək mümkün deyil. “Əvvəl təam-sonra kəlam.”

2) Yollar gərək islah olunsun, taki cəmaətin zəxirəsi bir yerdən o biri yerə vəqtli-vəqtində gedib çatsın da, aclığın qabağı alınsın.

3) Bahalığa bais olan kişilərdən: möhtəkirlər ilə bərabər rüşvətxorlar da gərək təhti-məsuliyyətə alınsın. Hərgah bu məsələyə imdidən çarələr aranmazsa, şəvval vəqt Rusiyanın başına gəlmiş bəlalardan bir çoxu da bizim Azərbaycanın başına gələcəkdir!

4) Məktəb, ziraət, sənaət və ticarət kibi ən mühüm məsələləri gərək parlamanımız fəramuş etməsin, qanunlar yapsın.

5) Əhalinin bu gün əhvali-səhiyyəsi çox fəna bir haldadır. Öylə kənd, ya şəhər vardır ki, əmrazi-sariyədən yarısı, bəlkə də daha çoxu qırılmışdır. Böylə ağır bir işə etinasızlıq ilə baxılırsa, daha bir ağır, daha bir şiddətli nəticə hüsula gəlir!

6) Nizam və asayiş bərpa olmazsa, heç bir mətləbə də nail olmarız, bina bərin xarici və daxili təcavüzatın qabağı gərək alınsın.

İştə bu altı bab ilə bizim tələbatımız bitdi. Bundan artıq bu il iş görülürsə, minnət və təşəkkürümüz vardır. Ancaq bu göstərilən maddələrə çarə aramaq hamı məsələlərdən fərzdir.

Haydı Allahın tövfiqi ilə, millətin də müavinət və qeyrəti ilə işə başlayınız və millət məsuliyyətini də bir saət, bir dəqiqə unutmayınız!

*Fərhad Ağazadə*

## “Prometey”

Qədim yunan xurafatınca ilk dəfə Yer üzünə alovu gögdən alıb gətirən “Prometey” olmuşdur ki, bu cəsarətinə görə böyük məbud “Zevs” tərəfindən edamına hökm edilərək Qafqasiya dağlarında çarmıxa çəkilmiş və qartallar onun cigərini para-para qoparıb yemişlərdi. Prometey edam edilmişsə də, onun dünya üzünə gətirdiyi alov sönməyib əsrlərcə qalmış, mədəniyyət və bəşəriyyətə, bəlkə bütün həyatə əvəzsiz bir xidmət etmişdir... Zavallı müvərrix, bu əfsanəyi tarixə yazırkən bunu qədim yunanlara bir masal, əyləncə olmaq üçünmü yazıyordun, yaxud bir neçə min il sonra bir millətin, bir ölkənin tarixinə sərtövhistmi yazıyordun?... Bax bu gün sənin Prometeyin yenə canlanır, yenə Azərbaycanın qayalarında onun parə-parə cigərindən həqiqət alovu nümayan ediyor. Ay ixtiyar yunan müvərrixi, sən Prometeyi alovu gətirdiyi üçün Qafqasiyada edam edildiginə hökm edərkən, şübhəsiz Azərbaycanın təbii atəşgədələrindən bixəbər degildin. Bax bu gün yenə o atəşgədədən nur doğuyor. Fəqət şimdiki nur vəhdət, həqiqət, hürriyyət nurudur. Bir zamanlar Şərqin atəşpərəstləri ziyarət üçün Azərbaycanın “Suraxana” atəşgədələrinə gəlir, onu təvaf edirdisə, imdi də yenə həman Şərqin bütün əsir, zəlil millətləri Azərbaycanın hürriyyət və istiqlalını, cümhuriyyətini təqdisə gələcəkdir. İştə bu gün o cümhuriyyət bütün mənasilə başlıyor. Bu gün əsrlərcə işgəncə, zülm görmüş bir millət kəndi idarəsini əlinə alıyor və bu idarəyi də ədl və insaf üzərinə, yəni cümhuriyyət əsasilə quruyor. Bədbinlər, bədxahlar nə deyəcəksə desinlər - ədalətə, cümhuriyyətə bunların boş sözlərindən heç bir ləkə qonmaz. Cümhuriyyət bütün əsrlərdə möhtərəm və sağlam bir üsuli-idarə olduğu kibi bu gün onun sayəsində yaşamaq istəyən Azərbaycan vətəndaşları üzərinə də heç bir töhmət atıla bilməz. Qəzalardan, şəhərlərdən, siyasi partiyalardan, əqəliyyətdə olan millətlərdən müsavi nümayəndələr gələrək müstəqil Azərbaycan hökumətinin əsasını qoyurlar. Bu əsas sağlam olursa, Azərbaycanın istiqbalı və tərəqqisi təmin edilmişdir deməkdir. Zira, bir ölkənin tərəqqisi üçün xidmət edən alimlər təbii sərvət, ziraət, ticarət və sairə Azərbaycanda bərəkət versin ki, bir çox sair məmləkətlərə nisbətən pək əla dərəcədədir. Məsələ yalnız qurulacaq əsasların sağlam, milli və yaşamağa müstəid olması məsələsidir ki, bu da ümum millətin, əhalinin nümayəndələri isbati-vücud etdikləri üçün təmin ediləcəkdir demək olar. İnşallah, ən yaxın atidə atəşpərəstlər məbədi Azərbaycanı nurpərəstlər qütbü, mədəniyyət ocağı görməklə hər bir azərbaycanlı bəxtiyar olacaqdır. Yaşa, istəkli cümhur vətənimiz, yaşa ey Şərq tarixinin Prometeyi! Sən xalqa mənfəət verəcək alovlu nuru gögdən alaraq yerə saç, insanlara tapşır, istər bunun üçün səni edam etsinlər.

*Əli Yusif*

## Salam Sizə

Salam Sizə, ey Azərbaycan Parlamentosu məbusları! Hələlik sizləri salamla qarşılıyor, nasıl təbrik edəcəgimizi sonraya buraxıyoruz. Keçirməkdə olduğumuz bu təhlükəli, böhranlı və məsuliyyətli bir zamanda iş başına çağrıldınız. Millətin müqəddəratını əllərinizə aldınız, ağır vəzifələr dəröhdə etdiniz siz, siz ey Azərbaycan məbusları, istiqlalımızın bünövrəsi hayındasınız, necə ki, bir imarətin bünövrəsinə qoyulan daşların üstünə yığın-yığın daşlar töküldükdən sonra ancaq o imarət ucaldılıyor, öylə də sizin üstünüzə bir çox ağırlıqlar, daşlar və daha bilməm nələr-nələr töküləcəkdir. Siz özünüz görünməsəniz də, ucaldacaq olduğunuz amali-istiqlal sizi göstərəcək, aləmə bildirəcəkdir. “Bünövrə daşları” kibi “zirzəmidə” qalmaq fikrilə işə başlanılmazsa, bütün imarət də ucalmaz. Amal arzulara da nail olunmaz.

Millətimizin varlığını, istiqlalını təmin üçün möhtərəm məbuslarımız varlıqlarından keçməyəcəklərinə əlimizdə heç bir dəlilimiz yoxdur. Zatən varlıq gizli qalmaz. Bir zaman gələr ki, özünü göstərər. Möhtərəm nümayəndələrimizi də cənab həqqin tövqifi ilə, işlərindən, fədakarlıqlarından görəcək, tanıyacağız və ancaq o zaman adlarını altun hərflərlə gənc Azərbaycan Cümhuriyyəti tarixinin ilk səhifələrinə yazacağız.

*Hüseyn Mirzəcamalov*

## Məclisi-Məbusan güşadını təbrik ediyorum!

Bu gün müstəqil vətənimizin hürr Məclisi-Məbusanı güşad ediliyor. Bu günün biz azəri türkləri tarixində xüsusi bir səhifədə, xüsusi bir yer tutacağı vazehdir.

Yüz sənədən ziyadə istiqlalını yerə gömmüş bir millət, hüquqi-milliyyəsi naminə iza və rəzalətə düçar olmuş bir kütlə, bu gün azad nəfəs almağa başlıyor. Yüz sənədən ziyadə mədəniyyəti təqib edilən, varlığı tapdalanan, abadlığı xarabazarlığa mübəddəl edilən azəri türkləri öz “tanrı”sı inayətilə yenidən hürriyət zəmisinə çıxıb mədəniyyət toxumu saçmağa dəvət ediliyor. Yüz sənədən ziyadə milliyəti qaralanan, amalı ürəgi məhbəsində qalan millətimizə özünü göstərməyə müsaidə veriliyor.

Millətimiz özünü göstərəcəkdir!

Millətimiz dünyayı işğal etmiyəcək, başqalarını yıxmağa çalışmayacaq, qonşularına həsəd bəsləməyəcək. Millətimiz mədəniyyətə, tərəqiyyə, sülhə, müsalimətə başqalarının da azad yaşamasına bacardığı qədər müavinətdə bulunacaq.

İştə böylə bir millət istiqlaliyyətə layiq və böylə bir millət bu gün dünya üçün timsal deyilmidir, əcəba?

Bunu, bu şüarları biz kürreyi-ərzin bütün gizli bucaqlarına belə bildirməliyiz. Mədəniyyət hamisi Avropadan başlamış tüfəng şaqqırtıları, top gumburtuları, bomba partlayışından da qüvvəli, qan nəhrləri arasından “millətlərə istiqlaliyyət” şüarı doğuran Amerikayadək, Asiya və Afrikayadək işbu şüarlarımızı ərməğan aparmalıyız.

İştə parlamanımız bunu yapacaq. Parlamanımız istiqlaliyyətimizi təsdiq etdirəcək. Parlamanımız bütün varlığımızı, biz azəri türklərinin fəqət sülh və müsalimət tərəfdarı olduğumuzu sübutla müstəqil həyata yararlı olduğumuzu, qara fikirli timsahlara millətlər əzasilə xoşlanan kabuslara göstərəcək. Göstərəcək də, lal olmağa məcbur edəcəkdir!

Parlamanımızın vəzifəsi ağırsa da, kirdari genişliyinə itminanımız tamdır. Tanrı müvafiq buyursun.

*Tələbə: Ü.Əbdül*

- Bu gün Azərbaycan Məclisi-Məbusanı açılması münasibətilə məbuslar ilə Azərbaycan qardaşlarımı təbrik edirəm və bu münasibətlə hədiyyəyi-acizanə olaraq Azərbaycan türk yetimləri nəfinə olmaq üzrə darülyetimə 1000 (min) manat ianə veriyor və istiqlalımızın paydar olmasını xəllaqi-alidən istirham edirəm.

*Qulaməli Əliəskərzadə*

*İdarədən:* Məzkur məbləğ idarəmizə təhvil verilmişdir.

## Təbrik

Hacıbəyov qardaşları müdiriyyəti və onun təhti-idarəsində olan artistlər dəstəsi cavan parlamanımızın güşadını ən səmimül-qəlb təhniyyət və təbriklə, vətən və millətimizin azad və istiqlalı uğrunda var qüvvəsilə çalışmaqla milli ədəbiyyat, milli mədəniyyət və sənayei-nəfisəmizin azad və sərbəst tərrəqi və inkişafına bir vəsilə olacağına qüvveyi-imanla etiqad ediyor.

- “Azərbaycan” qəzetəsinin zəhmətkeş türk mürəttibləri bu gün cavan məmləkətimizin xəlq nümayəndəligi olan Məclisi-Məbusanımızın güşadını ürəkdən təbrik və təhniyyətlə istiqlali-milliyyəmizin təmini və füqərayi-kasibənin rifah və səadəti uğrunda çalışacağına inanıyoruz.

Yaşasın qəzetə xəlq nümayəndəligi!

Şuşa ali məkatib tələbələri cəmiyyəti Azərbaycan Məclisi-Məbusanının güşadını ən səmimül-qəlb təhniyyətlə istiqlal və hürriyyət uğrundakı bütün fəaliyyətində müvəffəqiyyətlər dilər.

*Sədr və katib*

## Azərbaycan Məclisi-Məbusanı güşadı münasibətilə rəis Məhəmməd Əmin bəy Rəsulzadə naminə aşağıdakı teleqraflar alınmışdır:

*Gəncə:* - Bu gün, parlaq tarixi bir gündür. Azərbaycan parlamanı güşad ediliyor. Bən və bütün Gəncə quberniyası əhalisi, bilafərq din və millət, səmimi-qəlblə sizi və hamı parlaman əzasını, çoxdan bəslədiyimiz parlaman güşadı münasibətilə təbriklə Allahü-Zülhcəlal həzrətlərinin inayətilə ilə fəaliyyətinizə müvəffəqiyyət diliyoruz.

*Qubernator: Vəkilov*

*Gəncə:* - Gəncə bələdiyyəsi bütün əhali təbəqələri ilə bilafərq din və bənim vasitəmlə →

# Yaşasın hüquqi-milliyyə, paydar olsun cəmiyyəti-əqvam, qəhr olsun niza və ixtilaf!

← Azərbaycan Cümhuriyyətinin birinci parlamınını səmimi-qəlblə təbrik etməklə işbu ağır gündə və gələcəkdə Azərbaycanda yaşayan millətlər üçün mədəniyyət yolunda fəaliyyətində müvəffəqiyyət diliyor.

*Gəncə bələdiyyə rəisi:*
*Əliəsgər Xasməhəmmədov*

**Tiflis** - İşbu tarixi və təntənəli parlaman güşadı gününü Azərbaycanın Tiflisdəki mürəxxəsligi səmimi-qəlblə təbrik edərək inanıyor ki, vətənə olan doğru hiss və məhəbbətlə vətəni mədəniyyət, tərəqqi və parlaq istiqbala tərəf aparacaqdır.

*Faris bəy Vəkilov*

**Kürdəmirdən** - Gənc dövlətimizin istiqlaliyyətini mühafizə etmək arzusunda olan Şamaxı uyezdinin zəhmətkeş kəndliləri əvvəlinci Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik ediyor və Məclisi-Məbusan ilə Azərbaycan dövlətinin, Azərbaycan demokratiyasının ehtiyaclarına əməl edəcəginə ümid bəsləməkdədir.

*Cəmaət vəkilləri*

**Şəki** - Yeni dünyaya gəlmiş Azərbaycan Cümhuriyyətinin parlaman güşadı kibi tarixi bu addımını təbrik ediyorum. İşbu addım sevgili vətənimiz və əzimi-islam millətinin istiqbalı rəhnidir, qoy müəzzəm Avropanın fulad (polad) qələmi istiqlalımızı təsdiq etsin.

*Bələdiyyə rəisi: Yeluseyski*

**Şəki** - Azərbaycan parlamanının tarixi güşadı gününü Şəki əhalisi təbrik etməklə gələcəkdə xəlq hüquqi yolundakı fəaliyyətində müvəffəqiyyət diliyor. Şəki əhalisi sevgili Azərbaycanın istiqlaliyyəti və hüququ yolunda heç bir müavinətdən çəkinməyəcəkdir.

*Qəza qaimməqamı: Rəfibəyov*

**Qazax** - Qazax mütəəllimlərə müavinət cəmiyyəti Azərbaycan Cümhuriyyəti parlamanının güşadını təbriklə inanıyor ki, işbu tarixi gün hamı cavan cümhuriyyətlə parlaman əzasını bir yerə cəm edərək millət və Azərbaycanın istiqlaliyyətini müdafiə təriqinə sövq edəcəkdir. Allah-təala müvəffəq buyursun.

*Sədr: Şıxlinski*

**Qazax** - Qazax qəzasının müsəlman əhalisi parlaman güşadını təbrik ediyor. İmperializm yədindən qurtarmış Azərbaycanın üfiqində yeni həyat günəşi doğuyor, işbu günəş gələcək sülh konfransının istiqlalımızı təsdiq edəcəgini göstəriyor. Əhali muxtar xəlq müvərrici-əfkarlığını təbriklə müşəmməs fəaliyyət diliyor. Əhali parlamanın fəaliyyətində heç bir müavinətdən çəkinməyəcəkdir.

*Müvəkkil: Firudin Köçərli*

**Ağdam** - Qarəbret əhalisi yeni doğmuş Azərbaycan parlamanını səmimi-qəlblə təbrik etməklə öz minhəcc itminan izhar ediyor, gələcək fəaliyyətində parlamana müvəffəqiyyət diliyor.

*Müvəkkil: İbrahimov*

**Ucar:** Göyçay qəzasının kənd camaatları müvəkkillərinin ümumi iclası Azərbaycan cümhuriyyətinin demokrasi parlamanına öz "səlam"ını göndərməklə gələcək ağır fəaliyyətində müvəffəq olmasını istirham edərək inanıyor ki, bütün dünyaya özünün istiqlaliyyətə layiq və müqəddəratını təminə müqtədir olduğunu göstərəcək və müdafiə edəcəkdir.

*Ümumi iclas*

**Quba:** Subub cəmiyyətinin müvəkkili Azərbaycan parlamanı güşadını təbriklə inanıyor ki, parlaman türk millətinin tərəqqisi və qonşular ilə sülh ilə yaşaması yolunda heç iqdamatdan çəkinmiyəcəkdir.

*Subub cəmiyyətinin müvəkkili:*
*Soltan Mahmud*
*Hacı Əbdürrəhim oğlu,*
*Şamil Qurban oğlu*

**Quba:** Qəza idarəsi məmurunu parlaman güşadı ilə ziyadəsincə məmnun olmaqla öz səmimi təbriklərini izhar və parlaman əzasına fəaliyyətlərində qüvvə və kərdar genişligini istirham ediyorlar.

*Quba qəza idarəsi məmuruni*
*müvəkkili, Quba qəza*
*qaimməqamının baş müavini:*
*Ağakişibəyov*

**Quba** - Azərbaycan parlamanı açılması münasibətilə biz Xuqbalın kəndliləri fəlakətə düçar olmuş kəndlilərin hüququnu mühafizə edəcək tazə məclisimizi təbrik edirik.

*Xuqbalı cəmaət vəkilləri:*
*Hacı Puram və Hüseyn Xası oğlu*

**Quba** - Azərbaycan parlamanı açılması münasibətilə biz Palıq kəndliləri fəlakətə məruz olmuş kəndlilərin hüququnu mühafizə edəcək tazə məclisi təbrik edirik.

*Palıq cəmaət vəkili:*
*Məhəmməd Oruc oğlu*

**Quba** - Xızı kəndliləri namından çoxdan bəri arzusunda olduğumuz Azərbaycan parlamanının açılmasını ürəkdən təbrik edib öz vətəndaşlıq həqqimizə nail olmağımıza əmin oluruq.

*Xızı kəndi cəmaəti vəkilləri:*
*Ruhullah Hacıvəli bəy oğlu və*
*İbrahim bəy Rəcəb bəy oğlu*

**Quba** - Həmsar kənd cəmaəti vəkilləri Azərbaycan parlamanının açılmasını təbriklə Azərbaycan parlamanının türk millətinin dirilməsi və Qafqasiya millətləri ilə mehriban qonşuluq münasibatı vücudə gətirməsindən ötrü heç bir müxalifət qarşısında dayanmayacağına ümidvar olur.

*Həmsar kənd cəmaəti vəkilləri:*
*Hacıəli Rzaimamqulu oğlu və*
*Ağası Hacı Osman oğlu*

**Quba** - Suğub kənd cəmaəti vəkilləri Azərbaycan parlamanının açılmasını təbrik edib türk millətinin dirilməsi və Qafqasiya millətləri ilə mehriban qonşuluq münasibatı vücudə gətirməsindən ötrü Azərbaycan parlamanının heç bir məmaniət qarşısında dayanmayacağına ümidvar olurlar.

*Suğub kənd cəmaəti vəkilləri:*
*Soltan Mahmud Hacıəbdürrəhim*
*oğlu və Şamil Qurban oğlu*

**Quba** - Dubir kənd cəmaət vəkilləri cəmaət namından birinci Azərbaycan parlamanını təbrik edirlər.

*Cəmaət vəkilləri Həmzə Abdə oğlu*
*və Hacı Hacıbəy Dostu oğlu*

**Quba** - Azərbaycan parlamanının açılmasını təbrik edib cavan Azərbaycan cümhuriyyətinin möhkəmləşib və neşvü-nüma etməsi yolunda var qüvvəsilə çalışmağı parlaman nümayəndəligindən gözlüyürük.

*Zəvin kənd vəkili:*
*Həsən Bədəl oğlu*

**Quba** - Azərbaycan parlamanının açılması şad xəbərini eşidib səmimi-qəlbdən təbrik edirik.

*Baxşılı kənd cəmaət vəkili:*
*Əbülfəzl Səfər oğlu*

**Quba** - Miyuğbuc kənd cəmaəti vəkilləri Azərbaycan parlamanının açılmasını təbrik edirlər.

*Miyuğbuc kənd vəkilləri:*
*Hacı Murad İsa oğlu və*
*Şükür Musa oğlu*

- Keçirdigimiz hadisələr münasibətilə fəlakətə düçar olan Alpan kənd cəmaəti tezliklə qanun və asayiş bərpa ediləcəgi ümidilə Azərbaycanın birinci parlamanını təbrik etməklə şaddır.

*Cəmaət vəkilləri: Bəybala bəy*
*Qaibov və Qədir Qurban oğlu*

- Azərbaycan parlamanının açılması münasibətilə biz Bostançı cəmaəti vəkilləri fəlakətə düçar olan kəndlilərin hüququnu müdafiə edəcək parlamanımızı təbrik ediriz.

*Bostançı cəmaət vəkili:*
*Zal bəy Ədilbəyov*

- Azərbaycan parlamanının açılması münasibətilə İqriq kəndliləri fəlakətə düçar olan kəndlilərin hüququnu müdafiə edəcək parlamanımızı təbrik edir.

*İqriq kənd cəmaət vəkilləri:*
*Ömər Məsum oğlu və*
*Novruz bəy Hacı bəy oğlu*

- Talıblı cəmaətinin vəkilləri Azərbaycan parlamanının açılmasını təbrik edib ümidvar olur ki, Azərbaycan parlamanı türk millətinin dirilməsi və Qafqasiya millətləri ilə mehriban qonşuluq münasibətinin vücudə gətirilməsinə çalışmaqla heç bir məmaniət qarşısında dayanmayacaqdır.

*Talıblı cəmaət vəkilləri:*
*Əli Nəriman Hacı Allahverdi oğlu,*
*Əbdül Qəhrəman oğlu və*
*Ağa Əkbər oğlu*

- Azərbaycan parlamanının açılmasını təbrik edib kəndlilərin tapdalanmış hüquqlarını müdafiə edəcək parlaman üzvlərinə salam göndəririk.

*Pirəbədil kənd cəmaəti vəkilləri:*
*Q. bəy Oruc oğlu və*
*Müzəffər Musabəyov*

**Quba** - Rivek cəmiyyəti vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik ediyorlar. Bununla bərabər türk millətinin çoxalmasına və Qafqasiyada yaşayan qonşu millətlər ilə əlaqəmizin bərpa edilməsi üçün Məclisi-Məbusanımızın heç bir maneə qarşısında durmayacağına inanıyorlar.

*Rivek cəmiyyəti vəkilləri:*
*Salman Arzuman oğlu və*
*Məhəmmədrza İsa oğlu*

- Mirzəcan kənd cəmaət vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik ediyorlar.

*Mirzəcan kənd cəmaəti vəkilləri:*
*Hacı Zülfüqar Molla Şeyx*
*Məhəmməd oğlu və*
*Molla Nurəli Hüseyn oğlu*

- Səyad kəndi cəmaət vəkilləri Azərbaycan Məclisi-Məbusanının güşadını təbrik ediyorlar.

*Səyad kəndi cəmaət vəkilləri:*
*Həmid Hacı Qurban oğlu və*
*Məhəmməd Sadıq oğlu*

- Ləkir kənd cəmaət vəkilləri Azərbaycan parlamanının güşadını təbrik edirlər.

*Ləkir kənd cəmaət vəkilləri:*
*Feyzulla Əmirbəyov və S.Səfərov*

- Xuc kənd cəmaəti vəkilləri Azərbaycan parlamanının açılmasını təbrik ediyorlar.

*Xuc kənd cəmaəti vəkilləri:*
*A.Hacı Mustafa oğlu və*
*Heydər Əhməd oğlu*

- Bizi vəkil edən Sadan cəmaəti tərəfindən Azərbaycanın birinci parlamanını ürəkdən təbrik edirik.

*Sadan cəmaəti vəkilləri:*
*Behbud Əhməd oğlu və*
*Səttar Eldar oğlu*

- Cəmaətin vəkalətilə birinci Azərbaycan parlamanını təbrik edib parlamanda olan möhtərəm üzvlərə salam göndəririk.

*Yukın Əzir kənd cəmaət vəkilləri:*
*Çərkəs Şahbaz oğlu və*
*Süleyman Mustafa oğlu*

- Azərbaycanın birinci parlamanının açılmasını ürəkdən təbrik edirik.

*Zərgərli kənd cəmaət vəkili:*
*Abbas Zal oğlu*

Quba həbsxanə məmurları Azərbaycan parlamanının açılmasını təbrik edib Azərbaycanın daimi surətdə davamını arzu edirlər.

*Həbsxanə müdiri: Şəfibəyov*

**Quba** - Bugünki gündə hüquqi-milliyyə və miryəmizə malik olacağımıza bir vasitə olan və çoxdan bəri həsrətlə gözlədigimiz Azərbaycan parlamanının açılmasını Birəl kənd cəmiyyəti tərəfindən səmimi-qəlblə təbrik ediyoruz.

*Birəl kənd cəmiyyəti tərəfindən:*
*Səfər bəy Əli oğlu və*
*Zeynal Özbəy oğlu*

**Quba** - Bu gün kəndliləri hərcü-mərc və nizamsızlıqlardan mühafizə edəcək olan Məclisi-Məbusan açılıyor. Böylə tarixi bir günlə müsəvvər olaraq hörmətli əzalarına salam göndəriyoruz.

*Həbib kənd cəmaəti vəkilləri:*
*Qalabəy Ağababa oğlu və*
*Sədullah Məhəmmədkərim oğlu*

**Quba** - Bugünki gündə milli hüquqi-milliyyə və miryəmizi təmin edəcək bir vasitə olan və çoxdan bəri həsrətlə gözlədigimiz Azərbaycan Məclisi-Məbusanın açılmasını səmimi-qəlbdən Böyük Zixur kənd cəmaəti namından təbrik ediyoruz.

*Böyük Zixur kənd vəkilləri:*
*Qəhrəman Yüzbəyoğlu və*
*Qaraxan Qədəşoğlu*

**Quba** - Hacıxur kənd cəmaəti namından çoxdan bəri gözlədigimiz Məclisi-Məbusan açılmasını səmimi-qəlbdən təbrik edər və bununla milli hüquqa vasil olacağımıza inanıyoruz.

*Hacıxur cəmaət vəkilləri:*
*Məhəmmədağa Azayoğlu və*
*Yusif İsmayıl oğlu*

**Quba** - Açıldığı günündən vətəndaşlıq hüququna irəcəgimizə etimad bəslədigimiz Məclisi-Məbusan güşadını Həsənqələ kənd cəmiyyəti namından səmimi-qəlblə təbrik ediyoruz.

*Həsənqələ kənd cəmiyyəti vəkilləri:*
*Eyvaz bəy Musa bəy oğlu və*
*Gülməhəmməd Samay bəy oğlu*

**Quba** - Hərcü-mərc və nizamsızlıqdan kəndliləri mühafizə edəcək Azərbaycan Məclisi-Məbusanı güşad ediliyor. Bugünki günlə məsrur olaraq hörmətli əzalarına salam göndəriyoruz.

*Güzkənd cəmaət vəkilləri:*
*Rəşid Mustafa oğlu və*
*Fərman Seyidəli oğlu*

**Quba** - Hərcü-mərc və nizamsızlıqdan kəndliləri himayə və mühafizə edəcək Azərbaycan Məclisi-Məbusanı güşad ediliyor. Bugünki günlə məsrur olaraq hörmətli və möhtərəm əzalarına salam göndəriyoruz.

*Ulukənd cəmaət vəkilləri:*
*Yusif Qoca oğlu və*
*Rza Məhəmmədəli oğlu*

**Quba** - Yasab kənd cəmiyyəti vəkilləri Azərbaycan parlamanını təbrik edirlər.

*Yasab kənd cəmaəti vəkilləri:*
*Hacıhidayət Ağaəli oğlu və*
*Cahangir Mürsəl oğlu*

**Quba** - Bu gün kəndliləri hərcü-mərclikdən mühafizə edəcək parlaman açılır. Bu tarixi günə şad olub parlamanın möhtərəm əzalarına salam göndəririk.

*Avarankənd cəmaəti vəkilləri:*
*Molla Kamal Məhəmməd oğlu və*
*Yunus bəy Səfər oğlu*

**Quba** - Çoxdan bəri gözlədigimiz arzu bu gün vücuda gəldi. Cavan Azərbaycan parlamanının açılmasını təbrik edib özümüzü xoşbəxt hesab etməklə bərabər, ümidvar oluruq ki, bizim sevgili parlamanımız məqsədə çatmağımız üçün bizim qanuni hüquqlarımızın müdafiəsi yolunda heç bir məmaniət qarşısında dayanmayacaqdır. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan parlamanı!

*Tuğədən kənd cəmaəti vəkilləri:*
*Müslim Hənifəyev,*
*Nuhbala Faydanov, Mustafa Xələf*
*oğlu və Atabala Qədir oğlu*

**Quba** - Üçgün kənd cəmaəti vəkilləri Azərbaycan parlamanının açılmasını təbrik edirlər.

*Kənd cəmaəti vəkilləri:*
*Baqi Bağırov və A.Səfixan oğlu*

**Quba** - Qusar meşə məmurları vətənin tərəqqisi, hürriyyəti və istiqlaliyyəti rəhni olan Azərbaycan parlamanını təbrik edirlər.

*Vəkillər: Yusifov və Orucov*

**Quba** - Zizik kənd cəmaət vəkilləri Azərbaycan parlamanının açılmasını təbrik edirlər.

*Zizik kənd cəmaət vəkilləri:*
*Muxtar Vəli oğlu və*
*A.Abbasəli oğlu*

Quba uyezdinin nahaq yerə mütəzərrir olan →

← kəndliləri Azərbaycan parlamanının açıldığı günü bayram edib parlaman üzvlərinə səmimanə salam yetirirlər. Bu müəssisənin açılması ilə öz hüquqlarının özlərinə qaytarılacağına ümidvar olurlar.

***Xudat cəmaət vəkilləri:***
***Heybət Mahmud oğlu və***
***Şəmsəddin Yusif oğlu***

**Quba** - Azərbaycan parlamanının açılmasını təbrik edib kəndlilərin tapdalanmış hüquqlarını müdafiə edəcək parlaman üzvlərinə salam göndəririk.

***Köhnə Xudat cəmaət vəkilləri:***
***Mahmud əfəndi Hacıabdullah əfəndi oğlu və Knyaz bəy Xeyir bəy oğlu***

**Quba** - Azərbaycan parlamanının açılmasını təbrik etməgə vəkil olunub kəndlilərin tapdalanmış hüquqlarını müdafiə edəcək parlaman üzvlərinə salam göndəririk.

***Xuran cəmaət vəkilləri: Məhəmməd İlğı bəy oğlu və Nurullah Oruc oğlu***

**Quba** - Bu gün Azərbaycan kəndliləri parlamanın açılması ilə öz həqlərinə nail oluyorlar. Azərbaycan parlamanının açılmasını ürəkdən təbrik edirik.

***Çarıx cəmaət vəkilləri:***
***Məşhədi Kərim Xıdır oğlu və***
***Kərbəlayi Cəfər Manaf oğlu.***

Azərbaycanın birinci parlamanını təbrik edib müsəlmanların xeyrini mühafizə edəcəginə ümidvar oluruq.

***Sizan kənd cəmaət vəkilləri:***
***Xəlil Fərzəli oğlu və***
***Daşdəmir Dəmir oğlu***

Azərbaycan parlamanının açılmasını eşidib birinci parlamanımızı ürəkdən təbrik edrik. Yaşasın Azərbaycan!

***Fəndiqan cəmaət vəkilləri:***
***Fətullah Nəsrullah oğlu və***
***Mirbəy Zakir oğlu***

Azərbaycanın birinci parlamanını ürəkdən təbrik etməklə kəndimizi bəxtiyarədd edib Allahın inayəti ilə məmləkətdə sülh və səlah bərpa ediləcəginə ümidvar oluruq.

***Əlixanlı kənd cəmaət vəkilləri:***
***Hüseynağa Hüseyn oğlu və***
***Taacəddin Xeyri oğlu***

Gil cəmaəti vətəndaşları Azərbaycan parlamanını ürəkdən təbrik edirlər.

***Gil cəmaət vəkilləri:***
***Zəki Babaxan oğlu və***
***Soltan Əhməd Rəməzan oğlu***

Qafqaz mütəəllimlərinin mərkəzi komitəsi " Bakı və dairəsi islam mütəəllimlərinin ittifaqı" səmimi-qəlblə gənc Azərbaycan Cümhuriyyəti parlamanı güşadını təbriklə əsrlərdən bəri bəslədigi amalına irişməsinə müvəffəqiyyət diliyoruz. Biz mütəəlimlər vargənç qüvvələrimizi vətənimizin tərəqqi və hürriyyəti məbədi ədd etdigimiz parlamanımıza təqdim ediyoruz.

***Bakı ittifaqi-mütəəllimin sədri:***
***Teymur Aslanov,***
***Mərkəzi Komitəsi tərəfindən:***
***Cəfər Cabbarzadə***

## Əmirhacıyandan

Əmirhacıyan kənd cəmaəti Azərbaycanın birinci parlamanını təbrik edib türk millətinin daimi surətdə nəşvü nüma tapmasına və Qafqaz millətləri ilə mehriban qonşuluq münasibati bərpa ediləcəginə ümidvar olur.

Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan parlamanı!

***Əmirhacıyan kənd cəmaəti vəkilləri:***
***Ağa Bünyadov, Məhəmməd Hüseyn Dadaşov, Malik Rəhimov***

## Qeyri-müsəlman vətəndaşların təbrikləri

**Gəncə.** Azərbaycan parlamanının açılmasını təbriklə cavan cümhuriyyətin ümum vətəndaşlarının hürriyyətini təmin edəcək dövlət əsasları quruluşu işlərində böyük müvəffəqiyyətlər diləriz.

***Gəncə quberniyası***
***almanlarının təşkilatı***

**Quba.** Parlaman güşadını səmimiqəlbdən təbrik və təhniyyətlə təvəqqe edəriz bizim təşəkkürümüzü bir ovuc erməniləri milli ədavətdən mühafizə və müdafiə etmiş olan Azərbaycan hökumətinə yetirəsiniz.

***Kilvar kənd cəmiyyəti nümayəndələri:***
***Cavad Apresov, Avans Bugilyov,***
***Qriqor Kazaryans.***

**Quba.** Qusar qəsəbəsinin rus əhalisi Azərbaycan Cümhuriyyətinin yeni müəssisəsini təbriklə əmin oluyor ki, ümumcümhuriyyət vətəndaşlarının sərvət mənbəi olan həyat və zəhməti-cümhuriyyət eşqinə asayiş və mənfəətlə təbəyan edəcəkdir və xalq mədəniyyəti mənbəi olan parlaman cavan Azərbaycan cümhuriyyətini lazım gələn dərəcəyə yüksəldərək onu böyük Avropa cümhuriyyətləri sırasına qoyacaqdır.

***Rus əhalisi vəkilləri:***
***Dumburovski, Çikovani,***
***Konovalov, Solovyov***

**Quba.** Azərbaycan Cümhuriyyəti üfüqündə tülu etmiş olan günəşin həyatbəxş hərarətilə isinmiş və məsrur olmuş olan biz Quba yəhudiləri parlaman güşadı bayramanı təbrik və təhniyyət edəriz. Ümidvar oluyoruz ki, cəmaətin etimadına məzhər olan xalq nümayəndələri nur və ədalətə doğru getdikləri yollarında təsadüf oluna biləcək ümum maneələri dəf edə biləcəklər və bu nur yəhudi cəmaətini də işıqlandıracaqdır.

***Quba yəhudi cəmiyyəti vəkilləri***

**Şəki.** Erməni milli komitəsi Azərbaycan parlamanının güşadını təbrik və təhniyyətlə, ümidvar oluyor ki, xalq nümayəndəligi dəvətilə iki qonşu millətin ittifaq və müvafiqətlə yaşaması ideyası felən hasil olacaqdır. Komitə inanıyor ki, Azərbaycan millətlərinin səadəti ermənilər ilə müsəlmanların doğma qardaş kibi mehriban yaşamalarındadır. Bir-birimizə qarşı ədavət və nəzain aşkar mənasız olduğunu anlayaraq artıq əl-ələ verib millətlərin kəndi müqəddəratının kəndi əllərinə verilməsi əsası üzərinə cavan Azərbaycanın dövlət ümuratını təmir etməlidirlər.

***Şəki erməni milli komitəsi sədri:***
***Tumanyans***

## Azərbaycan parlamanı ətrafında

### *Rus əhalisinin parlamanda iştirakı*

Bakıdakı slav-rus cəmiyyəti Azərbaycan Şurayi-Milli rəisi naminə bir məktub göndərib Azərbaycan parlamanına daxil olmağı qərara aldığını xəbər vermişdir. Azərbaycan Şuarayi-Millisi kanuni-əvvəlin 5-də vaqe olan iclasında Azərbaycan parlamanında rus əhalisinə verilən 10 yerdən 5-nin slav-rus cəmiyyəti nümayəndələrinə verilməsini qərara almışdır.

## Azərbaycan vətəndaşlarına, zəhmətkeş köylülərə

### *Mübarizədə hüququnu alarsan!*

Vətəndaşlar! Dekabrın 7-də Azərbaycanın paytəxti Bakı şəhərində Azərbaycanın parlamanı açılacaq.

Neçə il davam edib də axirüləmr "hamı millətlərə istiqlal" şüarilə xitampəzir olan aləmşümul Avropa müharibəsindən aldığımız təxribat və xəsarət mühitində vətənimiz Azərbaycanda əbədi və əsası qanun və nizamiyyat tapacağımız bu gün, bizim üçün daha da qiymətli, daha da əziz bir gündür.

Kəndli vətəndaşlar, firqəmizin ən birinci şüarlarından ədd olunan millətlər bu gün Avropada və Rusiyada geniş surətdə yürüdüldiginə biz fəxr etməliyiz. Keçmişdə, dövri-istibdadda təzyiqat altında əzilən millətlər imdi kəndi hüquqlarını tələb edib müstəqil hürr yaşamağa səy ediyorlar. Bu millətlər cərgəsində azərbaycanlılar da Rusiya inqilabı-kəbirinin səmərələrindən istifadə edib öz istiqlaliyyətlərini ümumə elan etdilər.

Kəndli qardaşlar! Siz kəndi həyatiməişətinizi "topraq və ixtiyar"ınızı müdafiəyə qalxışmalısınız. Bu da yaşadığınız Azərbaycan məmləkətinin müstəqil bir şəkli-idarə alması ilə olacaqdır. Azərbaycan kəndliləri hamıdan artıq əsarətdə və təzyiqatda yaşadıqları üçün kəndi Azərbaycanı üçün ***istiqlaliyyət*** tələb etməgə həqqi vardır. Bu gün hər məmləkətin öz dairəsində ancaq müstəqil bir surətdə müəyyən bir qanın qoyulub hüquqa dəxi təcavüz edilməyəcəginə Azərbaycan kəndliləri daha inanmışlardır.

Hal-hazırda Rusiyanın hər bir küncündə, hətta hər bir şəhərində böylə bəzi firqələr və yaxud şəxslər baş qaldırıb hökumət təşkil edir və Rusiyayı təcdid etmək arzusunda bulunur. Bu hökumətlərdən əsla xəlqin xəbəri yoxdur. Azərbaycan kəndliləri bu hökumətlərə inanıb heç özlərini ixtilal ağuşuna atmaq istəmiyəcəklər.

Azərbaycan kəndliləri özlərinə ***istiqlaliyyət*** tələb etdikdə arkadaşları Rusiya kəndlisi və xəlqindən heç də üz çevirməyorlar. Biləks, Rusiyada yaşayan kəndlilərin də kəndiləri üçün hürr və azad bir idarə qurmalarına mənəvi köməkdən çəkinməyəcəklər.

Kəndli qardaşlar!

Siz bu axır illər müddətində çox zəhmət çəkdiniz, yoruldunuz. İmdi isə yenidən mübarizeyi-həyatə girişməlisiniz. Keçmişdəki nöqsanları bu gün düzəldiniz. Dünki ədavəti bu gün qəlblərinizdən çıxarınız. Bu gün müttəhidən ***istiqlaliyyət*** yolunda çalışarsanız, yarın dinc yaşamanız təmin ediləcəkdir.

Bu gün hamı kəndlilər bunu düşünüb bir nəfər kimi məmləkətimizdə ***istiqlaliyyət*** "Topraq və ixtiyar" şüarını tutmalısınız. Kim qarşınıza çıxıb sizə mane olarsa, hamınız ona qarşı qalxıb ciddi mübarizəyə girişməlisiniz, bu uğurda mübarizənizlə ***istiqlaliyyət*** və ***"Topraq və ixtiyar"***a layiq olmağınızı aləmə bildirməlisiniz.

***Yaşasın Azərbaycan istiqlaliyyəti!***
***Yaşasın Azərbaycan Məclisi-Məbusanı!***
***Yaşasın topraq və ixtiyar!***
***Yaşasın Azərbaycan köylüləri!***
***Azərbaycan ictimaiyyun-inqilabiyyun firqəsi!***

## Bakı xəbərləri

İngiltərə su nəqliyyat vəsaiti idarəsi bütün mal göndərəcək zəvatə elan ediyor ki, göndəriləcək mallar üçün məhəlli gömrükxanədən vəsiqə alınmalıdır. Bundan sonra mallar göndərilə bilər.

Bütün mallar gömrük vergisi baqi qalıyor. Fəqət ərzaqdan gömrük alınmayacakdır.

## General Tomsonun cavabı

Britaniya maliyyə şöbəsinin müdiri bələdiyyə rəisi naminə bu məzmunda bir məktub göndərmişdir:

"Bən sizin məktubunuzu təşrini-saninin 27-də aldım. Məlum ediyorum ki, biz Bakıda dövlət bankı əmanət kassası və ticarət bankası açılmasına çalışıyoruz. Dövlət bankı siyasi əhvala baxmayaraq, İngiltərə kontrolu altında fəaliyyətə başlayacaqdır. Biz ehtimal ediyoruz ki, bu işdə bizə hamı müavinətdə bulunacaqdır".

## Gömrükxanə idarəsində

İşbu günlərdə Belokanı gömrükxanəsi müdiri tərəfindən alınmış məktuba Azərbaycan gömrügü müdiri Lupato cənabları böylə cavab göndərmişdir:

"Gömrükxanə fəaliyyətini dayandırmaq mümkün deyildir. Əhaliyə məlum ediriz ki, göndəriləcək şərabə və ərzağa gömrük vergisi ləğv edilmişdir. Bu, yəni mallar əcnəbiyə aparmadan ötrü gömrük vergisi təyin edilmiş. Maliyyə nəzarətinin göstərdiginə məbnu daxiliyyə nəzarəti və Zaqatal nahiyyəsi müdirlərinə müraciət ediyorum. Nəticə barəsində teleqrafa xəbər veriniz".

Göndəriləcək mallara baxmaq barəsində Azərbaycan gömrük müdiri Lupato cənabları su nəqliyyat və sahili müdiri Maysur Bravun cənabları ilə müsahibədə bulunmuşdur. Məsarileyhə bütün mallara baxmağa gömrük məmurunun ixtiyarı olmasını təsvilə bu barədə porta idarəsinə məlumat göndərmişdir.

## Ərzaq məsələsi

Ərzaq naziri həzrətlərinin səfayi-nəticəsi olaraq yarın şəhərimizə 30 vaqon taxıl gətiriləcəkdir. Əlavə bu günlərdə Şamaxı qəzasından da taxıl gözləniyor.

Ərzaq nəzarəti ilə Ukrayna nümayəndəligi miyanında nefti taxıla mübadilə etmək barəsində müzakirat davam ediyor.

## Mərkəzi ev komitəsində

Mərkəzi ev komitəsi cünbindəki iaşə məntəqələri şöbəsi, bələdiyyə idarəsi cümbində tibb və hifzülsihhə şöbəsinə böylə bir kağız göndərmişdir:

"Axır vəqtlərdə başqa-başqa nöqtələrdən aşkara müsri xəstəliklərə düçar olmuş bir çox qaçqınlara, aclıq və başqa xəstəliklərdən zəif düşmüşlər, vaporlar ilə Bakıya gəliyorlar. Şəhərdə müsri xəstəliklərin artması ehtimalı önünü almaqdan ötrü körpülərdə ianə məntəqələri açmalıdır. Bələdiyyə idarəsinin tibb və səhiyyə şöbəsi, bələdiyyə məclisi tibbiyyə komisyonu ilə işbu barədə müzakiratda bulunsun. Sizə təklif ediyoruz ki, öz nəzəriyyatınızı təcili surətdə xəbər verəsiniz. Körpülərdə iaşə məntəqələri açmaq və yaxud başqa yerlərdən məntəqələrini körpülərə köçürmək barəsindəki bütün nəzəriyyatınızı bələdiyyə idarəsi cünbindəki tibb və səhiyyə şöbəsinə göndərəsiniz".

## Ev təşkilatlarının seçkiləri

Kanuni-əvvəlin (dekabrın) 8, 11 və 13-də 2, 3 və 4-cü uçastokda olan ev komitələri nümayəndələrinin ümumi iclası vaqe olub uçastok komitələrinə və mərkəzi ev komitəsinə üzvlər intixab ediləcəkdir.

Kanuni-əvvəlin 8-də 3-cü uçastok, 11-də 2-ci uçastok və 13-də 4-cü uçastok. Seçkilər hamısı Nikolayevski küçədə realnı məktəbin binasında saat 4-də vaqe olacaqdır. Təyin edilən vəqtən bir saat keçdikdən sonra iclas hər halda qanuni hesab ediləcəkdir. Məzkur iclaslarda iştirak etməkdən ötrü hər ev komitəsi öz ümumi iclasında bu qərar üzrə nümayəndə intixab etməlidir. Hər 50 nəfər 1 nümayəndə seçməlidir. 50 nəfərdən 25 nəfərə qədər artıq olduğu halda bir nəfər dəxi intixab olunmalıdır. 50 nəfərdən az olsa da, bir nəfər nümayəndə seçməlidir. Ev komitələri nümayəndələri nümayəndələrə mandat verməlidir. Mandatsız nümayəndələr iclasa buraxılmayacaqlardır. Nümayəndə intixabında neçə nəfər iştirak etdigi mandatda göstərilməlidir. Uçastok komitələri seçkiləri ilə bərabər mərkəzi ev komitəsinə də üzvlər intixab ediləcəkdir. Mərkəzi ev komitəsinə hər 10 min adama bir üzv seçiləcəkdir.

**Müdir və baş mühərrir:**
**Ceyhun bəy Hacıbəyli**

Təqdim edəni, ərəb əlifbasından latın qrafikasına çevirəni:
**professor Şirməmməd Hüseynov**
Transliterasiya redaktorları:
**professor Şamil Vəliyev,**
**elmi işçi Samir Xalidoğlu (Mirzəyev)**
Nəşrə hazırlayan:
**fəlsəfə doktoru Aygün Əzimova**

*...İnlədim, ahımı yellərə verdim,*
*Ağladım, ruhumu sellərə verdim,*
*Könlümü bu xarab ellərə verdim,*
*Bu xarab ellərə canan dedilər.*

Cəfər Cabbarlı isə "Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim" deyə müstəqil ölkəmizin başı üzərinə qaldırılan bayrağımızı vəsf edirdi. "Azərbaycan" qəzetinin 25 avqust 1919-cu ilin 260-cı nömrəsində C.Cabbarzadə imzası ilə çap edilən "Sevdiyim (Azərbaycanın bayrağına)" adlı həmin şeir müəllifin vətəninə, məmləkətinə, bayrağına səcdəsidir:

*...O yerlərdə qardaşları, dostları var, pək sevir,*
*Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.*
*Canalıcı bir görkəmlə dağ başında durunca,*
*Oxşadıqca bahar yeli açıq-dağnıq tellərin.*

*Nazlı əlin umuzunda saçlarına vurduqca,*
*Bir-bir oxşayırsan bütün Turan ellərin.*
*Altaylardan, Altun dağdan doğma sellər bəkləyor*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.*

*Rəmuz ilə dörd bir yanə işıq saçmaq istiyor,*
*Ara-sıra tərpəniyor, bu kəsik uçmaq istiyor,*
*Qollarilə türk ellərin bütün qucmaq istiyor,*
*Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.*

Bu əsərdəki ali duyğular – milli qürur, vətənə, dövlətə ülvi məhəbbət onun "Azərbaycan bayrağına" adlandırdığı, ilk dəfə Cəfər Cabbarzadə imzası ilə "Azərbaycan" *(29 avqust 1919, № 263)* qəzetində dərc etdirdiyi şeirində də təcəssümünü tapdı. Cəfər Cabbarlı istiqlalımızın əbədiliyinə, bayrağımızın daim ucalacağına inamını belə ifadə edirdi:

*Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,*
*Şu sevimli üçboyalı, üçmənalı bayrağı.*
*Mələklərin qanadımı üzərimə kölgə salan?*
*Nə imiş bu, aman, Allah?! Od yurdunun yarpağı!*
*Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?*
*Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.*
*Fəqət bizim bayrağımız ucaları pək seviyor,*
*Yulduzlardan, Hilaldan da yüksəklərdə firlanıyor.*

1918-ci ilin 7 dekabrında parlamentin açılış mərasimində M.Ə.Rəsulzadə "Səadət və hürriyyət istiqlaldır, – dedi: – İştə bunun üçün, əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üçboyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, İslam mədəniyyəti və müasir Avropa iqtidarı-əhraranəsini təmsil edən bu üçboyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir daha qaldırılmış bayraq  bir daha enməyəcəkdir!"

Onun bu çıxışını Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetinin oxucularının nəzərində belə canlandırırdı: "Məhəmməd Əmin milli ittitahəsində bu üç rəngin: türkləşmək, islamlaşmaq və müa-

sirləşmək amalı əlamətindən ibarət olduğuna işarə ilə – bu bayraq endirilməz! – dedikdə bütün məclis ayağa qalxıb əl çala-çala bayraqları salamlarkən, təəssürati-fövqəladəmdən başımın tükləri biz-biz durdu" *("Azərbaycan" qəzeti, 9 dekabr 1918).*

Cəfər Cabbarlı isə Azərbaycan bayrağında əks olunan rənglərin mənasını "Azərbaycan bayrağına" şeirində obrazlı şəkildə belə ifadə edirdi:

*Bu ay, yıldız, boyaların qurultayı nə demək?*
*Bizcə böylə söyləmək!*
*Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,*
*Bir türk oğlu olmalı!*
*Yaşıl boya İslamlığın sarsılmayan imanı,*
*Ürəklərə dolmalı!*
*Şu al boya azadlığın, təcəddüdün fərmanı,*
*Mədəniyyət bulmalı.*
*Səkkiz uclu şu yulduz da səkkiz hərfli OD YURDU*
*Əsarətin gecəsindən firsət bulmuş quş kibi*
*Səhərlərə uçmuşdur*
*Şu hilal da türk bilgisi, düzgün sevgi nişani,*
*Yurdumuzu qucmuşdur!*
*Allah, əməllərim edib şu bayrağı intiqal,*
*Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!*
*Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,*
*O gün olsun bir göy bayraq Turan üstə açılsın.*

Ümmügülsüm xanım "Türk ordusuna", "Ey türk oğlu!", "Çəkil, dəf ol!", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" və başqa əsərlərində milli istiqlala qovuşmanın qürurunu ifadə edirdi. "Əsgər analarına" adlı şeirində o, Milli Ordunun yaradılmasını, səfərbərliyə alınan Azərbaycan gənclərinin, onları yola salan anaların qəhrəmanlığını alqışlayırdı:

*Annəciyim, ağlama, xeyir-dua söylə sən,*
*Göz yaşınla saxlama haqq yoluna gedəni.*
*Onun çarpan qəlbinə çalış fərəh verəsən,*
*Onun şux gənc həyatı qurtaracaq vətəni!*
*("Azərbaycan" qəzeti, 1919, №352).*

## "Könlüm ayrılmayır, vətən, səndən!"

Şair Məhəmməd Hadinin vətəndən uzaq düşdüyü illərdə doğma diyarın nisgili ilə qələmə aldığı "Qərib ellərdə yadı-vətən" poeması hissə-hissə "Azərbaycan"da dərc olundu. Qürbətdə vətən həsrəti şairi belə dilləndirmişdi:

*Çox uzaq olsa da bu tən səndən,*
*Könlüm ayrılmayır, vətən, səndən!*
*Ey xəzanı gözümdə fəsli-bahar,*
*Ey gözəl ölkə. Ey sevimli diyar.*

Hicran hələ ki uzaq idi. Azərbaycan onu sevən, müstəqilliyini özünə qaytaran, istiqlalını bərqərar edən, bayrağını yüksəldən övladlarının hürr yaşadığı məmləkət idi. Vətən həsrətindən, müstəmləkə zülmündən keçmiş günlərin xatirələri kimi bəhs edirdilər. Bütün çətinliklərə, məhrumiyyətlərə rəğmən gələcəyə inamlı, ümidli idilər. Bu duyğuları Üzeyir bəy belə ifadə edirdi: "...Yerimiz, yurdumuz, torpağımız özümüzün, hökumətimiz, camaətimiz, qoşunumuz özümüzün, dinimiz, ayin və adətimizə edilən şəmadətdən qurtulduq" *("Azərbaycan" qəzeti, 18 noyabr 1918, №43).*

Vətənə həsr edilən ən gözəl şeirlərdən birini də Cəfər Cabbarlı bu iftixar hislərinin təsiri ilə qələmə aldı. "Sevimli ölkəm" sərlövhəsi ilə çap olunan məşhur şeirində o, məmləkətinin gözəlliklərini tərənnüm edirdi:

*Şiş ucları buludlarla döyüşən*
*Dağlarında buzları var ölkəmin.*
*Göy otlardan ipək paltar geyinən*
*Tarlaları, düzləri var ölkəmin.*
*Verimli torpağı, geniş çölləri,*
*Çalışqan ərləri, igid elləri,*
*Böyük gəmiləri, dəmir yolları,*
*Keçidləri, rizləri var ölkəmin.*

*("Azərbaycan" qəzeti, 1919, № 92).*

Sonralar yeni nəşrlərdə bu şeirə "düzəliş" ediləcək, müəllifin "Quzğun" adı ilə andığı dəniz Xəzər kimi veriləcəkdi. Əsərdəki bu son iki bənd isə "yoxa çıxacaqdı":

*Yanar dağlarında yalov coşarmış,*
*Ona tapınmaya ellər qoşarmış,*
*Bir çağ varmış, ölkəm azad yaşarmış,*
*Bu yollarda izləri var ölkəmin.*

*İpəgindən qızlar çadra geyərlər,*
*Ölkələrin azad görmək dilərlər,*
*Bu yerləri bütün ellər sevərlər,*
*Yalnız bizdə gözləri var ölkəmin.*

Azərbaycan Xalq Cumhuriyyəti istiqlal mücahidlərinin gerçəkləşmiş arzuları idi. Əmin Abid buna görə məqaləsinə "Yerini bulmuş arzular" *("Azərbaycan" qəzeti, 25 sentyabr, №4)* adını verdi. O, həmin yazısında XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal edildiyi dövrdən xalqın başına gətirilmiş müsibətlərdən, Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsi və sonunda istiqlalını qazandığından bəhs edirdi.

## "Azərbaycan" qəzeti nələrdən yazırdı...

Qəzetin "Hökumət qərarları", "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Xarici xəbərlər", "Bakı xəbərləri", "Azərbaycanda", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə",

"Türkiyə mətbuatı", "Paris xəbərləri", "İran işləri", "Qəzetlərdən", "Sülh ətrafında", "İrəvan müsəlmanlarının halı", "Teatr və musiqi" və digər daimi rubrikaları var idi. Parlamentin mühüm iclaslarından stenoqrafik hesabatları isə "Azərbaycan Məclisi-Məbusanında" rubrikası altında dərc edilirdi.

Dövləti, milləti üçün əhəmiyyətli elə məsələ yox idi ki, bu qəzetdə işıqlandırılmasın. Dünyada baş verən mühüm hadisələrdən tutmuş Azərbaycanın əyalətlərində mövcud vəziyyətədək bütün lazımi məlumatlar qəzetdə əksini tapırdı. Yalnız çağdaş ictimai-siyasi həyata dair yazılara yer verilmirdi, Azərbaycanın və dünya dövlətlərinin tarixindən bəhs edən məqalələr də qəzetin daimi mövzuları sırasında idi. Fakt zənginliyi, əhatəliyi, rəngarəngliyi ilə diqqəti cəlb edən yazılar müxtəlif janrlarda qələmə alınırdı.

"Azərbaycan"ın bölgələrdə də xüsusi müxbirlərinin olması hadisələrin operativ şəkildə işıqlandırılmasına imkanlar yaradırdı. Qəzetin elə ilk nömrələrində ordumuzun Qarabağda apardığı uğurlu hərbi əməliyyatlar barəsində mütəmadi informasiyalar, məqalələr dərc olundu. "Azərbaycan"çılar Azərbaycan Xalq Cümhuriyyətinin başladığı böyük quruculuq işlərinə xidmət edirdilər. Qəzetin səhifələrində fəhlə və kəndli həyatına dair yazılara, oxucu məktublarına geniş yer ayrılırdı. Ədəbiyyat, teatr, muzey işi, səhiyyə və digər sahələrdə aparılan və ya həyata keçirilməsi zəruri məsələlər əksini tapırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əksəriyyəti vaxtlarının azlığına, dövlətçilik naminə həyata keçirməli olduqları işlərin çoxluğuna baxmayaraq, onları düşündürən müxtəlif mövzularda yazıları ilə bu qəzetdə çıxış edirdilər. Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan paytaxtı" adlı tarixi-publisistik məqaləsində cümhuriyyətin paytaxtının tarixi barədə materialların qaneedici qədər olmadığını bildirirdi: "Mən mətbuatı çox aradım. Lakin Bakı barədə bir yazıya rast gəlmədim. Bu həvəs mənə cəsarət verdi: müxtəsər də olsa, Bakının tarixi haqqında bir kaç yarpaq qaralayalım. Şübhəsiz ki, bu sətirlərlə veriləcək məlumat Azərbaycanın paytaxtının şan və heysiyyatı və hüciyyəti ilə olmayacaq... Düşündüm ki, nəqis də olsa, bir şey olsun. Biz nəqisini başlarıq, mütəşəbbüs gənclərimiz də çalışar, vətən eşqi, məmləkət məhəbbəti ilə səy edər, bu başlancığı təkmil edərlər..." *(M.Ə.Rəsulzadə: "Azərbaycan paytaxtı", "Azərbaycan" qəzeti, 1918, kanuni-əvvəl, № 3, 6, 19, 31).*

Cümhuriyyət dövründə ən böyük çətinliklərdən biri o idi ki, ölkədə kütləvi savadsızlıq hökm sürürdü. Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin, Əhməd bəy Ağaoğlunun, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin və digər təəssübkeşlərimizin kədərlə, bəzən qınayaraq, bəzən acı-acı gülərək, bəzən satira qamçısı ilə vuraraq, amma hər bir halda sevərək, ürək yandıraraq təsvir etdikləri həmin millət idi. Firidun bəy Köçərlinin 1906-cı ildə "İrşad" qəzetində yer verilən və geniş müzakirələrə səbəb olan "Qaranlıqda qalanlarımız" adlı məqaləsində bəhs etdiyi qaranlıqda qalanlarımızı – məktəbdən, təhsildən uzaq salınmış, cəhalətin həyatın dibinə endirdiyi soydaşlarımızın düşüncələrini maarif nuru ilə işıqlandırmaq ən mühüm məsələlərdən biri idi.

"Azərbaycan" mətbuatımızın "Əkinçi"sindən başlayan maarifçilik yoluna sadiq idi. Ancaq sələflərindən fərqli olaraq, onun bəxti gətirmişdi. Azad ölkənin mətbuat orqanı idi. Müstəqil dövlətimizin vətəndaşlarının hüquqlarını qoruyur, inkişafı naminə çalışırdı. Cümhuriyyət hökuməti əhalinin savadlandırılması, yeni milli kadrların hazırlanması istiqamətində məqsədyönlü işlər görürdü. "Azərbaycan" qəzetinin yazarlarının əksəriyyəti uzun illər həm də bunun üçün mücadilə etmişdilər. Qəzetin 1919-cu il 9 aprel tarixli nömrəsində yazılırdı: "...Millətin xoşbəxtliyi səltənətin əzəmətindən asılı deyil, millətin səadəti asılıdır maarif nihalının o millət içə-

risində bitib və nə əndazədə kök salıb qol-budaq atmağından". Bu fikirlər, əslində, bütün "Azərbaycan"çıların mövqeyini əks etdirirdi. Maarif sahəsində hökumətin həyata keçirdiyi tədbirlər haqqında qəzetdə vaxtaşırı məlumatlar verilirdi. Bu mənada da "Azərbaycan"ın mövzuları geniş idi. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin maarif sahəsində təqdirəlayiq işləri çox idi. Onların içərisində 1919-cu ilin 15 noyabrında fəaliyyətə başlayan ilk ali məktəbin – Bakı Dövlət Universitetinin yaradılması xüsusilə diqqətəlayiqdir. Bu universitetin açılmasından əvvəl də, bütün fəaliyyəti boyu da hökumət qəzetində ətraflı məlumatlar verildi. Məhəmmədağa Şahtaxtlının "Azərbaycanda darülfünun" adlı məqaləsində ölkədə universitet açılması müstəqil dövləti qurmağın, qorumağın, inkişaf etdirməyin mühüm vasitələrindən biri hesab edilirdi: "Darülfünun olmazsa... ümumi maarifə aid orta məktəblərimizdə dərs verəcək müəllimlərimiz olmaz. Naxoşlarımızı müalicə edəcək təbiblər yetişməz. Hüquqşünas alimlər bulamayız ki, mal və mülk üçün münaqişə edən vətəndaşlarımızı... mühakimə etsin... Mədəni həyatın şəraitinə və amillərinə təhdid nəzərilə baxıldıqda o dəqiqə görünür ki, bu həyatın mənbəyi, sərçeşməsi mabədəl qəvalül-darülfünundur. Darülfünundan əl çəkmək mədəni həyatdan rugərdan olmaqdır".

Əhalinin maarifləndirilməsi üçün hökumətin əhəmiyyətli tədbirlərindən biri də XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının yetişməsində mühüm rol oynamış Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Gürcüstandan Qazaxa köçürülməsi oldu. "Azərbaycan"ın səhifələrində qalan məlumatlar cümhuriyyət hökumətinin fəaliyyətinin ilk dövründən bu işlə məşğul olduğunu deməyə əsas verir. Qəzetin birinci ilinin 14-cü nömrəsində yazılanlardan həmin məsələnin iyunun 10-da qəti şəkildə həll edildiyi bəlli olur.

Azərbaycanda milli kadr çatışmazlığı yeni hökuməti daha bir zəruri addım atmağa vadar etdi. Cümhuriyyət hökuməti 100 nəfər gənci dünyanın qabaqcıl ölkələrinin ali məktəblərində təhsil almağa göndərdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bu təşəbbüsünü alqışlayan Fərhad Ağazadə "Avropaya gedən tələbələrin Azərbaycana töhfələri" adlı məqaləsində gənclərə müraciət edirdi: "Qardaşlar! Bu zikr edilmiş əsərlərdən bizə bir sovqat gətiriniz, qarınca kibi hər yerdən vətənimizə bir şey toplayınız. Bu şeyləri cəmləyib sonra mükəmməl tariximizi, ahəngli qəvaidəmizi, dəbdəbəli ədəbiyyatımızı yapaq, daha doğrusu, yenidən icad edək. İcad edib də mədəniyyətə doğru həvəsli bir millət olduğumuzu Avropaya sübut edək!" *("Azərbaycan" qəzeti, 1919, №351).*

Bu dövrdə Abdulla Şaiqin rəhbərliyi ilə ana dilində ilk orta məktəb açıldı. Qadınların savadlandırılması üçün də ciddi tədbirlər görüldü. "Azərbaycan" bütün bu məsələlər barədə əhatəli şəkildə oxuculara məlumat verirdi. Qəzetdə qadınları ictimai həyatda fəal iştirak etməyə, kütləvi savadlanmaya çağıran məqalələr çap olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti qısa fəaliyyəti müddətində mətbuat sahəsində də əhəmiyyətli işlər gördü. Mətbuatın inkişafı üçün münbit şərait yaradıldı. Cümhuriyyət dövründə yalnız bolşevik mətbuat orqanlarının sayı 40-dan çox idi. "Zəhmət sədası", "Azərbaycan füqərası", "Füqəra sədası", "Al bayraq", "Füqəra", "Hümmət", "Gələcək", "Hürriyyət", "Tartan-partan" və başqa bolşevik ruhlu mətbuat orqanları hökumətin fəaliyyətini tənqid edir, Azərbaycanın qurtuluşunu sinfi mübarizədə, sosialist inkişaf yolunda gördüklərini yazırdılar. "Azərbaycan", "Azerbaydjan", "Açıq söz", "Bəsirət", "Müsavat", "İstiqlal", "Türk sözü", "Millət", "Azərbaycan hökumətinin əxbarı" kimi mətbuat orqanları isə Azərbaycanın müstəqil yaşamaq hüququnu müdafiə edirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti tərəfindən qəbul edilən daha bir mühüm sənəd – "Mətbuat haqqında Nizamnamə" mətbuata dair normativ aktları müəyyənləşdirdi. Nizam-

namənin birinci bəndində mətbuat azadlığı bəyan edilirdi. Nizamnamənin hazırlanmasında, müzakirəsində və 1919-cu ilin 30 oktyabrında qəbul edilməsində xüsusi xidmət göstərənlərdən biri də "Azərbaycan" qəzetinin redaktoru, parlamentin üzvü Şəfi bəy Rüstəmbəyli oldu. Parlamentin 23 oktyabr 1919-cu il tarixli iclasında nizamnamə layihəsini də Şəfi bəy Rüstəmbəyli təqdim etmişdi. Parlamentin Həsən bəy Ağayevin sədrliyi ilə keçən iclaslarında Şəfi bəy Rüstəmbəyli, Səməd Ağamalıoğlu, M.V.Əxicanov, İbrahim Əbilov, Nəsib bəy Yusifbəyli, Məhəmməd Əmin Rəsulzadə, Əliheydər Qarayev, Əhməd Pepinov, A.Kazımzadə, V.A.Baqradze, Q.K.Saniyev və başqalarının çıxışlarında, eləcə də dövri mətbuatın, "Azərbaycan" və "İstiqlal" qəzetlərinin açdığı müzakirələrdə müəyyən fikir ayrılıqları olsa da, mətbuat işinin nizamlanması, jurnalistikanın inkişafı, söz, fikir və informasiya azadlığının təminatı baxımından nizamnamə yüksək dəyərləndirildi.

Ölkədə söz və mətbuat azadlığını əsas məqsəd bilən bu nizamnamə parlamentdə ciddi müzakirələrdən, mübahisələrdən sonra qəbul edildi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov xaricdə olduğundan bu mühüm sənədi baş müavin Həsən bəy Ağayev, katib Əhməd Cövdət, idarə rəisi Vəkilov imzaladılar.

Rəsmi qəzetdə rəsmi sənədlər, protokollar və fərmanlar, dövlət quruculuğu məsələləri, parlamentin fəaliyyəti haqqında da mütəmadi yazılar dərc olunurdu. Belə ki, 1918-ci il noyabrın 16-da yenidən öz işini bərpa edən Azərbaycan Milli Şurasının, şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin parlamentin çağırılması ilə əlaqədar noyabrın 19-da Azərbaycan əhalisinə müraciəti, şurada gedən müzakirələrin materialları və qəbul olunan qərar qəzetdə dərc edildi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də fəaliyyətə başladıqdan sonra onun fəaliyyəti "Azərbaycan" qəzetində geniş işıqlandırılırdı. Həmin gün münasibətilə yazdığı "Tarixi günümüz" adlı məqaləsində Üzeyir Hacıbəyli bildirirdi: "Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir. Yüz-yüz əlli sənə bundan əvvəl müxtəlif xanlıqlardan ibarət olan Azərbaycan torpağının rus istilasından qazandığı bir mənfəət o oldu ki, bu torpaq üzərində qurulmuş olan saxta və əməli hüquqları silinib-süpürülmüş müttəhid və vəsi bir ərazi şəklinə girdi və bu gün xilas olub da iki milyon mütəcavüz nüfus ilə Azərbaycan Cümhuriyyəti namını daşımağa kəsbi-ləyaqət etdi. Bəs bu gün haman bu Azərbaycan Cümhuriyyətinin milli parlamanı, Milli Məclisi açılmaqla təşkilat və tərtibati-siyasiyyəsi artıq itmama yetir. ...Belə olan surətdə, deməli, qəlbimizdə bəslədiyimiz ümid – parlamanımızdır. Və ümidvarıq ki, cavan parlamanımız bu ümidimizin hüsulu yolunda var qüvvəsilə çalışacaq və vətənimizin istiqlal və azadlığına birinci səbəb olacaqdır" *("Azərbaycan" qəzeti, 7 dekabr 1918, №58).*

Fərhad Ağazadə "Parlamandan nə tələb olunur" adlı məqaləsində isə yazırdı: "Bu, müqəddəs bir yerdir ki, orada millətin dərdi, vətənin haləti müzakirə olunub çarələri üçün də tədbirlər ittixaz olunacaq. Məbuslar arasında bəliğ və uzun-uzadı nitq söyləyənlər də az deyil, lakin onlardan millət naminə rica olunur ki, fəsahət və bəlağət qabiliyyətlərini və natiqlik məharətlərini sair "əsari-nəfisə" məclislərinə buraxıb parlamanımızda ancaq dərdlərimizdən danışsınlar, onlara əlaclar tapsınlar. Bunların hamısından məclis xitamə irdikdə millətimiz məbuslarımızdan nə iş gördüklərini tələb edəcək. Bu, gərək hər bir qədəmdə, hər bir hərəkətdə məbusların yadından çıxmasın. Məbusların görəcəkləri iş hədsiz və hesabsızdır" *("Azərbaycan" qəzeti, 2 aprel 1918).*

"Azərbaycan"çılar ölkə vətəndaşlarını ayıq-sayıq olmağa, üzərlərinə düşən vəzifənin məsuliyyətini anlamağa, tarixin verdiyi bu böyük şansı əldən verməməyə səsləyirdilər. Xəlil İbrahim "Azərbaycan Parlamanı dəvəti münasibətilə" adlı məqaləsində yazırdı: "Bu gün Azərbaycanın

həqiqi sahibləri – xəlq öz nümayəndələri lisanilə parlaman kürsi-xitabətindən öz arzu və amallarını aləmi-bəşəriyyət hüzurunda nümayiş etdirəcəklərdir.

Azərbaycan türkləri məhkum ikən hüquqi-milliyyə və istiqlal mübarizəsi düsturu olaraq meydanə atmış olduğu "Yaşa və özgələrə yaşamaq imkanı ver" şüarına sadiq qalaraq məhkum ikən tələb etdigi mütənasib nümayəndəlik əsasını müstəqil olduqda da unutmayaraq Azərbaycanda əqəliyyət təşkil edən millətlərin də mütənasib nümayəndəlik həqqinə riayətlə bu əsas üzərinə parlaman çağırmağı lazım bildilər.

Azərbaycan türkləri həmişə ağalıq, hakimlik üçün degil, hüquqi-milliyyə və bəşəriyyənin təmini üçün çalışdıqlarını bir daha isbat edərək cümhuriyyətimiz daxilində yaşayan ümum vətəndaşlarımızı həyatımızın quruluşunda iştirakə dəvət etdilər, Azərbaycanda heç millət, heç sinif, heç silk hakim, ya məhkum ola bilməz, hamı vətənin həm ağasıdır, həm nökəri. Hər bir vətəndaş gərək ümumi vətənin səadətilə məsud, ələmilə mövləm olsun.

Hamı özünü müsavülhüquq vətəndaş hiss etsin".

Dövlət quruculuğuna, islahatların aparılmasına, məmurların və millət vəkillərinin üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmələrinə, bir sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin güclənməsinə "Azərbaycan"çılar qələmləri ilə yardım edirdilər. "Azərbaycan" müstəqil ölkə vətəndaşlarının qarşılaşdıqları heç bir bir nöqsanı diqqətindən kənarda qoymurdu. Süründürməçiliyə, rüşvətxorluğa, hüquq mühafizə orqanlarının özbaşınalığına, parlamentdəki vəziyyətə, məvaciblərin azlığına və digər problemlərə qəzetdə daim münasibət bildirilirdi. Üzeyir Hacıbəyli "Məmurlarımız haqqında" məqaləsində bildirirdi: "Vaqeən məmurların rüşvətxorluğu hökumət və məmləkət üçün qorxulu bir vaqeədir... Odur ki, rüşvətxorluq iylə mübarizə qılmaq hökumətin böyük vəzifələrindən biridir" *("Azərbaycan" qəzeti, 5 sentyabr 1919).*

"Bir sual münasibətilə" adlı məqaləsində də Üzeyir bəy rüşvətxorluğa qarşı barışmaz mövqeyini ifadə edirdi: "Adam öldürmək bir cinayət olduğu kimi, rüşvət almaq dəxi bir cinayətdir. ...Nifrət və istikrahla qarşılanacaq olan bu adam vaqeən mənəvi bir edama məhkum edilib, cəzai-səzasinə çatacaq və aldığı rüşvət də ona haram olacaqdır" *("Azərbaycan" qəzeti, 22 oktyabr 1919).* "Daxili işlərimizdən" sərlövhəli yazısında isə o, başqa bir mühüm məsələyə diqqəti çəkirdi: "Polis boylə bir zəndə idi ki, onun vəzifəsi əhalinin baş və bədəni üzərinə şallaq çəkməkdən və rüşvət almaqdan ibarətdir.

Fəqət azad və müstəqil Azərbaycan hökumətində boylə bir əcayib vəzifəşünaslığa yol verilməməlidir. Polis əhli öz vəzifəsinin fəsl mənasını dürüst bilməli və dərk etməlidir. Onun doğrudan-doğruya vəzifəsi əhalinin canını, malını, şərəf və heysiyyatını hər bir təcavüzdən qorumaq və dövlət qanun və qaydalarını cəmaət arasında icra edilməsinə çalışmaqdır. Əhali polis məmurlarını qorxu üzündən deyil, onu təcavüzlərdən qoruyan bir mühafizə, bir qoruqçu sifətilə layiqi-ehtiram bilməlidir" *("Azərbaycan" qəzeti, 25 oktyabr 1919).*

Üzeyir bəy maaşların azlığı, millətin maddi vəziyyətinin aşağı olmasından bəhs edərkən müəllimlərin timsalında problemin dözülməzliyinə belə diqqəti çəkirdi: "Xalq müəllimlərinin məvacibi olan dörd yüz otuz beş manata nəinki külfətdar və ailə sahibi olan bir müəllim, hətta subay adamlar da dolana bilməzlər" *("Əgri yol", "Azərbaycan" qəzeti, 10 aprel 1919).*

Cəfər Cabbarlı isə "Parapetdən Şamaxı yoluna qədər" *("Azərbaycan" qəzeti (rus dilində), 26 noyabr 1918)* adlı felyetonunda redaksiya əməkdaşlarının düşdüyü ekstremal şəraitlə yanaşı, dövlət məmurlarının, nazirlərin astagəlliyi, sosial problemlərə soyuq, biganə münasibətlərini gülüş hədəfinə çevirirdi.

"Azərbaycan"çılar vacib problemləri oxucuların nəzərinə çatdırmaqla yanaşı, onun həlli yollarını da göstərirdilər. Üzeyir Hacıbəyli ümidlə yazırdı: "Məmləkətimiz və vətənimiz kəmalisürətlə bir tərəfdən qüvvət tapıb, bir tərəfdən də tərəqqi edəcək və getdikcə ağ günlərə çatacaqdır" *("Xatimə", "Azərbaycan" qəzeti, 15 may 1919).*

Qəzet xoş gündə – Bakının erməni-daşnak birləşmələrinin əsirliyindən qurtuluşu günündə fəaliyyətə başlamışdı. Ancaq ondan əvvəlki qanlı-qadalı hadisələr Azərbaycan xalqına elə bir mənəvi yara vurmuşdu ki, sağalması çətin idi. 1918-ci ildə Bakıda ermənilərin azərbaycanlılara yaşatdıqları dəhşətlərin şahidi olmuş Məhəmməd adlı biri "Azərbaycan" qəzetində yazırdı: "Küçələr meyitlərlə dolmuşdu. Quba meydanından (indiki Füzuli meydanı) Nikolayevski (hazırkı İstiqlaliyyət küçəsi) caddəsinə qədər bazar tamam yandırıldı. Uşaq, böyük, arvad, kişi – heç kəsə fərq qoymadan hamısını qətl edirdilər. Müsəlmanların ev, dükan və mağazaları yandırılmışdı. Bir müsəlman həyətinə daxil olub burada 30-dan 40-a qədər uşaq, arvad, kişi cənazələrini gördüm. Müsəlmanların tələfatı, yalnız qətl edilənlər 5-6 minə qədərdir".

"Azərbaycan" qəzetində "Mart hadiseyi-ələməsinin müxtəsər tarixçəsi" sərlövhəli məqalədə Şaumyan, Saakyan və Arekyanın rəhbərlik etdikləri dəstənin Bakıdan qabaq Şamaxıda qırğınlar törətdikləri yazılır: "Martın 16-da xəbər gəldi ki, bolşevik soldatları Şamaxıya hərəkət edərək intizamsızlıq salıb, yolda qabaqlarına gələn müsəlman kəndlərini, o cümlədən Ağdərə, Novxanlı, Qarxunlu kəndlərini qarət edib müsəlmanları qırırlar". Qəzetdə Şamaxı qırğınında iştirak edən bolşevik-erməni silahlı birləşmələrinin sayı da göstərilirdi: "Şamaxı mahalına bir qitə göndərilib, əhalı məhv edilir. 4 min əsgərin yüzdəsəksəni erməni olub". Erməni-bolşevik birləşmələrinin yandırdıqları Şamaxının ən qədim tarixə malik məscidinin şəklini səhifələrində dərc edərək bugünümüzə çatdıran qəzetdə Şamaxının yalnız xarabalıqlarının qaldığı yazılır, sağ qalanlar belə təsvir edilir: "Biçarə şamaxılılar öz isti ocaqlarını buraxıb yağış-yağmurun altında bu səhraları ata oğlunu, ana qızını gözlərinin yaşını tökə-tökə axtarırlardı" *("Azərbaycan" qəzeti, 31 mart 1919, №147).*

Hacıbəyli Üzeyir imzası ilə "Başlanır" adlı məqalədə olduqca ibrətamiz məsələlərə toxunulurdu: "Özgənin iki gözünü çıxartmaq üçün özünün bir gözünü qurban etmək politikası yolunu tutmuş olan daşnaklardan nəticəsi hər vaxt erməni millətini fəlakətdən-fəlakətə salan "müsəlləh üsyan"lardan başqa özgə bir qabiliyyət gözləmək üçün cahil və qafil olmaq lazım gəlir.

Daşnaklar Qarabağ ermənilərini bizə qarşı üsyana dəvət edirlər. Bu üsyanın açıq-açığına qəzetə vasitəsilə elanı daşnakların bihəyalığını sübut edən aşkar dəlillərdən birisidir" *("Azərbaycan" qəzeti, 13 fevral 1919).* Müəllifin "Eyni müamilə gözləyirik" adlı məqaləsində isə qeyd edilirdi: "Qarabağda bu "hartu-vurtu" salan və bu hərəkətləri çıxaran bütün Qarabağ erməniləri olmayıb, bəlkə bir dəstə daşnak güruhudur. Qarabağın kənd erməniləri yaxşı bilirlər ki, Azərbaycan hökumətinə tabe olmasalar, müsəlmanlar ilə əlaqələrini kəsməyə məcbur olub, acından ölərlər. Ona görə biz əminik ki, bədbəxt erməni kəndləri bu gün bir dəstə daşnakların xəyanət və şeytanəti qurbanlarıdırlar, bu güruhi-layəfəlhun erməni millətinin gözünü o qədər qorxudublar ki, bir bu qədər haqsızlıq və zülmlərə qarşı ağız açıb söz deməyə cürətləri yoxdur. Əgər bu xainlər güruhu Qarabağdan tərd və təbid edilirsə və onların yuvaları dağılırsa, Qarabağ erməniləri asudə nəfəs çəkib, həm acından ölməzlər, həm də öz həmişəki qonşuları ilə mehriban dolanıb, Azərbaycan hökumətinin ədaləti altında və sayeyi-mərhəmət qayəsində kəmali-asudəgi ilə imrari-məişət edərlər" *("Azərbaycan" qəzeti, 5 may 1919).*

Şəfi bəy Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksütyun" partiyasının şovinist siyasətinin ermənilərin özlərinə də xeyir gətirməyəcəyini, bu yolun onları məhvə aparaca-

ğını deyirdi: "Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, hələ nə qədər ki gec deyil, ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır" *("Azərbaycan" qəzeti, 19 sentyabr 1919, №2).*

Daşnakların əsl xislətini göstərən, Tiflisdə ingilis dilində nəşr olunan "Corciən meil" qəzetindəki məqaləyə Üzeyir bəy "Corciən meil"in məqaləsi" adlı yazısı ilə münasibət bildirirdi: "Arzumuz budur ki, bu məqalə Avropa mətbuatına dəxi keçib, daşnak ilanlarına inananları ayıldıb doğru və həqiqətə qarşı yumulmuş olan gözləri açdırsın və bu yalanlar vasitəsilə nə qədər zəlalət və rəzilət törəndiyini və bunun nəticəsi olaraq nə kibi haqsızlıqlara yol verildiyini Avropa əfkari-ümumiyyəsinə anlatsınlar" *("Azərbaycan" qəzeti, 21 oktyabr 1919).*

"Ermənilər" *("Azərbaycan" qəzeti, 25 sentyabr 1918),* "Andronik nə istəyirmiş" *("Azərbaycan" qəzeti, 19 yanvar 1919, № 68)* və bu qəbildən olan digər yazılarında Fərhad Ağazadə azərbaycanlıların qanına susamış erməni quldurlarının törətdikləri vəhşiliklərdən, talanlardan, xalqımızın vətənpərvər övladlarının onlara layiqli cavab verməsindən, Bakının daşnak-bolşevik quldurlarından azad edilməsindən bəhs edirdi.

Çox çətin şəraitdə müstəqil dövlətin möhkəmləndirilməsi üçün çalışanların əzmi heyrətamiz idi. Çünki Fərhad Ağazadənin "Türk şüərası və istiqlal" adlı yazısında bildirdiyi kimi, istiqlal minlərcə şəhidin qanı bahasına başa gəlmişdi *("Azərbaycan" qəzeti, 28 may 1919, № 190).*

Azərbaycanın dövlət müstəqilliyinə təhdidlər də bitməmişdi. Şimaldan gələn qasırğa getdikcə yaxınlaşırdı. Üzeyir bəy yazırdı: "...Bizim üçün şimaldan təhlükə mövcud olduğu məlum bir məsələdir. Bunu heç vaxt unutmayıb da var qüvvəmiz ilə çalışmalıyıq ki, bu şimal təhlükəsinin rəddinə qarşı həmişə və hər bir halda hazır olaq. Ona görə mümkün mərtəbə hazırlanmalı və heç bir fədakarlıqdan çəkinməməliyik.

Biz hazır olandan sonra düşməndən qorxumuz yoxdur" *(Ü.H. "Dərbənd əhvalatı", "Azərbaycan" qəzeti, 26 may 1919).*

Uzun illərin əsarətindən qurtulmuş bir xalqın nə vaxtsa yenidən Rusiyanın işğalına məruz qalacağından narahatlıq "Azərbaycan"ın səhifələrində gedən bir çox yazılarda əksini tapdı. "Rusiya əhvalı" məqaləsində Üzeyir bəy həmin hissləri ifadə edirdi: "Bugünkü vəzifəmiz Rusiya işlərinə kənardan baxmaq və Rusiya daxilində vaqe olan hadisələrə qarşı bitərəf qalmaqla bərabər, oradan bizi təhdid edən təhlükələrdən özümüzü qorumaqdır... Təhlükə bolşevik tərəfindənmi və ya Denikin tərəfindən vaqe olacaqmı, bizdən ötrü təfavüt yoxdur, qorunmaq və hər bir vasitə ilə istiqlalımızı mühafizə etmək, vəssalam" *(Üzeyir Hacıbəyli, "Azərbaycan" qəzeti, 9 oktyabr 1919).*

"Qara təhlükə" adlı məqaləsində Üzeyir bəy çar Rusiyasının hüdudlarını bərpa etməyə çalışan, müstəmləkəçilik hökmranlığının tərəfdarı olan Denikini kəskin tənqid edirdi. O, Azərbaycan istiqlalının düşmənlərinin Denikin və erməni-daşnak birləşmələrindən ibarət olmadığını yazır, "içimizdəki denikinlər" barəsində də xalqa məlumat verirdi *("Azərbaycan" qəzeti, 1919, №198).*

Göz yaşları qurumamışdı. Müstəqilliyə təşnə millət azadlıq sevincini hələ doyunca yaşamamışdı. Soydaşlarının keçirdiyi hissləri 1920-ci ilin aprelində "Ağlayırdım, gülürəm!" adlı şeirində Əhməd Cavad belə dilə gətirirdi:

*Arkadaşlar, dörd yanıma baxdıqca*
*Ağlayırdım, ağlayırdı irmaqlar!*

*Yurd oğlunun göz yaşları axdıqca*
*Ağlayırdım, ağlayırdı topraqlar!*
*("Azərbaycan" qəzeti, 6 aprel 1920, № 68)*

Həmin şeirin sonuncu misralarındakı fikirlər isə şairin gözlənilən təhlükədən yurddaşlarına xəbərdarlığı kimi səslənir:

*... Ay yurd oğlu, ağlayanlar keçəndə*
*İstər idi bu gün səni güldürsün!*
*Sarı yüzlü daydularıı gör sən də,*
*Qoyma bir də işığını söndürsün!*

*Əsirgədi bu gün səni Yaradan,*
*Öz yurdunu verdi sənin əlinə!*
*Daydularıı çıxartmısan aradan,*
*Saqın, bir də sataşmasın gözünə!*

*Göstərməsən bundan sonra sən ərlik,*
*Beş gün çəkməz yurdun-yuvan dağılar!*
*Qardaş kimi eyləməsən həp birlik,*
*Yenə girər torpağına yağılar!*
*("Azərbaycan" qəzeti, 6 aprel 1920, № 68).*

Hələ Azərbaycan Xalq Cümhuriyyətinin bir illiyini qeyd etməyə hazırlaşdıqları zaman Üzeyir bəy "Azərbaycan" qəzetində yazırdı: "Deməli, bir gün olacaqdır ki, Rusiyada monarxistlər və ya bolşeviklər hakimi-mütləq olmaq ixtiyarını birkərəlik ələ alıb da, ondan sonra Rusiyadan alınmış olan "üsyançı"lar üzərinə tökülüb, onları bir itaətə məcbur etmək işinə uğraşacaqlar". O müdhiş günlər yetişirdi...

## Xoş günlərin şahidi...

"Azərbaycan" qəzeti dövrün bütün ictimai-siyasi gərginliklərinə, nigarançılıqlarına, narahatlıqlarına rəğmən, müstəqil hökuməti ilə birlikdə neçə-neçə uğura, xoş günlərə şahid oldu. Səhifələrində çoxlu təbriklər, sevinc, ümid hislərinin əks olunduğu materiallar dərc edildi: Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunması, Azərbaycan Xalq Cümhuriyyətinin "İstiqlal Bəyannaməsi", Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin işə başlaması və fəaliyyəti, Bakı Dövlət Universitetinin yaradılması, dövlət müstəqilliyinin ildönümünün qeyd edilməsi, 1920-ci il yanvarın 11-də Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması...

1919-cu ilin 28 mayında Azərbaycanın istiqlaliyyətinin elan olunmasının birinci ildönümünə həsr olunmuş, başında "İkinci sənəyi-davamiyyəsi", adının altında isə böyük hərflərlə "Azərbaycan istiqlaliyyətinin bir sənəliyi münasibəti ilə "Dardanel" lokantasında Rumın orkestri və Asiya musiqisi çalıb xanəndələr oxuyacaqdırlar, məşhur tarçalan Həsənin təhti-idarəsində" yazılmış nömrədə Şeyxülislam Axund Ağa Ağaəlizadənin "İstiqlaliyyət", Məhəmməd Əmin Rəsulzadənin "Nə böyük bayram!", Üzeyir Hacıbəylinin "Bir yaş", İbrahim Xəlilin "Şərəfli bay-

ram", Fərhad Ağazadənin "Türk şüərası və istiqlal", Əliabbas Müznibin "Azərbaycan istiqlalı" və digər yazılarda bu möhtəşəm qələbənin sevinci ifadə edilirdi. Materiallar "Yaşasın müstəqil Azərbaycan Cümhuriyyəti!", "Yaşasın türk milləti! Yaşasın millətlərin qardaşlığı!", "Yaşasın təyini-müqəddərat hüququ!", "Yaşasın cahan demokratiyası!", "Var olsun hürriyyət və istiqlal, qəhr olsun düşmənləri!" şüarları altında verildi.

Ancaq bu qəzetin ağır günləri də heç bitmədi. Millətinin tarixi qələbəsinə, müstəqillik sevincinə sonuna qədər bürünə bilmədi. Gözləri önündə 1918-ci ildə Azərbaycanın əksər ərazisində erməni-daşnak silahlı qüvvələrinin törətdikləri cinayətlərin qurbanlarının, vətənini əsarətdən qurtarmaq üçün canından keçənlərin hüzn dolu məzarları, ermənilərin amansızlıqla həyata keçirdikləri qırğınlarda əzab-əziyyətlər verdikləri azərbaycanlıların kədərli simaları, yandırılmış evlərin, ellərin xarabalıqları, könüllərdə külə dönmüş arzuların yas yerləri var idi. Onların yaralarını azad ölkələrini inkişaf etdirərək, dövlət müstəqilliyini bütün dünyada qəbul etdirərək, düşmənlərinə dağ çəkərək sarımaq olardı. Azərbaycan Xalq Cümhuriyyəti və onun rəsmi mətbu orqanı "Azərbaycan" qəzeti bu yolda yorulmadan, əzmlə çalışırdı.

...Yollarını bürümüş qara duman isə sıxlaşırdı. Şimal küləyi tufan qoparmaqdaydı. Belə ağır zamanda dövlətin düzgün təbliğata daha çox ehtiyacı var idi ki, bu mühüm vəzifənin həyata keçirilməsində "Azərbaycan" böyük xidmətlər göstərirdi. Cümhuriyyət hökuməti üçün təbliğat işinin nə qədər əhəmiyyətli olduğunu Üzeyir Hacıbəyli belə diqqətə çatdırırdı: "Necə ola bilər ki, özgələr bir danə kəndin (məsələn, Mərzi kəndi) bir-iki min manat cərimələnməsi və bir neçə adamın ittifaqən öldürülməsi haqqında ingilislərə şikayət edib bu barədə həftələrcə qəzet sütununda yazsınlar, amma biz yer ilə yeksan edilmiş kəndlərimizin, xaraba edilmiş şəhərlərimizin, zülm ilə öldürülmüş adamlarımızın haqqında bir söz də söyləməyib kirimiş duraq?!"

Təbliğat işində geri qalmağımız və bu məsələdə özümüzün günahkar olmağımız "Azərbaycan"dan əvvəlki mətbuat orqanlarında da dönə-dönə yazılırdı. Azərbaycan həqiqətlərini dünyaya bəyan etməyin vacibliyini Üzeyir Hacıbəyli bu qəzetdə belə diqqətə çatdırırdı: "İndiyə qədər o dərəcədə bişüur olmuşuq ki, bütün Qafqaz millətlərindən təkə-təklikdə ədədcə çox olduğumuz halda, biz Azərbaycan türkləri haqqında nəinki Avropanın, hətta yüz ildən bəri üstümüzdə sahiblik edən rusların da dürüst xəbərləri yox idi. Ruslar bugünə qədər bizi "persian" deyə İran və fars millətindən hesab edirlər. Mən özüm bizim "persian" olmayıb türk olduğumuzu Moskva və Petroqraddan əlavə, Bakının özündə də bir çox ruslara dəfələrlə qandırmışam.

Biz Azərbaycanı və iki milyondan artıq olan Azərbaycan türklərini Yevropaya və müttəfiq dövlətlərə indidən tanıtdırmalıyıq. Özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata, sənayeyi-nəfisəyə malik olduğumuzu onlara bildirməliyik. Dilimizin firəng dili Yevropada olan kimi, bütün Qafqazda ümumi bir dil olduğunu, məsələn, bir ləzgi ilə bir erməninin və ya bir malakan ilə bir aysorun bir-biri ilə türk-Azərbaycan dili ilə danışmağa məcbur olduğunu isbat etməliyik. Musiqimizin ümumi Qafqaz millətlərinə zövq və ləzzəti-ruhani verən bir musiqi olduğunu bildirməliyik. Yevropa şüəralarından geri qalmayaraq şairlərimizi, müsənniflərimizi, yazıçılarımızı, alimlərimizi birbəbir nişan verməklə xüsusi bir mədəniyyətə malik olduğumuzu əyan və aşkar etməliyik. Daha yüz il əvvəl müstəqil xanlıqlar surətində yaşadığımızı yada salmalıyıq. Cəsur və rəhmli, safdil və haqqu bir millət olub da, fitnə və fəsad, hiylə və təzvir kimi əxlaqizəmimədən ari olduğumuzu da gizlətməməliyik. Qəhrəman bir əsgər, qabil bir tacir, mahir bir sənətkar, zəhmətsevən bir əmələ, işgörən bir ziraətçi olduğumuzu da unutmayıb söyləməliyik" *("Mühüm məsələlər", "Azərbaycan" qəzeti, 1 dekabr 1918).*

Vətənin fədakar övladları dövlət müstəqilliyini qorumaq naminə bütün sahələrdə mübarizə aparırdılar. Böyük məsuliyyət tələb edən bir vaxtda Azərbaycan dövlətini siyasi-ideoloji təxribatlardan qorumaq məqsədilə ölkə ərazisində nəşr olunan mətbuat orqanlarına müvəqqəti hərbi senzura tətbiq edildi. Nuru paşa 1930-cu ildə Türkiyə Baş Hərbi Qərargahının Tarix komissiyasının xahişi ilə yazdığı memuarda bu barədə məlumat vermişdi: "Bakıda "Azərbaycan" namında bir türkcə (rəsmi hökumət qəzetəsi) və bir də rusca qəzet nəşr edilirdi. Bu qəzetlər mövqe komandanlığından bir senzor heyəti tərəfindən müraqiə edilirdi".

Əsasən hərbi məzmunlu yazılardan senzorun kəsmiş olduğu hissələr, ağ yerlər "Azərbaycan"ın az nüsxələrindədir. Bu, gənc Azərbaycanın ideoloji təxribatlardan, dini-etnik ziddiyyətlərdən qorunması üçün gərəkli idi.

"Azərbaycan" qəzeti yalnız xarici düşmənlərə qarşı mübarizə aparmırdı. Üzeyir bəy Azərbaycanın müstəqilliyini qəbul etməyən, yeni qurulan dövləti yenidən əsarətə sürükləməyə cəhd göstərən qüvvələri, müxalifətçi partiyaları satira atəşinə tuturdu: "Gözlər var ki, dünənə qədər əsir və qul olan milləti bu gün azad və sərbəst görmək istəmirlər. Qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb da söz söyləməsini eşitmək istəmirlər. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər" *("Azərbaycan" qəzeti, 5 dekabr 1918, №56).* Müəllif xarici və daxili düşmənlərə kəskin cavab verirdi: "Azərbaycan türklərini müstəqil və azad görmək istəməyənlər ya gərək bizi zor ilə təkrar qul və əsir etsinlər, ya buna gücləri çatmazsa, "tən qəzaya verib" əmr vaqe qarşısında ixtiyari-süskün etsinlər və ya buna da vicdanlarını razı edə bilməsələr, vətən deyib, Azərbaycan torpağından çıxıb getsinlər. Bu üç təklifdən hanki birini qəbul etmək istəsələr sahibi-ixtiyardılar. Ancaq bunu dürüst bilməlidirlər ki, biz Azərbaycan türkləri zor ilə də, güc ilə də əsarət zəncirini təkrar boynumuza salmaq istəməyəcəyik" *("Azərbaycan" qəzeti, 5 dekabr 1918, № 56).*

## "Azərbaycan" qəzetinin redaktorları

"Azərbaycan" qəzeti qısa müddətdə geniş, mötəbər tribunaya çevrildi. Dövrün tanınmış ziyalıları, ictimai-siyasi xadimləri, millət fədailəri ətrafına toplaşdılar. Onlar bu qəzet vasitəsilə cəmiyyəti düşündürən məsələlərə diqqəti çəkir, ictimai rəyi formalaşdırır, milləti yeni dövlət quruculuğuna səfərbər edirdilər. Üzeyir bəy və Ceyhun bəy Hacıbəyli qardaşları, Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Əhməd Cavad, Firidun bəy Köçərli, Ömər Faiq Nemanzadə, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə, Şəfiqə Əfəndizadə, Əliabbas Müznib, Məmməd Sadıx Axundzadə, Əli Yusif, Əli Şövqi, Yusif Vəzir Çəmənzəminli, Fərhad Ağazadə, Abdulla Şaiq, Abbas Səhhət, Adil xan Ziyadxanov, Məhəmməd ağa Şahtaxtlı, Hacı İbrahim Qasımov, Nağı bəy Şeyxzamanlı, Nəsib bəy Yusifbəyli, Hüseyn Bayqara, Əmin Abid, Behbud ağa Şahtaxtinski, Həmid bəy Şahtaxtinski və başqalarının məqalələri, şeirləri, elmi-publisistik yazıları bu qəbildən idi.

Ziddiyyətli bir vaxtda yeni hökumətin rəsmi orqanına rəhbərlik etmək, gərəkli şəkildə təbliğat aparmaq asan deyildi. Azərbaycanın müstəqilliyinə qarşı mübarizə aparanların önünə "Azərbaycan" qəzeti böyük mübariz kimi çıxmışdı. Yaradıcı heyət gərgin iş rejiminə rəğmən, ruh yüksəkliyi ilə, yorulmaq bilmədən çalışırdı. Çünki "Azərbaycan"çılar ölkənin müstəqilliyini qanıyla-canıyla arzulayanlar idilər. Onlar Azərbaycanın işıqlı gələcəyi üçün əllərindən gələni edirdilər.

1918-1920-ci illər arasında "Azərbaycan"ın ana dilində 443, rus dilində 438 nömrəsi işıq üzü gördü. Qəzetin Azərbaycan və rus dili nəşrlərinin dörd redaktoru oldu. İlk nömrələri imzasızdı və "Redaksiya heyəti" adından nəşr edilirdi. Azərbaycan dilindəki nəşrinə 5-ci nömrədən Ceyhun bəy Hacıbəyli, rus dilindəki nəşrinə isə Şəfi bəy Rüstəmbəyli redaktorluq etməyə başladılar.

Vətəninə sevgili, millətinə pərvanə olan bu dörd övladının – "Azərbaycan" qəzetinin dörd redaktorunun hər biri ömrünü Azərbaycanın yolunda fəda etdi. Milləti, məmləkəti üçün yaşamağın vicdanın hökmü, qəlbin istəyi olduğunu bir daha göstərdilər. Hərəsi bir cür, amma eyni dərdin – yenidən işğal olunmuş, əsir düşmüş vətənin dərdinin ağrısını, qəhrini çəkdi...

**Ceyhun Hacıbəyli**

Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni, mətbu həyatında onun qoyduğu izlər kifayət qədər aydın, silinməzdir. Yazıçı-publisist, tərcüməçi, naşir, redaktor, folklorşünas, diplomat, ictimai xadim, Azərbaycanın istiqlal mücahidi, mühacirətin fəal üzvlərindən və təşkilatçılarından biri – Ceyhun Hacıbəyli...

1910-1916-cı illərdə Peterburq Universitetində, sonra Fransanın Sorbonna Universitetində təhsil alan Ceyhun bəyin qarşısında bir də özündən üç yaş böyük qardaşı Üzeyir Hacıbəyli nümunəsi var idi. Qardaşı kimi, onun da "Azərbaycan"a qədər bir sıra mətbuat orqanında – "İrşad", "Proqres", "Tərəqqi", "İttihad", "Kaspi", "Baku" və digərlərində məqalələri dərc olundu, "İttihad" və "Kaspi"nin əlavəsi kimi çıxan "İzvestiya" qəzetlərində redaktorluq etdi. Birinci Dünya müharibəsi ərəfəsində Bakıya pənah gətirən Qars qaçqınlarına yardım etmək məqsədilə keçirilən xeyriyyə tədbirlərində fəal iştirak etdi. 1918-ci ilin avqustunda Gəncəyə gəldi. İlk addımlarını atan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəylinin Şəfi bəy Rüstəmbəyliyə və ona rəsmi "Azərbaycan" qəzetini nəşrə başlamaq təklifi Ceyhun bəyi mütəəssir etdi. O, "Azərbaycan"ın azərbaycanca nəşrinin ilk redaktoru oldu.

1919-cu ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyətinin Parisdə Versal sülh konfransına göndərdiyi nümayəndə heyətinin tərkibinə müşavir kimi "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəyli də daxil edildi.

Qəzetin 1919-cu il 9 yanvar tarixli 83-cü nömrəsində Ceyhun bəy oxuculara müraciət etdi: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq, Cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü.

Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə, qəzetə idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli-hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim".

Cümhuriyyət hökumətinin tapşırığı, Əlimərdan bəy Topçubaşovun başçılığı ilə, sədr müavini Məmmədhəsən Hacınski, üzvlər Əhməd bəy Ağayev, Əkbər ağa Şeyxülislamov, müşavirlər Məhəmməd Məhərrəmov, Mir Yaqub Mir Mehdiyev və Ceyhun Hacıbəylidən ibarət heyət Parisə yola düşdü. Onlar Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtmaq, müstəqilliyini dünyaya bəyan etmək üçün getdilər. 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarınadək fasilələrlə davam edən konfransda Antanta Azərbaycan Xalq Cümhuriyyətinin istiqlaliyyətini tanıdı.

Bakıda "Azərbaycan" qəzetinin Azərbaycan dilində nəşrinin redaktor yerində "müvəqqəti redaktor"ların adları yazılırdı. Çünki Ceyhun Hacıbəyli geri dönməli, yenidən bu vəzifəni tutmalı idi. Hələlik üzvü olduğu Azərbaycan nümayəndə heyəti ilə birlikdə Paris sülh konfransında mühüm işlər görürdü. Bu məsul vəzifənin ona Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin son tapşırığı olacağından xəbərsizdi. Ceyhun bəy bir daha vətənə qayıda bilməyəcəkdi. Amma Azərbaycana vəfa borcunu son nəfəsinədək yerinə yetirəcəkdi. Qürbətdə də vətəninə xidmət edəcək, Azərbaycan üçün yaşayacaqdı. Parisdə çıxan "Qafqaz", Münxendə nəşr edilən "Azərbaycan" jurnallarının redaktoru, "Azadlıq" radiosunun yaradıcılarından olacaq, Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini təbliğ edəcəkdi.

Geri dönsəydi... Sovet hökuməti Azərbaycan Xalq Cümhuriyyəti dövründəki fəaliyyətini unutmamışdı. Onun bağışlanaraq geriyə dönməsi üçün Üzeyir Hacıbəylinin əlaqədar təşkilatlara müraciətlərinin cavabsız qalması da bunu deməyə əsas verir. Ceyhun bəy Hacıbəyli mühacirətdə çox çətin həyat yaşadı. Üzeyir bəyin ömrünün sonunadək göndərdiyi pul yardımı ağır güzəranına müəyyən qədər kömək, qəlbinə təsəlli oldu. Və bir gün bu yardımlar da kəsildi...

Ceyhun bəy Hacıbəylinin nisgilli ömrü 1962-ci ildə tükəndi. Son mənzili Parisin Sen-klu qəbiristanlığı oldu.

**Şəfi bəy Rüstəmbəyli**

1918-ci il. Parlamentin son iclası. Simalarda kədərin qapqara kölgəsi var. Məhəmməd Əmin Rəsulzadə hüznlə işğalçı qüvvələrin Azərbaycana yaxınlaşdığını deyir. Hönkürtü səsi eşidilir. Qüssəli-qüssəli arxaya boylanırlar. "Azərbaycan" qəzetinin rus dili nəşrinin baş redaktoru Şəfi bəy Rüstəmbəylidir... Müstəqil dövlətin süqutuna, müəmmalı gələcəklərinə ağlayır...

O, orta təhsilini Gəncədəki klassik gimnaziyada almış, sonra Kiyev Universitetinin Hüquq fakültəsində oxumuşdu. 1911-1916-cı illərdə Kiyevdə yaşadığı tələbəlik çağları ziddiyyətli ictimai-siyasi hadisələrin fırtınasında keçdi. Şəfi bəy universitetdə yaradılan Azərbaycan Həmyerlilər Təşkilatının başçılarından və fəal üzvlərindən oldu. 1917-ci ildə Bakıda keçirilən Azərbaycan müsəlmanlarının qurultayında, Moskvada baş tutan Rusiya müsəlmanlarının qurultayında iştirak etdi. Azərbaycan Milli Şurasının Tiflisdə və Gəncədə yaradılan bölmələrində çalışdı. Dövlət qurumlarının yaradılmasında böyük xidmət göstərdi. "Azərbaycan" qəzetinin rusca nəşrinin ilk redaktoru olmaq da Şəfi bəy Rüstəmbəylinin qismətinə düşdü. 1918-ci ildən bu vəzifəni yerinə yetirməklə bərabər, Azərbaycan Milli Şurasının üzvü, Daxili İşlər Nazirliyinin dəftərxana müdiri oldu, 1920-ci il martın əvvəllərindən isə nazir müavini vəzifəsini icra etdi.

Publisistlik fəaliyyətinə işlərinin çoxluğu mane ola bilmədi. O, ölkənin siyasi və ictimai həyatına dair məqalələrlə "Azərbaycan"ın səhifələrində çıxış etdi.

Bolşeviklər Azərbaycanda müstəqil hökuməti devirdikdən sonra Tiflisə getməli oldu. Orada Şəfi bəy Rüstəmbəylinin rəhbərliyi ilə "Azərbaycanı xilasetmə komitəsi" yarandı. Qırmızı ordu 1921-ci ilin fevralında Gürcüstanı da işğal etdi. Şəfi bəy Türkiyəyə yollandı. İstanbulda müxtəlif illərdə "Yeni Qafqaziyyə", "Azəri türkü", "Odlu yurd" və "Azərbaycanın yurd bilgisi"ni nəşr etdi. 1933-cü ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin süqutunun səbəbini bütün reallığı ilə əks etdirən "27 aprel 1920-ci il xatirələri"ni qələmə aldı. Səfi bəy yazırdı: "Nəhayət, 27 aprel gecəsi saat 12-də Bakıda bütün idarə, məhəllə bolşeviklərin əlinə keçdi. Bununla aşağı-yuxarı ikiillik milli Azərbaycan istiqlal tarixi qapandı. Fəqət, milli azəri türkünün istiqlal ruhunu əlindən ala bilmədilər. İşğal zəfərləri yarımçıq

qaldı. Məmləkətin həqiqi övladlarının istiqlal uğrundakı qan ilə boyanmış və müttəhid bir kütlə halındakı gənc övladlarının hürriyyət və istiqlaliyyət ruhu ilə istiqlal hələ yürüyür. İmanın qüvvəsi, istiqlalın təbcili bizdə Bakı və Azərbaycan yaşadıqca yaşayacaq və bütün türk ellərini istiqlal ilə sevindirəcəkdir".

Son arzusu həyata keçdi. Ancaq o, Azərbaycanın yenidən istiqlala qovuşduğu günü görmədi. 1960-cı ildə İstanbulda Şəfi bəy Rüstəmbəyli vətən həsrəti ilə gözlərini əbədi yumdu...

**Xəlil İbrahim**

Ədəbiyyat, mədəniyyət xadimi, ictimai xadim, jurnalist, tənqidçi, teatrşünas, tərcüməçi, istiqlal fədaisi Xəlil İbrahim ibtidai təhsilini Şuşada aldıqdan sonra Bakıda realnı məktəbdə oxumuşdu. "Azərbaycan" qəzetinə qədər də bədii və publisistik yaradıcılıqla məşğul olurdu. 1919-cu ildə bu qəzetə redaktorluq etməklə yanaşı, həmin il yaradılmış Jurnalistlər və Ədiblər İttifaqının sədr müavini oldu.

Xəlil İbrahimin redaktoru olduğu qısa vaxtda da "Azərbaycan" öz dəst-xəttinə sadiq qalır, qəzetin səhifələrində dövrün ictimai-siyasi hadisələrinə ciddi münasibət bildirilir, parlamentdən müntəzəm yazılar dərc olunurdu. Onun özünün də müxtəlif mövzularda məqalələri bu qəzetdə yer alırdı.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin formalaşmasında böyük fəallıq göstərən Xəlil İbrahim aprel işğalından sonra ölkəni tərk etmədi. 1923-cü ilin yayında Azərbaycan Fövqəladə Komissarlığının və XI ordunun xüsusi şöbəsi tərəfindən həyata keçirilən kütləvi həbslər zamanı Mirzəbala Məmmədzadə, Hacıbaba Cəbiyev, Əbdül Vahab Yurdsevər, Cəfər Cabbarlı, Əhməd Cavad, Seyid Hüseyn, Xəlil İbrahim və başqa azadlıq mübarizlərini zindana saldılar. Bu dəfə "günahlarına sübut olmadığından" onları buraxdılar.

Xəlil İbrahim yenə ədəbi-bədii yaradıcılıqla məşğul oldu. Yazıları "Kommunist", "Ədəbiyyat", "Kəndçi" qəzetlərində, "Maarif və mədəniyyət" jurnalında dərc edildi. 1923-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində yaradılan elmi terminologiyanın işlənib hazırlanması üzrə komissiyaya əvvəl üzv, sonra məsul katib seçildi. Komissiyanın "Dilimizin silahı" adlı mətbuat orqanının redaktoru oldu. Sonra "Kommunist" qəzetində mədəniyyət şöbəsinin müdiri, bir müddət baş redaktorun müavini vəzifəsində çalışdı. 1930-cu ildən "Azərnəşr"də bədii ədəbiyyat üzrə redaktor işlədi.

1937-ci il noyabrın 11-dən 12-nə keçən gecə Xəlil İbrahim həbs edildi. 1938-ci ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı "üçlüy"ünün (Markaryan, Atakişiyev, Bağırov) 11 mart tarixli qərarı ilə "xalq düşməni" elan edildi, əmlakı müsadirə olunmaqla güllələnmə hökmü verildi. Hökm martın 25-də Nargin adasında yerinə yetirildi.

1956-cı ilin aprelində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Xəlil İbrahimin "cinayət işi"nə yenidən baxdı. Bu dəfə işində cinayət tərkibi tapmayıb bəraət verdilər.

**Üzeyir bəy Hacıbəyli**

1918-ci ilin aprel-mart soyqırımı zamanı dəhşətli faciələrə məruz qalan silahsız Azərbaycan övladlarının çoxu kimi, Üzeyir Hacıbəyli də həmin ilin mayında çətinliklə İrana getdi. Bakıya oktyabrın 23-də qayıtdı. Oktyabrın 25-dən "Azərbaycan"ın səhifələrində imzası göründü. Qardaşı Ceyhun Hacıbəylinin Parisə sülh konfransına getməsi ilə "Azərbaycan"a redaktorluq etdi. İki aylıq fasilə ilə on beş ay bu vəzifəni yerinə yetirdi. Müxtəlif mövzularda qələmə aldığı məqalələri isə hər gün, günaşırı, hətta bəzən bir nömrədə ikisi fərqli imzalarla dərc olundu.

Qəzetin 1919-cu il 215-ci nömrəsindən sonra redaktorluq vəzifəsini Xəlil İbrahim yerinə yetirdi. Həmin ilin iyul ayının əvvəllərində Üzeyir bəy Bakını tərk etməli oldu. "Azərbaycan"da yazılırdı: "Qəzetəmizin müvəqqəti müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək məqsədilə bir müddətə Bakudan gedib. Müvəqqəti müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir".

Üzeyir bəy iki aylıq müalicədən sonra geri döndü. 1919-cu ilin 3 sentyabrından "Azərbaycan" qəzetinə redaktorluğunu davam etdirdi. Yenə qəzetin həm də ən fəal yazarlarından biri oldu. Ölkənin ictimai-siyasi həyatı ilə bağlı bu qəzetdə müxtəlif janrlı yazılarına yer verildi. O, müstəqil Azərbaycanın ilk parlament jurnalisti kimi Milli Şuranın iclaslarından reportajlar da hazırlayır, parlamentdə baş verənləri şərh və təhlil edirdi.

"Azərbaycan" qəzetinin son nömrəsi də onun redaktorluğu ilə çap olundu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Üzeyir Hacıbəyli vətənindən ayrılmadı. Yenə ona Üzeyir bəy deyə xitab edərək ehtiram göstərdilər. Azərbaycanın bu sevimli övladı şöhrətin yeni zirvələrini fəth etdi. O, cümhuriyyətin qələbəsindən qabaq da bəstəkar kimi tanınırdı. Təkcə Azərbaycanda deyil, Yaxın Şərqdə ilk operanın – "Leyli və Məcnun" operasının müəllifi idi. Cümhuriyyət dövründə bəstəkarlıq fəaliyyəti ilə az məşğul olsa da, ən möhtəşəm əsərlərindən birini – Azərbaycanın Dövlət himnini bəstələdi.

Sovet hakimiyyəti illərində bəstəkarlıq publisistlik fəaliyyətindən önə keçdi. Bu, mətbuatımız üçün böyük itki idi. Azərbaycan musiqi sənəti isə həmin illərdə misilsiz bəstəkarın dəyərli əsərləri ilə zənginləşdi.

Azərbaycanın istiqlal mücahidlərinə qarşı amansız olan sovet hökuməti Üzeyir bəyin cümhuriyyət dövründəki fəaliyyətini unutmadı. Möcüzə də baş vermədi. Üzeyir Hacıbəyli şəxsiyyəti, Üzeyir Hacıbəyli dühası sipərə çevrilərək onu sovet hakimiyyətinin qəzəbindən, kinindən, hiddətindən qorudu. Azərbaycanın düşmənləri isə Üzeyir bəyi məhv etmək niyyətindən sonadək əl çəkmədilər. Onun həbsinə nail olmaq üçün ermənilər xüsusi səy göstərdilər. Azərbaycan Filarmoniyasının həmkarlar ittifaqının sədri Akopyan, Azərbaycan Konservatoriyasının partiya təşkilatının katibi Kiranov Azərbaycan daxili işlər xalq komissarı Sumbatova göndərdikləri məktublarda Üzeyir bəyin Azərbaycan Xalq Cümhriyyəti dövründəki fəaliyyəti, "Azərbaycan" qəzetinin nəşrində göstərdiyi xidmətlər, müsavatçı olması, qardaşı Ceyhun bəyin və ən yaxın dostlarının böyük əksəriyyətinin mühacirətdə yaşamaları, orada da Azərbaycanın azadlığı uğrunda mücadilələri, rəhbərlik etdiyi dövlət xoruna "xalq düşmənləri"nin övladlarını qəbul etdiyi, onları 1938-ci ildə Moskvada keçiriləcək Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyünə aparmağa hazırlaşdığı və digər "günahları" sadalanır, onun SSRİ Millətlər Şurasına deputatlığa namizədliyinin verilməsi qeyri-məqbul sayılırdı. 1937-ci ilin sonlarında Az.K(b)P MK Bürosunun qapalı iclasında bu məsələyə baxıldı, Mir Cəfər Bağırovun imzası ilə qərar qəbul edildi. Bu faktları yoxlamaq və yenidən büroya çıxarmaq qərarı ilə bərabər, Üzeyir bəyin bəstəkar şöhrəti, Azərbaycan kəndlilərinin yerli feodallara, türk sultanlarına qarşı mübarizəsindən bəhs edən "Koroğlu" operası və başqa uğurlu musiqi əsərinin müəllifi olduğu üçün Millətlər Şurasına deputatlığa namizədliyinin hələlik geri alınmaması məsləhət görüldü.

1938-ci ilin fevralında Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə Üzeyir Hacıbəyliyə "Koroğlu", "Arşın mal alan", "Stalinə salam" və digər əsərləri misilsiz şöhrət qazandırdı. Həmin günlərdə Kremldə keçirilən təntənəli qəbulda sovet dövlətinin başçısı Stalinin Üzeyir bəyə göstərdiyi diqqət, qayğı bədxahların gözlərinin odunu aldı. 1938-ci

ildə Stalinin göstərişi ilə onu birbaşa Sov.İKP sıralarına qəbul etdilər. SSRİ xalq artisti fəxri adı, Lenin ordeni, Stalin mükafatı verildi.

"Ellər atası"nın diqqəti, ehtiramı Üzeyir Hacıbəylini 1930-cu illərin repressiya burulğanlarından xilas etsə də, təhlükə bitmədi. 1940-cı ilin əvvəllərində on ildən artıq əlaqə saxlaya bilmədiyi qardaşı Ceyhun bəyin ailəsindən aldığı məktub Üzeyir bəyə qarşı yeni ittihama çevrildi.

Üzeyir bəyin isə öz dərdi özünə yetərdi. Uğrunda çalışdığı Azərbaycan Xalq Cümhuriyyətindən, müstəqil dövlətin vətəndaşı olmaq sevincindən məhrum edilmişdi, kiçik qardaşı Ceyhun bəy və digər uzunillik həqiqi dostlarından, məsləkdaşlarından ayrı düşmüşdü. Bolşevik hökumətinin sınaqları, erməni millətçilərinin donosçuluğu isə bitmək bilmirdi. Keçmişini ona xatırladır, bir zamanlar azad olan ölkəsi, soydaşları yolunda xidmətlərini diqqətə çatdırır, vətəni yolunda etdiklərini ölüm fərmanına çevirməyə çalışırdılar.

Ömrünün sonunadək mənəvi rahatlığı ona çox gördülər. Üzeyir Hacıbəyli 1948-ci ildə həyatı yalnız cismindəki ağrılarla yox, ürəyinə vurulmuş sağalmaz yaralarla tərk etdi.

## "Azərbaycan" qəzetinin yazarları...

Bu qəzetin təkcə redaktorları repressiya qurbanı olmadılar. "Azərbaycan"ın daimi yazarlarına, hətta səhifələrində bir yazısı belə dərc olunanların çoxuna qarşı sovet hökuməti ittihamlar irəli sürdü, kimisinin ömrü qürbətdə, kimisininki həbsxana divarları arasında keçdi, kimisi də güllələndi...

Cümhuriyyət dövrü milli mətbuatının siyasi publisistikasının ən dəyərli nümunələrinin müəlliflərindən biri də Məhəmməd Əmin Rəsulzadədir. Onun "Azərbaycan" qəzetində yer alan məqalələrində xalqın milli-mənəvi sərvətlərinin qorunması, demokratik ölkədə yaşaması, dövlət və dövlətçilik idealları əksini tapdı. Sovet hakimiyyətinin gəlişi Məhəmməd Əmin Rəsulzadə ömrünə vətən həsrəti, övladlarının və digər yaxın qohumlarının faciəsini yazdı. Azərbaycanı tərk etmək, mühacir həyatı yaşamaq məcburiyyətində qalan M.Ə.Rəsulzadə də son nəfəsini qürbətdə verdi. 1955-ci ildə "Azərbaycan" deyərək gözlərini əbədi yumdu...

Qadınların taleyi, son dərəcədə ağır maddi-mənəvi vəziyyəti, hüquqsuzluğu mətbuatda böyük ictimai-siyasi problem kimi müzakirə olunurdu. Belə dövrdə azsaylı ziyalı qadınlarımız bütün çətinliklərə, cəmiyyətin qınaqlarına sinə gərirdilər. Onlardan biri də maarif xadimi, publisist, yazıçı, xeyriyyəçi Şəfiqə xanım Əfəndizadə idi. O, on dörd yaşında ikən atasının Şəkidə işlədiyi Darrüssiya məktəbinin nəzdində qızlar üçün açılmış xüsusi qrupda dərs deməyə başlamışdı. 1901-ci ildə Tiflis Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək müəllimlik attestatı aldıqdan sonra Hacı Zeynalabdin Tağıyevin və Nəriman Nərimanovun təşəbbüsü ilə Bakıya dəvət olundu. Qızlar məktəbinin ilk pedaqoqlarından olan Şəfiqə xanım Əfəndizadə ictimai işlərdə də fəallıq göstərdi. 1910-cu ilədək Tağıyevin qızlar məktəbində, 1910-1920-ci illərdə şəhər rus-tatar qadın məktəbində Azərbaycan dili və ədəbiyyatı fənlərini tədris etdi.

Şəfiqə xanım Əfəndizadə Azərbaycanda baş verən hadisələrə münasibətini mahir publisist düşüncələrilə də bildirirdi. "Şərqi-rus" qəzetindən başlayaraq "Dəbistan", "Rəhbər", "Məktəb", "İşıq", "Açıq söz", "İstiqlal", "Bəsirət" və digər mətbuat orqanlarında müxtəlif mövzulu yazıları ilə çıxış etdi.

1918-ci ilin martında daşnak-bolşevik birləşmələrinin dəhşətlər saçdığı şəhərdən baş götürüb getməyə məcbur oldu. Qubada, Azqurda, İstanbulda yaşadı. Ancaq ürəyi Azərbaycanda qaldı. Orada baş verən hadisələri izləyir, öz münasibətini bildirirdi.

1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına – Bakıya qayıtdı. Pedaqoji işinə bərpa olundu. Yenə də mətbuatda müntəzəm çıxış etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ruh yüksəkliyi, sonsuz həvəslə, bitməz istəklə yazdığı cümhuriyyət hökumətinin demokratik islahatları, milli-azadlıq hərəkatı, qadın azadlığı, maarif-mədəniyyət, təhsil məsələlərindən bəhs edən məqalələri "Azərbaycan" qəzetində işıq üzü gördü.

Sovet dövründə də o həm pedaqoji, həm publisistik fəaliyyətini davam etdirdi. 1923-cü ildə nəşrə başlayan "Şərq qadını" jurnalının redaksiya heyətinə üzv seçildi. 1932-ci ilədək müəllim işlədi. Şəfiqə xanım Əfəndizadə 1959-cu ildə Bakıda dünyasını dəyişdi.

"Azərbaycan"da, əsasən, "Fərhad Ağazadə", "F.Ağazadə", "Şərqli" imzaları ilə çıxış edən Fərhad Ağazadənin dərc olunmuş yazılarının mövzusu müxtəlifdir. O, maarif, məktəb, təhsil problemləri, ana dili, onun saflığı, əlifba islahatı, milli istiqlal, milli dövlət quruculuğu, parlamentin fəaliyyəti, erməni quldurlarının azərbaycanlılara qarşı törətdikləri qətliamlar, mətbuatın cəmiyyət həyatında rolu və digər mühüm məsələlərdən yazırdı.

Fərhad Ağazadə istər çar Rusiyası, istər Azərbaycan Xalq Cümhuriyyəti, istərsə də sovet hakimiyyəti illərində maarifin, təhsilin inkişafına çalışırdı, dərsliklər yazırdı. Dilimizin saflığı və əlifba islahatı sahəsindəki xidmətləri ilə Mirzə Fətəli Axundzadə ideyalarını davam etdirirdi. 1922-ci ildə təşkil olunan Yeni Türk Əlifbası Komitəsinə üzv seçildi. "Kommunist" və "Yeni yol" qəzetlərində, "Maarif işçisi", "Yeni məktəb" jurnallarında məqalələri dərc olundu. Ömrünün son illəri xəstəliklə mücadilədə keçdi. Pedaqoq, dilçi, jurnalist, yazıçı-publisist, ictimai xadim Fərhad Ağazadə 1931-ci ilin 4 yanvarında vəfat etdi.

Salman Mümtaz da Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsini böyük sevinclə qarşıladı. Belə bir vaxtda "Azərbaycan" qəzetinin işıq üzü görməsini alqışlayır, bu qəzetdə müxtəlif məqalə və şeirlərlə çıxış edirdi. Vətənpərvərliyinə, millətinin azadlığına sevgisinə görə ədəbiyyatşünas, tənqidçi, publisist Salman Mümtazı da yaşamağa qoymadılar. O, 1937-ci ilin 8 oktyabrında axşam saat 11-də yaşadığı Buynakski – 25 (indiki Şeyx Şamil küçəsi) ünvanından həbs olundu.

1941-ci ilin 21 dekabrında siyasi dustaqlar barədə SSRİ-nin paytaxtında ölüm hökmü verildi. Qətlinə fərman verilənlərdən biri də Salman Mümtaz idi...

1956-cı il noyabrın 16-da isə ona SSRİ Ali Məhkəməsi tərəfindən ölümündən sonra bəraət verildi.

"Azərbaycan" qəzetinin azsaylı əməkdaşlarından biri – Ümmügülsüm Sadıqzadə hələ 9 yaşında ikən ilk şeirini yazmışdı. 1918-1920-ci illər isə gənc Ümmügülsüm xanımın arzuları kimi, yaradıcılığının da ən parlaq dövrü oldu. Tale ona ən ülvi arzusunun həyata keçdiyi günləri yaşamağı nəsib etdi. Azərbaycan Xalq Cümhuriyyətinin qalibiyyəti Ümmügülsüm xanım üçün də Azərbaycan xalqının xoşbəxt gələcəyi demək idi. Bu gələcəyə bəslədiyi böyük ümidləri, sonsuz inamı istər publisistik, istərsə də bədii yaradıcılığında tərənnüm edirdi. "Azərbaycan" qəzetində dərc olunmuş məqalələrində, şeirlərində o həm də qadınları, qızları elmə, təhsilə, maariflənməyə səsləyirdi.

Ummugülsüm xanım "Azərbaycan" qəzetinin əməkdaşı, dövrünün tanınmış ziyalısı və yazıçısı Seyid Hüseynlə ailə qurdu. 1930-cu illərdə sovet hökumətinin amansızlıqla həyata keçirdiyi repressiya siyasəti onların da həyatını məhv etdi. Seyid Hüseyn 1937-ci il iyulun 15-də həbs edildi. Ondan bir neçə ay sonra – noyabrın 2-də Ümmügülsüm xanım da tutuldu. Onu da dörd övladına həsrət qoydular.

Altı ay Bayıl həbsxanasında saxlanıldıqdan sonra 8 il həbsə məhkum edildi. Verilmiş cəzanı, rəsmi sənədlərə əsasən, Temlaq əmək-islah düşərgəsində, şəxsi sənədlərinə görə isə Mordva Avtonom Respublikasının Yavas qəsəbəsindəki islah-əmək düşərgəsində çəkdi.

Ümmügülsüm xanımın azad olunmasına 1944-cü ilin aprelində qərar verildi. Sürgündən döndüyü doğma şəhərində 20 gün qala bildi. Bakıda yaşamasına qadağa qoyuldu. Sürgündən xəstə qayıdan Ümmügülsüm xanımı bu dəfə də vətənində sürgün etdilər. Şamaxıda yaşamalı oldu. 3 ay sonra 44 yaşında 15 yaşlı qızı Qumralın yanında gözlərini əbədi yumdu. Şamaxıda dəfn olundu.

Həyat yoldaşından nigaran getdi. Bilmədi ki, Seyid Hüseynə ölüm cəzası verərək elə 1938-ci ildə Qum adasında güllələyiblər...

"Azərbaycan" qəzetini dəyərli əsərləri ilə bir az da oxunaqlı etmiş "Müsavat" partiyasının üzvü Əhməd Cavadı da hələ 1923-cü ildə bolşevik hökuməti həbsə alıb tez bir zamanda da azad etdi. 1925-ci ildə isə "Göy göl" şeiri həbsinə səbəb göstərildi. Yenə əcəl qapısından döndü. 1937-ci il iyunun 3-dən 4-nə keçən gecə şairi yenidən zindana saldılar. Bu dəfə yolu gedər-gəlməz oldu. Əhməd Cavada 1937-ci ilin 12 oktyabrında verilmiş güllələnmə hökmü bir gün sonra yerinə yetirildi...

"Azərbaycan"çıların arasında fəallığı ilə diqqəti cəlb edən istedadlı gənclərdən biri də Cəfər Cabbarlı idi. O, redaksiyada tərcüməçi işləyir, hökumətin qərarlarını, rəsmi xəbərləri Azərbaycan dilindən ruscaya, ruscadan isə Azərbaycan dilinə çevirirdi. Cəfər Cabbarlı bu qəzetdə həm də vətənə pərəstiş dolu şeirlərini dərc etdirirdi.

1922-1923-cü illərdə sovet hakimiyyəti tərəfindən iki dəfə həbs edilərək işgəncələrə məruz qaldı. Qızı Gülarə Cabbarlının söylədikləri onun Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra nə qədər məşəqqətli həyat keçirdiyini təsdiq edir: "Atamı həmişə pantürkizmdə günahlandıraraq onu həbs etmək üçün məqam axtarmışlar.

1923-cü ildə onu bir neçə dəfə təhlükəsizlik orqanlarına çağırmışlar. Orada 2-3 ay əzab-əziyyətlər vermişlər. Atamın "Ədirnə fəthi" və "Ulduz" ("Trablis müharibəsi") əsərlərində Türkiyə gənclərinin azadlıq uğrunda mübarizəsi əsas yer tutur. Elə buna görə də ona amansız işgəncələr vermişlər. Bütün bu və digər məsələlərlə bağlı təqiblərdən, əzab-əziyyətlərdən qorxmayan, usanmayan atam heç bir dostunun adını çəkməmişdir. Tutarlı faktlar tapmasalar da, atamı daim incitmişlər. Bəlkə də onun az yaşamasına səbəb elə bu təqiblər olmuşdur".

Getdikcə şiddətlənən ürək xəstəliyi 1934-cü ilin 31 dekabrında Cəfər Cabbarlının həyatına son qoydu...

"Azərbaycan" qəzetinin gənc yazarlarından biri, ədəbiyyatşünas, tənqidçi, şair Əmin Əhmədov (Əmin Abid) 1919-cu ildə Türkiyəyə gedir. Orada pedaqoji məktəbdə oxuyur. 1919-1926-cı illərdə isə İstanbul Universitetinin Ədəbiyyat fakültəsində təhsil alır. İlk gənclik dövründən şeirlər yazmağa başlayır. "Yeni Qafqaz", "Azəri türk", "Odlu yurd" və digər jurnallarda Gültəkin təxəllüsü ilə dərc etdirdiyi şeirlərində Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik ordusu tərəfindən işğalına, Sibirə sürgünlərə, təqib və təhqirlərə qarşı etiraz, Azərbaycanın sabahına güclü inam ifadə olunurdu. Türkiyədə qələmə aldığı şeirlərinin toplandığı "Buzlu cəhənnəm" adlı kitabı siyasi mühacirlərin köməyi ilə nəşr edilir. Azərbaycana qayıtdıqdan sonra Bakı Dövlət Universitetində çalışır. Bakıda qəzet və jurnallarda müasir və klassik ədəbiyyata, şifahi xalq yaradıcılığına dair ədəbi-elmi məqalələrlə çıxış edir. Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti nəzdində açılan ədəbiyyat seminariyasında müəllimlik edir. 1937-ci ilin repressiya dalğası onu da haqlayır. Həmin ilin 21 oktyabrında 40 yaşında güllələnir.

## Cümhuriyyətlə birlikdə susdurulan "Azərbaycan"...

"Azərbaycan"ın sonuncu nömrəsi 27 aprel 1920-ci ildə çapdan çıxdı. Azərbaycan Xalq Cümhuriyyətinin ikinci ildönümünə bir ay qalırdı. Cəmi bir il qabaqkı kimi, millətsevərlərin ölkəsi

də, qəlbləri də bayram şadyanalığı ilə coşub-çağlamayacaqdı. Milli Şura günahsız insanların qətllərinə yol verməmək üçün od-alovla, qan-qadayla gələn XI qırmızı orduya hakimiyyətin könüllü təhvil verilməsi barədə qərar qəbul etmişdi...

Azərbaycanın dövlət müstəqilliyi ilə birlikdə "Azərbaycan" qəzetinin fəaliyyətinə də son qoyuldu. Ölkəni işğal edən bolşeviklər aprelin 30-da "Azərbaycan"ın redaksiyasını və mətbəəsini də yağmaladılar. Mətbəə "Revkomun mətbəəsi" (İnqilab Komitəsinin mətbəəsi) adlandırıldı. "Azərbaycan" qəzetinin maddi-texniki bazası və kollektivi əsasında müstəqilliyə əks mövqe tutan "Kommunist" qəzetinin nəşrinə başlandı. "Azərbaycan" adı Azərbaycan Xalq Cümhuriyyətinə yaraşdığı kimi, "Kommunist" adı da yeni hökumətin – bolşevik hökumətinin tutduğu yola, siyasi-ideoloji xəttə tamamilə uyğun idi.

1923-cü ildə bolşevik hökuməti Azərbaycanın istiqlalı uğrunda mücadilə edənlərin əksəriyyətini həbs etdi. Bir müddət sonra onlar azadlığa buraxıldı. Daha çox kadr çatışmazlığı yeni hökuməti bu addımı atmağa vadar etmişdi.

## Vətən əbədidir!

Millətə keçmişini unutdurmaq üçün bütün vasitələrdən istifadə etdilər. Dönə-dönə əlifbamızı dəyişdirdilər ki, tariximizdən, ədəbiyyatımızdan bir az da uzaq düşək. "Azərbaycan" kimi mətbuat orqanlarının nüsxələrinin, onların fədakar yazarları haqqında məlumatların saxlanıldığı arxivlərin qapıları bağlandı. Onlardan danışmaq, yazmaq ya qadağan edildi, ya da tənqid edilmək üçün "yada düşdülər". Elmi araşdırmalar elmiliyindən çıxarıldı. Hər şey sovet ideologiyasının tələblərinə uyğunlaşdırıldı. Tədqiqatçıların qarşısına tələblər qoyuldu. Araşdırmaların "nəticələrində" milli mücahidlər millətinin düşmənləri kimi təqdim olundu.

1918-1920-ci illərdə nəşr edilmiş "Azərbaycan" qəzetinin də nüsxələri 70 il həbsdə qaldı, redaktorları, yazarları sovet hökumətinin nəzərində düşmənə çevrildilər. Ölkəni tərk etmək məcburiyyətində olanların ömrünü qürbətin əzab-əziyyətləri, vətən həsrəti, buradakı doğmalarının intizarı yeyib-bitirdi. Ölkədən getməyənlər isə təqiblərə, repressiyaya məruz qaldılar.

Şübhəsiz ki, onların "günahları" yalnız "Azərbaycan" üçün yazdıqları yazılar, qəzetin fəaliyyətində göstərdikləri xidmətlər deyildi. "Azərbaycan"çılar da cümhuriyyət hökumətinin dayaqları idilər. Müstəqil dövləti onlar da mətbuatın gücü ilə yıxılmağa qoymurdular. Bu qəzet Azərbaycan Xalq Cümhuriyyətinin mətbu tribunası, söz meydanı idi. Ona görə dövlətinin müstəqilliyi yox idisə, "Azərbaycan" da ola bilməzdi.

Bu qəzetin 1918-1920-ci illər ərzindəki nömrələrində Azərbaycanın dövlət, ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatı geniş əks olunmuşdu. Həmin dövrün, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsi üçün "Azərbaycan" qəzeti zəngin mənbədir. 1918-ci ildə Bakının, eləcə də Azərbaycanın digər bölgələrinin daşnak-bolşevik birləşmələrinin zülmlərindən qurtuluşu, ölkənin hər yerində müstəqil dövlətin qələbəsi, quruculuq işlərinə başlanılması və digər mühüm məlumatlar istiqlalına qovuşmuş doğma xalqının milli oyanışında mühüm rol oynamış "Azərbaycan"ın səhifələrində qalır. Amma rəsmi qəzetə Azərbaycan Xalq Cümhuriyyətinin yalnız arzulu, ümidli, bəxtəvər günlərini təsvir və tərənnüm etmək nəsib olmadı. Ölkənin müstəqilliyinə düşmən kəsilən daxili və xarici qüvvələrin təxribatları, işğal təhlükəsi, nəhayət, hakimiyyətin bolşeviklərə təhvil verilməsi zərurəti və digər tarixi hadisələr haqqında məlumatlar bütün reallığı, təfərrüatı ilə "Azərbaycan" qəzetinin materiallarında əksini tapdı.

...1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşı olmağın qüruru, azadlığın, müstəqilliyin doğurduğu asudəlik, ruh yüksəkliyi, qurmaq, yaratmaq ehtirası ilə yaşanan işıqlı bir dövr bitdi. Azərbaycanın cümhuriyyət günəşi qürub etmədi. İşğalçı qüvvələr qara buludlar kimi onun qarşısını kəsdilər. Millətini 70 il bu işığa həsrət qoydular. Ancaq dövlətinin müstəqilliyini bərpa edənlər əmin idilər ki, başladıqları işləri davam etdirənlər olacaq. Çünki bu, dəyişməz qanundur... Bizdən öncə vətən vardı. Onu sevdilər, yad əllərdən, yad nəzərlərdən qorumaq üçün canlarını qurban dedilər. Bizdən sonra da vətən olacaq... Yenə onu canlarından əziz biləcəklər. Vətəni qorumaq, yaşatmaq, ucaltmaq üçün onun fədailəri olacaqlar. Heç nə bu həqiqəti dəyişməyəcək: övladları gəldi-gedərdi... Vətən isə əbədidir!



**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın vitse-prezidenti,*
*Milli Məclisin Elm və təhsil komitəsinin sədri,*
*akademik*

# Müstəqil Azərbaycanın güzgüsü "AZƏRBAYCAN"

*Milli dövlətçilik və azərbaycançılıq tribunası*

***Azərbaycan xalqının çoxəsrlik inkişafında müstəsna dərəcədə böyük əhəmiyyətə malik olan, XIX əsrdə maarifçilik hərəkatı dalğasının işığında meydana çıxmış milli məktəb, teatr və mətbuat ölkəmizin yeni bir oyanış və tərəqqi mərhələsinə daxil olmasına meydan açmışdı.***

***Dünyəvi xarakterli milli məktəblər xalqın savadlanmasına, teatr milli-mənəvi özünüdərkə güclü təkan vermişdi. Həsən bəy Zərdabinin 1875-ci ildə nəşr etdirdiyi məşhur "Əkinçi" qəzeti ilə yalnız anadilli milli mətbuatın əsası qoyulmamış, həm də maarifçilik ideyalarının geniş xalq kütlələrinə çatdırılması həyata keçirilmişdi.***

Milli mətbuat, xüsusən "Əkinçi" qəzeti milli oyanış və tərəqqi yollarında qətiyyətlə addımlayaraq ümummilli inkişafa böyük töhfələr vermiş, yollar açmışdır. Cəmiyyətin inkişafı baxımından "teatr böyüklər üçün məktəb" (N.Nərimanov), "məktəb cəhalət dərdinin dərmanı" (M.T.Sidqi) funksiyalarını həyata keçirmişdir. Milli mətbuat isə məktəbdə və teatrda gedən prosesləri təbliğ etməklə bərabər, həm də mövcud cəmiyyətin əsas xitabət kürsüsü və "danışan dili" olmaqla maarifçilik hərəkatının mühüm hərəkətverici qüvvəsi rolunu oynamışdır. 100 yaşı tamam olan, bir əsrlik şərəfli yol keçmiş "Azərbaycan" qəzeti XIX əsrdə və XX əsrin əvvəllərində ölkəmizdə yaranıb inkişaf etmiş zəngin milli mətbuat ənənələri zəminində meydana çıxmış və özünəqədərki mətbuatda səsləndirilən müstəqil dövlətçilik ideyalarının həyata keçirilməsi yollarının əsas tribunası kimi şərəfli bir missiyanı gerçəkləşdirmişdir.

Azərbaycan mətbuatının buzqıran gəmisi kimi meydana çıxmış "Əkinçi" qəzetinin açdığı yol "Kəşkül", "Ziya", "Ziyayi-Qafqasiyyə" kimi mətbuat orqanlarının fəaliyyəti ilə genişlənmiş və möhkəmləndirilmişdir.

Məhəmməd ağa Şahtaxtlının XX əsrin əvvəllərində nəşr etdirdiyi "Şərqi-Rus" qəzeti millimətbu sözün imkanlarını və üfüqlərini Ümumrusiya müsəlmanları miqyasına çıxarmışdır. Bu mənada "Şərqi-Rus" Azərbaycanın "Tərcüman"ı kimi qiymətləndirilməlidir.

Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalı Azərbaycan demokratik mətbuatının bayraqdarı, mollanəsrəddinçiləri isə azərbaycançılıq və müstəqil dövlətçilik idealı uğrunda dönmədən mübarizə aparan mətbuat ordusu idilər.

Əlibəy Hüseynzadənin "Füyuzat" jurnalı mətbuatda romantik cəbhəni formalaşdıran məktəb vəzifəsini yerinə yetirmişdir.

Məhəmməd Əmin Rəsulzadənin "Açıq söz" qəzeti Azərbaycanda müstəqil dövlət qurulması ərəfəsinin azadlıq və cümhuriyyətçilk ideyalarını xalqa çatdıran açıq mətbuat tribunası idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması cəmiyyətdə, milli mətbuatda və ədəbiyyatda azərbaycançılıq və müstəqil dövlətçilik uğrunda aparılmış mübarizələrin, millət davasının, cümhuriyyətçilik ideallarının məntiqi yekunu və təsdiqi demək idi. Türk-müsəlman dünyasında ilk müstəqil və demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbuat orqanının "Azərbaycan" adlandırılması təkcə bir qəzetin deyil, bütövlükdə müstəqillik qazanmış dövlətin azərbaycançılığın baş qərargahı statusu əldə etməsinin rəmzi ifadəsidir.

Azərbaycan Xalq Cümhuriyyətinin əsas mətbuat orqanı kimi 15 sentyabr 1918-ci ildən 27 aprel 1920-ci ilə qədər fəaliyyətini davam etdirən "Azərbaycan" qəzeti qalib gəlmiş bir ölkənin və xalqın ilk rəsmi dövlət qəzetidir.

"Azərbaycan" qəzeti – müstəqil Azərbaycan dövlətinin birinci mətbu sözçüsü idi.

"Azərbaycan" qəzeti – cümhuriyyət, yəni respublika tipli demokratik dövlət quruculuğu proseslərinin güzgüsüdür.

"Azərbaycan" qəzeti – azərbaycançılıq məfkurəsini ümummilli ideyadan dövlət ideologiyası səviyyəsində təqdim və təbliğ etməyin start nöqtəsidir.

❖ ❖ ❖

Xalq cümhuriyyətinin 1920-ci ildə süqut etməsi ilə "Azərbaycan" qəzeti fəaliyyətini dayandırmalı olsa da, bu qəzetdə möhkəm surətdə özünə yer almış azərbaycançılıq və cümhuriyyətçilik idealının odu sönməmişdir. Fikrimcə, sonrakı illərdə Azərbaycan kommunist mətbuatında vətənpərvərlik adı ilə geniş yer tutan və bir çox hallarda sovet vətənpərvərliyi sferasından çıxaraq, xalq şairi Səməd Vurğunun məşhur "Azərbaycan" şeirində olduğu kimi, konkret olaraq ölkənin və xalqın, milli adət və ənənələrin tərənnümü və təbliğinə xidmət edən məqalələr və şeirlər "Azərbaycan" qəzetinin başladığı böyük işin fərqli formada davamı idi.

Xüsusən görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə ədəbiyyatda və mətbuatda Azərbaycan mövzusunun genişləndirilməsi və dərinləşməsi de-fakto sovet ideologiyasının hakim mövqe tutduğu dövrdə azərbaycançılığın respublikada paralel bir ideoloji baxışa çevrilməsinə güclü təkan vermişdir.

Məhz ulu öndər Heydər Əliyevin böyük dövlətçilik istedadı, siyasi iradəsi və uzaqgörənliyi sayəsində sovet ideologiyasına tənqidi yanaşmadan xalqımızın tarixi ənənələri və milli-mənəvi dəyərləri, ədəbiyyat və mədəniyyəti ölkədə gedən ictimai-mədəni proseslərin ön mövqeyinə çıxarılmışdır. Heydər Əliyev epoxasında yalnız ayrılıqda respublikanın rəsmi olaraq əsas dövlət mətbu orqanı yox, bütövlükdə ölkə mətbuatı cəmiyyətlə birlikdə mühüm bir milliləşmə prosesləri yaşamışdır.

Nəhayət, 1990-cı ildən sonra Azərbaycanda müstəqil dövlətçilik uğrunda mübarizənin dönməz şəkil alması yeni tipli dövlət qəzetinin yaranması zərurətini meydana çıxarmışdır. Həmin illərdə Qarabağa Xalq Yardımı Komitəsinin orqanı qismində "Azərbaycan" adlı qəzet nəşr olunduğu üçün yeni dövrün dövlət qəzeti qısa bir müddət ərzində "Həyat" adı ilə nəşrə başlamalı olmuşdur.

Bu ad ilk növbədə XX əsrin əvvəllərində Hacı Zeynalabdin Tağıyevin himayəsi və Əhməd Ağayevlə Əlibəy Hüseynzadənin redaktorluğu ilə nəşr olunmuş, Azərbaycan xalqının milli mənafelərinə xidmət edən "Həyat" qəzetinin adının və ideallarının yaşadılması və davam etdirilməsi mənasında düşünülmüşdür.

İkincisi, "Həyat" qəzeti yenidən müstəqillik uğrunda mübarizə aparan Azərbaycanın yeni həyatının mətbu sözü kimi fəaliyyət göstərmişdir.

Üçüncüsü isə, Sovetlər İttifaqında və o cümlədən Azərbaycanda artıq nüfuzunu itirmiş kommunist partiyası ilə müqayisədə seçkili dövlət qurumu kimi müəyyən demokratik əsasları ilə fərqlənən Ali Sovetin ilk mətbuat orqanı olaraq dövrünə görə nisbətən müstəqil statusa malik rəsmi dövlət qəzeti kimi "Həyat" qəzeti ölkədəki ictimai-siyasi prosesləri obyektiv surətdə işıqlandırmaqda bir neçə addım irəli idi.

1 yanvar 1991-ci ildən 14 sentyabr 1992-ci il tarixinə qədər Azərbaycan Ali Sovetinin orqanı kimi fəaliyyət göstərmiş "Həyat" qəzeti siyasi-ideoloji sistemdə də, mətbuat sahəsində də keçid dövrünün "Azərbaycan" qəzeti funksiyalarını yerinə yetirmişdir. Azərbaycanda müstəqillik ərəfəsinin və dövlət müstəqilliyinin başlanğıc dövrünün ən mühüm ictimai-siyasi hadisələri, ölkədə gedən milli-azadlıq mübarizəsinin gərgin ritmləri və şəfəqləri "Həyat" qəzetində canlandırılmışdır.

"Həyat" qəzeti XX əsrin doxsanıncı illərinin əvvəllərində baş vermiş ciddi tarixi hadisələri – 20 Yanvar – Qanlı yanvar hadisəsinin, SSRİ-nin saxlanılması üzrə referendumun Azərbaycanda keçirilməsi haqqında məsələyə fərqli münasibətin ölkə ictimaiyyətinə çatdırılmasını və nəhayət, "Müstəqillik Bəyannaməsi"nin ilk dəfə mətbuat vasitəsilə bəyan edilməsi kimi tarixə çevrilmiş hadisələri təfərrüatları ilə əks etdirməkdə ardıcıl mövqe nümayiş etdirmişdir.

Xüsusən həmin dövrdə Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinin iclaslarındakı çıxışlarının və Naxçıvan Muxtar Respublikasında müstəqil dövlətçiliyimizin qazanılması üçün atdığı çox əhəmiyyəti olan addımların xalqa çatdırılmasında "Həyat" qəzeti özünəməxsus mövqe nümayiş etdirmişdir.

Ulu öndərin böyük uzaqgörənliklə Ali Sovetin 7 mart 1991-ci il tarixli iclasındakı SSRİ-nin saxlanmasına dair referendumun keçirilməsinə etirazını bildirən çıxışının tam mətninin "Həyat" qəzetində dərc edilməsi dövrün iqtidarının dövlət qəzeti üçün riskli addım idi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Ali Sovetin həmin iclasındakı tarixi nitqindəki aşağıdakı məqamlar Azərbaycanda sovet rejiminin dağıdılmasına və müstəqil dövlətin qurulmasına çağırışa xidmətin bariz ifadəsi idi: "Biz hamımız, hər halda tam əksəriyyətimiz bu iqtidara (Sovetlər İttifaqına – **İ.H.**) həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxtliyini bu ittifaq daxilində görmüşük... Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti dəyişdirmiş, Sovetlər İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların ittifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri ilə boğulması tədbirləri ittifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır. ...Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam".

"Həyat" qəzetinin xüsusi müxbiri, yazıçı-publisist Möhsün Mövsümovun həmin dövrlərdə Naxçıvan Muxtar Respublikasında görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik uğrunda apardığı mübarizənin, atdığı qətiyyətli addımların Azərbaycan ictimaiyyətinə çatdırılmasına xidmət edən publisistik yazıları və xəbərləri ölkədə gedən milli azadlıq proseslərinin genişlənməsinə və xaos mərhələsindən çıxış yollarının tapılmasına təkan yaratmışdır.

Ali Sovetin sessiyasında SSRİ-nin saxlanmasına dair referendumun keçirilməsinin əleyhinə səs vermiş 43 nəfər deputatın adlarını "Həyat" qəzetinin Azərbaycan xalqına çatdırması da müstəqillik uğrunda mübarizəyə dəstək vermək demək idi.

"Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın tam mətnini də "Həyat" qəzeti çap edərək dünyaya və ölkəyə yaymışdır.

Ermənistanın təcavüzkar hərbi müdaxiləsi nəticəsində yaranmış qanlı Xocalı faciəsi haqqında obyektiv reallıqların müəyyən olunmasında və xalqa çatdırılmasında da "Həyat" qəzeti qətiyyət nümayiş etdirmişdir.

Beləliklə, "Həyat" qəzeti Azərbaycanda milli-azadlıq hərəkatı dalğasında meydana çıxmış iqtidar qəzeti olsa da, bu qəzetin işində Azərbaycan Sovet Respublikası rəhbərliyinin fəaliyyətindən çox ölkədə gedən ictimai-siyasi proseslərin, milli azadlığa aparan yolların reallıqlarının işıqlandırılması üstünlük təşkil etmişdir.

Xarakterinə görə "Həyat" qəzeti Azərbaycan sovet hakimiyyətinin son dövrünün formal iqtidar qəzeti idi. Buna görədir ki, Azərbaycanda dövlət müstəqilliyi bərpa olunduqdan sonra da "Həyat" qəzeti öz fəaliyyətini davam etdirə bilmişdir.

Dövlət müstəqilliyimizin başlanğıc dövrünün ən mühüm hadisəsi olan 91-lərin Yeni Azərbaycan Partiyasını yaratmaq üçün görkəmli dövlət xadimi Heydər Əliyevə müraciəti və ulu öndərin həmin müraciətə cavabı da "Səs" qəzetindən sonra "Həyat" qəzetinin səhifələrində özünə yer almışdır.

Bu kimi addımlar müstəqillik qazanmış ölkənin hələ də ittifaq təfəkkürü ilə yaşayan rəhbərlərini qane etmədiyi üçün "Həyat"ın fəaliyyətinə xitam verilmişdir. Əslində "Həyat" qəzeti çətinliklə olsa da, Azərbaycanın milli istiqlalına xidmət etmək mənasında özünün tarixi missiyasını başa çatdırmışdır. Bu işin bir faydası isə ondan ibarət olmuşdur ki, "Həyat" qəzeti bağlandıqdan sonra rəsmi dövlət qəzeti kimi tarixi "Azərbaycan" qəzetinin adı yenidən bərpa olunmuşdur.

Beləliklə, 14 sentyabr 1992-ci il tarixdən etibarən Azərbaycan Respublikası Ali Sovetinin mətbu orqanı olaraq "Azərbaycan" adlı qəzet fəaliyyətə başlamışdır. "Azərbaycan" qəzetinin tarixi adının bərpa edilməsi mühüm ictimai-siyasi hadisə idi.

Doğrudur, yenidən mətbuat aləminə çıxan "Azərbaycan" qəzeti bir müddət azərbaycançılıq və müstəqil dövlətçilik mənasında öz funksiyalarını tam yerinə yetirmək işini gerçəkləşdirmək sahəsində müəyyən çətinliklər yaşamışdır. Bununla belə, dövrün mühüm ictimai-siyasi hadisələri "Azərbaycan" qəzetində əsasən öz əksini tapmış, ölkədə gedən proseslərə münasibət ifadə olunmuşdur.

Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra "Azərbaycan" qəzeti sözün həqiqi mənasında əsl rəsmi dövlət qəzeti kimi fəaliyyət göstərməyə başlamışdır.

Bu dövrdən etibarən müstəqil Azərbaycan mövzusu və azərbaycançılıq "Azərbaycan" qəzetinin əsas qayəsinə çevrilmişdir.

Bununla müstəqil Azərbaycan dövlətinin və o cümlədən də "Azərbaycan" qəzetinin həyatında yeni tarixi epoxa başlanmışdır.

❖ ❖ ❖

"Azərbaycan" qəzetinin müstəqillik dövründəki çoxillik fəaliyyətini aşağıdakı mərhələlərə ayırmaq olar:

1. Müstəqil dövlət qəzeti axtarışları mərhələsi. Keçid dövrü (1991-1993-cü illər).

2. "Azərbaycan" qəzetinin Heydər Əliyev dövrü. Mətbuatda Milli Qurtuluş missiyasının həyata keçirilməsi mərhələsi (1993-2003-cü illər).

3. "Azərbaycan" qəzetinin İlham Əliyev dövrü. XXI əsrin müstəqil dövlətçilik və inkişaf tribunası (2003-2018-ci illər).

Qeyd olunduğu kimi, 1991-1993-cü illər ölkəmizdə rəsmi dövlət qəzetinin adının, strategiya və taktikasının müəyyən edilməsi üzrə axtarışlar mərhələsidir. Bu məsuliyyətli mərhələdə klassik "Azərbaycan" qəzetinin xələfi "Həyat" qəzetinin timsalında cəmiyyətdə gedən təlatümlərin fonunda Azərbaycan mətbuatı sovet rejimi iqtidarı qəzetindən müstəqil dövlətin rəsmi dövlət mətbuat orqanı olmağa doğru məsuliyyətli bir yol keçmişdir.

Keçid dövrü üçün düşünülmüş "Həyat" qəzeti XX əsrin əvvəllərində eyni adlı qəzetin milli maarifçilik istiqamətindəki ənənələrini müasir cəmiyyətin irəli sürdüyü ictimai-siyasi maraqlarla uzlaşdırmaqla yeni dövrün tələblərini yerinə yetirməyə səy göstərmişdir. "Həyat" qəzeti mətbuatda sovet rejimindən qopma, ayrılma proseslərinin yekunu, müstəqil dövlət qəzetçiliyinin başlanğıcıdır.

Geniş mənada Azərbaycan cəmiyyətinin, o cümlədən də "Azərbaycan" qəzetinin fəaliyyətində 1993-2003-cü illər xüsusi yer tutur.

Çoxəsrlik Azərbaycan tarixinə Heydər Əliyev epoxası kimi daxil olmuş bu mərhələdə "Azərbaycan" qəzeti, sözün böyük mənasında, əsl azərbaycançılıq tribunasına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dövlət mətbuatına xüsusi həssaslıqla, böyük diqqət və qayğı ilə yanaşması "Azərbaycan" qəzetinin məsuliyyətini daha da artırmış, qəzetin kollektivinin azərbaycançılıq və müasirlik meyarları ilə çıxış etməkdə sabit və ardıcıl mövqe göstərməsini şərtləndirmişdir.

Dövlət rəhbəri Heydər Əliyevin azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideologiyasına çevirmək istiqamətindəki mübarizəsi "Azərbaycan" qəzetində özünün real əks-sədasını tapmış, geniş təbliğ olunmuşdur.

Azərbaycançılığın ideya-məfkurə, ideal və milli dövlətçilik ideologiyası kimi təkamül proseslərinə dair Heydər Əliyev təlimi həm "Azərbaycan" qəzetinin ideya-siyasi istiqamətini müəyyən etmiş, həm də yaradıcı kollektivin gündəlik fəaliyyətində sistemli şəkildə əks etdirəcəyi əsas mövzuları diqqət mərkəzinə çəkməyə doğru istiqamətləndirmişdir.

Qətiyyətlə demək olar ki, XX əsrin doxsanıncı illərində azərbaycançılıq ideologiyasının formalaşdırılması və təbliğində "Azərbaycan" qəzeti ilə müqayisə ediləcək ikinci bir mətbuat orqanı göstərmək çətindir. "Azərbaycan" qəzeti azərbaycançılığın baş mövzusu idi.

Rəsmi dövlət qəzeti azərbaycançılığın milli dövlətçilik ideologiyası kimi oxuculara çatdırılması yolunda nəzəriyyə ilə təcrübənin üzvi əlaqədə, vəhdətdə təqdim olunması üçün Azərbaycan reallıqlarına daha dərindən nüfuz etməyə səy göstərmişdir.

Həm də "Azərbaycan" qəzetində müstəqil Azərbaycanın real inkişaf göstəriciləri də geniş təbliğ olunmuşdur. Ulu öndər Heydər Əliyevin dünya azərbaycanlıları ideyası da "Azərbaycan" qəzetinin səhifələrində planetin müxtəlif qitələrində yaşayıb-yaradan tanınmış azərbaycanlılar haqqında materialların dərc edilməsi vasitəsilə bir daha əsaslandırılmışdır.

Bir sözlə, "Azərbaycan" qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq ideallarına sədaqəti vətənə, millətə və dövlətə sədaqətlə xidmət etməyin əsasları kimi müəyyən etdiyi siyasi xətti cəmiyyətə çatdırmaq yolunda dönmədən mübarizə aparmışdır.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəm təməllərini yaratmış Heydər Əliyevin ölkə miqyasında həyata keçirdiyi ardıcıl siyasət, atdığı düşünülmüş və qətiyyətli addımlar "Azərbaycan" qəzetində yeni tarixi epoxanın layiqli publisist salnaməsini yaratmaq missiyasının əsaslarına çevrilmişdir. Bu məqsədlə qəzet ölkəmizin tanınmış ziyalılarını, dünyanın görkəmli ictimai-siyasi xadimlərini prosesə cəlb etməklə Heydər Əliyevin siyasi dövlətçilik kursunun mahiyyətini və real nəticələrini publisist sözün geniş imkanları ilə mətbuatda rəsm etmişdir.


AZƏRBAYCAN

ВӘТӘНӘ, ДӨВЛӘТӘ, ХАЛГА СӘДАГӘТ АНДЫ

АНДИЧМӘ МӘРАСИМИ


AZƏRBAYCAN

ХАЛГЫМЫЗЫН БИРЛИЈИ ВӘ ГӘЛӘБӘЈӘ ИНАМЫ КӘЛӘҸӘК УҒУРЛАРЫМЫЗЫН ТӘМӘЛИДИР


AZƏRBAYCAN

АЗӘРБАЈҸАН ӨЗ ИНКИШАФЫНЫН ЈЕНИ МӘРҺӘЛӘСИНӘ ГӘДӘМ ГОЈУР


AZƏRBAYCAN

АЗӘРБАЈҸАН РЕСПУБЛИКАСЫНЫН ПРЕЗИДЕНТИ ҺЕЈДӘР ӘЛИЈЕВИН 1994-ҸҮ ИЛ АПРЕЛИН 12-ДӘ ТЕЛЕВИЗИЈА ВӘ РАДИО ИЛӘ ХАЛГА МҮРАҸИӘТИ


AZƏRBAYCAN

АЗӘРБАЈҸАН РЕСПУБЛИКАСЫНЫН ПРЕЗИДЕНТИ ҺЕЈДӘР ӘЛИЈЕВИН 1994-ҸҮ ИЛ ОКТЈАБРЫН 4-ДӘ ПРЕЗИДЕНТ САРАЈЫ ГАРШЫСЫНДА БАКЫ ЗӘҺМӘТКЕШЛӘРИНИН МИТИНГИНДӘ ЧЫХЫШЫ


AZƏRBAYCAN

ВӘТӘНӘ, ХАЛГА, ДӨВЛӘТӘ СӘДАГӘТ АНДЫ

АЗӘРБАЈҸАН МҮСТӘГИЛ, ДЕМОКРАТИК, ҺҮГУГИ ДӨВЛӘТ ГУРУҸУЛУҒУНУ ИНАМЛА ДАВАМ ЕТДИРӘРӘК ЈЕНИ-ЈЕНИ НАИЛИЈЈӘТЛӘР ГАЗАНАҸАГДЫР


Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

I Avropa Oyunlarına 26 gün qaldı

SAAT KİMİ

I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi belə işləyir


8 24 dekabr 2016-cı il AZƏRBAYCAN www.azerbaijan-news.az

İLHAM ƏLİYEV MİSSİYASI


Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

"Biz Mehriban xanımdan ana şəfqəti, ana mərhəməti gördük, kimsəsiz olmadığımızı anladıq"

Dövlətə, xalqa şərəfli xidmət missiyası

Qeyri-neft məhsullarının ixracında aqrar sektor önə çıxır

Tarixin əmanəti

Ana dilini qorumaq hamımızın borcudur

Artıq adi qəbul edilən qeyri-adi İNKİŞAF

"Əsrin müqaviləsi"nin, bunun ardınca Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin çəkilişinə başlanmasının "Üç dəniz əfsanəsi", Bakıdan Ceyhana və cahana yol alan beynəlxalq əhəmiyyətli magistrallar səviyyəsində təqdimi Heydər Əliyev dühasının ölkəmizə və xalqımıza bəxş etdiyi böyük gələcəyin, əbədi səadətin real fəlsəfəsinin açılışına xidmət göstərmişdir.

Müstəqil Azərbaycan dövlətinin əsas problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər daim "Azərbaycan" qəzetinin diqqət mərkəzində olmuşdur. Qəzet məkrli qüvvələrin dəstəyi ilə Ermənistan tərəfinin həyata keçirdiyi təcavüzkar siyasətin iç üzünü açıb göstərmək üçün yalnız icmallar çap etməklə kifayətlənməyərək, analitik xarakterli yazıları da oxuculara təqdim etmişdir.

"Azərbaycan" qəzeti bütün sahələrdə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi sahəsində analitik publisistika nümunələri yaratmağın fərqli örnəklərini meydana qoymuşdur. Ümumiyyətlə, analitik xarakterli siyasi publisistika "Azərbaycan" qəzetinin mühüm yaradıcılıq nailiyyətidir.

"Azərbaycan" qəzeti yeni dövrün siyasi-publisist Qarabağnaməsini yaratmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin həyatı və fəaliyyətinin, müstəqil dövlətçilik uğrunda mübarizəsinin "Azərbaycan" qəzetində təbliği də fərqli bir səviyyəyə malikdir. İlk növbədə onu qeyd etmək lazımdır ki, "Azərbaycan" qəzeti Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin fəaliyyətinin gündəlik düşünülmüş və cəsarətli addımlarını oxuculara təqdim etməkdə peşəkarlıq və operativlik nümunəsi göstərmişdir.

"Azərbaycan" qəzeti Heydər Əliyev epoxasının layiqli publisist salnaməsini yaratmışdır.

"Azərbaycan" qəzetində "Azərbaycanın özü qədər əbədi" və "Heydər Əliyev mənim həyatımda" daimi rubrikalarında dərc olunmuş yazılar Azərbaycan mətbuatının möhtəşəm Heydər Əliyevnaməsinin yaradılması ilə nəticələnmişdir.

Bu məsuliyyətli və şərəfli mövzularda müxtəlif müəlliflər tərəfindən yazılmış məqalələr vahid bir silsilədə birləşdirilərək eyniadlı kitabların yaradılmasına xidmət etmişdir.

"Heydər Əliyev mənim həyatımda" adlı ikicildlik nəşr ölkəmizdə və xaricdə bu böyük siyasət nəhənginə həsr olunmuş ən layiqli və uğurlu nəşrlərdən biri kimi qəbul olunmaqla yanaşı, Heydər Əliyev dühasına həsr olunmuş mətbu söz abidəsidir.

Beləliklə, "Azərbaycan" qəzetinin Heydər Əliyev mərhələsi müstəqillik qazanmış ölkənin rəsmi dövlət qəzetinin yeni mərhələsinin tam formalaşdırılması ilə səciyyələnir. Məhz 1993-2003-cü illərdəki fəaliyyəti ilə "Azərbaycan" qəzeti özünün rəsmi dövlət qəzeti mətbuat orqanı olmaq funksiyasını nəinki bərpa etmiş, hətta yeni dövrün reallıqlarına uyğun olaraq daha da inkişaf etdirərək möhkəmləndirmişdir.

"Azərbaycan" qəzetinin siyasi-ideoloji xətti ölkəmizin digər mətbuat orqanları üçün əsas oriyentirə çevrilmişdir.

"Azərbaycan" qəzetindəki baş məqalələr və manşetlər ölkə mətbuatının istiqamətləndirilməsi funksiyasını da həyata keçirmişdir.

Ölkəmizdə rəsmi dövlət qəzetinin tam formalaşması müstəqil Azərbaycan dövlətinin milli mətbuat siyasətinin mühüm uğurlarından biri sayılmağa layiqdir.

❖ ❖ ❖

Azərbaycan cəmiyyətinin inkişafında yeni tarixi mərhələ olan İlham Əliyev dövrü siyasi varisliklə müasirləşmənin və genişmiqyaslı inkişafın vəhdətini özündə əks etdirir. Müstəqil Azərbaycan Respublikasının inkişafının bu mərhələsi ölkədaxili siyasətlə dövlətin beynəlxalq nüfu-

zunun üzvi əlaqədə inkişaf etdirilərək artırılması, ölkəmizin regionda supergücə çevrilməsi, dünyanın lider dövlətləri tərəfindən qəbul edilməsi ilə xarakterizə olunur.

"Azərbaycan" qəzetinin təqdimatlarında da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev epoxasını xarakterizə edərkən məsələni milli dövlətçilik mövqeyindən və qlobal miqyasda işıqlandırmaq prioritet istiqamət kimi qəbul olunmuşdur. Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Avropa Şurası Nazirlər Komitəsinə tamhüquqlu üzv qəbul olunması, Qoşulmama Hərəkatına sədrlik etmək səlahiyyətləri qazanması "Azərbaycan" qəzetində yalnız xəbərlərlə deyil, bu böyük hadisələrin mahiyyətini açan analitik şərhlərlə təqdim olunur. Qəzet bu qəbildən olan yazıları beynəlxalq münasibətlər üzrə nüfuzlu ekspertlərin, Milli Məclisin bu istiqamətdə olan komitələrində təmsil edilən deputatların və ixtisaslaşmış jurnalistlərin professional fəaliyyəti ilə analitik yazılar vasitəsilə oxuculara çatdırmışdır.

Belə yazılarda yalnız üzvü olduğumuz, yaxud konkret bir dövrdə sədrlik edəcəyimiz beynəlxalq təşkilatın nüfuzu ilə yanaşı, həm də Azərbaycanın həmin şərəfli missiyaları qazanmaq üçün ölkə Prezidentinin apardığı məqsədyönlü siyasətin təbliği, bu düşünülmüş siyasətin icra mexanizmləri və həlli təcrübəsi kimi məsələlər də diqqət mərkəzində dayanmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uğurla həyata keçirilən enerji və logistika-nəqliyyat siyasətini "Azərbaycan" qəzeti ölkəmizdə analitik siyasi icmallarla yanaşı, həm də bu istiqamətlərdə aparılan genişmiqyaslı işlərin icrası prosesləri əsasında hazırlanmış reportajlarla təqdim edir. "Azərbaycan" qəzeti siyasi-analitik yazılarla canlı reportajların üzvi sintezi vasitəsilə düşündürücü olmaqla bərabər, həm də cəlbedici və oxunaqlı olan orijinal publisistika nümunələrini ictimaiyyətə çatdırır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Bakı–Tbilisi–Ceyhan transmilli neft kəmərinin başa çatdırılması, yeni dövrün dəmir ipək yolunun, Bakı–Tbilisi–Qars magistralının istifadəyə verilməsi, TANAP və TAP marşrutları üzrə böyük enerjidaşıyıcı layihələrin icrasına başlanılması, "Şahdəniz-2" yatağının istismarı üzrə həyata keçirilən genişmiqyaslı tədbirlərin bir-birinin ardınca uğurla gerçəkləşdirilməsi haqlı olaraq müstəqil Azərbaycan dövlətinin mühüm nailiyyətləri kimi bəyan olunur. "Azərbaycan" qəzetini diqqətlə və ardıcıl izləməklə Bakı–Tbilisi–Qars, Şimal–Cənub, Şərq–Qərb logistika-nəqliyyat layihələrinin siyasi mahiyyəti və iqtisadi səmərəsi haqqında kifayət qədər əsaslı və zəruri məlumatlar əldə etmək mümkündür.

"Azərbaycan" qəzeti bu qəbildən olan publisistika örnəklərini ümumiyyətlə müasir Azərbaycanın yeni inkişafı fonunda təqdim etməklə cəmiyyətdə və oxucuda geniş, tam, obyektiv və ümumiləşmiş təsəvvür yarada bilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən dövlət proqramları haqqında da "Azərbaycan" qəzeti ardıcıl və sistemli yazılar verməklə ölkəmizdə aparılan məqsədyönlü iqtisadi siyasətə dəstək verir. Məhz Prezident İlham Əliyevin adı ilə bağlı olan regionların inkişafı üzrə dövlət proqramlarının ölkəmizin hərtərəfli və dinamik inkişafında misilsiz rolunu və əhəmiyyətini "Azərbaycan" qəzeti bölgələrdə iqtisadi həyatın ritmlərini əks etdirən maraqlı, oxunaqlı yazılarla, oxucu məktubları ilə Azərbaycan cəmiyyətinə çatdırır. Bu yolla Azərbaycanda paytaxtda gedən sürətli inkişafla regionlarda aparılan genişmiqyaslı işlərin harmoniyası tam, bütöv, ümumiləşdirilmiş şəkildə təqdim olunur.

Prezident İlham Əliyevin "Çadır şəhərciyində bir nəfər də qaçqın və məcburi köçkün qalmayacaqdır" deyə vaxtilə vəd verdiyi öhdəlik artıq ölkəmizdə böyük müvəffəqiyyətlə yerinə yetirilmişdir. Son illərdə respublikamızın müxtəlif yerlərində qaçqın və məcburi köçkünlər üçün salınmış nümunəvi şəhərciklər ölkəmizin xəritəsini dəyişmişdir. İşğaldan azad edilmiş torpaq-

larda yenidən qurulmuş Cocuq Mərcanlı qəsəbəsi Azərbaycan xalqının Dağlıq Qarabağın sabahına böyük inamla baxmağa əsas verir. Naxçıvan Muxtar Respublikasında geri qaytarılmış böyük ərazilər, həmin ərazidəki Günnüt kəndinə yeni qayıdış və Qızılqaya zirvəsinin fəth olunması ilə ölkə sərhədlərinin toxunulmazlığının, torpaqlarımızın geri qaytarılacağının nə qədər yaxında və real olduğunu isbat edir.

"Azərbaycan" qəzetinin qaçqın şəhərciklərindən, Cocuq Mərcanlıdan, Qızılqayadan, Günnüt kəndindən verilmiş silsilə yazılarında xalqımızın ana torpaq sevgisi və qalibiyyət ruhu publisistikanın bütün imkanları ilə açıqlanır. Bu fonda Azərbaycan Ordusundakı vətənpərvərlik, yüksək hərbi hazırlıq və müasir hərbi-texniki təchizat haqqındakı yazıların biri digərini tamamlayır.

Milli Məclisin orqanı olan "Azərbaycan" qəzeti ölkəmizin ən yaxşı parlament icmalının modelini formalaşdırmışdır.

Qəzetin parlament icmalları hesabat kimi yox, günün ən aktual analitik informasiyası kimi təqdim olunur. Milli Məclisin deputatlarının parlamentdaxili mühit, komitələrdə işlərin gedişatı, qanunyaradıcılığı proseslərinin dinamikası, həm də beynəlxalq aləmdə və ölkədə baş verən ən mühüm ictimai-siyasi məsələlərin təhlil edilərək dəyərləndirilməsinə dair "Azərbaycan" qəzetinə çıxarılan məqalələri geniş mənada müasir cəmiyyətin dərk və şərh olunmasına ən müasir yanaşmaları özündə əks etdirir. Oxucu "Azərbaycan" qəzeti vasitəsilə ölkə parlamentinin həyatı, deputatların fəaliyyəti haqqında operativ məlumat əldə edə bilir.

"Azərbaycan" qəzeti nəticə etibarilə ölkəmizin siyasi həyatında parlamentarizm düşüncəsinin daha da aydınlaşdırılmasına və möhkəmləndirilməsinə öz töhfəsini verir.

"Azərbaycan" qəzetinin ardıcıl olaraq təbliğ etdiyi azərbaycançılıq ideologiyası ölkəmizdə milli ziyalılığın, ictimai və humanitar elmlərin tədqiqat sahələri, yaradıcılıq qayğıları ilə üzvi surətdə əlaqədardır. Ona görə də qəzet Azərbaycanın yaradıcı ziyalıları və alimlərinin böyük bir şəbəkəsini öz ətrafında birləşdirmişdir.

Müstəqil Azərbaycanda elmin, təhsilin, ədəbiyyatın, mədəniyyətin, ictimai fikrin dövrümüz üçün ən aktual məsələləri haqqında söz demək üçün "Azərbaycan" qəzeti ölkənin yaradıcı təbəqəsinə davamlı xitabət kürsüsü meydanını açmışdır. Azərbaycan elminin və təhsilimizin, milli mədəniyyətimizin ən mühüm problemləri və onların həlli yolları haqqında ən oxunaqlı problem yazılar "Azərbaycan" qəzetində özünə yer tapır. Hətta "Azərbaycan" qəzeti alimlərin apardıqları axtarışlar nəticəsində üzə çıxarılmış tədqiqat materiallarını, əldə olunmuş ixtiralar və kəşfləri, elmi yenilikləri də ardıcıl olaraq oxucu auditoriyasına çatdırır. Beləliklə, Azərbaycan oxucusu ölkəmizin görkəmli ziyalılarını, yazıçıları, alimləri və mədəniyyət xadimlərini xidmətləri ilə birlikdə "Azərbaycan" qəzetindən tanımaq imkanı əldə edir.

Bu mənada "Azərbaycan" qəzeti ölkəmizdə elmi və yaradıcı mühitin etibarlı bələdçisidir. Müstəqil dövlətimizin elm, təhsil və mədəniyyət siyasətinin böyük uğurları "Azərbaycan" qəzetinin işığında bütün rəngarəngliyi ilə aydın surətdə görünür.

"Azərbaycan" qəzeti ölkəmizdə idman sahəsində həyata keçirilən möhtəşəm proqramların canlı publisist salnaməsini yaratmışdır.

Avropa və İslam Oyunlarının, olimpiadaların rəsmi təntənəli açılış mərasimlərindən tutmuş oyunların cədvəllərinə və gedişatına, yekunlarına qədərki bütün mənzərəni qəzet həmişə tam olaraq işıqlandırmışdır. Azərbaycanda ölkə Prezidenti tərəfindən ardıcıl olaraq həyata keçirilməkdə davam edən idman siyasəti nəticəsində əldə edilən böyük nailiyyətlərin "Azərbaycan" qəzetində geniş mənada müstəqil dövlətimizin daxili siyasətdə və beynəlxalq aləmdə qazandığı mühüm uğurların üzvi tərkib hissəsi kimi təbliğ edilməsi idman faktorunun müasir dövrdəki rolunun və əhəmiyyətinin dərk olunmasına imkan yaradır.

"Azərbaycan" qəzeti Azərbaycan Respublikasının Olimpiya hərəkatının mükəmməl və geniş icmalını, habelə möhtəşəm fotosalnaməsini meydana qoymuşdur. Bu, ölkəmizin idman tarixinin çoxəsrlik salnaməsinə "Azərbaycan" qəzetinin sanballı əlavəsidir.

Ümumiyyətlə, "Azərbaycan" qəzetində fotoqrafiya işinin təşkili və şəkillərin əyanilik imkanlarından yerli-yerində, yaradıcı istifadə bütövlükdə müasir dövrün möhtəşəm fotosalnaməsinin yaradılması işinə xidmət edir.

"Azərbaycan" qəzetinin fotoşəkilləri də, məqalələri kimi, sanki dil açıb danışır, zamanın və günün sözünü deyə bilir.

❖ ❖ ❖

"Azərbaycan" qəzeti yeni Azərbaycanın müxtəlif janrlarda və fərqli üslublarda yazılmış cəlbedici, düşündürücü analitik məqalələrlə təqdim etməyi bacaran yüksəksəviyyəli mətbuat orqanıdır.

Rəsmi dövlət qəzetinin ideya mövqeyini möhkəm surətdə qoruyub saxlamaq və inkişaf etdirməklə onu janr və üslub etibarilə cəlbedici və oxunaqlı bir qəzet səviyyəsində çap etməyə nail olmaq "Azərbaycan" qəzetinin mühüm yaradıcılıq nailiyyətidir.

Azərbaycançılıq və müstəqil dövlətçilik uğrunda mübarizə "Azərbaycan" qəzeti məktəbinin ideya istiqamətini, publisistikada peşəkarlıq və sənətkarlıq isə professional səviyyəsini müəyyən edir.

Rəsmi dövlət qəzetində ictimai-siyasi mövzularda özünəməxsus fərdi üslublarda yazıb-yaradan çoxsaylı jurnalistlər yetişdirmək "Azərbaycan" qəzeti publisistika məktəbinin böyük yaradıcı uğurudur. Ölkənin əsas yaradıcı ziyalılarını və peşəkar, professional redaksiya əməkdaşlarını öz ətrafında birləşdirən böyük şəbəkə "Azərbaycan" qəzeti məktəbinin əhatə dairəsinin genişliyini və zənginliyini təsəvvür etməyə imkan verir.

Məhz müxtəlif sahələri əhatə edən yaradıcı qüvvələri və qələm sahiblərini öz ətrafında birləşdirərək azərbaycançılıq və müstəqil dövlətçilik ideallarının təqdim olunmasına və təbliğinə istiqamətləndirməsi, onların yaradıcı fəaliyyətlərini əlaqələndirməsi "Azərbaycan" qəzetinin mətbuat aləmində məktəb yaratmaq işinin göstəricisidir. Sözün həqiqi mənasında "Azərbaycan" qəzeti özünün publisistika məktəbini yaratmışdır.

"Azərbaycan" qəzetinin bir əsrlik inkişafı yolunda bu rəsmi dövlət mətbuat orqanına müxtəlif vaxtlarda rəhbərlik etmiş baş redaktorların da böyük xidmətlərini qeyd etmək lazımdır. Respublikamızın birinci müstəqillik dövründə "Azərbaycan" qəzetinin baş redaktoru olmuş Üzeyir Hacıbəyli və Ceyhun Hacıbəylinin parlaq adları və istedadları, ədəbiyyat və incəsənət sahəsindəki böyük xidmətləri, professionallıqları və vətəndaşlıq mövqeləri həmin dövrün "Azərbaycan" qəzetinin hansı yüksək ideya-sənətkarlıq səviyyəsində çap olunduğunu əyani surətdə təsəvvür etmək üçün tam yetərlidir. Bundan başqa, "Azərbaycan" qəzetinə birinci mərhələdə redaktorluq etmiş Xəlil İbrahim və Şəfi bəy Rüstəmbəylinin fəaliyyəti də milli mətbuatımızın tarixində silinməz izlər buraxmışdır.

Fikrimizcə, 1991-1992-ci illərdə "Həyat" qəzetinin baş redaktoru kimi tanınmış yazıçı-publisist Əfqan Əsgərov "Azərbaycan" qəzetinin varisi olan bu mətbuat orqanının çətin keçid dövründəki fəaliyyətini ölkə maraqlarına istiqamətləndirmək vəzifəsini məsuliyyətlə həyata keçirmişdir. Tanınmış jurnalist və yazıçı Əmir Mustafayevin baş redaktorluq etdiyi dövrdə də (1993-2002) "Azərbaycan" qəzeti özünün XX əsrin əvvəllərindəki klassik mətbuat ənənələrini bərpa etmiş və yeni tarixi epoxanın çətin və şərəfli vəzifələrinin həyata keçirilməsində ciddi bir dönüşün əsaslarını yaratmışdır.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Bəxtiyar Sadıqovun "Azərbaycan" qəzetində baş redaktor kimi çalışmağa başladığı 2002-ci ildən etibarən "Azərbaycan" qəzeti rəsmi

dövlət qəzeti statusuna tam cavab verən yüksəksəviyyəli mətbuat orqanına çevrilmişdir. Bəxtiyar Sadıqovun bacarıqlı və səriştəli baş redaktor kimi səmərəli fəaliyyəti ilə yanaşı və yüksək təşkilatçılıq qabiliyyəti ilə bir sırada həm də ölkədə qəbul edilən professional publisist olması, "Azərbaycan" qəzetində dərc etdirdiyi baş məqalələr və jurnalist araşdırmaları əsasında ardıcıl olaraq oxuculara çatdırdığı analitik yazılar bu qəzetin peşəkarlıq səviyyəsinin yüksəldilməsində əsas faktorlardan biridir.

Bu gün "Azərbaycan" qəzeti Bəxtiyar Sadıqovun səyləri və zəhməti ilə ölkəmizin ən nüfuzlu mətbuat orqanlarından biri kimi özünün məsuliyyətli işini uğurla davam etdirir.

Ölkəmizdə normal, hüquqi, demokratik dövlətin qurulması işində kütləvi informasiya vasitələrinin fəaliyyətinə xüsusi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli mətbuatın inkişafına göstərdiyi qayğı bütün mətbuat orqanları, kütləvi informasiya vasitələri ilə bir sırada "Azərbaycan" qəzetini də əhatə edir.

Rəsmi dövlət qəzeti funksiyasını yüksək səviyyədə yerinə yetirmək üçün yeni tarixi epoxada "Azərbaycan" qəzetinin seçdiyi yol, müəyyən etdiyi xətt və istiqamət milli dövlətçilik ideologiyasını, rəsmi materialları operativ surətdə geniş oxucu auditoriyasına vaxtında çatdırmaqla yanaşı, həm də analitik təhlillərə, yaradıcı şərhlərə və müqayisələrə əsaslanan üslubda dövrün, zamanın sözünü deməkdən ibarətdir.

Müasir mərhələdə "Azərbaycan" qəzeti mətbu sözün bütün imkanlarından bacarıqla və yaradıcılıqla istifadə edərək müstəqil Azərbaycan Respublikasının daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsinə şərəflə və məsuliyyətlə xidmət edir.

❖ ❖ ❖

İndiki "Azərbaycan" qəzeti XXI əsrin yeni Azərbaycanının güzgüsüdür!

Dövrün mətbuat salnaməsini yaratmaqla bərabər, "Azərbaycan" qəzeti həm də səhifələrində yer verdiyi ən əhəmiyyətli məqalələrin toplularından ibarət kitablar seriyasının təşkilatçısı, yaradıcısı və naşiri kimi tanınır. Artıq "Azərbaycan" qəzeti özünün çap etdirdiyi nəşrlərdən ibarət kitabxanasını yaratmışdır. "Heydər Əliyev mənim həyatımda" (2005; 2013), "Yeni siyasət: inkişafa doğru" (2008), "Müasir Azərbaycan dövrün baxışında" (2011), "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" (2012), "Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" (2013), "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" (2017), "Xocalı şahidləri danışır" (2018) kitabları "Azərbaycan" qəzeti kitabxanası seriyasının çoxillik və çoxcildlik külliyyatıdır. Əksəriyyəti "Azərbaycan" qəzetində çap edilmiş məqalələrdən ibarət olan bu kitablar silsiləsi həm "Azərbaycan" qəzetinin, həm də müasir epoxanın salnaməsidir.

"Azərbaycan" qəzeti Prezident İlham Əliyevin rəhbərliyi ilə iri addımlarla, böyük sürətlə inkişaf edən Azərbaycanı olduğu kimi, obyektiv şəkildə təqdim etmək yollarında bütün səylərini səfərbər edir.

Müstəqil Azərbaycan Respublikasının həyatında baş verən mühüm dəyişikliklər, müasir dövrün inkişaf ritmləri "Azərbaycan" qəzetində bütün təbiiliyi ilə əks-səda tapır.

"AZƏRBAYCAN" QƏZETİNDƏ MÜSTƏQİL AZƏRBAYCANIN NƏBZİ DÖYÜNÜR!

Müstəqil dövlətçilik idealı mənasında "Azərbaycan" qəzeti vahid, konkret və aydın mövqeyə malik olan qəzetdir.

Azərbaycançılıq, müstəqillik, milli dövlətçiliyin möhkəmləndirilməsi, vətənpərvərlik, vətənə və torpağa sədaqət "Azərbaycan" qəzeti üçün əqidə işidir.

❖ ❖ ❖

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan" qəzetinin kollektivinə 1994-cü il 6 dekabr tarixdə və 1998-ci il 15 sentyabrda təbrik məktubu ünvanlaması yeni dövr milli mətbuat tariximizin əlamətdar hadisələridir. Böyük öndərin "Azərbaycan" qəzetini yaşayan ənənələri və müasir inkişaf səviyyəsi ilə birlikdə dəyərləndirməsi bütövlükdə ölkəmizdə baş verən ictimai-siyasi proseslərdə, tarixin çətin sınaq məqamlarında, irəliyə doğru inkişafda rəsmi dövlət mətbuatının vəzifələrini, rolunu və əhəmiyyətini müəyyən edən mühüm tarixi əhəmiyyətə malik olan konsepsiyadır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin "Azərbaycan" qəzetinin 80 illiyi münasibətilə ifadə etdiyi aşağıdakı fikirlər bu gün də milli mətbuatın inkişafı baxımından çox aktual səslənir: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli-azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir. 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində ölkəmizin digər mətbuat orqanları kimi, "Azərbaycan" qəzetinin də üzərinə böyük vəzifələr düşür. İnanırıq ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş "Azərbaycan" qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaş mövqeyi nümayiş etdirərək xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcəkdir".

"Azərbaycan" qəzeti – müstəqil Azərbaycanda rəsmi dövlət qəzetinin mükəmməl nümunəsidir.

"Azərbaycan" qəzeti – müstəqil dövlətçilik və azərbaycançılıq ideologiyasını yüksək professional səviyyədə təbliğ edən mükəmməl rəsmi dövlət qəzetidir.

"Azərbaycan" qəzeti – ümummilli qəzetdir, cəmiyyətin bütün təbəqələrinin etibarlı tribunasıdır.

"Azərbaycan" qəzeti – parlamentin mətbu orqanı kimi ölkəmizdə demokratik mətbuatın canlı, əyani, yüksəksəviyyəli nümunəsidir.

"Azərbaycan" qəzeti – rəsmi dövlət mətbuatında publisistika sənətkarlığı məktəbidir.

Nəhayət, "Azərbaycan" qəzeti müstəqil Azərbaycanın salnaməsi və ensiklopediyasıdır.

Ən nəhayət, "Azərbaycan" qəzeti müstəqil Azərbaycanın daha işıqlı sabahlarının etibarlı bələdçisidir.

Ölkəmizdə rəsmi dövlət mətbuatının müdrik ağsaqqalı olan "Azərbaycan" qəzetinin kollektivini şanlı-şərəfli, məsuliyyətli və əhəmiyyətli bir əsrlik inkişaf yolunun tamamlanması münasibətilə ürəkdən təbrik edir, yaradıcı kollektivə daha böyük uğurlar arzulayıram.

"Azərbaycan" – 100 yaşın mübarək!

Neçə belə yüz illərə!

# Mətbuatımızın bayraqdarı, milli ideyanın baş qəzeti



**Mübariz QURBANLI,**
*Azərbaycan Respublikası*
*Dini Qurumlarla*
*İş üzrə Dövlət Komitəsinin sədri*

# 100 ilin "AZƏRBAYCAN"ı

***Hər bir xalqın inkişafında, onun milli şüurunun oyanışı və milli özünüdərk prosesində, bəşər sivilizasiyasının aparıcı gücünə çevrilməsində mətbuat özünəməxsus yer tutur. Onun cəmiyyət həyatının, demək olar ki, bütün sahələrinə böyük təsir gücü var. Görünür, elə buna görədir ki, Azərbaycanın maarifpərvər ziyalıları, klassik ədiblərimiz mətbuatı "xalqın görən gözü, eşidən qulağı, danışan dili" adlandırıblar.***

## Azad media demokratiyanın əsas göstəricisidir

Müasir politologiyada isə o, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərindən sonra ən böyük güc hesab edilir və "böyük hakim", "dördüncü hakimiyyət" kimi adlarla vəsf olunur. Hətta onun qüdrətini lazımınca dəyərləndirən politoloqların fikrincə, media dövlət idarəçiliyində əsas elementdir. Bu baxımdan kütləvi informasiya mənbəyi olmaq çox çətin və məsuliyyətli işdir. Bu gün kütləvi informasiya vasitələri üzvi surətdə cəmiyyətin siyasi strukturuna daxil edilib və onlara demokratiyanın, vətəndaş cəmiyyətində aşkarlığın mühüm amili, ictimai rəy tribunası kimi baxılır.

Azad media həm də demokratiyanın əsas göstəricilərindəndir. Çünki o, hər bir ölkədəki mövcud söz və məlumat azadlığının, bir növ, aynası olmaqla yanaşı, həmin ölkənin demokratik inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verən əsas elementlərdəndir. Bu səbəbdən söz azadlığından söhbət düşəndə onu dünyanın ən böyük nemətlərindən biri adlandırırlar. Bir halda ki azadlıq Adəm övladının bəşəriyyət mövcud olandan arzuladığı, uğrunda mübarizə apardığı ali nemətdir, elə isə onun azad mühitdə yaşamasından, öz düşüncələrini azad şəkildə ifadə etməsindən yaxşı nə ola bilər?

## "Azərbaycan" qəzeti "Əkinçi"dən aldığı bayrağı şərəflə daşıdı

Azərbaycan xalqının milli oyanış prosesində, habelə dövlət və dövlətçilik ideyalarının formalaşmasında milli mətbuatımızın rolu böyük və əvəzolunmazdır. Elə buna görə də milli mətbuat tariximizin başlanğıcı ilə milli şüurumuzun oyanış tarixinin üst-üstə düşməsi əsla təsadüfi hadisə deyil.




**Quba şəhərində “Müstəqil Azərbaycan – 25: multikulturalizmin və tolerantlığın bariz nümunəsi” mövzusunda keçirilən konfrans**

Artıq fəxrlə deyə bilərik ki, "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan milli mətbuatı ötən müddət ərzində çox böyük inkişaf yolu keçib. Onun başlatdığı maarifçilik hərəkatının bəhrəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə mediamız 1918-ci ildə dinamik inkişaf üçün şans qazanmış, ziyalılarımız müstəqil mətbuatın, söz, fikir azadlığının inkişafına xidmətlər göstərmişlər.

Bu gün milli mətbuatımızın avanqardı olan "Azərbaycan" qəzeti də bizə məhz o illərin – xalq cümhuriyyətinin yadigarıdır və həm də buna görə hər bir azərbaycanlının qəlbində onun xüsusi yeri vardır.

Əminliklə deyə bilərik ki, bugünkü "Azərbaycan" həm əcdadı "Əkinçi"dən, həm də eyni adlı sələfindən daha xoşbəxtdir. Çünki o həm müstəqildir, həm də maddi-texniki bazası yüksək səviyyədədir.

Həsən bəy Zərdabi 1875-ci ildə milli mətbuatın əsasını qoyanda istər siyasi, iqtisadi, sosial, istərsə də intellektual və maliyyə şərtləri arzuolunan səviyyədə deyildi. Əvvəla, ona görə ki, o illərdə Azərbaycan müstəqil deyildi. Əlbəttə, söhbət təkcə siyasi müstəqillikdən deyil, həm də iqtisadi, ideoloji, mənəvi, mədəni və s.-dən gedir. Ancaq hətta o cür ağır şərtlər də ziyalılarımızı maarifçilik hərəkatından, gələcəyimizin işıqlı sabahlara açılması üçün apardıqları mübarizədən soyutmadı. Əksinə, onların başlatdıqları maarifçilik hərəkatı, az sonra mədəni muxtariyyət, ar-

dınca isə istiqlal mübarizəsinə çevrildi. Məhz buna görə də milli mətbuatımızdan danışarkən onun Azərbaycan tarixinin bütün mərhələlərində, xüsusilə də XIX və XX əsrin əvvəllərində çox əhəmiyyətli rola malik olduğunu söyləmək mümkündür.

1918-ci il sentyabrın 15-də ilk sayı işıq üzü görən "Azərbaycan" qəzeti "Əkinçi"dən aldığı bayrağı şərəflə daşıdı!

Onun birinci nömrəsi çox əlamətdar hadisəyə – Bakının bolşevik-daşnak dəstələrindən azad edilməsinə həsr edilmişdi. Gəncədə Yelizavetpol qubernatorunun mətbəəsində çap olunan ilk nömrədə yer alan Qafqaz İslam Ordusunun qardaş köməyi barədə yazıları, bu ordunun komandanı Nuru paşanın, eyni zamanda Fətəli xan Xoyskinin Nuru paşaya təbrik teleqramlarını bu gün oxuduqca müstəqillik fədailərinin illər boyu ürəklərində yaşatdıqları azadlıq yanğısını hiss etməmək mümkün deyil.

## Ulu öndərin hakimiyyətə gəlişi – ətalətdən ədalətə keçid

Təəssüf ki, Xalq Cümhuriyyətinin süqutundan sonra digər sahələr kimi, milli mətbuatımıza da ağır zərbələr vuruldu, media tamamilə senzuralaşdırıldı, ortaya alternativ fikir qoymaq, problemləri işıqlandırmaq qadağan olundu. Ancaq ulu öndər Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimiyyətə gəldikdən sonra mətbuatımız bu buxovdan azad oldu, ətalətdən ədalətə keçdi.

Ümummilli lider şəxsən özü o dövrün ən nüfuzlu media orqanı olan qəzetlərə cəmiyyətdəki problemləri işıqlandırmağı tövsiyə edirdi. Çünki "Kommunist", "Bakı", "Azərbaycan gəncləri", "Bakinski raboçi" və s. bu qəbildən olan qəzetlərdə dərc edilən ciddi tənqidi yazıların, demək olar ki, əksəriyyətinə birbaşa Mərkəzi Komitə səviyyəsində dərhal reaksiya verilirdi. Ulu öndər əsl xalq fədaisi kimi hətta müsahibələrində ovaxtkı rejimin iyrəncliklərini bəzən açıq, bəzən isə qapalı şəkildə ifşa etməkdən də çəkinmirdi.

O, "Literaturnaya qazeta"da "Qoy ədalət zəfər çalsın" başlığı altında dərc olunmuş müsahibəsi ilə keçmiş ittifaqda korrupsiyaya, cinayətkarlığa qarşı mübarizə başladan ilk rəhbər şəxs idi. O dövrün siyasi mənzərəsini nəzərə alsaq, bu addım çox riskli idi və çox böyük fədakarlıq tələb edirdi. Ancaq bu təhlükələr qarşısında ümummilli lider bir an da geri çəkilmirdi, çünki o, ömrünü xalqına həsr etmişdi...

Təəssüf ki, müstəqilliyimizin ilk illərində ölkədə baş alıb gedən xaos milli mətbuatdan da yan keçmədi. Medianın azad və müstəqil fəaliyyətinə maneələr yaradılır, mətbuat işçiləri fiziki təzyiqlərə məruz qalırdılar. Yalnız ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra milli mətbuatımız rahat nəfəs almağa, özünün əsl funksiyalarını həyata keçirməyə başladı. Ümummilli lider söz və mətbuat azadlığının təmin edilməsini, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinə imkanların yaradılmasını əsas vəzifə kimi qarşıya qoydu. Onun böyük səyləri nəticəsində ölkə mətbuatının azad fəaliyyəti və inkişafına yaradılmış süni maneələr aradan qaldırıldı, qanunvericilik bazası təkmilləşdirildi, KİV-in maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi.

Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı ilə Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərinin Mühafizəsi Baş İdarəsi ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütövlükdə informasiya yayımı üzərində nəzarətlə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşdü. Bununla da Azərbaycan mətbuatı yeni dövrə qədəm qoydu və o, ictimai fikrə təsir edən, sözdə deyil, əməldə "dördüncü hakimiyyət" funksiyasını həyata keçirən real gücə çevrildi. Bunun ar-

dınca "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında" qanunların qəbul edilməsi, bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının dondurulması, o cümlədən 2003-cü ilin martında Azərbaycan Mətbuat Şurasının yaradılması bir daha sübut etdi ki, müstəqilliyini yeni bərpa etməsinə, müharibə və iqtisadi çətinliklərlə çarpışmasına baxmayaraq, öz liderinin iradəsinə, əzminə arxalanan xalqımız demokratik dəyərlərdən vaz keçməyəcək.

## İlham Əliyev – jurnalistlərin dostu

Fəxrlə deyə bilərik ki, ümummilli liderin başlatdığı, Azərbaycanda ikinci maarifçilik hərəkatı adlandıra biləcəyimiz bu missiya hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq mətbuat ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının gətirdiyi yeniliklərlə gündən-günə təkmilləşən sahələrdəndir.

Bu gün ölkə mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində, həmçinin maarifləndirmə istiqamətində təqdirəlayiq səviyyədə iş aparır. Ölkə başçısının hakimiyyətə gəldiyi gündən medianın inkişafına təkan verən, onun müstəqil fəaliyyəti üçün imkanlar yaradan addımlar atması – kütləvi informasiya vasitələrinin "Azərbaycan" nəşriyyatına borclarının ləğv edilməsi, milli mətbuatımızın yubileylərinin ölkə miqyasında geniş şəkildə qeyd olunması, "Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın qəbul edilməsi, Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun təsis olunması, jurnalistlərin mənzil probleminin həlli məqsədilə yüzlərlə mətbuat nümayəndəsinə dövlət hesabına mənzillər verilməsi və s. dünyada analoqu olmayan prosesdir və bu gün də davam etməkdədir.

Bu baxımdan cənab İlham Əliyevin iki dəfə "Jurnalistlərin dostu" seçilməsi heç də təsadüfi fakt deyil. Bu, "Mən jurnalistlərin işini yüksək qiymətləndirirəm. Bu, çox çətin işdir. Bu işdə bəzən jurnalistlər haqsızlıqlarla, təzyiqlərlə üzləşirlər. Biz bunu da bilirik. Ona görə jurnalistlərin sosial müdafiəsi, məişət problemləri həllini tapmalıdır" deyən dövlət başçımızın əsl dost xarakterinin, dostcanlı olmasının birmənalı ifadəsidir.

Heç şübhəsiz, Azərbaycanda azad medianın mövcud olmasını həm özünün şəxsi fəaliyyəti, həm də başçılıq etdiyi dövlətin iradəsi ilə həyata keçirmiş Prezidentin tövsiyələri vətəni sevən, peşənin beynəlxalq prinsiplərini əsas götürən böyük jurnalist ordusu üçün əsl yaradıcılıq məktəbidir. Ölkə başçısı hər zaman jurnalistlərin üzərinə düşən məsuliyyətin böyük olduğunu deyir, hər bir jurnalistin bu məsuliyyəti dərindən dərk etməsinin zərurətini vurğulayır. Bu həm də onu göstərir ki, cənab İlham Əliyev bir çox digər fəaliyyət sahələrinə olduğu kimi, media sahəsinə də yaxından bələddir, onun problemsiz fəaliyyətini daim diqqətdə saxlayır!

## Sələfinin layiqli davamçısı, əsl jurnalistika məktəbi

Bu gün Azərbaycanda azad mətbuat sosial sifarişə, ən əsası isə Prezident İlham Əliyevin siyasi iradəsinə əsaslanaraq inkişaf edir və bu faktın ən bariz nümunələrindən biri "Azərbaycan" qəzetidir.

Eyni adlı sələfindən aldığı məşəli ləyaqətlə daşıyan "Azərbaycan" ölkə mediasında əsl jurnalistika məktəbi hesab oluna bilər.

Ölkənin baş qəzeti – rəsmi dövlət qəzeti və Milli Məclisin orqanı kimi fəaliyyəti ilə yanaşı, ona xüsusi rəğbət oyadan bir cəhət də hər zaman dövlət və vətəndaş mövqeyindən çıxış etməsidir.





**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və "Azərbaycan" qəzetinin birgə təşkil etdiyi konfrans**


AZƏRBAYCAN

Roma Papasının səfəri tarixi hadisədir, böyük şərəfdir, bəşəriyyət üçün önəmlidir

Roma Papası Fransiskin rəsmi qarşılanma mərasimi

28 aprel 2016-cı il

Müstəqil Azərbaycan - 25:

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, "Azərbaycan" qəz

multikulturalizmin və tolerantlığın bariz nümunəsi

Quba Rayon İcra Hakimiyyətinin birgə təşkil etdiyi konfrans

Cəmiyyətdə aşkarlığın və şəffaflığın təmin edilməsində, aktual ictimai problemlərin ümumxalq müzakirəsinə çıxarılmasında, sosial ədalət prinsiplərinin müdafiəsində "Azərbaycan" qəzetinin rolu xüsusi qeyd olunmalıdır. O, fəaliyyətini müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda milli şüur və vətənpərvərlik prinsipləri üzərində quraraq xalqımızın maraqlarını daim müdafiə edir, cəmiyyətimizin tərəqqisi, qloballaşan dünyada milli-mənəvi dəyərlərimizin, milli maraqlarımızın qorunması, dövlətimizin nüfuzunun daha da yüksəldilməsi işinə öz töhfələrini verməkdədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə xalqımızın multikultural, tolerant, milli-mənəvi və dini dəyərlərinin qorunması, inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasətin təbliği, eləcə də cəmiyyətimizin mənəvi dayaqlarının möhkəmlənməsi məqsədilə respublikanın ayrı-ayrı bölgələrində konfranslar, "dəyirmi masa"lar keçirilib.

Quba şəhərində "Müstəqil Azərbaycan – 25: multikulturalizmin və tolerantlığın bariz nümunəsi" mövzusunda keçirilən konfransda ölkəmizin uğurlu multikulturalizm və tolerantlıq modeli müzakirə olunub, etnik-mədəni və dini müxtəlifliklərin qorunmasının zəruriliyi vurğulanıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Ağdam Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə isə "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı, əməkdar jurnalist Bəxtiyar Sadıqovun ssenarisi əsasında hazırlanan "Ruhlar şəhərinin sakinləri" filminin təqdimatı olub. Film "Ruhlar şəhəri" adlanan Ağdama, Qarabağ ağrı-acılarına, faciələrinə həsr olunub. Erməni vəhşiliklərinin ifşasına, habelə məcburi köçkünlərin yurd həsrətinə və torpağa bağlılığına həsr edilən filmin ölkəmiz, eləcə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ haqqında həqiqətlərin bir daha dünyaya çatdırılması baxımından çox böyük əhəmiyyəti vardır.

Ölkəmizdə dövlət-din münasibətləri, ayrı-ayrı etnoslar arasında əlaqələr, hər bir xalqın mədəni-mənəvi dəyərlərinin öyrənilməsi, dövlətçilik maraqlarının qorunması və təbliği baxımından medianın rolu çox yüksəkdir. Bu mənada "Azərbaycan" qəzetinin bu cür maarifləndirmə prosesində təşəbbüskarlığı və yüksək səviyyədə iştirakı təqdirəlayiq və nümunəvi addımdır.


AZƏRBAYCAN
Azərbaycan Prezidenti İlham Əliyevin Gəncəyə səfəri
Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olub

AZƏRBAYCA
Bakı və Azərbaycan Yeparxiyasının Pravosla
Dini-Mədəniyyət Mərkəzinin açılışı olmuşdu
Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdi

AZƏRBAYCAN
Şamaxı Cümə məscidi əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmişdir
Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir

"Azərbaycan" qəzeti davamlı olaraq dövlət komitəsinin fəaliyyətini işıqlandırmaqla ölkədə ideoloji sahədə aparılan maarifləndirmə işinə öz dəyərli töhfəsini verməkdədir.

İllərdir aparılan müşahidələr də göstərir ki, bu qəzet üçün qadağan olunmuş mövzu və toxunulmaz şəxslər yoxdur, çünki dövlətçiliyin və dövlətin mənafeyi hər şeydən öndədir. Sözsüz ki, bu prinsipial mövqe ilk növbədə baş redaktorun – əməkdar jurnalist, Mətbuat Şurası İdarə Heyətinin üzvü Bəxtiyar Sadıqovun kollektivin qarşısına qoyduğu tələblərdən irəli gəlir.

## Söz qalasının mübariz keşikçisi

Bəxtiyar müəllim yeni dövr Azərbaycan jurnalistikasının qaynar mühitində formalaşmış təcrübəli media kapitanlarındandır. Onun insan qəlbini oxşayan yazı üslubu ilə qələmə aldığı məqalələrinin, kitablarının əsas süjet xətti vətənpərvərlikdir. Ruhu yazı-pozu ilə yoğrulan, qəlbi yazıb-yaratmaq eşqi ilə döyünən, xalq üçün, dövlət üçün faydalı nəsə yazmaqdan mənəvi zövq alan Bəxtiyar Sadıqov istər müəllif yazılarında, istərsə də mətbuata açıqlamalarında tez-tez cəmiyyəti narahat edən problemlərə toxunur.

Onun mətbuatımızın, jurnalistikamızın üzləşdiyi problemlərdən, eyni zamanda, yazılı və elektron mediada milli-mənəvi dəyərlərimizə vurulan zərbələrdən ürək ağrısı ilə, vətəndaş təəssübkeşliyi ilə söz açması təkcə mətbuatın qeydinə qalan usta qələm sahibi deyil, həm də ölkənin gələcəyinin təəssübünü çəkən əsl vətəndaş xarakterinin nümunəsidir.

"Dünya SÖZlə yaranıb, sözlə yaşayır, SÖZlə idarə olunur. SÖZ ürəyin açarı, düşüncənin gerçəkliyidir. Elə ki SÖZün yerinə silahlar danışır, onda fəlakət başlayır" deyir Bəxtiyar müəllim və bütün yazılarında təkcə SÖZün qüdrətinə, çəkisinə məsuliyyətlə yanaşan, qələmindən, dilindən çıxan hər SÖZün, hər fikrin mənasının, təsirinin, yozumunun fərqinə varan SÖZ QALASININ KEŞİKÇİSİ kimi çıxış etmir, eyni zamanda oxucuya SÖZün dəyərini, rayihəsini, ritmini hiss etdirir.

Bəxtiyar Sadıqovun Heydər Əliyev siyasi kursuna, məktəbinə sadiqliyinin tarixi hələ müstəqilliyimizin bərpasından əvvəlki illərə gedib çıxır.

Bu gün isə o, həmin kursun ən sadiq davamçısı Prezident İlham Əliyevin ideoloji cəbhəsində yer alan ən mübariz döyüşçülərdəndir.

Elə 2005-ci ildə Əməkdar jurnalist fəxri adına, iki dəfə "Qızıl qələm" mükafatına layiq görülməsi onun yaradıcılığına verilən ali dəyərin rəsmi təzahürüdür.

Bəxtiyar Sadıqov xalqına həm də millət vəkili kimi illərdir xidmət edir, ölkənin ali qanunverici orqanında qəbul olunan qanunların, müxtəlif ictimai, iqtisadi, siyasi məsələlərin müzakirəsində fəal iştirak edir və bu zaman yalnız dövlətçiliyin möhkəmlənməsinə yönəlmiş mövqe ortaya qoyur.

Millət vəkili kimi uzun müddətdir doğulub-boya başa çatdığı Ağdamdan etimad qazanması Bəxtiyar müəllimin yurduna bağlı, el-obasında böyük nüfuz sahibi olduğunun sübutudur. Onunla parlament binasında çiyin-çiyinə çalışdığımız illər, yüksək intellekt sahibi, doğma yurd nisgilini bir an belə unutmayan bu insanın vətənpərvər obrazı hafizəmin ən dərin hissəsində qürurverici xatirə kimi qalmaqdadır.

İnsanın zəhməti və böyük əzmi hesabına çata bilməyəcəyi arzusu yoxdur, məncə. Və mən əminəm ki, Bəxtiyar müəllim öz zəhməti, mübarizliyi sayəsində arzularının bir çoxuna çatıb, ancaq o, hələ də ən böyük arzusunun tezliklə reallaşacağı – bir vaxtlar "Qarabağın toy otağı" adlandırılan, bu gün isə "Ruhlar şəhəri"nə çevrilən Ağdama, işğal altındakı torpaqlarımıza qayıdacağı günü səbirsizliklə gözləyir.

Necə ki biz həm o günü, həm də onun o BÖYÜK GÜNə həsr edəcəyi məqaləsini, o torpaqlardan hazırlayacağı reportajı səbirsizliklə gözləyirik! İlk sayını Bakının erməni işğalından azad olunmasına həsr edən qəzetdə bir gün Qarabağın da erməni işğalından azad olunduğu xəbərini oxumaqdan daha gözəl nə ola bilər ki?!

"Ruhlar tezliklə şəhərə qayıdacağımıza və onu yenidən, əvvəlkindən də yaxşı tikib-quracağımıza inanırlar!" dediyiniz o gün uzaqda deyil, zamanında deyiləcək bir SÖZ qədər yaxındadır, Bəxtiyar müəllim!

Yubileyiniz, yubileyimiz mübarək!



**Azad RƏHİMOV,**
*Azərbaycan Respublikasının gənclər və idman naziri*

# Gənclərin və idmançıların doğma qəzeti

***İnkişafın, dövlətçiliyin Azərbaycan modeli özündə bir sıra mühüm aspektləri birləşdirir. Bu prioritetlərə ilk növbədə ölkədə ictimai-siyasi sabitlik və təhlükəsizlik, balanslaşdırılmış xarici və daxili siyasət, hüquqi dövlət quruculuğu, çevik idarəetmə mexanizminin tətbiqi və təkmilləşdirilməsi, vətəndaş cəmiyyətinin inkişafı daxildir.***

Əhalinin maddi rifahının yaxşılaşdırılması, aztəminatlı ailələrin məqsədyönlü sosial müdafiəsi də burada xüsusi əhəmiyyət kəsb edir. Tolerantlıq və multikultural dəyərlərin qorunub saxlanılması, Azərbaycanın müxtəlif nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi, qlobal mövzuların müzakirə mərkəzinə çevrilməsi də öz aktuallığı ilə diqqət çəkir.

Dövlət başçısı tərəfindən uğurla həyata keçirilən uzaqgörən siyasət ölkənin qarşısında böyük imkanlar açır. Bu gün müstəqil Azərbaycanın dünyada söz sahibi olması, beynəlxalq qurumların hesabatlarında islahatçı ölkə kimi yer tutması, nüfuzlu təşkilatların mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etməsi bir həqiqəti ortaya qoyur: ölkəmizin seçdiyi yol düzgündür və bu yol onu daha parlaq gələcəyə aparır.

Ölkədə gedən ictimai-siyasi, sosial-iqtisadi proseslərin hər birinin işıqlandırılması, dünya ictimaiyyətinə çatdırılması istiqamətində media önəmli rol oynayır.

Artıq 100 yaşını qeyd edən və ölkənin yeganə rəsmi dövlət qəzeti statusunu daşıyan "Azərbaycan" qəzeti hər zaman ölkədə yaşanan əlamətdar prosesləri, analitik məqalələri peşəkar yanaşması, illərə sığınan təcrübəsi ilə daim ictimaiyyətə yüksək səviyyədə təqdim edir, oxucularını maarifləndirir. Məhz bu səbəbdən "Azərbaycan" qəzeti həmişə inama, nüfuza və güvənə sahib olmuşdur.

Bu gün ölkəmiz digər sahələrdə olduğu kimi, gənclər və idman sahəsində də öz modelini yarada bilmiş, dünya ölkələri arasında xüsusi hörmət və etibara sahib olmağı bacarmışdır.

Heydər Əliyev gənclərlə görüşlərinin birində demişdir: "Mən sizi gördükcə daha da ruhlanıram, siz mənə daha da ilham verirsiniz və sizdən ilham alaraq Azərbaycanı daha da qüdrətli etməyə çalışıram. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti, Azərbaycanın Prezidenti sizin – gənclərimizin bütün hüquqlarının qorunmasının təminatçısı olub və bundan sonra da təminatçısı olacaqdır. Əmin ola bilərsiniz ki, Azərbaycan gənclərinin əlverişli şəraitdə yaşaması, təhsil alması, yaxşı əmək fəaliyyəti ilə məşğul olması üçün bundan sonra da əlimizdən gələni edəcəyik".

Dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin edilməsini qarşıya mühüm vəzifə kimi qoyan Heydər Əliyevin fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. 2 fevral 1996-cı ildə Prezident Heydər Əliyevin şəxsən özünün də iştirak etdiyi müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib.

1 fevral 1997-ci ildə forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Heydər Əliyev "2 fevral – Azərbaycan Gənclər Gününün elan edilməsi haqqında" sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd olunur. "Azərbaycan" qəzeti fəaliyyətə başlayandan gənclər siyasətinə xüsusi yer verir. Bu sahədəki prosesləri operativ, milli mənafe prizmasından işıqlandırır, rəngarəng publisistik məqalələrlə çıxış edir. Gənclər siyasəti ilə bağlı qaldırılmış məsələlər geniş diskussiyalara, müzakirələrə səbəb olur. Azərbaycan gəncliyini düşündürən məsələlər geniş rakursdan şərh edilir. Respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması və dövlət orqanlarının diqqətinin gənclərin problemlərinin həllinə yönəldilməsi məqsədilə 1999-cu ildə Heydər Əliyev tərəfindən "Dövlət gənclər siyasəti haqqında" fərman imzalanıb. "Dövlət gənclər siyasəti haqqında" fərman gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqlarının müdafiəsi, ölkənin ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələlərə toxunmaqla çox geniş spektri əhatə edib. Ötən 14 ildə Azərbaycanda gənclər siyasəti daha da genişlənərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yeni mərhələyə yüksəlib.

2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının əyani təzahürü idi. Ölkə başçısının xüsusi olaraq vurğuladığı "Neft gəlirlərini insan kapitalına çevirək" fikri gənclərin üzərinə böyük məsuliyyət qoydu və nəticə etibarı ilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nın əsasının qoyulmasına səbəb oldu. İlham Əliyev 2007-ci ili ölkədə "Gənclər ili" elan etməklə gənclərə olan inam, etibar və güvəni əyani şəkildə nümayiş etdirmiş oldu. 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", 2017-ci ildə isə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" dövlət proqramlarının qəbul edilməsi gənclərin bacarıq və imkanlarının genişləndirilməsi, onların qarşısında yeni üfüqlərin açılması ilə bərabər, eyni zamanda üzərlərinə böyük məsuliyyət və öhdəlik də qoymuş oldu.

Atılan addımlar dövlət başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" fikrini özündə əyani şəkildə ehtiva etmiş oldu.

"Azərbaycan" qəzetində deyilir: gənclərin hərtərəfli inkişafı üçün gənclər mərkəzinin, gənclərin elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərinin stimullaşdırılması məqsədilə gənclər fondunun yaradılması, regionlarda 30-dan artıq "Gənclər evi"nin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verdi.

Bu gün gənclərin təşəbbüslərini, ideyalarını, təkliflərini, istəklərini daha geniş şəkildə reallaşdırmaq üçün onların hazırladıqları layihələrə xüsusi diqqət ayrılır.

Bütün bunlar – rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzetinin respublikamızın gənc nəslinin milli düşüncəli, azərbaycançılıq ideologiyası, eləcə də vətənpərvər ruhda tərbiyələndirilməsi və maarifləndirilməsi istiqamətində həyata keçirdiyi dəyərli layihələr il boyu onun səhifələrində aparıcı mövzulara çevrilmişdir. Həmin rubrika, səhifə və məqalələrin bəzilərinin adlarını sadalamaq, məncə, yerinə düşərdi: "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Heydər Əliyev – 90: Nəsillərin görüşü" ("Azərbaycan" qəzetinin təşəbbüsü ilə Respublika Ağsaqqallar Şurası üzvlərinin gənclər təşkilatlarının təmsilçiləri ilə görüşündən "dəyirmi masa"), "İlham Əliyevlə daha uğurlu gələcəyə

doğru!", "Azərbaycan 2020: gələcəyə baxış", "Azərbaycan və Azərbaycan gəncliyi", "İslahatçı gənclər", "Sabahın dan ulduzları", "Gənclər siyasətində prioritet istiqamətlər", "Gənclik "İdman ili"ndə", "Dünyanın 37 ölkəsindən 140 gəncin qatıldığı Diaspor Gənclərinin I Yay düşərgəsi", "Gənclər bizim gələcəyimizdir", "Vətənpərvər gənclər işıqlı sabahımızdır", "Gənclər evində – Gənclər Günü", "Gənclər cəmiyyətin avanqard qüvvəsinə çevrilib", "Gəncliyə dövlət qayğısı uğurlara hesablanan siyasətdir" və s.




**"Azərbaycan" qəzetinin "Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" adlı ikicildlik kitabı**

Prezident İlham Əliyev 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nı təsdiq edib. Strategiyada göstərilir ki, Azərbaycan gəncliyi öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirib, ölkədə gedən proseslərin önündə olub.

Hər bir ölkənin inkişafında gənclər önəmli və müstəsna rol oynayır. Müasir dövrdə gənclər sahəsində qazanılan uğurlar dövlətlərin ümumi inkişaf səviyyəsini, iqtisadi-siyasi potensialını müəyyənləşdirən önəmli meyarlardan sayılır. Gənclər siyasəti sahəsində görülən işlər, atılan addımlar, ölkə başçısının gənclərlə görüşü, verilən tövsiyələr, qəbul olunan qərarlar, imzalanan fərmanların hər biri Azərbaycan mediasının sütun orqanlarından biri olan "Azərbaycan" qəzetində dəqiq, geniş, operativ və peşəkar şəkildə analiz edilir, öyrənilir və cəmiyyətin hər bir nümayəndəsinə maraqlı şəkildə çatdırılır.

Ölkənin bütün sahələrindəki inkişafı onun mətbu orqanlarında öz əksini tapır. Əlbəttə, dövri mətbuatın gündəlik mövzusuna çevrilən bu inkişafın əsas stimulverici qüvvəsi olan xalq-hakimiyyət birliyi mətbuatımızın daim diqqət mərkəzində olub. Bu, mətbu orqanlar arasında xüsusi seçilən rəsmi dövlət qəzeti, Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı, hazırda isə Azərbaycan Respublikası Milli Məclisinin orqanı olan "Azərbaycan"ın adını xüsusi qeyd etmək yalnız mənim deyil, ölkə ictimaiyyətinin borcudur.

Artıq 100 yaşını qeyd edən, cəmiyyətdə, çoxminlik oxucu ordusu arasında, media müstəvisində xüsusi çəkisi və nüfuzu olan "Azərbaycan" qəzeti gündəmdə baş verən hadisələri, ən son xəbərləri əhatə etməklə kifayətlənmir. Qəzet cəmiyyət, ictimaiyyət üçün əhəmiyyət daşıyan mövzular ətrafında ekspertlərin rəylərini, bu sahəyə aidiyyəti olan peşəkarların maraqlı və fərqli yanaşmalarını da təqdim edir.

Qəzetin xüsusi önəm ayırdığı, gündəlik olaraq oxucularına təqdim etdiyi əsas mövzulardan biri də idmandır. Azərbaycan idmanının bir əsrə sığan tarixi gündəlik olaraq qəzetin səhifələrində öz əksini tapıb.

Sevimli qəzetimizin yaradıcı kollektivinə üzümü tutaraq ulu öndər Heydər Əliyevin fikirləri ilə bildirmək istərdim: "Sizin nailiyyətləriniz eyni zamanda böyük siyasi xarakter daşıyır, dövlətçiliyimizin nailiyyətləri kimi qiymətləndirilməlidir. Biz bunu məhz belə də qiymətləndiririk".

Bildiyimiz kimi, "Baku 2015" I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmiz, ümumiyyətlə, bütün Avropa Olimpiya hərəkatı üçün tarixi hadisədir. Azərbaycanda indiyədək keçi-

rilən beynəlxalq tədbirlərdə, o cümlədən dünya, Avropa çempionatlarında, "Avrovision – 2012" Mahnı Müsabiqəsində əldə etdiyimiz təcrübəyə əsaslanaraq deyə bilərik ki, "Baku 2015" I Avropa Oyunlarına evsahibliyi üçün yaradılmış hər cür şəraitin "Azərbaycan" qəzeti vasitəsilə geniş oxucu kütləsinə çatdırılması təsadüfi deyildi. Çünki "Baku 2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın hələ Oyunlara hazırlıq prosesində çıxışlarının birində bildirdiyi kimi, Avropa tarixində ilk dəfə olaraq keçiriləcək Oyunların Azərbaycana həvalə edilməsi faktı beynəlxalq və Avropa Olimpiya hərəkatına ölkəmizin sadiqliyinə, idman, fiziki tərbiyə və mədəniyyət sahəsində apardığı fəaliyyətə, həmçinin bütün sahələrdə əldə edilmiş nailiyyətlərə verilən yüksək qiymətdir: "İlk Avropa Oyunlarına evsahibliyi edən Azərbaycanın uğuru və xüsusi rolu Azərbaycan Prezidenti İlham Əliyevin hələ 31 iyul 1997-ci il tarixində Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra başlanan çox doğru və dəqiq, düşünülmüş, uzaqgörən siyasətin bəhrəsidir. Əlbəttə, sonra Azərbaycanda idman və mədəniyyət sahəsində ciddi nailiyyətlər əldə edildi. Məhz bundan sonra adıçəkilən sahənin inkişafına diqqət yönəldi ki, ölkə nəinki öz iqtisadi inkişafı, o cümlədən strateji və mədəni perspektivləri ilə dünyada xüsusi yer tutdu. Beləliklə, məntiqi olaraq Azərbaycan həm idman uğuru, həm də dünya və Avropa səviyyələrində çempionat və tədbirləri, o cümlədən ölkəmizdə nüfuzlu beynəlxalq yarışları təşkil etməklə dünyanın idman mərkəzlərindən birinə çevrilmişdir".

Bilirik ki, yunan-Roma güləşi Romanın adını bu idman növü ilə birlikdə tarixə yazıb. "Baku – 2015" I Avropa Oyunları da Azərbaycanın adını Avropanın idman tarixinə beləcə yazdı. Bu uğurlar "Azərbaycan" qəzetinin hər sayında öz oxucularının diqqətinə çatdırılırdı ki, bu da həmin beynəlxalq idman oyunlarına marağın artırılması, təbliği istiqamətində atılan mühüm addımlardan biri idi.

Azərbaycan idmanının inkişaf tarixindən söz açarkən 1994-cü ildə ölkə idmanındakı böyük boşluqlardan sonra Azərbaycan idmançılarının rəsmi beynəlxalq yarışlarda 12 qızıl, 15 gümüş və 22 bürünc medal əldə etmələrini xüsusi olaraq vurğulamaq yerinə düşür. O dövrün ən mühüm hadisəsi 1996-cı ildə Azərbaycanın müstəqil dövlət kimi ilk dəfə olimpiya oyunlarına qatılması idi. Ölkəmiz Atlantada 23 idmançı ilə təmsil olundu və nəticədə sərbəst güləşçimiz Namiq Abdullayev 2-ci yeri qazanmaqla müstəqil dövlətimizə ilk olimpiya medalını bəxş etdi.

Xalqımızın sevimli və rəsmi dövlət orqanı olan "Azərbaycan" öz oxucularına bildirirdi ki, 1997-ci il Azərbaycan idmanı üçün xüsusilə əlamətdar olmuşdur. Məhz həmin il idman aləmində xüsusi önəmi və əhəmiyyəti olan "Bədən tərbiyəsi və idman haqqında" qanun qüvvəyə minmişdir. Məhz bu qanun Azərbaycan idmanının inkişafının hüquqi bazasının təminatçısı rolunu oynadı.

1997-ci ildə ölkə rəhbəri İlham Əliyevin Milli Olimpiya Komitəsinə prezident seçilməsi idman tariximizin yeni səhifəsi, daha böyük uğurların başlanğıcı oldu.

2000-ci il avqustun 25-də ümummilli liderimizin iştirakı ilə Azərbaycan idmançılarının Sidney Yay Olimpiya Oyunlarına yolasalma mərasimi keçirildi. Həmin mərasimdə Prezident idmançılara xeyir-duasını verdi, onlara bu yarışlarda uğurlar arzuladı. Haqqında söhbət açdığımız qəzet də bu tarixi hadisəyə xüsusi diqqət yetirərək bildirirdi ki, Azərbaycan idmançıları Sidney Olimpiya Oyunlarında 2 qızıl, 1 bürünc medal qazanıb, 199 ölkə arasında 34-cü yerdə qərar tutub. Olimpiya yığma komandamızın bu möhtəşəm yarışlarda Avropa ölkələri arasında 23-cü yeri tutması idmanımızın böyük qələbəsi idi.

İdmançılarımızın yalnız olimpiya oyunlarında deyil, il boyu müxtəlif yerli, beynəlxalq yarışlarda, Avropa, dünya çempionatlarında qazandıqları uğurlu nəticələr idman bünövrəsinin daha da möhkəmlənməsinə, gələcək, daha möhtəşəm uğurların güclü təməlinin, yetişməkdə olacaq yeni idmançı ordusunun əsasının qoyulmasına səbəb oldu.

2004-cü ilin avqust ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə "Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı" təsdiq edilmişdir. Hər ötən olimpiya oyunları idmançı sayının artımı ilə bərabər, eyni zamanda medal sayına da öz müsbət təsirini əyani şəkildə göstərmiş olur. 2004-cü ildə Afinada keçirilən yay olimpiya oyunlarına qatılan Azərbaycan idmançıları vətənə 1 qızıl, 4 bürünc medal gətirməklə xalqımızı sevindirdilər. 2008-ci il XXIX Pekin Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 11 növ üzrə 44 idmançı ilə təmsil olunaraq 1 qızıl, 2 gümüş və 4 bürünc medala sahib oldular.

XXX London Yay Olimpiya Oyunlarını Azərbaycan idmanının böyük uğuru kimi qiymətləndirmək olar. "Azərbaycan" qəzeti bu əlamətdar idman oyunlarına səhifələr həsr etdi. 16 idman növü üzrə 53 idmançı ilə təmsil olunan Azərbaycan olimpiya tarixində ilk dəfə olaraq 2 qızıl, 2 gümüş, 6 bürünc medal qazandı. Son Rio-de-Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları tarix yazmağı bacardı: 1 qızıl, 7 gümüş və 10 bürünc, ümumilikdə 18 medal qazanmaqla ən böyük uğura imza atmış oldular.

Budur, "Azərbaycan" qəzetinin idmanla bağlı yazılarının birində dövlət başçısı İlham Əliyevin fikirləri ilə tanış oluruq: "Biz güclü idman dövlətləri arasındayıq. Biz bütün dünyaya göstəririk ki, Azərbaycanda idman inkişaf edir, gözəl gənc nəsil yetişir və idman hər bir ölkənin ümumi inkişafının təzahürüdür. Əgər qabaqcıl idman ölkələrinə nəzər salsaq, görərik ki, onların mütləq əksəriyyəti inkişaf etmiş ölkələrdir. Çünki inkişaf etmiş ölkələrdə idmana daha da böyük dəstək göstərilir, bunun üçün daha da böyük maliyyə imkanları var, idmançılar üçün şərait daha da yaxşıdır və əlbəttə ki, nəticələr də özünü göstərir".

"Azərbaycan" qəzetinin Olimpiya idman hərəkatına töhfəsi yalnız xüsusi səhifə və diqqətçəkən rubrikalarla çıxış etməsi deyil. Xüsusi olaraq vurğulamaq istərdim ki, 2013-cü ildə "Azərbaycan" qəzetinin redaksiyası tərəfindən "Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" adlı ikicildlik kitab da çapdan buraxıldı. Adıçəkilən toplu müasir Azərbaycan dövlətinin banisi, ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə və Milli Olimpiya Komitəsinin yaranmasının 20-ci, Azərbaycan Olimpiya hərəkatının inkişaf mərhələsinə qədəm qoymasının 15-ci ildönümünə ithaf edilmişdir. Kitabın təqdimatı fevralın 23-də "Gülüstan" sarayında keçirilmişdir.

Bu sanballı nəşrin ideya rəhbəri və ön sözün müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, nəşrin redaktoru Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi – şöbə müdiri, tarix elmləri doktoru, professor Əli Həsənov, kitabın buraxılışına məsul Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov və "Azərbaycan" qəzeti redaksiyasının kollektividir.

Kitabın birinci cildi olimpiya oyunları, idmanın inkişafı ilə bağlı sırf faktoloji materiallar, ayrı-ayrı oçerklərdən ibarətdirsə, ikinci cild Prezident İlham Əliyevin idmanla bağlı fəaliyyətini əks etdirən və bu sahənin inkişafını əhatə edən fərman və sərəncamları və digər sənədləri özündə ehtiva edir. Dövlət əhəmiyyətli sənədlər ikinci cilddə birinci cilddən çoxdur. Bu da onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyi on beş il ərzində bu sahəni daim diqqətdə saxlamışdır.

Azərbaycanda Olimpiya hərəkatının tarixini, əldə edilmiş uğurları, Prezident İlham Əliyevin beynəlxalq tədbir və görüşlərdəki iştirak və çıxışlarını toplum halında oxucuya çatdıran, qazanılmış uğurları fotoşəkillərin "dili" ilə geniş auditoriya ilə bölüşən bu kitabı tam məsuliyyətlə idman tariximizin əvəzsiz salnaməsi adlandırmaq olar.

Kitabda müstəqillik dövründə Azərbaycan idmanının inkişafı, ölkəmizdə olimpiya oyunlarına hazırlığın təhlili, bu sahədə görülən işlər və beş olimpiya oyununda iştirakımızla bağlı bütün məsələlər geniş şərh olunmuşdur.

Azərbaycan beynəlxalq səviyyəli idman yarışlarına ən yüksək şəkildə evsahibliyi etməklə də tarix yazmağı bacardı. Azərbaycanın müxtəlif illərdə uğurla evsahibliyi etdiyi Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, “Formula 1” Qran-pri turniri, Şahmat üzrə Dünya Olimpiadası və digərləri ilə ölkəmizin adını ən yüksək zirvələrə həkk etdi.

Azərbaycan idmançıları 2015-ci il ilk Avropa Oyunlarında 21-i qızıl, 15-i gümüş, 20-si bürünc medal olmaqla ümumilikdə 56 medal qazanaraq Rusiyadan sonra 2-ci pilləyə yüksəldi.

2017-ci il tarixdə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan 57 ölkənin nümayəndəsini qəbul etdi. 3 mindən çox idmançının qatıldığı yarışlarda ölkəmiz 75-i qızıl olmaqla, 162 medal qazanıb 1-ci yerə sahib çıxdı.

İlham Əliyev: "Qədim tarixə malik olan Azərbaycan cəmi 25 ildir ki, müstəqil dövlət kimi yaşayır. Mən 2003-cü ildə Prezident kimi fəaliyyətə təzə başlayanda demişdim ki, bizim əsas vəzifəmiz iqtisadi kapitalı, daha doğrusu, "qara qızıl"ı insan kapitalına çevirməkdir. Bugünkü gənclər müstəqillik dövründə böyümüş, tərbiyə almış gənclər bizim üçün qürur mənbəyidir. İyirmi minə yaxın könüllü – onların böyük əksəriyyəti yerli uşaqlardır, insanlardır, gənclərdir – gecə-gündüz çalışmışdır. Onlar gecə-gündüz peşəkarlıqla, ustalıqla, məharətlə çalışaraq idmançılara, qonaqlara böyük mədəniyyət, hörmət, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və mehribanlıq göstərmişlər. Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında könüllülər haqqında daim bu xoş sözləri eşidirəm. Doğrudan da bizim gələcəyimiz etibarlı əllərdədir".

Rəsmi dövlət qəzeti "Azərbaycan" isə yazırdı: "Ölkə idmanının uğurları müxtəlif illərdə qazanılan medal sayının müsbət fərqi ilə də özünü əyani şəkildə göstərməyi bacarıb. Son bir neçə ilin statistik göstəricilərinə baxmaq yetərlidir ki, bu fərq özünü əyani şəkildə göstərmiş olsun.

2014-cü ildə idmançılarımız 805 medal qazanıblar ki, onlardan 275-i qızıl, 255-i gümüş, 275-i isə bürünc olub.

2015-ci il ərzində olimpiya və qeyri-olimpiya idman növləri üzrə rəsmi beynəlxalq yarışları – dünya və Avropa çempionatları, birinciliklər və kubok yarışlarında idmançılarımız 321-i qızıl, 222-si gümüş və 280-i bürünc olmaqla ümumilikdə 823 medal qazanıblar. 2016-cı il ərzində isə idmançıların dünya, Avropa çempionatları və birinciliklərində, kubok yarışlarında qazandıqları medalların sayı 837 olmuşdur ki, onlardan da 297-si qızıl, 250-si gümüş və 290-ı bürünc idi.


Azərbaycan bugündən İslam dünyasının həmrəylik məkanına, siyasi mərkəzinə və idman paytaxtına çevrilir
AZƏRBAYCAN
İLHAM ƏLİYEV islamiadası
“İlk”lərin təşəbbüsçüsü və gerçəkləşdirəni

Azərbaycanın İslamiada rekordu - 81 medal: 41 qızıl, 24 gümüş, 16 bürünc
AZƏRBAYCAN

Azərbaycanın bölgələrinə və əfsanəvi Neft Daşlarına səyahətini başa çatdıran "BAKI-2015"in MƏŞƏLİ PAYTAXTA GƏTİRİLDİ
Prezident İlham Əliyev Dənizkənarı Milli Parkdakı "Sadko" limanında məşəli qəbul etdi

Ötən 2017-ci il ərzində isə dünya, Avropa çempionatları və birinciliklərində, kubok yarışlarında il ərzində qazanılan ümumi medal sayı 347-si qızıl, 236-sı gümüş  və 268-i bürünc olmaqla idmançılarımızın payına 851 medal düşüb.

Hər bir qazanılan medal Azərbaycan bayrağının yüksəlməsi, himninin səslənməsi, Azərbaycan adının dünyada tanınması deməkdir".

Bu gün Azərbaycan sözün əsl mənasında adını dünya idman tarixinə qürurla yazıb. Növbəti illərdə də ölkəmiz yeni, mötəbər idman tədbirlərinə evsahibliyi edəcək. Təşkilatçılıq, təhlükəsizlik, Oyunların yüksək səviyyədə keçirilməsi bacarığı ilə dünya ölkələri arasında şərəflə dayanmağı bacaran Azərbaycan günbəgün inkişaf edən imkanları ilə sözün əsl mənasında nümunəvi ölkə olmağı bacarıb.

Nəhayət, onu  xüsusi qeyd etməyi özümə borc bilirəm ki, yuxarıda sadalanan idman hadisələrinin hər birindən dəyərli  yazılarla oxucu görüşünə gələn "Azərbaycan" qəzeti sanki  sırf idmana həsr edilmiş mətbu orqandır. Bu gün də həmin ənənə uğurla davam etdirilir. Yeri gəlmişkən deyək ki, ölkəmizdə keçirilən digər beynəlxalq tədbirlər kimi, "Baku 2015" I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, onun da ardınca  dünyanın nəzərlərini yenidən paytaxt Bakıya yönəldən "Formula 1" kimi möhtəşəm idman bayramlarına səxavətlə yer ayırması, bir-birindən maraqlı faktlarla oxucularını idman aləminə cəlb etməsi "Azərbaycan" qəzetinin sanki missiyasına çevrilmişdir.

Hələ "Baku 2015" I Avropa Oyunlarına hazırlıq dövründən "Azərbaycan" davamlı şəkildə xüsusi idman təmayüllü qəzet kimi bu vacib missiyanı diqqət mərkəzində saxlayır, müxtəlif daimi rubrikalar altında məqalə və reportajlar, "dəyirmi masa"lar hazırlayır, beləliklə, geniş oxucu auditoriyasının diqqətini özünə cəlb edirdi. "Avropa Oyunlarına.... qalır" rubrikası altında  verilən məqalələr Oyunların başlanma tarixini göstərməklə yanaşı, həm də, bir növ, oyunların təqvimi idi.

"Avropa Oyunları" səhifələrində bir-birindən maraqlı faktlarla zəngin məqalələrə yer ayrılırdı. Demək olar ki, Oyunların hazırlıq prosesinin hər kiçik detalı belə diqqətdən yayındırılmadı. Geniş ictimaiyyətin və ölkəyə axın-axın gələn xarici turistlərin, eləcə də oyunçuların fikirləri həmin səhifələrdə işıqlandırıldı.

"Baku 2015" başlayanadək "Azərbaycan Avropa Oyunlarının standartlarını müəyyənləşdirəcək", "Məşəl... alovlandırıldı" səhifələri xüsusi tərtibatla, incə zövqlə verilirdi. "Azərbaycan  Av-



ropa Oyunlarının standartlarını müəyyənləşdirəcək" rubrikası altında respublikamızın bölgələrindəki inkişaf, o cümlədən idman həyatındakı yeniliklər, qocaman idman ustaları ilə keçirilən görüşlər öz əksini tapırdı. Oyunlar başlayanadək belə rubrika və səhifələrin sayı durmadan artırdı. "Ümumavropa idman təntənəsi", "Avrovision Baku 2015"dək səhifə və rubrikalarında idmanla incəsənətin sintezini görürdük. Hər iki sahə burada paralel olaraq işıqlandırılırdı.

"47 günlük səfər, 60 rayon, 5500 km məsafə" rubrikası olimpiya məşəlinin bölgələrə səfərini ardıcıl olaraq izləyərək Oyunların Bakıda başlanmasınadək davam etdirilməsi də məhz "Azərbaycan" qəzetinin yeni və orijinal layihələrindən hesab edilirdi.

Məqalələrin sərlövhələri ilk andaca oxucu diqqətini özünə çəkirdi: "Saat kimi..." məqaləsində göstərilirdi ki, I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi belə işləyir. "Məşəl sülhə, ədalətə çağırır", "Nizami yurdu bayram sevincinə büründü", "Alov dağlar diyarında", "Alov uğurlara işıq saçır", "Uğur estafeti", "Alov qüllələrindən parlayan şəfəq" kimi bir-birindən maraqlı məqalələr "Fəxr et, qürur duy, Azərbaycan!", "Alovun səyahəti", "Hər dəqiqəsi bir tarix, hər günü bir zəfər" rubrikalarında və "Azərbaycan sizdən qələbə gözləyir", "I Avropa Oyunları: Güclülər qalib gəlir" kimi gözoxşayan, zəngin faktlarla dolu səhifələrdə öz əksini tapırdı.

Maraqlı məqamlardan biri də odur ki, "Baku 2015" I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva oyunların yüksək səviyyədə hazırlığına görə ölkəmizdə ən ali mükafat olan Heydər Əliyev ordeni ilə təltif edilmişdir.

Rəsmi dövlət qəzeti "Azərbaycan"ın 2017-ci ildəki saylarını vərəqləsək, orada daha bir beynəlxalq idman yarışlarına səxavətlə yer ayrıldığını söyləyə bilərik. Bəlkə də sırf idman təmayüllü qəzetlər həmin tədbirlərə bu qədər həssaslıqla yanaşmayıb. Bu, IV İslam Həmrəyliyi Oyunları idi ki, bütünlüklə islam aləminin diqqətini yenidən ölkəmizə yönəltmişdi. "Azərbaycan" qəzeti bu beynəlxalq idman yarışmasını davamlı olaraq izləmiş, digər KİV-dən fərqli səhifə və diqqətçəkən rubrikalarla bir-birindən maraqlı məqalələr dərc etmişdir. Nümunə üçün onlardan bəzilərinin adlarını sadalamaqla qəzetin yaradıcı və texniki heyətinə, başda baş redaktor Bəxtiyar Sadıqov olmaqla, Azərbaycan gəncliyi və idmançıları adından təşəkkürümü bildirirəm: "IV İslam Həmrəyliyi Oyunları: İlham Əliyev islamiadası", "İlham Əliyev Azərbaycan islamiada zəfərinin baş müəllifidir", "Zəfər səhifəsinə yeni adlar yazılır", "Ümumislam təntənəsi", "İslamiadanın qızıl oğlanları", "İslamiadaya gələnlərin Azərbaycan təəssüratları"... kimi səhifələr oxucular tərəfindən müntəzəm izlənmişdir.

2017-ci ilin yaddaqalan daha bir idman avtomobil yarışması da "Azərbaycan" qəzetinin aparıcı mövzusuna çevrilmişdir ki, bu da 190 ölkədən 500 milyondan artıq tamaşaçının həyəcan və heyranlıqla izlədiyi "Formula 1" idman yarışması idi. "Odlar ölkəsində, sürət zirvəsində"n izlənilən, paytaxtda 23 iyun 2017-ci il tarixdə başlayan bu idman avtomobil yarışlarının yaratdığı xoş təəssüratlar tamaşaçılarla yanaşı, oxucuların yaddaşına həm də bu qəzet vasitəsilə yazılmış oldu.

Bir sözlə, mediamızın sütun orqanı olan yeganə rəsmi dövlət qəzeti "Azərbaycan"ın ölkəmizin müxtəlif sahələrdə qazandığı uğurları daim işıqlandırması, ictimaiyyəti maarifləndirməsi hər bir oxucuda sevinc və qürur hissi doğurur.

Uğurların bol olsun, "Azərbaycan"!



**Fərhad MƏMMƏDOV,**
*Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru*

# Heydər Əliyev irsinin sadiq tərənnümçüsü, İlham Əliyev siyasi kursunun fəal təbliğatçısı

***İlk sayı dövlətçilik tariximizin kifayət qədər mürəkkəb bir mərhələsində – Azərbaycan Xalq Cümhuriyyəti dövründə qədim Gəncə şəhərində işıq üzü görmüş "Azərbaycan" qəzetinin 100 yaşı tamam olur. "Azərbaycan" qəzetinin bu möhtəşəm yubileyi bütövlükdə milli jurnalistikamızın əlamətdar bayramı kimi qəbul edilir.***

## Xalq cümhuriyyətinin müstəqillik və istiqlal rəmzi

Yarandığı mürəkkəb dövrdə dövlətin müstəqillik və istiqlal rəmzinə çevrilmiş qəzetin fəaliyyətinin ayrı-ayrı dövrləri milli jurnalistikamızın parlaq səhifələrinə çevrilmişdir. Həmin illərin əksər nüfuzlu ziyalılarının – Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Ceyhun bəy Hacıbəyli, Xəlil İbrahim, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Məhəmməd ağa Şahtaxtlı, Firidun bəy Köçərli və digərlərinin "Azərbaycan" qəzetində baş redaktor, əməkdaş kimi çalışmaları, habelə qəzetin səhifələrində işıq üzü görmüş məqalələri bu nəşrin ictimai-siyasi mahiyyətini, dəyərini əks etdirir və bu amillər 100 il öncə "Azərbaycan"ın ideya istiqamətini müəyyənləşdirmişdir.

"Azərbaycan" qarşıya qoyduğu ali milli məqsədlərlə fərqlənmiş, dövrünün canlı salnaməsi kimi fəaliyyətinin bütün mərhələlərində cəmiyyətdə yüksək mövqe, nüfuz qazanmış, milli həmrəyliyə xidmət etmiş, xalqımızın milli mənlik şüurunun formalaşmasında əvəzsiz rol oynamış, "hamının qəzeti olmaq" missiyasına sadiq qalmış, mətbu sözün dəyərini daim uca tutmuşdur.

100 il öncə – xalq cümhuriyyəti dövründə olduğu kimi, bu gün də "Azərbaycan" qəzeti rəsmi dövlət qəzeti statusu daşıdığından ölkəmizin əsas qəzeti, baş nəşri hesab olunur. Lakin bu statusla yanaşı, onun milli dövlət quruculuğu prosesində daşıdığı mühüm bir missiya da var ki, bu ona həm də ən sanballı qəzet imici formalaşdırır. Təsadüfi deyil ki, "Azərbaycan" qəzeti ölkə KİV sistemində lokomotiv, avanqard funksiya daşıyır.

Mətbuat aləmində özünəməxsus dəst-xətti ilə seçilən, fəaliyyətini mütərəqqi tarixi ənənələr üzərində quran, qarşıya qoyduğu prinsipial hədəflərə bu gün də sadiqlik göstərən "Azərbaycan" qəzetini digər mətbu nəşrlərdən fərqləndirən bir sıra cəhətlər vardır. Belə ki, "Azərbaycan" respublikanın keçmişinə, bugününə, sabahına mükəmməl elmi-fəlsəfi baxışı özündə əks etdirməsi, xalqa, dövlətçiliyə bağlılığı, dəyişməz ideya-siyasi xətti, peşə meyarlarına tələbkar münasibəti, ölkədə və beynəlxalq aləmdə cərəyan edən hadisələrə operativ yanaşma tərzi, ətraflı təhlillərin aparılmasına öz səhifələrində daha geniş yer verməsi ilə fərqlənir. Qəzetin peşəkar kollektivi tərəfindən son illər nəşr edilən silsilə əsərlər isə müstəqillik dövrümüzün fundamental salnamələridir.

## "Azərbaycan" Heydər Əliyev siyasi xəttinin öyrənilməsində və təbliğində əsas ideoloji mərkəzlərdəndir

Azərbaycanın seçdiyi inkişaf yolunun, dövlət quruculuğunun təməl prinsiplərinin müasir dövrün tələbləri baxımından elmi-nəzəri şərhinə və ətraflı araşdırılmasına böyük önəm verən qəzetin bu istiqamətdə fəaliyyətinin ana xəttini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tariximizin təxminən otuz beş illik bir dövrünü əhatə edən siyasi fəaliyyətinin milli-mədəni intibah və sosial-siyasi tərəqqi mərhələsi kimi öyrənilməsi və şərhi təşkil edir. Ümummilli lider Heydər Əliyevin siyasi xətti müstəqil Azərbaycan dövlətçiliyinin ideya-siyasi məzmununu, onun söykəndiyi dəyərlər sisteminin mahiyyətini özündə ehtiva edən mükəmməl bir konsepsiya olaraq öyrənilmişdir.

"Azərbaycan" qəzeti illərdir ki, ümummilli lider Heydər Əliyevin həm keçmiş SSRİ məkanında yerləşən MDB dövlətləri, həm müsəlman ölkələri və onların təmsil olunduğu İslam Əməkdaşlıq Təşkilatı, həm tarixi-mədəni birlik əsasında türkdilli dövlətlər, həm də Avropa İttifaqı, Avropa Şurası və NATO kimi Qərb strukturları ilə Azərbaycanın bu gün uğurla inkişaf edən əlaqələrinin qurucusu olduğunu böyük ustalıqla tərənnüm edir. Ulu öndər demokratik və dünyəvi inkişaf yolunun Azərbaycan xalqının şüurlu strateji seçimi olduğunu dönə-dönə vurğulamış və demişdir: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".

Heç şübhəsiz, Azərbaycanın iqtisadi-siyasi inkişafı, onun müdafiə qabiliyyətinin möhkəmləndirilməsi həm də beynəlxalq və regional miqyasda inteqrasiya prosesi ilə üzvi şəkildə əlaqəlidir. Xüsusilə qeyd olunmalıdır ki, "Əsrin müqaviləsi"nin bağlanmasından sonra Azərbaycanın qoşulduğu digər neft-qaz və transnəqliyyat xətləri layihələri ölkəmizin dünya birliyinə inteqrasiyasını əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Bu mövzular "Azərbaycan" qəzetinin yaradıcı fəaliyyətində konseptual şərhlərlə, sanballı araşdırmalarla geniş şəkildə təhlil edilmiş, oxuculara bu proseslərin əsl mahiyyəti tam müfəssəl çatdırılmışdır.

"Azərbaycan"ın uzun illərdir apardığı araşdırmalarda da aydın göstərilir ki, yeni neft strategiyası Heydər Əliyev siyasətinin ana xəttinə xidmət etmiş, ölkənin təkcə iqtisadi baxımdan çiçəklənməsinə deyil, həm də beynəlxalq mövqelərinin möhkəmlənməsinə yönəlmişdir. Dünya siyasətində enerji amilinin rolunu gözəl bilən Heydər Əliyev Tanrının Azərbaycana bəxş etdiyi neft və qaz kimi təbii sərvətlərdən ölkənin davamlı inkişafı naminə məharətlə istifadə etməyi bacarmışdır. Onun rəhbərliyi ilə 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" artıq öz bəhrəsini vermişdir və hələ uzun illər Azərbaycan dövlətinin möhkəmlənməsinə və xalqımızın rifahına xidmət

göstərəcəkdir. Təsadüfi deyildir ki, Azərbaycan neftini dünya bazarlarına daşıyan Bakı–Tbilisi–Ceyhan boru kəməri onun çəkilməsi barədə sazişə imza atmış Heydər Əliyevin adını daşıyır. Sonrakı dövrdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən Bakı–Tbilisi–Ərzurum qaz kəməri, TANAP, TAP – "Cənub qaz dəhlizi" və digər enerji layihələri də ulu öndərin aydın və uzaqgörən strategiyasının davamıdır. Və bütün bu proseslər "Azərbaycan" qəzetinin səhifələrində geniş şəkildə əks olunmuş, mükəmməl şərhlərlə, elmi yanaşmalarla ictimaiyyətə çatdırılmışdır.

Elə "Azərbaycan" qəzetində dərc olunmuş əsərində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yazdığı kimi: "İstər Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaq. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir. Bu gün biz azərbaycanlıların ölkəmiz haqda danışanda fəxr edə biləcəyi, qürurla öyünəcəyi çox uğurlar var. Onların istisna olmadan hamısı Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqil Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında Heydər Əliyevin zəhməti olmasın".

## 15 illik möhtəşəm inkişaf və quruculuq dövrünün mükəmməl salnaməsi

"Azərbaycan" qəzetinin fəaliyyətinin əsas istiqamətlərindən birini Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyəti, onun dövlətçiliyimiz üçün anlamının şərhi təşkil edir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildiyi ilk gündən etibarən beynəlxalq münasibətlərdə milli maraqların üstünlüyünü təmin etmiş, ulu öndərin müəyyənləşdirdiyi prinsiplərə sədaqətini daim nümayiş etdirmişdir.

"Azərbaycan"ın son 15 illik yaradıcı fəaliyyətinin əsas qayəsini təşkil edən məqalələrdə, araşdırmalarda qeyd olunduğu kimi, bu kursun ali məqsədi dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin, milli dövlətçilik hüquqlarının təmin olunması və beynəlxalq təhlükəsizlik sistemi ilə uzlaşdırılmış fəaliyyətdir. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət strategiyası ilk növbədə xalqımızın üzləşdiyi problemlərin, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla tənzimlənməsinə, ölkəmizin dövlətlərarası, regional və beynəlxalq əlaqələrinin möhkəmlənməsinə, dünya birliyinə sıx inteqrasiyasına yönəldilmişdir. Bu taleyüklü məsələlər barədə ətraflı xəbərləri, mükəmməl təhlilləri oxucular "Azərbaycan" vasitəsilə əldə edirlər.

Dünyanın aparıcı dövlətlərinin etibarlı strateji tərəfdaş kimi tanıdıqları Azərbaycan Respublikası bu gün beynəlxalq aləmdə öz yerini təsdiqləmiş, ümumbəşəri məsələlərin həllində, yer üzündə sülhün və təhlükəsizliyin qorunmasında, xalqların və mədəniyyətlərin yaxınlaşması proseslərində, qlobal iqtisadi layihələrin icrasında fəal iştirak etməkdədir. Cənubi Qafqaz regionu üzərindən transsərhəd nəqliyyat və kommunikasiya dəhlizlərinin çəkilişi təşəbbüsləri bir tərəfdən Azərbaycanın tranzit imkanlarını, iqtisadi-maliyyə potensialını genişləndirmiş, digər tərəfdən həmin layihələrə bir sıra strateji əhəmiyyətli dövlətləri cəlb etməklə ətrafına tərəfdaşlar toplamışdır. Bu mövzuların ictimaiyyətə çatdırılması, bu barədə vətəndaşlarda dolğun təəssüratın yaranması da məhz "Azərbaycan" qəzetinin üzərinə düşür ki, o da bu vəzifənin öhdəsindən bacarıqla, layiqincə, peşəkarlıqla gəlir.

Bu gün mürəkkəb geosiyasi, geoiqtisadi şəraitdə Azərbaycanın yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilk növbədə region və dünyanın güc mərkəzləri ilə sağlam münasibətlərin inkişafını, bütün dövlətlər və koalisiyalar ilə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasını nəzərdə tutur. Azərbaycan Respublikası praqmatik xarici siyasət kursu ilə özünü çoxsaylı təhdidlərdən xeyli dərəcədə qorumağa, ölkədə sabitliyi saxlamağa və dünyanın bir sıra dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa nail olmuşdur. Bu məsələlərə öz səhifələrində geniş yer ayıran "Azərbaycan" qəzeti prosesin bütün məqamlarını aydınlaşdırır, şərh edir və oxucuya obyektiv rəy verir.

"Azərbaycan" qəzetinin öz səhifələrində geniş yer ayırdığı əsas mövzulardan biri də respublikamızın həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvü kimi dünyada nadir ölkələrdən biri olmasıdır. Azərbaycanın dünyanın 155 ölkəsinin dəstəyi ilə 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini xarici siyasətimizin ən mühüm uğurlarından biri kimi uzun illərdir layiqincə təbliğ edən rəsmi dövlət qəzetimiz respublikamızın 2011-ci ildə üzvlərinin sayına görə BMT-dən sonra ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatına üzv olmasını, həmçinin 2014-cü ilin may-oktyabr aylarında Avropa Şurasının Nazirlər Komitəsinə uğurla sədrlik etməsini də çox dəyərli araşdırmalarla oxucularına çatdırmışdır.

"Azərbaycan"ın da, demək olar ki, hər gün yazdığı kimi, ölkəmiz Şərqlə Qərbi birləşdirən nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkanı kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət kəsb edir. Dinamik inkişafda olan Azərbaycanın bu gün bir sıra enerji və nəqliyyat layihələrinin əsas təşəbbüsçüsü və icraçısı olması onun regional lider qismində geosiyasi aktora çevrildiyini göstərir.

"Azərbaycan" qəzetinin yaradıcı fəaliyyətində xarici siyasət, regional əməkdaşlıq məsələləri də prioritet xarakter daşıyır. Ermənistanı çıxmaq şərtilə, digər dörd qonşu ölkə – Türkiyə, Rusiya, İran və Gürcüstan ilə ölkəmiz sıx əlaqələr qurmuşdur. Eyni zamanda, Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Son illər ərzində yaranmaqda olan Azərbaycan–İran–Türkiyə, Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–Türkiyə–Türkmənistan və Azərbaycan–Rusiya–İran üçtərəfli platformaları regional məsələlərin müzakirəsi, əməkdaşlıq əlaqələrinin inkişafı, qarşılıqlı sərmayələr baxımından əhəmiyyətli təşəbbüslərdir. Bütün bu həssas məqamlar "Azərbaycan"ın təqdimatında olduqca bacarıqla, obyektivliklə oxuculara çatdırılır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan dünyada milli mədəniyyətlərin, ideyaların qovuşduğu diyar, tolerantlıq məkanı kimi tanınır. Bu istiqamətə xüsusi diqqət ayıran qəzetin yazdığı kimi, burada müxtəlif millətlər və xalqlar dini və etnik mənsubiyyətindən asılı olmayaraq dostluq şəraitində yaşamış və bu gün də həmin ənənələr qorunub saxlanılmaqdadır. Mövcud etnomədəni müxtəliflik, tolerantlıq mühiti ölkəmizi mədəniyyətlərarası dialoqun unikal məkanına çevirmişdir.

"Azərbaycan" qəzetinin səhifələrində Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş bütün bu nailiyyətlərin, həmçinin Azərbaycan iqtisadiyyatının inkişaf tempinin daha mütəhərrik hala gəlməsi üçün qəbul olunan müvafiq dövlət proqramları və onlara əlavələr, paytaxt və regionların tarazlı, davamlı inkişafı, onların potensialının bir-birinə kömək mexanizmi üzərində qurulması, qeyri-neft sektorunun daha da möhkəmlənməsi, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, infrastrukturun yeniləşdirilməsi sahəsində uğurların politoloqlar, siyasətçilər və elm xadimləri tərtəfindən ətraflı elmi-nəzəri təhlili verilmiş, fikir və mülahizələr irəli sürülmüşdür.

## Mehriban xanım Əliyevanın vətənə, dövlətə və xalqa layiqli xidmət missiyasının fəal təşviqatçısı




"Azərbaycan" qəzeti tərəfindən 2003-cü ildən etibarən çap edilməyə başlanan sanballı əsərlərdə – 14 adda 19 cilddə ölkəmizdəki sosial-iqtisadi tərəqqi, baş verən mütərəqqi siyasi dəyişikliklər, aparılan hüquqi-demokratik islahatlar konseptual şərh edilmiş, Heydər Əliyev irsinin milli inkişaf strategiyasına çevrilməsi və bu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi əsaslandırılmışdır

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri və ISESCO-nun ilk qadın xoşməramlı səfiri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın da geniş-diapazonlu fəaliyyəti "Azərbaycan" qəzetinin müasir dövlət quruculuğu istiqamətində geniş işıqlandırdığı və elmi-nəzəri şərhini verdiyi sahələrdəndir.

Mehriban xanımın rəhbərliyi altında həyata keçirilən layihələrin istiqamətləri təhsil, səhiyyə, mədəniyyət, eləcə də sosial, ekologiya, idman və s. sahələri əhatə edir. Onun öz xalqının maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti vətəndaşların müsbət qiymətini alaraq, həqiqətən də müasir Azərbaycan tarixinin bir hissəsinə çevrilmişdir. Üstəlik, birinci xanım statusu onun sosial məsuliyyətini daha da artırır və öz müsahibələrinin birində etiraf etdiyi kimi, insanların rifahı naminə humanitar proqramların səmərəliliyinin gücləndirilməsinə yönəldilmiş bütün mümkün imkanlardan istifadəyə məcbur edir.

Dünya birliyinin Azərbaycanın tarixi reallıqları, eləcə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti, o cümlədən XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı və işğal edilmiş ərazilərimizdəki vandalizm faktları barədə məlumatlandırılması Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qarşısında aydın şəkildə qoyduğu əsas tapşırıqlardan biridir. Qeyd edək ki, rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzeti Heydər Əliyev Fondunun fəaliyyəti ilə bağlı son 14 ildə xüsusi buraxılışlar hazırlamış, yüzlərlə məqalə, araşdırma dərc etmişdir.

2004-cü ildə qeyri-hökumət, qeyri-kommersiya təşkilatı kimi fəaliyyətə başlamış Heydər Əliyev Fondu bir sıra yerli və beynəlxalq səviyyəli layihələr həyata keçirməklə ölkənin sosial-iqtisadi və mədəni inkişafına, eləcə də xarici ölkələrdə Azərbaycanın tanıdılmasına öz töhfəsini verməkdədir. Fond UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatlar, xarici ölkələrdəki qeyri-hökumət qurumları, elm, səhiyyə, təhsil və mədəniyyət müəssisələri ilə səmərəli əlaqələr qurur, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, milli mədəniyyətin xarici ölkələrdə geniş təbliğində, qarşılıqlı mədəniyyət mübadiləsində, dövlətlərin və xalqların mədəni inteqrasiya prosesində fəal iştirak edir. Fondun dünyanın bir sıra

guşələrində, o cümlədən Rusiya, Rumıniya, Türkiyə və ABŞ-da nümayəndəlikləri də fəaliyyət göstərir. Bütün bu məqamlar barədə oxucular vaxtaşırı olaraq "Azərbaycan" qəzeti vasitəsilə məlumatlanırlar.

Heydər Əliyev Fondunun BMT-nin ixtisaslaşdırılmış qurumlarından olan UNESCO ilə səmərəli əməkdaşlığı "Azərbaycan" qəzetinin səhifələrində mühüm yer tutur. Fondun prezidenti Mehriban Əliyevanın xidmətləri sayəsində Azərbaycanın muğam, aşıq və milli xalçaçılıq sənətləri, Novruz bayramı, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, aşıq sənəti, həmçinin Novruz bayramı UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil olunmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan–UNESCO əlaqələrinin möhkəmlənməsində, dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə görə fondun prezidenti Mehriban Əliyeva 2004-cü ildə "UNESCO-nun xoşməramlı səfiri" adına layiq görülmüşdür.

"Azərbaycan" qəzetinin səhifələrində geniş şəkildə təqdim olunan materiallarda aydın göstərilir ki, fond təkcə Azərbaycan ərazisində deyil, xarici ölkələrdə də tarixi mədəniyyət nümunələrinin bərpası, yeni mədəniyyət obyektlərinin inşası sahəsində fəaliyyətini davam etdirməkdədir. Məsələn, Tbilisidə Azərbaycanın görkəmli yazıçısı və filosofu Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyaban salınması, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, 2013-cü ildə İtaliyanın paytaxtındakı Kapitoli muzeyində Filosoflar zalının əsaslı təmiri, Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin, Moskvada Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasında Mirzə Fətəli Axundovun abidələrinin ucaldılması, Parisin Versal sarayında dünya əhəmiyyətli bir neçə abidənin, Luvr muzeyinin, İkinci Dünya müharibəsi illərində dağıdılmış Berlin qəsrinin, Vatikanda Roma katakombalarının bərpası fondun beynəlxalq humanitar siyasət sahəsindəki nailiyyətlərindəndir.

Bu günlərdə Prezident İlham Əliyevin də açılışında iştirak etdiyi Bakı Kitab Mərkəzi birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun reallaşdırdığı növbəti gözəl layihələrdən biridir. "Azərbaycan" qəzetinin "Heydər Əliyev Fondunun maarifçilik missiyasının növbəti töhfəsi" sərlövhəsi ilə oxuculara çatdırdığı xəbərdə qeyd olunur ki, Bakı Kitab Mərkəzində oxuculara Heydər Əliyev Fondunun ayrı-ayrı sahələr üzrə nəşrləri də təqdim edilir. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzi intellektual səviyyəni yüksəltmək, bilik və savad almaq üçün ən mühüm şərt olan mütaliə mədəniyyətini yaşatmaq və gələcək nəsillərə ötürmək kimi vacib məsələyə böyük töhfə verir.

Şübhəsiz ki, bu proseslər barədə ən operativ xəbərləri, sanballı şərhləri, dəyərli araşdırmaları da məhz "Azərbaycan" qəzetinin səhifələrindən oxuyacağıq.

## "Azərbaycan"ın kitabları: 14 adda 19 cild

Qeyd etdiyimiz kimi, "Azərbaycan" qəzetinin özünəməxsus dəst-xəttini səciyyələndirən işlərindən biri də respublikanın keçmişinə, bugününə, sabahına mükəmməl elmi-fəlsəfi baxışı əks etdirən bir sıra əsərlərin kollektivin gərgin əməyi və zəhməti nəticəsində nəşr edilməsidir. 2003-cü ildən etibarən çap edilməyə başlayan bu sanballı əsərlərdə – 14 adda 19 cild (5 kitab iki cilddə) ölkəmizdəki sosial-iqtisadi tərəqqi, baş verən mütərəqqi siyasi dəyişikliklər, aparılan hüquqi-demokratik islahatlar konseptual şərh edilmiş, Heydər Əliyev irsinin milli inkişaf strategiyasına çevrilməsi və bu

siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi əsaslandırılmışdır. Tanınmış elm xadimlərinin, ziyalıların, mütəxəssislərin rəylərində isə Azərbaycanın müstəqillik dövrünü əhatə edən intibah mərhələsi məhz bu araşdırmalar kontekstində təhlil olunmuşdur.

Xüsusilə ümummilli lider Heydər Əliyev siyasi irsinin obyektiv araşdırılmasına geniş yer verən qəzetin tərtibçiliyi ilə son illərdə çap olunmuş bir sıra nəşrlər cəmiyyətdə böyük maraqla qarşılanmışdır. "Azərbaycanın özü qədər əbədi" silsiləsindən qəzetin nəşr etdirdiyi "Heydər Əliyev dünyanın gözü ilə", "Heydər Əliyev mənim həyatımda", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" kitabları ulu öndərin əziz xatirəsinə ithaf olunmuşdur. "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" kitabında həm də akademik Ramiz Mehdiyevin ümummilli liderin zəngin dövlətçilik irsindən bəhs edən əsərləri toplanmışdır.

İdeya və ön sözün müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, həqiqi dövlət müşaviri, akademik Ramiz Mehdiyev olan və "Azərbaycan" qəzeti kollektivinin gərgin araşdırma və zəhməti nəticəsində yeni çapdan çıxmış silsilə məqalələr toplusundan ibarət "İnkişafın Azərbaycan modeli" kitabı iqtisadi sahədə keçid dövrünün strateji istiqamətlərini, milli inkişaf strategiyasının əsas nəticələrini müfəssəl şəkildə əks etdirir. Ensiklopedik səciyyəyə malik kitab faktoloji baxımdan zəngin xarakterlidir. Ön söz və üç fəsildən ibarət olan bu kitabda son illər Azərbaycanda elmi əsaslarla hazırlanıb həyata keçirilən sosial-iqtisadi siyasət, reallaşdırılan islahatlar milli inkişaf modelini səciyyələndirən məsələlər kimi önə çəkilir.

"Azərbaycanlıların soyqırımı: Tarixin qanlı salnaməsi" adlı ikicildlik müasir müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf edilmişdir. Bu nəşrin erməni faşizminin mahiyyətini, xalqımızın əsrlər boyu məruz qaldığı qanlı qırğınların baiskarlarını və təşkilatçılarını, soyqırımı haqqında əsl həqiqətləri təkzibolunmaz faktlar əsasında geniş ictimaiyyətə çatdırmaq baxımından müstəsna əhəmiyyəti vardır.

Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində işıq üzü görən "Xocalı şahidləri danışır" kitabında isə Xocalı soyqırımının şahidi olan insanların acı xatirələri əksini tapmışdır. Kitabda həmçinin 200 il ərzində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları, ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi, onların terror təşkilatları yaratmaları barədə faktlar yer almışdır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindəki keyfiyyət dəyişikliyindən bəhs edən "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" kitabında tarixi baxımdan zəruri olan sənədlərə, Aprel zəfərinin səbəb və nəticələrinə, Prezident İlham Əliyevin Aprel döyüşləri barədə fikirlərinə geniş yer verilmişdir. İşğal nəticəsində həm Cocuq Mərcanlı kəndinə, həm də Cəbrayıl rayonuna vurulan ziyan fakt və sənədlərlə göstərilmişdir. Kitaba həm Aprel zəfəri, həm də Böyük Qayıdışın başlanğıcı ilə bağlı Milli Məclisin deputatlarının, siyasətçilərin, politoloqların, müxtəlif sahələrdə çalışan insanların fikirləri də daxil edilmişdir.

"Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi IV və V kitablar isə "Yeni siyasət: inkişafa doğru" adlanır. Kitabda son illər "Azərbaycan" qəzetində dövlət quruculuğunun yeni mərhələsində aparılan islahatlarla bağlı dərc olunmuş əsərlər, habelə bu əsərlərlə əlaqədar yazılmış rəylər toplanmışdır. Qeyd edək ki, bu sanballı əsərlər siyasi-elmi dairələrdə böyük maraqla qarşılanmış, respublikanın inkişaf yolu ilə bağlı cəmiyyətdə dolğun və obyektiv təəssürat formalaşdırmışdır. Respublikanın görkəmli elm xadimləri, Milli Məclisin deputatları, siyasətşünaslar və filosoflar ayrı-ayrı vaxtlarda bu əsərlərlə bağlı söz demək ehtiyacı duymuş, bir sıra mətbuat orqanlarında, əsasən də "Azərbaycan" qəzetində maraqlı resenziyalarla çıxış etmişlər. Eyni zamanda qəzetin təşkil etdiyi "dəyirmi masa"larda fundamental elmi yanaşmalar və tezislər ətrafında geniş müzakirələr, diskussiyalar aparılmışdır.

Bundan başqa, "Azərbaycan" qəzetinin redaksiyası tərəfindən hazırlanmış digər nəşrlər də oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. Belə ki, "Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" adlı ikicildlik müasir Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə və Milli Olimpiya Komitəsinin yaranmasının 20-ci, Azərbaycan Olimpiya hərəkatının inkişaf mərhələsinə qədəm qoymasının 15-ci ildönümünə ithaf edilmişdir. "Vəkil məsləhətləri toplusu" kitabında isə "Azərbaycan" qəzetinin "Bakı Hüquq Mərkəzi oxucuların suallarına cavab verir" rubrikası çərçivəsində son üç il ərzində işıq üzü görən sual-cavablar toplanmışdır.

## Milli mətbuatımızın avanqardı

100 illik bir müddət ərzində müxtəlif ictimai-siyasi proseslərin ziddiyyətli məqamlarını, həmçinin müasir dövlət quruculuğu prosesinin bütün cizgilərini, bütöv mənzərəsini öz səhifələrində əks etdirən, ciddi meyarlarla nəşr edilən mətbu orqan kimi yaddaşımızda kök salan "Azərbaycan" qəzetinin ərsəyə gəlməsində böyük xidmətləri olmuş Üzeyir bəy Hacıbəyli Azərbaycan parlamentində millət vəkillərindən birinin qəzetin kimə və nəyə xidmət etdiyi barəsindəki sorğusuna qəzetin redaktoru kimi 1919-cu il yanvarın 10-u nömrəsində belə cavab vermiş və yazmışdı: "Qəzetimizin firqə və partiya xaricində bir orqan olduğu hər kəsə məlumdur. Hər günkü möhtəviyyatından (mündəricəsindən) məlum olduğu üzrə, vətən abadlığı, millət səlamətliyi, cəmaət tərəqqisi, dövlət intizamı ilə bərabər istiqlal və yenə də istiqlal şüarlarını virdi-zəban (dilinin əzbəri) edib də bunun hüsulində əlindən gələn qədər çalışmaqda olan qəzetimiz bu dairədə yazılmaqda olan məqalələrə sütunlarını bir ananın balasına qarşı açdığı qucağı kibi, kəmali-meyl və məhəbbətlə açıqdır – vəssalam!"

Azərbaycan həyatının bütün sahələrini əhatə edən dolğun, özünəxas yaradıcılıq ənənələri ilə püxtələşmiş, rəngarəngliyi, aktual mövzuları ilə geniş oxucu auditoriyası qazanmış, öz məsuliyyətini dərindən dərk edən "Azərbaycan" qəzeti bu gün milli mətbuatımızın ilk cümhuriyyət dövrünün bu müqəddəs ənənəsini şərəflə davam etdirir. Müasir milli mətbuatımızın avanqardı, bayraqdarı olan "Azərbaycan" qəzetinin yubileyi münasibətilə kollektivin sevincinə qoşulur, bu mətbu orqanda bacarıqla, yüksək peşəkarlıqla çalışan əməkdaşları və çoxminli oxucularını təbrik edir, yeni uğurlar arzulayırıq.

# "Azərbaycan" qəzetinin tarixi mədəniyyət və mətbuat tariximizin parlaq səhifəsidir

*Mədəniyyət naziri "Azərbaycan" qəzeti redaksiyasının qonağı oldu*




***Sonu olmayan bir yoldayıq...***

***Bu yol tarixi yazmaq, yaratmaq qədər önəmlidir. Bugünkü "Azərbaycan"çılar 100 il öncə tarix yaradanların yolunu davam etdirir. Çoxsaylı mətbuat orqanları sırasında özünəməxsus dəst-xətti, sanbalı ilə seçilən, milli dövlətçilik, azərbaycançılıq ideyaları ilə köklənən, hadisələrə obyektivlik prizmasından yanaşaraq cəmiyyətdə baş verən olayları operativ və dəqiq surətdə oxuculara çatdıran "Azərbaycan" qəzeti 100 yaşını qeyd etməyə hazırlaşır.***

Sözlə ifadə olunmayan bir qürur yaşayırıq.

Taleyi ölkəmizin müstəqillik tarixi ilə sıx bağlı olan rəsmi dövlət qəzetinin ad günü təkcə milli jurnalistikamız üçün deyil, bütövlükdə ölkənin ziyalı ictimaiyyəti üçün əlamətdar hadisədir.

Dünən mədəniyyət naziri Əbülfəs Qarayev "Azərbaycan" qəzetinin qonağı oldu, yaradıcı heyətlə görüşərək onları yubiley münasibətilə təbrik etdi.

Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov qonağı salamlayaraq bu görüşün mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Qəzet 1918-1920-ci illər ərzindəki nəşri zamanı ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatının ən müxtəlif sahələrini öz səhifələrində geniş şəkildə əks etdirmiş, ümummilli nəşrə çevrilmişdir. "Azərbaycan" milli dövlətçiliyin konkret mənəvi ideoloji dəyərlər sistemi əsasında formalaşdırılmasında, xalqın tarixi yaddaşının və mənəvi irsinin mühafizəsinə xidmət edən fəaliyyətinin həyata keçirilməsində, azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunmasında xüsusi rol oynamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Qəzet qısa müddət ərzində fəaliyyət göstərməsinə rəğmən xalqın problemlərinə diqqət və qayğı ilə yanaşmış, milli ideallara yüksək sadiqlik nümayiş etdirmişdir. Xalqımız ötən əsrin sonlarına doğru dövlət müstəqilliyini bərpa etdikdən sonra "Azərbaycan" qəzeti yenidən fəaliyyətə başlamış, rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutmuşdur.

Görüşdə xüsusi vurğulanmışdır ki, "Azərbaycan" qəzeti qədər azərbaycançılıq ideologiyasını, ümumiyyətlə, Azərbaycan anlamının bütün mənəvi psixoloji tərəflərini yaşadan, təbliğ edən ikinci bir qəzet yoxdur. Baş redaktor onu da qeyd etdi ki, ölkənin bütün sahələrdə sürətli inkişafı, aparılan siyasi-iqtisadi islahatlar, qazanılan yüksək uğurlar, dövlət başçısının müstəqil siyasət yürütməsi, Azərbaycanın beynəlxalq aləmdə nüfuz sahibinə çevrilməsi qəzetin səhifələrində daim öz əksini tapır. "Azərbaycan" qəzeti bu gün şərəfli bir missiyanı yerinə yetirir. Baş redaktor dövlətin mədəniyyət siyasətinin uğurla həyata keçirilməsində və onun dövri mətbuatda işıqlandırılmasında rəhbəri olduğu kollektivin də üzərinə böyük vəzifələr düşdüyünü vurğuladı.

Azərbaycan professional musiqisinin banisi Üzeyir bəy Hacıbəylinin eyni zamanda bu qəzetin redaktoru olması, təbii ki, böyük qürur doğurur. AXC-nin mövcud olduğu iki ilə yaxın dövr ərzində "Azərbaycan"ın dörd redaktoru olub ki, onların da ömürləri qısa, taleləri ağrılı-acılı keçib. Baş redaktor təəssüf hissi ilə qeyd etdi ki, həmin müddət ərzində "Azərbaycan"ın buraxılan 443 nömrəsinin heç də hamısı əldə deyil: "Prezident Kitabxanası, Akademik Kitabxana, Milli Kitabxana kimi nüfuzlu mədəniyyət müəssisələri ilə sıx əməkdaşlıq şəraitində qəzetin müəyyən nömrələrinin fotosurətlərini çıxararaq arxivləşdirmişik. Qəzetin son 27 illik nömrələrindən ibarət 5 dəstini mühüm dövlət statuslu kitabxanalara vermişik. Bu qəzetin 100 illik tarixi yoluna nəzər saldıqda qürur hissi keçirməmək mümkün deyil. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətdə olduğu dövrdə, eləcə də Prezident İlham Əliyevin ölkə rəhbəri seçildikdən sonrakı illərdə respublikamızın uğurları, hərtərəfli inkişafı bu qəzetin nömrələrinin əsas mövzusuna çevrilib. Belə bir dövri mətbu orqanının nə qədər böyük əhəmiyyət kəsb etdiyi məlumdur".

Baş redaktor redaksiya ilə Mədəniyyət Nazirliyi arasındakı əməkdaşlığın genişləndirilməsi zərurətinə də toxunaraq bunu inkişaf etdirməyin vacibliyini bildirdi. Bəxtiyar Sadıqov əlavə etdi ki, jurnalistlərimiz yalnız qəzet buraxmaqla öz vəzifələrini bitmiş hesab etmirlər. Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlətimizə və xalqımıza misilsiz xidmətlərini tarixiləşdirmək, hər iki liderə xalqın məhəbbətini yaddaşlarda möhkəmlətmək üçün onların həyat və fəaliyyətlərindən bəhs edən kitablar da hazırlayıb nəşr etdiriblər.

Nazir Əbülfəs Qarayev "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqova və rəhbəri olduğu kollektivə qloballaşan dünyada mətbuatın üzərinə düşən missiyanı şərəflə daşıdığına görə təşəkkürünü bildirdi. Xüsusi vurğuladı ki, "Azərbaycan" hər iki dövrdə milli problemlərin səsləndirildiyi möhtəşəm tribunaya çevrilmiş, həmin zamanların nüfuzlu ziyalılarının istək və arzularını əks etdirmişdir: "Moskvada aspiranturada oxuduğum illərdə gizli arxivlərin materialları ilə tanışlığım zamanı "Azərbaycan"ın da əməkdaş və müəllifləri olan böyük ziyalılarımızın milli ideallara yüksək sadiqlik nümayiş etdirməsinin bir daha şahidi oldum və bu, məni heyran qoydu.




Həmin ziyalıların bu ali məqsədlər uğrunda apardıqları mübarizədə üz tutduqları, güvəndikləri ən ali tribuna "Azərbaycan" qəzeti olmuşdur".

Nazir bildirdi ki, mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu Azərbaycanın humanitar sahədəki təcrübəsi son dövrlər dünya xalqlarının marağına səbəb olub. Mədəni dəyərlərin öyrənilməsinin və onlardan istifadə edilməsinə daha çox diqqətin ayrılmasının səbəbləri var. Mədəniyyət xalqları bir-birinə daha çox yaxınlaşdırır. Mədəni əlaqələrin daha da genişlənməsi xalqlar arasında ünsiyyəti vacib faktor kimi ortaya çıxarır: "Son illər ölkəmiz həm Qərbin, həm də Şərqin mədəniyyət məsələlərinin aparıcı rol oynadığı beynəlxalq qurumlarda fəal iştirak edir. Azərbaycan bu sahədə, demək olar ki, hər il beynəlxalq mədəni konvensiyaya, təşəbbüsə qoşulur, onun icrasına dəstək verir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın mədəniyyət sahəsindəki xidmətləri isə əvəzsizdir. Azərbaycan dövləti daxil olduğu beynəlxalq qurumlarda yalnız öz mədəniyyətini təbliğ etmir. Eyni zamanda, dünya mədəniyyətinə sanballı töhfə verir və onun yaranmasında və inkişafında xalqımızın yaxından iştirakını təmin edir".

Ə.Qarayev onu da diqqətə çatdırdı ki, son zamanlar həm maddi, həm də qeyri-maddi mədəni irsin dünyaya təqdim olunmasında böyük hadisələr baş verir. Xalqımıza məxsus muğam, aşıq, xalça sənətlərinin dünya mədəni irs siyahısına salınması, milli bayramımız Novruzun xalqımızın mədəni sərvəti kimi dünyaya təqdimi, onun BMT-nin Qeyri-maddi mədəni irs Siyahısına əlavə edilib beynəlxalq status qazanması mənəvi sərvətlərimizə sahibliyimizin bariz nümunəsidir. Bütün bunları isə "Azərbaycan" qəzeti daim öz səhifələrində diqqət mərkəzində saxlayır. "Azərbaycan" qəzetinin tarixi mədəniyyət və mətbuat tariximizin parlaq səhifəsidir".

Görüş zamanı qeyd edildi ki, sentyabrın 15-i "Azərbaycan" qəzetinin 100 yaşı tamam olduğu gündür. Bu əlamətdar tarix, eyni zamanda, Bakının Qafqaz İslam Ordusu tərəfindən azad edilmə-




sinin də 100 illiyidir. 5 gündən sonra – 18 sentyabr dahi Üzeyir bəy Hacıbəylinin anadan olduğu gündür. Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetinin redaktorlarından biri olub. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2014-cü il sentyabrın 15-dən keçirilən Üzeyir bəy Hacıbəyli beynəlxalq musiqi festivalları nəinki Azərbaycanın, iştirakçı ölkələrin də mədəniyyət tarixinə yazılır.

Tədbirdə bir daha vurğulandı ki, Azərbaycan mədəniyyəti həmişə bəşəriyyətə açıq olub. Ölkəmizin dünya mədəniyyətinə inteqrasiyasında kifayət qədər böyük təcrübəsi var. Bütün bunlar "Azərbaycan" qəzetinin səhifələrində geniş əksini tapıb.

Sonda "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov redaksiya tərəfindən buraxılan, ulu öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə xalq məhəbbətinin ifadəsi olan nəşrləri qonağa hədiyyə etdi.

Mədəniyyət naziri Əbülfəs Qarayev isə 100 illik yubiley münasibətilə kollektivə nazirliyin təbrik məktubunu təqdim etdi, Azərbaycan incəsənətinin incilərindən olan gözəl bir rəsm əsərini, həmçinin xalçaçılığa həsr edilən, nəfis tərtibatlı "Azərbaycan xalçaları İrəvan qrupu"nu redaksiyaya hədiyyə verdi.



**Hicran HÜSEYNOVA,**
*Azərbaycan Respublikasının*
*Ailə, Qadın və Uşaq Problemləri*
*üzrə Dövlət Komitəsinin sədri,*
*siyasi elmlər doktoru, professor*

# Azərbaycan qadın siyasətinin təbliğatçısı

***Azərbaycanın dövlət müstəqilliyinin yol yoldaşı kimi tanınan "Azərbaycan" qəzeti xalqımızın milli oyanışında çox mühüm rol oynayıb və xalq cümhuriyyəti tarixinin öyrənilməsində ilk mənbə kimi xüsusi əhəmiyyət kəsb edib.***

***Ölkəmizdə baş verən bütün mühüm hadisələri, vacib informasiyaları, əlamətdar tarixləri, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti haqqında ətraflı məlumatları müntəzəm olaraq öz səhifələrində əks etdirən "Azərbaycan" qəzeti bu günlərdə 100 illik yubileyini qeyd etməyin sevincini yaşayır. Daim həqiqətin carçısı olan, dolğun mövzular təqdim edən, özünəməxsus yaradıcılıq ənənələri ilə seçilən, xalqın qəzeti olan bu mətbu nəşr fəaliyyətini Azərbaycan hökumətinə və xalqına sadiqlik meyarları üzərində quraraq dərin rəğbət qazanmışdır.***

Qəzetdə Azərbaycanın tarixinə, mədəniyyətinə, maarifinə, siyasi vəziyyətinə dair silsilə məqalələr dərc olunurdu. Xüsusilə də qadın və uşaq hüquqlarının müdafiəsi, onların təhsilə cəlb olunması, qadınlara müxtəlif peşələrin öyrədilməsi ilə bağlı mütəmadi yazılar nəşr edilirdi. "Azərbaycan" qəzetinin səhifələrində Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Fərhad Ağazadə, Hacı İbrahim Qasımov, Məhəmməd ağa Şahtaxtlı, Adil xan Ziyadxanov, Əliabbas Müznib, Şəfiqə Əfəndizadənin və digər maarifçi ziyalıların bu məsələlərə həsr edilən məqalələri çap olunurdu. Şəfiqə xanım Əfəndizadə bu dövrün xanım publisistləri arasında qabaqcıl sırada dayanırdı. Onun "Azərbaycan" qəzetinin (1918-1920-ci illərdə çap olunan) az qala hər nömrəsində publisistik məqalələri gedirdi. Qadın hüquqsuzluğunun aradan qaldırılmasının əsas həllini maariflənmədə görən Şəfiqə Əfəndizadə yazırdı ki, "bir millətin tərəqqisinin göstəricisi o millətin qadınıdır, buna görə də qadınlar təhsil almalı, maariflənməlidirlər". O, maariflə, dövlət quruculuğu ilə bağlı məqalələrində dövrün problemlərini qabarıq şəkildə irəli sürürdü və onların həlli yollarını araşdırırdı. Şəfiqə xanım həm də pedaqoq idi. Bir publisist kimi maariflə bağlı yazılarında toxunduğu nöqsanların aradan qaldırılmasının yollarını da göstərirdi. Bilirdi ki,

hansı üsullarla xalqı maariflənməyə cəlb etmək, yenilikçiliyi xalqa necə təlqin etmək olar. Şəfiqə Əfəndizadə cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin ən fəal qadın yazarlarının birincisi idi.

Təəssüf hissi ilə deməliyik ki, AXC-nin süqutu ilə birgə "Azərbaycan" qəzeti də öz fəaliyyətini dayandırmışdı. Dövlət müstəqilliyini yenidən qazandıqdan sonra özünəməxsus dəst-xətti, aydın və prinsipial mövqeyi ilə seçilən, yarandığı gündən xalqın müstəqillik, azadlıq ideallarının tərənnümçüsü, təbliğatçısı kimi cəmiyyətdə böyük nüfuz qazanan "Azərbaycan" qəzeti də fəaliyyətini bərpa etmişdir. Bu zaman müstəqil həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yaranmışdı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirilirdi. "Azərbaycan" qəzeti ölkənin ictimai-siyasi həyatını dolğun işıqlandırmağa başlamışdı. Ümummilli lider Heydər Əliyev "Azərbaycan" qəzetinin kollektivinin fəaliyyətini hər zaman yüksək qiymətləndirmişdir. Qəzet həmişə olduğu kimi, indi də dövri mətbuatın önündə gedir, milli təfəkkürün formalaşmasında, müstəqillik ideyalarının təbliğində mühüm xidmətlər göstərir.

"Azərbaycan" qəzeti çoxşaxəli fəaliyyəti ilə daim müxtəlif düşüncəli, fərqli baxış və dünyagörüşləri olan yaradıcı insanları ətrafına cəlb etməyi bacarmışdır. Xüsusən də ziyalıların hər zaman stolundan əskik olmayan qəzet bütün maraqlı tərəfləri bir araya gətirməyin öhdəsindən bacarıqla gəlmişdir. Vətəndaşların maariflənməsi istiqamətində qəzetin fəaliyyəti danılmazdır. Bu mətbu nəşrin səhifələrində insan hüquq və azadlıqlarının təminatı ilə bağlı daim maarifləndirici materiallar çap olunur. Qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində qəbul edilən mühüm qanunlara, qərarlara, həyata keçirilən geniş tədbir və layihələrə qəzetin səhifələrində geniş yer ayrılır.

Ötən müddət ərzində müasir inkişaf dövrünü yaşayan Azərbaycanda çox mühüm dəyişikliklər, gözəçarpan yüksəliş baş vermişdir. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi, onun başçılığı ilə aparılan sistemli islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar ailələrin, o cümlədən qadın və uşaqların yaşayışına müsbət təsir göstərir. Cənab İlham Əliyev həmişə qeyd edir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Və biz ölkə rəhbərinin fəaliyyətində bunun əyani təsdiqini görürük. Güclü dövlətçilik siyasəti nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial, hərbi, idman kimi sahələrdə dinamik sürətlə inkişaf edir. Dövlət başçısının rəhbərliyi ilə vətəndaşlarımız, xüsusən də qadın və uşaqlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi yönümündə mühüm işlər görülmüşdür. Həssas sosial təbəqələrin, o cümlədən kəndli qadınların, qaçqın və məcburi köçkün, həmçinin aztəminatlı və çoxuşaqlı ailələrin vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bütövlükdə ailələrin sosial rifahını yüksəltmək, xüsusilə qadın və uşaqların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün hökumət mütəmadi olaraq zəruri tədbirlər həyata keçirir. "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün", "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2017-2020-ci illər üçün" dövlət proqramları təsdiq edilmişdir. Ailə quranların nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir. Uşaqların təhsildən yayınması, əməyə cəlb edilməsi və onların məruz qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bütün bu və digər məsələlər nəzərə alınaraq Azərbaycan Respublikası Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişikliklər edilməsi haqqında qanunlar qəbul edilmişdir. Atılan mühüm addımlar nəticəsində ailələrin sayı-

nın artmasına, erkən nikahların, ana ölümünün, məişət zorakılığı faktlarının isə azalmasına nail olunub. Qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün dövlətimiz tərəfindən bütün qüvvələr səfərbər edilmişdir. Prezident İlham Əliyev və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın konkret tapşırıqları əsasında onlar üçün yaşayış binalarının inşası, eyni zamanda cəbhə bölgələrində ziyan dəymiş evlərin, sosial obyektlərin tikinti-bərpa və təmir işləri aparılır. Bu günə qədər 265 min məcburi köçkün yeni evlər və mənzillərlə təmin edilib. Hərbi sənayenin inkişafı, ordumuzun gündən-günə güclənməsi, erməni işğalçılarından azad edilmiş Cocuq Mərcanlının yenidən qurulması insanlarda torpaqlarımızın azad edilməsinə inamı daha da artırır. Xüsusilə bu qəsəbənin sakinlərinin ictimai-siyasi həyata inteqrasiya edilməsi istiqamətində keçirilən tədbirlər, təşkil olunan görüşlər əhalidə böyük ruh yüksəkliyi yaradır. Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin sadəcə bir hissəsidir. Müasir dövrdə qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: "Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətinin bütün dərinliyini dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir". Prezidentin 2006-cı il 6 fevral tarixli fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu fikrin əməli təcəssümüdür.

Azərbaycanda qadınların ictimai fəallığının çox gözəl nümunələri mövcuddur. Hələ XX əsrin əvvəllərində o vaxtın qabaqcıl qadınları kifayət qədər düşünülmüş formada, belə demək mümkünsə, yeni gender münasibətlərinin kontekstini yaradırdılar. "Qadın bir şəxsiyyət kimi azad olmayınca onun problemləri həll olunmaz qalacaq!" ideyasını irəli sürürdülər. Zaman keçdikcə bu deviz reallığa çevrildi və Azərbaycan qadını 100 il bundan əvvəl müsəlman Şərqində ilk dəfə olaraq seçkilərdə iştirak etmək hüququ qazandı. Halbuki həmin dövrdə seçki sahəsində gender bərabərliyi prinsipi nəinki müsəlman Şərqində, hətta Avropa dövlətlərinin əksəriyyətində belə öz həllini tapmamışdı. Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq mədəni, dini, milli-mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Bu qadınlar bütün tarixi dövrlərdə fəallıq göstərərək cəmiyyətimizin dinamik inkişafına öz töhfələrini vermişlər. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər də var. Qadınların cəmiyyətdəki yeri və rolunun mühüm göstəricisi onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, aktiv əmək fəaliyyəti ilə məşğul olmalarıdır. Hazırda qadınlarımız dövlətin yaratdığı bütün imkanlardan istifadə edirlər. Sərbəst təhsil almaqla, fiziki hazırlıqlarını inkişaf etdirməklə, peşəkarlıq səviyyələrini artırmaqla bərabər cəmiyyətin qurucusu kimi ictimai-siyasi proseslərin fəal iştirakçısına çevrilirlər. Azərbaycan qadınları təşkilatlanaraq rastlaşdıqları problemləri müzakirə edir, bu istiqamətdə gələcəkdə görüləcək məsələləri dövlət və cəmiyyət qarşısında qaldırırlar. Bu baxımdan Azərbaycan qadınlarının qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir. 1998-ci, 2003-cü, 2008-ci və 2013-cü illərdə keçirilən Azərbaycan qadınlarının qurultayları "Azərbaycan" qəzetində geniş işıqlandırılmış, qadınlarımızın uğur və nailiyyətləri ictimaiyyətə çatdırılmışdır. Bu il də keçirilən Azərbaycan Qadınlarının V Forumu "Azərbaycan" qəzetinin səhifələrində operativ və dolğun şəkildə öz əksini tapmışdır.

Prezident dövlətimizin, millətimizin gələcəyi olan balalarımızın rifahını bir an belə nəzərindən qaçırmır. Uşaq hüquqlarının müdafiəsi istiqamətində ölkə rəhbəri tərəfindən çox mühüm işlər görülmüşdür. Möhtərəm Prezidentin və Birinci vitse-prezidentin uşaqlara göstərdikləri qayğı dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini onlara daha da artırmışdır. 2009-cu ilin

"Uşaq ili" elan edilməsi isə uşaqlarla bağlı məsələlərə bütün dövlət və qeyri-dövlət qurumlarının daha geniş spektrdən baxmalarına səbəb oldu. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi bu sahədə aparılan işləri daha da gücləndirmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinq aparılır. Bütün məlumatlar komitədə ümumiləşdirilir, tövsiyələr hazırlanır və Nazirlər Kabinetinə çatdırılır. Həmin tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılır, mütəxəssislər üçün yeni təlimlər keçirilir. 2009-2017-ci illər ərzində 4 ümumrespublika uşaq forumu keçirilib. Ölkə rəhbərinin forum iştirakçılarına etdiyi müraciət isə ölkədə uşaq siyasətinin reallaşdırılmasında dövlətin və onun başçısının diqqətinin və qayğısının göstəricisidir. Qeyd edək ki, hər bir forumda səslənən təkliflərin əksəriyyəti həyata keçirilmişdir. Və bu, dövlətimizin hər bir vətəndaşına – istər uşaq, istərsə də böyük olsun, hamıya yüksək diqqətinin bariz nümunəsidir. Uşaqların bilik və bacarıqlarının inkişafına önəm verən "Azərbaycan" qəzeti də bu məsələlərin işıqlandırılmasına geniş yer ayırır.

Öz uğurlu fəaliyyəti və özünə xas keyfiyyəti, prinsipləri ilə seçilən "Azərbaycan" qəzeti bu gün də ənənələrini layiqincə davam etdirir, mühüm informasiyaları operativ, dolğun və qərəzsiz şəkildə ictimaiyyətə çatdırır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə hər zaman yaxından əməkdaşlıq edən qəzet ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin təbliği istiqamətində geniş məqalələrə yer ayırmaqla bu sahəyə göstərdiyi diqqəti bir daha sübut edir. Mütəmadi olaraq qəzetin səhifələrində çap olunan aktual mövzulu materiallar yaxın əməkdaşlığımızın göstəricisidir. Əminik ki, bundan sonra da birgə fəaliyyətimiz müvəffəqiyyətlə davam edəcək və yeni-yeni layihələrə imza atacağıq.

# Dövlətçilik və inkişaf tribunası



**Hadi RƏCƏBLİ,**
*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, siyasi elmlər doktoru, professor*

# 1 nömrəli qəzet

*100 yaşlı "Azərbaycan" mətbuat tariximizdə təkcə rəsmi statusuna görə deyil, peşəkarlığı, dövlətçiliyə sədaqəti ilə də ən yüksəkdə dayanır*

***Yüksək bayram əhvali-ruhiyyəsi ilə qeyd etdiyimiz 15 sentyabr tarixi – yəni Bakının işğaldan azad edildiyi gün başqa bir hadisə də baş verdi. Həmin gün Gəncədə baş məqaləsini Bakının azad edilməsinə həsr edən "Azərbaycan" qəzetinin ilk nömrəsi işıq üzü gördü. Xalq cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlayan qəzet milli dövlətçiliyin möhkəmlənməsi və Azərbaycanın beynəlxalq aləmdə tanınması uğrunda mübarizəyə mətinliklə qoşuldu, xalqımıza sədaqətlə xidmət etdi.***

## Cümhuriyyətin yadigarı

Adını daşıdığı xalqın və məmləkətin hər bir uğuruna sevinən, dövlətə və xalqa layiqli xidməti məram seçərək qarşısına qoyan, müsəlman aləmində ilk demokratik respublika sayılan Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlayan bu qəzetin yaranması tarixi zərurətlə şərtlənmişdir. Çünki o dövrdə müstəqil dövlətin yeritdiyi siyasi kursun, qərar və göstərişlərin, görülən və görüləcək işlərin xalqa çatdırılmasına imkan verən, kütləvi savadsızlıq şəraitində geniş maarifləndirmə işi aparan, milli dövlətçilik şüurunun formalaşmasına əsaslı təsir göstərən mətbu orqana ciddi ehtiyac duyulurdu. Məhz bu səbəbdən də 1918-ci il iyulun 3-də "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri"nin nəşrinə başlamaq barədə qərar verilmişdi. Ancaq bu da qaneedici olmamış, hökumət "Azərbaycan" adlı qəzetin nəşrinə başlamağı qət etmişdi. Qəzetin ilk nömrəsi isə tarixi bir gündə işıq üzü gördü. "Dünən gecə Azərbaycan Cümhuriyyəti hökuməti adına Qafqaz İslam Ordusunun komandanı Nuru paşa həzrətləri tərəfindən belə bir teleqram gəlmişdir: "Bakı şəhəri 15.09.18, saat 9-a işləmiş igid ordu hissələrimiz tərəfindən azad edildi" yazan "Azərbaycan" qəzeti qəlbləri coşduran, ürəkləri riqqətə gətirən bu müjdəni fərəhlə yaydı. Beləcə, müstəqil dövlətin rəsmi qəzetinin əsası qoyuldu.

Ümumiyyətlə, "Əkinçi"dən sonra maarifpərvər ziyalılar dəfələrlə "Azərbaycan" adı ilə qəzet nəşr etməyə cəhd göstərsələr də, çar Rusiyasının mürtəce rejimi bu ideyanın reallaşmasının əleyhinə çıxmışdı. Çünki "Azərbaycan" adında qəzetin olması Azərbaycan adlı məmləkətin varlığını etiraf etmək idi. Bu mənada 1918-ci ildə "Azərbaycan" qəzetinin nəşrə başlaması milli mətbuat tariximizdə çox əlamətdar hadisə idi. Bununla ilk rəsmi dövlət qəzetinin əsası qoyuldu və xalq cümhuriyyətinin adı dünyaya yayılmağa başladı.

"Azərbaycan" qəzetinin ilk 4 sayı Gəncədə işıq üzü görmüşdü. İlk sayların hazırlanmasında Ceyhun bəy Hacıbəylinin, Şəfi bəy Rüstəmbəylinin böyük xidmətləri var idi. Bakının işğaldan azad olunmasından sonra "Azərbaycan" qəzetinin redaksiya heyəti dövlət idarələri ilə bərabər Gəncədən Bakıya köçdü.

"Azərbaycan" qəzeti o dövrün mətbu orqanları arasında daha çox dövlətçilik maraqlarının və demokratik ideyaların tərənnümçüsü olması ilə fərqlənirdi. Eyni zamanda, öz dəst-xətti ilə seçilən "Azərbaycan" milli jurnalistikamızın mütərəqqi ənənələri üzərində təşəkkül tapan və cəmiyyətin milli və bəşəri dəyərlər üzərində maariflənməsinə çalışan qəzet idi. Qəzetin rubrikaları da onun əhatə dairəsindən xəbər verir: "Azərbaycanın Məclisi-Məbusanında", "Hökumət qərarları", "Rəsmi xəbərlər", "Xarici xəbərlər", "Azərbaycanda", "Türkiyədə", "Teleqraf xəbərləri" və s.

İstər Gəncə, istər Bakı dövründə "Azərbaycan" qəzeti öz ətrafına dövrünün ən qabaqcıl ziyalılarını, ictimai xadimlərini, millət fədailərini toplamağı bacarmışdı. Milli problemlərin səsləndirildiyi möhtəşəm tribunaya çevrilmiş bu qəzetdə Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Xəlil İbrahim, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Məhəmməd ağa Şahtaxtlı, Firidun bəy Köçərli, Abdulla Şaiq və Azərbaycanın digər nüfuzlu ziyalıları, yazıçı-publisistlərinin imzaları görünürdü. Əsl qələm sahibi olan bu insanların müxtəlif mövzulardakı məqalələri daim maraqla qarşılanırdı və qəzetin fərqlənməsində onların rolu böyük idi. Mükəmməl siyasi məslək, milli əqidə daşıyıcısı olan bu ziyalılar öz fəaliyyətləri ilə Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsinə çalışmış, "Azərbaycan" qəzetində dərc edilən yazıları ilə dövlətçilik şüurunun inkişaf etdirilməsində, milli azadlıq ideyalarının yayılmasında müstəsna xidmətlər göstərmişlər. Məhz belə şəxsiyyətlərin qələminin məhsulu olan yazıları ilə "Azərbaycan" qəzeti milli varlığımızın, ümumxalq tarixinin və taleyinin güzgüsünə çevrilmişdi.

Məhz bu ziyalılar sayəsində geniş oxucu auditoriyası toplayan "Azərbaycan" ömrünün qısa olmasına baxmayaraq, yarandığı mühitin, fəaliyyət göstərdiyi dövrün tarixi salnaməsinə çevrilmiş, dövlətçiliyin möhkəmlənməsinə, Azərbaycanın beynəlxalq aləmdə tanınmasına, milli məfkurənin və şüurun təkamülünə sədaqətlə xidmət etmişdir.

## İlk müstəqil dövlətimizin tribunası

Mətbuat tariximizdə ilk rəsmi dövlət qəzeti olmaqla yanaşı, azad sözün, sərbəst düşüncənin, fikir plüralizminin tribunası olan "Azərbaycan" qəzeti operativliyi, peşəkarlığı və qərəzsizliyi ilə əsl jurnalistika məktəbi idi. Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra dərci dayandırılsa da, "Azərbaycan" qəzeti xalqımızın ictimai şüurunda istiqlal düşüncəsinin möhkəmləndirilməsi istiqamətində böyük işlər görə bilmişdi. Beləliklə, əsl xalq dövləti olan cümhuriyyətin mütərəqqi ideyalarını yüksək səriştə ilə təbliğ etməklə yanaşı, hər tərəfi bürümüş cəhalətə, geriliyə və milli ideya düşmənlərinə qarşı cəsarətlə mübarizə aparmış, ildırımlar arasından şimşək kimi ucalan ilk müstəqil Azərbaycan dövlətinin dolğun salnaməsini yaratmışdır.

Tarixində 1918-1920-ci illərin salnaməçiliyini yaşadan "Azərbaycan" qəzetini mətbuat tədqiqatçıları haqlı olaraq "cümhuriyyətin yadigarı" adlandırırlar. Çünki xalq cümhuriyyətinin yaşıdı

olan "Azərbaycan" qəzetinin taleyi AXC-nin taleyi kimi olmuşdu. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra "Azərbaycan" qəzetinin nəşri dayandırıldı, adının çəkilməsi belə qadağan edildi. Sovet ideoloqları istəmirdilər ki, bu qəzet öyrənilsin, tədqiq edilsin. Çünki bununla istər-istəməz Azərbaycanın nə vaxtsa müstəqil dövlət olduğunu da demək lazım gələcəkdi. "Azərbaycan"ı gah "müsavatçı", gah da burjua təmayüllü qəzet kimi qələmə verirdilər. Lakin "Azərbaycan" statusca rəsmi dövlət qəzeti olsa da, sözün əsl mənasında, azad fikir meydanı, müstəqillik və dövlətçilik ideyalarına xidmət edən nəşr idi. Çarizm zamanı olduğu kimi, sovet dövründə də "Azərbaycan" adlı qəzetin nəşrinə imkan verilməməsinin əsasında xalqların müstəqilliyini inkar etmək niyyəti dayanırdı.

## Müasir tariximizin salnaməsi

Bu gün "Azərbaycan"ın varisi olan müasir "Azərbaycan" qəzeti milli mətbuatımızın önündə inamla addımlayır. Respublikamız itirilmiş dövlət müstəqilliyini XX əsrin sonlarında bərpa etdikdən sonra "Azərbaycan" qəzeti də yenidən işıq üzü gördü, varislik ənənəsini yaşadaraq bu ənənəyə sadiqlik nümayiş etdirdi, müstəqil dövlətçiliyə sədaqətlə xidmətə başladı. Varislik ənənələrini yaşadan nəşr olmaqla bərabər, həm də sələfi kimi dövrünün ensiklopedik salnaməsi sayılan qəzetdə Azərbaycan hakimiyyətinin həyata keçirdiyi siyasi xəttin geniş auditoriyaya çatdırılması, dövlətçilik maraqlarının və ümummilli məsələlərin işıqlandırılması əsas mövzulardır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev "Azərbaycan" qəzetinin fəaliyyətini həmişə yüksək qiymətləndirmiş, qəzetin əlamətdar günlərində redaksiya heyətini təbrik etmişdir. Heydər Əliyevin 24 il əvvəl – 1994-cü il dekabrın 6-da "Azərbaycan"ın 1000-ci nömrəsinin işıq üzü görməsi münasibətilə redaksiya heyətinə ünvanladığı təbrik məktubu ulu öndərin qəzetin fəaliyyətinə verdiyi böyük önəmin və diqqətin bariz nümunəsidir. Bu münasibətlə redaksiyanın yaradıcı kollektivini təbrik edən Heydər Əliyev "Azərbaycan"ın xalqımızın istiqlal mübarizəsindəki xidmətlərini yüksək dəyərləndirərək deyirdi: "Əsası 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Demokratik Respublikasının rəsmi qəzeti kimi nəşr olunmuş "Azərbaycan" xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir. Məlum tarixi səbəblər üzündən ADR kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutdu".

## "Azərbaycan" qəzeti ən çətin məqamlarda sayıqlığını itirmədi

1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın istəyi və tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması, "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici dairələrin narahatlığına səbəb olmuşdu. Onlar tərəfindən 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Heydər Əliyev həmin hadisələr zamanı da ilk növbədə xalqın dəstəyinə arxalanırdı. Onun dövlətçiliyimizin ağır dəqiqələrində xalqa etdiyi müraciətə cavab olaraq yüz minlərlə insanın gecə yarısı Prezident sarayının qar-

şısına toplaşması Azərbaycan rəhbərinin xalq arasında hansı inama və etimada malik olduğunu təsdiqlədi. Böyük şəxsiyyət Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini qızğın şəkildə dəstəkləməsi sayəsində bu təhlükəli cəhdlərin qarşısı alındı.

O ağır günlərdə "Azərbaycan" qəzeti də öz yazıları ilə xalqı ulu öndərin ətrafında birləşməyə çağırdı, qətiyyətlə dövlətçiliyin müdafiəsində dayandı. "Azərbaycan"ın 1000-ci sayı ilə bağlı təbrik məktubunda bu məsələyə də toxunan Heydər Əliyev qəzetin xidmətlərinə yüksək qiymət verib: "Müstəqilliyimizə düşmən kəsilmiş xarici və daxili qüvvələr öz çirkin məqsədlərinə nail olmaq üçün bu gün də azğın niyyətlərindən əl çəkmirlər. Məlum oktyabr hadisələri onların mürtəce təbiətini bir daha aşkarladı. Amma Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq öz qanuni Prezidentini, müstəqil dövlətçiliyini müdafiə etdi. Fərəhli haldır ki, həmin həlledici məqamda "Azərbaycan" qəzeti öz sayıqlığını bir an belə itirmədi".

"Azərbaycan" qəzeti ölkəmizdə, eləcə də dünyada baş verən ictimai-siyasi proseslərin geniş oxucu kütləsinə çatdırılmasında böyük rol oynayır. Dövlət siyasətinin, o cümlədən ölkə parlamentinin fəaliyyətinin, qanun yaradıcılığı sahəsindəki yeniliklərin operativ işıqlandırılmasını diqqət mərkəzində saxlayır. Milli mentalitetimizin qorunması, azərbaycançılığın, vətənpərvərlik hisslərinin, ən müxtəlif sahələrdəki nailiyyətlərimizin təbliği qəzetin diqqət yetirdiyi mövzulardır. 1998-ci ildə "Azərbaycan" qəzetinin 80 illik yubileyi münasibətilə redaksiya kollektivinə ünvanladığı təbrik məktubunda ümummilli lider Heydər Əliyev deyirdi: "Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır".

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra qəzetin taleyində yeni bir mərhələ başlanmış, respublikada cərəyan edən hadisələr, dövlət quruculuğu prosesi – demokratik, hüquqi, siyasi, sosial-iqtisadi islahatlar "Azərbaycan"ın səhifələrində daim obyektiv şəkildə işıqlandırılmışdır.


AZƏRBAYCAN
6 may 2017-ci il
Azərbaycanın özü qədər əbədi
Yeni dövrün çağırışları:
strateji hədəflər mükəmməl islahatlar kontekstində


AZƏRBAYCAN
6 may 2017-ci il
Azərbaycanın özü qədər əbədi
Sosial ədalət rəmzi


AZƏRBAYCAN
1 sentyabr 2015-ci il
1 noyabr Milli Məclisə seçkilər günüdür
Parlament seçkiləri Azərbaycan xalqının hakimiyyətə sarsılmaz etimadını növbəti dəfə nümayiş etdirəcək

Heydər Əliyev 1993-cü ildən ölkəyə rəhbərlik etdikdən sonra bütün sahələr kimi, Azərbaycan mətbuatı da tərəqqi yoluna qədəm qoydu. Dövlətin mətbuatın inkişafına qayğısından kənarda qalmayan "Azərbaycan" qəzeti də, təbii ki, bu dövrdə öz fəaliyyətini həm də müasir dövrün tələblərinə uğurla uyğunlaşdırdı, statusunu layiqincə qorudu.

## Böyük oxucu kütləsinin rəğbətini qazanan qəzet

Bu gün elektron informasiya vasitələri, xəbər saytları nə qədər artsa da, "Azərbaycan" qəzeti daim KİV məkanında öz liderliyini qoruyub saxlayır. Çünki bu qəzet ölkəmizin tarixinin salnaməsidir.  Keçmişlə bağlı dəqiq informasiya almaq istəyən hər kəs mütləq "Azərbaycan" qəzetinə müraciət edir. Qəzeti vərəqləyən hər bir vətəndaş burada müstəqillik tariximizlə bağlı lazımi məlumatları, faktları, qanunvericilik sənədlərini əldə edə bilir. Ölkənin beynəlxalq arenada qazandığı nailiyyətlər, sosial-iqtisadi inkişaf məsələləri "Azərbaycan" qəzetinin müntəzəm işıqlandırdığı mövzulardandır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin tarixi və müasir gerçəkliklər fonunda şərhi, qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat tərzi, azərbaycanlıların soyqırımı, erməni terrorizmi və bu qəbildən olan digər mövzular qəzet üçün hər zaman aktualdır. Təsadüfi deyil ki, mənim şəxsi arxivimdə "Azərbaycan" qəzetinin son 25 illik toplusu cəmləşmişdir. Qəzetdə dərc olunan məqalələrimi isə sonradan kitab kimi çap etdirmişəm.

Onu da qeyd edim ki, bu gün Milli Məclisin deputatı, komitə sədri kimi qanun yaradıcılığı prosesində fəaliyyət göstərsəm də, ictimai-siyasi fəaliyyətimdə ilk addımları jurnalist kimi atmışam. Ona görə sözün məsuliyyətinin, sözün gücünün və təsirinin nə olduğunu yaxşı bilirəm. Bu mənada "Azərbaycan" qəzetinin fəaliyyətini həm də bir peşəkar kimi qiymətləndirmək istəyirəm.

"Azərbaycan" rəsmi dövlət qəzeti statusuna malikdir. Odur ki, dövlət başçısının bütün fəaliyyəti, gördüyü işlər, keçirdiyi görüşlər – ölkə daxilində və xaricdəki tədbirlərdə iştirakı, səfərləri, imzaladığı fərman və sərəncamlar, qanun, qərar və dövlət proqramları, yeni obyektlərin təməlqoyma və açılış mərasimləri, görüş və danışıqların mahiyyəti qəzetdə ətraflı işıqlandırılır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun ədalətli həlli istiqamətində görülən işlər, ordu quruculuğu prosesi "Azərbaycan"ın səhifələrində daimi yerini tapıb.

Bəlkə də bəzilərində belə təəssürat var ki, "Azərbaycan" daha çox rəsmi xarakterli informasiya ilə maraqlanan oxucu kütləsinin qəzetidir. Bu, kökündən səhv bir düşüncədir. Qəzetin son nömrələrini vərəqləmək kifayətdir ki, həmin təsəvvürlərin yanlışlığına əmin olasan. Çünki "Azərbaycan"da işıq üzü görən məqalələr, sözün əsl mənasında, məzmunca rəngarəng və əhatəlidir.

Dövlətin qayğısını və həm də rəsmi dövlət qəzeti kimi məsuliyyətini daim hiss edən "Azərbaycan" bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda gedən möhtəşəm quruculuğun və sürətli tərəqqinin, reallaşan qlobal enerji və digər iqtisadi layihələrin, aparılan köklü islahatların obyektiv işıqlandırılmasına, ölkədə vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə layiqli töhfələr verir. Qəzet Azərbaycan Konstitusiyası ilə təsbit edilmiş söz, fikir və mətbuat azadlığının bərqərar olmasına, vətəndaşların məlumat azadlığının yüksək səviyyədə təmin edilməsinə, milli mentalitetimizin qorunmasına, oxucu auditoriyasında azərbaycançılıq hislərinin ən müxtəlif sahələrdəki nailiyyətlərimizin təbliğinə geniş yer ayırır. Eyni zamanda, qəzet milli-mənəvi dəyərləri geniş təbliğ edən, gənc nəslə vətənpərvərlik ruhu aşılayan məqalələrə geniş yer verməklə xalqın tarixən formalaşmış milli dəyərlərinə, məfkurə və düşüncə sisteminə, mentali-

tetinə zidd olan məsələlərə qarşı da barışmaz mövqe tutur, KİV-də bəzən özünü göstərən xoşagəlməz hallara, söz özbaşınalığına qarşı amansız mübarizə aparır, milli mətbuatın saflığı uğrunda ictimai mübarizədə fəallıq göstərir.

Bir sözlə, ölkə həyatının müxtəlif sahələrinə dair aktual, maraqlı və cəsarətli yazılar dərc etməklə sələfi kimi böyük oxucu kütləsinin dərin rəğbətini qazanan qəzetin məqalələri mövzu əhatəliyi, rəngarəngliyi, fakt zənginliyi ilə diqqəti cəlb edir. Təsadüfi deyil ki, milli mətbuatımızın yubileylərində Prezident İlham Əliyevin sərəncamları ilə "Tərəqqi" medalı ilə təltif edilən və əməkdar jurnalist fəxri adı alan, mənzillə təmin olunan jurnalistlər arasında "Azərbaycan"çılar da var. Bu, qəzetə verilən böyük dəyərin, cəmiyyətdəki nüfuzun göstəricisidir.

## Peşəkarların ünvanı

Hazırkı iqtidarın bir neçə qəzeti olsa da, "Azərbaycan" ölkənin məhz rəsmi dövlət qəzetidir və öz fəaliyyəti ilə bu statusunu layiqincə daşıyır. Deputat həmkarımız, dostum, qələmi ilə seçilən, Azərbaycan mətbuatında öz dəst-xətti olan, əsl media kapitanı Bəxtiyar Sadıqovun baş redaktorluğu ilə qəzetdə peşəkar, əqidəsi sağlam jurnalist ordusu cəmləşib. Qəzet ən müxtəlif mövzulara işıq salmaqla, o cümlədən cəmiyyəti narahat edən məsələləri işıqlandırmaqla daim oxucularının görüşünə gəlir. Rəsmi qəzet olsa da, üslubu qətiyyən rəsmi deyil. Qəzetdə dərc olunan publisistik yazılar öz şirinliyi ilə "rəsmi dil"dən yayınaraq oxucuları daha çox cəlb edir.

"Azərbaycan" qəzetinin hazırkı qəzet bolluğunda lider qəzet statusunu layiqincə daşıması da kifayət qədər real zəminə – qəzetdə peşəkar jurnalistlərin fəaliyyət göstərməsinə əsaslanır. Uzun illər mətbuatda çalışan və qələmi ilə özünü təsdiqləmiş bu insanlar daim çalışdıqları qəzetin təəssübünü çəkir, onun daha maraqlı çıxmasına, geniş oxucu auditoriyası qazanmasına, cəmiyyətin güzgüsü rolunu oynamasına əhəmiyyətli dərəcədə nail olurlar.

"Azərbaycan" qəzeti statusuna uyğun olaraq ölkə parlamentinin fəaliyyətini, qanun yaradıcılığı sahəsindəki yenilikləri, müstəqil dövlətimizin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində Milli Məclisdə həyata keçirilən tədbirləri də hər zaman operativ işıqlandırır. Özünün varislik ənənəsinə sadiq qalaraq dövlət siyasətinin xalqa doğru-dürüst çatdırılmasını daim diqqət mərkəzində saxlayır. "Azərbaycan" qəzeti Milli Məclisin orqanı kimi qanunların ictimai müzakirəsində də fəaldır. Belə müzakirələr qəzetin oxucularını fəal vətəndaş mövqeyindən çıxış etməyə yönəldir. Deputatlar üçün isə qanunun daha işlək ortaya qoyulmasına xidmət edir.

## 19 cilddə 14 adlı kitab

"Azərbaycan" qəzeti kollektivi öz işini yalnız qəzetçilik fəaliyyəti ilə yekunlaşdırmır. Məlum olduğu kimi, "Azərbaycan" qəzetinin səhifələrində dərc olunan və aktuallığı ilə seçilən məqalələrdə ölkəmizin inkişafına dair, keçmişimiz, bugünümüz və sabahımızla bağlı mükəmməl elmi-fəlsəfi və nəzəri yanaşmalar yer alır. Bu məqalələrdə görkəmli elm xadimləri, ziyalılar, mütəxəssislər tərəfindən Azərbaycanın müstəqillik illərindəki, xüsusən Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatların nəticələri təhlil olunur. "Azərbaycan" qəzeti həmin məqalələrin və onlara verilmiş rəylərin cəmiyyət üçün aktuallığını və əhəmiyyətini nəzərə alaraq onların kitab halında nəşrini də məqsədəuyğun sayır. Buna görə də qəzet tərəfindən son illərdə 19 cilddə 14 kitab ərsəyə gətirilərək nəşr olunub. "İnkişafın Azərbaycan modeli", "Müasir Azərbaycan dövrün baxışında", "Vətəndaş cəmiyyətinə yol açan ideyalar", "Yeni siyasət: inkişafa doğru",

"İctimai və humanitar elmlər: zaman kontekstində baxış"  və digər bu kimi kitablar öz aktuallığını daim qoruyub saxlayır.

Qəzetin gərgin araşdırma və zəhməti nəticəsində çapdan çıxmış silsilə məqalələr toplusundan ibarət olan kitablar ölkəmizin inkişafının strateji istiqamətlərini, milli inkişaf strategiyasının əsas nəticələrini müfəssəl şəkildə əks etdirir. Kitablarda ulu öndər Heydər Əliyevin böyük zəhmət, dəmir iradə, sarsılmaz qətiyyət bahasına qurub-yaratdığı, uğur magistralına çıxardığı, onun layiqli davamçısı İlham Əliyevin daha da inkişaf etdirərək hər bir Azərbaycan vətəndaşının milli qürur yerinə çevirdiyi müstəqil dövlətin qət etdiyi möhtəşəm yola nəzər salınır və qazanılmış nailiyyətlərin düzgün dəyərləndirilərək gələcək nəsillərə çatdırılması bir missiya olaraq qarşıya qoyulur. Eyni zamanda ensiklopedik səciyyəyə malik kitab faktoloji baxımdan zəngin xarakterlidir. Bütövlükdə Azərbaycanın keçdiyi möhtəşəm iqtisadi, siyasi, mədəni inkişafının, ölkəmizin dünya birliyində layiqli yer tutmasının salnaməsi olan bu kitablar, sözün həqiqi mənasında, dövlətin keçdiyi inkişaf yolunun öyrənilməsi üçün mühüm mənbə rolunu oynayır.

## "Azərbaycan"ın yubileyi onun oxucularının bayramıdır

Müstəqil dövlətimizin salnaməsinə çevrilən "Azərbaycan" hazırkı qəzet bolluğu şəraitində öz sanbalı və səviyyəsi ilə seçilir. Onu xoş xəbərlər müjdəçisi də adlandırmaq mümkündür. Xalqın və dövlətin ölkə daxilində, beynəlxalq arenada qazandığı uğur və nailiyyətlər çox zaman "Azərbaycan" vasitəsilə insanlara çatdırılır. Tariximizə işıq salan "Azərbaycan" bugünün salnaməçisi, sabahın yolgöstərənidir.

Çoxlarının bəlkə də nəzərindən yayınan bir məqam var. Son səhifəyə diqqət yetirəndə görürük ki, "Azərbaycan" qəzetinin qeydiyyat nömrəsi "1"dir. Yəni ölkənin ilk qeydə alınmış qəzetidir. Amma "Azərbaycan" öz fəaliyyəti ilə sözün bütün mənalarında ölkəmizin bir nömrəli qəzetidir. Qəzet bu gün öz sələfinin ideyalarını, yaradıcılıq ənənələrini fəaliyyətində əsas meyar kimi götürərək uğurla davam etdirir, dövlətçilik maraqlarının müdafiəsində ləyaqətlə dayanır. Ona görə 100 yaşlı "Azərbaycan" qəzetinin yubileyi yalnız əməkdaşlarının deyil, həm də onun oxucularının bayramıdır.

Özümü də daim bir üzvü hiss etdiyim "Azərbaycan"ın kollektivini  qəzetin 100-cü ad günü münasibətilə təbrik edirəm. Əminəm ki, "Azərbaycan" bu illər ərzində qazandığı nüfuzu bundan sonra daha da artıracaq, respublikamızda cərəyan edən ictimai-siyasi proseslərin oxuculara daha dolğun, obyektiv və operativ çatdırılmasında var gücünü əsirgəməyəcək.

Müstəqilliyimizin yaşıdı, 100 il əvvəl nəşrə başlamış "Azərbaycan"ın varisi olan müasir "Azərbaycan" qəzeti özünəməxsus mətbuat ənənələrinə bundan sonra da şərəflə sadiqlik nümayiş etdirəcək, vətəndaşlarımızın dövlətçilik ideyaları ətrafında sıx birləşməsinə xidmət edən fəaliyyətini uğurla davam etdirəcəkdir.



**Ziyad SƏMƏDZADƏ,**
*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik*

# Azərbaycanımız var olduqca "Azərbaycan"ımız da yaşayacaq

***Əsası böyük maarifpərvər ziyalımız, söz adamımız Həsən bəy Zərdabi tərəfindən qoyulan Azərbaycan mətbuatı ötən 143 ildə böyük yol keçib. Bu yol heç də hamar, rəvan olmayıb, keşməkeşli, ağrılı-acılı, əzablı, lakin şərəfli və qürurlu bir yol olub. Heç şübhəsiz ki, Azərbaycan mətbuatından danışarkən 1918-ci ildə təsis edilən "Azərbaycan" qəzetinin adını çəkməmək, xatırlatmamaq mümkün deyil. 143 yaşlı Azərbaycan mətbuatının artıq 100 yaşına çatmış bu qəzeti, bu övladı hər zaman öz şərəfli və ləyaqətli, öyünüləcək, fəxr ediləcək keçmişi, tarixi, ənənəsi ilə seçilib, fərqlənib, imzalar içində imzası olub...***

"Azərbaycan" qəzeti düz 100 il öncə – 1918-ci ildə, ilk müstəqil cümhuriyyətimizin, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) dövründə yaradılıb, araya-ərsəyə gətirilib. O vaxt cümhuriyyət qurucularımız 1918-ci ilin 3 iyul tarixində "Hökumət xəbərləri" adı altında öz rəsmi orqanlarının çapı haqqında qərar qəbul etdilər. "Azərbaycan" qəzetinin ilk nömrəsi 15 sentyabr 1918-ci ildə – Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik işğalından, zülmündən azad etdiyi gün Gəncədə işıq üzü gördü. İlk redaktorlarından biri isə dahi Üzeyir bəy Hacıbəyli oldu. Qəzet 1919-cu il dekabrın 28-nə qədər Üzeyir bəyin qardaşı, böyük ziyalımız Ceyhun Hacıbəylinin imzası ilə çıxdı. O dövrdə nəşrin ərsəyə gəlməsində Ceyhun Hacıbəylinin əməyi və xidmətləri də şəksizdir.

Yeri gəlmişkən qeyd edək ki, "Azərbaycan" qəzeti ondan əvvəl təxminən yarım əsrə yaxın bir müddət ərzində milli ziyalıların ölkənin adını daşıyan mətbuat orqanı yaratmaq, qəzet çıxarmaq təşəbbüslərinin davamı, məntiqi nəticəsi idi. 1891-ci ildə tanınmış Azərbaycan ziyalısı Cəlal Ünsizadənin baş redaktoru olduğu "Kəşkül" qəzeti bağlandıqdan sonra "Azərbaycan" adlı qəzet çıxarmaq üçün onun Tiflisdə Baş Mətbuat İşləri İdarəsinə müraciət etmək arzusu baş tutmamışdı. Təbrizdə Məşrutə hərəkatı dövründə nəşr edilən "Azərbaycan" qəzetinin də ömrü uzun sürə bilməmişdi. Bununla belə, XX əsrin əvvəllərinin milli mətbuatında necə adlandırılmasından asılı olmayaraq, azərbaycançı düşüncə üstün mövqeyə çıxıb. XX əsrin əvvəllərində "Azərbaycan" adlanacaq mətbuat orqanını da zəmanə artıq özü hazırlamış, zəmin yaratmışdı. AXC-nin, ilk müs-

təqil cümhuriyyətimizin yaranması ilə, yuxarıda da bəhs edildiyi kimi, "Azərbaycan" adlı qəzetin nəşrə başlamasının reallaşması milli mətbuatımızın tarixində təkcə ərazi olaraq ölkənin deyil, milli dövlətin adını ifadə edən mətbuat orqanının fəaliyyətə başlaması ilə əlamətdardır. Bu mənada "Azərbaycan" qəzetinin rəsmi dövlət qəzeti kimi meydana çıxması tariximizin mühüm hadisəsidir. Qəzetin baş redaktoru Üzeyir bəy Hacıbəyli "Azərbaycan" qəzeti haqqında yazırdı: "Danışırlar ki, "Azərbaycan" qəzeti guya "Müsavat" partiyasına məxsus firqəvi bir qəzet imiş. Bu fəqərə barəsində bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir. "Azərbaycan" qəzetinin məsləki vətən istiqlalı yolunda çalışmaqdan ibarətdir".

"Azərbaycan" qəzetinin çoxşaxəli və çoxsahəli fəaliyyəti oxucular tərəfindən böyük məmnunluqla qarşılanır. Bu qəzet ölkənin siyasi-ictimai, sosial-iqtisadi, elmi-mədəni həyatında baş verən hadisələri vaxtında və obyektiv şəkildə Azərbaycan cəmiyyətinə çatdırır. Xüsusilə də son 25 il ərzində bu qəzet böyük inkişaf yolu keçib, Azərbaycan vətəndaşlarının sevimli qəzetinə çevrilib. 1993-cü ilin məlum iyun hadisələrindən sonra Azərbaycan xalqının təkidli tələbləri ilə yenidən Azərbaycanda hakimiyyət başına, əslində isə Azərbaycanı yenidən oddan-alovdan, dağılmaqdan, parçalanmaqdan xilas etməyə gələn Heydər Əliyevin növbəti dəfə iqtidar dönəminə başlaması bu qəzetin fəaliyyətində bir dönüş yaratdı, yüksəliş mərhələsi yaşanmağa başladı. Ötən 25 il ərzində Azərbaycanla bağlı elə bir sahə olmayıb və qalmayıb ki, o, işıqlandırılmasın, həmin sahələrə güzgü tutulmasın...

İlk növbədə "Azərbaycan" qəzeti bütövlükdə dünyanı heyran edən Azərbaycanın neft strategiyası haqqında dolğun materiallar verib və bu gün də verməkdədir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası, onun olduğu kimi cəmiyyətə, oxuculara çatdırılması bu qəzetin fəaliyyətində ən önəmli yerlərdən birini tutub. Təzyiqlərə, açıq-gizli təhdidlərə, çevriliş cəhdlərinə baxmayaraq, məhz Heydər Əliyevin sarsılmaz qətiyyəti və iradəsi sayəsində reallaşan, yəni 1994-cü ilin sentyabr ayının 20-də dünyanın bir çox nüfuzlu neft şirkətləri ilə "Gülüstan" sarayında imzalanan "Əsrin müqaviləsi" və ondan bugünümüzə qədər davam edən uğurlu neft strategiyası, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars, TAP, TANAP və s. kimi tarixi, möhtəşəm, cahanşümul layihələr, onların reallaşdırılmasının işıqlandırılması bu qəzetin fəaliyyətinin ana xətlərindən birinə çevrilib. Təsadüfi deyil ki, mütəmadi şəkildə geoloqlarımız, mühəndislərimiz, neft mütəxəssislərimiz, alimlərimiz bu qəzetdə silsilə yazılarla, məqalələrlə çıxış edir, əsası Heydər Əliyev tərəfindən qoyulan və son 15 ildə bütün sahələrdə onun siyasətini, kursunu çox layiqincə, çox uğurlu şəkildə həyata keçirən ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən neft strategiyasını, neft siyasətini bütün xırdalıqları ilə oxuculara əxz etdirməyə çalışırlar. Götürək elə son bir neçə ayı... Ötən bir neçə ay ərzində Azərbaycan tarixində çox böyük uğurlara, nailiyyətlərə imza atılıb. Elə uğurlara, elə nailiyyətlərə ki, bundan sonra nəinki illərlə, hətta əsrlərlə xatırlanacaq, əsrlərlə yaddaşlarda qalacaq, hafizələrdən silinməyəcək məqamlardır. Cəmi bir neçə ayda dövlət başçısının iştirakı ilə Bakıda, Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı, onun ardınca qardaş Türkiyənin Əskişəhər şəhərində bir neçə dövlət başçısının iştirakı ilə TANAP-ın işə salınması, elə bugünlərdə qardaş, dost Qazaxıstanın Aktau şəhərində 1996-cı ildən bu yana davam edən və 22 illik danışıqlar prosesinin nəticəsi kimi ortaya çıxan, Xəzərin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı 5 Xəzəryanı dövlət başçısının bir araya gəlməsi və tarixi imzalama mərasiminin keçirilməsi... Bunlar müstəqil Azərbaycan dövlətinin qürur, fəxr tarixidir və bu tarixi anların, hadisələrin geniş şəkildə işıqlandırılması "Azərbaycan" qəzetinin hər nömrəsində özünü dolğunluğu, əhatəliliyi ilə əks etdirib...

"Azərbaycan" qəzeti ölkənin ictimai-siyasi həyatında baş verən hər bir hadisəyə də daim düşünülmüş, həssas şəkildə və peşəkar səviyyədə reaksiya verib. Hər zaman Azərbaycan dövlətinin, Azərbaycan dövlətçiliyinin maraqları mövqeyindən çıxış edib. Öz fəaliyyətində daim Azərbaycan xalqı və dövlətinin mənafelərini üstün tutub, dövlətçiliyinin yanında olub. Ötən əsrin 90-cı illərinin əvvəllərində, Azərbaycanın müstəqilliyinin ağrılı-acılı günlərində, qarmaqarışıq dövrlərində parcalanmaq, dağılmaq, müstəqilliyini yenidən itirmək təhlükəsi qarşısında qaldığı, ölkənin etnik zəmində qarşıdurmaya sürükləndirildiyi vaxtlarda bu qəzet öz sözünü deyib, iradəsini, mövqeyini ortaya qoyub. O zaman həmin təhlükəli cəhdlərin qarşısının alınmasında birbaşa və müstəsna rolu olan BÖYÜK XİLASKAR Heydər Əliyevin bütün çağırışlarına öz peşəkar, layiqli fəaliyyəti, əməli addımları ilə cavab verib. Həmin hadisələr şəxsən mənim gözlərim qarşısında olub. Həmin vaxtlar Heydər Əliyevin çağırışına səs verən Azərbaycan ziyalılarından biri olaraq öz vətəndaşlıq vəzifəmi, borcumu sədaqətlə yerinə yetirməyə çalışmışam. "Azərbaycan" qəzetində ölkəmizi, insanlarımızı narahat edən məsələlərlə bağlı fikirlərimi bildirmişəm, geniş müsahibələr və yazılarla çıxış etmişəm. 1993-cü ilin avqust ayında isə "Azərbaycan" qəzetində "Ziyalı sözü" adlı məqaləm çıxdı: "Mən bir daha təkrar edirəm – Azərbaycan Respublikasının müstəqilliyinə, bütövlüyünə qarşı yönəldilən hər addıma, hərəkətə vaxtında qiymət verilməlidir. Kimliyindən, mənsubiyyətindən, millətindən asılı olmayaraq, bu işi törədənlər xalq, vətən qarşısında cavab verməlidirlər.

Bu baxımdan Heydər Əliyevin xalqa müraciəti, Lənkəran bölgəsində camaatın ayağa qalxması, vətənin bu dar günündə hamımızın Azərbaycanın bütövlüyünün qorunması naminə birliyimiz böyük bir qüvvə olub, bizi istəməyənlərə amansız zərbədir.

Azərbaycan xalqının haqq işi qalib gəlməlidir".

Xalq Cəbhəsinin hakimiyyəti dövründə, 1993-cü ilin sentyabrında prezident seçkiləri ərəfəsində işıq üzü görən "İqtisadiyyatı belə idarə etməzlər" adlı müsahibədə isə həmin iqtidarın naşı, səriştəsiz fəaliyyəti açıq şəkildə tənqid olunub, çıxış yolları göstərilib. Eyni zamanda, məlum iyun hadisələri və ümummilli liderin hakimiyyətə qayıdışından sonra daha böyük ruhla və əzmlə ziyalılarımız öz vətəndaşlıq mövqelərini sərgiləməyə başlamışlar. Heç şübhəsiz ki, bu məsələlərdə hər zaman mənəvi dəstəkçi "Azərbaycan" qəzeti olub. Bu qəzet hər zaman ürəyi, qəlbi Azərbaycanla döyünən, çırpınan insanların qəzeti olub, onların fikir, təbliğat, maarifləndirmə tribunasına, meydanına çevrilib.

"Azərbaycan" qəzeti 1994 və 1995-ci illərdə müstəqil Azərbaycanı qəbul, həzm edə bilməyən qüvvələrin növbəti dövlət çevrilişi cəhdlərinin, respublikanı yenidən müstəmləkə boyunduruğu altında inlətmək istəyən antiazərbaycan dairələrinin məkrli əməllərinin ifşasında, dahi öndərin XİLASKAR obrazının yaradılmasında öz tarixi rolunu oynayıb. Bu xətt, bu kurs bugünümüzədək davam edir və etməkdədir. İstər ulu öndər Heydər Əliyevin, istərsə də ölkə Prezidenti İlham Əliyevin müstəqil Azərbaycan naminə titanik ictimai-siyasi fəaliyyəti bu qəzetdə dolğun, ətraflı və peşəkar səviyyədə işıqlandırılıb, onların hər bir çıxışı, hər bir nitqi, hər bir səfəri, hər bir addımı "Azərbaycan" qəzetinin səhifələrinin manşetinə çevrilib. Yenə elə götürək son hadisələri... Çox həyəcanlı, dövlətimizlə, dövlətçiliyimizlə bağlı çox həssas günlər idi... Mingəçevirdə yerləşən "Azərbaycan" İES-də baş vermiş qəza, bundan sonra Gəncə şəhərində baş vermiş olaylar, ölkəmizdə yenidən xaos yaratmaq cəhdləri hələ uzun illər yaddaşlardan silinməyəcək... Bunlar hər bir kəsdən, xüsusən də Azərbaycana sidq ürəklə bağlı olan şəxslərdən əsl vətəndaşlıq mövqeyi nümayiş etdirməyi tələb edən məsələlər idi... Çox şükürlər olsun ki, Azərbaycan vətəndaşları, xalqımız yenə dövlətinin, dövlətçiliyinin, onun üçün daim çalışan, mübarizə aparan

dövlət rəhbərinin, ölkə Prezidentinin yanında oldu, təxribatlara, pozuculuq əməllərinə uymadı. Ölkə Prezidentinin ətrafında sıx birləşməklə Azərbaycanı yenidən xaosa sürükləmək istəyənlərin layiqli cavabını verdi. "Azərbaycan" qəzeti bu məsələdə yenə dövlətinin yanında durdu, ön cərgədə yer aldı, özünün ifşaedici materialları, tutarlı yazı və məqalələri ilə Azərbaycanı "banan respublikası"na çevirmək istəyən antiazərbaycançı qüvvələrin qarşısında sipər oldu...

"Azərbaycan" qəzeti 30 ildən bu yana davam edən və ikili standartlar üzündən hələ də ədalətli həllini gözləyən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, Azərbaycan, Qarabağ və soyqırımı faciələrimizlə bağlı həqiqətlərin yayılmasında, işıqlandırılmasında da böyük xidmətlərə malikdir. Qəzetin hər bir sayında, demək olar ki, Qarabağ münaqişəsi, müharibə iştirakçıları, şəhid və əlillərimiz, onların ailələri, böyük zəfər və qələbə tariximiz olan Aprel döyüşləri, Günnüt zəfəri ilə bağlı yazılar, məqalələr getməkdədir. Həmçinin Azərbaycan Ordusunun əhvali-ruhiyyəsinin, döyüş ruhunun artırılması, yüksəldilməsi ilə əlaqədar materiallara vaxtaşırı bu qəzetdə geniş yer ayrılmaqdadır. Bununla yanaşı, Qarabağ münaqişəsinin ədalətli həll olunması istiqamətində Azərbaycan dövlətinin, ölkə rəhbərliyinin atdığı addımlar, sülhpərvərlik missiyamız çox əhatəli və əsaslandırılmış şəkildə diqqətə çatdırılmaqdadır. Xüsusilə də təcavüzkar dövlətin işğalçılıq siyasəti və onun ifşası qəzetin fəaliyyətinin əsas prioritetlərindəndir. Çox sevindirici haldır ki, ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq, bu gün Azərbaycan diplomatiya savaşında, informasiya blokadasının yarılmasında da böyük uğurlar əldə edib və bu uğurlarda bir mətbu orqan kimi "Azərbaycan" qəzetinin də rolu, əməyi var...

"Azərbaycan" qəzeti, eyni zamanda, Azərbaycan iqtisadiyyatının, ölkə regionlarının inkişafı prosesinin işıqlandırılmasında əvəzsiz rol oynayır. Azərbaycan iqtisadiyyatında hansı yeniliklər baş verirsə, dərhal qəzetdə öz əksini tapır. Azərbaycan regionlarında hansı inkişaf baş verir, yaşanır, "Azərbaycan" hamıdan əvvəl, ilk olaraq onu işıqlandırır, dövlətin, dövlət rəhbərliyinin bu istiqamətdəki əməli addımlarına öz mövqeyi ilə töhfəsini verməyə çalışır və buna da nail olur. 90-cı illərin əvvəllərində böyük tənəzzül dövrü yaşayan Azərbaycan iqtisadiyyatı, Azərbaycan sənayesi, aqrar sektoru Heydər Əliyevin hakimiyyətə gəlişi ilə yenidən dirçəlməyə başladı. 2003-cü ildə ondan estafeti qəbul edib davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 15 illik hakimiyyəti dövründə isə bu sahələrdə, demək olar ki, ikinci nəfəs yaşandı, intibah, dirçəliş mərhələsinə qədəm qoyuldu. Azərbaycan iqtisadiyyatının, Azərbaycan regionlarının siması dəyişdi. Ölkəmiz çox qısa zaman ərzində nəinki bölgənin, Cənubi Qafqazın, bütövlükdə dünyanın lider dövlətlərindən birinə çevrildi. Dünyanın nüfuzlu reytinq mərkəzlərinin açıqladığı göstəricilər, nəticələr də bunu əyani şəkildə ortaya qoyur. Hətta 2008-ci ildən bu yana dünyada yaşanan, yaşadılan maliyyə-iqtisadi böhran da 10 il ərzində Azərbaycana, Azərbaycan iqtisadiyyatına güclü zərbə vura bilmədi. Azərbaycan dövləti və ölkə rəhbərinin çox düşünülmüş iqtisadi siyasəti nəticəsində respublika bu risklərdən, bu zərbələrdən kənarda dayana bildi, zərərsiz ötüşdü, hətta daha böyük inkişafa nail oldu. Bununla yanaşı, Azərbaycan regionlarının siması büsbütün dəyişdi, gözəlləşdi. Bu gün Azərbaycanın regionları ilə paytaxt arasında olan fərq, demək olar ki, aradan qaldırılıb. Bu uğurların, bu nailiyyətlərin, bu inkişaf meyillərinin işıqlandırılmasında da yüzlərlə mətbu orqan arasında "Azərbaycan" qəzeti öz liderliyini, öncüllüyünü qoruyub saxlamaqdadır. Azərbaycan iqtisadiyyatında, regionlarda hansı inkişaf varsa, onları hər gün "Azərbaycan" qəzeti vasitəsilə izləmək, onlarla tanış olmaq mümkündür...

"Azərbaycan" qəzeti Azərbaycan elminin, Azərbaycan mədəniyyətinin, idmanının geniş şəkildə təbliğində də əhəmiyyətli rol oynamaqdadır. Qəzetin hər sayında bu məsələlərə həsr olunmuş xeyli sayda yazıları görmək, onları oxumaq mümkündür. Azərbaycan ötən illər ərzində nəinki iq-

tisadi, siyasi uğurları ilə şöhrətlənib, həm də elmi uğurları, böyük ənənəyə malik geniş mədəniyyəti, idmanı ilə nüfuz qazanıb, uğurlar əldə edib, tanınıb. Azərbaycan bu gün dünyanın milli-dini tolerantlıq mərkəzi olmaqla yanaşı, humanitar, musiqi, mədəniyyət, idman yarışlarının yüksək səviyyədə keçirildiyi bir məkana çevrilib. Ölkəmizdə təşkil edilən "Eurovision" musiqi yarışması, artıq on ildir davam edən Qəbələ Beynəlxalq Musiqi Festivalı, ilk Avropa Oyunları, IV İslamiada, Bakı Beynəlxalq Humanitar Forum(ları)u... Bunlar cəmi 27 yaşı olan müstəqil Azərbaycan dövlətinin qısa zaman ərzində nail olduğu böyük nailiyyətlərin sadəcə bir hissəsidir... Bu nailiyyətlərin, uğurların əldə edilməsində dövlət başçısı ilə yanaşı addımlayan Birinci vitse-prezident, ölkənin birinci xanımı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri, zəhməti əvəzsizdir, misilsizdir, bu haqda saatlarla, günlərlə, aylarla danışmaq olar, lakin yenə də bəs etməz... "Azərbaycan" qəzeti bu istiqamətdə də öz sözünü deməkdə, əsl peşəkar mətbuat orqanı kimi yaradıcı mövqeyini ortaya qoymaqdadır...

"Azərbaycan" qəzeti həm də Azərbaycan parlamentinin, ölkənin ictimai-siyasi həyatında əvəzsiz rola malik olan Milli Məclisin orqanıdır... Bu yaxınlarda 100 yaşını təntənəli şəkildə qeyd etməyə hazırlaşan Azərbaycan parlamentinin fəaliyyətinin işıqlandırılmasında, ölkəmizin, xalqımızın, dövlətimizin həyatı ilə bağlı qəbul edilən bir-birindən vacib və əhəmiyyətli qanunların, qərarların cəmiyyətə olduğu kimi, müfəssəl və hərtərəfli şəkildə çatdırılmasında da "Azərbaycan"ın missiyası, xidmətləri əvəzsizdir. İkinci bir mətbu orqan tapmaq olmaz ki, "Azərbaycan" qəzeti kimi bu məsələlərə geniş yer ayırsın və oxucularını, izləyicilərini belə maarifləndirsin... Çox əlamətdar haldır ki, qanunların insanlarımıza, sadə vətəndaşlarımza anlaşıqlı, daha sadə dildə çatdırılmasında millət vəkillərimizin, deputat həmkarlarımızın da yazıları, çıxışları, təhlilləri bu qəzetin səhifələrində geniş yer almaqdadır. Millət vəkillərimizdən Eldar İbrahimovun, Hadi Rəcəblinin, Hüseynbala Mirələmovun, Nizami Cəfərovun, Tahir Rzayevin, Eldar Quliyevin, Bəxtiyar Əliyevin, Gövhər Baxşəliyevanın və digərlərinin maraqlı, sanballı yazıları bu qəzetdə daim işıqlandırılmaqdadır... Azərbaycan oxucuları, tam əminəm ki, həmin yazılardan onlara lazım olan bütün məqamlara, bütün suallara cavab ala bilirlər...

Təbii ki, qəzetin bu qədər peşəkar səviyyədə özünü tanıtmasında, böyük nüfuz və hörmət qazanmasında xüsusi olaraq baş redaktor – Milli Məclisin deputatı, həmkarımız Bəxtiyar Sadıqovun rolu, əməyi, xidməti müstəsnadır. Məhz onun redaktorluq etdiyi bu illər ərzində "Azərbaycan" qəzeti öz adını, simasını qoruya, tarixi ənənəsinə uyğun şəkildə fəaliyyətini davam etdirə bilib...

Odur ki, Bəxtiyar müəllim başda olmaqla, "Azərbaycan" qəzetinin bütün kollektivini, yaradıcı heyətini, bu qəzetin əsasını qoymuş böyük fikir adamlarının hamısını növbəti doğum günləri, 100 illik yubileyləri münasibətilə ürəkdən təbrik edir, dünyasını dəyişənlərə rəhmət diləyir, qalanlara can sağlığı, fəaliyyətlərində, işlərində, yaradıcılıqlarında növbəti nailiyyətlər arzulayıram. Qoy qələm tutan əlləriniz var, qələminiz daim iti və kəsərli, yubileyiniz, şərəf tariximiz mübarək olsun!

Azərbaycanımız var olduqca "Azərbaycan"ımız da yaşayacaqdır!



**Hüseynbala MİRƏLƏMOV,**
*Milli Məclisin deputatı, yazıçı-publisist*

# Hamımızın qəzeti

***...Milli Məclisin yaz sessiyasının son günləri idi.***

***İclaslararası fasilədə deputatlardan bir neçəsi ilə parlament binasının foyesində yığışıb atüstü söhbətləşirdik.***

***Deputat həmkarım, "Azərbaycan" qəzetinin baş redaktoru, yaxın dostum Bəxtiyar Sadıqov da orada idi.***

***Söhbət gəldi çıxdı "Azərbaycan" qəzetinin 100 illik yubileyinin yaxınlaşmasına... Bu əlamətdar məqamla bağlı erkən təbriklərini, ürək sözlərini Bəxtiyar müəllimə və onun rəhbərlik etdiyi yaradıcı kollektivə hərə bir cür çatdırdı.***

Fürsət düşmüşkən bir əsrlik tarixə diqqət etdik. "Azərbaycan" qəzetinin 100 il əvvəl nəşrə başladığı günə, o dövrün tarixi şəraitinə hamılıqla qiyabi səyahətə çıxdıq. Qəzetin ilk rəhbərlərindən, müəlliflərindən bir neçəsinin adlarını xatırladıq...

Kimsə dedi, görün o vaxt bu nəşrin necə güclü yazarları olub, qəzet nə qədər düşüncə adamlarını öz səhifələrində bir araya gətirib. Bəxtiyar müəllim özünəməxsus təmkinlə gülümsünüb qayıtdı ki, "bir dəqiqə gözləyin".

O, qovluğunu açıb sənədlərin arasından ağ-qara bir şəkil çıxararaq mənə tərəf uzatdı:

– Hüseynbala müəllim, görün bu şəkildə kimlər var?!

Pencəyimin döş cibindən eynəyimi çıxartdım. Şəkli alıb gözlərimin önünə tutdum. Nəzərlərimi şəkildəki çöhrələrə zillədim və onların kimliyini ilk baxışdan ayırd etməyə çalışdım.

Bəxtiyar müəllim qiymətli tapıntıya sahib jurnalist həvəsi ilə dedi:

– Bu, "Azərbaycan" qəzetinin ilk redaksiyasında çalışmış insanların kollektiv fotosudur. Hələ görün şəkildəkilərin hamısını tanıyacaqsınızmı?! Yox, yaxşısı budur, özüm onları tanıdım.

O, qələmini bir-bir fotodakı surətlər üzərində gəzdirib onların kimliyini nişan verməyə başladı:

– Baxın. bu, Üzeyir Hacıbəylidir, bu, Məhəmməd Əmin Rəsulzadə, bu, Seyid Hüseyn... Hənəfi Zeynallı, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim...

Maraq hamıya güc gəldi, ətrafdakılar da fotonun ətrafına toplaşdılar. Bəxtiyar müəllim şəkildəkiləri göstərə-göstərə, onların hər birinin qəzetdəki rolundan, "Azərbaycan"ın səhifələrində dərc edilmiş yazılarından da danışıb, müxtəsər məlumat verirdi.

Onun bələdçiliyi ilə bir şəklin işığında yüz il əvvələ səyahətimiz davam etdikcə hər kəs heyrətini, o fotodakı şəxsiyyətlərin böyüklüyünə məftunluğunu bir cür ifadə edirdi.



**1919-cu il, "Azərbaycan" qəzetinin redaksiyası, əməkdaşlar və yazarlar**
***Soldan sağa.*** *Öndə oturanlar:* Piri Mürsəlzadə, Rəhim ağa Vəkilov.
*Orta cərgədə:* Hənəfi Zeynallı, Rübabə xanım Tağızadə, Şəfiqə xanım Əfəndizadə, Məhəmməd Əmin Rəsulzadə, Səhra xanım Paşazadə, Üzeyir bəy Hacıbəyli, Mustafa ağa Vəkilov.
*Ayaq üstə duranlar:* Əbdül Əbdülzadə, Mirzə Hadi Atlasov, Hacıibrahim Qasımov, Məhəmmədəli Sidqi Səfərov, Şəfi bəy Rüstəmbəyli, Seyid Hüseyn Sadiq, Xəlil ibrahim, Qədir Heydərov, Əli Yusifzadə, Məhəmməd Hadi Əbdüssəlimzadə

Şəkil əldən-ələ keçdi...

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, əziz dostum Eldar İbrahimov şəkli alıb bir daha diqqətlə baxandan sonra söylədi:

– Bəxtiyar müəllim, belə çıxır, yüz il əvvəl o dövrün bütün böyük şəxsiyyətləri elə bu qəzetdə cəmləşibmiş ki... Bu, bütün fikir adamlarının qəzeti imiş, deməli...

O an balaca bir hazırcavablıq etdim:

– Eldar müəllim, "Azərbaycan" qəzeti tək yüz il əvvəl yox, elə indi də hamımızındır, bizim qəzetimizdir. Deməyə sözü olan hər kəsin qəzetidir...

Və söhbət iştirakçılarının reaksiyasından anladım ki, bu replika ilə, əslində, hər kəsin 100 yaşlı "Azərbaycan" qəzeti haqqında qəlbindən keçənləri dilə gətirmişəm...

❖ ❖ ❖

Əlifbanı öyrənəndən bəri qəzet oxuyuram...

İlk oxuduğum qəzetlər heç bütöv qəzetlər də olmayıb. Görərdin ki, haradansa bir qəzet parçası keçərdi əlimə, orada nə yazılmasından asılı olmayaraq höccələyə-höccələyə başlayardım oxumağa...

Sovetin bir yaxşı cəhəti vardı ki, onda hamı – ziyalı da, fəhlə də, kəndli də, kolxozçu da mətbuata məcburi də olsa, abunə yazılardı. Ən ucqar kəndlərə, ən uzaq evlərə qəzet-jurnal gedib çı-

xardı. Hər qapıda mütləq poçt qutusu olardı. Doğma poçtalyonların doqqazımıza hər gəlişini intizarla gözləyərdim. Bəzən gözləməyə hövsələm çatmaz, özüm onun iş yerinə yüyürərdim...

Yeni qəzet və jurnalların səhifələrindən saçan mətbəə iyi burnumuza dolub bizi az qala təndirdən yenicə çıxmış isti çörəyin ətri qədər ovsunlayardı...

Ata-anamız ağır iş gününün yorğunluğundan sonra qəzetləri gözdən keçirər, bəzən hansısa maraqlı materialı hamı eşitsin deyə ucadan oxuyardılar. Kommunist-sovet mətbuatı qəlibləri çərçivəsində fəaliyyət göstərən sovet qəzetlərində maraqlı materialların sayı o qədər çox olmazdı, düzdü... Amma yenə də oxumaq üçün nələrsə tapılırdı. Bir də görürdün, qəzetlərdən biri hansısa xarici ölkədəki qeyri-adi hadisə haqqında yazıb. Yaxud bəzən səs-küylü cinayət hadisələrinin təfərrüatları işıqlandırılardı. Qəzet çıxandan sonra, görərdin, hamı bu barədə danışır.

Uşaq vaxtlarımdan bədii mövzular diqqətimi daha çox çəkirdi. Bu mövzuda materialları, qəzetlərdə-jurnallarda dərc edilmiş kiçik həcmli bədii əsərləri acgözlüklə oxuyardım. Oxuyandan sonra isə özüm də belə cızmaqaralar etməyə can atardım. Əgər müəlliflərdən hansısa biri həmyaşıdım olardısa, onda heç özümə yer tapmazdım. Elə bilərdim ki, dünyada qəzetdə yazının dərc edilməsindən böyük xoşbəxtlik ola bilməz.

Təsadüfi deyil ki, ilk yazım cəmi 9 yaşım olanda dərc olunub, özü də ümummilli qəzet statusunda olan "Azərbaycan pioneri"ndə...

Beləliklə, özüm də hiss etmədən çox erkən yaşlardan qəzet oxuma və qəzetə məqalə yazma vərdişim formalaşdı. Bu xoş alışqanlıq sinnimin indiki vədəsinə qədər gündəlik həyatımı tərk etməyib. İndi də hər gün masamın üzərində qalaq-qalaq qəzetlər olur. Nə qədər darmacallıq olsa da, onları ən azı bir-bir vərəqləyirəm. Vaxtdan asılı olaraq qəzetlərin bəzən bir neçə səhifəsini gözdən keçirirəm. Bəzən diqqətimi çəkən yazıları, bəzənsə maraqlı gələn imzaları oxuyuram...

Əgər kimsə soruşsa ki, dünyanın ən gözəl zövqü nədir, cavab verərəm ki, vaxtının rahat, asudə vədəsində maraqlı materiallarla bol bir qəzeti masanın üzərinə sərib mürəbbə ilə pürrəngi çay içə-içə, heç yana, heç yerə tələsmədən onu əvvəldən sona qədər oxuyub bitirməkdir bu...

Qəzetlərin hamısı qəlbimə doğmadır. Nə yazmasından, necə yazmasından, kimin üçün yazmasından, nələrə toxunmasından, yazılanlarla razılaşıb-razılaşmamağımdan asılı olmayaraq hər qəzet mənim üçün xoş dəyərdir...

Hər dəfə masamın üstündəki qəzet qalaqlarını görəndə sanki öz əzizimi görürəm. Onlardan gələn xüsusi ətir, qəzet vərəqlərinin rəngi, xışıltısı ruhumu əsrarəngiz bir aləmə aparır...

❖ ❖ ❖

Bu qəzetinsə ürəyimdəki yeri bir ayrıdır...

"Azərbaycan" qəzeti mənə digər mətbuat orqanlarından azı on köynək yaxındır. Yəqin, başqa cür də ola bilməz...

Axı özüm də bu qəzetin fəal müəlliflərindənəm. Ayda azı bir dəfə bu qəzetdə yazılarım çıxır. Hər dəfə yeni əlyazmamı redaksiyaya göndərəndən sonra "Azərbaycan"ın növbəti günlərdəki sayını səhərlər həyəcanla vərəqləyirəm. Öz imzamı axtarıram. Məktəbli ikən "Azərbaycan pioneri" qəzetində ilk məqaləmin, sonralar hekayələrimin dərc olunduğu anların həyəcanını yenidən yaşayıram...

Çox qəribədir, o vaxtdan bəri qəzetlərdə, jurnallarda qalaq-qalaq yazılarım, irihəcmli bədii əsərlərim, ölkəmizdə və xaricdə onlarla yeni kitabım nəşr olunub. Amma qəzetin hər yeni nömrəsində öz yazını görmək yenə də bambaşqa hisdir. Bu, elə bir duyğudur ki, ömründə, heç olmasa, bircə dəfə qəzetdə yazısı dərc edilməyən adam onu yaşaya bilməz...

"Azərbaycan" qəzetindəki müntəzəm yazılarım bu həyəcanın əsrarəngiz dünyasından uzaq qalmamaq istəyimdir. Özümün özümə yaradıcı hesabatımdır. Qələmin hələ ovxardan düşmədiyini, yazıb-yaratmaq şövqümün zərrə qədər də olsun öləzimədiyini özümə sübutumdur...

Ona görə də illərdir "Azərbaycan" qəzetinin fəal müəllifi olaraq qalıram...

Hərçənd, hər dəfə bu statusumu vurğulayanda əziz dostum Bəxtiyar müəllim zarafatla mütləq zəruri redaktor düzəlişini edərək deyir ki, Hüseynbala müəllim, siz daha bu qəzetin fəal müəllifi deyilsiniz. Siz də artıq redaksiyamızın bir üzvüsünüz. Siz də bizim birimizsiniz. Fərqiniz bircə budur ki, redaksiyadakı səhər "letuçka"larına, aylıq planlaşdırmalara gəlmirsiniz və bir də yazılarınıza görə redaksiyadan qonorar istəmirsiniz...

Ölkənin ən nüfuzlu qəzetinin məni özünə belə yaxın bilməsi ürəyimdə böyük qürur hissi doğurur...

❖ ❖ ❖

Bu qəzet mənim üçün bir tribunadır...

Oxucularımla ürək sözlərimi, müstəqil dövlətimizin nailiyyətləri, müasir inkişaf meyilləri ilə bağlı düşüncələrimi bölüşürəm bu qəzetdə...

Hansısa məsələlərlə bağlı öz vətəndaş mövqeyimi ortaya qoymağa çalışıram. Müxtəlif mövzularda ictimai müzakirələrə qoşuluram.

Orasını da deyim ki, bu qəzetdə işıq üzü görən yazılarım təkcə günümüzün nailiyyətlərinin tərənnümündən, inkişaf meyillərinin təbliğindən ibarət olmur. Bəzən cəmiyyətimizdəki hansısa xoşagəlməz cəhətləri, düşüncələrimi narahat edən məqamları tənqid də edirəm. Çalışıram ki, bu tənqidlərimdə qərəz, qeyri-obyektivlik olmasın. Tənqid xırda mövzuları deyil, cəmiyyətimizin bugünü və gələcəyi baxımından fundamental məsələləri əhatə etsin. Ən əsası isə, mövcud problemlərdən çıxış yolu üçün müəyyən bir yol da göstərə bilsin, ağlabatan təkliflər versin...

Və "Azərbaycan" qəzeti tərənnüm məzmunlu yazılarıma yer ayırdığı kimi, tənqidi fikirlərimə də böyük məmnuniyyətlə yer verir. Ayrı-ayrı mövzularda düşüncələrimin, qələmə aldığım mövqeyin daha geniş auditoriyaya çatmasına kömək göstərir.

Bu qəzetdə çıxan, demək olar ki, hər yazıma çoxsaylı reaksiyalar alıram. Müxtəlif insanlar telefon zəngləri ilə, rastlaşanda üzbəsurət söhbətlərlə yazılarıma fikir bildirirlər. İndiyə qədər "Azərbaycan" qəzetində dərc olunmuş yazılarıma görə ölkənin dövlət strukturlarının ən yüksək səviyyələrində təmsil olunan şəxslərdən tutmuş ucqar kəndlərdə yaşayan sıravi insanlarımıza qədər ən fərqli ünvanlardan zənglər qəbul etmişəm. Yazılarımla bağlı fikir və rəylərini çatdırıblar. Bəzən təbrik ediblər, bəzən hansısa məqamlarla bağlı təkliflərini veriblər, arzu və istəklərini dilə gətiriblər. Bu da qəlbimi fərəh hissi ilə doldurub ki, insanlarımız bu qəzeti oxuyurlar, bu sətirlərin müəllifini oxuyurlar.

Və belə bir imkanı müəllifə 100 yaşlı "Azərbaycan" qəzeti yaradıb...

❖ ❖ ❖

100 yaş bir mətbuat orqanı üçün çox böyük tarixdir...

"Azərbaycan" qəzetinin bir əsrlik fəaliyyət dövrü isə təkcə bir qəzetin ömrü deyil. Bu, milli dövlətçilik salnaməmizin şərəf səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyəti tarixinin çox böyük bir parçasıdır.

Daha doğrusu, "Azərbaycan" qəzeti elə bu tarixin özüdür...

Əgər cümhuriyyət dövründə nəşr olunan mətbuat orqanlarının, ən əsası da dövlətin gördüyü bütün işləri, cümhuriyyət qurucularının fikir və rəylərini işıqlandıran "Azərbaycan" qəzetinin saralmış səhifələri olmasaydı, o günlərdən bugünümüzə nələr gəlib çıxardı ki?!

Azərbaycan Xalq Cümhuriyyəti xalqımıza çox dəyərli yadigarlar bəxş edib. Onlardan biri də məhz "Azərbaycan" qəzetidir.

Tarixə səyahətimizi azacıq davam etdirək. Qəzetin nəşri barədə yeni hökumətin müzakirə və qərarlarından sonra "Azərbaycan"ın ilk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə şəhərindəki Yelizavetpol qubernatorunun mətbəəsində işıq üzü gördü.

Ona qədər də "Azərbaycan" adlı mətbuat orqanlarının nəşri təşəbbüsündə bulunanlar olmuşdu. Hələ 1891-ci ildə "Kəşkül" bağlandıqdan iki ay sonra Ünsizadə qardaşları – əvvəlcə Cəlal, sonra Kamal bu adda qəzetin nəşrinə icazə almaq məqsədilə Baş mətbuat idarəsinə müraciət edərək rədd cavabı almışdılar.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalının təsiri ilə Təbrizdə "Azərbaycan" adlı satirik jurnal fəaliyyətə başlamışdı. 1918-ci ildə isə Bakıda İran demokratlarının "Azərbaycan" adlı qəzeti nəşr edilirdi. Amma 100 illik tarixə çevrilmək məhz bugünkü "Azərbaycan"ın, müstəqil dövlətimizin rəsmi dövlət qəzetinin qismətinə yazıldı.

Qəzetin ilk nömrəsi A-3 formatda, dörd səhifə həcmində, iki dildə çıxmış, iki səhifəsində Azərbaycan, digər iki səhifəsində isə rus dillərində materiallara yer ayrılmışdı. Bu qəzet mətbuat dünyasına xalqın intizarında olduğu böyük qələbənin müjdəçisi kimi gəldi. Qəzetin ilk nömrəsi Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimizin Bakını bolşevik-daşnak işğalından azad edərək qalibiyyətlə şəhərə daxil olması barədə xəbərlərlə, təbrik teleqramları ilə açıldı.

❖ ❖ ❖

Xəyalım müxtəlif ünvanlarda dolaşır:

Gəncə şəhəri, Bulatov küçəsindəki 26 nömrəli ev...

Kolyubakinski (indiki Nigar Rəfibəyli) küçəsindəki Adamovlara məxsus yaşayış binası...

Vorontsovski və Qubernski küçələrinin küncündə 4 nömrəli ev (indiki İslam Səfərli ilə Nizami küçələrinin kəsişməsində yerləşən, 1867-1895-ci illərdə milyonçu Montaşevin sifarişi ilə tikilmiş, İtaliya memarlıq üslubunu özündə yaşadan üçmərtəbəli yaşayış binası)...

İndi bu ünvanlarda kimlər yaşayır, hansı qurumlar fəaliyyət göstərir, fərqində deyiləm. Amma bu ünvanların hər biri "Azərbaycan" qəzetinin səhifələrində tarixiləşib. 1918-ci ildən 1920-ci ilə qədər qəzet bu ünvanlarda fəaliyyət göstərib. İndi isə Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə ünvanında yerləşən "Azərbaycan" nəşriyyatının əzəmətli binasının 2-ci və 4-cü mərtəbələrində öz şərəfli fəaliyyətini, öz şərəfli tarixini davam etdirir.

Bunlar qəzetin yerləşdiyi, əməkdaşların bütün çətinliklərə, maddi-texniki problemlərə, əziyyətlərə rəğmən vaxtında oxucuların görüşünə gəlmək üçün gecə-gündüz çalışdıqları fiziki ünvanlardır.

Yarandığı gündən bəri "Azərbaycan" qəzetinin bir mənəvi ünvanı da olub. Bu, milli düşüncədir, Azərbaycan məfkurəsidir...

Və fiziki ünvanların bir-birini əvəz etməsinə rəğmən, qəzet öz məsləkini heç zaman heç nəyə dəyişməyib...

❖ ❖ ❖

"Azərbaycan" qəzeti 1875-ci ildə böyük Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə əsasını qoyduğu milli mətbuat tariximizin yetişdiyi çox böyük hədəfdir...

Çünki Azərbaycan Xalq Cümhuriyyətinin özü XIX əsrin ikinci yarısından, xüsusən "Əkinçi"dən geniş vüsət almış maarifçilik hərəkatının, mətbu sözün vücuda gətirdiyi təsisat idi. "Azərbaycan" qəzetini də çox gənc yaşlarından publisist kimi fəaliyyət göstərən, cəmiyyətdəki yüksək nüfuza mətbu sözün qüdrəti hesabına yetişən cümhuriyyət qurucularımız yaratmışdılar.

Onlar mətbuatın mütərəqqi fikirləri ifadə etmək, milləti tərəqqiyə çatdıracaq yola səsləmək, düşmənlərinə iradələrini göstərmək üçün ən gərəkli vasitə, mötəbər tribuna olduğunu yaxşı bilirdilər. Odur ki, hökumətin siyasi kursunu xalqa izah edən mətbuat orqanı yaratmağı ilk gündən ən mühüm məsələlərdən biri kimi müəyyənləşdirmişdilər.

"Azərbaycan" qəzeti belə yarandı və bu qəzet ilk milli qəzetimizdən – "Əkinçi"dən başlayan, "Ziya" və "Ziyayi-Qafqasiyyə"dən, "Kəşkül"dən, "Şərqi-Rus"dan, "Molla Nəsrəddin"dən, "Həyat"dan, "İrşad"dan, "Füyuzat"dan, "Tərəqqi"dən, "Kaspi"dən, "İqbal"dan, "Açıq söz"dən, "Dirilik"dən, "Təkamül"dən... və daha neçə-neçə mətbuat orqanından keçib gələn yolun zirvəsi oldu...

Dövrün tanınmış ziyalılarını, ictimai-siyasi xadimlərini, millət fədailərini ətrafına topladı. Üzeyir bəy və Ceyhun bəy Hacıbəyli qardaşları, Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Əhməd Cavad, Firidun bəy Köçərli, Ömər Faiq Nemanzadə, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə, Şəfiqə Əfəndizadə, Əliabbas Müznib, Məmməd Sadıx Axundzadə, Əli Yusif, Əli Şövqi, Yusif Vəzir Çəmənzəminli, Fərhad Ağazadə, Abdulla Şaiq, Abbas Səhhət, Adil xan Ziyadxanov, Məhəmməd ağa Şahtaxtlı, Hacı İbrahim Qasımov, Nağı bəy Şeyxzamanlı, Nəsib bəy Yusifbəyli, Hüseyn Bayqara, Əmin Abid, Behbud ağa Şahtaxtinski, Həmid bəy Şahtaxtinski və başqalarının məqalələri, şeirləri, elmi-publisistik yazıları bu qəzetin səhifələrində işıq üzü görürdü.

Milli mətbuat tariximizin heç bir dövründə elə bir qəzet, jurnal təsəvvür etmək mümkün deyil ki, eyni vaxtda bu qədər düşüncə adamının ortaq tribunası olsun...

Milləti aydın gələcəyə yönəldən bu qədər fikir sahibinin tribunasına çevrilsin...

"Azərbaycan" qəzeti həm də buna görə dəyərlidir.

❖ ❖ ❖

"AZƏRBAYCAN" AZƏRBAYCANIN BAŞ QƏZETİDİR.

İlk növbədə ona görə ki, status etibarilə rəsmi dövlət qəzetidir. Azərbaycanda belə bir statusu daşıyan ikinci qəzet yoxdur.

Digər tərəfdən, "Azərbaycan" qəzeti toxunduğu taleyüklü məsələlər, təqdim edilən mövzuların işlənmə tərzi, mətnlərin peşəkarlığı, dil-üslub mükəmməlliyi və s. cəhətlərdən də baş qəzetdir...

Bilirik ki, jurnalistikanın da, ədəbiyyat kimi, elm kimi öz qəlibləri, ülgüləri, normaları var. Bədii publisistika müxtəlif janrlara bölünür. Hərəsinin də öz peşəkarlıq sirləri. Belə incəliklərdən ancaq bu sahənin biliciləri baş çıxara bilər. Jurnalistika, publisistika bütün bunlarla gözəldir, rəngarəngdir, təsiredici və yaddaqalandır.

Əfsuslar olsun ki, indi əliqələmli qeyri-peşəkarların çoxluq təşkil etdiyi jurnalistika mühitimizdə belə məqamlara fikir verən azdır. Ona görə mətbuatımızın dadı-duzu qaçıb. Əksər mətbu mətnlər eyni qəlibdən çıxmış çiy kərpic kimi bir-birini təkrarlayır: bozdur, maraqsızdır, insan hislərini dilə gətirə bilmir. Bir xəbər saytını, qəzeti nəzərdən keçirdinsə, elə bil hamısını oxuyub başa vurmusan.

"Azərbaycan" qəzeti isə bunların heç birinə bənzəmir...

Universitetlərimizin jurnalistika fakültələrində təhsil alan tələbələr bu qəzeti rahatlıqla qarşılarına qoyub informativ janrlar, analitik janrlar, bədii-publisistik janrlar bir-birindən necə fərqlə-

nir, – öyrənə bilərlər. Oçerk necə yazılmalıdır, zarisovka, esse necə işlənməlidir, yol qeydləri, məktub, felyeton, pamflet və s. necə qələmə alınmalıdır, – bu sənət sirlərinin hamısını "Azərbaycan" qəzetindəki rəngarəng mətnlərdən mənimsəmək olar.

Bütün bunlar Azərbaycan və ümumilikdə dünya jurnalistikasının yüzillərlə formalaşmış peşəkarlıq ənənələridir. "Azərbaycan" qəzeti bu ənənələri çox uğurla davam və inkişaf etdirən məktəbdir...

İndiyə qədər bu məktəbdə nə qədər peşəkar yetişib. Qələmini, yaradıcılığını burada püxtələşdirib. Necə deyərlər, sənətin içində bişib.

100 il əvvəl yaşayıb-yaratmış, xalqın istiqbalı yolunda ömrünü şam kimi əritmiş yazarları kimi, "Azərbaycan" qəzeti bu gün də öz yazılarında tarixlə müasirliyi tutuşdurur, xalqımızın milli dövlətçilik duyğularına xitab edir, ənənə və müasirlik işığında vətənimizin aydın gələcəyinə yol göstərir.

Bir əsr əvvəlin "Azərbaycan"ı kimi, o yenə bizə öz şanlı keçmişimizi, milli-mənəvi dəyərlərimizi xatırladır. Amma öyərək, "qəhrəmansan", "səndən yoxdur" deyərək bizi arxayın da salmır. Milləti öz tarixindən öyrənməyə, qürurverici səhifələrindən dərs almağa, yanlışlarından və başına gətirilən müsibətlərdən nəticə çıxarmağa, sükunəti, ətaləti, xurafatı özünə yaxın buraxmayaraq sabahına doğru əmin addımlarla irəliləməyə səsləyir.

Həm də bütün bunları yazan, göstərən, diqqətə çatdıran təkcə qəzetin öz yaradıcı kollektivi deyil. Əlbəttə, onlar da öz yaradıcı vəzifələrini yüksək peşəkarlıqla, vicdanla, vətənpərvərliklə yerinə yetirirlər. Kollektivin yaradıcı əməyi ilə yanaşı, "Azərbaycan" qəzeti cəmiyyətdə yüksək nüfuza malik, deməyə sözü olan və dediyi söz geniş auditoriya tərəfindən qəbul edilən ziyalılarımızı da müəllif kimi əməkdaşlığa cəlb edir. Onların yazılarına geniş yer verir. Ziyalılarımız arasında hər hansı milli ideyalar, strateji hədəflər, mövcud problemlər və onların həlli yolları üzrə polemikaların alınmasına, ictimai müzakirələrin aparılmasına kömək göstərir. Beləliklə, cəmiyyətdə sağlam, keyfiyyətli düşüncə mühiti yaradır.

Bu mənada qəzet bir əsrlik missiyasına hər zaman sadiqdir.

❖ ❖ ❖

"Azərbaycan" qəzeti ötən 100 ildə çox böyük inkişaf yolu keçib. Mühüm yaradıcılıq nailiyyətləri qazanıb. Bu inkişafın, nailiyyətlərin əhəmiyyətli bir hissəsi son 15 ilə, Bəxtiyar Sadıqovun bu qəzetə rəhbərliyi dövrünə aiddir. Bəxtiyar Sadıqov dəyərli deputat həmkarımdır, yaxın dostumdur, uzun illərdən bəri Azərbaycan oxucusunun qəlbini, düşüncələrini, diqqətini fəth etmiş imzadır. Həm sovet jurnalistikasının müsbət ənənələrini, həm müstəqil jurnalistika təcrübəsini öz peşəkarlığında bir araya gətirmiş gözəl publisistdir, çox mükəmməl, usta qələm sahibidir...

Və bütün bunlarla bahəm o həm də çox ciddi redaktordur...

Yazıdan anlayan, mətnin ruhunu duyan, səhifə-səhifə yazılar içindəki hər hansı haram sözü, qəlp kəlməni dərhal gözü alan qəzetçidir...

"Azərbaycan" qəzeti ilə müntəzəm əməkdaşlıq təcrübəmdə özüm buna dəfələrlə şahid olmuşam: hər hansı yazımla bağlı onun gün ərzində mənə bəlkə dörd-beş dəfə zəng etdiyi olub. Əlyazmalarımı oxuyaraq hansısa məqamlarla razılaşmayıb. Yaxud təkliflər verib ki, bəlkə bu hissəni belə yox, başqa cür verək, bəlkə bu hissəni çıxaraq, yaxud bəlkə yazıya belə bir əlavə edək?! Razılaşmışam, yazını bir də qəzetdə oxuyanda görmüşəm ki, Bəxtiyar müəllimin redaktəsindən sonra gözəl bir binanın hörgü daşları kimi, mətndəki sözlər, cümlələr, abzaslar, ən əsası isə fikirlər necə də səliqəli şəkildə öz yerinə bənd olub...

O, eyni ciddiyyəti qəzetdə gedən bütün yazılara münasibətdə qoruyur...

Zatən "Azərbaycan" qəzetinin uğurlarının bir sirri də elə bu ciddiyyətindədir, ona peşəkar insanın rəhbərlik etməsindədir...

❖ ❖ ❖

Oxucuların bu qəzetə inam və güvəni, ictimai rəydə qazandığı yüksək nüfuzla "Azərbaycan" qəzetinin fəaliyyəti, dövlətimizə xidmətləri hər zaman öz layiqli qiymətini alıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik irsini ölkə mediasının inkişafı sahəsində də davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətə uyğun olaraq digər kütləvi informasiya vasitələrimiz kimi, "Azərbaycan" qəzeti də dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub.

Ulu öndər Heydər Əliyevin "Azərbaycan" qəzetinin kollektivinə 1994-cü ilin 6 dekabr tarixində qəzetin 1000-ci nömrəsinin nəşri, həmçinin 1998-ci ilin 15 sentyabrında qəzetin 80 illik yubileyi münasibətilə ünvanladığı təbrik məktubları bu mətbu orqanın 100 illik tarixinin parlaq səhifələridir.

Heydər Əliyevin redaksiyaya ilk məktubunda yazılır: "Əsası 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Demokratik Respublikasının rəsmi qəzeti kimi nəşr olunmuş "Azərbaycan" xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir.

Məlum tarixi səbəblər üzündən ADR kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi ictimai həyatda layiqli yerini tutdu".

Ulu öndərin məktubunda 1994-cü ilin məlum ictimai-siyasi reallıqlarına istinadən yazılır ki, müstəqilliyimizə düşmən kəsilmiş daxili və xarici qüvvələr öz çirkin məqsədlərinə nail olmaq üçün bu gün də azğın niyyətlərindən əl çəkmirlər: "Məlum oktyabr hadisələri onların mürtəce təbiətini bir daha aşkarladı. Amma Azərbaycan xalqı yekdilliklə ayağa qalxaraq öz qanuni Prezidentini, müstəqil dövlətçiliyini müdafiə etdi. Fərəhli haldır ki, həmin həlledici məqamda "Azərbaycan" qəzeti öz sayıqlığını bir an belə itirmədi".

❖ ❖ ❖

Heydər Əliyevin "Azərbaycan" qəzetinin 80 illiyi münasibətilə ifadə etdiyi aşağıdakı fikirlər də bu qəzetin milli mətbuat tariximizdəki yeri və roluna dəyərli qiymətdir: "1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli-azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərinin, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir. 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində ölkəmizin digər mətbuat orqanları kimi, "Azərbaycan" qəzetinin də üzərinə böyük vəzifələr düşür. İnanıram ki, fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına dönməz sədaqət göstərmiş "Azərbaycan" qəzetinin kollektivi bundan sonra da respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaş mövqeyi nümayiş etdirərək xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirə biləcəkdir".

Ulu öndərin məktubunda ölkəmizin adını daşıyan bu qəzet demokratik, milli dövlətçiliyimizin yaşıdı kimi təqdim olunur.

Böyük öndərin "Azərbaycan" qəzetini yaşayan ənənələri və müasir inkişaf səviyyəsi ilə birlikdə dəyərləndirməsi bütövlükdə ölkəmizdə baş verən ictimai-siyasi proseslərdə, tarixin çətin sınaq məqamlarında, irəliyə doğru inkişafda dövlət mətbuatının vəzifələrini, rolunu və funksiyasını müəyyən edən mühüm tarixi əhəmiyyətə malik konsepsiyadır...

Və bunların hər biri böyük bir tarixdir, 100 illik ömrün hekayətləridir...

❖ ❖ ❖

Zaman bu qəzetin səhifələrində əbədiləşir...

Anlar burada tarixə çevrilir...

Dəyərlər burada gələcək nəsillər üçün qorunur...

İndi onlayn medianın inkişafı dövründə qəzetlərin gələcəyi ilə bağlı tez-tez müəyyən tərəddüdlər eşidirik. Əlbəttə, onlayn medianın da, qəzetin də öz yeri var. Mənə görə müasir insan onlayn medianın aramsız sürətindən usanandan sonra bütün dünyada qəzet bir retro effekti ilə geri dönəcək. Üstəlik, onlayn media belədir ki, nə qədər etibarlı şəkildə qoruyursan qoru, yenə də hansısa texniki səbəblərdən onillərin arxivi bir an içində qeybə çəkilə bilər. Qəzetin saralmış səhifələrində isə dövrün ruhu, vaxtın özü haqqında monoloqu əbədi yaşayır.

Onun yaddaşını heç nə, heç kim məhv edə bilməyib...

Təsəvvür edin, bolşevik rejimi cümhuriyyət qurucularına qarşı ən amansız addımlar atıb. Cümhuriyyət tarixini unutdurmaqdan ötrü aramsız repressiyalar həyata keçirib. Amma o dövrdə çıxmış "Azərbaycan" qəzetinin əksər nüsxələri arxivlərdə qalır. Şərqin ilk demokratik respublikasının işığını, ruhunu, hərarətini günümüzə yetirir...

Bir dəfə, milli mətbuatımızın canlı əfsanələrindən biri, cümhuriyyət dövrünün fədakar tədqiqatçılarından olan professor Şirməmməd Hüseynovun belə bir söhbətinə şahid oldum. O dedi ki, Azərbaycan Xalq Cümhuriyyəti tarixini araşdırmaq üçün ən ciddi, mükəmməl, etibarlı qaynaq məhz o dövrdə çıxmış "Azərbaycan" qəzetidir...

Düşünürəm ki, əsrlər sonra Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisinin – müstəqil Azərbaycan dövlətinin bugünkü günlərini, çətin sınaqlar qarşısında qazanılan misilsiz nailiyyətlərini, arzu və amallarını öyrənmək üçün ən ciddi, mükəmməl, etibarlı qaynaq yenə də "Azərbaycan" qəzeti olacaq...

Belə bir dəyərdə imzanın, imzamın görünməsindən də böyük qürur olarmı?!

Təbriklər, hamımızın sevgi dolu evi, hamımızın mənəvi ocağı, hamımızın qəzeti...



**Möhsün NAĞISOYLU,**
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik*

# Milli publisistikamızın öndəri, fəxri və iftixarı

*"Azərbaycan" qəzetində ana dili məsələləri yaradıcı fəaliyyətin əsas istiqamətlərindəndir*

***Bu yaxınlarda xalqımızın tarixində ən əlamətdar hadisələrdən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi tamam oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin dövlət səviyyəsində geniş qeyd olunması haqqında 16 may 2017-ci ildə sərəncam imzaladı.***

Bundan əlavə, ölkə Prezidentinin 10 yanvar 2018-ci il tarixli digər bir sərəncamı ilə bu əlamətdar hadisə ilə əlaqədar olaraq 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sərəncamlarının işığında xalqımızın tarixinin şanlı səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə istər respublikamızda, istərsə də ölkə xaricində bir sıra silsilə tədbirlər keçirilmiş və keçirilməkdə davam edir.

Bu misilsiz hadisə ilə bilavasitə əlaqədar olan Silahlı Qüvvələrimizin, polisin, parlamentin... yaradılmasının da 100 illik yubileyidir. Belə şanlı yubileylərdən biri də Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı olmuş "Azərbaycan" qəzetinin payına düşür. Xalqımızın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış "Azərbaycan" qəzetinin də bu günlərdə 100 yaşı tamam olur.

"Azərbaycan" qəzeti iftixarımız, qürur mənbəyimiz olan Azərbaycan Xalq Cümhuriyyəti kimi qısa zaman kəsiyində fəaliyyət göstərməsinə baxmayaraq, adını mətbuat tariximizin ən parlaq və şanlı səhifələrindən birinə əbədi olaraq həkk etmiş və milli dövlətçiliyimizin inkişafı, azadlıq və istiqlal məfkurəsinin geniş yayılması, siyasi publisistikanın güclənməsi istiqamətində misilsiz xidmətlər göstərmişdir.

"Azərbaycan" qəzeti yarandığı gündən (15 sentyabr 1918-ci il) başlayaraq ölkədə demokratik fikrin, sərbəst və azad düşüncənin tərəfdarı kimi çıxış etmiş və milli mətbuatın inkişafına öz töhfələrini vermişdir. "Azərbaycan" qəzetinə bir müddət redaktorluq etmiş, dövrün istedadlı jurna-

listi, mahir bədii söz ustası kimi tanınmış Üzeyir bəy Hacıbəyli qəzetdəki məqalələrindən birində *("Təəssürat", 10 yanvar 1919-cu il, №84)* bu məsələ ilə bağlı yazır: "Qəzetəmizin ("Azərbaycan"ın – **M.N.**) firqə və partiya xaricində rəsmi bir orqan olduğu hər kəsə məlumdur. Hərgünkü möhtəviyyatından (məzmunundan – **M.N.**) məlum olduğu üzrə vətən abadlığı, millət səlamətligi, camaat tərəqqisi, dövlət intizamı ilə bərabər, istiqlal və genə də istiqlal şüarlarını virdi-zəban (dil əzbəri – **M.N.**) edüb də bunun hüsulində (qazanılmasında – **M.N.**) əlindən gələn qədər çalışmaqda olan qəzetəmiz bu dairədə yazılmaqda olan məqalələrə sütunlarını bir ananın balasına qarşı açdığı qucağı kibi kəmali-meyl və məhəbbətlə açubdur".

Fərəhləndirici haldır ki, xalq cümhuriyyətinin tarixi salnaməsi, dövrün əvəzsiz yadigarı və özünəməxsus atributu olan "Azərbaycan" qəzetinin müstəqillik, milli dövlət quruculuğu, vətənpərvərlik və azərbaycançılıq kimi ideyalarını hazırda rəsmi dövlət qəzeti və Azərbaycan Respublikası Milli Məclisinin orqanı statusunu daşıyan "Azərbaycan" qəzeti də uğurla davam etdirir və bu istiqamətdə səmərəli fəaliyyət göstərir. Cümhuriyyət dövrünün "Azərbaycan" qəzetinin layiqli varisi olan bugünkü "Azərbaycan"ın da ölkəmizin çoxsaylı mətbuat orqanları sırasında özünəməxsus yeri və sanballı çəkisi vardır.

Xalq cümhuriyyəti dövrünün "Azərbaycan" qəzetinin mövzu dairəsi geniş idi. Onun səhifələrində ölkənin ictimai-siyasi, mədəni-mənəvi, sosial-məişət problemlərindən tutmuş beynəlxalq məsələlərə qədər çeşidli mövzular ətrafında peşəkar jurnalist qələmindən çıxmış maraqlı və sanballı yazılar dərc olunurdu. Tariximizin işıqlı səhifələrindən biri kimi bizə miras qalan "Azərbaycan" qəzetinin 1918-1920-ci illərdə ən çox dəyər verdiyi, geniş şəkildə işıqlandırdığı məsələlərdən biri də ana dili ilə bağlı idi. Bu da təsadüfi deyildi, çünki qəzetin ətrafında toplaşmış mütərəqqi ziyalılar, milli mətbuatın qaymaqları yaxşı bilirdilər ki, dil xalqın varlığıdır, milli dövlətçiliyin tərkib hissəsi və əsas atributlarından biridir. Dil, eyni zamanda, xalqın sərvəti kimi onun taleyi ilə bilavasitə bağlı olan ən böyük milli-mənəvi bir dəyərdir. Xalq cümhuriyyəti dövründə cəmi 443 nömrəsi işıq üzü görmüş "Azərbaycan" qəzetində dillə bağlı məsələlərin işıqlandırılmasında, milli dilin təbliğində Üzeyir bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Xəlil İbrahim, Fərhad Ağazadə, Xalid Səid Xocayev, Məhəmməd ağa Şahtaxtlı, Sultan Məcid Qənizadə, Əhməd Cavad, Seyid Hüseyn kimi ziyalıların müstəsna xidmətləri olmuşdur. Bu sırada Ü.Hacıbəylinin fəaliyyəti xüsusilə diqqətçəkicidir və bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Məlum olduğu kimi, bu böyük sənətkar hələ 1907-ci ildə 22 yaşında olarkən "Mətbuatda müstəməl siyasi, hüquqi, iqtisadi və əskəri sözlərin türk-rusi və rusi-türk lüğəti"ni tərtib edərək bununla da diqqəti bu sahədə olan boşluğa yönəltmiş, həm də Azərbaycan dilçilik elminə öz töhfəsini vermişdir. Maraqlıdır ki, Bakıda Orucov qardaşları mətbəəsində işıq üzü görmüş bu dəyərli kitabın naşiri Məhəmməd Əmin Rəsulzadədir. Ü.Hacıbəylinin yenə həmin ildə işıq üzü görmüş "Hesab məsələləri" kitabı Azərbaycan türkcəsində elmi üslubun böyük nailiyyəti idi. Bir qədər ondan əvvəl isə Ü.Hacıbəylinin "İrşad" qəzetinin 15, 16 və 20 fevral 1906-cı il tarixli nömrələrində dilimizlə bağlı "Hansı vasitələr ilə dilimizi öğrənib kəsbi-məarif etməliyiz" adlı irihəcmli və sanballı bir məqaləsi dərc olunmuşdur. Məqalədən aydın olur ki, çar hökuməti Azərbaycan məktəblərində tədris işlərinin ana dilində aparılmasına icazə vermişdir. Buna ürəkdən sevinən müəllif məsələ ilə bağlı ana dilinin öyrənilməsinin zəruriliyini vurğulayır, lakin bu sahədə müəyyən problemlərin də olduğunu ürək yanğısı ilə qeyd edir. Peşəkarlığı və vətəndaş qeyrəti ilə seçilən məqalədə Ü.Hacıbəyli təəssüf hissi ilə yazır ki, ölkədə ana dilini mükəmməl bilən və onu tədris etməyə qadir olan milli kadrlar çatışmır, daha doğrusu, yox dərəcəsindədir. Buna görə də müəllif hesab edir ki, ibtidai məktəblərin birinci sinfində dərs deyən və ana dilini bilməyən

müəllimlərin köməyilə dil öyrənmək mümkün deyil. Müəllif elə məqalənin əvvəlində böyük qürur və iftixar hissi ilə yazır ki, Azərbaycan türkcəsi ən mükəmməl və zəngin bir dildir: "...Bizim türk lisanımız (dilimiz – **M.N.**) Avropa üləma (alimləri – **M.N.**) və filosoflarının rəyinə nəzərən ən vəsi (zəngin – **M.N.**) və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hislərini bəyana qadirdir. Belə bir zəngin lisanın sahibi olub da onunla istifadə etməməyin özü böyük bir bədbəxtlikdir". Göründüyü kimi, müəllif problemi dildə yox, onun daşıyıcılarında, daha doğrusu, bu dili mükəmməl bilməyən şəxslərdə görür. Yeri gəlmişkən qeyd edim ki, yaşadığımız günlərdə də çox zaman bəzi jurnalistlər dilimizlə bağlı hansı problemlərin olduğunu soruşurlar. Cavab isə belə olur: zəngin və gözəl, ahəngdar və musiqili dilimizdə heç bir problem yoxdur. Problem istər yazılı, istərsə də şifahi nitqlərində ədəbi dilimizin normalarını pozan, xüsusilə də yerli-yersiz əcnəbi kəlmələr işlədən bəzi şəxslərdədir.

Üzeyir Hacıbəyli də həmin məqaləsinin əvvəlində məhz bu vacib və mühüm məsələyə toxunaraq Rusiyada təhsil almış bəzi şəxslərin rusca sözlər işlətməsinə kəskin etirazını bildirir. Məqalənin əsas hissəsi isə məzmununa görə daha çox felyeton təsiri bağışlayır. Belə ki, Ü.Hacıbəyli burada kinayə ilə yazır ki, dil öyrənməyin iki vasitəsi var: birincisi, qəzetlər; ikincisi isə ana dilində danışmaq və yazmaq. Birinci vasitəni – qəzetləri satirik gülüş hədəfinə çevirən müəllif onları dil baxımından bir neçə qrupa bölür və bəzi qəzetlərin dilini anlamaq üçün qalın-qalın lüğətlərə müraciət etməyin lazım olduğunu bildirir. Müəllif bununla diqqəti dövrün bəzi qəzetlərinin ana dili məsələsinə fərqli münasibət bəsləmələrinə yönəldir və bunun mənfi cəhətlərini göstərir. Məqalədə, eyni zamanda, Azərbaycan dilində işlənən ərəb və fars sözlərinə də toxunulur. Bu məsələyə peşəkar dilçi kimi yanaşan müəllifin fikrincə, onların bir çoxunu dəyişdirməyə heç bir lüzum yoxdur, çünki dünyanın bütün dillərində alınma sözlər vardır. Əsas məsələ ondadır ki, öz mədəniyyət və mərifətimiz üçün zəngin dilimizi yaxşı öyrənməliyik. Bu isə daha çox məktəblərdən və savadlı müəllimlərdən asılıdır. Beləliklə, vətənpərvər gənc ziyalı Ü.Hacıbəyli bu məqaləsində ana dilini yaxşı öyrənməyin yolunu maariflənməkdə, məktəbdə görür və üzünü xeyriyyə cəmiyyətlərinə tutaraq onları bu yolda əməli işlər görməyə səsləyir. Onu da qeyd edək ki, Ü.Hacıbəyli bu dəyərli məqaləsində, ümumiyyətlə, dil haqqında özünün yüksək fikirlərini ifadə edir: "Dil həyati-bəşəriyyənin ən ümdə müəssirlərindən (təsirli vasitələrindən – **M.N.**) biridir desəm, xəta etmərəm zənnindəyəm".

Ü.Hacıbəylinin "Azərbaycan" qəzetinin bir çox nömrələrində "Təəssürat" başlıqlı yazı-reportajları Üzeyir imzası ilə nəşr olunmuşdur və burada müəllifin Məclisi-Məbusanda (məbus – qədim ərəb sözüdür, seçilmiş deməkdir, *-an* isə fars mənşəli cəm şəkilçisidir: Məclisi-Məbusan – seçilmişlərin (vəkillərin) məclisi deməkdir) gedən proseslərə, xüsusilə də dillə bağlı məqamlarda müəllifin şəxsi münasibəti və vətəndaşlıq mövqeyi öz əksini tapmışdır. Məsələn, qəzetin 10 yanvar 1919-cu il tarixli, 84-cü nömrəsində dərc olunmuş "Təəssürat"da müəllif parlaman üzvlərinin iclasda rusca danışmalarından məyus olduğunu bildirərək yazır: "Raboçi klubda rus fələləri müsəlman natiqlərindən rusca danışmağı tələb edirmişlər. Parlamanda dəxi hər dəm bunu tələb edənlər olmuyor degil: fəqət tələb edənlər ruslar degildir".

Müəllifin milli duyğularına toxunan da məhz odur ki, parlamentdə məbuslar ilə rəis əfəndi (iclasın sədri – Həsən bəy Ağayev – **M.N.**) arasında və ya məbuslarımızın öz aralarında gedən söhbətlər bəzən rusca olur. Müəllif buna nümunə olaraq iki nəfərin danışığına aid rusca üç cümləni də nümunə kimi verərək yazır: "Bunun kimi mükalimeyi-parlamanda rusca keçirtməgə nə hacət? Bir halda ki danışan da türkdür (azərbaycanlıdır – **M.N.**), danışdırılan da". Ü.Hacıbəyli məqalədə daha sonra ana dili ilə bağlı daha bir incə məqama toxunaraq yazır: "İrəvan hadisatı xüsusində hökumətə "zapros" verildi (mən də rusca danışmağa başladım,

lakin qərəzsiz degildir: bu "zapros" sözi parlamanımızda ümumiyyət etibarilə "istizah" (izahat – **M.N.**) və "izahat" kimi başqa mənaları ifadə edən ərəbcə kəlmələrlə tərcümə edilir". Göründüyü kimi, müəllif burada əsl dilçi mütəxəssis olaraq həm rus mənşəli "zapros" sözünə, həm də onun ərəbcə qarşılığına – o vaxtlar işlənən yuxarıdakı ərəb kəlmələrinə qarşı çıxır. Müəllifin əsl məqsədi bir qədər sonra anlaşılır. Məlum olur ki, parlaman üzvü və poçta-teleqraf naziri Aslan bəy Səfikürdski cənabları bu "zapros" sözü əvəzinə "sorğu" ifadəsini işlədirmiş. Müəllif sorğu sözünü çox bəyəndiyini və onun parlamanda da qəbul edilməsi arzusunda olduğunu bildirərək fikrini belə əsaslandırır ki, dilimizin mənbə sərvəti olan və rus dilinin qələbəsindən (təsirindən – **M.N.**) bir dərəcəyə qədər kənarda qalan kəndlərimizdə, yazıçılarımızdan bir çoxunun, zənn edirəm, səhv və xəta olaraq "soq-sual" surətində yazdığı "sorğu-sual" sözü vardır. Bu söz kəndlilərimiz ağzında çoq işlənir: "Məhəmməd Həsəni tutub sorğu-sualsız dama saldılar".

Beləliklə, aydın olur ki, Ü.Hacıbəyli bir mütəxəssis kimi zəngin mənbə saydığı canlı xalq dilindən istifadə yolu ilə dilimizin zənginləşdirilməsi tərəfdarıdır.

Üzeyir Hacıbəyli adıçəkilən "Təəssürat" başlıqlı məqaləsində daha sonra İrəvanda müsəlmanlara qarşı törədilən qırğınlardan söz açır və burada da olduqca vacib və mühüm məsələyə öz münasibətini bildirərək haqlı olaraq məclis üzvlərini mövqesizlikdə, qeyri-fəallıqda və məsələ ilə bağlı təcili tədbirlər görməməkdə günahlandırır. Çünki onlar bu məsələ haqqında heç bir qərar qəbul etmir və yalnız ondan təəssüfləndiklərini bildirirlər.

Üzeyir Hacıbəyli həcmcə böyük olan və yazı-reportaj səciyyəli bu "Təəssürat"ının daha bir yerində dil məsələsinə toxunur. Məqalədən aydın olur ki, parlamentin gündəliyindəki məsələlərdən biri də Lənkəranda rus demokratlarının müsəlmanlara qarşı törətdikləri zülm və qırğınlar haqqındadır. Müəllif bu barədə Lənkəran məbusu Hacı Mirzə Səlim Axundzadə cənablarının çıxış etdiyini diqqətə çatdıraraq yazır ki, adıçəkilən şəxs "Lənkəran müsəlmanlarının biganələr əlindən çəkdikləri zülm və sitəmi parlaman əzalarının (üzvlərinin – **M.N.**) hüzurunda açıb deməyə, axır ki, fürsət tapdı". Müəllif buradaca xüsusi olaraq vurğulayır ki, Lənkəran məbusu nitqinin "müqəddiməsinin müqəddiməsini" əvvəlcə farsca bir beytlə başladı, sonra isə ərəbcə iki beytlə tamamladı (nümunələr qəzetdə həmin dillərdə də verilir). Ü.Hacıbəyli bununla ölkəsində hələ də fars və ərəb dillərində danışmağa meyilli olan şəxslərin, xüsusilə də ruhani təbəqəsinin nümayəndələrinin olduğunu diqqətə çatdırmaq istəyir. Müəllif Lənkərandan olan natiqin öz bölgəsində baş verən faciəyə hər kəsi, o cümlədən qəzetləri köməyə çağırdığını və qəzetə yalnız bir firqənin naşiri olmayub da bitərəfanə surətdə hər kəsə danışmaq imkanı verməlidir" dediyini də diqqətə çatdırır. Ü.Hacıbəyli burada da bu sözün onların qəzetinə, yəni "Azərbaycan"a heç bir aidiyyəti olmadığını xüsusi olaraq vurğulayır.

"Azərbaycan" qəzetində digər müəlliflərin də ana dili ilə bağlı yazıları dərc olunmuşdur. Onlardan biri Taşkəndli Xalid Səid imzası ilə nəşr olunmuş "Dilimizə hörmət edilsin" adlı məqalədir *(30.01.1919, №101, səh. 3)*. Qeyd edək ki, Xalid Səid Xocayev özbəkdir və əslən Daşkənddəndir. Bu həmin X.S.Xocayevdir ki, 1926-cı ildə keçirilən I Bakı Türkoloji Qurultayının əsas iştirakçılarından biri olmuş, məhz buna görə də 1937-ci ildə repressiyaya məruz qalaraq güllələnmişdir. Məşhur türkoloq alim X.S.Xocayevin ən böyük xidmətlərindən biri Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" əsərini ərəbcədən dilimizə tərcümə etməsidir. Mütərcim 1937-ci ildə güllələndiyi üçün bu tərcümə itib-batmış və nəşr olunmamışdır.

Xalid Səid yuxarıdakı yazısında qeyd edir ki, bəzi Avropa alimləri haqsız olaraq türk millətini qabiliyyətsiz və istedadsız adlandırırlar. Bu fikrin böhtan və iftira olduğunu vurğulayan müəllif yazır ki, möhtəşəm islam mədəniyyətini yaradanlar sırasında türklər də olub. Ərəb və fars dil-

lərində yazılan bir sıra məşhur əsərlərin müəllifləri də türklərdir. Avropa alimlərinin yuxarıdakı fikrinə kəskin etirazını bildirən müəllif yazır ki, bununla belə, türklər tarix boyu "kəndi millətinə biganə" olmuş və başqaları üçün çalışmışlar. İslamın ilk dövründə onlar müəyyən dərəcədə "ərəbləşmiş" və milli kimliklərini unutmuşlar. Xalid Səid buna sübut olaraq türklərin özləri üçün ərəb adlarını qəbul etmələrini (Abdullah, Əbdürrəhman və s.), ərəb libasları geymələrini və ana dilini unudaraq ərəbcə yazmalarını nümunə kimi göstərir. Müəllifin fikrincə, türklər bir müddətdən sonra, xüsusilə Səlcuqilər dövründən başlayaraq farslaşdılar, özlərinə fars adları qoydular (Cəmşid, Keykavus və s.). XIX əsrdən isə türklərdə ruslaşma prosesi getməyə başladı, milli təlim-tərbiyə, milli mədəniyyət unuduldu.

Xalid Səid məqaləsinin sonunda yazır ki, indi çar Nikolay yıxılmışdır, millətlər müstəqil olub, özlərinə sahib çıxıblar. Başqa millətlər rəsmi sənədlərini milli dillərində yazırlar. "Bizim rəsmi dairələrdə isə sənədlər hala (hələ də – **M.N.**) rus dililə göriliyor. Əcəba nədən?"

Müəllif ürək yanğısı ilə qeyd edir ki, bu zərərli ənənənin 2 əsas səbəbi var:

1. Bizdə hələ də rus təsiri güclüdür, içimizdə ruslara meyilli insanlar vardır.
2. Bir qrup ziyalı yanlış olaraq elə düşünür ki, guya türk dili rəsmi işlərə yaramır.

Xalid Səid məqaləsini belə bir nikbin sonluqla bitirir: "Əgər biz özümüzü müstəqil sayırıqsa, milli varlığımız olan dilimizə sahib çıxmalıyıq".

"Azərbaycan" qəzetinin 18 nisan (aprel) 1919-cu il tarixli nömrəsində (№156) dərc olunmuş "Milli dilimiz" adlı məqalədə də eyni fikir vurğulanır. "Müəllim Davud" (Davud Ağamirzəyev) imzası ilə dərc olunmuş bu məqalədə müəllif qeyd edir ki, hər millətin milli dili var və millətlər bir-birlərindən dilləri ilə seçilirlər. Hər millət öz dilinə sahib çıxır və dili ilə qürur duyur. Buna nümunə olaraq müəllif yazır ki, iki alman görüşdükdə əsla başqa dildə danışmaz. Bizdə isə, təəssüf ki, bunun əksinə rast gəlirik. Belə ki, bizdə ana dilinə xor baxan, başqa dildə danışmağa üstünlük verən ziyalılar vardır. Yazıda göstərilir ki, Azərbaycanda əvvəllər rusca danışmaq məcburi idi. İndi isə inqilab olmuşdur. "Azərbaycan müstəqilliyinə qovuşdu və üçrəngli sancağını (bayrağını – **M.N.**) yüksəltdi". Müəllif daha sonra əlavə edir ki, indi Azərbaycanda məktəblər milliləşmişdir. Milli dövlət dilimiz var. Buna baxmayaraq, hökumət dairələrində rus dilində danışmaq adəti hələ də davam edir. Buna etiraz edən müəllim Davud yazır ki, axı bizim rəsmi dilimiz türkcədir. Müəllif sonda üzünü həmvətənlərinə tutaraq yazır ki, türkcə başqa dillərdən geri qalmır. Ona görə də xalq öz dilində danışmalıdır.

"Azərbaycan" qəzetinin tanınmış müəlliflərindən biri də görkəmli dilçi alim Fərhad Ağazadə olmuşdur. Qeyd edək ki, F.Ağazadə həm də Azərbaycanda yeni əlifba uğrunda mübarizənin qızğın tərəfdarlarından və öncüllərindən biri kimi tanınır. Onun bu mövzuda yazdığı "Ərəb hərfləri nə üçün türk dilinə yaramır?" adlı kitabı keçən əsrin 20-ci illərində Kazanda rus dilində nəşr olunmuşdur. "Azərbaycan" qəzetinin 13, 15 və 17 oktyabr 1919-cu il tarixli nömrələrində Fərhad Ağazadənin "Dilimizin türkləşməsinə çarələr" adlı sanballı və dəyərli bir məqaləsi dərc olunmuşdur. Qəzetin bu nömrələrinin hər birinin iki səhifəsində dərc olunmuş bu məqalədə müəllif əvvəlcə türk dilinin tarixindən söz açır və onun qədim dövründə işlənmiş bir sıra türk sözlərinin əvəzində hazırda ərəbcə kəlmələrin yer almasını qeyd edir. Həmin sözlər sırasında aşağıdakılar xüsusilə diqqəti cəlb edir: Çələb – Allah, yalavac – peyğəmbər, uçmaq – cənnət, tamu – cəhənnəm, soraq – xəbər, soruq – sual, tanıq – şahid, abaqa – əmü, talğıç – qəvvas və s. Maraqlıdır ki, müəllif Allah kəlməsinin türkcədə Çələb sözündən başqa daha iki qarşılığını təqdim edir: Uğan–Tanrı. Müəllif hətta "La ilahə illəllah" formulunun türkcədə bu şəkildə işlənildiyini də göstərir: "Yoxdur Tapacaq, Çələbdir ancaq". F.Ağazadə arxaik səciyyə daşıyan bir sıra

qədim türk sözlərindən bəhs etdikdən sonra dolayısı ilə dilimizin türkləşməsi üçün onlardan bəzilərinin dilə qayıtmasının zəruriliyinə işarə edir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqillik qazandıqdan sonra da dilimizdə qismən də olsa belə bir türkləşmə prosesi getmişdir. Buna sübut olaraq *suç (günah), altun, çavuş, taqım, gizir, tabor* kimi unudulmuş türk mənşəli qədim sözlərin artıq dilimizdə vətəndaşlıq hüququ qazandığını qeyd etmək olar. F.Ağazadə türkcəyə ərəb və fars dilindən gələn alınmaların daxil olmasından da söz açır və bu məsələdə Səlcuq hökmdarlarını günahlandırır. Məlum olduğu kimi, Səlcuqlar dövründə rəsmi saray dili farsca olmuş və saray şairləri əsərlərini, əsasən, farsca qələmə almışlar. Səlcuq hökmdarlarının özlərinin də farsca şeir yazmaları məlumdur. Bu ənənənin Türkiyədə Osmanlılar dönəmində də davam etməsi məlumdur. Məşhur Osmanlı sultanlarından Səlim Yavuz və Süleyman Qanuni buna nümunə ola bilər. Hər iki hökmdarın farsca divanları vardır.

Fərhad Ağazadə bütün dünya dillərində alınmaların olduğunu göstərərək bu məsələdə türklərin ifrata yol verdiyini qeyd edir. Türk dilindəki ərəb və farscadan alınmalar üzərində dayanan müəllif onların türkləşməsinin, yəni türkcəyə uyğunlaşmasının zəruriliyini də qeyd edir. Müəllif buradaca ərəblərdə də tarixən belə bir prosesin baş verdiyini diqqətə çatdırır. Buna nümunə olaraq o, ərəblərin türkcə *qadın* kəlməsini *xatun, Azərbayqan* sözünü *Adərbaycan* şəklinə salmasını qeyd edir. F.Ağazadə bu dəyərli məqaləsinin sonunda dilimizin türkləşməsinin çarəsini xalq dilinə üz tutmaqda görür. Məlum olduğu kimi, bu mühüm məsələ hazırda da gündəmdədir və ədəbi dilimizin zənginləşməsi yollarından biri canlı xalq dilindən və dialektlərdən söz alınmasıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetindəki ana dili ilə bağlı məqalələr üzərindəki müşahidələr göstərir ki, yazı müəllifləri əsasən iki məsələ ətrafında düşüncə və narahatlıqlarını ifadə etmişlər:

1. İki azərbaycanlı vəzifəli şəxsin öz aralarında rus dilində danışması. Müəlliflər bu məsələyə mənfi münasibət bildirmiş, dövlət dili haqqında qanunun pozulmasına görə narahatlıqlarını ifadə etmişlər. Təəssüf ki, bu ağrılı məsələyə indi də təsadüf edilir. Azərbaycan dilinin zənginliyini və gözəlliyini duymayan bəzi azərbaycanlılar hələ də müstəqillik dövründə öz aralarında rusca danışır və bunu özlərinə fəxr sayırlar.

2. Ana dilinin saflığı, ədəbi dilin zənginləşməsi məsələsi. Maraqlıdır ki, bu məsələ də hazırda öz aktuallığını qoruyub saxlayır. Belə ki, ədəbi dil normalarının pozulması hallarına hələ də rast gəlirik. Bundan əlavə, ədəbi dilin öz imkanları hesabına zənginləşməsi məsələsi indi də geniş müzakirə mövzusudur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının bir çoxu ölkənin milli düşüncəli, vətənpərvər ziyalıları, ədəbiyyat və mədəniyyət xadimləri idi. Məhz buna görə də onlar milli dövlət quruculuğu siyasətində ana dilinə də böyük əhəmiyyət verirdilər. Cümhuriyyət hökumətinin ilk qərarlarından birinin, daha doğrusu, ikincisinin dil haqqında olması bunu əyani şəkildə sübut edir. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 27 iyun 1918-ci il tarixli qərarı ilə türk (Azərbaycan) dilini dövlət dili elan etdi. Qeyd edək ki, bu qərar Azərbaycan tarixində dilimizə rəsmi dövlət dili statusu verilməsi haqqında ilk sərəncam idi. Hökumətin 28 avqust 1918-ci il tarixli qərarı da birbaşa ana dili ilə bağlı idi. Belə ki, birinci və ikinci dərəcəli ibtidai məktəblərin, həmçinin orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında olan bu qərara əsasən, adıçəkilən tədris müəssisələrində təhsilin ana dilində aparılması göstərilirdi. Bundan əlavə, ölkə parlamentinin iclaslarında Məhəmməd Əmin Rəsulzadə dövlət dilinə əməl edilməsi haqqında dəfələrlə çıxış etmiş və öz istəyinə nail olmuşdu. Bununla belə, onu da qeyd etmək lazımdır ki, cümhuriyyət hökumətinin 27 iyun 1918-ci il tarixində vəzifəli

şəxslərin bir müddət rus dilindən istifadə etmələrinə də icazə verilirdi. Buna nümunə olaraq ölkə parlamentinin iclaslarında digər millətlərdən olan nümayəndələr, eləcə də ana dilini yaxşı bilməyən Azərbaycan türklərinin rus dilində çıxış etmələrini göstərmək olar. Məsələn, həmin dövrdə hərbi işlər üzrə nazir olmuş Səmədağa Mehmandarov parlamentdə rus dilində çıxış üçün icazə istəmiş və onun bu xahişinə əməl edilmişdi...

Məlum olduğu kimi, ulu öndər Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Respublikası müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir. Məhz buna görə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu sahəsində aparılan məqsədyönlü siyasət günümüzdə də müasir dövrün tələblərinə uyğun şəkildə həyata keçirilir. Belə ki, cümhuriyyət dövründə olduğu kimi, Azərbaycan Respublikasında da dövlət quruculuğu siyasətinin aparıcı sahələrindən birini ana dili məsələsi təşkil edir. Bu məsələdə ana dilinin böyük hamisi və qayğıkeşi, yorulmaz təbliğatçısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri vardır. Ulu öndərin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Heydər Əliyevin böyük önəm verdiyi dil siyasətini uğurla davam etdirir.

Müstəqillik illərində ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü və gələcəyə yönələn dövlət quruculuğu siyasətində ana dili məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Ulu öndərin ana dilimizlə bağlı 18 iyun 2001-ci il tarixli və 30 sentyabr 2002-ci il tarixli fərmanları bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Birinci fərman "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"dır. Heydər Əliyevin əsəri olan bu tarixi fərmanda müstəqil Azərbaycan dövlətinin dil siyasətinin mərkəzində iki başlıca ideya və məqsəd, məram dayanırdı. Birincisi, Azərbaycan dilinin dövlət dili kimi qorunması, ikincisi isə bu dilin dövlət dili səviyyəsində inkişafı üçün imkan və şəraitin yaradılması. 30 sentyabr 2002-ci il tarixli fərman isə "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" adlanır. Bu qanunla ilk növbədə, ölkə Konstitusiyasına uyğun olaraq, dilimizin dövlət dili kimi hüquqi statusunu nizamlamaq məqsədilə onun işlənməsi, qorunması və inkişafı istiqamətləri müəyyənləşdirildi. Ümumiyyətlə, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması ulu öndərin adı ilə bağlıdır. Müstəqillik dövründə Heydər Əliyevin məqsədyönlü dil siyasəti "Azərbaycan" qəzetinin səhifələrində geniş və ətraflı şəkildə işıqlandırılmış və məsələ ilə bağlı istər ictimaiyyətin nümayəndələrinin, istərsə də mütəxəssislərin fikirlərinə müəyyən yer verilmişdir. "Azərbaycan" qəzeti rəsmi dövlət orqanı olaraq dil siyasətinin həyata keçirilməsi istiqamətində səmərəli fəaliyyət göstərmiş və dövlət əhəmiyyətli bu məsələnin reallaşdırılmasına öz töhfələrini vermişdir. Qəzetdə bu mövzuda dəfələrlə yazılar getmiş, "dəyirmi masa"lar keçirilmiş, geniş fikir mübadiləsi aparılmışdır.

Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən və dövrün tələbinə görə onu yeni çalarlarla daha da zənginləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Azərbaycan dilinə böyük əhəmiyyət verərək demişdir: "Ana dilimiz öz imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik quruluşunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir".

Ölkə Prezidenti məhz bu amili nəzərə alaraq Azərbaycan dilinin geniş miqyasda tətbiqi və inkişafı ilə bağlı bir sıra sərəncamlar imzalamışdır. Onların sırasında cənab İlham Əliyevin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində

zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" xüsusi yer tutur. Adından göründüyü kimi, bu mühüm dövlət sənədi Azərbaycan dilinin hərtərəfli inkişafı və tətbiqi dairəsinin genişlənməsi üçün böyük imkanlar yaradır. Lap bu yaxınlarda 17 iyul 2018-ci ildə isə cənab İlham Əliyev dilimizlə bağlı daha bir mühüm dövlət sənədinə imza atmışdır. Bu, "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamdır. Sərəncamın müddəalarına uyğun olaraq yaxın gələcəkdə əcnəbilər üçün Azərbaycan dilinin elektron platforma layihəsi tətbiq olunacaq ki, bu da dövlət dilimizin elektron məkanda yayılması və daha geniş istifadəsi üçün əlverişli şərait yaradacaqdır.

Xalqımızın milli-mənəvi sərvəti və dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biri olan Azərbaycan dili ilə bağlı bütün dövlət sənədlərinə rəsmi dövlət qəzetimiz olan "Azərbaycan" qəzetində həmişə geniş yer verilmiş və onların təbliği və həyata keçirilməsi ilə bağlı mütəmadi silsilə yazılar dərc olunmuşdur. Həmin yazılar sırasında ölkəmizin tanınmış dilçi mütəxəssisləri, ictimaiyyət nümayəndələri ilə yanaşı, "Azərbaycan" qəzetinin əməkdaşlarının, xüsusilə onun baş redaktoru, əməkdar jurnalist, Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun məqalələri öz sanballılığı və peşəkarlığı ilə seçilir və oxucular tərəfindən rəğbətlə qarşılanır. Qeyd edim ki, müasir "Azərbaycan" qəzetində dil haqqındakı yazılar ana dilimizin təbliği, xüsusilə də onun saflığının qorunması işinə, bütövlükdə azərbaycançılıq məfkurəsinə xidmət edir və öz müsbət nəticələrini verir.

Məqalənin əvvəlində qeyd etdiyim kimi, bu yaxınlarda milli publisistikamızın öndəri, qaymağı olan "Azərbaycan" qəzetinin 100 yaşı tamam olur. Bu münasibətlə "Azərbaycan" qəzetinin bütün əməkdaşlarını təbrik edir, onlara yeni yaradıcılıq uğurları diləyirəm.

Qələminiz iti və kəsərli olsun, əziz jurnalistlər!

Milli publisistikamızın fəxri və iftixarı, qürur mənbəyi olan "Azərbaycan" qəzetində ana dili məsələsinin işıqlandırılmasına həsr etdiyim bu məqaləni dilimizin böyük qayğıkeşi və təəssübkeşi ulu öndərin 100 illik yubileyini qeyd etməyə hazırlaşan rəsmi dövlət qəzetimiz haqqındakı sözləri ilə bitirmək istəyirəm: "Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam ənənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır".



**Nurlana ƏLİYEVA,**
*YAP Qadınlar Şurasının sədri,*
*Bakı Slavyan Universitetinin rektoru, professor*

# Zərif güclülərin tribunası

***"Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun". Mətbuatın üzərinə düşən əsas vəzifəni 143 il əvvəl "Əkinçi" qəzeti ilə milli mətbuatımızın təməlini qoymuş böyük mütəfəkkir Həsən bəy Zərdabi belə müəyyənləşdirirdi.***

***Həqiqətən, mətbuat cəmiyyətin güzgüsüdür. O, cəmiyyətdə baş verənlərə işıq salır. Yeniliklərə, inkişaf meyillərinə, mövcud problemlərə diqqət yönəldir. İnsanları maarifləndirir, müxtəlif mütərəqqi ideyaları, problemlərin həlli yollarını aktuallaşdırır.***

Söz yox, belə bir fikir də var ki, mətbuatı cəmiyyətdən üstün və daha ağıllı qüvvə kimi qəbul edərək bir çox ictimai problemlərin həllini yalnız ondan gözləmək doğru olmaz. Onun missiyası cəmiyyətdə baş verənləri işıqlandırmaqdır. İnsanların xüsusi maraq göstərdiyi məsələləri təqdim etməkdir. Bu mənada hər bir mətbuat aid olduğu cəmiyyətə bənzəyir.

Amma bu fikirlə polemika aparmaq da mümkündür. Mətbuat cəmiyyətdən üstün və daha ağıllı bir qüvvə olmasa da, digər institutlarla müqayisə edilməyəcək qədər güclü imkanlara malikdir. Mətbuat həm də cəmiyyətin önündə gedən, insanlara deməyə sözü olan ziyalılar, düşüncə adamları üçün bir tribunadır. Geniş xalq kütlələrinə nəyin doğru, nəyin yanlış olduğunu göstərən, örnəklər təqdim edən bələdçidir. Müxtəlif məsələlər barədə ictimai rəy formalaşdıran vasitədir. Cəmiyyətdə ayrı-ayrı ideyaların populyarlaşması, hansı düşüncələrin rəğbət, hansılarının etirazla qarşılanması medianın o ideyalara münasibətindən çox asılıdır. Ona görə də cəmiyyətin inkişafında mətbuatın üzərinə çox böyük vəzifə düşür.

## Gələcəyə soraq

Bu gün Azərbaycanda söz və mətbuat azadlığı tam təmin olunub. Ölkəmizdə senzura 1998-ci ildən bəri aradan qaldırılıb. Hər bir vətəndaş media orqanı yaradaraq kütləvi informasiya vasitələrinə dair qanunvericiliyin tələblərini pozmadan orada istədiyini tirajlamaq imkanına malikdir. Bunun müsbət cəhətləri, cəmiyyətin demokratik inkişafında, vətəndaşların ifadə azadlığının təmin olunmasında, rəy müxtəlifliyinin formalaşmasında oynadığı rol bəllidir. Amma yaradılmış imkanlar müsbət cəhətlər qədər müəyyən nöqsanlı hallara da yol açır. Bə-

zən qələm onun müqəddəsliyinin fərqində olmayan, mətbuatın, jurnalistikanın mahiyyətindən xəbərsiz, məsuliyyətsiz adamların əlinə keçir. Qələmi öz cılız maraqlarının təmin olunmasından ötrü alətə çevirən beləlıəri azad sözü də, jurnalistikanı da urvatdan salır, insanlarda mətbu sözə inamsızlıq formalaşdırırlar. Yaxud auditoriyanın diqqətini cəlb etməkdən ötrü media heç bir ictimai əhəmiyyəti olmayan ucuz sensasiyalar ardınca qaçır. Hətta kütləvi informasiya vasitələri haqqında qanunvericiliyin tələbləri belə pozulur. Cəmiyyətdə ziyanlı meyillərin, kriminal ünsürlərin, pis vərdişlərin populyarlaşmasına rəvac verilir. Bir çox əhəmiyyətli mövzular isə yalnız məhdud sayda ciddi, hazırlıqlı auditoriyanı maraqlandırdığından diqqətdən kənarda qalır. Toxunulan mövzular da əksər hallarda peşəkarlıqla işlənmir. Diqqətə çatdırılan problemlərin həlli yolları o sahənin söz demək haqqına sahib mütəxəssislərinin iştirakı ilə araşdırılmır.

Nə qədər acı olsa da, bütün bunlar müasir mediamızda geniş yayılan hallardır. Belə vəziyyətin aradan qaldırılmasından ötrü, görünür, hələ cəmiyyətimizdə maarifləndirmə işi çox getməlidir. Ona görə də hələlik ölkəmizdəki bir sıra media orqanlarından öz fəaliyyətini sırf peşəkarlıq prinsipləri əsasında qurmasını, üzərinə düşən missiyanı məsuliyyətlə yerinə yetirməsini gözləmək olmur.

Amma XXI əsr milli mətbuat tariximiz öz şərəfli missiyasını nə qədər çətin də olsa, illərdir vicdanla, məsuliyyətlə, ən əsası isə peşəkarlıqla yerinə yetirən parlaq nümunələrdən də xali deyil. Və çox sevindirici haldır ki, yüzillər sonra bugünümüzün tarixi hər hansı təsadüflərə istinadən deyil, məhz həmin nümunələr əsasında öyrəniləcək. Çünki cəmiyyət maarifləndikcə, pisi yaxşıdan ayırdıqca, ucuz sensasiyalara deyil, sanballı, keyfiyyətli, fikir yükünə malik faydalı kontentlərə meyil etdikcə təsadüflər yavaş-yavaş sıradan çıxacaq. Onlardan əsər-əlamət belə qalmayacaq. Bu xalqa, bu tarixə qalan haqqında söz açdığım parlaq nümunələr olacaq. Gələcəyə sorağı ən etibarlı mənbə kimi məhz onlar aparacaqlar.

## Bir əsrə dəyər

İstisnasız şəkildə bunlardan biri də Azərbaycan Xalq Cümhuriyyətinin dəyərli yadigarlarından olan, bu ilin 15 sentyabrında fəaliyyətə başlamasının 100-cü ilini qeyd edən "Azərbaycan" qəzetidir.

Qəzetin keçmişi, bugünkü fəaliyyəti, müəllifləri, toxunduğu mövzular, təlqin etdiyi dəyərlər, qoruyub saxladığı peşəkar jurnalistika ənənələri, rəsmi dövlət qəzeti kimi milli dövlətçilik tariximizdə oynadığı rol və s. barədə çox məsələlərdən yazmaq olar. Bunların hərəsi bir məqalənin, geniş elmi-tədqiqat əsərlərinin mövzusudur. Və zaman keçdikcə, yəqin ki, milli elmimiz də "Azərbaycan" qəzetinin fəaliyyətinin ayrı-ayrı məqamları barədə öz sözünü sanballı elmi əsərlərlə deyəcək. Onun milli mətbuat tariximizdəki yeri və roluna layiqli elmi qiymət veriləcək.

Bu yazını isə ilk baxışda bəlkə o qədər də diqqəti çəkməyən, amma mahiyyətinə varınca nə qədər böyük ictimai əhəmiyyət kəsb etdiyi aydın görünən bir mövzuya – "Azərbaycan" qəzetində gender məsələlərinə həsr etmişik. Qəzetin fəaliyyətinin 100-cü ildönümünə həsr edilmiş yazı üçün bu mövzunu seçməyimiz heç də təsadüfi deyildir. "Azərbaycan" qəzeti cəmiyyətimizi bu mövzuda ən çox və düzgün istiqamətdə maarifləndirən, öz materialları ilə örnək yaradan mətbuat orqanlarındandır. Və bu da Azərbaycan Xalq Cümhuriyyətinin formalaşdırdığı tarixi dəyərin davamıdır. Bu dəyərə sadiqlikdir.

## Qadın haqqı

Məlum olduğu kimi, hər bir dövlətin siqləti həm də qadına göstərdiyi diqqətlə ölçülür. Biz öz ölkəmizdə bu meyarı daim hiss edirik. Cümhuriyyət qurucuları Azərbaycanın İstiqlal Bəyannaməsinə kişi və qadınlara bərabər hüquqlar verən müddəa daxil etmiş, bununla tarixdə yeni bir səhifə açmışdılar. Daha sonra isə cümhuriyyət parlamenti Şərqdə ilk dəfə qadınların səsvermə hüququnu tanıdı və Azərbaycanın adı qadına səsvermə hüququ verən ilk ölkə kimi tarixə yazıldı.

Qadın problemi cümhuriyyət parlamentinin, ayrı-ayrı dövlət strukturlarının diqqətdə saxladığı aktual məsələlərdən idi. Demokratik müzakirələr və məqsədyönlü siyasət nəticəsində qadınların məşğulluq imkanlarının artması, sahibkarlıq fəaliyyətinə qoşulması üçün cümhuriyyət parlamentində qanun qəbul edilmişdi. Qadınların daha çox məşğul olduqları kustar sənayeni inkişaf etdirmək və genişləndirmək məqsədilə yerli sahələrə kömək göstərən kustar sənaye kursları təşkil edilir, buna vəsait ayrılırdı. İşsizliyin aradan qaldırılması və iqtisadiyyatın gücləndirilməsi məqsədilə bir sıra bölgələrdə toxuculuq və tikiş emalatxanalarının açılması barədə müxtəlif layihələr müzakirəyə çıxarılmışdı. Səhiyyə sahəsində də xidmətin keyfiyyətinin yüksəldilməsində qadınların maraqları dövlət tərəfindən müdafiə olunurdu.

Həmin dövrün mətbuat səhifələrində vaxtaşırı olaraq ailə və qadın probleminə dair maraqlı yazılar dərc edilirdi. Məsələn, Səlim Səri imzalı bir müəllif "Azərbaycan" qəzetinin dekabr, 1918-ci il tarixli 62-ci nömrəsində işıq üzü görmüş "Qadınlıq haqqı" adlı məqaləsində yazırdı ki, qadınların haqqı bəhs mövzusu olduğu zaman, etiraf edək ki, biz erkəklər bu məsələdə tamamilə bitərəf olmuruq. O, Platona istinadən bildirirdi ki, "Əflatuna görə, ərlə arvad sağ və sol əl kimidir. Əllərimiz eyni işi görməklə mükəlləfdir. Yalnız birini artıq işlətmək vərdişi onu digərindən bacarıqlı etmişdir" dediyi halda, bu gün ibadət əsnasında "Ya Rəbb, məni hürr yaratdığına və qadın olaraq dünyaya gətirmədiyinə həmd və şəfa edirəm" deyirik.

Səlim Sərinin fikrincə, aradan bunca əsrlər keçdi və mədəniyyət bugünkü yüksək dərəcəsinə çatdı, amma qadın mövzusunda düşüncələrimiz az dəyişdi. Halbuki qadın hər şeydən əvvəl anadır, tərbiyəçidir, müəllimdir. Qadın dilindən çıxan hər kəlmə ana şəfqəti şəkli alır. Buna görə də qadına veriləcək ilk haqq, ilk imtiyaz izdivacda və ailədə olmalıdır. Fəqət qəribədir ki, feminizm bu gün izdivaca qarşı, adətən, bir düşmən vəziyyətindədir. Bunu idarə edən mütəfəkkir qadınlar istəyirlər ki, qadının şəxsiyyəti olsun, iradəsinə sahib, istiqlaliyyətinə hakim olsun, qadın erkəyin icazəsində olan vəziyyətindən qurtulsun. İfrat bəzək, artıq tualet yapmasın. Xəfif xarakterlik, işvəbazlıq, şuxluq, erkəklərə xoş görünmək kimi əsrlərdən bəri kök salmış vərdişləri söküb atsın. Ciddi və məhsuldar cəhdlər göstərsin. Lazım gələndə erkəklərə möhtac olmadan keçinə biləcək bir sənət əldə etsin. Təsadüfi bir izdivaca həmən nail olmasın. Şəxsiyyətlərini belə tərbiyə edən qadınların mükəmməl zövcə və misilsiz ana ola bilmələri xatirə gələrkən bu qədər uzaqgörən və tədbirli olmaları izdivac sahəsini daraldır..."

Cümhuriyyət parlamentinin yeganə qadın əməkdaşı, islam dünyasının ilk jurnalist ziyalılarından olan Şəfiqə xanım Əfəndizadə də "Azərbaycan" qəzetinin, həmçinin dövrün digər mətbu orqanlarının səhifələrində çıxışlar edir, məqalələrində, hekayə və bədii yazılarında tərbiyəvi mövzuları, qadın azadlığı problemlərini, vətənpərvərlik məsələlərini gündəmə gətirirdi.

## Ulu öndərin dövlətçilik irsində gender bərabərliyi

1911-ci il yanvarın 22-də müsəlman Şərqində "İşıq" adlı ilk qadın qəzetinin qısamüddətli (2 il) fəaliyyətindən sonra yaradılan qadın mətbuat orqanlarının nəşr dövrü də məhz cümhuriyyət

dönəminə təsadüf edir. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qadın hərəkatının geniş vüsətini nəzərə alaraq, bu hərəkatı istiqamətləndirmək niyyətilə müxtəlif qəzetlərdə qadınlar üçün ayrı-ayrı səhifələr, sonradan "Zəhmətkeş qadınların yolu" və "Qafqaziya zəhmətkeş qadınların yolu" adlı qəzetlər nəşr etdirdi.

Cümhuriyyətin gender siyasətinə dəyərli töhfələr verən "Azərbaycan" qəzeti 100 il əvvəl olduğu kimi, bu gün də öz fəaliyyətində qadınların ictimai fəallığının təşviqinə böyük önəm verir. Ölkəmizdə yeganə rəsmi dövlət qəzeti olan bu mətbuat orqanı ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf kursunun ən mühüm istiqamətlərindən biri kimi dövlətimizin həyata keçirdiyi gender siyasətinin mahiyyətini, məqsədlərini geniş xalq kütlələrinə izah edir. Heydər Əliyev irsinin öyrənilməsinə həsr olunmuş ayrı-ayrı məqalələrdə, mütəxəssis rəylərində, elmi-kütləvi mahiyyət daşıyan materiallarda bu mövzuya geniş yer ayırır.

Məlum olduğu kimi, ümummilli lider qadınlarla bağlı siyasətin gücləndirilməsini dövlətin əsas vəzifələrindən sayırdı. O, 1969-cu ildə – respublikamıza ilk dəfə rəhbər təyin olunanda qadın problemləri, qadınların inkişafı, onların irəli çəkilməsi haqqında dünya miqyasında söhbət gedirdi. Elə həmin dövrdə Heydər Əliyev qadınlara diqqət və qayğı göstərərək onları bilik və bacarıqlarına, istedad və intellektinə görə irəli çəkməyə, yüksək vəzifələrə təyin etməyə başlamışdı. O dövrdə bir çox rayonlara rəhbərlik qadınlara tapşırılmışdı. Nazir və nazir müavinləri arasında neçə-neçə qadın var idi. Respublikamızın tarixində ilk dəfə olaraq bir neçə ali məktəbə qadın rektorlar təyin edilmişdi.

Ulu öndər hələ o dövrdə öz işində, ictimai fəaliyyətində fərqlənən qadınlara fəxri adların verilməsinə, qadınların mükafatlandırılmasına, orden-medallarla təltif olunmasına səylərini əsirgəmirdi. Həmin illərdə neçə-neçə qadın "Sosialist Əməyi Qəhrəmanı", "Qəhrəman ana" fəxri adları almışdı. Bütün bunlar ölkə başçısının xalqa göstərdiyi sonsuz diqqət və qayğının nəticəsi idi.

"Azərbaycan" qəzeti bu kimi faktlara diqqət yönəltməklə ölkəmizdə həyata keçirilən gender siyasətinin tarixi mahiyyətini əks etdirir. Bu siyasətin hələ Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründən başlandığını, sistemli xarakter daşıdığını göstərir və bu yanaşmanın müsbət nəticələrini diqqətə çatdırır.

## Məqsədinə çatan siyasət

Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə ölkəmizdə qadın problemlərinə daha böyük diqqət yetirilməyə başlandı. Onların hüquq bərabərliyi, cəmiyyətdəki aparıcı rolu 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızda öz əksini tapdı. Həmin il Azərbaycan "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi" Konvensiyasına qoşuldu. Bu gün dünyada inkişaf etmiş elə dövlətlər var ki, onlar hələ də bu konvensiyaya qoşulmayıb. Çünki onlar həmin sənədə qoşulmağa hazır olmadıqlarını özləri etiraf edirlər. Konvensiyaya qoşulmaq elə də asan iş deyil. Bundan ötrü respublikada əlverişli şərait olmalıdır. Müəyyən vəzifələr yerinə yetirilməlidir. Dövlətimizin keçid dövrünü yaşamasına, ölkəmizdə müharibə getməsinə, torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olmasına, bir milyondan artıq qaçqın və məcburi köçkünün sosial-mənəvi problemlərinə baxmayaraq, bizim bu konvensiyaya qoşulmağımız məhz Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində mümkün oldu.

Qadınların problemlərinin dövlət səviyyəsində həlli məqsədilə xüsusi fərmanla 1998-ci il yanvarın 14-də Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitə yarananndan sonra Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı tərtib

edildi. Milli Fəaliyyət Planı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2000-ci il martın 6-da təsdiq edildi. Sənədin əsas müddəalarından biri də məhz qadın və kütləvi informasiya vasitələri idi. Həmin gün Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərmanla dövlət qadın siyasətinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün növbəti tarixi addım atıldı.

Ulu öndərin müəyyənləşdirdiyi inkişaf kursunun digər istiqamətləri kimi, qadınlarla bağlı siyasət də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Qadınlarımızın ölkənin ictimai-siyasi həyatında fəal iştirakına, seçkili orqanlarda, ayrı-ayrı dövlət strukturlarında təmsilçiliyinə, təhsil almasına, müxtəlif sahələrdə karyera qurmasına, sahibkarlıq fəaliyyəti ilə öz işinin sahibinə çevrilməsinə geniş imkanlar yaradılır. Sevindirici haldır ki, bu gün cəmiyyətimizdə qadına qarşı şiddət, ayrı-seçkilik, bu zərif varlıqlarla kobud rəftar, onların hüquqlarının məhdudlaşdırılması cəhdləri və s. kimi mənfi davranışlara qarşı çox ciddi ictimai qınaq mexanizmi formalaşmaqdadır. Cəmiyyətimiz inkişaf etdikcə qadının ailədəki, ictimai həyatdakı yeri və rolu, kişi və qadınların hüquq bərabərliyi haqqında da aydın bir münasibət formalaşır.

Bütün bunlar öz yazıları ilə dövlətimizin gender siyasətinə təbliğati dəstək verən, bu siyasətin öz məqsədinə çatmasına kömək göstərən "Azərbaycan" qəzeti kimi dəyərli mətbuat orqanlarımızın fəaliyyətinin xoş bəhrəsidir. Belə media orqanlarımızın fanatik adətlərə, qızların təhsildən yayındırılmasına, ictimai həyatdan təcrid olunmuş şəraitdə yaşamasına qarşı çıxan tənqidi materiallarının, qınaqlarının nəticəsidir. İllərdir ki, "Azərbaycan" qəzeti də bu problemləri qabardır. Onların həlli yollarının ictimai müzakirəsini təşkil etmək üçün mühüm addımlar atır.

## Gender mədəniyyəti

Demokratik inkişafın əsas istiqamətlərindən birinin gender bərabərliyinin təmin edilməsindən keçdiyi artıq sübuta ehtiyacı olmayan reallıqdır. Və qeyd etdiyimiz kimi, Azərbaycan dövləti cəmiyyətdə bu prinsipin bərqərar olmasından ötrü ondan asılı nə varsa, edir. Amma bu məsələ təkcə mühüm dövlət sənədlərinin qəbulu, inzibati tədbirlərin həyata keçirilməsi ilə də məhdudlaşmır. Gender bərabərliyinin təmin olunması təkcə dövlət institutlarının görə biləcəyi iş deyil. Bu, fərd olaraq hər bir vətəndaşın məsələyə münasibətindən, davranışlarından çox asılıdır. Əgər kişilər cəmiyyətdəki dominant statuslarını qadınlarla bərabər imkanlara əsaslanmaqla bölüşmək istəməsələr, onları özlərinə tabe vəziyyətdə görməyə can atsalar, ictimai-siyasi həyatda onlara rol vermək istəməsələr, cəmiyyətdə gender bərabərliyi təmin olunmaz.

Gender bərabərliyi bir mədəniyyətdir. Bu mədəniyyətin olmaması demokratik inkişafa əngəl törədir. Bu da, öz növbəsində, ölkənin dinamik inkişafını ləngidir. Hüquqi dövlət quruculuğu prosesində insan potensialından tam istifadə edilməsinə mane olur. Bu xüsusda "Azərbaycan" qəzetinin fəaliyyətində diqqəti çəkən əsas cəhətlərdən biri qəzetin cəmiyyətimizdə məhz gender mədəniyyətinin formalaşmasına çalışmasıdır. Bu məsələdə media orqanlarının üzərinə çox böyük vəzifə düşür və "Azərbaycan" qəzeti gender mövzusuna yanaşma tərzi ilə başqa media qurumlarına da peşəkarlıq nümunəsi göstərir.

Biz bu gün Azərbaycan mediasında çox tez-tez gender stereotiplərinin qabardılmasının şahidi oluruq. Bəzən gender mövzusu ancaq qadın-kişi münasibətləri kontekstində şərh edilərək bəsitləşdirilir. Qadınlar və kişilərin cəmiyyətdəki yeri, onların funksiyaları və sosial rolları ilə bağlı formalaşmış təsəvvürlər mediaya təkcə mövzularla deyil, istifadə edilən dil, metaforlar və ter-

minlər vasitəsilə də yeridilir. Media bilərəkdən və ya bilməyərəkdən qadınları kişilərlə müqayisədə daha əlverişsiz şəkildə işıqlandırır. Bununla da cəmiyyətdə qadınlarla kişilərin mövcud yeri haqqında hökmran olan stereotiplər daha da qüvvətləndirilir. Mətbuat qadınlara gözəl və cazibədar olmaq, dadlı yeməklər bişirmək, evinin xanımı olmaq kimi vərdişlər aşılayır. Siyasətçi xanımların isə "kişi kimi" davranışları, "dəmir ledi" olmaq kimi xüsusiyyətləri qabardılır.

Amma "Azərbaycan" qəzetində bu stereotiplərin heç biri görünmür. Əksinə, bu qəzet cəmiyyətdə gender stereotipləri ilə bağlı ənənəvi təsəvvürlərin dəyişməsi üçün bütün imkanlardan istifadə edir. Bu yöndə təbliğat aparır. Cəmiyyətdə qadının və kişinin rolu ilə bağlı oxucularına doğru informasiyalar verir. Bununla bağlı aydın təsəvvürlərin formalaşmasından ötrü cəmiyyət qarşısındakı sosial məsuliyyətini vicdanla yerinə yetirir.

Ən əsası isə, "Azərbaycan" qəzeti ayrı-ayrı qadın şəxsiyyətlərimizin simasında cəmiyyət üçün örnəklər yaradır. Onların həyat və fəaliyyətinə müntəzəm şəkildə, geniş yer verməklə bu şəxsiyyətlərimizin uğur hekayələrini təqdim edir. Stereotipləri bununla da ortadan götürür. Cəmiyyətə aşılayır ki, bərabər imkanlar mühitində kişi və ya qadın, fərq etməz, hər kəs öz potensialını reallaşdıra, vətənə layiqli töhfələr verə bilər.

"Azərbaycan" qəzeti görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, XX əsr dünya şərqşünaslıq elminin parlaq nümayəndələrindən olan Aida xanım İmanquliyevanın şəxsində Azərbaycan qadınının elmdə çatdığı zirvələri göstərir. Belə böyük şəxsiyyətlərimizin öz ömür dastanları ilə yaratdıqları mənəvi dəyərlərimizi təbliğ edir. Elmə, biliyə həvəs göstərən gənc qızlarımızı bu dəyərlər ruhunda tərbiyələndirməyə çalışır, onlardan örnək götürməyə çağırır.

## Azərbaycan qadınının uğur hekayəsi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın timsalında bu gün Azərbaycan qadını qadın fəallığı tarixinin ən böyük nailiyyətlərini yaradıb. Zaman keçdikcə bu nailiyyətlərin sırasını daha da genişləndirir. Bunlar tək bir şəxsiyyətin deyil, tarixən Azərbaycan qadınının əldə etdiyi nailiyyətlərdir. Mehriban xanımın bu gün bütün dünyada yetişdiyi ali məqam ümumən Azərbaycan qadınının yüksəldiyi ucalıqdır.

O, ölkəmizin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə nəinki Azərbaycan Respublikasının, eləcə də müxtəlif dövlət və beynəlxalq təşkilatların yüksək mükafatları, fəxri adları ilə təltif olunub. Bunlar dünyanın Azərbaycan qadınına verdiyi layiqli qiymətdir. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyəti göstərən, bəşəriyyətin ali ideallarına xidmət edən Mehriban xanım Əliyeva bütün dünyada müasir Azərbaycan qadınının obrazını təcəssüm etdirir. O, təkcə ölkə qadınları üçün deyil, bütün dünya qadınları üçün bir örnəkdir.

Mehriban xanımın həyata keçirdiyi layihələrdə maarifçi, xeyriyyəçi, kreativ ideyalarla yanaşı, mədəni, dini, milli-mənəvi dəyər və ənənələrə sədaqət müşahidə olunur. Bütün bunları harmonik şəkildə reallaşdırmaq, ictimaiyyətə, eləcə də dünyaya çatdırmaq çox çətindir, lakin Mehriban xanım yorulmaz əməyi, güclü iradəsi ilə bu şərəfli və xeyirxah missiyanı layiqincə yerinə yetirir.

Bir sözlə desək, Azərbaycan qadınının bütün gözəl keyfiyyətlərini özünün təkrarsız şəxsiyyətində birləşdirən Mehriban Əliyevanın cəmiyyətdə yaratdığı aura insanları mənəvi saflığa, nəcibliyə, xeyirxahlığa, səmərəli fəaliyyətə səsləyir. Bu gün bizim bir çox xanımlarımız, gənc qız-

larımız Mehriban xanımın fəaliyyətindən ruhlanaraq ictimai həyatda aktivliklərini getdikcə artırırlar. Cəmiyyətimizdə filantropiya ənənələrinin gücləndiyi, xeyriyyəçilik ənənələrinin genişlənməsində gənc qızlarımızın xüsusi fəallığı müşahidə edilir. "Azərbaycan" qəzeti də bu cür nümunələrə öz səhifələrində geniş yer ayırır, Azərbaycan qadınının mükəmməl obrazını yaradır. Mehriban xanım Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş yazılarla onun təlqin etdiyi ali dəyərlərin daha çox insana yetişməsinə, daha çox fərdin öz həyatını bu dəyərlər ruhunda qurmasına can atır.

Qəzet belə bir nümunələrə indi həqiqətən çox böyük ehtiyacımızın olmasının fərqindədir. Cəmiyyətin mənəvi tərbiyəsindən ötrü kütləvi informasiya vasitələrində ziyanlı fakt və hadisələrə deyil, müsbət örnəklərə diqqət yönəlməsinin zəruriliyini duyur və öz fəaliyyətini bu istiqamətdə qurur.

## Peşəkarlıq örnəyi

"Azərbaycan" qəzetinin peşəkar tərzindən faydalanan, məsələlərə bu prinsiplə yanaşaraq sensasiya ardınca deyil, ictimai maraqlar ardınca gedib cəmiyyətin inkişafına az-çox xeyir vermək istəyən media orqanlarımız, təəssüf ki, hələ çox azdır. Son illər mediada gender məsələləri ilə bağlı bir ziyanlı tendensiya da güclənib. Bu, kütləvi informasiya vasitələrində, sosial mediada qadınlarla bağlı daha çox kriminal məsələlərin gündəmə gətirilməsidir. Media nədənsə qadına qarşı zorakılıqla bağlı xəbərləri geniş yayaraq ictimailəşdirməkdə maraqlıdır. Tez-tez belə sərlövhələr oxuyuruq: "Ər qadını bıçaqladı", "Qadın evdən qaçdı", "Gəlin toydan qaçdı", "Nişanlı qız özünü asdı" və s.

Yaxud kriminal hadisələrlə bağlı xəbərlərdə uşaqların, qadınların simaları göstərilir. Tamam unudulur ki, bu gün siması göstərilən o uşaq sabah bir universitetin tələbəsi, bir müəssisənin əməkdaşı, yaxud bir evin xanımı, bir ailənin başçısı olacaq. Arxivlərdə, internet resurslarında onların keçmişindəki hansısa arzuolunmaz anı dəlillərlə əbədiləşdirmək yaramaz. Və ya təsəvvür edin ki, boğazı kəsilmiş qadının uşağından jurnalist açıqlama alır. Bu uşağın onsuz da dünyası tarmar olub. Bir anda hər iki valideynini itirib. Atası həbs edilib, anası faciəli şəkildə ölüb. Lakin "jurnalist" ondan atasının anasını necə öldürdüyünü soruşur.

İstər-istəməz öz-özünə sual edirsən: bu xəbərlərin, belə materialların hər hansı bir ictimai əhəmiyyəti varmı? Onların psixoloji ziyanı, cəmiyyətdə yaratdığı travmalar, mənfi təsir gücü cəmiyyətin bu hadisələr haqqında xəbərdar olmasının kiçik informativ faydasından qat-qat böyük deyilmi?

Ümumiyyətlə, qadın mövzusuna hansı rakursdan yanaşmalıyıq ki, cəmiyyətimiz bundan ziyan deyil, fayda götürsün? Və bu suallara "Azərbaycan" qəzetinin səhifələrində cavab tapa bilirik.

"Azərbaycan" qəzeti Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin, "İşıq" jurnalının və digər tarixi mətbuat orqanlarımızın maarifçilik ideyalarından ruhlanaraq, bu ideyaları ləyaqətlə davam etdirərək görkəmli qadın ictimai-siyasi xadimlərimizin, xanım alim və publisistlərimizin, pedaqoqlarımızın, şair və yazıçılarımızın, bir sözlə, bütün xanım fəallarımızın yazılarına, çıxışlarına geniş yer verməklə ictimai fikir tariximizə, cəmiyyətimizdə qadın fəallığı ənənələrinin daha da genişlənməsinə yol açır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Milli Məclis Sədrinin müavini Bahar Muradova və parlamentdə təmsil olunan digər xanım deputatlar, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri Zərifə Salahova, Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İtti-

faqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova, eləcə də başqa ziyalı xanımlarımız "Azərbaycan" qəzetinin daimi müəlliflərindəndir.

Qəzet ailə dəyərləri, uşaq tərbiyəsi, qadın problemləri və bir sıra tarixi, mədəni-əxlaqi mövzulara müntəzəm yer ayırır. Qadınların cəmiyyət həyatındakı rolunu, maarifçilik ənənələrini, ailə-övlad münasibətlərini, milli-mənəvi dəyərlərimizin qorunmasını təbliğ edir. "Azərbaycan" qəzetinin digər materialları kimi, gender mövzusundakı yazılarında da elmilik, tarixilik, bədii-publisistik üslub məqalələrin maraqla oxunmasına istiqamət, oxucuya mənəvi zövq verir.

Cəmiyyətimizdə milli vətənpərvərlik ruhunun aşılanmasında da bu qəzetin müstəsna rolu var. "Azərbaycan" qəzetinin öz yazıları ilə qadınlarımız arasında apardığı maarifləndirmə işi, aşıladığı vətənpərvərlik ruhu vətənimizin gələcəyi üçün layiqli vətəndaşların, vətən yolunda canını belə əsirgəməyən cəsur övladların yetirilməsi deməkdir.

Milli mətbuatımızın tarixi 143 ildən çoxdur. "Azərbaycan" qəzeti bu tarixin düz bir əsrlik şərəfli dövrünü bölüşür. Arzu edirəm ki, bu tarix minilliklərə yetişsin. Nə qədər ki Azərbaycan var, vətənimizin adını daşıyan bu qəzet də yaşasın, yaratsın, maarifçilik nurunu əbədiyyətə qədər yandırsın.



**Qüdrət KƏRİMOV,**
*"Xəzər" ASC-nin sədri,*
*iqtisad elmləri doktoru*

# İqtisadi islahatların və sahibkarlığın inkişaf strategiyasının peşəkar təbliğatçısı

***Hər bir xalqın inkişafında, milli şüurunun oyanışı və özünüdərk prosesində mətbuatın rolu müstəsnadır. Azad, müstəqil mətbuat liberal cəmiyyətin əsas atributlarından biri kimi cəmiyyətdə demokratik dəyərlərin bərqərar olmasında mühüm rol oynayır. Müstəqil respublikamızın çoxsaylı mətbuat orqanları sırasında özünəməxsus dəst-xətti, tarixi ənənələri, prinsipial mövqeyi ilə seçilən "Azərbaycan" qəzeti ilk gündən milli maraqların əzmkar müdafiəçisi olmuş, dövlət siyasətinin təbliğində xüsusi fəallıq göstərmişdir.***

Dövlətinin problemlərinə, çətinliklərinə biganə qalmayan, onun müstəqilliyinin daimi və dönməz olmasına çalışan, fəaliyyətində xalqın maariflənməsini, yüksək təhsilli olmasını təbliğ edən nəşrlər tarixən milli ruhlu ziyalıların tribunası olmuş, fəaliyyətləri ilə tarix yazmışlar. İctimai tələbatdan yaranan və qısa zamanda xalqın böyük etimadını qazanan "Azərbaycan" da müstəqil dövlətimizin tarixində yeri olan belə sanballı nəşrlərdəndir. Bu günlərdə yaranmasının 100-cü ildönümü təntənə ilə qeyd edilən "Azərbaycan" qəzetinin ilk nömrəsinin nəşri 1918-ci il sentyabrın 15-nə – Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən daşnak-bolşevik qruplaşmasının işğalından azad edildiyi əlamətdar günə təsadüf edir. Keşməkeşli və şərəfli inkişaf yolu keçmiş qəzet hər zaman milli ideyaların daşıyıcısı olmuş, dövlətçilik, millilik, vətənpərvərlik və maarifçiliyi özünün başlıca fəaliyyət manifestinə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi dövlətçilik irsimizə dərin ehtiramın təcəssümü olmaqla yanaşı, həm də cümhuriyyətin yadigarı olan "Azərbaycan" qəzetinin şərəfli keçmişinə və bugünkü fəaliyyətinə dolğun nəzər salmağı zəruri edir.

İlk gündən bir sıra nüfuzlu irfan sahiblərinin – Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Ceyhun bəy Hacıbəyli, Xəlil İbrahim, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Məhəmməd ağa Şahtaxtlı, Firidun bəy Köçərli və digər ziyalıların söz, fikir və məfkurə tribunasına çevrilən qəzet səhifələrində xalqın istək və arzularını dolğunluğu ilə ifadə etməyə çalışmış, uzun illər istibdad altında yaşamış insanların milli ru-

hunu, milli şüurunu, milli mənliyini özünə qaytarmaq üçün mübarizə aparmışdır. "Azərbaycan" qəzetinin qarşısında həm də qazanılmış müstəqilliyi bütün dünyaya tanıtmaq, cümhuriyyət hökumətinin qəbul etdiyi qərarları operativ şəkildə ictimaiyyətə çatdırmaq, bir sözlə, hökumətlə xalq arasında bağlantını gücləndirmək, mənəvi körpü yaratmaq olmuşdur.

"Azərbaycan" cümhuriyyətin demokratik, hüquqi dövlət quruculuğu siyasətinin təbliğində və insanların maariflənməsində misilsiz rol oynamış, ictimai-siyasi proseslərə təsir imkanları ilə seçilmişdir. Qəzetin 1918-1920-ci illərdə işıq üzü görmüş nömrələrində Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatı ilə bağlı yeniliklər, eyni zamanda, ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı soyqırımı aktları obyektiv əksini tapmışdır. Qəzet xalqımızın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, özünəməxsusluğunu və digər ali dəyərlərini qorumağa çalışmış, çətin və mürəkkəb ideoloji-siyasi şəraitdə milli özünüdərki təbliğ etmişdir. Milli dirçəlişin, milli qürur hislərinin oyanışında, ictimai fikrin və düşüncənin düzgün istiqamətdə formalaşmasında əvəzsiz xidmətlər göstərmiş, cəmiyyəti mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır.

Respublikamız 1991-ci ilin 18 oktyabrında dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixi adını qaytararaq Milli Məclisin orqanı – rəsmi dövlət qəzeti kimi fəaliyyətini davam etdirən "Azərbaycan" xalqın və dövlətin maraqlarının ali tribunası, habelə ölkəmizdə həyata keçirilən dövlət quruculuğu siyasətinin alovlu təbliğatçısı olmuşdur. Qəzet tarixi ənənələrinə sadiq qalaraq daşıdığı missiyanı uğurla davam etdirmiş, dövlət müstəqilliyinin qorunub saxlanılması və daha da möhkəmləndirilməsinə xidmət edən dövlət siyasətini dəstəkləmişdir.

1993-cü ilin iyun ayında ümummilli lider Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra respublika həyatının digər sahələrində olduğu kimi, mətbuatın inkişafında da ciddi dönüş yaranmış, söz və məlumat azadlığı, siyasi plüralizm, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti təmin edilmişdir. Keyfiyyətcə yeni mərhələdə formalaşmış liberal və demokratik mühit "Azərbaycan" qəzetinin fəaliyyətini daha da təkmilləşdirməsinə, habelə dövlətçilik ideyalarının təbliğində fəal iştirakına geniş imkanlar açmışdır. Ümummilli lider Heydər Əliyev qəzetin ictimai-siyasi həyatdakı rolundan bəhs edərkən haqlı olaraq bildirirdi ki, "Azərbaycan" qəzeti tariximizin parlaq səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində zəngin və etibarlı mənbədir.

Mətbuat azadlığından sui-istifadə edən, populyarlıq və tiraj naminə hadisələri müxtəlif bucaqlardan işıqlandıran, ictimai rəydə çaşqınlıq yaradan bəzi mətbuat orqanlarından fərqli olaraq, "Azərbaycan" qəzeti öz sanbalını, ciddiliyini, mötəbərliyini hər zaman qorumuş, ucuz sensasiya arxasınca qaçmamış, obyektivlik, vicdanlılıq və peşəkarlıq prinsipinə riayət etmişdir. Qəzetin səhifələrində yer alan bir-birindən maraqlı xəbər və məqalələr yalnız rəsmi və dəqiq məlumatlar əsasında hazırlandığından ictimaiyyət tərəfindən etibarlı mənbə kimi qəbul olunur.

Müstəqil Azərbaycan Respublikasının onilliklərə bərabər quruculuq və inkişaf salnaməsi qəzetin səhifələrində dolğun və məzmunlu şəkildə əksini tapır. Qəzetin son 20 illik nömrələrini vərəqləyərkən ilk növbədə ulu öndər Heydər Əliyevin müstəqil, hüquqi, demokratik dövlət quruculuğu və azad bazar iqtisadiyyatının təmini yolunda həyata keçirdiyi çoxşaxəli səmərəli islahatlar göz önündə canlanır. Yeni ictimai-iqtisadi formasiyaya – azad bazar iqtisadiyyatına keçidlə əlaqədar respublikada uğurla gerçəkləşdirilən torpaq islahatları, özəlləşdirmə prosesi, habelə kiçik və orta sahibkarlığın inkişafına xidmət edən çoxsaylı fərman, sərəncam və dövlət proqramları ilə bağlı ən müfəssəl, səhih məlumatları "Azərbaycan" qəzetinin səhifələrindən, onun zəngin arxivindən əldə etmək mümkündür. Qəzetdə siyasi, iqtisadi və mədəni sahədə qazanılmış nailiy-

yətlərdən bəhs edən sanballı yazılarla yanaşı, tariximizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi, elmi nailiyyətlərimizi əks etdirən məqalələr də üstünlük təşkil edir.

Yeni neft strategiyasının reallaşdırılması, "Əsrin müqaviləsi"nin imzalanması, aqrar islahatların vətəndaşların mənafeyinə adekvat şəkildə həyata keçirilməsi, cəmiyyətdə bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, sahibkarlığın dinamik inkişafı, proporsional regional inkişaf tədbirləri və s. aktual məsələlər qəzetin müntəzəm şəkildə toxunduğu iqtisadi mövzular sırasında xüsusilə diqqəti çəkir.

"Azərbaycan" qəzeti sahibkarlara dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi, ölkədə liberal biznes mühitinin formalaşdırılması, vətəndaşların mənafeyinə xidmət edən sosial islahatların reallaşdırılması sahəsindəki ardıcıl dövlət siyasətini səhifələrində işıqlandırmaqla kifayətlənmir, eləcə də islahatların real mahiyyəti, milli inkişafa və sosial rifaha müsbət təsirləri ilə bağlı analitik təhlillərə geniş yer verir. Azərbaycanın əldə etdiyi nailiyyətlərə həsr olunmuş çoxsaylı yazılar – şərhlər, publisistik məqalə, aktual müsahibə və reportajlar geniş oxucu auditoriyasının dolğun və təfərrüatlı məlumat almaq imkanlarını təmin edir.

"Azərbaycan" qəzeti iqtisadi, siyasi və sosial münasibətlərə hər zaman yaxından nüfuz etmiş, xüsusilə də iqtisadi həyatın müxtəlif sahələrinə dair aktual yazılar dərc etmişdir. Qəzetdə iqtisadçı alimlərin, elm xadimlərinin, sahibkarllıq subyektlərinin nümayəndələrinin sosial-iqtisadi islahatlarla bağlı maraqlı fikir və mülahizələri, təhlilləri ilə yaxından tanış olmaq mümkündür. Həmin yazılarda bu fikir haqlı olaraq vurğulanır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar strategiyası respublikanın iqtisadi qüdrətini artırmış, sosial-mədəni və intellektual yüksəlişə səbəb olmuşdur. Qəzetin iqtisadi mövzudakı sanballı məqalələri həm də bu qənaətə əsas verir ki, müasir çağırışlar əsasında ölkə iqtisadiyyatında gerçəkləşdirilən islahatlar biznes icması, elm adamları və dövlət təşkilatları nümayəndələrinin xüsusi diqqət mərkəzindədir. "Azərbaycan" qəzeti ölkəmiz üçün mühüm iqtisadi və sosial əhəmiyyət kəsb edən digər məsələlərin də işıqlandırılmasında operativliyi, obyektivliyi, hadisələrə müasir yanaşma tərzi ilə fərqlənir.

"Azərbaycan" qəzetinin hər yeni nömrəsi maraqlı, oxunaqlı və aktual yazılarla diqqəti çəkir. Qəzetin son 25 ildə nəşr olunmuş saylarını izlədikcə inkişafın çətin və şərəfli yolu göz önündə canlanır. Ötən illərdə Bakı şəhərində keçirilmiş beynəlxalq iqtisadi forumlar, konfranslar, biznes forumları barədə operativ reportajlar, dövlət başçısının dərin məzmunlu çıxışları, mühüm dövlət obyektlərinin, sənaye və istehsal müəssisələrinin açılış mərasimləri, habelə digər yaddaqalan hadisələr təkrar yada düşür, bütün bunlar həm də çağdaş tariximizin nəhəng quruculuq salnaməsini özündə əks etdirir.

Qəzet, eyni zamanda, ulu öndər Heydər Əliyevin və onun ən layiqli davamçısı – Azərbaycan Prezidenti cənab İlham Əliyevin sahibkarlarla keçirdiyi çoxsaylı görüşlər barədə ən operativ, dolğun və müfəssəl məlumatların əldə olunmasında etibarlı mənbə rolunu oynayır. Qəzetdə dərc olunmuş məqalələrdə xüsusi vurğulanır ki, ölkəmizdə azad sahibkarlığın, qeyri-neft sektorunun inkişafı ilə bağlı qəbul edilmiş qərar, qanun, fərman və sərəncamlar ölkə iqtisadiyyatının şaxələndirilməsi, neft gəlirlərindən asılılığın azaldılması baxımından geniş imkanlar açmışdır. Xüsusilə də son 2 ildə qeyri-neft ixracının stimullaşdırılması və ixracda təşviqetmə mexanizmlərinin tətbiqi yönümündə həyata keçirilən tədbirlər Azərbaycan istehsalı olan məhsulların "Made in Azerbaijan" brendi altında dünya bazarlarına çıxarılmasına yaxşı imkanlar açmışdır.

Qəzet dövlət başçısının iqtisadiyyatın inkişafı, mövcud problemlərin aradan qaldırılması ilə bağlı tövsiyələrinə səhifələrində geniş yer verir, iş adamlarının fəaliyyətinə mane olan bürokratik amil-

ləri cəsarətli və prinsipial şəkildə işıqlandırmaqdan çəkinmir. Vəzifəsinin öhdəsindən gəlməyən, dövlət başçısının etimadını doğrultmayan, işində ciddi qüsurlara yol verən məmurları sərt tənqid edir, milli problemlərə təəssübkeşliklə yanaşır. "Azərbaycan" qəzeti jurnalistikamızın tarixi ənənələrinə sadiq qalaraq vətəndaşların ərizə, şikayət, rəy və təkliflərinə də həssaslıqla yanaşır, onları aidiyyəti üzrə dövlət qurumlarına ünvanlayır, icrası prosesini diqqət mərkəzində saxlayır.

"Azərbaycan" qəzeti iş adamlarının da sevimli qəzetidir. Sahibkar olaraq ictimai həyatın müxtəlif sahələrini əhatə edən rəsmi sənədlərlə – qanun, sərəncam və dövlət proqramları, habelə sahibkarlıq fəaliyyəti ilə bağlı ən son yeniliklərlə məhz bu qəzetdə tanış oluruq. İqtisadi yeniliklərin mahiyyəti, istiqamətləri və müsbət gözləntiləri, maddiləşən işgüzar fəaliyyət sahələrini hüquqi baxımdan tənzimləyən qanunlara edilmiş əlavə və dəyişikliklər barədə dolğun məlumatları əldə etmək üçün "Azərbaycan" qəzetini izləmək kifayətdir. Kiçik və orta sahibkarlığın inkişafını tənzimləyən fərman və sərəncamlar, əsasnamələr, proqramlar, tədbirlər planı hər bir sahibkar üçün iş fəaliyyətini tənzimləmək baxımından zəruri hüquqi sənədlərdir.

Qəzetdə dərc olunmuş dərin məzmunlu analitik yazılar göstərir ki, media ölkəmizdə dayanıqlı ictimai-siyasi sabitliyin təminatçısı olan orta burjuaziyanın formalaşması baxımından sahibkarlıq fəaliyyətinin əhəmiyyətini və rolunu düzgün dəyərləndirir. "Azərbaycan" qəzetində iş adamlarının və dövlət məmurlarının iştirakı ilə təşkil edilən diskussiyalar, müzakirələr və "dəyirmi masa"larda iqtisadiyyatımızın inkişafında sahibkarlığın danılmaz rolu xüsusi diqqətə çəkilir. Eyni zamanda, sahibkarların fikir və təkliflərinin hərtərəfli işıqlandırılması ictimaiyyətin onların fəaliyyəti haqqında hərtərəfli məlumat əldə etməsinə imkan yaradır.

İqtisadçı alimlərin, Milli Məclisin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin deputatlarının, müxtəlif dövlət qurumlarının rəhbərlərinin, tanınmış mütəxəssislərin, iş adamlarının məqalə və müsahibələri oxucularda iqtisadi yeniliklərin mahiyyəti və islahatların məzmunu haqqında real təsəvvür formalaşdırır. Ölkə iqtisadiyyatının tarixi inkişaf mərhələlərinin əyani salnaməsini yaradan qəzet respublikamızın uğur yolunun etibarlı cığırdaşı kimi aparılan iqtisadi islahatların mahiyyətinin və səmərəli nəticələrinin ölkə ictimaiyyətinə çatdırılmasında misilsiz xidmətlər göstərir, əzmkar ideoloji-təbliğati iş aparır.

"Azərbaycan" qəzeti ölkəmizin inkişafında xüsusi xidmətləri olan Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinə də xüsusi diqqət ayırır, Heydər Əliyev Fondunun intellektual, mədəni, mənəvi və sosial inkişafa, milli həqiqətlərin dünya arenasına çıxarılmasına xidmət edən səmərəli layihələrindən geniş bəhs edir. Qəzetdə haqlı olaraq vurğulanır ki, elm, təhsil, mədəniyyət, səhiyyə və idman sahələrinin inkişafına sanballı töhfələr verən Azərbaycanın Birinci vitse-prezidenti son illər ölkəmizdə iqtisadi və sosial quruculuq proseslərinə də təkan vermişdir. Mehriban xanım Əliyeva dövlət idarəçiliyinin müasirləşdirilməsi və ictimai münasibətlər sisteminin sağlamlaşdırılması prosesində yaxından iştirak edir və ölkə rəhbərinin bu sahədəki siyasətinə əməli dəstək verir. Sosial məsələlərə, əhalinin aztəminatlı hissəsinin problemlərinin həllinə xüsusi həssaslıqla yanaşan Mehriban xanım Əliyeva idarəçiliyə keyfiyyət dəyişiklikləri və müasir yanaşma fəlsəfəsi gətirmişdir. "Azərbaycan" qəzetinin daim diqqət yönəltdiyi mövzulardan biri də məhz bu yeniliklərdir – çevik idarəetmə modelinin formalaşdırılmasında innovasiyaların təbliği və təşviqi zərurətidir.

Xüsusi vurğulamaq istərdim ki, regional tərəqqiyə xidmət edən islahatlara geniş yer verən "Azərbaycan" qəzeti sakini olduğum və çalışdığım doğma Sumqayıt şəhərinin inkişafı ilə bağlı məsələlərə də diqqətlə yanaşır, bu mövzuda silsilə yazılar dərc edir. Son illər respublikamızın

mühüm sənaye mərkəzlərindən birinə çevrilmiş Sumqayıt şəhəri həm də dinamik sosial-iqtisadi inkişaf mərhələsinə daxil olmuşdur. Keçmiş sənaye qüdrətini bərpa edən şəhərdə ənənəvi istehsal sahələrinin fəaliyyətinin canlandırılması, yeni sənaye müəssisələrinin istifadəyə verilməsi, elmtutumlu, ixracyönümlü, rəqabətqabiliyyətli istehsalat sahələrinin genişləndirilməsi ümumi iqtisadi inkişafın təmin olunmasında mühüm rol oynayır. Geniş vüsət almış abadlıq-quruculuq işləri, sosial obyektlərin, yaşayış binalarının tikintisi, infrastrukturun bərpası, küçə və yolların, park və xiyabanların təmiri Sumqayıtın inkişafında ahəngdarlığı təmin edir. Bütün bunlara diqqət ayıran "Azərbaycan" qəzetində qeyd edilir ki, həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının real nəticəsi olaraq Sumqayıt şəhəri bu gün respublikada qeyri-neft sektoru üzrə məhsul istehsalında ilk yerlərdən birini tutur.

Dövlət başçısı cənab İlham Əliyevin sahibkarlığa yüksək diqqət və qayğısı Sumqayıtda çalışan iş adamlarında yüksək əhvali-ruhiyyə yaradır, onların inkişafyönümlü sosial layihələrin icrasında iştirak imkanlarını genişləndirir. Hazırda özəl sektorun payının yüksək olduğu şəhərdə sahibkarlıq subyektləri tərəfindən yeni layihələrin icrası uğurla davam etdirilir.

Bütün bunları obyektiv şəkildə ölkə ictimaiyyətinə çatdıran "Azərbaycan" qəzeti sahibkarlar üçün hər zaman açıq tribuna olmuşdur. İqtisadçı alim və iş adamı olaraq fəal əməkdaşlığa görə qəzetin xüsusi diplomuna layiq görüldüyümü də qürur hissi ilə qeyd etmək istərdim. İnanıram ki, "Azərbaycan" qəzeti zəngin ənənələrinə sadiq qalaraq şərəfli missiyasını bundan sonra da uğurla davam etdirəcək, dövlətçiliyimizin və milli maraqlarımızın müdafiəsində dayanacaqdır.

# Tarixin ən qüdrətli Azərbaycanının salnaməçisi



**Yaqub MAHMUDOV,**
*akademik, əməkdar elm xadimi,*
*Dövlət mükafatı laureatı*

# Tariximizin qan yaddaşı "Azərbaycan"ın səhifələrində

*Sentyabrın 15-də dövlət qəzetimizin – baş mətbu orqanımızın – "Azərbaycan" qəzetinin nəşrə başlamasının 100 ili tamam olur*

***"Azərbaycan" qəzeti xalqımızın qədim və zəngin dövlətçilik ənənələri tarixinin ən parlaq səhifələrindən biri olan Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdıdır. Türk-müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, həm də dövrünə görə dünya tarixinin də ən demokratik, dünyəvi və hüquqi dövlət qurumlarından biri idi. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları sübut etdilər ki, Gülüstanda (1813) və Türkmənçayda (1828) tarixi Azərbaycan torpaqları iki yerə bölüşdürüldükdən sonra həm çar Rusiyası, həm də İranın şahlıq rejimi nə qədər dəhşətli müstəmləkəçilik siyasəti yeritsələr də, Azərbaycan xalqının minillərin dərinliklərindən başlanan qədim dövlətçilik ənənələrini məhv etmək mümkün olmadı!***

İlk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edilən qəzetin Azərbaycan dilində buraxılmış səhifələrinin yuxarısında adı ilə yanaşı, "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" yazısı da verildi. Həmin dövrdə ölkənin tanınmış ziyalıları – Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahimin müxtəlif dövrlərdə baş redaktoru olduqları "Azərbaycan" qəzeti 1918-1920-ci illər ərzində Azərbaycanın dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirməklə yanaşı, Azərbaycanın taleyüklü məsələlərinə də biganə qalmadı. Qəzetdə erməni-daşnak quldduru Andronikin Azərbaycanın müxtəlif bölgələrində – Qarabağda, Zəngəzurda və Naxçıvanda xalqımıza qarşı törətdiyi soyqırımları, qərbi azərbaycanlıların acı taleyi, onların kütləvi məhv edilməsi və ata-baba torpaqlarından qovulması haqda çoxsaylı materiallar dərc edildi.

Bu gün "Azərbaycan" qəzeti həm də müstəqilliyimizin atributu kimi fəaliyyət göstərir. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun rəhbərliyi başda olmaqla bütün kollektivi müntəzəm olaraq Azərbaycanın mühüm konseptual məsələləri – dövlət başçımızın tarix elmi qarşısında qoy-

duğu mühüm vəzifələr, tövsiyə və çağırışları, ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı cinayətləri, itirilmiş torpaqlarımızın tarixi, "böyük Ermənistan" uydurması, qədim Albaniya dövlətimizin "ağ ləkələr"dən təmizlənməsi, daşnak Şaumyanın antiazərbaycan fəaliyyəti, tarixi şəxsiyyətlərimizə qara yaxanlara qarşı mübarizə və s. kimi taleyüklü məsələlərin ölkə ictimaiyyətinə çatdırılması üçün qəzetlə sıx əməkdaşlıq edir. Azərbaycanın taleyüklü məsələləri "Azərbaycan" qəzetinin səhifələrində işıqlandırılır.

Müstəqillik tariximizin ən mühüm nailiyyətlərindən biri də tarix elmimizin inkişafı sahəsində əldə olunan böyük uğurlardır. Azərbaycan tarixşünaslığını müstəqil inkişaf yoluna ulu öndər Heydər Əliyev çıxarmışdır. Dahi şəxsiyyət doğma xalqına, vətən torpağına həsr olunmuş ömrünün bütün çağlarında tariximizin azərbaycançılıq məfkurəsi əsasında doğru-düzgün araşdırılmasını və gənc nəslin doğma vətənə sədaqət ruhunda tərbiyə olunmasını daim diqqət mərkəzində saxlayırdı. Erməni-daşnak quldurlarının xalqımıza qarşı törətdikləri soyqırımları və deportasiyalarla bağlı mühüm dövlət sənədləri imzalayan, XX əsrin 20-30-cu illərində ziyalılarımıza qarşı həyata keçirilmiş repressiyaların ağır nəticələrindən dönə-dönə bəhs edən Heydər Əliyev, əslində, tarixçilər qarşısında tarix elmini keçmiş zərərli konsepsiyalardan uzaqlaşdırmaq, saxtalaşdırmalardan və təhriflərdən təmizləmək kimi çox mühüm və şərəfli vəzifə qoymuşdur. Bütün bu məsələlərlə bağlı "Azərbaycan" qəzeti "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" *(akad. Y.Mahmudov, 08.05.16)* adlı məqalədə ətraflı məlumatlar dərc etmişdir.

Tarix İnstitutunda aparılan tədqiqatların Prezident İlham Əliyevin təşəbbüsü, çağırışları və tapşırıqları əsasında həyata keçirilməsi, dövlət başçısının institutu ölkəmizdə tarix üzrə araşdırmaların mərkəzi kimi dəyərləndirməsini, tarixçi alimlərin Prezidentin tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməsi üçün bütün qüvvələri səfərbərliyə alması haqda AMEA Tarix İnstitutunun Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyev və Azərbaycan tarix elmi" mövzusunda keçirdiyi elmi konfrans (29.04.18) haqqında geniş məlumatı ölkə ictimaiyyətinin diqqətinə çatdırmışdır.

Ulu öndərin tarix elmimizin inkişafı ilə bağlı bütün ideyalarını, planlarını dönmədən həyata keçirən Prezident İlham Əliyev tarixçi alimlər qarşısına yeni və daha konkret vəzifələr qoydu. Müasir Azərbaycan tarixşünaslığında "İtirilmiş torpaqların tədqiqi" problemi elmi dövriyyəyə daxil edildi, bu istiqamətdə ciddi elmi tədqiqatlar aparılmaqla obyektiv tarixi gerçəkliyi özündə əks etdirən bir sıra sanballı əsərlər nəşr olundu. Ölkə başçısının çağırışları, təşəbbüsü və birbaşa tövsiyəsi ilə ilk dəfə olaraq "Azərbaycan Tarixi Atlası", mükəmməl tədqiqat əsərləri olan "Qarabağ: real tarix, faktlar, sənədlər", "Naxçıvan: tarixi və abidələri", erməni-daşnak quldur rejimləri tərəfindən Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilmiş soyqırımları barədə ayrı-ayrılıqda çoxsaylı kitablar nəşr olundu. Stepan Şaumyanın başçılıq etdiyi "26 Bakı komissarı" adlanan daşnak-bolşevik güruhunun soyqırımı cinayətləri sübuta yetirildi. Ölkə başçısının birbaşa tapşırığı ilə yazılmış fundamental elmi tədqiqat əsəri olan "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabı, həmçinin "Real tarix və "böyük Ermənistan uydurması" tədqiqatı və digər çoxsaylı əsərlər rus, ingilis, italyan, ispan, ərəb və başqa dillərə tərcümə olunaraq dünyada yayıldı. Bununla ermənilərin guya Cənubi Qafqazın "ən qədim əhalisi olması" barədə saxta və uydurma "konsepsiyaya" sarsıdıcı zərbə vuruldu. Dünyanın mühüm elm mərkəzlərində, arxivlərində saxlanılan tariximizlə bağlı külli miqdarda arxiv sənədləri ölkəmizə gətirildi. Tarixçilərimiz ilk mənbələrə, o cümlədən zəngin arxiv sənədlərinə əsaslanaraq vətənimizin saxtalaşdırılmalardan, təhriflərdən təmizlənmiş yeni tarixini yazırlar. Beş kitabdan ibarət olan ikicildlik "Azərbaycan Respublikasının tarixi (1991-2016)" fundamental araşdırması isə artıq işıq üzü görmüşdür.

Ölkə başçısı tarix elmimizin inkişafını daim diqqət mərkəzində saxlayır, tarixçilərin əməyinə yüksək qiymət verir. Milli Elmlər Akademiyasının Tarix İnstitutu Prezidentin çağırışlarını, tapşırıq və tövsiyələrini yerinə yetirmək üçün var qüvvəsi ilə çalışır, alimlərimiz xalqımızın şanlı tarixini düzgün və dolğun əks etdirən əsərlər yazırlar. Cəsarətlə demək olar ki, artıq Azərbaycan tarix elmi müstəqil inkişaf yoluna çıxmışdır. Tarix İnstitutunda görülən bu uğurlu işlər barədə "Azərbaycanın tarixi yenidən, "ağ ləkələr"dən təmizlənərək yazılır" *(t.e.d. T.Nəcəfli, 02-04.02.18)* adlı məqalə "Azərbaycan" qəzetinin səhifələrində işıqlandırılmışdır.

Bu gün tarix elmimiz qarşısında duran mühüm məsələlərdən biri də qədim dövrlərdən başlayaraq ermənilər və onların havadarları tərəfindən ortaya qoyulan saxta tarix – "böyük Ermənistan" uydurması ilə bağlı gerçəklərin, ilk mənbələrdə və elmi ədəbiyyatda olan faktiki materiallara əsaslanan real tarixin elmi-nəzəri araşdırılması və geniş ictimaiyyətə çatdırılmasıdır. Müstəqil respublikamızın ərazisinin 20 faizinin təcavüzkar Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu bir dövrdə, informasiya müharibəsinin gedişində beynəlxalq aləmdə, əsasən də vikipediya və digər müxtəlif internet resurslarında ölkəmizə qarşı informasiya hücumları, qarayaxmalar, böhtan və iftira kampaniyaları daha da genişlənməkdədir. Əsas məqsəd tariximizə qara yaxmaq, tarixi şəxsiyyətlərimizi ləkələmək, ermənilərin guya Cənubi Qafqazın "aborigen əhalisi", yəni "ən qədim sakinləri" olması barədə saxta konsepsiya ilə bağlı uydurma "elmi" fikirləri dünya ictimaiyyətinin beyninə yeritməkdən ibarətdir.

Ermənilərin ulu babaları frig tayfalarının ümumi dalğasında Balkan yarımadasındakı vətənlərini tərk edərək m.ə. II minilliyin sonlarında Kiçik Asiyaya, müasir Türkiyənin ərazisinə köçməsi, ermənilərin XIX əsrin ilk qərinəsində Cənubi Qafqaza, yəni çar Rusiyası tərəfindən işğal edilmiş Şimali Azərbaycan torpaqlarına köçürülməsi kimi real tarixi həqiqətlər, erməni etnosu və onun dili, əlifbası ayrı-ayrı dövrlərdə Frigiya, yunan, Suriya, İran mənşəli etnosların təsiri ilə və onların qarışığından yaranması, ermənilərin qədim tarixini Qafqaza bağlamaq cəhdi, ermənilərin qədim Urartu irsinə sahib çıxmaq iddiaları, ermənilərin mənşəyini qədim Şərq tarixinə bağlamaq cəhdi və s. məsələlər "Ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə Asiya qitəsinə köçüb gəlmədirlər" *(akad. Y.Mahmudov, 01.03.18)* adlı məqalədə tutarlı faktlarla ifşa edilmiş və "Azərbaycan" qəzetinin səhifələrində geniş ictimaiyyətə çatdırılmışdır.

Bu qəbildən olan və müxtəlif dillərdə işıq üzü görmüş "Real tarix və "böyük Ermənistan uydurması" (akad. Y.Mahmudov) kitabı haqqında geniş elmi rəy – "Uydurma "böyük Ermənistan" tarixinə mükəmməl elmi baxış" *(t.ü.f.d. G.Nəcəfli, 11.11.15)* "Azərbaycan" qəzetinin səhifələrində işıqlandırılmışdır.

Tarix İnstitutunda aparılan elmi tədqiqatların mühüm istiqamətlərindən biri də xalqımıza qarşı ermənilərin həyata keçirdiyi soyqırımları tarixinin tədqiqidir. Ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri cinayətlərin tarixini vərəq-vərəq izləmək və ən başlıcası, dünya ictimaiyyətinə çatdırmaq məqsədilə Tarix İnstitutu "26 Bakı komissarı" adlı cinayətkar qrupun 1918-ci ildə Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi soyqırımının gerçək tərəflərini üzə çıxarmışdır. Son illər institutda ermənilərin azərbaycanlılara qarşı Bakıda, Şamaxıda, Qubada, Qarabağda, Zəngəzurda, İrəvanda, Naxçıvanda, Urmiya gölü ətrafında, Şərqi Anadoluda həyata keçirdikləri soyqırımlarını sübut edən dəyərli tədqiqatlar aparılmış, çoxsaylı fundamental əsərlər, monoqrafiyalar və sənəd topluları işıq üzü görmüşdür. Bütün bu monoqrafiyalar haqqında məlumatlar, Tarix İnstitutunun əməkdaşlarının Azərbaycanın müxtəlif bölgələrində ermənilərin türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırımları ilə bağlı elmi məqalələri müntəzəm olaraq "Azərbaycan"ın səhifələrində dərc edilmişdir. Bu silsilə yazılara "20 Yanvar və Xocalı faciələri 1918-ci il mart soyqırımının davamı idi" (t.ü.f.d., dos.C.Bəhramov), "Azərbaycan–Ermənistan

sərhəd məsələləri" (t.ü.f.d., dos.İ.Niftəliyev), "Bakı quberniyasında, o cümlədən Şamaxı və Quba qəzalarında ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımları" haqda silsilə yazılar (t.ü.f.d., dos.V.Abışov), "Ermənilərin Qarabağda həyata keçirdiyi soyqırımları" (t.ü.f.d., dos. N.Məmmədzadə), "Ermənilərin Zəngəzur bölgəsində, o cümlədən Cəbrayıl qəzasında həyata keçirdiyi soyqırımları" haqda silsilə yazılar (t.ü.f.d., dos. K.İsmayılov), "Ermənilərin Şərqi Anadoluda və Urmiya bölgəsində həyata keçirdiyi soyqırımları" haqda silsilə yazılar (t.ü.f.d., dos. G.Nəcəfli) və s. elmi məqalələri göstərmək mümkündür.

Ümummilli liderin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə göstərdiyi yüksək qayğını əsas götürən Tarix İnstitutu AMEA Rəyasət Heyəti və Türkiyə Cümhuriyyəti Atatürk Araşdırma Mərkəzi ilə birgə Azərbaycanda və Şərqi Anadoluda ermənilərin həyata keçirdiyi soyqırımlarına həsr olunmuş tədbirlər silsiləsini həyata keçirmişdir. Məhz bu qayğının nəticəsində iki dəfə ardıcıl olaraq Quba şəhərində – "1918-1920-ci illərdə Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı"nın 95 illiyinə həsr olunmuş I Beynəlxalq elmi konfrans (28-31 mart 2013) və "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları" (1914-1920-ci illər) II Beynəlxalq elmi konfrans (08-12 aprel 2015), Şamaxı şəhərində "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusunda III Beynəlxalq elmi konfrans (08-11 aprel 2016), Lənkəran şəhərində "XX əsrdə türk-müsəlman əhaliyə qarşı soyqırımları" mövzusunda IV Beynəlxalq elmi konfrans" (24-27 aprel 2017) və Qusar şəhərində reallaşan "XX əsrdə türk-müsəlman xalqlara qarşı soyqırımları" mövzusunda V Beynəlxalq elmi konfrans" (26-28 aprel 2018) həyata keçirilmişdir. Bu konfranslarda Azərbaycan tarixçiləri ilə yanaşı Türkiyə Cümhuriyyəti, Gürcüstan, Özbəkistan, Qazaxıstan, İran, Rusiya Federasiyası (o cümlədən, Dağıstan, Çeçen, İnquş, Adıgey respublikaları), Polşa, Almaniya, Fransa, Albaniya, Bolqarıstan, Kipr Türk Cümhuriyyəti və digər ölkələrdən olan tarixçi alimlər iştirak etmişlər. Böyük elmi, siyasi əhəmiyyət kəsb edən bu konfranslar təkcə Azərbaycanın elmi həyatı üçün deyil, keçən əsrin əvvəllərində eyni faciəli taleyi yaşamış bir sıra dünya xalqlarının tarixi üçün də mühüm hadisəyə çevrilmişdir. "Azərbaycan" qəzeti bütün bu tədbirləri daima diqqət mərkəzində saxlamış və ölkə ictimaiyyətinə çatdırılmasında mühüm rol oynamışdır.


8 may 2016-cı il
AZƏRBAYCAN
Azərbaycan tarixinin Heydər Əliyev dövrü


4 fevral 2018-ci il
AZƏRBAYCAN
Azərbaycanın tarixi yenidən, "ağ ləkə"lərdən təmizlənərək yazılır


AZƏRBAYCAN
10 yanvar 2017-ci il
Tarixi şəxsiyyətlərimizə sahib çıxaq

Müasir mərhələdə müstəqil Azərbaycanın tarix elmi bədxahlarımıza qarşı başlıca olaraq üç istiqamətdə mübarizə aparır: dövlətçilik tariximizin təhrif olunmasına qarşı; xalqımızın yaratdığı qədim və zəngin mədəniyyətə sahib çıxmağa çalışanlara qarşı; görkəmli tarixi şəxsiyyətlərimizə qara yaxanlara qarşı. "Azərbaycan" qəzetinin səhifələrində "Tarixi şəxsiyyətlərimizə sahib çıxaq" *(akad. Y.Mahmudov, 10.01.17)* adlı məqalədə və "Tarixi şəxsiyyətlərimizi qarşı-qarşıya qoymaq düzgün deyil" *(akad. Y.Mahmudov, 27.05.17)* adlı müsahibədə xalqın yaddaşında yüzillər ərzində özünə layiqli yer tutmuş görkəmli dövlət xadimlərinə və digər tarixi şəxsiyyətlərə, o cümlədən Babək, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Şah İsmayıl Səfəvi, Şah Təhmasib Səfəvi, Şah Abbas Səfəvi, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar və digər tarixi şəxsiyyətlərə qarşı saxta, elmdən uzaq, sağlam məntiqdən kənar fikirlərlə, qarayaxmalarla çıxış edənlər ifşa edilərək "Azərbaycan" qəzetinin səhifələrində işıqlandırılmışdır.

1826-1828-ci illər Rusiya–İran müharibəsinin gedişində Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərinə 18 min erməni ailəsi köçürüldü. 1828-1830-cu illər ərzində isə Cənubi Qafqaza İrandan 40 000, Türkiyədən isə 84 000 nəfər erməni köçürüldü və onlar keçmiş Gəncə, Qarabağ və İrəvan xanlıqlarının ən münbit torpaqlarında yerləşdirildi. Erməni köçkünlərinə 200 000 desyatindən çox Azərbaycan torpağı paylandı. 1828-ci il martın 21-də I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ərazilərində ayrıca "Erməni vilayəti" yaradıldı. Bununla gələcəkdə Azərbaycan ərazisində yaradılacaq erməni dövlətinin bünövrəsi qoyuldu. Azərbaycanın ən münbit torpaqlarında yerləşdirilən ermənilər çar hökuməti tərəfindən silahlandırıldı və yerli əhaliyə qarşı qaldırıldı. Bununla çar hökuməti əslində silahlandırdığı və arxasında durduğu ermənilərin əli ilə Azərbaycan xalqına qarşı kütləvi qırğınlar və soyqırımları siyasəti yeritməyə başladı.

Böyük dövlətlər tərəfindən şirnikləndirilən ermənilər bütün Azərbaycan ərazisində və Şərqi Anadoluda soyqırımları törətməklə bu geniş ərazini türk-müsəlman əhalidən təmizləyib "böyük Ermənistan" dövləti yaratmaq xülyasında idilər. Lakin ermənilərin bu çirkin niyyəti baş tutmadı. Bununla belə, böyük dövlətlərin və erməniləri Anadoludan uzaqlaşdırmaq siyasəti yeridən Osmanlı Türkiyəsinin təzyiqi ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il mayın 29-da qədim Azərbaycan şəhəri İrəvanı ətrafındakı təqribən 9 min (9000) kvadrat kilometrlik ərazi ilə birlikdə ermənilərə güzəştə getdi. Bununla Azərbaycan ərazisində erməni dövləti yaradıldı. Azərbaycan tarixinin açılmamış, qəsdən gizlədilmiş bu taleyüklü məsələsi "İrəvan və ətrafındakı Azərbaycan torpaqları ermənilərə hansı şərtlərlə verilmişdi?" *(akad. Y.Mahmudov, 14.10.14)* adlı məqalədə "Azərbaycan" qəzetinin səhifələrində geniş şəkildə işıqlandırılmışdır. Həmin məqalədə ermənilərin İrəvan və ətrafındakı torpaqların onlara verilməsi müqabilində Azərbaycan və Türkiyə tərəfi qarşısında aşağıdakı öhdəlikləri qəbul etməsi aşkara çıxarılmışdır: Azərbaycan xalqına qarşı soyqırımlarını dayandıracaqlar; Azərbaycana qarşı bir daha ərazi iddiaları irəli sürməyəcəklər; yeni yaradılan erməni dövləti ərazisində yaşayan azərbaycanlılar ermənilərlə bərabər hüquqa malik olacaqlar və onların öz dilində təhsil almaq, öz dinlərində ibadət etmək hüququ təmin ediləcəkdir. Lakin İrəvanı ələ keçirən erməni millətçiləri Ermənistan (Ararat) Respublikası yaradıldıqdan dərhal sonra qəbul etdikləri bütün öhdəlikləri pozdular. Azərbaycan xalqına qarşı soyqırımları dövlət səviyyəsində davam etdirildi; Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağla bağlı ərazi iddiaları irəli sürüldü; sovet rejiminin himayəsi və hərtərəfli köməyi ilə yeni-yeni Azərbaycan torpaqları Ermənistana birləşdirildi; öz ata-baba torpaqlarında yaşayan azərbaycanlılar Ermənistandan sürgün olundu; Ermənistan təkmillətli dövlətə çevrildi. Məqalənin sonunda haqlı olaraq "Azərbaycan Milli Şurasının xalqın iradəsini nəzərə almadan İrəvanın və ətrafındakı torpaqların ermənilərə verilməsi haqqında 29 may 1918-ci il tarixli qərarına yenidən baxılma-

lı və həmin qərar qüvvədən salınmalıdır. Bununla Azərbaycan xalqının öz tarixi torpaqlarına varislik hüququ bərpa olunmalıdır" çağırışı səslənmişdir.

"Azərbaycan" qəzeti eyni zamanda müntəzəm olaraq Tarix İnstitutunun tariximizin ən aktual, ən konseptual məsələləri ilə bağlı nəşr etdirdiyi kitabların təqdimatlarını "İrəvan xanlığının tarixinə dair 4 adda broşürün təqdimatı" (14.09.17), Prezident kitabxanasında "Soyqırımı muzeyi" kitab-albomu" təqdimatı (27.02.17) və s. keçirdiyi bütün tədbirlərin hamısını vaxtında ölkə ictimaiyyətinə çatdırıb. Bundan əlavə, Tarix İnstitutu son illərdə Azərbaycan tarix elmini dünya miqyasına çıxarıb. Azərbaycan tarixçiləri çoxsaylı beynəlxalq konfranslarda uğurla iştirak edib, onların əsərləri dünyanın müxtəlif şəhərlərində (Nyu York, Los Anceles, London, Paris, Roma, Mexiko, Moskva, Kiyev və s.) nəşr edilmişdir. "Azərbaycan" qəzeti bunlar haqqında ölkə ictimaiyyətinə məlumat vermiş və hər zaman diqqət mərkəzində saxlamışdır.

Ən əsası budur ki, xalqın öz tarixi ənənələrinə sahib çıxması, tariximizin təhriflərdən, saxtakarlıqlardan təmizlənməsi, azərbaycançılıq məfkurəsi yolundakı mübarizəsində "Azərbaycan" qəzeti hər zaman Tarix İnstitutunun yanında olmuşdur!

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzeti 1918-1920-ci illərdə ölkəmizin ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatı ilə bağlı yüzlərlə məqalə dərc etdirdi. Cümhuriyyət tarixinin öyrənilməsində "Azərbaycan" qəzetində dərc olunmuş materialların mənbə kimi əhəmiyyəti çox böyükdür. Bu gün də "Azərbaycan" qəzeti həmin missiyasını yerinə yetirməkdə davam edir, ölkəmizin həyatında olduqca mühüm hadisələrlə yanaşı, həm də tariximizin ən konseptual məsələlərini müntəzəm olaraq işıqlandırır. Bu yaxınlarda (21.02.18) AMEA Tarix İnstitutu Elmi Şurasının qərarı ilə "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunmuş elmi konfrans keçirdik. Bu konfransı tarixçi alimlərimizin "Azərbaycan" qəzeti qarşısında milli məfkurə borcu hesab edə bilərik. Çünki bizim "Azərbaycan" qəzeti adi mətbu orqanlardan biri deyil. Qəzet Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdıdır! AXC-nin yaratdığı dövlət orqanıdır!



**Əmir ƏLİYEV,**
*Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı,*
*hüquq üzrə elmlər doktoru, professor*

# Dövlət quruculuğu və hüquqi islahatlar prosesinin nəzəri tribunası

***Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın III bölməsində informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin prinsipləri və formaları müəyyən edilmişdir. Orada qeyd edilir ki, Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi müəyyən prinsiplər əsasında həyata keçirilir: qanunçuluq; şəffaflıq; əməkdaşlıq; qarşılıqlı məsuliyyət; kütləvi informasiya vasitələrinin müstəqilliyinin qorunması, onların fəaliyyətinə hər hansı müdaxilənin istisna edilməsi; yayılması qanunla qadağan olunmuş informasiyadan cəmiyyətin qorunması; kütləvi informasiya vasitələrinin inhisarlaşmasının qarşısının alınması; ictimai maraqları əks etdirən layihələrə üstünlük verilməsi; regional kütləvi informasiya vasitələrinin inkişafının dəstəklənməsi.***

100 yaşını qeyd edən "Azərbaycan" qəzeti də kütləvi informasiya vasitəsi kimi Azərbaycan Respublikası qanunvericiliyinə uyğun fəaliyyət göstərməklə bərabər, cəmiyyətin və dövlətin inkişafına mühüm töhfələr verir, özünəməxsus xüsusiyyətlərə malikdir və hər bir sahədə özünün geniş tənzimetməsi ilə seçilir. Qəzetin Azərbaycan cəmiyyətində əsas rolu dövrün ən aktual problemlərinin qaldırılması, hüquqi məsələlərin təhlili, insan hüquq və azadlıqlarının həyata keçirilməsi, demokratikləşmə, beynəlxalq əməkdaşlıq münasibətlərinin qurulması və s. məsələlərlə bağlı verilən materialların yüksək qiymətləndirilməsidir. Bu, bir neçə istiqamətdə təsnifləşdirilə bilər.

İlk növbədə insan hüquq və azadlıqlarının təmini istiqamətində fəaliyyət xüsusi qeyd edilməlidir. İnsan hüquqlarının ayrı-ayrı aspektlərinə kifayət qədər tədqiqatlar (dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar, elmi məqalələr və s.) həsr edilməsinə baxmayaraq, hazırda da bu, hüquq elminin aktual problemlərindən biri kimi qalmaqdadır. İnsan hüquqları hansı dövlətdə, hansı ərazidə yaşamasından asılı olmayaraq, ictimai münasibətlərin iştirakçısı kimi şəxsiyyət hüququdur. Beynəlxalq konvensiyalarda insan hüquqlarının ancaq vətəndaşa deyil, hər kəsə

məxsusluğu daha geniş yayılmış və artıq formalaşmış bir tendensiyadır. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra beynəlxalq cəmiyyətin tamhüquqlu və beynəlxalq hüququn müstəqil subyekti kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu, eyni zamanda bəşər sivilizasiyasının idealları olan azadlığı, insan hüquqlarını, ədaləti və sülhü özünün inkişaf yolu seçmişdir. Azərbaycan Respublikası, bir tərəfdən, insan hüquqları sahəsində qəbul edilmiş əksər beynəlxalq müqavilələrə qoşulmuş, digər tərəfdən isə bu sahədə mövcud beynəlxalq standartlara uyğun olaraq özünün dövlətdaxili qanunvericiliyini yaratmışdır. İnsan hüquqlarının qorunmasını dövlətin ali məqsədi hesab edən Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 12) beynəlxalq hüquq normalarının primatlığını (üstünlüyünü) qəbul edən kifayət qədər müddəalar var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 iyun 2007-ci il tarixli fərmanı ilə hər il iyunun 18-i dövlətimizdə İnsan Hüquqları Günü kimi qeyd edilir. Bu isə dövlətin özünün beynəlxalq, o cümlədən mülki cəmiyyət qarşısında öhdəliklərinə bir daha qayıtması və daim xüsusi yanaşması deməkdir. Bu cəhətdən insan hüquqları sahəsində mühüm araşdırmaların və təhlillərin olması, müxtəlif problemlərin insan hüquqları nöqteyi-nəzərindən analizi çox vacibdir.

İnsan hüquqları problemlərinə ciddi yanaşma "Azərbaycan" qəzetinin ana xəttini təşkil edir. Bu cəhətdən xüsusi bir nümunə kimi Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) professor Elmira Süleymanova tərəfindən təqdim edilmiş yazıları xüsusi qeyd etmək istərdim. Bunlardan biri "Azərbaycanda insan hüquqlarının müdafiəsində yeni mərhələ" adlanır və "Azərbaycan" qəzetinin 18 dekabr 2016-cı il tarixli nömrəsində çap edilmişdir. Məqalə ümummilli lider Heydər Əliyevin məşhur kəlamları ilə başlayır: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar". Məqalədə praktik hallarla təhlillər aparılaraq xüsusi vurğulanır ki, ombudsman təsisatı ölkəmizdə məhkəmədənkənar insan hüquqlarının müdafiəsi orqanı olan ilk mexanizm kimi zərurətdən yaranmış və uğurlu olmuşdur. Əminliklə ifadə edilir ki, bundan sonra da hər bir kəsin hüquqlarının və layiqli həyatının təmin olunmasına, dayanıqlı inkişaf məqsədlərinə xidmət etməklə yeni nailiyyətlər əldə ediləcəkdir.

İnsan hüquqlarının təminatı problemlərinin geniş müzakirəsi ilə əlaqədar "Azərbaycan" qəzeti redaksiyasında keçirilmiş "Azərbaycanda insan hüquqlarının təminatı: nailiyyətlər, problemlər, perspektivlər" mövzusunda 10 dekabr 2013-cü il tarixli "dəyirmi masa" xüsusi qeyd edilməlidir. Göstərilmişdir ki, bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları dünyada hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. Çünki istənilən cəmiyyətin və dövlətin inkişafı demokratiyanın ali prinsiplərindən biri sayılan insan hüquqlarına hörmət olmadan, insan hüquqlarının nə olduğunu dərk etmədən mümkün deyildir. Buna görə də hələ 70 il əvvəl – 1948-ci il dekabr ayının 10-da BMT Baş Məclisi tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi insan hüquqlarının etibarlı təminatının sivil cəmiyyətlərdə nə qədər mühüm və aktuallıq kəsb edən məsələyə çevrildiyini göstərirdi. Azərbaycan Respublikası da dünya birliyinin üzvü kimi demokratik, hüquqi inkişaf yolunu seçmişdir. Odur ki, respublikamızda insan hüquqlarının demokratik dəyərlər çərçivəsində təmini bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. Bu cəhətdən "Azərbaycan" qəzeti redaksiyasında keçirilən "dəyirmi masa"da ölkəmizdə insan hüquqlarının təminatı sahəsində əldə olunan nailiyyətlər, mövcud problemlər və gələcək perspektivlər ətrafında müzakirələr aparıldı. "Dəyirmi masa"nın iştirakçıları "Azərbaycan" qəzetinin baş redaktoru Bəx-

tiyar Sadıqov, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Azərbaycan Hüquqşünaslar Konfederasiyasının sədri Əli Hüseynli, Milli Məclisin deputatı, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının İdarə Heyətinin üzvü Elman Məmmədov, hüquq elmləri doktoru Lətif Hüseynov və bu məqalənin müəllifi olmuşdur. Daha sonra "dəyirmi masa"da qeyd edilmişdir ki, bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları dünyada hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. Çünki istənilən cəmiyyətin və dövlətin inkişafı demokratiyanın ali prinsiplərindən biri sayılan insan hüquqlarına hörmət olmadan, insan hüquqlarının nə olduğunu dərk etmədən mümkün deyildir. Azərbaycan Respublikası da dünya birliyinin üzvü kimi demokratik, hüquqi inkişaf yolunu seçmişdir. Odur ki, respublikamızda insan hüquqlarının demokratik dəyərlər çərçivəsində təmini bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. Beləliklə, "Azərbaycan" qəzetində də belə bir tədbirin keçirilməsi çox əhəmiyyətlidir.

❖ ❖ ❖

Hüquqi islahatların aparıldığı mühüm istiqamətlərdən biri də qadınların hüquqlarının müdafiəsidir. Bu nöqteyi-nəzərdən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hicran Hüseynovanın "Azərbaycan" qəzetinin 8 dekabr 2013-cü il sayında çap edilmiş "Əsrin şəxsiyyəti" adlı məqaləsi hüquqi cəhətdən də mühüm əhəmiyyət kəsb edir. Məqalədə qeyd edilir ki, Azərbaycan tarixində qadın probleminin həlli, sistemli şəkildə dövlət səviyyəsinə qaldırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Cəmiyyətin və dövlətin idarə edilməsində əsas hərəkətverici qüvvə mövcuddur ki, bunlardan biri də qadınlardır. Bu baxımdan ulu öndər Heydər Əliyev istər müstəqillikdən əvvəl, istərsə də müstəqillikdən sonrakı dövrdə qadınların cəmiyyətdə aktiv fəaliyyət göstərməsi üçün bütün imkanları yaratmışdı... Azərbaycanda qadınlara diqqət və qayğı göstərilərək onlar bilik və bacarıqlarına, istedad və intellektinə görə irəli çəkilmiş, yüksək vəzifələrə təyin edilmişdir. Həyatımızın bütün sahələrini əhatə edən "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" qanunun təsdiqi ilə bağlı ölkə Prezidentinin 10 oktyabr 2006-cı il tarixli fərmanı, əslində, müstəqillik dövrünün ən önəmli sənədlərindən biridir. Buradan belə nəticəyə gələ bilərik ki, "Gender (kişi və qadın) bərabərliyinin təminatları haqqında" qanun təkcə qadınlara şamil olunmur, həm də cəmiyyətin bütün üzvlərini əhatə edir... Prezident İlham Əliyevin 2 oktyabr 2010-cu il tarixdə imzaladığı fərmanla "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbulu qadın məsələlərinin hər zaman dövlət başçısının diqqət mərkəzində olduğunun təzahürüdür. Bu gün Azərbaycan dövləti tərəfindən həyata keçirilən layihələrdə, qəbul olunan dövlət proqramlarında gender komponentləri nəzərə alınır və əsas istiqamət kimi götürülür...

Qadın hüquqlarının müdafiəsində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın xüsusi dəstəyi olub. Mehriban xanım Azərbaycan qadın hərəkatının liderlərindən biri olaraq dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir. Həm ölkəmizin daxilində, həm də ölkə hüdudlarından kənarlarda bir sıra beynəlxalq təşkilatlar tərəfindən yüksək mükafatlara və orden-medallara layiq görülməsi Mehriban xanım Əliyevanın öz xalqına, dövlətinə sədaqətinin, yerinə yetirdiyi şərəfli missiyanın göstəricisidir. Qısa müddət ərzində gördüyü işlərlə, həyata keçirdiyi layihələrlə Azərbaycan xalqının sevgisini və etibarını qazanmışdır. Mehriban xanım, demək olar ki, əsas fəaliyyətini böyüməkdə olan nəslin düzgün təlim-tərbiyəsinə yönəlmiş layihələrin reallaşdırılmasına həsr etmişdir.


AZƏRBAYCAN
İLHAM ƏLİYEV: növbəti qlobal layihəsi ilə Avropanın yeni enerji xəritəsini və təhlükəsizliyini tərtib edir
Xalq Cümhuriyyəti qurucularının arzuları reallığa çevrilib
Prezident İlham Əliyevin nitqi
İstiqlal irsinə böyük ehtiram
AZƏRBAYCAN
Azərbaycanın özü qədər əbədi
LİDERLİK ÖRNƏYİ
AZƏRBAYCAN ZİRVƏSİ
1923
Azərbaycanın özü qədər
AZƏRBAYCAN ZİRVƏSİ
AZƏRBAYCAN
Zamanın fövqündə yaşayan lider
İlham ƏLİYEV: "Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz, bizi tutduğumuz yoldan heç kim döndərə bilməz"

❖ ❖ ❖

Növbəti mühüm məsələ Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan torpaqlarının işğaldan azad olunması, 1 milyondan çox Azərbaycan vətəndaşının öz doğma yurdlarına qayıtması və bütövlükdə Qarabağ probleminin həllidir. Bu problem üzrə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması vacib məsələlərdən biridir. Qeyd edilən məsələ dövlət başçımızın gündəlik fəaliyyətinin əsas məzmununa daxildir. Vurğulanmalıdır ki, dünya qloballaşmaya qədəm qoyduqca, cəmiyyətlərarası inteqrasiya gücləndikcə nədənsə beynəlxalq müstəvidə mövcud problemlər həll olunmaq əvəzinə daha da çətinləşir və düyünlənir. Bu problemləri orta əsrlərdə, hətta XX əsrdə də başa düşmək olardı. Belə ki, XX əsrdə iki sistem (sosialist və qeyri-sosialist) arasında ziddiyyətlər də arxada qalmış və yeni bir müstəviyə keçid yaranmışdır. Hazırda beynəlxalq hüquq normaları kifayət qədər sahələrə nüfuz etmiş, güclü beynəlxalq təşkilatlar (Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlığı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və s.) və geniş beynəlxalq müqavilələr sistemi qurulmuş, həqiqətən, sivil və demokratik cəmiyyətlərin mövcud olduğu dövlətlər formalaşmış, mütərəqqi ideyalar daha da inkişaf etmişdir. Bəs onda nə üçün təcavüzkarlıq, soyqırımı siyasəti daha da aktivləşir, adi, elementar insan hüquqları ayaqlar altına salınır, dünya da buna susur? Bu sualın əsas cavabı ikili standartların mövcudluğu və daha da inkişafıdır. Belə olmasaydı, ermənilərin xalqımıza qarşı XIX əsrdən başlayan və XX əsrdən sürətlənən təcavüzkarlıq və soyqırımı siyasəti dünya ictimaiyyəti tərəfindən cavabsız qalmazdı. Təcavüz və soyqırımı siyasətinin beynəlxalq ictimaiyyətin gözü qarşısında davam etməsi isə beynəlxalq əməkdaşlıq siyasətinə ağır zərbələr vurmaqdadır. Beynəlxalq ictimaiyyətin həmin hadisələrə müəyyən mənada biganə qalması, son nəticədə beynəlxalq hüququn fəaliyyətsizliyi təəssüfləndirici hal kimi xüsusi qeyd olunmalıdır. Şübhəsiz ki, burada digər dövlətlərin maraqları və xalqımızın daim beynəlxalq cinayətlərin hədəfində saxlanması məqsədləri də nəzərdən qaçırılmamalıdır. Məlumdur ki, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə (822, 853, 874, 884 nömrəli) qəbul edilmişdir. Lakin hələ də həmin qətnamələr yerinə yetirilməmişdir ki, bu da universal beynəlxalq təşkilat kimi BMT-nin nüfuzuna və onun beynəlxalq cəmiyyətdəki mövqeyinə ciddi zərbədir. ATƏT-

in Minsk qrupu çərçivəsində intensivləşən danışıqlar prosesi hələlik nəticə verməsə də, Azərbaycan Respublikası ötən müddətdə münaqişənin həllində məhz beynəlxalq hüquq normalarına əsaslandığını ən müxtəlif səviyyələrdə sübuta yetirə bilmişdir. Digər beynəlxalq təşkilatlar (Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və s.) tərəfindən qəbul edilən qərarlar da bunu bir daha sübut edir.

"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1997-ci il tarixli fərmanında azərbaycanlıların tarixi-etnik torpaqlarından ədalətsiz deportasiya siyasətinə dolğun hüquqi-siyasi qiymət verilmişdir. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı isə erməni millətçilərinin əməllərinə verilən növbəti hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Nəhayət, "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 18 yanvar 2018-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamında isə qeyd edilir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlar nəticəsində Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilmiş, sonrakı dövrlərdə isə daha da azğınlaşan erməni millətçiləri tərəfindən Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirilmişdir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirilən xarici siyasət və əməli addımlar təcavüzkar Ermənistanı bir daha işğalçılıq hərəkətlərinə son qoymağa və münaqişəni dinc yolla həll etməyə dəvət edir. Lakin beynəlxalq təşkilatlar qarşısında bu proses daim təcavüzkar Ermənistan tərəfindən pozulur ki, bu da işğalçı dövlət kimi Ermənistanın qeyri-konstruktiv siyasətinə və hələ də beynəlxalq hüquqa heç bir məhəl qoymayaraq bu siyasətini davam etdirməsinə tam dəlalət edir. "Azərbaycan" qəzetinin 18 oktyabr 2016-cı il tarixli nömrəsində dərc edilmiş Prezident İlham Əliyevin "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinə müsahibəsində xüsusi olaraq vurğulamışdır: "Əgər tarixi götürsək, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, həmişə belə olub. Biz erməni əhalinin İrandan, Şərqi Anadoludan bu torpaqlara kütləvi şəkildə köçürülməsinin tarixini bilirik. Bütün tarix, bütün toponimlər, o cümlədən Qarabağ sözünün özü də Azərbaycan mənşəlidir... Azərbaycanlıları əvvəlcə Dağlıq Qarabağdan qovdular. Sonra Azərbaycanın Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan yeddi rayonunu işğal etdilər, həmin rayonlarda yalnız azərbaycanlı əhali yaşayırdı, orada hər şey dağıdıldı. ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərdi, onların hesabatı lap dəhşətlidir: orada bircə bina da salamat qalmayıb, qəbiristanlıqlar, məscidlər hamısı yerlə yeksan edilib... BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində erməni işğalçı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması tələb edilir. Lakin 20 ildən çoxdur ki, bu qətnamələr icra edilmir... Münaqişənin nəyə görə nizamlanmamasının əsas səbəbi odur ki, Ermənistan artıq 24 ildir, Minsk qrupu yaradıldığı andan danışıqlar prosesinin azacıq da olsa, irəliləməsinə müxtəlif yollarla mane olur... Biz regionda sülh istəyirik və bizim mövqeyimiz kifayət qədər konstruktivdir. Lakin biz öz ərazilərimizi istəyirik. Ermənistan sülh istəyir, amma o, özgə ərazilərini qaytarmaq istəmir... Azərbaycanın ərazi bütövlüyü məsələsində kompromis ola bilməz, lakin yerli özünüidarə, Dağ-

lıq Qarabağın özünüidarəsi məsələlərinə dair kompromis ola bilər. Əgər razılığa gəlsək, bu, gələcəkdə muxtar respublika ola bilər".

"Azərbaycan" qəzetinin 8 aprel 2016-cı il tarixli nömrəsində dərc edilmiş və 2016-cı ilin aprel ayının əvvəllərində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən qəhrəmanlıqla həlak olan şəhidlərimizin anaları ilə görüşündə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva demişdir: "Azərbaycan dövləti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün artıq 20 ildən çoxdur ki, bütün səylərini göstərir. Biz istəyirik ki, torpaqlarımız azad edilsin. Biz istəyirik ki, insanlarımız öz doğma yurdlarına qayıtsın. Biz işğalçı deyilik. Biz işğalçı ilə mübarizə aparan millətik. Bizim heç bir başqa millətin, başqa xalqın torpağında gözümüz yoxdur. Biz, sadəcə, öz torpaqlarımızı işğaldan azad etmək istəyirik. Bu həqiqəti bütün dünya bilir və artıq qəbul etməlidir... Mən əminəm ki, ədalət bərpa olunacaq. Azərbaycan torpaqları işğaldan azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bütün qaçqınlarımız, məcburi köçkünlərimiz öz doğma torpaqlarına qayıdacaqlar".

Göründüyü kimi, dövlətimizin mövqeyi birmənalıdır. Bu mövqe "Azərbaycan" qəzetində də daim xüsusi olaraq vurğulanır. Bu cəhətdən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində çap etdirdiyi məqalə xüsusi olaraq qeyd edilməlidir. "Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın vətəndaş cəmiyyəti kontekstində" adlanan və "Azərbaycan" qəzetinin 1 dekabr 2016-cı il nömrəsində çap edilmiş məqalədə akademik Ramiz Mehdiyevin mövqeyi xüsusilə diqqətəlayiqdir: "İstər iki ölkənin prezidentlərinin görüşləri, istərsə də ATƏT-in Minsk qrupunun vasitəçilik fəaliyyəti lazımi nəticələr verməyib. Dağlıq Qarabağ probleminin həllində, danışıqların bərpa olunmasında ən nüfuzlu beynəlxalq təşkilatlar və ayrı-ayrı siyasi xadimlər iştirak edir. Lakin hələlik heç kəs təminat verə bilməz ki, Dağlıq Qarabağda atəşkəs rejimi yaxın gələcəkdə ədalətli sülhlə başa çatacaq. Ona görə ki, əslində, müharibə nə cəbhədə dayandırılıb (işğal edilmiş ərazilər indiyə qədər işğaldan azad olunmayıb), nə diplomatik, nə də media məkanında başa çatıb. Dağlıq Qarabağ münaqişəsi həm biznes sahəsi, həm də siyasət – çirkli biznes və məkrli siyasət qurmaq imkanı kimi, kimlər üçünsə sərfəlidir". Bu, beynəlxalq təşkilatlara haqlı olaraq ciddi etirazdır.

❖ ❖ ❖

Akademik Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində 2016-cı il iyul ayının 5-də dərc edilmiş müsahibəsi də çox önəmlidir. Müsahibədə deyilir: "Ermənistan BMT Təhlükəsizlik Şurası başda olmaqla, dünyanın nüfuzlu təşkilatlarının tələb və çağırışlarını qulaqardına vurur, beynəlxalq qanunvericiliyi pozur, 25 ildir ki, Azərbaycan ərazilərini işğal altında saxlayır. Təəssüf ki, beynəlxalq birlik, bilavasitə problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri bu günə kimi işğal faktının aradan qaldırılması və ədalətin bərpa olunması istiqamətində heç bir təsirli addım atmayıblar. Baxmayaraq ki, dünyanın müxtəlif nöqtələrində baş verən analoji münaqişələrin qısa zamanda tənzimlənməsi, işğalçının cəzalandırılması, ona qarşı müxtəlif təsirli sanksiyaların tətbiq edilməsinə dair çoxsaylı faktlar mövcuddur. Əminliklə demək olar ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartlar siyasəti, cəzasızlıq mühiti Ermənistanın hərbi-siyasi rejiminin yeni cinayətlərini şərtləndirən başlıca səbəblərdir. Dünya birliyinin qətiyyətsizliyi şəraitində Ermənistan hakimiyyəti nəinki beynəlxalq təşkilatların qərar və qətnamələrini icra etməkdən boyun qaçırır, eyni zamanda beynəlxalq humanitar

hüququn, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, Cenevrə konvensiyalarının, onlara 1 saylı əlavə protokolun tələblərini, Uşaq Hüquqları haqqında Konvensiya çərçivəsində üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozaraq dinc azərbaycanlı əhaliyə qarşı cəza tədbirləri həyata keçirir... Birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycan dövləti işğal faktı ilə heç vaxt barışmayacaq, öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü və əhalisinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir. Bu, sadəcə söz deyil, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə səsləndirilmiş prinsipial və dəyişməz mövqedir. Beynəlxalq birlik, ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın cinayətkar rejimi bu reallığı dərk etməlidirlər".

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun hələ 18 oktyabr 2016-cı il tarixdə "Azərbaycan" qəzetində çap etdirdiyi "Müstəqil Azərbaycan dünyada böyük nüfuza, güclü beynəlxalq mövqeyə sahibdir" məqaləsində qeyd edilir: "Dünya birliyi və beynəlxalq təşkilatlar da Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişənin həllinin hüquqi əsasları BMT-nin Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi qətnamə, habelə Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası, NATO, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatların qərar və qətnamələrinə, beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləyir. Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində son illər atdığı addımlar diqqəti çəkir. Bu istiqamətdə atılan addımlar göstərir ki, Azərbaycan diplomatiyasının beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyəti əsasən Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsinə yönələn beynəlxalq səylərin gücləndirilməsinə yönəlib".

Əlbəttə ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, Azərbaycanın özünümüdafiə hüququnun mövcudluğuna baxmayaraq, dövlətimiz beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına sadiqliyini bir daha göstərərək daim sülhsevər və müharibədən imtina siyasətini saxlayır, dünyada və regionda sülh naminə bütün mümkün kompromis variantları təklif edir. Ermənistan isə ikili standartlarla pərdələnərək özünün işğalçılıq və hələ də davam edən beynəlxalq cinayətlər törətmək siyasətindən əl çəkmir. Qeyd olunanları nəzərə alaraq, habelə dövlətimizin beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun şəkildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinə tərəfdar olduğunu və bu istiqamətdə ATƏT-in Minsk qrupunun vasitəçilik missiyasını yüksək qiymətləndirməsinə baxmayaraq, müvafiq hal heç də qətiyyən Ermənistanın törətdiyi beynəlxalq cinayətlərin (təcavüz, soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər, terrorçuluq) cəzasız qalmasına razılıq anlamına gəlmir. Bu hal, bir tərəfdən, Azərbaycanın haqlı tələbi olsa da, digər tərəfdən, beynəlxalq hüququn *jus cogens* və digər normalarının ciddi və sistem pozuntusu hesab olunmaqla, Ermənistan tərəfindən müvafiq beynəlxalq hüquqi sənədlərdə və Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda təsbit olunan cinayətlərə mütəmadi və davamlı şəkildə yol verilməsi ilə bağlıdır. Eyni zamanda, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamədə (822, 853, 874, 884 nömrəli) qeyd olunduğu kimi, regional sülh və təhlükəsizliyə təhlükə kimi nəzərdən keçirilməlidir. Beləliklə, Azərbaycan silahlı münaqişənin dinc yolla həllinə dair beynəlxalq hüquq normalarına hörmətlə yanaşdığı kimi, beynəlxalq cinayətlər törətmiş Ermənistanın və aidiyyəti fiziki şəxslərin beynəl-

xalq-hüquqi məsuliyyətə cəlb olunması üçün beynəlxalq hüququn tamhüquqlu subyekti olaraq, beynəlxalq hüquq normaları ilə müəyyən olunmuş subyektiv imkanlara və onların lazımınca realizəsini tələb etmək hüququna malikdir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Baş prokurorunun müavini, hərbi prokuror, ədliyyə general-leytenantı, hüquq üzrə fəlsəfə doktoru Xanlar Vəliyevin "Azərbaycan" qəzetinin 30 mart 2014-cü il tarixli sayında çap edilmiş "Soyqırımı insanlığa qarşı amansız cinayətdir" adlı məqaləsi hüquqi faktlar baxımından çox əhəmiyyətlidir. Məqalə müəllifi yazır: "XX əsrin qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmiş Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz və insanlığa qarşı törətdikləri cinayətlərə görə onların məhkəmə məsuliyyətinə alınacaqları qaçılmazdır... Qarşımızda duran əsas vəzifələr xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaqdır. Vaxt gələcək, dünya birliyi ermənilərin bəşəriyyət üçün həm ləkə, həm də təhlükəli olduğu gerçəkliyini qəbul edəcək və Azərbaycan xalqına qarşı tarixən törədilən cinayətlərə və soyqırımına obyektiv qiymət verəcəkdir".

❖ ❖ ❖

"Azərbaycan" qəzetinin mühüm fəaliyyət istiqamətlərindən biri hüquqi dövlət quruculuğudur. Dövlət hakimiyyətinin hüquqla əlaqəliliyi məsələsində hüquqi dövlətə xas olan hakimiyyət bölgüsü prinsipi xüsusi yer tutur. Bu prinsip ondan irəli gəlir ki, özünün normal inkişafı və fəaliyyəti üçün dövlət bir-birindən asılı olmayan hakimiyyət qollarına malik olmalıdır. Bu zaman qanunverici, icra və məhkəmə hakimiyyəti fərqləndirilir. Hüquqi dövlətin digər əlaməti kimi qanunun aliliyini göstərmək olar. Qanunun aliliyi hüquqyaradıcılığı fəaliyyətinin xarakteri ilə təsdiqlənir. Müasir hüquqyaradıcılığı çox mürəkkəb və geniş məfhumdur. Hüquqyaradıcılığı ilə müxtəlif subyektlər məşğul olurlar. Lakin müasir hüquqyaradıcılığının əsasını qanunvericilik fəaliyyəti təşkil edir. Bu fəaliyyətin əsas məzmununu ümummәcburi hüquqi qaydaların yaradılması təşkil edir. Hüquqi dövlətin əsas xüsusiyyətlərindən biri kimi vətəndaşın və dövlətin qarşılıqlı məsuliyyəti prinsipinin müəyyən olunması və təmin olunmasını göstərmək olar. Nəzəriyyəyə müvafiq olaraq bu prinsipə həm vətəndaşlar tərəfindən, həm də dövlət tərəfindən riayət olunmalıdır. Şəxsiyyətin hüquqi statusda ifadə edilmiş dövlətin və şəxsiyyətin qarşılıqlı məsuliyyəti prinsipi demokratik cəmiyyətdə şəxsiyyətin vəziyyətinin xüsusiyyətlərini, reallıq və onun hüquqlarının təminatını ətraflı şəkildə izah edir. Hüquqi dövlətin yaranması və fəaliyyəti üçün mühüm şərt və ilkin zəmin kimi vətəndaş cəmiyyətini də qeyd etmək lazımdır. Hüquqi dövlət özünün əsas funksiyasının (insan və vətəndaşların hüquq və azadlıqlarının tanınması və müdafiəsi) yerinə yetirilməsi məqsədilə prosedurlar sistemi, mexanizmlər, insanların subyektiv hüquqlarının müdafiəsinə təminat verən institutlarla təchiz olunmalıdır.

Bu zaman əsas hüquqi problemlər sırasında konstitusion məsələlərin geniş təhlili xüsusilə əhəmiyyətlidir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin "Konstitusiya dövlətin hüquq sisteminin əsasıdır" adlı "Azərbaycan" qəzetinin 9 noyabr 2013-cü il tarixli məqaləsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məşhur sözləri ilə başlayır: "Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik, vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək

və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir". Məqalədə qeyd edilir ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlətçilik tarixində mühüm hadisə olmuş, ölkəmizdə müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün böyük yol açmış, insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə zəmin yaratmaqla ölkə həyatının bütün sahələrinin inkişafına təkan vermişdir. Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanaraq 18 il bundan əvvəl qəbul edilmiş bu ümumxalq əhəmiyyətli sənəd, sözün əsl mənasında, ölkənin Əsas Qanununa çevrilərək dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı qanunvericilik və institusional islahatların əsası kimi çıxış etmişdir.

Hüquq elmləri doktoru Fərhad Abdullayevin daha sonra "Azərbaycan" qəzetinin 12 noyabr 2016-cı il tarixli nömrəsində çap edilmiş "Konstitusiya islahatları ölkəmizdə demokratikləşmə proseslərinin və inkişafın möhkəmləndirilməsinə xidmət edir" adlı məqaləsində qeyd edilir ki, Azərbaycanın qanunvericilik sisteminin əsasını təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə siyasi sabitliyin, ictimai sülhün və milli barışığın qarantı kimi çıxış edir, hüquqi-siyasi münasibətlər sisteminə və hüquq düşüncəsinə əhəmiyyətli təsir göstərir. Konstitusiya dövlət quruluşunun əsaslarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini, siyasi sistemin təşkili prinsiplərini, hakimiyyətlərin bölünməsini, hakimiyyət orqanlarının təşkilini, səlahiyyətlərini və fəaliyyət qaydalarını müəyyənləşdirir, insan hüquqları və azadlıqlarının təminatı ilə bağlı mühüm məsələləri tənzimləyir. Dövlət quruluşunun başlıca prinsiplərini müəyyən etməklə yanaşı, Konstitusiya həm də cəmiyyət həyatının müxtəlif sahələrinə dövlətin müdaxiləsinin meyarlarını və belə müdaxilənin yol verilə bilən hədlərini dəqiqləşdirir, bu sahədə dövlət siyasətinin ümumi istiqamətlərini müəyyən edir. Ölkə Konstitusiyasının preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətləri bəyan edilmişdir. Konstitusiya Azərbaycanın konstitusiya quruluşunun vacib əsası kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etməyi və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini dövlətin ali məqsədi kimi göstərir.

Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi üzrə 2002, 2009 və 2016-cı illərdə keçirilmiş referendumlar isə insan hüquqlarının təminatında yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu referendumlarla Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilk növbədə insan hüquqlarının daha real təminatının əsası olan hüquqi dövlət-sosial dövlət münasibətlərini meydana gətirmiş, Azərbaycan Respublikasının sosial dövlət kimi möhkəmlənməsini, dövlətimizin özünün vətəndaşları qarşısında daha ciddi öhdəlik götürməsinin qanunvericilik əsaslarını müəyyən etmişdir. Bütövlükdə referendumlarla Konstitusiyaya edilən əlavə və dəyişikliklər

Azərbaycan Respublikasında dövlət quruculuğunun yeni mərhələsinin başlandığını bildirmiş, insan hüquq və azadlıqlarının genişləndirilərək daha real və səmərəli təmininə şərait yaratmış, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə və daha da təkmilləşdirilməsinə, dövlətimizin beynəlxalq cəmiyyətə daha sürətli inteqrasiyasının konstitusion əsaslarının inkişafına gətirib çıxarmışdır.

Bu cəhətdən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) professor Elmira Süleymanovanın "Konstitusiya islahatları insan hüquqlarının inkişafına və idarəetmənin təkmilləşməsinə xidmət edir" adlı "Azərbaycan" qəzetinin 3 sentyabr 2016-cı il tarixli nömrəsində çıxan məqaləsində qeyd edilir ki, Konstitusiyaya edilən əlavə və dəyişikliklərin mühüm bir qismi Azərbaycan dövlətinin insan və şəxsiyyət amilini yüksək tutaraq yeritdiyi sosialyönümlü siyasət strategiyasının daha dolğun, hərtərəfli ifadəsinə, vətəndaşların hüquq və azadlıqlarının genişləndirilməsinə, dövlətin sosial məsuliyyətinin artırılmasına xidmət etmişdir.

Referendumla bağlı təbliğat sisteminin qurulması, o cümlədən Konstitusiyaya əlavə və dəyişikliklərin mahiyyətinin ictimaiyyətə çatdırılması "Azərbaycan" qəzetinin əsas hədəflərindən olmuşdur. Burada müəllifi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin müəllimi Elşad Nəsirovun olduğu, "Azərbaycan" qəzetinin 3 sentyabr 2016-cı il tarixli nömrəsində çap edilmiş "İnsan və vətəndaşın siyasi hüquq və azadlıqlarının təkmilləşdirilməsi konstitusion referendumun əsas məqsədlərindən biridir", müəllifi hüquq üzrə fəlsəfə doktoru, dosent Fəxrəddin Nağıyevin olduğu və "Azərbaycan" qəzetinin 11 sentyabr 2016-cı il tarixli nömrəsində çap edilmiş "Təklif edilən dəyişikliklər Əsas Qanunumuzu inkişafda olan ictimai münasibətlərə uyğunlaşdırmağa xidmət edir" məqalələri xüsusilə qeyd edilməlidir.

Hətta tələbə tribunasına da yer verilməsi "Azərbaycan" qəzetinin özəl xüsusiyyətlərindəndir. Belə ki, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin tələbəsi Erkin Musayevin "Azərbaycan" qəzetinin 23 sentyabr nömrəsində dərc edilmiş "Konstitusion əsasların təkmilləşdirilməsi xalqın iradəsinin ifadəsidir" məqaləsi bu cəhətdən xüsusi qeyd edilməlidir.

Konstitusiya islahatları ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Əli Hüseynlinin "Azərbaycan" qəzetinin 8 noyabr 2012-ci il nömrəsində çap edilmiş "Heydər Əliyev zəkasının məhsulu olan Azərbaycanın Konstitusiyası demokratik, hüquqi dövlət quruculuğunun təminatçısıdır" məqaləsində qeyd edilir ki, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası nəinki ölkənin, habelə xalqın dövlətçilik iradəsini, suverenliyini ifadə edən Əsas Qanun olmaqla, cəmiyyətin ictimai-siyasi institutlarının fəaliyyətini, dövlətin özünüidarə sistemini tənzimləyərək vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi təminatçısı qismində çıxış edir. Ümummilli lider Heydər Əliyevin Əsas Qanunumuzla bağlı söylədiyi – "Konstitusiyanın hər bir müddəası xalqın iradəsini ifadə edir" fikri, zənnimizcə, bu ali hüquqi sənədin dövlət və cəmiyyətdəki roluna verilən ən mühüm qiymətdir.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyevin "Azərbaycan" qəzetinin 13 iyun 2017-ci il nömrəsində çap edilmiş "Əbədi müstəqilliyə təminat formulu: güclü dövlət – müstəqil siyasət" adlı məqaləsində qeyd edilir ki, 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı.

❖ ❖ ❖

Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən ədliyyə sisteminin inkişafı məsələlərinin təhlili də "Azərbaycan" qəzetində geniş əks olunur. Bununla əlaqədar olaraq "Azərbaycan" qəzetinin 22 noyabr 2013-cü il nömrəsində dərc edilmiş "Azərbaycan ədliyyəsi dövlətimizlə bərabər inkişaf edir" adlı və müəllifi Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri olan Fikrət Məmmədovun məqaləsi xüsusilə diqqəti cəlb edir. Məqalədə deyilir: "Əsrə yaxın inkişaf yolu keçən Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, həmin il noyabrın 22-də nazirliyin əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən olunmuşdur. Həmin dövrə nəzər salanda şahidi oluruq ki, Ədliyyə Nazirliyi o vaxtlar şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür. İlk növbədə ədliyyə, məhkəmə və istintaq strukturları bərpa edilmiş, respublikada qayda-qanunun bərqərar olması, yeni hüquq sisteminin təşkili ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuş, zəruri hüquqşünas kadrların hazırlanması və əhalinin hüquqi maarifləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır... Fəaliyyəti unudulmaz hadisələrlə yadda qalan Ədliyyə Nazirliyinin həm də çətin və mürəkkəb dövrü olmuşdur. 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri xeyli məhdudlaşdırılmış, iki dəfə ləğv olunaraq yenidən təsis edilmiş, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmişdir. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına ciddi əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi, ədliyyə işinin təkmilləşdirilməsi məhz 1970-ci ilə – ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Həmin dövrdən etibarən Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılmışdır.


AZƏRBAYCAN
91%
Konstitusiya islahatlarına, müstəqil siyasətə, yeni inkişaf strategiyasına «HƏ» deyən
Xalq İlham Əliyevə növbəti etimad mandatı verdi
Mərkəzi Seçki Komissiyasının bu gün saat 02:00-da elan etdiyi ilkin nəticələrə görə:
Dəyişikliklərə müsbət rəy verənlər - 91,2 %
Seçici fəallığı - 69,7 %

AZƏRBAYCAN naminə

Xeyirxahlıq ilahəsi

Ümummilli liderin dövlət quruculuğu xəttini uğurla davam və inkişaf etdirən İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyi son illər ərzində Ədliyyə Nazirliyində və bütövlükdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir".

Daha sonra Fikrət Məmmədovun "Azərbaycan" qəzetinin 22 noyabr 2016-cı il nömrəsində çap edilmiş "Azərbaycan ədliyyəsi müstəqilliyimizlə birgə inkişaf edir" adlı məqaləsində də ədliyyə sistemi və hüquqi problemlərlə əlaqədar mühüm məsələlərin geniş işıqlandırılmasına nail olunmuşdur. Məqalədə qeyd edilir ki, dövlət başçısının məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, şəffaflığın maksimum artırılması, eləcə də qərəzli yanaşmanın yolverilməzliyi, korrupsiya hallarının tam aradan qaldırılması, məhkəmə sistemində müsbət beynəlxalq təcrübənin tətbiqi ilə bağlı tapşırıqların icrası üzrə Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası tərəfindən məqsədyönlü tədbirlər davam etdirilir. Ədliyyə və məhkəmə sistemimizin müasirləşdirilməsi istiqamətində qazanılan bütün nailiyyətlər möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların real təzahürüdür.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun "Azərbaycan" qəzetinin 1 oktyabr 2016-cı il tarixli nömrəsində dərc olunmuş "Ölkədə aparılan hüquqi islahatlar prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşməsinə mühüm töhfədir" məqaləsində prokurorluq orqanlarının fəaliyyətinin əsas istiqamətləri təhlil edilir. Daha sonra "Azərbaycanın məhkəmə sistemi davamlı islahatlar yolundadır" adlı və "Azərbaycan" qəzetinin 18 noyabr 2016-cı il tarixli nömrəsində çap edilmiş, müəllifi Yasamal Rayon Məhkəməsinin sədri, Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ələddin Cəfərovun olduğu məqalədə qeyd edilir ki, ötən illər ərzində uğurla davam etdirilən çoxşaxəli islahatlar respublika məhkəmələrinin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin qanunamüvafiq şəkildə həyata keçirildiyi müstəqil hakimiyyət qolu kimi fəaliyyət göstərmələrinə imkan yaratmışdır. Bölgələrdə yaşayan əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə regionlarda inzibati-iqtisadi, ağır cinayətlər və hərbi məhkəmələrin yaradılması, hakimlərin və məhkəmə aparatı işçilərinin sayının artırılması, hakim vəzifəsinə seçki və təyinatların şəffaf, ədalətli mexanizmlərlə reallaşdırılması, məhkəmə orqanları üçün yüksək estetik zövqlə inşa edilmiş inzibati komplekslərin müasir texnologiyalarla təchiz olunmaları həyata keçirilən islahatların real miqyası barədə kifayət qədər obyektiv təsəvvür formalaşdırır. Qazanılan nailiyyətlər məhkəmələrlə yanaşı, milli ədliyyə sisteminin də hərtərəfli yeniləşməsinə və müasirləşməsinə, dövlətin ən mühüm, əlahiddə hüquq təsisatlarından birinə çevrilməsinə imkan yaratmışdır.

❖ ❖ ❖

Növbəti məsələlərdən biri cinayətkarlıqla mübarizənin hüquqi məsələlərinin təhlilidir. "Azərbaycan" qəzetinin 8 may 2018-ci il tarixli nömrəsində Azərbaycan Respublikasının daxili işlər naziri, polis general-polkovniki Ramil Usubovun "Heydər Əliyev Azərbaycanın 50 illik şərəf, inkişaf və müstəqillik salnaməsinin müəllifidir" adlı müsahibəsində qeyd edilir: "Ümummilli liderin 1994-cü ilin avqust ayında imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qa-

nunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" fərman bu sahədə fəaliyyətin təşkilati-hüquqi bazasının və gələcək uğurların möhkəm təməlini qoydu...

Daha sonra nazir xüsusi vurğulayır: "Xatırlatmaq yerinə düşər ki, hüquqda, o cümlədən bizim xidmətdə "Cinayət varsa, cəza labüddür" prinsipi daim fəaliyyət prioritetlərindən sayılıb. Bu baxımdan 1992-ci illə müqayisədə 2002-ci ildə ölkədə qeydə alınan cinayətlərin açılması 67 faizdən 94,8 faizə yüksəlmiş, ümumi cinayətlərin sayı 30,9 faiz, o cümlədən qəsdən adamöldürmələr 2,7 dəfə, quldurluq və soyğunçuluqlar 3,7 dəfə, oğurluqlar 5,2 dəfə, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 7,2 dəfə, nəqliyyat vasitələrinin oğurluğu 25 dəfə, habelə bağlı qalmış cinayətlər 13 dəfə azalmışdı. 10 il ərzində daxili işlər orqanları tərəfindən əllərdə qanunsuz saxlanılan 30 mindən artıq silah yığılmışdı. Hər il orta hesabla qrup halında 1000-dən artıq cinayətkar dəstə zərərsizləşdirilmişdi".

Cinayətkarlıqla mübarizənin mühüm istiqamətlərindən biri də korrupsiya ilə mübarizədir. Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərovun "Azərbaycan" qəzetinin 17 noyabr 2016-cı il tarixli nömrəsində çap edilmiş müsahibəsində xüsusi olaraq qeyd edilmişdir ki, Azərbaycanın antikorrupsiya təcrübəsi beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilir. Müsahibədə qeyd edilir ki, "Beynəlxalq Şəffaflıq" təşkilatı tərəfindən hazırlanan "2016-cı il Qlobal Korrupsiya Barometri" hesabatının Azərbaycana dair nəticələri çox əhəmiyyətlidir. Belə ki, hesabata görə, Azərbaycanda respondentlərin 79 faizi korrupsiyanı cəmiyyətimizin üzləşdiyi əsas problemlərdən hesab etmir. Bu göstərici Avropa İttifaqı (68 faiz) və postsovet ölkələri (66 faiz) üzrə müəyyən edilmiş orta göstəricidən yaxşıdır... Hesabatın digər ənənəvi indikatoru dövlətlərin korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirlərin səmərəliliyi ilə bağlıdır. Belə ki, Estoniyada respondentlərin 37 faizi, Gürcüstanda 41 faizi, Rumıniyada 42 faizi, Serbiyada 45 faizi, Niderlandda 53 faizi, Böyük Britaniyada 57 faizi, Fransada 64 faizi, Ermənistanda 65 faizi, Latviyada 71 faizi, Sloveniyada 77 faizi, İspaniyada 80 faizi hesab edir ki, ölkələrində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatlar səmərəli deyil. Azərbaycan üzrə bu göstərici yalnız 15 faizdir. Bu indikator Avropa İttifaqı (53 faiz) və postsovet ölkələri (56 faiz) üzrə müəyyən edilmiş orta göstəricidən dəfələrlə yaxşıdır.

Bu sahədə "Azərbaycan" qəzetində çap edilən digər hüquqi xarakterli məqalələr də əhəmiyyətlidir. Bu nöqteyi-nəzərdən Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi, II dərəcəli dövlət ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyevin "Azərbaycan" qəzetinin 23 iyul 2013-cü il tarixli nömrəsində çap edilmiş "Səmərəli antikorrupsiya siyasəti öz bəhrəsini verir" adlı məqaləsi Azərbaycanda həyata keçirilən antikorrupsiya siyasətinin hərtərəfli təhlilini vermişdir. Məqalədə qeyd edilir ki, mötəbər beynəlxalq qurumlarla əməkdaşlıq və dünya təcrübəsinin öyrənilməsi nəticəsində çox mühüm əhəmiyyət kəsb edən hüquqi şəxslərin cinayət məsuliyyətini müəyyən edən normaların Azərbaycan qanunvericiliyinə daxil edilməsi korrupsiya hüquqpozmaları ilə daha səmərəli mübarizə aparmağa təminat verir. Təsadüfi deyil ki, bu gün dünyanın nüfuzlu araşdırma mərkəzləri, beynəlxalq vətəndaş cəmiyyəti institutları və qeyri-hökumət təşkilatları ən uca tribunalardan Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi uğurlar barədə yüksək fikirlər səsləndirirlər.

❖ ❖ ❖

"Azərbaycan" qəzeti hüquqi problemlərin təhlilini təkcə hüquqşünas qələmi ilə deyil, eyni zamanda digər sahədə tanınmış elm adamlarının, zəhmətkeş nəslin nümayəndələri ilə də təhlil edir.

Bununla yanaşı, özünün peşəkar heyəti ilə də bu məsələ daim diqqət mərkəzində saxlanılır. Belə ki, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun qəzetin 18 oktyabr 2016-cı ildə çap edilən "Möcüzəli inkişaf" adlı məqaləsi həm də hüquqi problemlərə həsr edilmişdir. Məqalə cənab Prezidentin sözləri ilə başlayır: "Biz fəxr edirik ki, 25 il müstəqil dövlət kimi yaşayırıq, öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir". Məqalədə daha sonra bu sahədə əsas hüquqi uğurlar qeyd edilir: ölkədə hüquqi, iqtisadi, siyasi islahatların həyata keçirilməsi; Avropa Şurasına üzv qəbul olunması; 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi; ölkədə vətəndaş cəmiyyəti təsisatlarının formalaşdırılması; mətbuata senzura nəzarətinin ləğv edilib, azad və müstəqil mətbuatın formalaşması; ölkəmizin bütün beynəlxalq qurum və təşkilatlarla əməkdaşlıq etməsi; insan hüquqlarının qorunmasının, mətbuat və söz azadlığının inkişafının daim diqqət mərkəzində saxlanılması; dövlət idarəçiliyində çoxpartiyalı sistemə, fikir plüralizminə daim yer verilməsi; Azərbaycanda beynəlxalq tələblərə cavab verən seçki qanunları əsasında Seçki Məcəlləsinin yaradılması; üzvləri paritet əsaslarla formalaşdırılan Mərkəzi Seçki Komissiyasının təşkili; ölkədə bələdiyyə, parlament, prezident seçkilərinin hər birinin azad və şəffaf şəkildə keçirilməsi və s.

"Azərbaycan" qəzetinin şöbə redaktoru, əməkdar jurnalist İradə Əliyevanın 17 noyabr 2016-cı il tarixdə "Azərbaycan" qəzetində çap edilmiş "Həqiqi müstəqilliyə etibarlı təminat mexanizmi" adlı məqaləsi hüquqi problemlər cəhətdən də xüsusi əhəmiyyət kəsb edir. Məqalədə deyilir: "1995-ci ildə qəbul olunmuş Konstitusiya ilə Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu seçmişdir. Ulu öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali sənəd müstəqil Azərbaycanın Konstitusiyası kimi tarixə yazılmış, dövlətçiliyin əsas atributlarından biri sayılan bu mühüm sənəd həmin il noyabr ayının 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır... Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərə ictimai münasibəti öyrənən 2016-cı ilin 26 sentyabr referendumu bunun əyani təsdiqi olaraq ölkəmizdə insan hüquq və azadlıqlarının konstitusion əsaslarının daha da gücləndirilməsinə, cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə, dövlət idarəçilik mexanizmlərinin təkmilləşdirilməsinə xidmət etmişdir. Tamamilə azad, demokratik və şəffaf şəraitdə keçirilmiş ümumxalq səsverməsinin nəticəsi olaraq qüvvəyə minmiş Konstitusiyaya əlavə və dəyişikliklər ictimai həyatın digər mühüm sahələri ilə yanaşı, məhkəmə orqanlarının fəaliyyəti ilə bağlı bəzi məsələləri də özündə ehtiva etmiş, ümumən ədalət mühakiməsinin keyfiyyətinin yüksəlməsinə yeni təkan vermişdir".

Bundan başqa, müəllifin "Elmdə islahatlar Azərbaycanın davamlı inkişafına xidmət edir" *("Azərbaycan" qəzeti, 1 sentyabr 2013-cü il),* "Şərəfli missiya" *("Azərbaycan" qəzeti, 11 dekabr 2016-cı il)* məqalələri də oxucularda xüsusi maraq doğurur.

"Azərbaycan" qəzetinin şöbə redaktoru İxtiyar Hüseynlinin qəzetdə 11 iyul 2014-cü ildə çap olunmuş "Demokratik inkişafın Azərbaycan nümunəsi" məqaləsində qeyd edilir ki, Azərbaycan demokratik inkişafın yalnız təkamül yolunu qəbul edir və bu istiqamətdə inamlı addımlar atır... Azərbaycanda dünya ölkələrinin heç birinə bənzəməyən, özünəməxsus iqtisadi və siyasi inkişaf modelinin formalaşması faktı tam təsdiqini tapıb. Demokratik quruculuq yolu ilə gedən respublikamız həssas bir bölgədə yerləşsə də, onun həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə milli inkişaf modeli formalaşıb.

Göründüyü kimi, "Azərbaycan" qəzetinin fəaliyyəti çoxşaxəli olmaqla bərabər, həm də cəmiyyət üzvlərinin ciddi əlaqələndiricisidir. Bu nöqteyi-nəzərdən "Azərbaycan" qəzetinin baş redaktoru, əməkdar jurnalist Bəxtiyar Sadıqovun "Azərbaycan" qəzetinin saytındakı müraciəti də çox önəmlidir: "Hamımızın Azərbaycan adlı bir vətəni var! Qoynunda dünyaya göz açdığımız, min bir nemətindən dadıb isti qucağında boya-başa çatdığımız bu əvəzolunmaz diyar azərbaycanlı adını qürur və iftixarla daşıyan hər kəs üçün müqəddəs və ülvidir. Müstəqilliyin çətin yolları ilə kövrək addımlarını atan anamız Azərbaycan övlad məhəbbətinə və köməyinə daim ehtiyac duyur. Onun Qarabağ adlı yarasını sağaltmaq, bütövlüyünü bərpa etmək üçün hamımız əl-ələ verməliyik! Ulu yurdumuzun adını daşıyan "Azərbaycan" qəzeti də bu amala xidmət edir. Əziz azərbaycanlılar! Sizi Azərbaycan naminə, övladlarımızın firavan və xoşbəxt gələcəyi uğrunda əlbir və əlaqəli fəaliyyətə çağırıram!"

❖ ❖ ❖

"Azərbaycan" qəzeti qeyd edilən istiqamətlərdən başqa, digər mühüm hüquqi problemləri də daim diqqətdə saxlamaqla müntəzəm elmi yazılar da dərc edir. Bunlara aiddir: beynəlxalq təşkilatlarla əməkdaşlıq, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin hüquqi tənzimlənməsi, seçki proseslərinin hüquqi tənzimlənməsi, normativ hüquqi aktların dərc edilməsi və s.

Daha sonra hüquqi problemlərlə əlaqəli məsələlər də geniş işıqlandırılır. Məsələn, multikulturalizm, sosial problemlər, iqtisadi problemlər, dövlətçilik ideyaları və s.

Qeyd etdiyimiz məsələlər çox kiçik nümunələrdir. Qəzetin hər bir sayında müxtəlif hüquqi problemlər hərtərəfli, obyektiv, ətraflı, o cümlədən peşəkarcasına təhlil edilir. Eyni zamanda, qəzetin kursunun sabitliyi, sanballılığı, obyektivliyi, tam qərəzsizliyi mühüm xüsusiyyətlərindən hesab edilməlidir.

Bir hüquqşünas alim olaraq hüquqi problemlərin təhlili və ictimaiyyətə çatdırılması üçün ən çox müraciət etdiyim mətbuat orqanlarından birincisi məhz "Azərbaycan" qəzetidir ki, burada mənim çoxsaylı yazılarım – məqalələrim çap edilmişdir: "İnsan hüquqlarına hörmət Azərbaycanın demokratik inkişafının prioritet xəttidir" *("Azərbaycan" qəzeti, 17 avqust 2011-ci il);* "Azərbaycan Avropa Şurasında milli maraqlarını əzmlə müdafiə edir" *("Azərbaycan" qəzeti, 25 yanvar 2012-ci il);* "Milli qurtuluşdan hüquqi dövlət quruculuğuna doğru" *("Azərbaycan" qəzeti, 12 iyun 2011-ci il);* "Heydər Əliyev Fondu beynəlxalq əlaqələrini genişləndirir" *("Azərbaycan" qəzeti, 27 oktyabr 2013-cü il);* "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar strateji hədəf" *("Azərbaycan" qəzeti, 5 dekabr 2013-cü il);* "İnsanların xeyirxahı, insan hüquqlarının təminatçısı" *("Azərbaycan" qəzeti, 13 may 2014-cü il);* "Müasir qloballaşma şəraitində multikulturalizm və insan hüquqlarının müdafiəsi" *("Azərbaycan" qəzeti, 3 aprel 2016-cı il);* "Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətində diaspor təşkilatlarının rolunun artması qısqanclıqla qarşılanmamalıdır" *("Azərbaycan" qəzeti, 19 may 2017-ci il)* və s.

Beləliklə, bu gün "Azərbaycan" qəzeti Azərbaycan jurnalistikası-mətbuatının şah əsəridir, Azərbaycan ictimaiyyətinin fikir mərkəzidir. Ölkədə gedən bütün proseslər, o cümlədən hüquqi məsələlər onun səhifələrində ətraflı və əlçatan şəkildə öz əksini tapmaqla cəmiyyətdə daim rəğbətlə qarşılanır.



**Vüqar ZİFƏROĞLU,**
*BDU-nun Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru*

# Söz və mətbuat azadlığının salnaməçisi

***Söz və mətbuat azadlığı problemi dünya jurnalistikasında hələ də aktuallığını saxlamaqdadır və müasir medianın inkişafında, şübhəsiz ki, bu problem ən çox müzakirə olunan mövzulardandır. İnformasiyanın sərbəst və sürətlə yayıldığı indiki zamanda söz və mətbuat azadlığına münasibət bir çox yönləri ilə diqqət çəkir. Bu problemə əksər nəzəriyyəçilərin elmi və konseptual yanaşmaları, əslində, mövzunun dərin və çoxşaxəli olduğunun göstəricisidir.***

Azərbaycanda da bu problemə münasibət hər zaman öz aktuallığı ilə seçilib və XX əsrin əvvəllərindən başlayaraq bir çox ədiblərimiz müxtəlif mətbu nəşrlərdə məsələyə öz münasibətlərini bildiriblər. Çar Rusiyasını sarsıdan Rus-Yapon müharibəsi və 9 yanvar Qanlı bazar günündən sonra Azərbaycanın "düşünən beyinləri" özünüidarə formaları axtarır, azadlıq ideyalarını təbliğ edəcək vasitə kimi mətbuatı mədəni-mənəvi tərəqqinin, ictimai mübarizənin əsas qüvvəsi hesab edirdilər. Təsadüfi deyil ki, 1905-ci ildə "Həyat"la başlanan yol "İrşad"ın yolgöstərənliyi ilə davam edib, "Molla Nəsrəddin" jurnalı vasitəsilə xalqın qaranlıq dünyasına işıq salmağa, "Füyuzat"la "azadlıq ideyaları"nın hamı tərəfindən mənimsənilməsinə səbəb olurdu.

Belə bir mürəkkəb dövrdə Azərbaycan mətbuatı və onun aparıcı qüvvələri öz imkanlarını səfərbərliyə alır, müxtəlif üsul və vasitələrlə xalqa fikir və düşüncələrini çatdırırdılar. Əhmədbəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Ömər Faiq Nemanzadə, Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə, Sultan Məcid Əfəndiyev kimi ziyalıların söz və mətbuat azadlığı uğrunda apardıqları mübarizə, söylədikləri fikirlər bu gün də öz aktuallığını qoruyub saxlayır.

Söz azadlığı insanların yaşadıqları ölkədən asılı olmayaraq, hüquq və azadlıqlardan istifadəni nəzərdə tutan ən mühüm dəyərlərdən biridir. Mətbuat azadlığı isə insan haqlarının bünövrə daşı, bütün başqa azadlıqların qarantıdır. Mətbuat azad olmalıdır və məzmunundan

asılı olmayaraq, dərc edilmiş hər hansı yazıya görə heç kəs cəzalandırılmamalıdır. Mətbuat azadlığı olmayan yerdə ədalətli siyasət də ola bilməz. Azad sözün və azad mətbuatın mövcud olmadığı cəmiyyətdə hər hansı demokratik təsisatlardan danışmaq mümkün deyil. "Mətbuatın əsarəti əxlaq pozğunluğu törədir, əxlaq gözəlliyi və yaxşı xüsusiyyətləri aradan çıxarır, yalan danışmağı, oğurluğu, əyrilik və casusluğu yayır, ədəbi və qələm pozğunluğu meydana çıxarır" *(Rəsulzadə M.Ə. Əsərləri. Beş cilddə. II cild, 1909-1914 – Bakı, 2014, s.79).*

Azad mətbuat, söz azadlığı olmadan müstəqil institutların bütün zahiri forma və strukturları saxtadır. Əgər mətbuat azad, söz müstəqil və açıq deyilsə, fikir qorxudan qandallanıb gücsüz edilirsə, hansı hakimiyyət forması altında yaşadığının heç bir fərqi olmayacaq. Dünyanın siyasi və ictimai nizamını düzənləyən cəmiyyət "azad mətbuat nə üçün lazımdır" sualının aktuallığı barədə daim düşünmüşdür. Görkəmli publisist Üzeyir Hacıbəyli mətbuat azadlığının əhəmiyyətindən bəhs edərək yazırdı: "...Hürriyyəti-kəlamın, yaxud azadi-mətbuatın ümumxalq üçün nəfi bundan ibarətdir ki, bunların sayəsində ümum əhalinin və ya məlum bir camaatın mübtəla olduğu dərdini şərh edib müalicəsi üçün tədbirlər axtarmaq mümkündür".

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli mətbuat azadlıq ideyalarının inkişaf etdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi prosesinin fəal iştirakçısı olmuşdur. Həmin dövrdə söz və mətbuat azadlığını təsbit edən hüquqi sənədlər qəbul edilmiş, Üzeyir bəy və Ceyhun bəy Hacıbəylilərin rəhbərliyi ilə "Azərbaycan" qəzeti fəaliyyətə başlamışdır. Qəzet cümhuriyyət ilklərini öz səhifələrində dərc edərək Şərqin ilk demokratik ölkəsinin azadlıq və maarifçilik carçısına çevrilmişdir. Bu gün də "Azərbaycan" qəzeti bu missiyanı ləyaqətlə davam etdirir.

Şübhəsiz ki, söz və mətbuat azadlığı problemi ölkə mediasının da gündəmdə saxladığı başlıca mövzulardandır və tarixi ənənəsi olan "Azərbaycan" qəzetində bununla bağlı dərc edilən məqalələr diqqətəlayiqdir. Bu il 100 illiyini qeyd etdiyimiz cümhuriyyətimizlə yaşıd olan "Azərbaycan" qəzeti öz ənənələrinə sadiq olaraq mövzu ilə bağlı dərc olunan yazılarında maarifçilik dəyərlərinə bağlılığını nümayiş etdirməkdədir. Elə qəzetin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqovun "Azərbaycan və azərbaycanlı adına layiq olmaq..." adlı məqaləsində biz bunun şahidi ola bilərik: "Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yüz yaşı tamam olur... Cəmi 23 ay yaşamış Xalq Cümhuriyyətinin... Hər dəfə Yaxın Şərqdə ilk demokratik respublika quranları xatırlayanda onların şəxsiyyətlərinə və bilgilərinə heyrət etmişəm! Bu insanlar nə qədər vətənpərvər olmuşlar! Bu insanlar Azərbaycana və azərbaycanlı adına nə qədər sadiq olmuşlar! Bu insanlar nə qədər geniş dünyagörüşlü və əqidəli olmuşlar!"

Bəxtiyar müəllim "Talesiz qəzet" və "100-ə qədəm qoyarkən" adlı məqalələrində isə qəzetin keçdiyi çətin, lakin şərəfli tarixi yola bir daha nəzər salaraq onun Azərbaycan jurnalistikası tarixində oynadığı əhəmiyyətli rola və eləcə də ölkəmizdə söz və mətbuat azadlığının ənənələrinin formalaşmasındakı qatqılarına diqqət çəkməkdədir.

Müəllif haqlı olaraq qeyd edir ki, müstəqilliyi arzulamaq, onu elan etmək asandır, müstəqil dövləti qurub yaşatmaq, dünyaya tanıtmaq, qəbul etdirmək, qoruyub saxlamaq isə daha çətindir: "Bu məsələdə məqsədyönlü və əməli fəaliyyətlə yanaşı təbliğat və təşviqat işlərini düzgün qurmağın, xalqı səfərbərliyə almağın, görülən işləri və qarşıda duran vəzifələri öl-

kə vətəndaşlarına düzgün çatdırmağın da əhəmiyyəti böyükdür. Odur ki, Xalq Cümhuriyyətinin qurucuları yeni dövrün yeni qəzetini buraxmaq barədə qərar qəbul etdilər".

Məqalədə də qeyd edildiyi kimi, "Azərbaycan" öz dövrünün ensiklopedik nəşri sayılırdı. Və vurğulanmalıdır ki, qəzetin bu cür nəşrinin başlıca səbəbi də onun müəllifləri və daimi yazarları ilə bağlı idi. Qəzetin həm redaktorları, həm də əməkdaş və müəllifləri dövrün siyasi proseslərinin mərkəzində olanlar, hadisələrin birbaşa iştirakçıları, müasir dünyagörüşlü və təcrübəli qələmə malik insanlar, millət vəkilləri idi. Qəzetdə ən çox görünən imzalar C.Hacıbəyli, Ü.Hacıbəyli, Ş.Rüstəmbəyli, X.İbrahim, M.Ə.Rəsulzadə, F.Ağazadə, M.Hadi, H.İ.Qasımov, M.Şahtaxtlı, A.Ziyadxanlı, Ə.Müznib, Ə.Cavad və başqalarıdır.

Lakin söz və mətbuat azadlığından sui-istifadə hallarının da fəsadlarının nə dərəcədə ağır və dağıdıcı olduğunu ələlxüsus biz jurnalistlər – söz sahibləri bilməkdəyik. XXI əsrdə informasiya texnologiyalarının yüksək inkişaf etdiyi dövrdə sözün gücü və medianın təsiri milyonlarla insanın təsir altına salınaraq yönləndirildiyi, informasiya müharibələri vasitəsilə mədəni ekspansiyanın aparıldığı, dəyərlərin qarşı-qarşıya gətirilərək savaşdığı bir dövrdə yaşamaqdayıq. Bu gün Azərbaycana qarşı da informasiya müharibəsi aparılmaqdadır. Mediamız gündəlik olaraq xarici KİV-in informasiya manipulyasiyasına məruz qalır, informasiya məkanımıza və təhlükəsizliyimizə təhdidlərlə üzləşir. Məhz bütün bu amillər mövzunun hansı dərəcədə bizim üçün aktual və vacib olduğunun ən başlıca göstəriciləridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, ölkəmizə qarşı informasiya müharibəsi aparılır. Azərbaycanda ən yüksək səviyyədə informasiya təhlükəsizliyi probleminə diqqətlə yanaşılması, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bu məsələyə birbaşa toxunması da bunu əyani şəkildə sübut edir: "İnternet istifadəçilərinin sayı getdikcə artır, 50 faizdən çoxdur. Biz indi hər bir kəndə, hər bir yaşayış məntəqəsinə genişzolaqlı internetin çəkilməsinə çalışırıq və buna nail olacağıq. Əlbəttə, informasiya təhlükəsizliyi məsələləri daha da çox aktuallaşır. Çünki qlobal informasiya məkanında informasiyalarla bərabər, təxribatlar da kifayət qədər çoxdur. Bu təxribatlar bəzi hallarda açıq, bəzi hallarda məxfi, yəni gizli xarakter daşıyır.

Bizə qarşı informasiya müharibəsi aparılır. Bu, həqiqətdir. Mən buna tam əminəm, bu barədə iki fikir ola bilməz. Bu informasiya müharibəsinin aparılması işində, əlbəttə ki, ilk növbədə erməni lobbisi öz fəallığı ilə seçilir. Azərbaycanı qaralamaq, Azərbaycan reallıqlarını danmaq, Azərbaycanı geridə qalmış, antidemokratik ölkə kimi dünyaya təqdim etmək cəhdləri ilk növbədə erməni lobbisinin çirkin əməllərindən qaynaqlanır".

Bu hallar bizim çiynimizə böyük məsuliyyət yükü qoymaqdadır. Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun da qeyd etdiyi kimi, bu gün Azərbaycanın üzərinə gələn bəzi beynəlxalq dairələrin məqsədyönlü şəkildə söz və məlumat azadlığından sui-istifadə etdiyini və jurnalistləri konkret istiqamətə yönəltdiyini unutmamalıyıq: "Bu gün böyük dövlətlərdə baş verən hadisələr həmin ölkələrin bəlli dairələrinin senzurasından keçirilərək onlara məxsus transmilli media vasitəsilə dünyaya təqdim olunur. Üstəlik, həmin transmilli media ayrı-ayrı müstəqil ölkələrdə, məsələn, müsəlman dövlətlərində baş verən hadisələri də həmin dairələrin maraqları prizmasından dünyaya çatdırmaq istəyir".

"Azərbaycan" qəzetinin kollektivi məhz bu ağır yükün məsuliyyətini – sözün qüdrətini və dəyərini bilməkdədir. Bununla əlaqədar olaraq "Azərbaycan"ın baş redaktoru Bəxtiyar Sadıqovun "Azad söz və azmış söz" məqaləsini oxumaq kifayət edər: "Azad söz söyüş və təhqirə xidmət edəndə gözdən düşür, insanı ciyrindirir, azad fikrə qulluq edəndə isə fayda gətirir! Təhqiramiz söz həm də yolunu azmış söz sayılır!"

Yuxarıda vurğuladığımız kimi, qəzet indi də həmin tarixi missiyanı uğurla davam etdirməkdədir. Müstəqil mediamızın inkişafı yolunda qarşıda duran vəzifələrin həm müəyyənləşməsində, həm də bu istiqamətdə addımlar atılmasında qəzetin özünəməxsus rolu var. Məsələn, tarixi ənənələri olan Azərbaycan jurnalistikasının adına ləkə sayılan "reket jurnalistika"ya qarşı mübarizədə "Azərbaycan" qəzetinin, onun baş redaktorunun böyük əməyi var. Bəxtiyar Sadıqovun Mətbuat Şurası İdarə Heyətinin, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu Müşahidə Şurasının üzvü kimi bu istiqamətdə ortaya qoyduğu prinsipial mövqe hamıya məlumdur.

Bu gün ölkəmizdə söz və mətbuat azadlığı var. Müstəqilliyimizin ilk illərində digər sahələrdə olduğu kimi, mətbuat sahəsində də böyük problemlər mövcud idi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, medianın inkişafında da böyük üfüqlər açıldı. O, ölkə həyatının digər sahələrində olduğu kimi, milli mətbuatımızda yaranmış problemləri də uğurlu və düşünülmüş siyasəti sayəsində aradan qaldırmağa başladı. Ölkənin müvafiq qanunvericilik aktlarında dəyişikliklər edildi və Azərbaycan söz və mətbuat azadlığının təmin olunması ilə əlaqədar mövcud beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu. Ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman mediamızın azad və müstəqil fəaliyyət göstərməsi istiqamətində ciddi əhəmiyyət daşıdı. Bu fərmanla mətbuata nəzarət edən baş idarə ləğv olundu. Həmçinin həmin sənəddə ölkəmizdə fəaliyyət göstərən aparıcı mətbu orqanların maddi-texniki imkanlarının gücləndirilməsi və s. kimi məsələlər də öz əksini tapdı.

Dahi şəxsiyyət Heydər Əliyevin milli mətbuatımızın inkişafına xidmət edən addımları sırasında 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" qanunu təsdiqləməsi xüsusi əhəmiyyət kəsb edir. Bu sənədlə ölkəmizdə yeni mətbuat orqanlarının təsis olunması prosesi xeyli asanlaşdırıldı. "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" təsdiq olundu. Vətəndaş müraciətlərinə baxılması, informasiyaların mühafizəsi, məlumat azadlığı, radio-televiziya yayımları, İTV və radio haqqında müxtəlif qərar və qanunlar qəbul etməklə KİV-in fəaliyyətinin genişləndirilməsi təmin edildi. 15 mart 2003-cü ildə Jurnalistlərin I qurultayında jurnalistlərin qeyri-hökumət təşkilatı olan, özü-özünü tənzimləyən Mətbuat Şurası yaradıldı.

Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən medianın inkişafına yönəlmiş əhəmiyyətli addımlar atmaqla bu siyasətə sadiq olduğunu təsdiqlədi. Son on beş ildə dövlət başçısı İlham Əliyevin bu sahənin inkişafına xidmət edən addımlarına nəzər salmaq yetərlidir ki, mətbuatın daha da gücləndirilməsi, inkişaf etdirilməsi, peşəkar fəaliyyət göstərməsi üçün görülən böyükmiqyaslı işlərin şahidi olaq. 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev ümummilli liderin yolunu davam etdirərək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişa-

fına dövlət dəstəyi Konsepsiyası"nı təsdiq etdi və medianın inkişafına dəstəyi dövlət siyasəti səviyyəsinə qaldırdı. 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu bu günə qədər azad medianın inkişafına öz önəmli töhfələrini verir. "Əməkdar jurnalist" adının bərpa olunması, "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamlar, mətbuatın 130, 135 və nəhayət, 140 illik yubileylərinin respublikanın bütün bölgələrində yüksək səviyyədə qeyd olunması, jurnalistlərin fəxri adlarla mükafatlandırılması, bir neçə peşəkar jurnalistin Prezident təqaüdünə layiq görülməsi, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması atılan addımlar sırasındandır. Bütün bunlar medianın inkişafına dövlət qayğısının ən bariz göstəricisi olmaqla yanaşı, söz və mediaya verilən dəyər, fikir və ifadə azadlığına göstərilən diqqətdir və "Azərbaycan" qəzeti müstəqilliyimizin qeyri-rəsmi atributu olaraq daim bu inkişafın təqdimatında başlıca tribuna kimi öz vəzifəsini uğurla yerinə yetirməkdədir.

# Azərbaycanın tarixi – tarixin "Azərbaycan"ı

# "Azərbaycan" qəzetinin dünyaya gəlişi

*Şirməmməd HÜSEYNOV: "Azərbaycan" qəzeti millətə və dövlətə xidmət edirdi"*

***1918-ci ildə "Azərbaycan" qəzetinin yaradılması ilə bağlı aparılan hazırlıq işləri olduqca gərgin dövrə təsadüf edirdi. Bu həmin vaxt idi ki, Qafqaz İslam Ordusu Gəncədən Bakıya doğru yürüşə başlamışdı, qarşıda Azərbaycan hökumətini ciddi sınaqlar gözləyirdi.***

***Məhz belə bir vaxtda hökumət həm də öz rəsmi qəzetinin nəşrini planlaşdırırdı. Lakin qəzetin dərci xeyli texniki problemin həllini tələb edirdi. Belə ki, Gəncə şəhərində Azərbaycan dilində şriftlərin olmaması, ümumiyyətlə anadilli mətbəənin formalaşmaması qəzetin işıq üzü görməsinə ciddi əngəllər yaradırdı.***

## Gəncədə Azərbaycan dilində şrift yox idi



**Şirməmməd Hüseynov, mətbuat tədqiqatçısı, professor**

Qəzetimizə açıqlamasında bu proseslərə aydınlıq gətirən xalq cümhuriyyəti dövrünün mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynov öncə "Azərbaycan" qəzetinin yaranması ideyasından danışdı. Onun sözlərinə görə, bəziləri qəzetin Fətəli xan Xoyskinin təşəbbüsü ilə yaradıldığını yazırlar. Tarix isə deyir ki, bu işin təşəbbüskarı Nəsib bəy Yusifbəylidir. Nəsib bəy Yusifbəyli Fətəli xan Xoyskinin başçılıq etdiyi birinci hökumət kabinəsində maliyyə və maarif naziri idi. Tiflisdən Gəncəyə gələndən sonra hökumət ikinci kabinəni yaratdı. İkinci hökumət kabinəsində Nəsib bəy Yusifbəyli maarif və dini etiqad naziri idi. Mətbuat məsələsinə də maarif və dini etiqad naziri baxırdı.

Şirməmməd Hüseynov deyir ki, 1918-ci ilin mart qırğınları ərəfəsində Hacıbəylilər ailəsi İranın Ənzəli şəhərinə gedir. Elə ki türk ordusu İrandan keçib Azərbaycana daxil olur, bir çox cavanlar da onlara qoşulub Gəncəyə gəlir. Həmin gənclərin arasında Ceyhun Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli də olur. Onda Ceyhun Hacıbəylinin 27, Şəfi bəy Rüstəmbəylinin isə 25 yaşı vardı. Bu barədə Zülfüqar Hacıbəyli öz xatirələrində yazır ki, həmin vaxt Gəncədə qəzet nəşr etmək üçün jurnalist lazım idi. Nəsib bəy Yusifbəyli Ceyhun Hacıbəylinin və Şəfi bəy Rüstəmbəylinin yaxşı qələmlərinin olduğunu bilirdi. Çünki Ceyhun Hacıbəyli "Kaspi" qəzetində mütəmadi olaraq məqalələrlə çıxış edirdi. Buna görə Nəsib bəy Yusifbəyli onların hər ikisini dəvət edir və "Azərbaycan" adlı qəzeti çıxarmağı tapşırır.

Şirməmməd Hüseynov bildirir ki, qəzeti nəşr etmək üçün ilk növbədə mətbəə lazım idi: "O vaxt Gəncədə bir mətbəə vardı. O da quberniya mətbəəsi idi. Bu mətbəədə də şriftlər rusca idi.

Azərbaycan dilində hürufat (şrift) yox idi. Buna görə Nəsib bəy Yusifbəlyi iyun ayında səhiyyə və sosial təminat naziri  Xudadat bəy Rəfibəylidən xahiş edir ki, hürufat gətirmək üçün Tiflisə adam göndərsin. Bu, mümkün olmur və ona görə qəzetin dərci bir qədər gecikir. Odur ki, "Azərbaycan" qəzetinin birinci nömrəsi sentyabrın 15-də quberniya mətbəəsində çap olunur".

## İlk 4 nömrə Gəncədə çıxıb

Şirməmməd Hüseynov söyləyir ki, qəzetin Gəncədəki ilk  nömrəsi həm Azərbaycan, həm də rus dillərində çap olunur. Maraqlısı odur ki, həm azərbaycanca, həm də rusca olan qəzetlər bir və iki nömrəsi ilə səhifələnir. "Belə çıxır ki, onların hər biri ayrı-ayrı qəzetlərdir, sadəcə, bir yerdə çap olunub. Çünki bir qəzet olsaydı, sıralama 1, 2, 3 və 4 olardı. Qəzetin 2 və 3-cü nömrələri yalnız rus dilində çıxıb. Yenə üstündə 1 və 2-ci səhifə yazılıb. İkinci nömrə sentyabrın 19-da, üçüncü nömrə isə sentyabrın 22-də çıxıb. Sentyabrın 25-də qəzetin 4 səhifəlik dördüncü nömrəsi çap olunub. Səhifələrin üstündə 1, 2, 3 və yenidən 1 yazılıb. Bu da onu göstərir ki, iki qəzetdir. İmkan olmadığına görə bir yerdə çap edilib. Beləliklə, qəzetin Gəncədə 4 nömrəsi – 12 səhifəsi çap olunub. Onlardan 9-u rus, 3-ü Azərbaycan dilində işıq üzü görüb. Bununla da "Azərbaycan" qəzetinin Gəncə dövrü tamamlanır", – deyə Şirməmməd Hüseynov bildirir.

Qəzetin Bakı dövrü ilə bağlı danışan Şirməmməd Hüseynov dedi ki, Bakı işğaldan azad olunandan 2 gün sonra, sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçür. "Azərbaycan" qəzeti redaksiyasının Bakıya köçürülməsi işləri ilə yenə də Nəsib bəy Yusifbəyli məşğul olur. O dövrdə Bakıda ən yaxşı, müasir mətbəə isə Orucov qardaşlarının olub. Nəsib bəy Yusifbəyli Orucov qardaşları ilə danışır və bu mətbəəni onlardan pulunu ödəmək şərti ilə alıb, adını hökumət mətbəəsi qoyurlar. Hətta parlament iclaslarının birində Orucov qardaşlarına mətbəə üçün büdcədən nə qədər pulun ödənməsi müzakirə olunur.  "Görün necə demokratik olublar? Bolşeviklər kimi zəbt etməyiblər, pulunu ödəyib alıblar", – deyə Şirməmməd Hüseynov qeyd edir.

## Dövlətçilik amallarına xidmət edən qəzet

1918-ci il oktyabrın 3-də "Azərbaycan" qəzetinin Bakıda 4 səhifəlik ana dilində beşinci nömrəsi işıq üzü görür. Oktyabrın 7-də qəzetin rusca nəşri bərpa olunur. Ümumilikdə 1918-ci ildə qəzetin ana dilində 75, rus dilində isə 70 nömrəsi çıxır. Azərbaycanca çıxan qəzet də özünü müstəqil sayır, rusca da. Hər ikisi də öz tarixini sentyabrın 15-dən başlayır.

Ü.Hacıbəyli 1919-cu ilin martında Parisə qardaşı Ceyhun Hacıbəyliyə göndərdiyi məktubunda yazırdı: "Sən gedəndən sonra Nəsib bəy Yusifbəyli mənimlə görüşüb dedi ki, sən müdir olduğuna görə Ceyhunun məvacibini al. Məhəmməd Əmin də sənin məvacibini alsın. Smetada da belə nəzərdə tutuldu". Bu barədə danışan Şirməmməd Hüseynovun sözlərinə görə,  qəzeti hökumət maliyyələşdirirdi və hökumət mətbəəsində çap edilirdi. Xərcini hökumət çəkirdi, qəzet isə hökumətə xidmət edirdi.

Məhəmməd Əmin Rəsulzadə və Ü.Hacıbəyli yazırdılar ki, bizim 3 əsas qayəmiz var: "Bu vətən də bizimdir, bu millət də bizimdir, bu dövlət də bizimdir".  "Azərbaycan" qəzetinin fəaliyyəti də məhz bu amallara xidmət edirdi. Bu barədə danışan Şirməmməd Hüseynov qeyd edir ki, bundan yüksək nə ola bilər?!: "Müstəqillik dövrünün mətbuatının prinsipi bunlardır. Heç bir siyasi partiyaya yox, vətənə, millətə və dövlətə xidmət etmək... Millət üçün bundan böyük səadət ola bilməz".



**Şakir YAQUBOV,**
*1990-1992-ci illərdə "Həyat" qəzetinin baş redaktor müavini, əməkdar mədəniyyət işçisi*

# "HƏYAT" belə başladı...

***1990-cı ilin payızı, gərək ki, noyabr ayı idi. "Sovet kəndi" qəzetinin redaktoru (indiki hesabla: baş redaktoru) olan Ə.Əfqanın təklifi mənimçün gözlənilməz olmadı: "Dövlət qəzeti təsis olunur, səni baş redaktorun müavini vəzifəsinə təklif eləmişəm..."***

O vaxtadək təxminən dörd il "Kommunist"də iş yoldaşı olmuşduq – mən məsul katib, o, mədəniyyət şöbəsinin müdiri. O, əməkdar incəsənət xadimi, tanınmış yazıçı idi, mən isə bir il əvvəl əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüş jurnalist. Bunlar texniki məsələlərdir, belə məqamlarda insani keyfiyyətlər, peşə yararlılığı daha böyük önəm kəsb edir – görünür, bunlar da məndən düz 22 yaş böyük olan təcrübəli həmkarımı qane edirdi. Ona görə də irəlicədən rəyimi soruşmamış məsələni özünün bildiyi şəkildə həll eləmişdi...

...Bazar ertəsi günü, dekabrın 17-də "Azərbaycan" nəşriyyatına gəldim, ikinci mərtəbədə, liftin önündə "Sovet kəndi" qəzetində işləyən Rüstəm Rüstəmovla üzləşdim. Rüstəmi 1970-ci illərin ortalarından, uzaqdan-uzağa olsa da, savadlı jurnalist, zəhmətkeş, məsuliyyətli qəzetçi kimi tanıyırdım. Demə, məni gözləyirmiş: əlindəki açarları uzadaraq Azərbaycan KP MK-nın mərtəbənin başındakı ideoloji iş mərkəzini göstərib "Redaksiyanız orada yerləşəcək. Get, qapını aç, Əfqan müəllim də indi gələr", – dedi.

...Baş redaktorla ilk söhbətimiz qəzetin adı ilə bağlı oldu: niyə "Həyat"? Əgər bu, həqiqətən, respublikanın əsas qəzeti kimi nəzərdə tutulurdusa, niyə də "Azərbaycan" olmasın? Cavab hazır idi: həmin vaxt artıq bir ildən çox idi ki, Qarabağa Xalq Yardımı Komitəsinin (o vaxt sədri xalq yazıçısı Bayram Bayramov olan belə bir ictimai qurum mövcud idi) orqanı həftəlik "Azərbaycan" qəzeti çıxırdı və yenicə qəbul edilən kütləvi informasiya vasitələri haqqında SSRİ Qanununa görə, eyni adda iki qəzet nəşr etmək olmazdı. Çox düşünüb-daşındıqdan sonra "Həyat"a üstünlük verilmişdi və elə bu da keçmişə ehtiramın əlaməti sayılırdı – 1905-1906-cı illərin fikir, düşüncə və mübarizə salnaməsi adlandırılan "Həyat" qəzetinin "beşiyi başında" Əlimərdan bəy Topçubaşov, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi tariximizin işıqlı insanları dayanmışdılar. Bu adı, bu ənənəni yaşatmaq, doğrultmaq öhdəmizə düşürdü.

Ayın sonuna qədər əsasən kadr toplamaqla məşğul olduq: hər gün əmri verilən beş nəfərin arasında əsl qəzetçi, ümidverici, yaxud artıq respublikada tanınan bir jurnalist olanda sevincimizdən papağımızı göyə tullayırdıq. Belələri isə az olmurdu: Naxçıvandan yazıçı-publisist kimi tanınan M.Möhsün, o vaxt elmlər namizədi, indi isə elmlər doktoru olan Qafar Cəbiyev, Göyçay-




dan Rafiq İslamov, Quba-Xaçmaz bölgəsindən Ərşad Əzimzadə, S.Rasim, Bakıdakı redaksiyalardan Sədaqət Kərimova, Rüstəm Rüstəmov, Elman Cəfərli, Raqif Məmmədov, Yaqub Babayev, Cavid Xaspoladov, Tofiq Əbdülhəsənov, habelə konkret olaraq "Kommunist" qəzeti redaksiyasından bəzilərini bizim dəvət etdiyimiz, bəziləri isə özləri bizimlə işləməyi arzulayan ağsaqqal Əli İldırımoğlu, Əhməd İsayev, Bəxtiyar Sadıqov, Famil Abbasov, Araz Qurbanov, Rusvat Bayramov, Fərman Bağırov və başqaları. Bu sonuncular barədə o vaxt "Kommunist"də həqiqətə əsla uyğun gəlməyən "pula satılmışlar" ifadəsi işlədilmişdi, halbuki onlar şüurlu seçim edərək hələ Azərbaycanda Kommunist Partiyası ləğv edilməmişdən qabaq kommunist mətbuatı sıralarını tərk etmiş, həqiqi mənada DÖVLƏT mətbuatının sıralarına keçmişdilər. İş elə gətirdi ki, 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyası dövlət mətbuatında çalışanların birmənalı olaraq heç bir partiyanın üzvü olmaması barədə qərar qəbul etdi, biz isə avqustda "QeKaÇePe"nin (Fövqəladə Vəziyyət üzrə Dövlət Komitəsi) ölkədə hakimiyyəti ələ almasına etiraz əlaməti olaraq redaksiyada ilk partiya təşkilatını buraxdıq və bu barədə, habelə hamımızın Sov.İKP sıralarını tərk etdiyimiz barədə qəzetdə (gərək ki, avqustun 25-də) məlumat dərc etdik.

Yeni "Həyat" həyata bu cür qədəm qoyurdu. Təbii ki, təkcə bu cür yox!

...Mən bilmirəm ki, baş redaktor Azərbaycan KP MK-dan və ya Ali Sovetdən hansı təlimatı almışdı, yaxud belə bir təlimat ümumiyyətlə olmuşdumu? Ona görə ilk gündən, ilk nömrənin planlaşdırılmasında tam sərbəst idik, hər halda, kənardan bir kimsənin diktəsini duymurduq.

Azərbaycan mətbuatının babası Həsən bəy Zərdabi təxminən 140 il bundan əvvəl yazırdı: "Hər vilayətin qəzetəsi gərək ol vilayətin ayinəsi olsun". Düşünürdük ki, bizə deyiləsi yeganə tələb bu ola bilər və ya olmalıdır. Əgər bu qəzet Ali Sovetin qəzetidirsə (və həqiqətən də belə idi), onda ilk növbədə burada bütün səviyyələrdən olan sovetlərin və xalq deputatlarının fəaliyyətindən bəhs olunmalıydı – o vaxt hələ sovetlər "mövcud idi, indi "millət vəkili" adlandırdığımız şəxslər də vaxtilə "xalq deputatı" adlandırılırdılar.

Deyə bilmərəm ki, biz Zərdabinin bəyan etdiyi prinsipə nə dərəcədə sadiq qala bilirdik, hər halda, kənardan eşitdiyimiz rəylər göstərirdi ki, biz düz yoldayıq, jurnalist əqidəsinə sədaqətliyik.

...1991-ci il yanvarın 1-də çıxan ilk nömrəmiz elə "ilk"liyinə görə təbii maraqla qarşılansa da, sonrakı nömrələrdə bu marağı möhkəmlətməli, həqiqətən "vilayətin ayinəsi" olmalıydıq.

Birinci "qulaqburma"sını təxminən ikinci həftənin sonunda aldıq: o vaxt sovet qoşunlarının Vilnüsə müdaxiləsini 1986-cı ilin dekabrında Alma-Atada (o vaxt şəhərin rəsmi adı beləydi, indi Almatı), 1989-cu ilin aprelində Tbilisidə və 1990-cı ilin yanvarında Bakıda baş vermiş qanlı hadisələrlə eyni tutduğumuza görə. "Söz verdik" ki, bu, bir daha təkrarlanmayacaq. Ancaq...

Ali Sovetin sessiyası iclasların stenoqramının mətbuatda, o cümlədən "Həyat" qəzetində dərc olunmaması barədə qərar qəbul etmişdi. Gərək ki, fevralın 7-də baş redaktor sessiyanın stenoqramının bir parçasını gətirdi və onu mənə verib "Nömrəyə hazırla" dedi. Bu, sessiyada deputat Heydər Əliyevin çıxışı və ona reaksiyalardan ibarət bir mətn idi. Ali Sovetin qərarının əksinə olaraq bu mətni qəribə girişlə dərc elədik: guya Heydər Əliyevin sessiyadakı çıxışı xalq arasında bir-birinə zidd fikirlərə səbəb olub və bu, son nəticədə haradasa vətəndaş münaqişəsinə gətirib çıxara bilər. Buna yol verməmək üçün sessiyanın stenoqramının həmin hissəsini dərc edirik...

Bu, ulu öndərin odövrkü repressiv vəziyyətində rəsmi mətbuatda ilk çıxışı idi və sonrakı çıxışları üçün sanki yol açan cığıra döndü.

"Azərbaycan" adına qovuşanadək "Həyat"ın nəşr olunduğu təxminən 20 ay ərzində SSRİ-nin və Azərbaycanın həyatında bir sıra hadisələr oldu ki, onlardan bir neçəsini və qəzetin həmin hadisələrə reaksiyasını qeyd eləməyi özümə borc bilirəm.

...Azərbaycanın dövlət müstəqilliyi məsələsi xeyli vaxtdan bəri gündəlikdə dursa da, əməli həllini heç cür tapa bilmirdi: Baltikyanı respublikalar 1990-cı ilin martından, qonşu Gürcüstan isə həmin ilin mayından – birtərəfli qaydada olsa da, bu məsələ barədə qəti mövqelərini bəyan etmiş, SSRİ-nin tərkibindən istənilən vaxt çıxmaq barədə konstitusiya hüquqlarından bəhrələnməyə başlamışdılar. Bizdə isə həm rəhbərlik, həm də deputatlar son və qəti addım atmağa nədənsə risk etmirdilər. O vaxt belə düşünürdük: "Müstəqilliyin elan edilməsi elə bir tarixi məsuliyyətdir ki, burada hökmən kimsə risk etməlidir – ya respublika rəhbərliyi özünün sükutlu razılığı ilə buna rəvac verməli, ya da deputatlar mühafizəkar rəhbərliyə qarşı qətiyyət göstərməlidirlər". Sonralar, məsələn, 1992-ci ilin 5-6 martında məhz belə olmuşdu...

Reallıqda nə baş verirdi? Deyək ki, 1991-ci il martın 7-də Ali Sovetin sessiyası "Sovet Sosialist Respublikaları İttifaqının saxlanması məsələsi üzrə SSRİ referendumunun Azərbaycan Respublikasında keçirilməsinin təşkili haqqında" məsələ müzakirə edərkən demokratik düşüncəli deputatlarla respublika rəhbərliyinin iradəsini kor-koranə yeridən çoxluq arasında ciddi fikir ayrılığı yaranmışdı. Ən böyük qalmaqal Azərbaycan Respublikasının xalq deputatı Heydər Əliyevin çıxışından sonra qopmuşdu. Həmin çıxışdan sonra onlarca deputat Heydər Əliyevin bəyanatını dəbbələməyə, İttifaq dövlətinin tərkibindən çıxmağın Azərbaycan üçün düzəlməz bəd nəticələr verəcəyini iddia eləməyə çalışmış və hətta Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr ərzindəki fəaliyyətini araşdırmaq üçün (təxminən 8 ildən sonra?!) Ali Sovetin xüsusi komissiyasını yaratmağı təklif etmişdilər.

Heydər Əliyev həmin çıxışı zamanı demişdi: "1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda, çox itkilərə, çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz. Biz hamımız bu İttifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq.

Biz hamımız, hər halda, tam əksəriyyətimiz bu İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini bu İttifaq daxilində görmüşük. Mən və mənimlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik. Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai-siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərəfin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların İttifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri İttifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır".

Daha sonra o, konkret təklif vermişdi: "...Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Fikrimcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi İttifaqda olan respublikaların hər biri ilə, hətta İttifaq qalarsa, onunla da qarşılıqlı, bərabərhüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar...

...Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq... Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır" .

Son nəticədə Ali Sovetin sessiyası "Sovet Sosialist Respublikaları İttifaqının saxlanması məsələləri üzrə SSRİ referendumunun təşkili və keçirilməsinin təmin edilməsi ilə əlaqədar tədbirlər haqqında" SSRİ Ali Sovetinin 1991-ci il 16 yanvar tarixli qərarına uyğun olaraq" cəmi dörd bəndlik 88-XII nömrəli bir qərar qəbul etmişdi.

Adbaad səsvermə zamanı 340 (!!!) deputatdan 43-ü bu qərarın əleyhinə səs vermişdi. Bir daha diqqəti ona yönəldirəm ki, bu qərar martın 17-də referendumun keçirilməsinin təşkili məsələlərini təsbit edirdi və bunun dövlət müstəqilliyinə birbaşa aidiyyəti yox idi. Zənnimcə, hüquqi baxımdan ən düzü bu olardı ki, referendumda iştirak edərək qoyulan suala mənfi cavab verəydin: o halda SSRİ-nin saxlanıb-saxlanmamağına münasibətini ortaya qoymuş olurdun, bu isə respublikanın dövlət müstəqilliyinə dolayısı ilə tərəfdar çıxmaq demək olardı.

Dəqiq yadımdadır: adətən sessiya iclaslarının keçirildiyi günlərdə redaksiyanı telefonla idarə etməyə məcbur olan baş redaktor Ə.Əfqan 8 martla əlaqədar dalbadal alınan üçgünlük fasilədən sonra işə gələndə bloknotundan bir vərəq qoparıb mənə uzatdı:

– Bax, məqsədəuyğun bilsən, nömrəyə verərsən, – dedi.

Bu, yuxarıda adını çəkdiyim qərarın əleyhinə səs vermiş xalq deputatlarının əllə yazılmış siyahısı idi: görünür, ya haradansa tələsik köçürüldüyünə, ya da kiminsə tərəfindən diktə edildiyinə görə bir sıra tanınmış şəxslərin, sadəcə, adını qeyd eləməklə kifayətlənmişdilər. Siyahıda Heydər Əliyevin, İsmayıl Şıxlının, o vaxt, səhv eləmirəmsə, Ali Sovet sədrinin müşaviri olan Tofiq Məsim oğlu Bağırovun, Sabir Rüstəmxanlının, İsa Qənbərovun, Etibar Məmmədovun və bir çox digər tanınmış şəxslərin adı-soyadı vardı.

Düzü, heç bir mətnaltı məqsəd güdmədən, sadəcə, tarix üçün həmin siyahını "Həyat" qəzetinin 12 mart nömrəsində, 3-cü səhifənin birinci sütununda dərc elədik. Yaxşı yadımdadır ki, daha üç gün sonra rəhmətlik Babək Hüseynoğlunun baş redaktoru olduğu "Aydınlıq" qəzeti də – hətta bugünkü Azərbaycan jurnalistikası üçün nadir fakt: ilkin mənbəni qeyd etməklə! – həmin siyahını təkrarən dərc elədi. İnsafən, orada da siyahıya hansısa şərh-filan əlavə olunmamışdı...

Onu da qeyd eləməyi lazım bilirəm ki, üstündən illər keçəndən sonra bəzi müxalifətçilər və müxalifət qəzetləri israrla həmin 43 nəfəri "istiqlalçı deputatlar" deyə adlandıraraq, onlara hansısa imtiyazlar vermək lazım gəldiyini iddia eləyirlər. Təbii bir sual yaranır: əgər hansısa bir qərarın qəbul edilməsinə "yox" formasında reaksiya vermək istiqlalçılıq adlandırılırsa, onda həqiqi MÜSTƏQİLLİK AKTINI qəbul etmiş 258 deputata hansı ad verilə bilər?!.

7 martdan sonra – avqustun 29-30-u Ali Sovetin növbəti sessiyası olmuşdu. O vaxt artıq Moskvada "QeKaÇePe" məzhəkəsi də baş vermiş və əsas rolların ifaçıları "Matrosskaya tişina" həbsxanasına atılmış, yaxud öz əlləri ilə özlərini o dünyalıq eləmiş, Boris Yeltsin Sovet İttifaqı Kommunist Partiyasının fəaliyyətinin qadağan edilməsi barədə fərman imzalamış, bir sıra müttəfiq respublikalar, o cümlədən Ukrayna (24 avqust), Belarus (25 avqust), Moldova (27 avqust), Özbəkistan (31 avqust), Qırğızıstan (31 avqust) rəsmən müstəqilliklərini elan etmiş, digərləri (məsələn, Tacikistan, bədnam qonşularımız və s.) isə bu yolda əsas mərhələni, uzağı, sentyabr ayında keçmişdilər. Həmin sessiyada yenə bir sıra deputatların, ilk növbədə də Naxçıvan MR-dən xalq deputatı Heydər Əliyevin təkidi ilə avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstə-

qilliyini bərpa etmək haqqında" Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsi qəbul olunmuşdu. Bu, həqiqətən də adi bəyannamə idi və bununla Azərbaycan Respublikası MÜSTƏQİL DÖVLƏT olmurdu. Hərçənd bəyannamədə deyilirdi:

"Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək,

1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək [...]

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir".

Bəyannamənin ardınca Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" aktın layihəsini hazırlamaq barəsində" qərar qəbul etmişdi. Ali Sovetin Rəyasət Heyətinə tapşırılmışdı ki, "Azərbaycan Respublikası Ali Sovetinin daimi komissiyaları ilə birlikdə Azərbaycan Respublikası xalq deputatlarının təklif və qeydlərini nəzərə alaraq "Azərbaycan Respublikasının müstəqilliyini bərpa etmək haqqında" aktın və onun həyata keçirilməsi haqqında qərarın layihələrini iki həftə müddətində hazırlasın və Azərbaycan Respublikası Ali Sovetinin müzakirəsinə versin".

...İki həftə ay yarım çəkmişdi. Oktyabrın 18-də axşam Ali Sovet sədrinin köməkçisi vətənpərvər alim və yazıçı Balaş Abbaszadə zəng vurdu:

– Deputatlar "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbuluna başlayırlar. İş otağımdakı daxili radio-selektoru telefona qoşuram, dinlə, bu da bir tarixdir, – dedi.

Sənədi hazırlayan komissiyanın sədri Konstitusiya Aktını maddə-maddə oxuyur, deputatlar isə cüzi əlavə və düzəlişlərlə münasibətlərini bildirirdilər.

Sonuncu maddə oxunub qurtaranda iclas salonunu alqış sədaları bürüdü. Ali Sovetin sədri mərhum Elmira Qafarova həmişə çətinliklə danışdığı Azərbaycan dilində deputatlara təşəkkür edərək onların alqışlarının bu tarixi sənədin qəbulunun ifadəsi olduğunu bildirdi. "Əleyhinə varmi?" – "Yox!", "Bitərəf qalan?" – yenə "Yox" (Dövlət televiziyasının ekranından məlum olurdu ki, iclasda iştirak edən 258 xalq deputatının HAMISI Konstitusiya Aktının qəbul edilməsinə yekdilliklə "Hə" demişdir).

Müstəqilliyin yolu həqiqətən də uzun və əzablı imiş.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 266 deputatın (!) yekdil rəyi ilə qəbul olunmuş 1991-ci il 15 noyabr tarixli qərarına əsasən, həmin il dekabrın 29-da Azərbaycan Respublikasında "Siz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı" sualı ilə referendum keçirildi. Başqa sözlə, beynəlxalq hüquqa görə, Azərbaycan yalnız 1991-ci il dekabrın 29-da rəsmən müstəqilliyinə qovuşdu, daha doğrusu, 1918-ci ildə elan etdiyi dövlət müstəqilliyini bərpa etdi.

Xatırladıram ki, bu vaxt "SSRİ" deyilən siyasi məfhum da artıq mövcud deyildi: bu dövlətin prezidenti dekabrın 25-də televiziya ilə çıxış edərək səlahiyyətlərini yerə qoyduğunu bəyan etmiş, SSRİ-nin dövlət bayrağı Kremlin üzərindən endirilmişdi.

Onu da qeyd etməliyəm ki, biz təxminən üç il "dövlət müstəqilliyi"mizi bayram elədik və yenidən Heydər Əliyev hamıya "xatırlatdı" ki, 1991-ci il avqustun 30-31-də keçirilən sessiyada qəbul edilmiş sənəd ...dövlət müstəqilliyini BƏRPA ETMƏK haqqında idi; deməli, biz oktyabrın 18-də dövlət müstəqilliyinə qovuşmamışıq, müstəqilliyimizi BƏRPA ETMİŞİK...

Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdığı ilk gündən öyrədirdi ki, dövlət müstəqilliyinə nail olmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq, dönməz və əbədi etmək ondan da çətindir. Qarabağ uğrunda döyüşlər bunu bir daha təsdiq etdi...

1992-ci il fevralın 26-sı idi, gündüz hansı qayğılarla yaşamağımız yadımda qalmayıb, amma axşamı yenə mətbəədə idim və "Həyat" qəzetinin növbəti nömrəsini "bağlayırdıq", köhnə qəzetçilərin diliylə desək, "vyorstka" edirdik. Təxminən saat 20 radələrində Azərinformun (indiki AzərTAc-ın) nömrəyə qoyulmaq üçün göndərdiyi materialların növbəti topasını "Azərbaycan" nəşriyyatının inzibati korpusunun beşinci mərtəbəsində yerləşən teletayp otağından gətirdilər. Buraxılış tarixi saat 19.29 olan bir yazı diqqətimi cəlb elədi: "Xocalı od içində". Material belə başlanırdı:

"Respublika Müdafiə Nazirliyinin mətbuat mərkəzindən Azərinformun müxbirinə xəbər vermişlər ki, fevralın 26-na keçən gecə ərzində erməni silahlı birləşmələri Xankəndidə yerləşdirilmiş 366-cı motoatıcı polkun zirehli texnikasının köməyi ilə Xocalı şəhərinə basqın etmişlər. Azərbaycan Xalq Cəbhəsinin informasiya mərkəzindən alınmış məlumata görə, hücumdan əvvəl – hələ fevralın 25-də axşam şəhər toplardan, zirehli transportyorlardan və zirehli maşınlardan şiddətli atəşə tutulmuşdur. Nəticədə şəhərin bir neçə yerində yanğınlar başlanmışdır. Fevralın 26-da səhər saat 5 radələrində şəhər, əslində, tamamilə alova bürünmüşdür. İlkin məlumata görə, səhər saat 8-ə yaxın Xocalı erməni quldur birləşmələri tərəfindən tutulmuşdur".

Mətnin bu yerində materialın əvvəlinci hissəsi tamamlanır və "ulduz" işarəsindən sonra yekun hissəsi gəlirdi, bu hissədə isə məlumat mənbəyi, istisnasız olaraq, Azərinformun özü idi:

"Xocalı ilə əlaqə hələ gecə ikən kəsilmişdi, ona görə də orada cərəyan etmiş hadisələrin tam təfərrüatını və baş vermiş faciənin miqyasını çatdırmaq hələlik çətindir. Azərinformun Ağdam şəhərindəki xüsusi müxbiri E.Rüstəmov yanan şəhərdən çətinliklə çıxaraq Ağdama gəlib çatmış bəzi sakinlərlə söhbət edə bilmişdir. Onların dediyinə görə, yerli əhali arasında ölənlər və yaralananlar, o cümlədən qadınlar, qocalar və uşaqlar vardır. Sakinlər var-yoxlarını ataraq şəhərdən tələsik qaçmışlar".

Material yığıldı və birinci səhifəyə qoyuldu.

Buradaca uzun illərdən bəri – hər halda, sovet dövrü və müstəqilliyin ilk illəri üçün mövcud olan yazılmamış bir qaydadan söz açmaq çox vacibdir. Həmin qaydaya görə, rəsmi informasiya mənbələri, o cümlədən rəsmi dövlət qəzeti dövlət əhəmiyyətli hadisələrlə bağlı informasiyanı, adətən, rəsmi kanallar vasitəsilə alır və icbari qaydada, olduğu kimi yayırdılar. Demək olar, bütün hallarda belə informasiyanın səhihliyini şübhə altına almağa, yaxud yanlış görünən faktlara düzəliş etməyə, sadəcə, səlahiyyətimiz çatmırdı, üstəlik, başqa qəzetlərdən fərqli olaraq, gündəlik qəzetin hazırlanması prosesi axşamdan xeyli keçmiş, bir növ, konveyer üsulu ilə getdiyinə görə – bu gün istisnasız olaraq bütün gündəlik qəzetlər bu qrafiklə işləyir – əlavə hansısa mötəbər mənbə ilə əlaqə saxlamaq və ona istnad etmək mümkün olmurdu. Oxucular isə, təbii ki, bu prosesdən xəbərsiz olduqlarına görə, ayrı-ayrı rəsmi xəbərlərdə təsadüf edilən qeyri-dəqiq faktlar üçün redaksiyanı təqsirləndirirdilər. Xocalı ilə bağlı informasiyada da məhz belə olmuşdu.

...Saat 21.06-da Azərinformdan "Qəzetlərin 27 fevral nömrələrinə" qrifli yeni material aldıq. Bu materialın faktologiyası "Xocalı od içində" yazısından ciddi şəkildə fərqlənirdi, üstəlik də onu hansısa bir qurum deyil, Azərbaycan Respublikası Prezidentinin mətbuat xidməti hazırlamışdı və

belə hallar üçün qəbul edilmiş qaydaya görə, daha rəsmi xarakter daşıdığından onu dərc eləməli idik; ona görə "Xocalı od içində" yazısını nömrədən çıxardıq.

"Xocalıda vəziyyət haqqında" adlanan və əvvəlki yazı kimi, iki hissədən ibarət olan bu materialın birinci hissəsi – o vaxt üçün də, bu gün üçün də vacib olan hissə aşağıdakı mətndən ibarət idi:

"Respublika Daxili İşlər Nazirliyinin verdiyi məlumata əsasən, keçən gecə Xocalı bir neçə istiqamətdən şiddətli atəşə tutulmuşdur. Düşmənin zirehli texnikasının böyük qüvvələri şəhər üzərinə hücuma keçmişlər. Atəş və hücumlar bu gün bütün gün ərzində davam etmişdir. Nəticədə aeroport dağıdılmış, evlər yandırılmışdır. Yaralananlar vardır. İlkin məlumata görə, iki sakin həlak olmuşdur.

Şəhərin müdafiəçiləri və Milli Ordunun bölmələri düşmən basqınının qarşısını alır, onun saysız-hesabsız hücumlarını dəf edə bilirlər. Hazırda vəziyyət yenə də gərgindir. Lüzumsuz itkilərin qarşısını almaq məqsədi ilə əhalinin qismən köçürülməsi təşkil edilmişdir.

Xocalının erməni birləşmələri tərəfindən tutulması haqqında vahiməli şayiələr həqiqətə uyğun deyildir. Şuşanın hərbi komendantı Rəhim Qazıyev xəbər vermişdir ki, Xocalı müqavimət göstərir. O, erməni quldur birləşmələrindən tamamilə təmizlənmişdir. Mühasirəyə alınmış şəhərin müdafiəsini möhkəmləndirmək üçün tədbirlər görülmüşdür".

Mətnin bu yerində "ulduz" işarəsindən sonra yekun hissəsi – həmin vaxt üçün heç bir əhəmiyyəti olmayan, tarixi baxımdan isə çox gərəkli ikinci hissə gəlirdi. Bu hissədə isə deyilirdi:

"Bir-birinə qarşı duran tərəflər Qarabağda, hərbi əməliyyatlar zonasında atəşi dayandırmaq haqqında razılığa gəlmişlər. Moratorium fevralın 27-də səhər saat 9-dan qüvvəyə minir və martın 1-də səhər saat 9-dək davam edəcəkdir. Bu moratorium Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində vasitəçilik vəzifəsini həyata keçirən İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayətinin bölgəyə gəlməsi ilə əlaqədar elan edilmişdir".

Təkrar edirəm, baş vermiş faciənin – azərbaycanlılara qarşı soyqırımının miqyasları barədə məlumatsızdıq, ona görə də ikinci materiala görə dirəniş göstərməyimiz tam yersiz olardı...

Sonrası məlumdur: məhz Xocalı sayəsində respublikada hakimiyyət dəyişikliyi baş verdi və növbəti faciələrin – ərazilərimizin 20 faizdən çoxunun ermənilər tərəfindən işğalının əsası qoyuldu. Biz, yəni respublika ictimaiyyəti uzun müddət – ən azı mayın 14-15-dək Xocalı hadisələrini araşdırmaqla, günahkar axtarışı ilə məşğul olduq və bu araşdırmalarda... öncül yerlərdən birini də "Azad Şərifovun ictimaiyyətə yanlış informasiya verməsi" versiyası tutdu. Ali Sovetin sessiyasında və Milli Şuranın iclaslarında məhz bu məqam müzakirə mövzusuna çevriləndə bu "yanlış informasiya" məsələsində Azad Şərifovun müdafiəsinə deyil, ALİ HƏQİQƏT naminə "Həyat" qəzetinin 1992-ci il 1 aprel tarixli nömrəsində "Kim haqlıdır?" ümumi başlığı altında bir podborka material dərc etdik – izahlayıcı ön sözlə bərabər, "Xocalı od içində" və "Xocalıda vəziyyət haqqında" adlı rəsmi məlumatları da...

"Həyat"ın 27 fevraldan sonrakı növbəti nömrəsi martın 2-də çıxdı. 3 mart tarixli nömrədə isə Qarabağ üzrə xüsusi müxbirimiz Bəxtiyar Sadıqovun "Bu matəm sonuncudurmu?!" adlı irihəcmli yazısını dərc etdik. İndi həmin yazının təfərrüatı yadımda deyil, ancaq fotomüxbir S.Rasimin imzasını bilmədiyim bir foto həvəskarının artıq müntəxəbata dönmüş fotolarını gətirib göstərməyini və onları dərc edib-etməməyin mümkünlüyünü soruşduğunu yaxşı xatırlayıram. Ondan çox kadrı da Bəxtiyarın yazısı ilə birlikdə dərc elədik və həmin yazı şəkillərlə birlikdə sənədli ittihamnaməyə döndü. Ancaq Azad müəllimə qarşı hətta parlament səviyyəsində basqıların qarşısını ala bilmədik. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Y.Məmmədov "A.A.Şərifovun Azərbaycan Respublikası Dövlət İnformasiya Agentliyinin baş direktoru vəzifəsindən azad edilməsi haqqında" 635 nömrəli fərman imzaladı. Fərmanda deyilirdi:

"Azad Ağakərim oğlu Şərifov başqa işə keçməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Dövlət İnformasiya Agentliyinin (Azərinformun) baş direktoru vəzifəsindən azad edilsin".

Azad müəllimin "başqa iş"i o dövrün abırlı və savadlı neftçisi Kərim Kərimovun rəhbərlik etdiyi Ə.Əmirov adına Neft və Qazçıxarma İdarəsində... neftçıxarma üzrə operatorluq – neft mədənində qara fəhləlik olmuşdu. 37-ci ilin repressiyalarına məruz qalmış bir nəslin davamçısı üçün bu da bir qazanc idi. Həm də çox utancverici fakt bu idi ki, ömrünün 63-cü ilində fəhləliyə başlamaq məcburiyyətində qalan bu insan jurnalistikada Azərbaycanın XX əsrdə yetirdiyi nadir simalardan biri idi...

...Ayaz Mütəllibovun hakimiyyətdən uzaqlaşdırılmasıyla nəticələnən sessiyadan iki-üç gün sonra maraqlı bir hadisə oldu: baş redaktor xaricdə ezamiyyətdə idi, nömrə üzrə məsul növbətçilik Rüstəm Rüstəmova tapşırılmışdı. Axşam təxminən 10-da zəng vurdu: "Nömrəni bitirmişik, Azərinformdan da bir şey gözlənilmir. İşi qurtaraqmı?" Razılıq verdim. Səhər işə gələndə məlum oldu ki, axşam Azərinformdan iki cümləlik xəbər gəlib – Prezidentin səlahiyyətini həyata keçirənin hansısa sanatoriyada məskunlaşmış xocalılı köçkünlərlə görüşməsi barədə. Həmin günlər üçün adi xəbərdir, amma Prezident Aparatından zəng vuran məsul şəxs məsələni şişirtdi və qəzetin məsul növbətçisinin işdən azad edilməsi barədə əmrin surətini ona göndərməyimi istədi. "Baş üstə! – dedim, – ancaq bir şərtlə: özümün də işdən azad olunmağım barədə əmrlə birlikdə". Bu isə o demək idi ki, "Həyat"ın növbəti nömrəsi çıxmayacaqdı, daha doğrusu, redaksiyada həmin nömrəni çapa imzalayası məsul şəxs olmayacaqdı...

..."Həyat"ın 1-ci nömrəsində dərc edilmiş oxunaqlı materiallardan biri də hələlik yalnız Prezident fərmanı üzərində mövcud olan Sədərək rayonu barədə "M.Möhsün" imzalı yazı idi. Möhsünlə 1992-ci ilin sentyabrınadək bir yerdə işlədik, "rəsmi dövlət qəzeti" statuslu "Həyat"ın respublikada 1 nömrəli qəzetə çevrilməsinə nail ola bilməsək də, təxminən yüz nəfərlik heyətlə bir otaqda yerləşsək də, azı altı ay gecə növbəsindən çıxan əməkdaşları evlərinə aparmaq üçün avtomaşınımız olmasa da, hakimiyyəti ələ keçirmək üçün bir-birinin qanına susayan insanların əhatəsində çalışsaq da, vicdanlı, qərəzsiz, həqiqi mənada bütün Azərbaycan cəmiyyətinin qayğılarına, düşüncə və əməllərinə ayna tutan, təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da cərəyan edən proses və hadisələrə operativ reaksiya verən qəzet nəşr etdik. Hər halda, biz ulu Zərdabinin "Qəzet camaat üçündür, camaat qəzet üçün deyildir" tövsiyəsinə sadiq qalmağa çalışdıq. Bilavasitə qəzetdə yaradıcılıq məsələlərinə cavabdeh olan bir şəxs kimi mənim üçün xoş olan məqam idi ki, o dövr xalq hərəkatının şəriksiz lideri Əbülfəz Elçibəy müsahibələrinin birində müntəzəm oxuduğu iki qəzetdən biri kimi "Həyat"ın adını çəkmişdi... Təbii ki, buna həm Bakıda, redaksiyanın özündə, həm də bölgələrdə çalışan əməkdaşlarımızın işgüzarlığı və istedadı sayəsində nail olmuşduq. Onların da arasında seçilən 2-3 jurnalistdən biri Möhsün Möhsünov idi (Sonradan – 1995-ci ildə mən Azərbaycanın müstəqilliyinin bərpası uğrunda Heydər Əliyevin titanik fəaliyyəti barədə "Qətiyyətin təntənəsi" adlı 848 səhifəlik kitab çap etdirəndə "Həyat" qəzeti və M.Möhsünün orada dərc edilmiş Naxçıvan ünvanlı yazıları müraciət elədiyim səhih mənbələrdən biri olmuşdu...).

Tarixdən məlumdur ki, 1990-cı ilin iyulunda Heydər Əliyevin Naxçıvana qayıdışı, yerli camaatın onu xilaskar kimi qarşılaması, bu böyük dövlət adamının Azərbaycan parlamentinə alternativsiz deputat, daha sonra isə muxtar respublika Ali Məclisinə sədr seçilməsi Azərbaycanın əzəli parçası olan Naxçıvan torpağına mərkəzi hökumətin münasibətini kəskin şəkildə dəyişmiş, Heydər Əliyevin timsalında bütün Naxçıvan diyarı "persona non qrata"ya çevrilmişdi.

Elə həmin vaxtlarda M.Möhsün "Həyat"ın müxbiri olmaqla bərabər, Naxçıvan Ali Məclisi sədrinin qeyri-rəsmi mətbuat katibi funksiyasını yerinə yetirərək, həm Ali Məclisdə keçirilən

tədbirlərdə, həm də cəbhə bölgələrinə, Türkiyə və İrana səfərlərində daim Heydər Əliyevin yanında olur, çıxışlarını diktofona yazır, operativ qəzet yazıları hazırlamaqla yanaşı, gələcək kitabı üçün materiallar toplayırdı. Mən təəssüf edirəm ki, M.Möhsün həmin kitabı yazıb nəşr etməyə macal tapmadı: əcəl aman vermədi...

Bir dəfə – gərək ki, 92-ci ilin sentyabr ayının ilk günləri idi – mənə zəng vurub (həmin vaxt mən artıq "Həyat" qəzetindən getmişdim və "Sirdaş" qəzetinin baş redaktoru idim) İran Prezidentinin dəvətiylə və onun şəxsi təyyarəsində Heydər Əliyevin qonşu ölkəyə işgüzar səfəri barədə, blokada şəraitində yaşayan və döyüşən Naxçıvan üçün taleyüklü əhəmiyyətə malik bu səfər barədə irihəcmli yol qeydləri yazdığını, "rəsmi dövlət qəzeti"nin isə ona yiyə durmadığını söylədi və xahiş elədi ki, həmin yazını "Həyat" qəzetinin redaksiyasından götürüb "bir əncam qılım". "Sirdaş" sırf maarifçi, ədəbi-publisistik qəzetdi, siyasi mövzuda, siyasət və siyasətçilər barədə bircə sətir də dərc eləmirdik. Amma Möhsünün xahişini yerə salmadım, həcminin çox iri olmasına baxmayaraq, yazını nömrəyə qoydum. Bu hərəkətimə Möhsünün cavab reaksiyası belə oldu:

– Bu yazı nə Heydər Əliyevə lazımdı, nə də mənə. Onun özü milyon belə yazılar görüb, mən də hesab eləyərəm ki, heç bu yazını yazmamışam, elə həmin səfərdə iştirakçı olmağım bəsimdir... Amma tarix üçün lazımdır bu!

Mən bu fikri onun Heydər Əliyevlə bağlı bütün yazılarına, o cümlədən 1992-ci il oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd, onun səbəbləri, iştirakçıları, gedişi, nəticələri barədə və bütün bu proseslərdə Heydər Əliyevin vətəndaş mövqeyi, rəhbər qətiyyəti barədə "Səs" qəzetində dərc etdirdiyi irihəcmli yazıya, yaxud köklü bakılı, taleyin hökmü ilə çox gənc vaxtlarından Arazın o tayına köçməyə məcbur olan və XX əsrdə Azərbaycanın Üzeyir bəydən sonra ən qüdrətli bəstəkarı, məşhur "Ayrılıq" və "Salam gətirmişəm" mahnılarının müəllifi Əli Səlimi ilə Şimali Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibəyə də (həmin müsahibəni də ilk dəfə "Sirdaş"da, çox-çox sonralar isə təkrarən "Panorama" qəzetində dərc etdirmişdim) yüzdə-yüz aid edirəm. Bu yazıların, ələlxüsus siyasi yazıların tarixi əhəmiyyəti, dəyəri onların məhz vaxtında yazılıb çap etdirilməsində, sözün əsl mənasında obyektiv şahid ifadələri mahiyyəti kəsb etməsindədir. Yeri gəlmişkən, Naxçıvanın həmin təlatümlü çağlarında, Azərbaycanın bir qrup ziyalısının Heydər Əliyevə məşhur müraciəti və həmin müraciətə cavab olaraq Heydər Əliyevin Yeni Azərbaycan quruculuğu ilə bağlı düşüncələrindən ibarət məktubu "Səs" qəzetində işıq üzü görən vaxtlarda "91-lər"dən olan Möhsün artıq yeni adla – "Azərbaycan" adı ilə nəşrini davam etdirən "rəsmi dövlət qəzeti"nin əməkdaşı deyildi: 1992-ci il sentyabrın 28-də iradi qərarla qəzetin Naxçıvan MR üzrə bölgə müxbiri ştatını... ixtisara salmışdılar – "yuxarıların sözü"nü yazmayan jurnalistin timsalında qədim diyarı və onun rəhbərini bu yolla "yerində oturtmaq" istəmişdilər.

... İyulun 21-də Milli Məclisin sədri (artıq Ali Sovet belə adlanırdı) redaksiyaya gəldi – yanında da yeni baş redaktor. Çox bəlağətli bir nitq söylədi və gətirdiyi namizədi redaksiyaya təqdim elədi.

Təzə baş redaktorla cəmi ay yarım birgə işlədik. Bu müddətdə o, qəzetin, necə deyərlər, özündən deyən bütün müxbirlərini heç bir səbəb göstərmədən işdən azad elədi, əvəzində hətta tələbə olan yeni işçilər işə götürdü . Sentyabrın 14-dən etibarən rəsmi dövlət qəzeti "Azərbaycan" adı ilə çıxmağa başlasa da, bu qəzet daha nə 1918-1920-ci illərin "Azərbaycan"ı idi, nə də 1991-1992-ci illərin "Həyat"ı idi.

1993-cü ilin 15 iyunundan etibarən Azərbaycanın həyatında yeni dövr başlandı. Bu, bütün sahələrdə olduğu kimi, həm də mətbuatın, o cümlədən "Azərbaycan" qəzetinin həyatında yeni dövrün başlanması demək idi...

# İki "AZƏRBAYCAN" arasındakı körpü

***Taleyə və qəzavü-qədərə inananam.***

***Bu inam insanın daxilində olsa da, təkcə hislərə söykənmir. Həm də həyatda gördükləri, sınadıqları, tutuşdurduqları faktları və onlardan çıxan nəticələri, habelə həmin fakt və nəticələrin ilk baxışdan nəzərə çarpmayan gizli əlaqələrini araşdırıb öyrənəndən sonra yaranan əminlikdir.***

***İnsan var uğurlu olur (belələrinə ulduz altında doğulmuşlar da deyirlər), hər işi asan başa gəlir.***

***İnsan var hər şeyə çətinliklə, zülmlə nail olur, necə deyərlər, işi daşdan çıxır.***

***Bu hal təkcə insanlara xas deyil!***

Azərbaycan Xalq Cümhuriyyəti çox böyük çətinliklər, əziyyətlər, mübarizələr, uğur və uğursuzluqlar sayəsində yarandı.

Taleyi isə uğursuz oldu! Dövlət quruculuğu sahəsində başladıqları işlərin bir çoxunu başa çatdıra bilmədilər!

Zəhmətləri əllərində qaldı!

Vətən yolunda, millət yolunda gördükləri işlər, çəkdikləri əziyyət başlarının bəlasına çevrildi.

Repressiya və təqib olunarkən heç zaman onlara belə ittihamlar verilməyib:

Nə üçün müstəqil yaşamaq istəmisən?

Niyə azad və suveren dövlət yaratmaq niyyətinə düşmüsən?

Nə səbəbə dövlət qurumlarında, təşkilat və partiyalarda çalışaraq xalqına xidmət etmisən?

Nə üçün lap əvvəldən bizdən olmamısan, bizimlə olmamısan və bizlərlə razılaşmamısan?

Bu fikirlər açıq səslənməsə də, əslində, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin, parlament üzvlərinin, o dövrün iqtidarına kömək edənlərin əsas "təqsiri" və "günahı", repressiya edilmələrinin səbəbi sayılıb.

Qəribə məntiqdir, deyilmi?!

Əslində sovet repressiya sisteminin bircə prinsipi vardı: bizdən deyilsənsə, bizim kimi düşünmürsənsə, deməli, bizə qarşısan!

Belədə ən yaxşı halda yerin sürgündür, həbsxanadır, mühacirətdir!

Həm də təkcə özünün yox, ailənin və doğmalarının da!

Bu çətin və ağır tale, əslində talesizlik təkcə Azərbaycan Xalq Cümhuriyyətinin yox, onun rəsmi orqanı "Azərbaycan" qəzetinin də nəsibi olub!

Müqayisəli şəkildə diqqət yetirək.

❖ ❖ ❖

Yaranmış tarixi şərait yubanmanın xoşagəlməz vəziyyətə səbəb olacağını vəd edirdi. Odur ki, Milli Şura 28 may 1918-ci ildə Tiflis şəhərində Azərbaycanın dövlət müstəqilliyi haqqında "İs-

tiqlal Bəyannaməsi"ni qəbul etdi. Hətta bundan sonra da yeni yaradılan dövlət özünə paytaxt seçdiyi Bakıya köçə bilmədi. Çünki Şaumyanın rəhbərlik etdiyi bolşevik-daşnak hökuməti şəhəri işğal etmişdi. Milli Şura və hökumət məcburiyyət qarşısında qalaraq iyunun 16-da 18 günlük qəriblikdən sonra Gəncəyə köçdü və burada fəaliyyətə başladı.

Müstəqil dövlətin özünün xüsusi mətbu orqanının olması çox vacib sayılırdı. Radio və televiziyanın yoxluğu dövründə, şübhəsiz, bu, qəzet formasında olacaqdı. İyunun 3-də "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" adlı nəşrin buraxılması barədə qərar qəbul edildi. Amma ilk nömrə xeyli yubandı (yalnız 25 yanvar 1919-cu ildə Bakıda çıxdı).

Beləliklə, mövcud boşluğu doldurmaq üçün "Azərbaycan" qəzetinin birinci nömrəsini 15 sentyabr 1918-ci ildə Gəncədə buraxdılar!

Sanki qəriblik elə əvvəlcədən hər ikisinin alnına yazılmışdı: Azərbaycan Xalq Cümhuriyyəti Tiflisdə, "Azərbaycan" qəzeti isə Gəncədə dünyaya göz açdı!

İkinci məqam. Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin, bu hökumətə qulluq edən insanların və ilk parlamentin üzvlərinin sonrakı taleyi fəlakətli oldu. XI ordunun işğalından, Azərbaycan sovetləşəndən sonra hamısı təqiblərə məruz qaldı, güllələndi, həbsxanalara atıldı, sürgünə göndərildi və ya ömrünün sonunadək mühacir həyatı yaşadı.

Eyni aqibət musiqi dühasının xilas etdiyi Üzeyir bəy Hacıbəylidən başqa "Azərbaycan"ın bütün redaktorlarına – Ceyhun bəy Hacıbəyliyə, Şəfi bəy Rüstəmbəyliyə, Xəlil İbrahimə, habelə qəzetin daimi yazarlarının əksəriyyətinə də qismət oldu!

Üçüncüsü, müsavat bərabərlik deməkdir. Kommunistlər də özlərini bərabərlik tərəfdarı sayırdılar. Amma nədənsə cəmiyyətdə "bərabərlik" tərəfdarı olan sovetlər həmin bərabərliyə insanları yoxsullaşdırmaq yolu ilə – "yoxsulluq bərabərliyi" ilə nail olmaq istəyirdilər. Digər bərabərlik partiyasını – "Müsavat"ı özlərinə düşmən sayırdılar. Azərbaycan Xalq Cümhuriyyətinə də "müsavatçı", "pantürkist" və "panislamist" damğası vurmaqla düşmən elan etmişdilər.

"Azərbaycan" qəzeti "müsavatyönlü" sayılaraq zərərli mətbu orqan hesab edilirdi. Tədqiqatçılar tərəfindən öyrənilmir, jurnalistika fakültələrində tədris edilmir, hətta adı belə çəkilmirdi. Arxivlərin küncləriində elə gizlədilmişdi ki, hələ də işıq üzünə tam çıxarmaq mümkün olmayıb!

Dördüncüsü, XX əsrin sonlarında Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini elan edəndə yenə "köhnə" problemlərlə üzləşdik: ordu yox, iqtisadiyyat pozulmuş, "Qarabağ problemi" meydana atılaraq torpaqlarımızın işğalına rəvac verilmişdi. Əgər xalqın arzu və tələbi ilə ulu öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtmasaydı, əsrin əvvəlindəki müstəqilliyin aqibəti yenidən yaşanacaqdı.

"Azərbaycan" qəzetinin də təkrar "doğuşu" çox çətin və ağrılı oldu!

Bu həm də dövrün ziddiyyət, təlatüm, siyasi və mənəvi böhranlarından irəli gəlirdi.

❖ ❖ ❖

Dünyanın ikinci qütbünü, güc mərkəzini təşkil edən SSRİ adlı superdövlət, "qırmızı imperiya" adlanan nəhəng ölkə laxlayaraq çökməyə başlamışdı. Onun çöküşünə həm də kommunist ideologiyasına xəyanət etmiş, kommunizmin düşmənləri tərəfindən ələ alınmış, ermənilərin məkrli toruna düşmüş M.Qorbaçov kömək edirdi. Həmin dövrdə M.Qorbaçov Sov. İKP MK-nın baş katibi – faktiki ölkənin rəhbəri idi. İslahatlar keçirərək (onun adını "yenidənqurma" qoymuşdular) guya SSRİ-ni xilas etmək, saxlamaq istəyirdi. Amma tam əksi baş verdi...

"Alkoqolizmə qarşı mübarizə" adı altında görülən işlər iqtisadiyyatı pozdu, müttəfiq respublikalar arasında qabardılan ayrı-seçkilik, milli məsələ sahəsində yol verilən kobud nöqsanlar qısa


ДӨВЛӘТ ГӘЗЕТИ
həjat
Азәрбајҹан ССР Али Советинин органы
«ҺӘЈАТ» ГӘЗЕТИНИН ЈАРАДЫЧЫ КОЛЛЕКТИВИНӘ ВӘ ОХУЧУЛАРЫНА
1991—ҮМИДЛӘР ИЛИ
БИР КӘРӘ ЈУКСӘЛӘН БАЈРАГ БИР ДАҺА ЕНМӘЗ!
həjat
Азәрбајҹан Республикасы Али Советинин органы
РӘСМИ ДӨВЛӘТ ГӘЗЕТИ
АЗӘРБАЈҸАН ПРЕЗИДЕНТИ ГӘБУЛ ЕТМИШДИР

müddətdə mərkəzdənqaçma qüvvəsini gücləndirdi. Dağılmanın qarşısını almaq üçün əl atılan zorakılıq və "qorxutma metodları" isə əks effekt doğurdu.

Belə zorakılıq tədbirlərindən biri Ermənistan ərazisində yaşayan azərbaycanlıların dədə-baba torpaqlarından qovulması, Dağlıq Qarabağda separatçılıq meyillərinə rəvac verilməsi və Azərbaycan xalqının buna kəskin etirazı zamanı Moskvanın 20 Yanvar faciəsini törətməsi oldu. "Xalqlar dostluğu" və "böyük qardaş" prinsipi pozularaq Bakı sakinlərinin gülləbaran edilməsi, mərkəzin ermənipərəst mövqe tutması xalqın səbir kasasını daşdırdı. İnsanlar bu haqsızlıqlara və vəhşiliyə etiraz əlaməti olaraq Sov. İKP sıralarını tərk etməyə, partiya biletlərini yandırmağa və cırıb atmağa, kütləvi şəkildə partiyadan üz çevirməyə başladılar.

Belə məqamda heç kim ölkədə "Kommunist" adında qəzetin buraxılmasını istəmirdi. Üstəlik, o zaman ölkənin yeganə partiyası olan Sov.İKP-nin ölkə rəhbərliyindən kənarlaşdırılması və idarəetmənin qəbul edilmiş beynəlxalq qaydalara uyğun olaraq müvafiq seçkili orqanlara verilməsi barədə də söz-söhbət gedirdi. Moskvada gedən proseslərə uyğun olaraq yerlərdə də oxşar addımlara start verilmişdi. Belə dəyişikliklər mətbuatdan da yan keçmədi.

❖ ❖ ❖

SSRİ-nin bir nömrəli qəzeti Sov. İKP-nin orqanı olan "Pravda" idi. Bu qəzet partiyanın adından dövlətin sözünü deyər, siyasi, ideoloji, iqtisadi, mənəvi, hərbi – əslində, bütün sahələr üzrə vəzifələr irəli sürər, mövqe müəyyənləşdirər, nöqsanları tənqid edərdi. "Pravda"da tərif olunanın bəxti açılardı, tənqid edilənlərin isə çərxi çönərdi. Hakim partiya (istər Sov.İKP, istərsə də müttəfiq respublikaların mərkəzi komitələri) orqanı olan qəzetlərə xüsusi qayğı göstərər, onların bir çıxışını belə diqqətdən kənarda saxlamazdı.

Hər bir müttəfiq respublikanın da baş qəzeti "Kommunist" adını daşıyırdı. "Birinci" statusunu daşıyan həmin qəzetlərin "güc göstəricisi" o dövrdə fəaliyyət göstərən üç mühüm qurumun –

Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Azərbaycan SSR Nazirlər Sovetinin orqanı olmaları sayılırdı. Əslində, həmin qəzetlər yalnız Mərkəzi Komitədən – dövrün şəriksiz baş qurumundan idarə olunurdu.

Sov.İKP nüfuzdan düşdükdən, onun ölkəyə rəhbərlikdən getməsi məsələsi gündəmə gəldikdən sonra baş qəzetlərin də taleyi müəyyənləşməli idi. Hakimiyyətin yenidən sovetlərə – seçkili orqana qaytarılması məsələsi qərara alınmışdı. İldə iki dəfə sessiya keçirərək Sov. İKP-nin göndərdiyi bütün qanun və qərarlara, digər hüquqi aktlara "yekdilliklə" səs verən Ali Sovetin işlək quruma çevrilməsi gözlənilirdi. Artıq Moskvada SSRİ xalq deputatlarının qurultayı keçirilirdi.

Müttəfiq respublikaların ali sovetlərinin öz orqanlarının da yaradılması qərara alındı. Beləliklə, "Kommunist" qəzeti Azərbaycan KP MK-nın orqanı olaraq qaldı. Sonradan onun adı "Xalq qəzeti" ilə əvəzləndi. Azərbaycan SSR Nazirlər Soveti üçün "Respublika" adlı qəzet buraxılışına başlandı.

Qeyd etdiyimiz kimi, hakimiyyətin sovetlərə qaytarılması ilə əlaqədar Azərbaycan SSR Ali Sovetinin ayrıca orqanının yaradılması qərara alınmışdı. Bu iş yazıçı-dramaturq, "Kommunist" qəzetinin şöbə müdiri Əfqan Əsgərova həvalə olundu. Əfqan Əsgərov fürsətdən istifadə edərək Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti olan "Azərbaycan"ı yenidən həyata qaytarmaq üçün çox çabalar etdi. Lakin həmin dövrdə Qarabağa Xalq Yardımı Komitəsi tərəfindən "Azərbaycan" adında qəzet buraxılırdı. Mövcud qanunvericiliyə görə, eyni adda iki qəzet çıxa bilməzdi. "Azərbaycan" adının Ali Sovetin (hazırkı Milli Məclisin) orqanına verilməsi ilə bağlı aparılan qeyri-rəsmi danışıqlar səmərəli nəticələr vermədi (bu, yalnız 1993-cü ilin sentyabr ayında baş tutdu). O halda qəzetin başqa adla buraxılması labüd oldu. Çox müzakirələrdən sonra "Həyat" adı seçildi. "Həyat" Üzeyir bəy Hacıbəylinin əməkdaşlıq etdiyi qəzetlərdən biri idi. Üzeyir bəy "Azərbaycan"ın da redaktoru olmuşdu. Bu məqam ad seçimində müəyyən rol oynadı.

"Həyat"ın nizamnaməsi hazırlanıb təsdiq edilərkən ona "rəsmi dövlət qəzeti" statusu da verildi. Əslində, bu, faktiki cəhətdən cümhuriyyət dövrünün "Azərbaycan" qəzetinin "Həyat" adı ilə bərpası sayılırdı.

"Həyat"ın ilk nömrəsi 1 yanvar 1991-ci ildə çıxdı.

❖ ❖ ❖

Hələ ölkədə qəzet bolluğu yaranmamışdı.

Qəzetçilikdə köhnə stereotiplər davam edirdi. Doğrudur, bəzi qəzetlər "sərbəst fikir söyləməyə", "cəsarətli danışmağa" can atırdılar. Ancaq dövlətə və rəsmi qurumlara məxsus qəzetlər ehtiyatlı davranırdı.

"Həyat" isə daha sərbəst və qəzəbli görünürdü. 20 Yanvar faciəsinin nəticələrinin unudulmaması, Ermənistanın Dağlıq Qarabağda baş qaldıran separatçı meyilləri körükləməsi və mərkəzin buna loyal, birtərəfli mövqe tutması ilə Azərbaycan xalqının barışmaması ilk nömrədəki yazılarda da açıq-aşkar duyulurdu.

Qəzetin ilk nömrəsinin (bu nömrədə təbriklər üstünlük təşkil edir) birinci səhifəsinə baxanda qəzetdəki yeniliklər, cəsarət və kəskinlik dərhal duyulur. Loqotipdə – "Həyat" sözünün üstündə "dövlət qəzeti" sözü yazılıb. "Həyat"ın sağında "Azərbaycan SSR Ali Sovetinin orqanı", solunda isə "Torpağını, elini, dilini qoru" sözləri həkk olunub. Qeyd edək ki, sovet dövründə "dövlət qəzeti" statusu ilə heç bir qəzet buraxılmayıb. Qəzetin adının yanında isə "Torpağını, elini, dilini qoru" çağırışı rast gəlinməyən məqamdır. Bu, dövrün tələbindən irəli gələn, "vahid dövlət" və "vahid xalq" prinsipi ilə bir araya sığmayan şüar idi.

İki material üzərində bir qədər geniş dayanmaq istəyirik. Onun biri "SSRİ prezidentinin sovet xalqına yeni il müraciəti" adlanır və birinci, həm də sonuncu prezident M.Qorbaçovun təbrikinin mətni idi. "Oxuculara" adlanan ikinci materialda isə nəşrə başlayan yeni qəzetin məram və məqsədindən danışılırdı. Ənənəyə görə, bu yazı ad və soyad (Əfqan Əsgərov) göstərilmədən "Baş redaktor" imzası ilə verilmişdi.

"Həyat"ın ilk nömrəsi çıxan zaman Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmamışdı. Bu, on ay sonra – 18 oktyabr 1991-ci ildə baş verəcəkdi.

İkincisi, hələ mətbuata senzura nəzarəti vardı, Azərbaycan SSRİ-nin tərkibində idi: həm hüquqi, həm də faktiki cəhətdən. Amma qırmızı imperiyanın çöküşü başlamışdı. Dövrün ziddiyyətləri və qəribəlikləri bu iki yazını oxuyarkən bir daha aydın görünür.

SSRİ-nin ilk prezidenti narahatlığını gizlətmirdi: "1991-ci il xüsusi ildir. Çoxmillətli dövlətimizin müqəddəratı məsələsini həll etmək onun üzərinə düşür. Hamımız, sovet adamları üçün bütün xalqların azad və yaxşı yaşayacağı ittifaqı qoruyub saxlamaqdan və yeniləşdirməkdən müqəddəs bir iş yoxdur".

Maraqlıdır ki, M.Qorbaçov bu müraciətində nəhəng bir ölkənin dağılma səbəblərinə də toxunurdu. Amma özünəməxsus bir üslubda: "Ölkənin keçirdiyi böhran nə qədər dərin olsa da, biz elə 1991-ci ildə yaxşılığa doğru dönüşə nail ola bilərik və nail olmalıyıq. Lakin bunun üçün vətəndaş həmrəyliyi və millətlərarası həmrəylik, məsuliyyət və intizam, vicdanlı əmək və bir-birinə qarşı insani münasibət lazımdır".

Bu deyilənlərə əməl olunmadığına görə SSRİ dağıldı.

Baş redaktorun müraciəti isə daha sərt və kəskindir. İnanmaq olmur ki, o dövrdə dövlətin ali qurumlarından birinə məxsus orqanda, rəsmi qəzetdə belə ittihamlar yazıla bilərmiş.

Baş redaktor əvvəlcə "Həyat"ın nəşrə başladığı dövrün xarakteristikasını verir: "Həyat" son dərəcə mürəkkəb bir şəraitdə dünyaya gəlmişdir. Sosializmin ən böyük eksperimentlərindən olan konsepsiyasız yenidənqurma uğursuzluqla nəticələnmiş, ölkə siyasi, iqtisadi və mənəvi böhrana düşmüşdür. Yetmiş üç oktyabr ilində sovet xalqı çox gərgin böhranlar və məhrumiyyətlər görsə də, ümidini itirməmişdi. İndi isə ölkənin hər yerində ümidsizlik xaosu hökm sürməkdədir. Böyük-kiçiklik itmiş, nizam-intizam büsbütün pozulmuş, xarici diversiya və daxili sabotaj üç yüz milyonluq bir xalqı müflis olmaq və aclıq təhlükəsi qarşısında qoymuşdur".

İkincisi, birbaşa bu vəziyyətin yaranmasının başlıca günahkarı M.Qorbaçov aşkar şəkildə ittiham edilir. Bəli, müttəfiq respublikanın Ali Sovetinin orqanı hələ mövcud olan SSRİ-nin prezidentini nəinki tənqid, bəlkə də ifşa edir: "Son bir ildə daha gur səslənir ki, ölkəyə sahib lazımdır! Xarici və daxili təxribat əl-ələ verərək dünyanın ən qüdrətli dövlətlərindən birini kökündən laxlatmış, siyasi və iqtisadi müvazinətimizi pozmuş, vətəndaş müharibəsinə çevrilməkdə olan millətlər qırğını düzəltmiş, müqəddəslik itmiş, əxlaq eybəcərləşmişdir. İnsanın insana dost olduğu ilə fəxr edən bir ölkə düşmənçilik burulğanında vurnuxur. Yenidənqurma illərində qara bayraqların sayı qırmızı bayraqlardan çox olmuşdur. Sovet xalqı həm siyasi, həm də mənəvi uçuruma doğru gedir. Ölkə prezidenti altdan-üstdən bütün hökmdar səlahiyyətləri ilə yaraqlansa da, onun hökmlərini eşidən, fərmanlarını yerinə yetirən yoxdur. Prezident Qorbaçov hətta ona etimadsızlıq göstərilən məqamlarda belə vəziyyətdən çıxmağı bacarır, ustalıqla bacarır. Ancaq ölkəyə elə sahib lazımdır ki, o, təkcə özünü yox, üç yüz milyonluq xalqı çıxılmaz vəziyyətdən çıxarsın".

Ən nəhayət, "Həyat"ın öz qarşısına hansı vəzifələri qoyduğu qısa şəkildə də olsa, vurğulanır: "Azərbaycanda ilk dəfə demokratik qaydada seçkilər keçirilmişdir. Heç şübhəsiz, əyintilər də, demokratiya pərdəsi altında sui-istifadələr də olmuş, nəticədə xalq deputatları sırasına bu yüksək

etimada layiq olmayanlar da düşmüşlər. Nə etmək olar, biz əsl demokratiyanı indi-indi öyrənirik. "Həyat" qəzeti öz oxucuları üçün demokratiyanı və qanunları öyrənmək məktəbinə, etibarlı bələdçiyə çevriləcəkdir".

"Həyat" oxucularına ilk nömrəsində verdiyi vədlərə daim sadiq qaldı. Bunun bir qismi peşə fəaliyyəti ilə bağlı idi. Ən əsası, milli mətbuatın, ilk demokratik dövlətin rəsmi orqanının ənənələrini yenidən dirçəldərək yaşatdı.

"Həyat" nə bitərəf qalacaq, nə də tərəfgirlik edəcəkdir, səhifələrində bütün partiyalara, qruplara və başqa ictimai təşkilatlara yer verəcəkdir, fikir müxtəlifliyi yolu ilə həqiqətin təntənəsinə nail olacaqdır.

Qarşıda yeni parlamentimizin iclasları, ali məclisləri gözlənilir. İnanırıq ki, həmin məclislər öz fəallığı, fikir və platforma müxtəlifliyi, mübarizliyi və prinsipiallığı ilə keçmiş sessiya iclaslarından fərqlənəcəkdir. "Həyat" qəzeti bütün parlament iclaslarını, o cümlədən prezident şurası iclaslarını, başqa qəzetlərdən fərqli olaraq, daha ətraflı işıqlandıracaqdır".

Doğrudan da, "Həyat" müstəqil Azərbaycanın ilk parlament iclaslarını, parlamentdə gedən müzakirə, fikir savaşını geniş, obyektiv işıqlandırdı. Siyasi partiyalara fərq qoymadı. Diqqətçəkən məsələlərdən biri "Həyat" qəzetinin çıxdığı dövrdə Naxçıvanda gedən proseslərə kifayət qədər yer ayırması idi. Məlum qadağa və çətinliklərə baxmayaraq, Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti, Naxçıvanın düşmən işğalından qorunması, aclıq və blokadadan çıxarılması yolunda görülən işlər, habelə Yeni Azərbaycan Partiyasının yaranması ilə bağlı informasiyalar qəzetin səhifələrində öz əksini tapmışdır.

Bu məsələdə "Həyat"ın Naxçıvan üzrə xüsusi müxbiri Möhsüm Möhsümovun böyük zəhməti olmuşdu.

❖ ❖ ❖

"Həyat" təqribən 21 ay nəşr olundu. Onun tam fəaliyyəti barədə geniş danışmaq imkan xaricindədir. Əvvəla, bir məqalədə bunu etmək çətindir və qarşıya elə məqsəd qoymamışıq.

İkincisi, "Həyat" "Azərbaycan"ın davamçısı olduğuna görə onun talesizliyini də yaşamaqdadır.

"Azərbaycan" yüz il bundan qabaq nəşrə başlayıb. Sovet dövrü qadağaları və AXC-yə mənfi münasibət nəticəsində nömrələri it-bata düşmüş, bu gün də 443 nömrəni cəm halda əldə etmək mümkün olmamışdır.

27 il bundan qabaq nəşr olunmuş "Həyat" qəzetinin də nömrələri qalmayıb: nə kitabxanalarda, nə də redaksiyanın özündə! 1991-1992-ci illər anarxiya və xaos dövrü olduğu üçün kitabxanalar qəzet nömrələrini toplayıb saxlamayıblar. Redaksiyada isə...

Hər bir redaksiyada illik qəzet toplusu cildlənərək saxlanılır. Həm arxiv yaradılması baxımından, həm də müəyyən dəqiqləşmələrə ehtiyac yarananda köhnə nömrələrə baxıb tutuşdurmanın tez başa gəlməsi sarıdan. Adətən son qəzet toplusunun redaksiyadan çıxarılmasına yol verilmir. Lakin necə olubsa, "Həyat"ın yeganə cildlənmiş variantı Milli Məclisdən istəniləndə bu qayda pozulub. Sonra onun geri qaytarılması barədə düşünən də olmayıb...

...Kitabxananı təmir etdikdən sonra "təmizləmə" işləri də aparılıb. "Həyat"ın saralmış toplusu "köhnəldiyi" üçün təzə otağa qoyulması məqsədəmüvafiq sayılmayıb...

Atılıb!

Hələ ki onun nömrələrinin yenidən tapılıb toplanaraq bərpası istiqamətindəki çalışmalarımız uğurlu nəticə verməyib...

❖ ❖ ❖

Nəhayət, 1992-ci ilin 23 sentyabrında rəsmi dövlət qəzeti və Milli Məclisin orqanına əsl adını qaytarmaq, tarixi ədaləti bərpa etmək mümkün oldu! Həmin dövrdə Qarabağa Xalq Yardımı Komitəsinin orqanı (Ali Sovetin, yaxud hökumətin orqanı yox) kimi çıxan "Azərbaycan" qəzeti "Həyat" qəzetinin "titulları" saxlanılmaqla və maddi-texniki bazası əsasında onunla birləşdirildi. Yəni "Azərbaycan"ın əməkdaşları köçüb gəldilər "Həyat"ın redaksiyasına.

Özləri ilə təkcə adlarını gətirdilər...

Təəssüf ki, bu birləşmə zamanı daha bir ədalətsizliyə yol verildi. "Həyat"ın 440 nömrəsi unuduldu. Başqa sözlə, "Azərbaycan" adı geriyə qaytarılarkən xalq cümhuriyyəti dövrünün "Azərbaycan"ının say nömrəsi ilə hesablanma başladı: müasir "Azərbaycan"ın ilk nömrəsi 444 göstərildi. Beləliklə, rəsmi dövlət qəzeti və parlamentin orqanı kimi nəşr olunan "Həyat"ın 440 nömrəsi nəzərə alınmadı. Sanki heç olmayıbmış! Halbuki "Həyat"la "Azərbaycan"ı birləşdirən ümumi cəhətlər də çoxdur.

Əvvəla, hər ikisi dövlət qəzeti və parlamentin orqanı kimi nəşr olunub.

İkincisi, daim dövlətçilik mövqeyində olmuş, müxalifət qəzeti funksiyasını yerinə yetirməmişlər.

Üçüncüsü, dövlətə, dövlətçiliyə, demokratiyaya xidmət göstərmişlər (hansısa partiyaya yox), milli maraqları daim uca tutmuşlar.

Dördüncüsü, hər ikisində qəribə tale oxşarlığı müşahidə olunur. Belə ki, həm "Azərbaycan", həm də "Həyat":

*hər ikisi eyni müddətdə, eyni sayda (443 və 440) çıxmışdır;*

*hər ikisinin bütün nömrələri qorunub saxlanmayıb;*

*"Azərbaycan" sovet dövründə unutduruldu, yox edildi, "Həyat" isə indi yoxdur və yaddan çıxıb!*

❖ ❖ ❖

Əlbəttə, biz bu məsələlərə diqqət çəkməklə sadəcə danışıb durmuruq. Hər iki qəzetin itən nömrələrinin tapılması, elektron variantlarının hazırlanaraq kitabxanalara verilməsi sahəsində səyimizi davam etdiririk. Ən əsası, bu işdə bizə kitabxanaçılar, arxivşünaslar, alimlər, mətbuat tədqiqatçıları, vətənpərvər ziyalılar yaxından kömək edirlər.

İnanırıq ki, gec-tez ədalət öz yerini tapacaq, hər bir qəzetə xidmətinə layiq münasibət göstəriləcəkdir!

**Bəxtiyar SADIQOV**

# Tariximizə qayğı və məsuliyyətlə yanaşaq

*"Azərbaycan"ın elektron arxivi oxuculara təqdim olunur*

***Bəzən insan həyatında elə məqamlar olur ki, yaşadığı həqiqəti həmin insandan başqa heç kim bilmir və hətta onu özü ilə həyatdan aparır. İctimai xarakter daşıyan hadisələrdəki həqiqətlər isə tarixin səhifələrində gizlənir. Onu aşkar etmək hərdən uzun illər tələb edir.***

***Elə məqamlar da var ki, dövlətçilik baxımından son dərəcə əhəmiyyətlidir, həmişə aktualdır, onları xalqın və dövlətin gələcəyi naminə unutmaq, saxtalaşdırmaq olmaz. Çünki tarixin qisası ağır olur, tarix unutqanlığı sevmir. Məşhur rus tarixçisi Kluçevskinin dediyi kimi, tarix müəllim deyil, ancaq bilməyəndə ağır cəzalandırır.***

Qürur və iftixarla yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti – müsəlman Şərqinin ilk demokratik respublikasının yaranmasından 100 il ötdü. Dünyanın ən sülhpərvər, ən demokratik dövlətini XX əsrdə məhz Azərbaycan xalqı yaratdı və yaşatdı desək, yanılmarıq. Xalqımızın həm "ağ", həm də "qara" tarixini özündə qoruyub saxlayan bu zaman kəsiyinin yalnız 29 ili müstəqillik tariximizdir. Azərbaycan Xalq Cümhuriyyəti demokratik dəyərləri təmin edərək xalqımızın əsrlərdən bəri formalaşmış dövlətçilik ənənələrini bərpa etmiş oldu. Bu dəyərlər sırasında mətbuat da yer almışdı. Cümhuriyyətin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzeti bir neçə ay sonra işıq üzü gördü. İlk vaxtlar həftədə iki dəfə nəşr olunan "siyasi, elmi və iqtisadi türk qəzetəsi" kimi "Azərbaycan"ın birinci nömrəsi Gəncə şəhərində 15 sentyabr 1918-ci ildə buraxıldı. Qəzetin bu nömrəsi iki dildə: Azərbaycan və rus dillərində, 4 səhifə həcmində (2 səhifəsi Azərbaycan dilində əski əlifbada, 2 səhifəsi rus dilində) idi. Bu, o dövr üçün çox mühüm hadisə kimi dövlətçilik tariximizə qızıl hərflərlə yazıldı. Ardıcıl 4 nömrəsi Gəncədə çıxdı. Qəzetin 5-ci nömrəsi 3 oktyabr 1918-ci ildə Bakıda – cümhuriyyətin paytaxtında buraxıldı. "Azərbaycan"ın 1918-1919-cu illərdə 358, 1920-ci ildə isə 85 nömrəsi işıq üzü görüb.

23 aylıq müstəqillik dövründən sonra Azərbaycanda işğalçı sovet hakimiyyəti quruldu. Bununla da müstəqilliyin bütün simvolları kimi, "Azərbaycan" qəzeti də, sözün əsl mənasında, işğal edildi. Qəzet redaksiyasının maddi-texniki bazasında "Kommunist" qəzeti fəaliyyətə başladı. Bu qəzet işğalçı hakimiyyətin mətbu orqanı olduğundan istər siyasi, istərsə də ideoloji varislik hüququ qazana bilməzdi və bilmədi də... Axı işğalçı ilə əks əqidə və məslək sahibləri necə bir-birinin varisi ola bilər?!

1991-ci il yanvarın 1-dən etibarən Azərbaycan SSR Ali Sovetinin rəsmi orqanı və dövlət qəzeti kimi "Həyat" fəaliyyətə başladı. Qəzetin ilk nömrəsinin birinci səhifəsində Azərbaycan SSR-in prezidentinin, Ali Sovetin və Nazirlər Soveti sədrlərinin qəzetə təbrik məktubları dərc olunub. Məktublarda deyilirdi: "Azərbaycanın ilk dövlət mətbu orqanının nəşrə başlaması münasibətilə "Həyat" qəzetinin yaradıcı kollektivini və oxucularını səmimi-qəlbdən təbrik edirəm. Qəzetin nəşrə başlaması respublikamızın dövlət suverenliyinə və iqtisadi müstəqilliyinə nail olmaq yolunda atılan ilk mühüm addımlardan biridir".




"Həyat" qəzetinin Ali Sovetin orqanı və dövlət qəzeti kimi 440 nömrəsi işıq üzü görüb. 22 sentyabr 1992-ci il tarixdə qəzetin bu statusda son nömrəsi buraxılıb. Bir məqamı qeyd edək ki, hələ sovet hakimiyyətinin laxladığı bir dövrdə Azərbaycanda Qarabağa Xalq Yardımı Komitəsi yaradılmışdı. Komitənin mətbu nəşri kimi "Azərbaycan" adı altında 1989-cu ildən yeni qəzet çıxmağa başladı. Onun 156 nömrəsi işıq üzü gördü. Bu qəzetin son, yəni 156-cı nömrəsi 10 sentyabr 1992-ci ildə dərc olunub.

23 sentyabr 1992-ci ildən isə Azərbaycan Respublikası Ali Sovetinin orqanı kimi "Azərbaycan" qəzeti "Həyat" qəzetinin redaksiyasının bazasında fəaliyyətə başlayıb. Qəzetin ilk nömrəsi 444-cü nömrə ilə qeydə alınıb. Məlumat üçün qeyd edək ki, cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin cəmi 443 nömrəsi çıxmışdı.

"Azərbaycan"ın 444-cü nömrəsinin birinci səhifəsində "Baş redaktordan" rubrikası altında "72 illik ayrılıqdan sonra" başlıqlı məqalə dərc edilmişdi. Məqalədə yazılırdı: "Düz 72 illik fasilədən sonra "Azərbaycan" qəzeti yenidən nəşrə başlayır".

Yalnız 72 ildən sonra – 1992-ci il sentyabrın 23-də Azərbaycan Respublikası Ali Sovetinin mətbu orqanı – rəsmi dövlət qəzeti kimi fəaliyyətini bərpa edən "Azərbaycan" qəzetinin bugünədək 7930 nömrəsi buraxılıb. Bu rəqəmin içində cümhuriyyət dövrünün 443 nömrəsi də var. Beləliklə, 443 nömrə 1918-1920-ci illərə, 7487 nömrə isə 1992-2018-ci illərə aiddir. Tarixi fakt kimi qeyd edək ki, 1992-ci ildə "Azərbaycan" qəzetinin ilk nömrəsinin loqosu Qarabağa Xalq Yardımı Komitəsinin buraxdığı qəzetin loqosu ilə eyni olub. 2 oktyabr 1992-ci il tarixdən həmin loqo da dəyişdirilərək yenisi ilə əvəz edilib.

"Azərbaycan" qəzetinin 1918-1919-cu illərdə 358, 1920-ci ildə 85, 1992-ci ildə 70, 1993-cü ildə 254, 1994-cü ildə 253, 1995-ci ildə 252, 1996-cı ildə 252, 1997-ci ildə 288, 1998-ci ildə 304, 1999-cu ildə 300, 2000-ci ildə 301, 2001-ci ildə 299, 2002-ci ildə 301, 2003-cü ildə 302, 2004-cü ildə 304, 2005-ci ildə 304, 2006-cı ildə 295, 2007-ci ildə 295, 2008-ci ildə 292, 2009-cu ildə 292, 2010-cu ildə 289, 2011-ci ildə 291, 2012-ci ildə 294, 2013-cü ildə 291, 2014-cü ildə 288, 2015-ci ildə 290, 2016-cı ildə 292, 2017-ci ildə isə 291 nömrəsi işıq üzü görüb.

15 sentyabr 1918-ci il,
Gəncədə Azərbaycan dilində çıxan ilk nömrə




22 sentyabr 1918-ci il,
Gəncədə rus dilində çıxan ilk nömrə




3 oktyabr 1918-ci il,
Bakıda çıxan ilk nömrə




2 oktyabr 1992-ci il
Müstəqillik dövründə nəşrə başlayan "Azərbaycan"



"Azərbaycan" qəzetinin elektron arxivinin yaradılması prosesinə 2002-ci ildə başlanılmış, bu istiqamətdə müəyyən tədbirlər görülmüşdür. Belə ki, qəzet nömrələri QuarkXPress proqramında elektronlaşdırılmış və PDF formatında arxivləşdirilmişdir. 1992-2002-ci illəri əhatə edən 2804 nömrənin arxivləşməsində isə müəyyən çətinliklər olsa da, bu proses 2018-ci ilin birinci yarısında tam yekunlaşdırıldı. Həmin dövr ərzində dərc olunan nömrələrin elektronlaşdırılması prosesi foto və skan vasitəsilə həyata keçirilib. Bu, ilk növbədə orijinallığı qorumaq məqsədi daşıyır. Azərbaycanda mövcud arxiv və kitabxanalarla qarşılıqlı əməkdaşlıq çərçivəsində artıq bu iş uğurla başa çatdırılıb. Beləliklə, müasir dövrün "Azərbaycan" qəzeti bu gün (1992-2018-ci illəri əhatə edən 7930 nömrə) tam elektronlaşdırılıb. Məlumat üçün qeyd olunmalıdır ki, 2003-cü ildən bugünədək mövcud arxivdən istifadə edərkən oxucularımız PDF formatında olan qəzet materialını Word faylına çevirməklə ondan asanlıqla istifadə edə bilərlər. 2003-cü ilədək olan arxivdən isə oxucularımızın yalnız foto kimi istifadə etmək imkanları var.

Qəzetin hələ 90 illik yubileyi ərəfəsində cümhuriyyət dövrü nömrələrinin də arxivləşməsi prosesinə başlanmış, hətta müəyyən nömrələr tədqiqatçılar tərəfindən transliterasiya olunaraq qəzet səhifələrində dərc edilmişdi. Lakin elektron arxivin tam təmini mümkün olmamışdı.

Redaksiyamızın təşəbbüsü ilə bu proses 100 illik ərəfəsində yenidən gündəmə gətirilmiş, arxivlərlə, kitabxanalarla əməkdaşlıq çərçivəsində "Azərbaycan" qəzetinin arxivinin bütöv şəkildə tapılıb qaydaya salınması qarşıya məqsəd qoyulmuşdu.

Bu niyyətlə Azərbaycanın mərkəzi arxiv və kitabxanalarında apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, cümhuriyyət dövründə dərc edilmiş 443 nömrə tam halda heç bir yerdə yoxdur. "Azərbaycan" qəzeti redaksiyasının təşəbbüsü ilə müxtəlif mənbələrdən əldə etdiyimiz cümhuriyyət dövrünə aid bəzi nömrələrin elektron variantı Milli Kitabxanaya və Siyasi Sənədlər Arxivinə təqdim edildi. Qeyd etmək vacibdir ki, cümhuriyyət dövrünün mövcud nömrələrinin elektronlaşdırılması yalnız Milli Kitabxanada mütəşəkkil aparılıb. Bu istiqamətdə biz Milli Kitabxana ilə qarşılıqlı informasiya mübadiləsi aparmışıq və bu proses uğurla davam etməkdədir.

Etiraf edək ki, "Azərbaycan" qəzeti redaksiyasının öz təşəbbüsü ilə əldə etdiyi bəzi nüsxələrin elektron variantlarının arxivlərdə və kitabxanalarda olmaması bir qədər təəccüblü görünür. Həmin nüsxələrin tədqiqatçıların şəxsi arxivində olduğu halda ümumi arxivlərdə yoxluğu belə bir qənaətə gəlməyə əsas verir ki, bu nömrələrin müəyyən qismi ya gizli şəkildə arxivlərdən çıxarılıb, ya da tədqiqatçılara hədiyyə edilib (?!). Məqsədimiz kimlərisə ittiham etmək və ya günahlandırmaq deyil! Sadəcə düşünürük ki, bu məsələ dövlətimiz və yaxın tariximizlə bağlı olduğu üçün ona daha həssas və məsuliyyətlə yanaşılmalı idi.

"Azərbaycan" qəzeti olaraq biz bu prosesə töhfə verə biləcək hər bir təşkilatı – istər arxiv, istər kitabxana, istər qeyri-hökumət təşkilatı, istərsə də ayrı-ayrı tədqiqatçıları, adi vətəndaşları – bir sözlə, hamını əməkdaşlığa dəvət edirik. Düşünürük ki, şanlı cümhuriyyət tariximizin ayrılmaz hissəsi olan "Azərbaycan" qəzetinin bütün nömrələrinin tam şəkildə arxivləşməsi zəruridir və bu arxiv ayrı-ayrı şəxslərdə deyil, məhz dövlətin müəyyən etdiyi etibarlı əllərdə, bütün oxucuların, tədqiqatçıların istifadə edə biləcəyi məkanlarda – arxivlərdə və kitabxanalarda saxlanılmalıdır!

Bir vacib məqam da diqqətdən yayınmamalıdır. Məlum olduğu kimi, Azərbaycan SSR Ali Sovetinin rəsmi orqanı kimi 1 yanvar 1991-ci il tarixdə "Həyat" qəzeti fəaliyyətə başlamışdır. Həmin qəzetin son nömrəsi 22 sentyabr 1992-ci ildə çıxmışdır. "Azərbaycan" qəzeti də müstəqillik dövründə məhz 23 sentyabr 1992-ci ildə – 72 ildən sonra ilk dəfə işıq üzü görmüşdür. "Həyat" qəzetinin redaksiyasında və həmin qəzetin redaksiya heyəti tərəfindən "Azərbaycan" qəzetinin ilk nömrəsi buraxılmışdır. Tarix sanki təkrar olunmuşdur.

Belə ki, 1918-ci ildə cümhuriyyət elan edildikdən bir neçə ay sonra "Azərbaycan" qəzeti fəaliyyətə başlamışdır. 1991-ci il oktyabrın 18-də isə – Müstəqillik haqqında Konstitusiya Aktının qəbul

edilməsindən təxminən bir il sonra – "Azərbaycan" qəzeti fəaliyyətini yenidən bərpa etmişdir. Bu uğursuz tarixi təkrarı aradan qaldırmaq üçün, düşünürük ki, "Həyat" qəzetinə də varislik hüququ verilməlidir. Çünki məhz rəsmi dövlət qəzeti kimi həmin qəzetin səhifələrində 1991-ci ildə müstəqilliyin elan edilməsi prosesi işıqlandırılmışdır. Belə ki, "Həyat" qəzeti artıq Azərbaycan Respublikası Ali Sovetinin mətbu orqanı kimi fəaliyyətə başlamışdı. Dünən həmin qəzet Azərbaycan SSR Ali Sovetinin rəsmi orqanı idisə, bu gün artıq müstəqil Azərbaycan Respublikasının Ali Sovetinə məxsus idi. Qeyd edək ki, "Həyat" qəzetinin 1991-ci ildə 254, 1992-ci ildə isə 186 nömrəsi işıq üzü görmüşdür (cəmi 440).

Hazırda "Azərbaycan" qəzeti redaksiyasında il ərzində gündəlik nömrələr toplanaraq 5 nüsxədə cildlənir. Elektron arxiv isə PDF formatında katiblikdə yığılaraq, əldə olunmuş razılığa əsasən, respublikamızın aparıcı arxiv və kitabxanalarına təqdim olunur. M.F.Axundzadə adına Milli Kitabxana, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Prezident Kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası ilə "Tariximizi birlikdə qoruyaq" layihəsi çərçivəsində qarşılıqlı əməkdaşlıq şəraitində informasiya mübadiləsi aparılır. 2017-ci ildə ilk dəfə olaraq "Azərbaycan" qəzeti redaksiyası 1993-2017-ci illəri əhatə edən (24 illik) həm elektron, həm də qəzet cildliklərini, eləcə də Gəncə şəhərində dərc olunmuş "Azərbaycan" qəzetinin ilk dörd nömrəsinin elektron variantını AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun arxivinə təqdim etmişdir. Redaksiya rəhbərliyinin təşəbbüsü ilə gerçəkləşən bu layihənin əsas məqsədi müstəqilliyimizin simvollarından biri olan "Azərbaycan" qəzetinin arxivini mühüm mənbə kimi tədqiqatçıların istifadəsinə verməkdir. 2003-2017-ci illəri əhatə edən 4410 nömrənin həm elektron arxivi, həm də qəzet nüsxələri Mərkəzi Elmi Kitabxanaya və Siyasi Sənədlər Arxivinə təqdim edilmişdir.

İctimai həyatda baş verən mühüm hadisələr haqqında informasiyaları hər birimiz internet mediadan hər saat, hər dəqiqə əldə edə bilirik. Bu, demək olar ki, əksəriyyətimizin gündəlik tələbatına çevrilib. Bu cür xəbərlərin böyük çoxluğunun birgünlük ömrü olur, elə gündəlik hava proqnozu kimi. İnformasiya bolluğu şəraitində xəbər, yaxud yazıların arxivlənərək saxlanılması əlavə xərc və avadanlıq tələb edir. Həmin materialların hər bir oxucunun istifadə edə biləcəyi formada saxlanılması isə texniki cəhətdən, ümumiyyətlə, mümkün deyil. Ən sanballı internet resurslarının arxivləri ən yaxşı halda 7-8 ili əhatə edir. Elələri də var ki, onlarda heç ötən ilin arxivi yoxdur. Çap mediası bu baxımdan daha çox üstünlüyə malikdir. İctimai-siyasi qəzet dövrünün tarixini yazır və tədqiqatçılar üçün ən mühüm mənbədir. Dövlətçilik tarixi də məhz rəsmi qəzetlərin səhifələrində əks olunur. Bu baxımdan həqiqəti yazmaq üçün dövri nəşrlərdən etibarlı mənbə ola bilməz. Müstəqillik tariximizi də "Azərbaycan"sız təsəvvür etmək mümkün deyil! Məhz buna görə də çap mediası həmişə olduğu kimi, bu gün də aktual və əvəzedilməzdir.

"Azərbaycan" qəzeti mətbuatımızın flaqmanı – rəsmi dövlət qəzeti kimi daim dövlətçiliyə sadiqdir. Milli-mənəvi dəyərlərin qorunmasında, vətənpərvərlik və hərbi-vətənpərvərlik hislərinin təbliğində müstəsna rol oynayır, cəmiyyətimizi narahat edən müxtəlif məsələlərdə obyektiv mövqe tutaraq oxucuya düzgün və dəqiq informasiya çatdırır. Bu mövqe 100 il öncə qoyulmuş möhkəm əsasdan, müqəddəs niyyətdən qaynaqlanır! Müstəqilliyimizin həmyaşıdı, tərənnümçüsü olan "Azərbaycan" böyük Azərbaycanla çiyin-çiyinə addımlayır, bu gün də onun müstəqillik tarixini yazır, üzərinə qoyulan vəzifənin məsuliyyətini dərk edərək xalqımıza, dövlətimizə layiqincə və peşəkarlıqla xidmət edir.

**Elçin VƏLİYEV,**
*"Azərbaycan" qəzetinin məsul katibi,*
*tarix üzrə fəlsəfə doktoru*

# Azərbaycan həqiqətləri "Azərbaycan"ın internet səhifəsində

*Dünya azərbaycanlıları ölkəmizlə bağlı həqiqətləri, yenilikləri qəzetimizin saytından öyrənirlər*

***Əsası 1918-ci ildə qoyulan "Azərbaycan" qəzetinin də ömrü xalq cümhuriyyəti qədər olmuşdu. Lakin ömrünün qısalığına baxmayaraq, qəzet ilk nömrələrindən yarandığı mühitin, fəaliyyət göstərdiyi dövrün tarixi salnaməsinə çevrildi, milli istiqlal məfkurəsinin intişarında, milli şüurun təkamülündə misilsiz xidmətlər göstərdi. Geniş oxucu auditoriyası toplamaqla, səhifələrinə ən qabaqcıl ziyalıların, ictimai xadimlərin və millət fədailərinin imzalarını cəlb etməklə dövrünün seçilən, fərqlənən nəşri olan "Azərbaycan" milli problemlərin səsləndirildiyi əsl xalq tribunası idi.***

## İnternet versiyası

Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetinin də taleyi elə cümhuriyyətin taleyi kimi oldu. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra "Azərbaycan" qəzetinin nəşri dayandırıldı, adının çəkilməsi belə qadağan edildi.

Yalnız dövlət müstəqilliyini bərpa etdikdən sonra "Azərbaycan" qəzeti yenidən nəşrə başladı. Varislik ənənəsini yaşadaraq bu ənənəyə sadiqlik nümayiş etdirdi. Bu mənada müasir "Azərbaycan" varislik ənənələrini yaşadan qəzet olmaqla bərabər, həm də sələfi kimi dövrünün ensiklopedik salnaməsidir.

"Azərbaycan" qəzeti həmişə mütərəqqi və pozitiv yeniliklərə açıq olub. Diqqətli oxucu qəzetin səhifələrində – istər məqalələrdə, istər mövzuya yanaşmasında, istərsə də dizaynında fərqli üslubların şahidi ola bilər.

XX əsrin sonlarına doğru informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən biri olmaqla gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrildi. Xüsusən ötən əsrin ən mühüm kəşflərindən biri sayılan internet dövlət sərhədləri bilməyən, coğrafi uzaqlıqdan asılı olmayaraq operativ informasiya mübadiləsini təmin edən virtual informasiya məkanı, rahat və əlverişli ünsiyyət vasitəsi kimi dünyanın hər yerində insanların məişətinə daxil oldu. İndi cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, orada İKT-nin üstünlüklərindən istifadə olunmasın. İKT, o cümlədən internet bütün dünyada kütləvi informasiya vasitələrinin fəaliyyətinin operativliyinin və çevikliyinin təmin olunmasında, informasiyanın daha geniş auditoriyaya yayılmasında əsas vasitələrdən biridir.

Respublikamızın rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzeti fəaliyyətini müasir dövrün çağırışları ilə uzlaşdıraraq İKT-nin üstünlüklərindən yararlanır. Bunun nəticəsidir ki, redaksiyanın iş şəraiti də illər öncədən tamamilə yenilənib. Artıq 16 ildir ki, redaksiya tam kompüterləşdirilib. Əgər həmin vaxta kimi yalnız qəzetin səhifələnməsində kompüterdən istifadə edilirdisə, 2002-ci ildən başlayaraq hər bir əməkdaş fərdi kompüterlə təmin olunub. Maddi imkanlar daxilində redaksiyanın sonuncu nəsil kompüterlərlə təmin olunması daim diqqət mərkəzində saxlanılır.

2002-ci ildən həm də redaksiyadakı bütün kompüterlərin yüksəksürətli internetə çıxışı təmin olunub. Halbuki həmin dövrdə internet xidmətləri indiki qədər geniş deyildi və tək-tük, barmaqla sayıla-




sı qədər internet media orqanı göstərmək olardı. Artıq 16 ildir ki, oxucular ölkənin və dünyanın hər yerindən "azerbaijan-news.az" ünvanına daxil olmaqla qəzetdə gedən yazıları internet vasitəsilə oxuya bilirlər. Saytda "Azərbaycan" qəzetinin çap versiyasında işıq üzü görən bütün yazılarla yanaşı, gündəlik informasiyalar da yer alır. Həmçinin saytda qəzetin çap versiyasını PDF formatında görmək mümkündür.

İnternet böyük sürətlə dəyişən və yeniliklərə doğru can atan bir informasiya məkanıdır. Son illərdə bu məkanda baş verən bir sıra mütərəqqi yenilikləri və informasiyanın çatdırılması istiqamətində artan imkanları nəzərə alaraq "Azərbaycan" qəzetinin internet səhifəsi həm dizayn, həm məzmun və əhatə dairəsi, həm də informasiyanın çatdırılması baxımından təzələnib. Bu günlərdə səhifənin yeni versiyası test yoxlamalarından sonra istifadəyə verilib.

Xatırladaq ki, qəzetin internet səhifəsi ilk dəfə 4 il əvvəl yenilənmişdi. O zaman əvvəlki variantda olan "naviqasiya menyusu" tamamilə yenilənmiş, burada bəzi bölmələr ləğv olunmuş və əvəzində yeniləri yaradılmışdı. "Naviqasiya menyusu"ndan aşağıda yer alan xəbərlərdən ibarət slayderdə isə informasiyalar öz-özünə dəyişir və oxucunun hər bir yazı ilə tanışlığını asanlaşdırır. Yeni yaradılan "onlayn" xəbər lentində hər gün ən son xəbərlər yer alır.

Onu da qeyd edək ki, "Azərbaycan" qəzeti kollektivinin əməyi sayəsində son illərdə 14 adda 19 cild kitab ərsəyə gətirilərək nəşr olunub. Qəzetin saytının yeni versiyasında yer alan ayrıca bölmədə həmin nəşrlərlə PDF variantda tanış olmaq mümkündür.

Məlum olduğu kimi, sosial şəbəkələr informasiya mübadiləsinin çevikliyinə imkan verməklə internetin son onillikdə ortaya çıxardığı yeniliklərdən biridir. "Azərbaycan" qəzetinin internet səhifəsində bu amil nəzərə alınıb. İndi qəzetin saytındakı yazı ilə tanış olan oxucu "Facebook" və "Twitter" kimi so-

sial şəbəkələrə keçidlər vasitəsilə həmin yazını bəyənə, paylaşa və ya e-mail vasitəsilə başqalarına göndərə bilər. Səhifədəki linklər vasitəsilə isə digər saytlara keçid etmək mümkündür.

## Dəqiq informasiya almaq istəyənlər "Azərbaycan"a müraciət edirlər

"Azərbaycan" qəzetinin internet versiyası il  ərzində 2 milyon dəfədən çox izlənilir. Bunun da təxminən 10 faizi 100-dən artıq xarici ölkənin payına düşür. Əsasən Fransa, ABŞ, Rusiya, Türkiyə, Almaniya, Böyük Britaniya, Gürcüstan, Norveç kimi ölkələrdən səhifəyə baxış qeydə alınır. Maraqlıdır ki, Cənubi Amerikada yerləşən Peru dövləti də baxış sayına görə ilk onluqdadır. Sirr deyil ki, Azərbaycanla bağlı daha dəqiq informasiya almaq istəyən insanlar məhz "Azərbaycan" qəzetinin internet versiyasına müraciət edirlər. Məsələn, 2016-cı ilin Aprel döyüşləri zamanı "Azərbaycan" qəzetinin internet saytına xaricdən girişlərin sayı birdən-birə bir neçə dəfə artmışdı. O cümlədən əlamətdar hadisələr, seçkilər zamanı qəzetin saytına xaricdən daxilolmalar artır. Bu ondan xəbər verir ki, Avropadan Avstraliyaya, Amerikadan Çinə, Finlandiyadan Cənubi Afrika Respublikasına qədər ölkəmizə dair dəqiq məlumat almaq istəyənlər "Azərbaycan" qəzetinə müraciət edirlər.

"Azərbaycan"ın 100 illiyi ərəfəsində isə qəzetin internet səhifəsinin yeni versiyası istifadəyə verilib. Səhifənin tam olaraq yeniləndiyini ana səhifədən görmək mümkündür. İlk diqqəti çəkən əvvəlki variantda "naviqasiya menyusu"ndan aşağıda yer alan xəbərlərdən ibarət slayderdə informasiyaların sayının artmasıdır. Əvvəllər slayderdə öz-özünə dəyişən informasiyaların sayı 5-dən 10-a çatdırılıb. Bu, oxucunun daha çox informasiya ilə tanışlığını asanlaşdırır. Yeni versiyada oxucuların qəzetin çap versiyasını PDF formatında izləmək imkanları da artırılıb. Səhifədə həmçinin yeni bölmələr də yaradılıb.

Qəzetin axtarış sistemi də tam yenilənib. Yeni proqramın tətbiqi nəticəsində əvvəlki versiyada axtarış zamanı yaranan qüsurlar aradan qaldırılıb. İndi daha ünvanlı olan axtarış sistemi vasitəsilə oxucular axtardıqları materialı çox asanlıqla tapa bilərlər. İstifadəçilər həmçinin sayt vasitəsilə hava proqnozunu öyrənə, o cümlədən valyuta məzənnəsi ilə tanış ola bilərlər.

Ümumiyyətlə, "Azərbaycan" qəzetinin internet səhifəsinin yeni versiyası ilə tanışlıq göstərir ki, indi oxucuların informasiya almaq imkanları daha da genişlənib. Bir sözlə, internetin və informasiya mübadiləsinin ən son yeniliklərini özündə cəmləşdirən yeni versiya "Azərbaycan" qəzetinin oxucularının ürəyincə olacaq.

***Cəfər KƏRİMOV,***
***veb-redaktor***

# ÜMUMMİLLİ QƏZET



**Nizami CƏFƏROV,**
*Milli Məclisin deputatı, akademik*

# Azərbaycan parlamenti "Azərbaycan" qəzetində

*Professor Şirməmməd Hüseynovun "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" üçcildliyi barədə qeydlər*

***2018-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin və ümumiyyətlə, müasir Azərbaycan dövlətçiliyinin yüz yaşı tamam olur. Azərbaycan xalqı bu yüz il ərzində bir neçə min illik zəngin dövlətçilik ənənələrinə (və təcrübəsinə) əsaslanaraq milli dövlət quruculuğu uğrunda bütün varlığı ilə ardıcıl mübarizə aparmış, qurbanlar vermiş, hər cür müdaxilələrə – daxildən və xaricdən gələn müxtəlif xarakterli dağıdıcı təsirlərə, təzyiqlərə baxmayaraq, öz təbii istiqlal arzularını, ideallarını təsdiq etmişdir.***

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyir: "1918-ci ilin mayında Azərbaycanda, müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Azərbaycan xalqının həyatında böyük hadisə baş verdi. Xalqımız, millətimiz müstəqil, sərbəst yaşamaq iradəsini dünyaya nümayiş etdirdi. Azərbaycan Xalq Cümhuriyyəti özünün qısa ömrü dövründə dəyərli fəaliyyət göstərmişdir və Azərbaycan xalqının müstəqil olmaq iradəsini nümayiş etdirmişdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli sərəncamı bir daha təsdiq edir ki, müasir Azərbaycan dövlətçiliyi öz tarixi köklərinə, mənbələrinə, istiqlal ənənələrinə həmişə sadiq olmuş və bu gün də sadiqdir.

Sərəncamda deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır".

Və milli mentalitetdən irəli gələn demokratik birgəyaşayış texnologiyalarına əsaslanmasının nəticəsi idi ki, Azərbaycan Xalq Cümhuriyyəti özünü yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə də tanıda, təmsil etdiyi xalqın tamamilə təbii, qanuni olan siyasi təsisatı kimi meydana qoya bildi.

Sərəncamda deyilir: "Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və ma-

arif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış xalq cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı".

Professor Şirməmməd Hüseynovun böyük istedad, zəhmət və məsuliyyətlə hazırladığı üçcildlik "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər (noyabr 1918 – aprel 1920)" kitabı *(I c., 2015; II c., 2016; III c., 2017)* Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə görkəmli alim-jurnalistin, Azərbaycan ziyalısının dəyərli ərməğanıdır.

Kitabın birinci cildinin ön sözündə göstərilir ki, "cümhuriyyət tarixinin ən mötəbər salnaməsi "Azərbaycan" qəzetidir. Bu möhtəşəm dövrün 443 gününün tarixi zamanın kollektiv yaddaşı olan bu qəzetin 443 nömrəsinin səhifələrində həkk olunmuşdur".

"Azərbaycan" qəzetinin 17 noyabr 1918-ci il tarixli nömrəsində Azərbaycan parlamentinin açılışı aşağıdakı şəkildə təsvir edilir:

"16 təşrini-sani saat 1-də təyin edilmiş olan iclas saat 2:15 dəqiqədə açılıyor. Hələ saat 12-dən iclasın intizarında yüzlərlə adam duruyor. Nəhayət, Məclis açılıyor. Şurayi-Milli əzası və nazirlər qabaqca hazırlanmış yerləri işğal ediyorlar. Əcnəbi məmləkət nümayəndələrindən Gürcüstan və Dağıstan hökumətləri nümayəndələri, erməni və rus milli şuraları nümayəndələri və İran general konsulu isbati-vücud ediyorlardı.

Salon tamaşaçılarla dolu idi.

Rəsulzadə Məhəmməd Əmin bəy cənabları sədr yerini tutaraq iclası açıyor"...

Məhəmməd Əminin bu müxtəsər açılış nitqi, həqiqətən, tarixi bir çıxışdır:

"Möhtərəm Şura əzası! Bu gün Azərbaycan Şurayi-Millisi Azərbaycanın baş və ayrılmaz bir əzasını təşkil edən paytaxtında açılıyor. Azərbaycanlılar, necə ki hamınıza məlumdur, heç vəqt hürriyyət və istiqlaliyyət fikrindən ayrılmayaraq daima bu uğurda çalışmış, mübarizə eləmişlərdir...

...Bu gün biz azərbaycanlılar Şuraya yığıldıqda Milli Şura əzaları və bütün hüquqi-milliyyənin müdafiəsi üçün firqə nizai, sinif münaqişəsi və sairəyi kənara ataraq əl-ələ versək, müttəhidən çalışsaq, əmin olmalıdır ki, vicdani-bəşərdə yerləşmiş olan hüquqi-milliyyədən məhrum qalmazız".

Professor Şirməmməd Hüseynovun əsas xidməti ondan ibarətdir ki, "Azərbaycan" qəzetinin, demək olar ki, bütün nömrələrini araşdırmış, parlamentin fəaliyyətinə dair ən zəruri materialları seçib təqdim etmiş, bu gün anlaşıqlı olmayan sözlərin dəqiq izahını vermişdir.

Qəzetdə gedən parlament hesabatları parlament iclaslarının indiyə qədər, çox yaxşı ki, mühafizə edilmiş stenoqrafik hesabatlarından onunla fərqlənir ki, qəzet hesabatları daha dolğun, daha mükəmməl hazırlanmış, peşəkar (və geniş dünyagörüşlü) redaktorların zəruri ümumiləşdirmələrilə çap olunmuşdur. Doğrudur, parlamentin fəaliyyətini daha təfsilatlı, daha dərindən, hətta belə demək mümkünsə, hərfi-hərfinə öyrənmək istəyən tədqiqatçıların stenoqrafik materiallarla işləməsi vacibdir, lakin geniş oxucu kütləsinin marağını, ehtiyacını ödəmək baxımından professor Şirməmməd Hüseynovun üçcildliyi əvəzedilməzdir... Və elə anlaşılmasın ki, bu sözlərlə kitabın elmi dəyərini azaltmış oluruq, əksinə, demək tistəyirik ki, həmin nəşr cümhuriyyət parlamentinin "fəaliyyət fəlsəfəsi"ni daha rahat, mübahisəsiz və tərəfsiz dərk etmək, bu fəaliyyətin tarixi mahiyyətini düzgün təsəvvür etmək üçün geniş ideya-metodoloji imkanlar açır.

Şirməmməd müəllim yazır:

"Məlumdur ki, qanunvericilik və icra orqanının fəaliyyəti ilə əlaqədar qəzetdə xeyli qiymətli yazılar var. Mən burada millət vəkilləri, hökumət başçıları və nazirlər, fraksiya rəhbərləri və üzvlərinin,

müxtəlif komissiyaların fəaliyyətinə dair yazıları nəzərdə tuturam. Məsələn, mən M.Ə.Rəsulzadənin parlamentdəki çıxışlarını toplayıb xüsusi bir cilddə vermək istəyirdim. Ancaq gördüm ki, onları parlament müzakirələrindən ayırıb nəşr etmək mümkün deyil".

Bu isə o deməkdir ki, üçcildliyin müəllifi sadəcə tekstoloq işi görməmiş, mətnlərin seçilib sistemləşdirilməsini ideya-metodoloji səviyyədə aparmış, həm parlament hesabatlarını, həm də parlamentdə müzakirə olunmuş məsələlər ətrafındakı mübahisələri, mövqeləri (həmin mövqelər bir tərəfdən siyasi mənsubiyyətləri əks etdirirsə, digər tərəfdən ölkənin düşdüyü mürəkkəb siyasi, sosial-iqtisadi və mədəni şəraitdən irəli gəlir) miqyaslı, təfərrüatlı bir şəkildə nəzərə çatdırmışdır.

M.Ə.Rəsulzadənin "Bütün Azərbaycan əhalisinə!" başlıqlı müraciətnaməsi, Üzeyir Hacıbəylinin "Azərbaycan parlamenti" məqaləsi, "Azərbaycan parlamanı ətrafında" məlumatları Fərhad Ağazadənin "Parlamandan nə tələb olunur?" yazısı, eləcə də ölkənin müxtəlif guşələrindən – Bakıdan, Gəncədən, Şəkidən, Qazaxdan, Ağdamdan, Kürdəmirdən, Qubadan... gəlmiş təbrik məktubları parlamentin ilk iclası keçirilməmişdən bir-iki gün əvvəl "Azərbaycan" qəzetində dərc edilərək milli ictimai şüuru belə bir mühüm məqsəd və mərama hazırlamaq istəmişdir ki, yeni qurulan parlament bütünlüklə xalqın iradəsini ifadə edəcək, ona bəslənən tarixi ümidləri, əlbəttə, mövcud imkanlar daxilində, layiqincə doğruldacaqdır.

Xüsusi olaraq qeyd etmək lazım gəlir ki, Şirməmməd müəllimin kitabı parlamentin, ümumən cümhuriyyətin (çünki ölkənin elə bir problemi yox idi ki, burada müzakirə edilməsin) tarixini əks etdirməklə yanaşı, son dərəcə maraqlı bir roman kimi oxunur... Və bu romanın süjet xəttini parlamentin iclasları, detal və təfərrüatları isə çox mükəmməl bir şəkildə M.Ə.Rəsulzadənin, Ü.Hacıbəylinin, Xəlil İbrahimin, F.Ağazadənin, Ö.F.Nemanzadənin, Əhməd Həmdinin... məqalə-təəssüratları təşkil edir.

Yeri gəlmişkən, Şirməmməd Hüseynov Azərbaycan elmi ictimaiyyətinə adı o qədər də məlum olmayan, ancaq xüsusilə parlamentin fəaliyyətinin son beş ayında "Azərbaycan" qəzetində əlliyə qədər yazısı dərc edilmiş Əhməd Həmdi haqqında ilk dəfə mötəbər məlumat-materiallar əldə etmişdir ki, buraya M.Ə.Rəsulzadənin "Əməkdaş haqqında" məqaləsi də daxildir.

"Azərbaycan" qəzetinin təqdimatından (və Şirməmməd müəllimin kitabından) görünür ki, parlament müzakirələri olduqca canlı, predmetli və dramatik keçmişdir. Hətta Məclisdə böyük nüfuz və son söz sahibi olan M.Ə.Rəsulzadə belə ciddi tənqidə məruz qalmış, iclasa sədrlik edən Həsən bəy Ağayev firqə təəssübkeşliyi üstündə məzəmmət olunmuş və nəticə etibarilə Müsavatın təklifi keçməmişdir:

"Sədr: – Təklif var ki, müzakirə bitsin.

Səmədağa: – Hər zaman Məhəmməd Əmin əfəndinin nitqindən sonra təklif varid olur ki, müzakirə bitsin. Bu bizim parlamanımızda bir adət olmuşdur. Bən təklif ediyoram, bu adət götürülsün. Müzakirə hələ bitməsin.

...Sədr təklifi səsə qoyur. Əksəriyyəti ilə təklif keçmiyor. Müzakirə qət edilməyərək davam ediyor".

Kitabı oxuduqca bütün bu dramatik münasibətlərin, sözgüləşdirmələrin fövqündə dayanan bir idealın daim mövcud (və mübahisəsiz) olduğunu təsəvvür etməmək mümkün deyil ki, o da xalqın özünün özünəinamının get-gedə artmasıdır... Məsələn, parlamentin 12 may 1919-cu il tarixli iclasında sədr Nəsib bəy Yusifbəyli belə bir bəyanat verir:

"Paytaxtımızı general-qubernatorluq elan edən Tomson, mətəəssüf, ərz eləməliyəm ki, bütün daxili işlərimizə müdaxilə ediyordu. Lakin gün-gündən bu münasibət dəgişildi.

...Bu axır günlərdə onlar çox diyorlar ki, biz gördük və anladıq ki, siz özünüzü idarə edə bilirsiniz. Sizin daxili işlərinizə müdaxilə etmək artıqdır".

Və Nəsib bəyin əlavə etdiyi aşağıdakı sözlər isə alqışlarla qarşılanır:

"Əlbəttə, biz istəmiyoruz və istəməyəcəgiz ki, kim olursa-olsun, xahi ingilis və xahi başqa bir dövlət bizim işlərimizə müdaxilə eləsin... Özümüzün özümüzü idarə etməyə ləyaqətimiz vardır. Və idarə də edə biləriz".




Məlumdur ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələlər həmişə parlamentin diqqət mərkəzində olmuş, bu sahədə olduqca gərgin mübarizə aparılmışdır... Azərbaycanın tarixi ərazisində yaradılmış qondarma Ermənistan dövləti öz himayədarlarına arxalanaraq Qərbdən, bir sıra qüvvələr isə Şimal və Cənubdan gənc respublikanın yüzillər boyu məhz azərbaycanlılarla məskun tarixi coğrafiyasını təhdid etdikləri kimi, ölkənin Xəzər dənizi hüdudlarına da göz dikmişlər. Və Azərbaycan dövlətinin bu məsələdəki mövqeyini Üzeyir Hacıbəyli "Əsassız tələb" məqaləsində obrazlı olduğu qədər də dəqiq əks etdirir:

"Dabrovol komandası – dünki nömrəmizdə yazıldığı üzrə – "tələb" edir ki, bəhri-Xəzərdə Azərbaycanın nə ticarət və nə də hərbi gəmiləri olmasın.

...Azərbaycan üçün dəniz məsələsi – can məsələsidir. Bu məsələyə əl vurmaq – Azərbaycanın canına toxunmaqdır. Azərbaycan Bakı dənizində hərbi gəmilər saxlamaqla heç kəsi qorxutmaq və heç bir kəsin yerinə təərrüz etmək fikrində deyildir... Azərbaycanın özgələr yerinə göz dikdigini heç kəs xəyalına belə gətirməz. Halbuki özgələrin Azərbaycan torpağı haqqındakı təcavüzkaranə fikri cümləcə məlumdur".

Cümhuriyyət parlamentinin fəaliyyətinin bir mühüm cəhəti də o olmuşdur ki, xalqa, cəmiyyətə tamamilə açıq idi və "Azərbaycan" qəzeti də çalışırdı ki, bu fəaliyyət mümkün qədər geniş (və obyektiv) işıqlandırılsın... Məsələn, qəzetin 9 dekabr 1919-cu il tarixli nömrəsində Əhməd Həmdinin "Azərbaycan parlamanının birinci illiyi" adlı o qədər də həcmli olmayan bir məqaləsi getmişdir, lakin həmin məqalədə hətta bugünkü ictimai-siyasi jurnalistikamızın, xüsusilə parlament müxbirlərimizin nümunə götürəcəyi bir səviyyədə mükəmməl ümumiləşdirmə ilə rastlaşırıq.

Müəllif göstərir ki, ötən bir il Azərbaycan parlamenti üçün o dövr oldu ki, "fövqəladə bir surətdə vicdan təzahüratını meydana çıxar"dı... Və məqalədə maraqlı bir müqayisə verilir... Bir vaxtlar Napoleon Prussiyanın paytaxtını tutanda almanlar azadlıq ümidlərini tamam itirib pərişan olurlar və bu ağır günlərdə "millətinin hiss və fikirlərinə tərcüman olan professor Fixte bütün Berlin cəmaətini Berlin darülfünununun zalına toplayaraq demiş idi:

"Almanlar! Bugünki uğradığımız fəlakət, nə fəsadlarda şədid və faş olsa da, bizi almanca düşünməkdən, almanca dərdlərimizi söyləməkdən kimsə mən edəmməz..."

Azərbaycan parlamanı da o fəlakətli dəmlərdə, o mütərəddid və mübhəm zamanlarda bir şeyə müvəffəq olmuş idi ki, o da lisani-milli ilə hər təsirini, hər fikrini söyləmiş, millətin həyəcan və hissiyyati-ümumiyyəsini bir mərkəzə toplayaraq tərcüman olmuş idi".

Bundan sonra müəllif bir il ərzində müxtəlif nazirliklərdən neçə qanun layihəsi təqdim olunduğu, Məclisdə neçəsinin təsdiq edildiyi, neçəsinin isə geri qaytarıldığı barədə məlumat verir; məsələn: "Hərbiyyə nəzarətindən 9 qanun layihəsi gəlmiş, 7– si qəbul, 2-si də rədd edilmişdir.

Hərbiyyə nəzarətinin əhəmiyyətini tərifə hacət varmı? Əlbəttə, bütün qüvvət və gücümüzün mərkəzi oradadır.

Onun üçün də hərbiyyə nəzarətinin yeni-yeni qanun layihələri məmləkətimizin qüvvayi-hərbiyyəsi cəhətilə böyük əhəmiyyəti olacağından bütün azərbaycanlılar bundan müstəfid olacaqdır.

Hərbiyyə nazirimizin qeyrət və əzmi məlumdur.

Binaənileyh: ümidimiz də qüvvətlidir".

Göründüyü kimi, bu hesabat-icmalda həm konkret faktlar, həm nəticə-ümumiləşdirmələr var, həm də təklif-ümidlər...

Cümhuriyyət parlament respublikası olduğundan bütün dövlət məsələləri məhz burada həll edilirdi.

Və Şirməmməd müəllimin cümhuriyyət lideri M.Ə.Rəsulzadədən verdiyi aşağıdakı epiqraf bunu bir daha (və bütün siyasi emosionallığı ilə) təsdiq edir:

"Millət Məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlamaz, heç bir barışıq imzalanmazdı. Hökumət Məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə-vəzifə yox idi. Parlament hakimi-mütləq idi".

Üççildliyin ikinci cildinin əvvəlində Şirməmməd müəllim cümhuriyyət parlamentinin fəaliyyətini, eləcə də ümumən ölkənin iqtisadi, ictimai-siyasi və mədəni vəziyyətini işıqlandırmaqda "Azərbaycan" qəzetinin tarixi rolunu təsəvvür etmək üçün bir neçə mötəbər sənəd vermişdir ki, bunlardan ən mühümü "Azərbaycan" qəzetinin 9 oktyabr 1919-cu il tarixli nömrəsində dərc olunmuş "Azərbaycan"ın birinci səneyi-davamiyyəsi" adlı redaksiya məqaləsidir. Həmin məqalədə (kitab müəllifi tutarlı dəlillərlə sübut edir ki, bu məqaləni M.Ə.Rəsulzadə yazmışdır) deyilir:

"Azərbaycan" mühərrirləri böyük bir xülus və safiyyətlə əllərində tutduqları qələm ilə ancaq bir hədəf və bir qayəyi gözlərinin önündə bulundurmuşlardır ki, o da məmləkətin səlaməti, millətin hürriyyəti-siyasiyyəsi, fikri-istiqlaliyyətin qüvvətlənməsidir. Bu üç şüar bittəb bu gün ümum əfradi-millət arasında söylənib təkrar edilməkdə və mətbuat isə bunu təqviyə eləməkdədir".

M.Ə.Rəsulzadə milli azadlıq hərəkatında mətbuatın, ilk növbədə "Azərbaycan" qəzetinin tarixi rolunu yüksək qiymətləndirmişdir:

"İştə "Azərbaycan"ın birinci səneyi-davamiyyəsini biz bu gün qeyd edər ikən bütün mühərrirlər və mütəfəkkirlərimizin də ülvi və həqiqətpərvər bir qayə ilə həyati-təhririyyələrinə davam edərək cəmaətimiz üçün görəcəkləri fikri xidmətin mənəvi mükafat və qədri də, əlbəttə, yaddan çıxmaz".

Azərbaycan Cümhuriyyəti (və onun parlamenti) ilə birlikdə "Azərbaycan" qəzetinin də yüz yaşı tamam olur.

Şirməmməd müəllim üççildliyin üçüncü cildinin əvvəllərində cümhuriyyət "Azərbaycan"ının varisi olan bugünkü "Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqovun "Azərbaycan – 100: istiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü" məqaləsini də vermişdir.

Bəxtiyar müəllim bu səmimi məqaləsində professor Şirməmməd Hüseynovun kitabını yüksək qiymətləndirdikdən sonra yazır:

"Təəssüf ki, "Azərbaycan"ın cümhuriyyət dövründə nəşr edilmiş 443 nömrəsi bu gün də hamı üçün əlçatan deyildir. Hətta redaksiyamızın bütün cəhdlərində – Azərbaycandakı bütün arxivlərə, respublika Mədəniyyət Nazirliyinə, M.F.Axundov adına Milli Kitabxanaya, Rusiyadakı Azərbaycan diasporunun bəzi tanınmış üzvlərinə (eşitdiyimizə görə, Moskva və Sankt-Peterburq şəhərlərindəki mərkəzi kitabxanalarda "Azərbaycan" qəzetinin bütün nüsxələri tam halda saxlanılır) dönə-dönə müraciətlərinə baxmayaraq, indiyədək həmin 443 nömrənin kserosurətini əldə edə bilməmişik...

Yenə ümidimiz qalıb sevimli müəllimimiz Şirməmməd Hüseynova!.."

Əlbəttə, bugünkü müstəqil Azərbaycan dövləti nə daxili, nə də xarici (beynəlxalq) vəziyyətinə görə öz sələfi ilə müqayisə oluna bilmədiyi kimi, bugünkü "Azərbaycan" qəzeti də cümhuriyyət "Azərbaycan"ı ilə müqayisəyə gəlmir. Kifayət qədər zəngin, hətta demək olar ki, inqilabi bir inkişaf yolu keçilmiş, həm Azərbaycan cəmiyyəti, həm də Azərbaycan jurnalistikası böyük uğurlar əldə etmişdir... Bununla belə, heç zaman unutmaq olmaz ki, ölkəmiz, xalqımız, ictimai-mənəvi varlığımız hansı dövrlərdən, mərhələlərdən (və mübarizələrdən!) keçərək bu günə gəlib çıxmışdır...

Və heç zaman unutmamışıq!.. Hətta yasaqlar, təzyiqlər, repressiyalar vasitəsilə buna nail olmaq istəsələr belə!..

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında deyilir:

"Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı".

Əlbəttə, sərəncamda bu müddəanın özünə yer tapması tamamilə təbiidir; hər şeydən əvvəl ona görə ki, Heydər Əliyev 60-cı illərin sonlarında respublikanın rəhbəri təyin edildikdən sonra milli tarixi dəyərlərin ümumxalq təfəkkürü miqyasında yenidən mənimsənilməsi, milli ictimai şüurun üzvi tərkib hissəsinə (və əslində, ideya generatoruna) çevrilməsi prosesi başladı və Azərbaycan Xalq Cümhuriyyəti barədə illərlə qadağan olunmuş, unutdurulmuş, tarixin qaranlıq bir küncünə sıxışdırılmış məlumatların (həqiqətlərin!) şüurlarda bərpası hərəkatı geniş meydan aldı... Cəsarətlə demək olar ki, Şirməmməd müəllimin cümhuriyyətin (və onun de-fakto mətbuat orqanı olan "Azərbaycan" qəzetinin) 100 illiyi ərəfəsində nəşr edilən üçcildliyi kimi fundamental əsərlərin meydana çıxmasının ideoloji-mənəvi təməli də həmin dövrdən – Heydər Əliyevin Azərbaycana (və Azərbaycan xalqına) rəhbərlik etməyə başladığı ilk illərdən qoyuldu.

Prezident sərəncamında göstərildiyi kimi, "1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, xalq cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq qeyd edir".

Azərbaycan Cümhuriyyətinin 100 illiyini qeyd edərkən professor Şirməmməd Hüseynovun cümhuriyyət tarixşünaslığı üçün gördüyü böyük işlərin, xüsusilə həmin yüzilliyə həsr etdiyi "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər" üçcildliyinin də ən dəyərli hədiyyələrdən biri kimi qəbul olunacağına qətiyyən şübhə etmirik.

# "Azərbaycan" cümhuriyyət dövrü tarixinin öyrənilməsində qiymətli mənbədir

*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunmuş elmi konfrans keçirildi*

**Azərbaycan Prezidentinin sərəncamına əsasən elan olunmuş "Cümhuriyyət ili" çərçivəsində fevralın 21-də AMEA-nın Tarix İnstitutunda "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunmuş elmi konfrans keçirildi.**

Milli Məclisin deputatı, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov elmi konfransı açaraq bildirdi ki, cümhuriyyət tarixinin öyrənilməsində "Azərbaycan" qəzetində dərc olunmuş materialların mənbə kimi əhəmiyyəti çox böyükdür. İlk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edilən qəzetin Azərbaycan dilində buraxılmış səhifələrinin yuxarısında adı ilə yanaşı, "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" yazısı da verilib. Xatırladıldı ki, həmin dövrdə ölkənin tanınmış ziyalıları – Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahimin müxtəlif dövrlərdə baş redaktoru olduqları "Azərbaycan" qəzeti 1918-1920-ci illər ərzində Azərbaycanın dövlət, ictimai-siyasi, iqtisadi və mədəni həyatını geniş əks etdirməklə yanaşı, erməni-müsəlman məsələsinə də biganə qalmayıb.

Elmi konfransda Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun "Azərbaycan" qəzeti müstəqilliyimizin atributu kimi", institutun şöbə müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru Natiq Məmmədzadənin "Azərbaycan" qəzeti cümhuriyyət dövründəki ictimai-siyasi həyatın aynasıdır", şöbə müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru İradə Bağırovanın "Cümhuriyyət dövründə Azərbaycan mətbuatı" və institutun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Kamran İsmayılovun "Cümhuriyyət dövründə dövlət quruculuğu məsələləri "Azərbaycan" qəzetinin səhifələrində" mövzuları ilə etdiyi çıxışlar maraqla qarşılandı.

Əvvəlcə Milli Məclisin deputatı, AMEA-nın Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudov konfrans iştirakçılarını salamlayaraq dedi:

– Bu gün ölkəmizin həyatında olduqca mühüm toplantılardan biri – dövlət qəzetimizin – baş mətbu orqanımızın – "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunmuş elmi konfrans keçiririk. Bu konfrans AMEA-nın Tarix İnstitutu Elmi Şurasının qərarı ilə qeyd olunur və bunu tarixçi alimlərimiz milli məfkurə borcu hesab edir. Çünki bizim "Azərbaycan" qəzeti adi mətbu orqanlardan biri deyil. Qəzet Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdıdır! AXC-nin yaratdığı dövlət orqanıdır! AXC-nin qurucuları Şərqdə ilk müstəqil respublikanı yaradarkən ölkəmizin şimal torpaqlarının adına Azərbaycan sözünü yazdı. Həm də bu dövləti Azərbaycan Xalq Cümhuriyyəti adlandırdı! Son dərəcə ağır mübarizə şəraitində, kəskin narazılıqlara, qonşularımızdan olan etirazlara əhəmiyyət verməyərək vətənimizin bu hissəsinə, haqlı olaraq, tarixi elmi ad qoydu. Qədim İrəvanda, bugünkü Ermənistan deyilən işğalçı rejimin və bəzi qonşu ölkələrin paytaxtlarında, ayrı-ayrı şəhərlərində keçirilən elmi toplantılarda bizim bu ərazimizin adının Azərbaycan olmadığını sübut etmək üçün dəridən-qabıqdan çıxırlar. Hələ




eramızın III əsrindən başlayaraq bu yerlərin Azərbaycan torpaqları olması ilk mənbələrdən sübut edilir. Amma dünyanın ən demokratik cümhuriyyəti öz dövlətinin, xalqının adını seçməklə millətimizin qarşısında böyük xidmət göstərmiş oldu: qəzetin adını da "Azərbaycan" qoydu. Bu, son dərəcə böyük prinsipiallıq nümunəsi və görk idi ki, siz dövlətin adına Azərbaycan sözünün daxil edilməsinə dözümsüzlük göstərirsiniz, biz isə onun mətbu orqanının da adını "Azərbaycan" qoyduq! Bax buna görə də AXC tərəfindən qəbul edilən həmin qərarın, atılan addımın bizim üçün çox mühüm əhəmiyyəti vardı. "Azərbaycan" qəzetinin isə böyük rolu ondan ibarətdir ki, cümhuriyyət dövründə çıxan sayları ölkəmizin ozamankı tarixini olduğu kimi öyrənməkdən ötrü qiymətli ilk mənbədir. Biz bu qəzeti tarix elmində xüsusi qiymətləndiririk. Bu baxımdan bizim üçün son dərəcə xoşdur ki, onun səhifələrini vərəqləyəndə nələri görürük. Şəfi bəy Rüstəmbəyli, ondan öncə Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli və digərlərinin redaktorluğu ilə buraxılan "Azərbaycan" qəzetinin səhifələrində erməni faşizminin Qarabağda, İrəvan ellərində, Naxçıvan və Zəngəzurdakı qırğınları, Bakıda, eləcə də Qubada, ümumiyyətlə, bütünlüklə Azərbaycan ərazilərində törədilən soyqırımları, millətimizi məhv etmək siyasətinin mahiyyəti, həmçinin xalqımızın mübarizəsi, ağır taleyi, dövlətini, millətini yaşatmaq hüququ bu qəzetin səhifələrində öz əksini tapıb. Ona görə də onun səhifələri o zamanı öyrənməyimiz üçün misilsiz bir mənbədir. Bu baxımdan bugünkü konfransın böyük əhəmiyyəti var. Amma konfransın əhmiyyətindən söz açarkən bir də onu xüsusi vurğulamaq istəyirəm ki, qəzetin ünvanında, o dövrün tarixində Azərbaycan xalqının dahi oğlu Üzeyir bəy Hacıbəylinin adı var. Bu sözləri həyəcansız söyləmək mümkün deyil! Üzeyir bəy sadəcə olaraq bizim peşəkar musiqimizin, jurnalistikamızın dahisi deyil, o, eyni zamanda Azərbaycan xalqının dövlətçilik tarixinin misilsiz ictimai, siyasi və dövlət xadimidir. Yeri gəlmişkən deyim ki, bu il buraxdığımız təqvim Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, onun hər vərəqi isə cümhuriyyəti quran siyasi və dövlət xadimlərinə həsr edilib. Üzeyir bəyin nə qədər dahi, bizim xalqımıza, vətəninə bağlı olduğunu bir də onda görürəm ki, cümhuriyyət tarixinin bəzi xadimləri ağır təqiblər şəraitində ölkəni tərk etsələr də, Üzeyir bəy onu nələr gözlədiyini bildiyi halda heç yana getmədi. Yəni vətən yolunda şəhid olmağı şərəf sayaraq, ölümün gözünə dik baxıb burada yaşadı.

"Azərbaycan" qəzeti hazırda özünün inkişaf dövrünü yaşayır. O zaman Azərbaycan Xalq Cümhuriyyətinin baş mətbu orqanı olan bu qəzet indi də rəsmi dövlət qəzetidir. Mən bu qəzetin kollektivini, əlbəttə, Milli Məclisin deputatı, baş redaktor Bəxtiyar Sadıqov başda olmaqla, ürəkdən təbrik edir və alqışlayıram. Kollektiv bu gün qəzetin bütün ənənələrini yaşadır, çox əmək sərf edir. Bu gün bizim mənəvi dünyamıza, milli dəyərlərimizə sel kimi basqı var. Bu basqılar xaricdən olanlardır. Məqsəd də budur ki, milli-mənəvi dəyərlərimizdən məhrum edilək, məfkurəmiz korşalsın, "müasir insan" olaq, vətənkeşlik, milliyyətçilik, torpağa bağlılıq hisslərimiz azalsın və üzümüzü çevirək Qərbə doğru, oradan nə gəlirsə, kor-koranə qəbul edək! Bunu vaxtilə bir dövlət bizə qarşı yeridirdi, təəssüf ki, bu gün Şərq xalqlarına, xüsusən bizə informasiya vasitəsilə yenə də yeridilir.

Burada bir balaca, tarixçi olaraq, müqayisə aparmaq istəyirəm. Fikrimizcə, tarixin inkişaf dövrlərinə təzə birini də daxil etmək lazımdır. Bunu ironiya ilə yox, həqiqət olaraq deyirəm: tarixdə bilirlər ki, bizim bir neçə – Paliolit, Neolit, Eneolit, Dəmir dövrümüz var. Bugünkü isə informasiya texnologiyaları dövrüdür. Fikrimcə, dünyada gedən proseslərin hansı məcraya yönəlməsi informasiyadan çox asılıdır. Əgər o informasiya həqiqəti, millətlərin, xalqların mənafeyini əks etdirən olarsa, böyük, güclü dövlət başçılarının, diplomatların beyninə düzgün informasiya çatarsa, siyasət humanistləşər, insanpərvərləşər, bəşəriyyət dinc nəfəs alar, haqsızlıqlardan xilas olar. Amma bu, təəssüf ki, belə deyil! Azərbaycan xalqı təcrübəsindən bilir ki, bu torpaqların ən qədim aborigen xalqı bizik. Bizim adımızı dünənə-srağagünə kimi "gəlmə" qoymuşdular. Guya haradansa bura gəlmişik, kökümüz bilinmir, türkə dəxlimiz yoxdur və s. Nə bilim, irq olaraq aparıb Əfqanıstana çıxarırdılar. Stalin də deyirdi ki, İranın haradansa içərilərindən gəliblər… Buraların ən qədim aborigenləri kim olsa yaxşıdır? Erməniləri Qafqazın ən qədim aborigenləri sayırdılar! Bax bu cür cəfəng informasiyalar bizim beynimizə yeridilmişdi. Gənclikdən tutmuş yaşlı nəslədək, hamı düşünürdü ki, biz elə, yəqin, gəlməyik də. Çox təəssüf ki, saç-saqqalı ağarmışlar belə kəndə gedəndə sual verirdilər: "Biz bura haradansa gəlmişik?" Yəni beyinlərə bu yeridilmişdi. Amma Tarix İnstitutunun əməkdaşları Prezidentimizin birbaşa qayğısı ilə bu buzu sındırdı, əsl həqiqəti üzə çıxartdı. Ona görə də cənab Prezident cəbhə bölgələrində, konfranslarda bizdən danışır. YAP-ın bu yaxınlarda keçirilən VI qurultayında da ölkə başçısı əməyimizə yüksək qiymət verdi. Tarix İnstitutunun əməkdaşları sübut etdilər ki, Qafqazın aborigen əhalisi bizik. Bura köçürülüb gətirilmə əhali isə ermənilərdir. Onların burada dövləti olmayıb. Son 10 ildə Tarix İnstitutunda 400-dən çox əsər çap olunub. Tariximizin bütün dövrlərini xalqımıza yenidən təqdim edirik.

Biz bilirik ki, "Azərbaycan" qəzeti bu millət üçün nələr edib! Qəzetin rəhbərliyi bizdən tələb edib ki, siyahıları verin, soyqırımlarını qəzetdə dərc edək, cümhuriyyət tarixinə aid prinsipial məqalələr çap olunsun. Hamısı da çap edilib. Bu millətə, vətənə nə kimi prinsipial söz demişiksə, onların hamısı bu qəzetin səhifələrində dərc edilib, geniş oxuculara çatdırılıb. Bizə heç bir məhdudiyyət qoyulmayıb.

Ulu öndər Heydər Əliyev bu qəzetin arxasında durdu, yubileylərini keçirdi. Bu qəzeti qorudu. Prezidentimiz "Azərbaycan" qəzetinə qayğını həmişə diqqət mərkəzində saxlayıb, lazımi köməyini göstərib. Bir anlığa düşünək bugünkü mətbuatın vəziyyətini: "Azərbaycan" qəzeti olmasaydı, necə görünərdi? Düşünürəm: bizim mətbuatımızda internet şəbəkəsindəki ayrı-ayrı saytlarda necə gedir tariximiz? Böhtan da var, içərisində şər də, əlbəttə, ara-sıra yaxşı yazanlar istisna olunmaqla. Amma milli mənəviyyatımızın, mədəniyyətimizin yaşamasında "Azərbaycan" qəzetinin bir ali mətbu orqan olaraq xüsusi rolu danılmazdır. Ona görə də hesab edirəm ki, AMEA-da keçirilən bu tədbir Tarix İnstitutunun ən sanballı, millətimiz üçün dəyərli elmi konfranslarından biridir!

Milli Məclisin deputatı,"Azərbaycan" qəzetinin Baş redaktoru Bəxtiyar Sadıqov konfrans iştirakçılarını salamlayaraq dedi:

– Hörmətli konfrans iştirakçıları, tarixçi alimlərimiz, bildiyiniz kimi, dövlət başçısı 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etdi. Eyni zamanda, Prezidentimiz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı sərəncam da imzaladı. Buna görə cənab Prezidentə təşəkkür edirik. Çox şadıq ki, ilk tədbirimizi hörmətli Yaqub müəllimin təklifi ilə siz tarixçi alimlərlə, ziyalılarla birlikdə keçiririk.

"Azərbaycan" həm xoşbəxt qəzetdir, həm də talesiz! Xoşbəxt qəzetdir, ona görə ki, Azərbaycan adını ilk dəfə o daşıdı! Qəzet kimi bu adın legitimləşməsinə töhfəsini verdi. Bizim ilk müstəqil dövlətimizin rəsmi dövlət və akademik qəzeti oldu. Müstəqil dövlət quruculuğu prosesini öz səhifələrinə yazdı, qoruyub saxladı!

Biz jurnalistlər günün tarixini yazırıq, siz tarixçilər isə illərin. Biz ancaq sizinlə daim əməkdaşlıqda obyektiv, düzgün, baş verənləri olduğu kimi yaza bilərik. Mən niyə talesiz qəzet deyirəm? "Azərbaycan" qəzeti eyni zamanda müstəqilliyimizin qeyri-rəsmi atributudur, rəmzidir. Azərbaycan dövlət müstəqilliyini, "Azərbaycan" isə rəsmi qəzet statusunu qazandı. Azərbaycan dövlət müstəqilliyini itirdi, "Azərbaycan" qəzetinin də nəşri dayandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları kimi, qəzetin də üzərinə qadağa, "düşmən" qrifi qoyuldu. Hətta BDU-nun Jurnalistika fakültəsində bu qəzetlə bağlı nəinki 5 dəqiqə, ümumiyyətlə, heç söhbət getmirdi. "Müsavat" təmayüllü qəzet" deyib susurdular.

Şükürlər olsun ki, yenidən dövlət müstəqilliyi qazandıq. "Azərbaycan" qəzeti də nəşrə başladı. Bu mətbu orqanın 4 redaktoru olub: Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahim. Onlar çox faciəli bir həyat yaşadılar. Ömürlərinin sonunu qürbətdə, böyük ehtiyac içərisində keçirdilər. Vətən həsrəti ilə dünyalarını dəyişdilər. Öz şəxsi həyatlarında da faciələr oldu: övlad dağı gördülər. Yeganə olaraq Üzeyir bəy Hacıbəyli ölkəni tərk etmədi. Onu musiqi dühası xilas etdi. Xəlil İbrahimin qızı Solmaz xanım redaksiyaya gəlmişdi. 93 yaşı var, Moskvada yaşayır. Təsəvvür edirsinizmi, bu insanın, atası Xəlil İbrahimin məzarı da yoxdur! Bizdən xahiş etdi ki, heç olmasa, Bakıdakı evinin fasadına bir xatirə lövhəsi vurulsun. AYB-nin sədri, xalq yazıçısı Anar müəllimə, xalq şairi Fikrət Qocaya müraciət etdik, sağ olsunlar, dərhal Mədəniyyət və Turizm Nazirliyinə məktub yazdılar və yəqin ki, həmin xatirə lövhəsi vurulacaq. Bu insan bacardığı qədər vətənə, xalqa xidmət etdi. Maarif Nazirliyində işlədi, kitablar yazdı, amma yenə də repressiyadan xilas ola bilmədi. Eyni zamanda, bu qəzetin yazarları – Məhəmməd Hadi, Seyid Hüseyn, Ümmügülsüm, Əhməd Cavad… hamısı çox ağır bir ömür sürdü. Sonda da ya repressiya, ya həbsxana, ya güllələnmə, ya da ki, qürbətdə ömürlərini başa vurdular.

Dəhşət odur ki, "Azərbaycan" qəzetinin həmin dövrdə çap olunan nüsxələrinin toplusunu tapa bilmirik ki, onları bərpa edək, kitab şəklində buraxaq. Orada dərc edilən məsələləri, odövrkü fəaliyyətini oxuculara çatdıraq…

Tarixçi alimlər inciməsinlər, bu gün onları üç qrupa ayırmaq olar. Birinci qrup tarixçilər arxivlərdə sənədlərlə işləyirlər, böyük əziyyət çəkirlər. Çünki arxivlərdə işləmək üçün ilk növbədə əski əlifbanı bilmək lazımdır, on və ya yüz illərlə toz basmış qovluqları vərəqlədikcə onların tozunu udmağı bacarmalısan, müəyyən səriştə lazımdır. İkinci qrup tarixçilər isə artıq bu mərhələni keçməyən, kitablar əsasında əsərlər yazanlardır. Onlar da, insafla, müəyyən iş görürlər. Heç olmasa arxivlərdən çıxarılmış sənədlərin, əsərlərin tirajını çoxaldırlar. Üçüncü qrup tarixçilər isə "internet alimləri"mizdir. Çox şadam ki, Tarix İnstitutunun alimləri, elmi əməkdaşları arxivlərdə əziyyətlə işləyirlər. Hətta dünyanın hər yerini gəzib arxivlərimizi tapıb gətirir,

müstəqil dövlətimizə ərməğan edirlər. Yəni tariximizin obyektiv yazılmasına böyük səy göstərirlər. Ulu öndər Heydər Əliyevin çox mühüm tövsiyəsi var: tariximizi ağ ləkələrdən təmizləmək… Bu, "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda bir vəzifə kimi qarşımıza qoyulub!

"Azərbaycan" qəzetinin AXC dövründə cəmi 443 nömrəsi işıq üzü görüb. İlk rəsmi dövlət qəzeti status daşıyıb. Qəzetin 4 nömrəsi Gəncədə çıxıb. 15 sentyabr 1918-ci il tarixində ilk nömrəsi çap edilib.

Demək, acınacaqlı hal odur ki, qəzetin o dövrdə çıxan 443 nömrəsinin heç də hamısını əldə edə bilməmişik! Nə bunların tam həcmdə elektron variantını, nə də kserosurətini əldə etmək mümkün olub. Çox çalışdıq! Müxtəlif yerlərə müraciət etdik. Hətta Moskvadakı əlaqələrimizdən də istifadə etməyə çalışdıq. Sankt-Peterburqda olan Lenin Kitabxanasına da müraciət etdik ki, heç olmasa surətini çıxarıb bizə versinlər. Bizimlə əməkdaşlıq qurmuş Rusiyadakı diaspor üzvləri də heç bir kömək edə bilmədilər. Sonra burada arxivləri axtardıq. Heç birində tam variant yox idi! Milli Kttabxanada da bir neçə nömrə çatmır. Məqsədimiz heç olmasa ilkin variant olaraq, hətta elektron formada olsa belə, nüsxələri bərpa edib yenidən çapına nail olmaqdır. Mütəxəssislərin hesablamasına görə, təxminən səkkiz cild edir. Qəzetin bütün nömrələrini əldə etdikdən sonrakı mərhələ onu araşdırmaq, bu barədə yazmaq, həmin dövrü öyrənmək və s. məsələlərlə məşğul olmaqdır. Təəssüf hissi ilə deməliyəm ki, hələ buna nail ola bilməmişik!

Biz qəzetin əldə olan nüsxələrini disk, yəni elektron formada AMEA-nın Tarix İnstitutuna hədiyyə edəcəyik. Bu qəzet hamımızın – dövlətin, xalqın, millətindir! Azərbaycan tarixinin fədailəri, dövlətini, xalqını, millətini sevən insanlar bu qəzeti ortaya çıxarıb! O binəsib insanların həqiqi qiymətini vermək bizim borcumuzdur! 71 il qadağa qrifi altında saxlanan, xalqdan gizlədilənləri, taleyinə işıq salınmayanları üzə çıxarmağa nail olacağıq. Tarix İnstitutu bu yolda çox doğru yol tutub.

Bayaq alimlər haqqında danışdıq. Yenidən mən o fikirə qayıdıram, sizin qiymətiniz verilir. Əslində, alimə iki cür qiymət verilir: birini xalq, digərini dövlət! Xalqın verdiyi qiymət hörmət və ehtiramdır. Dövlət isə alimə başqa cür qiymət verir: elmi adlar, təltiflər formasında. Yaqub müəllim, siz başda olmaqla, alimlərə yazdığınız əsərlərə görə ən yüksək mükafat – Dövlət mükafatı verilib! Heç təsadüfi deyil ki, alimlərə mükafatı cənab Prezident özü təqdim edir!

Azərbaycan Prezidenti AMEA-nın yubiley yığıncağında sizin zəhmətinizi xüsusi vurğuladı. YAP-ın VI qurultayında cənab Prezident bildirdi ki, bu gün tarixçi alimlərimiz tərəfindən sanballı əsərlər ortaya qoyulur. Bu gün əgər Prezidentimiz deyəndə ki biz İrəvana, Zəngəzura – qədim Azərbaycan torpaqlarına qayıdacağıq, buna görə də ermənilərin içərisinə bir çaxnaşma düşür – bunun tarixi, elmi əsasını siz yaratmısınız. Bu fikir həmin elmi əsərlərə istinadən deyilir.

Bir-iki vacib nüans var ki, istərdim onları tarixçi alimlərimizin nəzərinə çatdırım. Çünki "Azərbaycan" qəzetinin yaranması və fəaliyyəti araşdırma və dissertasiya mövzusuna çevriləndə bu mühüm amillər hökmən nəzərə alınmalıdır. İlk nüans ondan ibarətdir ki, biz istəyirik siz tarixçilər bizim redaksiyanın əməkdaşlarının – "Azərbaycan"çıların fikirlərini biləsiniz. 1991-ci il yanvarın 1-dən "Həyat" adlı "rəsmi dövlət qəzeti" nəşr olunmağa başladı. O zaman, bildiyiniz kimi, SSRİ laxlayırdı, Kommunist Partiyasının taleyini hər kəs bilməsə də, ulu öndər bilmiş və öz qiymətini vermişdi. Həmin vaxt biz "Kommunist" qəzetində işləyirdik. Oradan bir qrup jurnalist yeni yaradılan qəzetin redaksiyasına köçürüldü. "Həyat" qəzeti Əfqan Əsgərovun redaktorluğu ilə nəşr edilməyə başladı. 1991-ci il yanvar ayının 1-dən "Həyat" qəzetinin ilk nömrəsi çıxdı. O dövrdə "Azərbaycan" adını qəzetə verə bilmədik. "Azərbaycan" adında Qarabağa Xalq Yardımı Komitəsinin qəzeti çıxırdı. Sovet qanunlarına görə, eyni adda iki qəzet ola bilməzdi.




Ona görə də biz istəyimizə nail ola bilmədik. Sonradan dövr, zaman dəyişdi. "Həyat" qəzetinin 440 nömrəsi işıq üzü gördü. Lakin çox şükürlər olsun ki, 1992-ci il sentyabrın 23-də "Azərbaycan" qəzetinin qanuni adı özünə qaytarıldı! "Azərbaycan" qəzeti ilə "Həyat" birləşdirildi, Milli Məclisin orqanı "Həyat" isə dayandırıldı. 444-cü nömrədən "Azərbaycan" qəzeti çap olunmağa başladı! "Həyat" qəzeti isə arada itib-batdı. Təəssüf, itməli deyildi. Rəsmi dövlət qəzeti statusu daşıyıb, Milli Məclisin orqanı olub, o dövrdə "Azərbaycan" qəzeti nə ilə məşğul olubsa, o işləri də görüb… "Həyat" – rəsmi sənədləri dərc edib, parlamentin fəaliyyətini geniş işıqlandırıb. Mən istərdim ki, tarixçilər bilsin və gələcəkdə çalışacağıq ki, "Həyat" qəzetinin həmin 440 nömrəsi də "Azərbaycan"ın sıralarına əlavə olunsun.

İkinici nüansı da burada qeyd etmək istəyirəm. Həmin o komitə qəzeti – "Azərbaycan" 1989-cu ildə çıxdı. Onun redaktoru da bizim ziyalılarımızdan biridir. Bir neçə dəfə, hətta qəzetimizin 90 illiyini keçirəndə ictimai şəkildə də söhbətimiz oldu. O qəzetdəkilər hesab edirdilər ki, "Azərbaycan" qəzetinin xələfləri sırasına daxil olmalıdırlar, amma biz bununla razılaşmırıq: bir neçə məqama görə. Bayaq qeyd etdik ki, "Azərbaycan" qəzeti AXC dövründə "rəsmi dövlət qəzeti" statusunda olub. Amma digər "Azərbaycan" şərti olaraq komitə qəzeti olub. İkincisi, "Azərbaycan" qəzeti AXC hökumətinin maliyyəsi əsasında çıxıb, onun bütün tapşırıqlarını yerinə yetirib. Komitə qəzeti isə dövlətdən maliyyələşmirdi, müstəqil idi. AXC-nin qəzeti "Azərbaycan" hökumətin bütün qərarlarını dərc edir, parlamentin hesabatlarını verirdi. Amma həmin komitənin "Azərbaycan"ı isə heç bir rəsmi sənəd dərc etməyib. Ən əsası: AXC-nin "Azərbaycan"ı iqtidar mövqeyində durub, onun gördüyü işləri işıqlandırıb, komitə "Azərbaycan"ı isə iqtidara müxalif mövqedə olub. Həmin "Azərbaycan"ın 2014-cü ildə birinci nömrəsinin çıxmasının 25 illiyi qeyd olundu. Orada çıxışımda bu məqamları dedim və eyni zamanda qeyd etdim ki, biz "Azərbaycan" qəzetinin keçən il – 2013-cü ildə 95 yaşını, siz isə indi öz qəzetinizin 25 illiyini qeyd edirsiniz. Elə bu, özünüzün etirafınızdır ki, bu qəzet AXC dövründə buraxılan "Azərbaycan" deyil! Əgər söhbət ada görədirsə, onda Azərbaycan adında jurnal da çıxıb, İran azərbaycanlılarının Tudə Partiyasının "Azərbaycan" qəzeti çap edilib. Ceyhun bəy Hacıbəyli Mün-



xendə "Azərbaycan" adlı dərgi də buraxıb. Onların heç biri rəsmi dövlət qəzetinin xələfi, yaxud davamına iddialı olmayıb! Ona görə də istərdim ki, bu məsələdə mövqeyimizi biləsiniz! Həm də burada qaranlıq məqamlar olmasın.

Biz nə istəyirik sizdən, umacaqlarımız nədir? Biz istəyirik ki, "Azərbaycan" qəzetinin 443 nömrəsinin həm surəti və həm də elektron variantı bizdə olsun. 12-13 ildir ki, çalışır, çabalayırıq ki, onu əldə edək! Hələ ki buna tam nail olmamışıq, amma çox yaxınlaşmışıq. Əski əlifbanı, o zaman baş verən hadisələri oxuya bilən, həmin dövrdəki məsələlərə şərh yazmağı bacaran alimlərimiz var. Qəzetin oxunmayan, əldən düşmüş nüsxələri bərpa edilsin. Mövzuları araşdırılaraq elmi əsərlərə, dissertasiyalara çevrilsin. "Həyat" qəzetinin əldə olan 440 nömrəsi də "Azərbaycan"ın sıralarına əlavə edilsin.

"Azərbaycan" iki dövrdə çıxıb – birinci müstəqillik dövrü – 23 ay, təxminən 443 nömrə, bir də 1991-ci ildən bəri – indiki dövr. Əgər söhbət 100 illikdən gedirsə, "Azərbaycan" qəzetinin bütün dövrlərdə fəaliyyəti nəzərə alınmalıdır.

Bizim problemlərimiz və sizdən umacaqlarımız budur. O vaxtlar Gəncədə çıxan "Azərbaycan" qəzetinin 4 nömrəsinin elektron variantını müxtəlif yerlərdən əldə edə bilmişik. 1992-2017-ci illərdə 7284, 2003-2017-ci illər ərzində isə 4410 nömrə çıxıb. Biz onları bağlama şəklində Tarix İnstitutuna hədiyyə etmişik. Düşünürük ki, onlar burada daha gərəklidir. 2003-2017-ci illər ərzində buraxılan 31 cilddən ibarət, 4410 nömrəni eyni zamanda Milli Kitabxanaya da verdik. Biz indi 24 illik tariximizi əhatə edən qəzetin elektron versiyasının yazıldığı kompakt-diski institutun direktoru Yaqub Mahmudova təqdim edirik. Çünki bu elə bir diskdir ki, o, qədirbilən tarixçilərimizə hədiyyə edilməlidir!

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri üzrə fəlsəfə doktoru Natiq Məmmədzadə çıxışında bildirdi ki, "Azərbaycan" qəzeti mətbuat tariximizdə, xalqın milli şüurunun, istiqlal ruhunun formalaşmasında həqiqətən böyük rol oynamışdır: "Biz tədqiqatçılar üçün 1918-ci ildə yaradılan bu qəzetin əhəmiyyətini dəyərləndirmək olduqca çətindir. Çünki "Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi həyatının, sözün




əsl mənasında, aynası idi. Qəzetin səhifələrində ölkə həyatının bütün sahələrinə toxunulurdu. Dövlət quruculuğu, hökumətin siyasəti, Azərbaycan qəzalarındakı vəziyyət, iqtisadi və sosial problemlər, mədəniyyət, ədəbiyyat, incəsənətin inkişafı, siyasi qüvvələr arasında mübarizə, mühüm beynəlxalq hadisələr və onlara Azərbaycanın münasibəti kimi məsələləri "Azərbaycan" qəzetinin səhifələrində izləmək mümkündür. Yəni tarix elmi baxımından "Azərbaycan" qəzeti cümhuriyyət tarixi üzrə mühüm, dəyərli bir mənbədir, cümhuriyyət tarixinin salnaməsidir".

İnstitutun "Qafqaz tarixi" şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru İradə Bağırova isə çıxışına "Azərbaycan" qəzetinin milli mətbuat tarixindəki missiyasından başladı. O, qeyd etdi ki, Azərbaycan mətbuatının iki əsrə yaxın tarixinin mövcud olmasına baxmayaraq, biz bu il müstəqil Azərbaycan mətbuatının 100 illiyini qeyd edirik: "Mətbuatımızın təməli hələ XIX əsrin 30-cu illərindən, yəni "Tiflisskoye vedomosti" qəzetinin "Tatar xəbərləri" (1831-1833) həftəlik əlavəsi və "Qafqazın o tayının əxbarı" (1841-1843) qəzetləri ilə qoyulmuşdu. Lakin ilk Azərbaycan qəzeti, şübhəsiz ki, H.Zərdabinin 1875-ci ildə nəşr etdiyi "Əkinci" qəzeti oldu. Az vaxtdan sonra bağlanmış "Əkinçi" qəzetinin ənənələrini Ünsizadə qardaşları "Ziya", "Ziyayi-Qafqasiyyə", "Kəşkül", M.Şahtaxtlı "Şərqi-Rus", H.Z.Tağıyev və Ə.Topçubaşov "Kaspi" (1881-1919) qəzetləri ilə davam etdirdilər".

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Kamran İsmayılovun fikrincə, tarixçilər tədqiq etdikləri problemlərə dair mənbələri təsnif edərkən, bir qayda olaraq, onları mötəbərliyinə görə bölürlər: "Bu zaman, adətən, mətbuat materiallarını, onların mənsub olduqları siyasi subyektlərin maraq və baxışlarından çıxış etdiyini nəzərə alaraq, son sıralarda sərgiləyirlər. Lakin mətbuat materiallarına bu cür yanaşma xalq cümhuriyyəti dövrü mətbuatına münasibətdə özünü doğrultmur. Bunun ən bariz nümunəsini biz "Azərbaycan" qəzetinin fəaliyyətində görürük. Cəmi iyirmi aya yaxın fəaliyyəti dövründə "Azərbaycan" qəzeti Azərbaycanda milli dövlət quruculuğunun salnaməsini yazmaqla yana-

şı, azərbaycançılıq, türkçülük, cümhuriyyətçilik məfkurəsinin xalqın şüurunda yer taparaq möhkəmlənməsində əsas vəsilə oldu".

Yaqub Mahmudov konfransa yekun vuraraq dedi:

– Biz həmişə elmi konfranslarda deyirik ki, bəlkə də digər məruzəçilərə ehtiyac yoxdur. Amma bu gün deyərdim ki, var. Bəxtiyar müəllim, sizin çox səmimi çıxışınız tarixçi alimlər üçün çox gərəkli oldu. Bizimlə açıq söhbət etdiniz.

Bu gün Azərbaycanda ən zəngin elmi arxiv Tarix İnstitutundadır. Mən bunu cəsarətlə deyirəm. Biz onu nümunəvi bir qaydaya salmışıq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə oradan istifadəni də asanlaşdırmışıq. Bu yaxınlarda açılışı da ediləcək. Bəxtiyar müəllim, Sizin verdiyiniz həmin bu qiymətli hədiyyənizi – qəzet bağlamalarını gətirib yığmışıq arxivə. Bunlar bizdən ötrü "Azərbaycan" qəzetinin tarixidir. Əslində isə "Azərbaycan" qəzetinin səhifələrində əks etdirilən bizim milli tariximizdir! Bizə qiymətli bir töhfə elədiniz. Buna görə dərin minnətdarlığımızı bildirirəm.

AXC-nin tarixi fəaliyyəti ilə bağlı bizim institutun ayrıca şöbəsi var, orada çox böyük işlər görülür. İki cilddən ibarət "AXC-nin ensiklopediyası"nı yaratdıq. Ulu öndər Heydər Əliyev cümhuriyyət dövrünə xüsusi qiymət verirdi. Azərbaycan Demokratik Respublikasının Azərbaycan Xalq Cümhuriyyəti kimi adlandırılması da ulu öndərin yadigarıdır bizə. O zaman bu məsələni Milli Arxivin direktoru Ataxan Paşayevlə qaldırdıq, "İstiqlal Bəyannaməsi"ndə də açıq-aydın yazılıb ki, bizim yaratdığımız dövlətin adı AXC-dir. Bundan sonra ulu öndər Heydər Əliyev göstəriş verdi, dövlətimizin ozamankı qanuni adı bərpa edildi – AXC kimi. Ulu öndərə səfər zamanı demişdilər ki, AXC ilə bağlı lüğət hazırlanmalıdır. Demişdi ki, Yaqub Mahmudova mənim adımdan deyin, məşğul olsunlar, həm də ciddi şəkildə! Bu ikicildliyi çox çətin şəraitdə yaratdıq. Biz bunun 2014-cü ildə ikicildliyinin mükəmməl şəkildə nəşrinə nail olduq. Onu da deyim ki, ensiklopediyada "Azərbaycan" qəzetindən də məlumat vermişik. Biz bu konfrans üçün nəşr etdiyimiz kitablardan ibarət sərgi də təşkil etdik. Həmin kitabların bəzilərini gündəlik qəzet üçün lazım bilir və "AXC ensiklopediyası" ilə birlikdə tarixçilərimizin "Azərbaycan" qəzetinə hədiyyəsi kimi tədqim etmək istəyirik. "AXC-nin mətbuat tarixi" adlı bir kitabımız da nəşrə hazırlanır.

Yeri gəlmişkən, sizin "Azərbaycan" qəzetinin 100 illiyi ilə bağlı hazırladığınız tematik planla, oradakı mövzularla tanış olduq. Qaldırdığınız məsələlərlə tamamilə şərikəm. Mən hesab edirəm ki, biz "Azərbaycan" qəzetinin də tarixini araşdıracağıq. Ora "Həyat" da düşə bilər. Çox dəyərli, səmimi məsələlər qaldırdığınıza görə minnətdarlığımı bildirirəm.



**Solmaz RÜSTƏMOVA,**
*tarix elmləri doktoru, professor*

# "Azərbaycan" qəzetinin çapı mühüm siyasi-ictimai hadisə oldu

**1918-ci il 15 sentyabr günü Azərbaycanın XX əsr tarixinə Bakının bolşevik, erməni daşnak və rus menşevik hakimiyyətindən azad edilməsi, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin öz paytaxtına qayıtmaq və geniş mənada dövlət quruculuğuna başlamaq imkanı əldə etməsi günü kimi daxil olub. Lakin həmin gün daha bir tarixi hadisə baş verib: Şimali Azərbaycan ərazisində ilk dəfə "Azərbaycan" adlı qəzet işıq üzü görüb.**

İlk baxışda bəlkə də adi görünən bu hadisənin, əslində, böyük siyasi-ictimai əhəmiyyəti var idi. Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyasına daxil olduğu vaxtdan bu ölkənin və onun xalqının adının gündəmə gəlməməsi üçün məqsədyönlü şəkildə siyasət aparılıb. İşğal olunan torpaqlar Rusiya imperiyasının inzibati-ərazi bölgü sisteminə uyğunlaşdırılaraq yerli mərkəzlərin – şəhərlərin adı ilə vilayətlərə, dairələrə, quberniya və qəzalara bölünüb. Həmin dövr bütün Azərbaycan (Cənub və Şimal) xanlıqları ərazilərində yaşayan xalqın İranda "türk" adlandırılmasına, yəni onların farslardan fərqləndirilməsinə baxmayaraq, Rusiya hökuməti öz yeni təbəələrini uzun müddət "müsəlman" və ya "tatar" kimi qəbul edib. Sonralar Qafqazda yaşayan müsəlman-türk əhalini imperiyanın digər türk xalqlarından seçmək üçün "Qafqaz" və ya "Aderbeyjan tatarları" ifadəsi meydana gəlib. Maraqlıdır ki, hələ 1827-ci ildə ermənilərin Qarabağa köçürülməsi ilə əlaqədar tanınmış Rusiya diplomatı və yazıçısı A.Qriboyedov öz yazılarında yerli əhaliyə aid "aderbaydjantsı" (aderbaycanlılar) kəlməsini işlədib. XIX əsrin sonlarında isə "azərbaycanlılar" etnonimi artıq Rusiyanın akademik dairələrində müxtəlif formalarda istifadə edilməyə başlanıb. Məsələn, Brokqauz və Efronun Ensiklopedik lüğətində "İranskiye" və "Qafqazskiye" "azerbeydjantsı" (və ya "aderbaydjantsı") kimi azərbaycanlılar arasında bölgü aparılıb. Bununla da Arazdan cənubda və şimalda eyni xalqın yaşadığı təsdiq edilib. Bir sıra rus alimləri, ümumiyyətlə "Aderbaycan tatarlarını" "aderbaycanlılar" adlandırmağı təklif edib, lakin həmin dövr bu ad müxtəlif səbəblərdən rəsmi dövriyyəyə daxil olmayıb.

XIX əsrin sonlarında Azərbaycan cəmiyyətində də bu məsələ ilk dəfə gündəmə gəlir. 1891-ci il "Kəşkül" qəzetində "V.Sultanov" adlı uydurma bir şəxslə aparılan müsahibədə azərbaycanlıların şəxsi və kollektiv "kimliyi" məsələsi ilə bağlı vəziyyətə aydınlıq gətirilir. "Sən hansı millətdənsən?" sualına "Mən müsəlmanam, həm də türkəm" cavabı alınır. Diqqətəlayiqdir ki, bu-

rada "Osmanlı türküsənmi" sualı ilə "türk" kimliyi də dəqiqləşdirilir. Bu sualın cavabında yazının müəllifi maraqlı bir "söz oyunu" qurur: "Yox, mən bicanlıyam".

Sonrakı sual-cavabda yalnız milli kimlik deyil, Azərbaycan türklərinin etnik ərazilərini müəyyənləşdirmək cəhdi edilir. Arazın bir tayında "azərilər"in, o biri tayında isə "cansız", "ruhsuz" vəziyyətə salınmış "bicanlılar"ın yaşadığı, bir yerdə onların "azərbaycanlı" adlandırıldığı və "türk" dilində danışdığı məlum olur.

"Müsahibə"nin sonunda yazı müəllifi öz məqsədini tam aydınlığı ilə açıqlayır və qarşısındakı "bicanlı"ya özünü "Azərbaycan türkləri" adlandırmağı təklif edir.

Elə həmin 1891-ci ildə dövrün görkəmli ictimai xadimi Məhəmməd ağa Şahtaxtlı Bakıda çıxan rusdilli "Kaspi" qəzetində bu məsələni qaldırır, Cənubi Qafqaz müsəlmanlarının "tatar" adlandırılmasını rus çinovniklərinin uğursuz təşəbbüsü hesab edərək "Zaqafqaziya müsəlmanlarının Azərbaycan türkləri, onların dilini isə türk-azərbaycan dili" adlandırmasını uyğun sayır.

1891-ci ildə daha bir əlamətdar addım atılır: "Kəşkül" bağlandıqdan iki ay sonra Ünsizadə qardaşlarından Kamal bəy "Azərbaycan" adında qəzetin nəşrinə icazə məqsədilə çar orqanlarına müraciət edir. Bu xahişə rədd cavabı alınsa da, Arazdan şimalda rəsmi dairələrə müraciətdə "Azərbaycan" adının təqdim edilməsi özlüyündə Qafqazın "müsəlman-tatar" cəmiyyətində ciddi proseslərin getdiyini göstərir.

Beləliklə, XIX əsrin sonuncu onilliyində Şimali Azərbaycanın ziyalıları tərəfindən ilk dəfə "Azərbaycan", "azərbaycanlı", "Azərbaycan türkü" və "azərbaycan-türk dili" anlamları qəti və aydın surətdə gündəmə çıxarılır.

Mümkündür ki, məhz bu amil rus hökumətinin narahatlığına səbəb olur və "Kəşkül" qəzetini bağlayandan sonra azərbaycanlılara 10 ildən artıq bir müddətdə öz dillərində hər hansı mətbu orqan nəşr etmək qadağan edilir. Bütün bu zaman ərzində Kamal Ünsizadə, Məhəmməd ağa Şahtaxtlı, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Sultan Məcid Qənizadənin həmin məqsədlə əlaqədar hər hansı cəhdləri çar III Aleksandrın Qafqaz müsəlmanlarına aid söylədiyi "qoy onlar rusca oxusunlar" əmri ilə rastlaşır. Rusiyanın hakim dairələrində öz intellekti və şəxsi keyfiyyətləri ilə böyük nüfuz sahibi olan M.Şahtaxtlının Rusiya təbəəsi olan azərbaycanlıların, savadsız, yaxud savadlı olub rus dilini başa düşməyənlərin Rusiya cəmiyyətinə daxil olması üçün ana dilində qəzetə ehtiyacları olduğuna dair gətirdiyi bütün dəlillərə rus çinovniki açıq cavab verir: "Qəzet xalqın nəyinə lazımdır? Ziyalılar qoy rus dilində oxusunlar, adi tatarlar isə qoy gedib sürülərini otarsınlar".

Müqayisə üçün deyək ki, həmin dövr Cənubi Qafqazda erməni və gürcü dillərində 19 qəzet və jurnal nəşr olunurdu.

M.Şahtaxtlı yalnız 1903-cü ildə öz inadı və qətiyyəti sayəsində "Şərqi-Rus" adlı qəzetin nəşrinə icazə ala bilir. İki ildən sonra, artıq 1905-ci il Rusiya inqilabının gətirdiyi dəyişikliklər dalğasında geniş ictimai-siyasi və maarifçilik fəaliyyətinə başlayan Azərbaycan ziyalıları – Əlimərdan bəy Topçubaşov, Əlibəy Hüseynzadə və Əhməd bəy Ağayev bir daha "Azərbaycan" adlı qəzet çıxarmaq üçün təşəbbüs edirlər. Lakin çar hökuməti bu dəfə də həmin adda qəzetin çıxmasına, eyni zamanda onun təsisçiləri arasında Ə.Hüseynzadə və Ə.Ağayevin olmasına icazə vermir. Son nəticədə nəzərdə tutulan qəzet "Həyat" adı ilə Ə.Topçubaşovun təsisçiliyi, onun yaxın həmməsləklərinin redaktorluğu ilə işıq üzü görür və Azərbaycanda ictimai fikrin və milli mətbuatın inkişafı tarixində böyük rol oynayır.

Rusiyanın mətbuat işləri üzrə təyinatlı idarələrinin "Azərbaycan" adlı bir orqanın nəşrinə olan bu birmənalı mənfi və qəbuledilməz münasibətinin arxasında, şübhəsiz ki, sırf siyasi səbəblər dururdu. Azərbaycan torpaqlarını ayrı-ayrı xanlıqlar şəklində işğal etsə də, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrini İran hökuməti ilə bağlamış Rusiya hökuməti özü-

nün yeni ərazilərinin və təbəələrinin hər hansı şəkildə İranla, daha dəqiq deyilərsə, İranın Azərbaycan vilayəti ilə bağlılığını qəbul etmirdi. Burada başqa bir məqam da var idi.

Məsələ bundadır ki, tarixən Atropatenadan başlayaraq Azərbaycan toponiminin coğrafi mənada əsasən Arazın o biri tayına – cənub ərazilərinə şamil edilməsi, şimal ərazilərinin isə tarixin müxtəlif dönəmlərində Alban, Aran, Muğan, Şirvan, Qarabağ və s. adlarla xatırlanması "Azərbaycan" kəlməsinin azərbaycanlılar yaşayan bütün ərazilərə aid edilməsini mübahisə mənbəyinə çevirmişdi. Bu məqam xüsusilə İran tərəfi üçün ən həssas məsələlərdən idi və sonrakı tarixi dövrlərdə bu "həssaslıq" daha bariz surətdə üzə çıxacaqdı.

Bu baxımdan hələ 1858-ci ildə Təbrizdə fars dilində nəşr olunmuş "Əxbare-darəlsəltənəye-Azərbaycan" ("Azərbaycan hakiminin xəbərləri") adlı rəsmi dövlət qəzetinin adındakı "Azərbaycan" kəlməsi yalnız İranın Azərbaycan əyalətinin ərazisi mənasını ifadə edirdi. Bununla belə, Təbrizdə də həmin adda ikinci mətbu orqan 50 ildən sonra, 1906-cı ildə Məşrutə inqilabının gedişində işıq üzü görür. Həmin dövr Tiflisdə əsası qoyulmuş "Molla Nəsrəddin" jurnalının birbaşa təsiri altında nəşrə başlayan həftəlik, fars və Azərbaycan dillərində çıxan bu satirik məcmuənin ümumi məzmunu onun "Azərbaycan" adının coğrafi mənadan başqa hər hansı əlavə fikir – ideya yükü daşımadığını göstərir.

Təbii ki, çar çinovniklərinin "Azərbaycan" adı ilə bağlı narahatlığı heç də İranın "maraqlarının" nəzərə alınması ilə deyil, Cənubi Qafqazın "müsəlman-tatar" əhalisinin "azərbaycanlı-türk" milli kimlik axtarışının özünün yeni mərhələyə qədəm qoyması ilə şərtlənirdi. Təsadüfi deyil ki, Əhməd bəy Ağayev və Əlibəy Hüseynzadə hökumət dairələrində "panislamist və pantürkist" kimi qəbul edilirdilər.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ictimai fikrində geniş yer alan "türkçülük" və "islamçılıq" cərəyanlarının kökləri və sonrakı inkişafı mövzusu üzərində dayanmadan burada ortaya çıxa biləcək maraqlı bir suala diqqət yetirək.

Beləliklə, hələ XIX əsrin sonlarında istər Azərbaycan ziyalıları tərəfindən, istərsə də Rusiyanın ən azı elmi dairələrində "Azərbaycan" və "azərbaycanlı" məfhumları artıq gündəmə gəldiyi halda, Azərbaycanın bütöv bir ziyalı nəslinin – siyasi-ictimai xadimlərindən tutmuş maarif, mətbuat, incəsənət sahələrinin ən görkəmli nümayəndələrinə qədər – milli kimlik axtarışlarında "azərbaycanlı" deyil, "türk" kimliyinə üstünlük verməsi nə ilə bağlı idi?

"Azərbaycançılıq" ideya-siyasi cərəyanın "Türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarı şəklində formulə edilməsi, şübhəsiz ki, ilk növbədə, azərbaycanlıların özlərini böyük "türk birliyi"nin və "islam ümməti"nin tərkib hissəsi kimi dərk etməsi ilə bağlı idi. Lakin tarixi-fəlsəfi, etnik-dini və s. bu kimi faktorlardan doğan təbii qavranışdan əlavə bu seçimin arxasında real, obyektiv və sırf siyasi səbəblər dururdu. Azərbaycanlıların hələ ayrıca bir millət şəklində formalaşmadığı, Rusiya imperiyası daxilində öz milli-mədəni hüquqları uğrunda müstəqil mübarizə aparmağın bütün çətinlikləri qarşısında azərbaycanlı ictimai xadimlərin bu mübarizəni Rusiyanın digər müsəlman-türk xalqları ilə birlikdə aparmağa üstünlük verməsi həmin dövr üçün tamamilə düzgün siyasi addım idi. Təsadüfi deyil ki, 1905-ci ilin avqustunda Nijni-Novqorod şəhərində, gəmidə yarıgizli şəkildə keçirilən Ümumrusiya müsəlmanlarının I qurultayında Əlimərdan bəy Topçubaşov başda olmaqla azərbaycanlı nümayəndələr mühüm rol oynayır, bu hərəkatın proqram sənədlərini hazırlayır, onun gələcək strategiyasını müəyyən edirlər. Bu hərəkata cəlb olunmuş xalqların "müsəlman" adı altında birləşməsinə baxmayaraq, onun imperiyanın əsasən türk xalqlarını əhatə etdiyi və qarşısına da məhz milli vəzifələr qoyulduğu Ə.Topçubaşovun qurultaydakı çıxışının ilk cümlələrindən bəlli olur: "Biz – türklər eyni kökə, eyni mənşəyə, eyni dinə mənsubuq. Bizim əcdadlarımızın torpaqları Məğribdən Məşriqə qədər uzanırdı... Lakin bu gün biz öz əcdadlarımızın torpaqlarında, öz tarixi vətənimizdə öz dərdlərimizi və ehtiyaclarımızı azad müzakirə etmək imkanından məhrumuq..."

Azərbaycanlıların aparıcı mövqelərə malik olduğu bu hərəkatın təkcə 1905-1906-cı illərdə üç dəfə öz qurultaylarını keçirməsi Rusiyanın "türk elitası"nın siyasi fəallığının ən parlaq nümayişi olur və imperiyanın ictimai-siyasi mühitində "siyasi türkçülük" ifadəsinin yaranması ilə nəticələnir.

"Azərbaycan" adı siyasi anlamda gündəmə düz 10 ildən sonra gələcək. 1917-ci ilin fevralından başlayaraq Rusiyada monarxiyanın devrilməsi ilə yaranan tamamilə yeni tarixi şəraitdə "siyasi türkçülük" öz yerini daha konkret etnosiyasi anlamlara verir və məsələnin belə qoyuluşunda Məhəmməd Əmin Rəsulzadə mühüm rol oynayır. 1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının, may ayında isə Moskvada Ümumrusiya müsəlmanlarının qurultayları keçirilir və bu qurultayların hər ikisində əsas məsələ – Rusiyanın gələcək dövlət quruluşu və əsarətdə olan xalqların hüquqları haqda məruzələri M.Ə.Rəsulzadə edir. Məhz onun güclü məntiqi və inandırmaq məharəti sayəsində Rusiya müsəlmanlarının qabaqcıl nümayəndələri böyük səs çoxluğu ilə Rusiyanın milli-federativ respublikaya çevrilməsi və müsəlman əhalisi yaşayan vilayətlərə mədəni muxtariyyət deyil, milli-ərazi muxtariyyətin verilməsi təklifini qəbul edir və günün tələbi kimi irəli sürürlər.

1917-ci il Bakı və Moskva qurultaylarından sonra "Azərbaycan muxtariyyəti" məsələsi də Qafqazda Azərbaycan dövlətçiliyi forması kimi milli mətbuat səhifələrində, xüsusilə "Açıq söz" qəzetində geniş işıqlandırılırdı. Diqqətəlayiqdir ki, bu məsələlər Azərbaycan istiqlalının əleyhdarları olan Rusiyanın və Qafqazın digər siyasi qüvvələri ilə yanaşı, Bakıda fəaliyyət göstərən İranın mühacir siyasi təşkilatları və cəmiyyətləri, ilk növbədə İran demokratları tərəfindən də böyük narahatlıqla qarşılanırdı. Qafqazdakı Azərbaycan torpaqları və əhalisi nəzərdə tutulmaqla işlədilən "Azərbaycan" və "azərbaycanlılar" kəlmələrini, xüsusilə "Azərbaycan muxtariyyəti" ifadəsini mühacir iranlı demokratlar müsavatçıların İran Azərbaycanına iddiası və beləliklə də İranın ərazi bütövlüyünə təhlükə mənasında qəbul edirdilər.

1918-ci ilin 28 mayında Azərbaycanın siyasi qüvvələrinin özlərinin ilk milli dövlətini – Azərbaycan Xalq Cümhuriyyətini yaratdığını elan etməsi və onu "Azərbaycan" adlandırması bütün İran miqyasında kəskin etiraz və təşviş doğurdu. Azərbaycan Xalq Cümhuriyyətinin Təbriz daxil olmaqla Cənubi Azərbaycana da iddia etdiyi və hətta bu əraziləri Osmanlı-türk qoşunlarının dəstəyi ilə işğal etmək qəsdində olduğu kimi əsassız ehtimalları və şübhələrini ən geniş şəkildə müzakirələrə və ittihamlara çevirən İran hökuməti ölkə mətbuatında və siyasi dairələrdə AXC əleyhinə böyük kampaniya açdı, müxtəlif xarici yazışmalarda isə Azərbaycan Xalq Cümhuriyyətini Qafqaz Azərbaycanı adlandırmağa başladı. Bununla belə, Azərbaycan tərəfi bütün bu ittihamların əsassızlığını sübut etməklə İranla qonşuluq əlaqələrini tənzimləməyə müvəffəq oldu.

Əslində, yeni yaranan dövlətə Azərbaycan adının verilməsi özlüyündə böyük bir tarixi hadisə idi. Belə ki, Azərbaycan kəlməsinin XIX əsrin sonları – XX əsrin əvvəllərindən milli ruhlu Azərbaycan ziyalıları tərəfindən türkdilli mətbuatda və ədəbiyyatda dövriyyəyə gətirilməsi ilə başlanan proses heç 30 il keçməmiş Azərbaycan milli dövlətçiliyinin yaranması ilə özünün məntiqi, qanunauyğun həllini tapmışdı. Tarix üçün bir an sayıla biləcək bu kiçik müddətdə Azərbaycanın görkəmli dövlət, siyasi və ictimai xadimləri "Azərbaycan" adının coğrafi mənada – Cənub-Şərqi Zaqafqaziya, ərazi-inzibati vahidləri kimi Bakı, Yelizavetpol (Gəncə), İrəvan quberniyaları adlanan ərazilərə, "müsəlman", "tatar", "Qafqaz türkü" adlanan xalqa və "türk" adlanan dilə şamil etməyə müvəffəq olmuş və özlərinin bu müstəsna uğurlarını "İstiqlal Bəyannaməsi" ilə möhkəmləndirmişlər.

Azərbaycan hökuməti hələ Gəncədə işlədiyi günlərdə "Azərbaycan" adı ilə bağlı daha bir mühüm hadisə baş verir. Azərbaycan milli mətbuatı xadimlərinin uzun onilliklərdən bəri can atdıqları arzusu – ölkənin və xalqın adını daşıyan qəzet çıxarmaq – nəhayət ki, reallaşır: 1918-ci il sentyabrın 15-də Gəncədə "Azərbaycan" adlı qəzet nəşrə başlayır. Bu hadisəni tarixi edən amillər

"Azərbaycan" adlı qəzetin yalnız milli ziyalıların əvvəllər baş tutmayan təşəbbüslərinin arxasında duran siyasi məqsəd və niyyətlərini ifadə etməsi ilə məhdudlaşmırdı. Burada əsas amil "Azərbaycan" qəzetinin daha geniş mənada, artıq müstəqil, milli dövlətin adını daşıması ilə bağlı idi.

Maraqlıdır ki, iki dildə – Azərbaycan və rus dillərində nəşr olunan "Azərbaycan" qəzeti Gəncədə çap olunmuş ilk 4 nömrəsindən başlayaraq Bakıya köçdükdən sonra 27 aprel 1920-ci il tarixli sonuncu – 443-cü nömrəsinə qədər özünü "gündəlik ictimai, siyasi, ədəbi, iqtisadi qəzetə" adlandırmış, nə Azərbaycan hökumətinin, nə də hər hansı siyasi partiyanın rəsmi orqanı olmamışdır (AXC hökumətinin rəsmi orqanı – "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" adlı həftəlik qəzet 1919-cu ilin yanvar ayından nəşr olunurdu). Bununla belə, hər iki dildə çıxan "Azərbaycan" qəzeti yarandığı gündən dövlət qəzeti funksiyasını yerinə yetirmiş, sözün tam mənasında Azərbaycan dövlətçiliyi mövqeyində durmuş, Azərbaycan Xalq Cümhuriyyətinin milli maraq və siyasətini əks etdirmiş, Azərbaycan xalqını bu dövlət ətrafında sıx birləşdirməyə çalışmışdır. Azərbaycan istiqlalının müdafiəsi ideyası qəzetin ümumi siyasi xəttini ifadə etmişdir. Qəzet dövlət tərəfindən maliyyələşmiş və dövlət mətbəəsində çap olunmuşdur. Sənədlərdən görünür ki, qəzetin nəşri ilə bağlı bütün mühüm məsələlər, o cümlədən redaktorların təyin edilməsi Azərbaycan hökumətində maarif naziri, daha sonra baş nazir Nəsib bəy Yusifbəyli ilə razılaşdırılırdı.

"Azərbaycan" qəzetinə əvvəlcə Ceyhun, daha sonra Üzeyir Hacıbəyli qardaşları, qısa müddətdə Xəlil İbrahim, qəzetin rus variantına isə Şəfi bəy Rüstəmbəyli baş redaktorluq etmişlər. C.Hacıbəyli və Ş.Rüstəmbəyli qəzetin ərsəyə gəlməsində böyük rol oynamış və onun ən fəal müəllifləri olmuşlar. Azərbaycan parlamentinin üzvü olan Ş.Rüstəmbəyli həmçinin "Azərbaycan mətbuatı haqqında Nizamnamə"nin hazırlanmasında, müzakirəsində və 1919-cu il 30 oktyabr tarixində qəbul edilməsində xüsusi xidmət göstərmişdir.

"Azərbaycan" qəzetini Azərbaycan mətbuatı tarixində əlamətdar edən cəhətlərdən biri də artıq qələm təcrübəsinə malik olan və dövri mətbuatda imzası tanınan Xəlil İbrahim, Əhməd Həmdi Qaraağazadə, Mirzəbala Məmmədzadə və digərləri kimi bütöv bir nəsil yazarların bu qəzetin səhifələrində peşəkar jurnalist və mahir siyasi publisisttək yetişməsidir.

Bu baxımdan Üzeyir Hacıbəylinin adı ayrıca çəkilməlidir. Belə ki, məhz "Azərbaycan" qəzetindəki fəaliyyəti və xüsusilə onun siyasi publisistikası Üzeyir Hacıbəylini birmənalı olaraq cümhuriyyət liderləri ilə bir cərgəyə qaldırmışdır.

"Azərbaycan" qəzetinin mövzu dairəsi – mühüm beynəlxalq hadisələrdən tutmuş Azərbaycan qəzalarındakı vəziyyətə qədər, Azərbaycan hökuməti və Azərbaycan parlamentinin fəaliyyətindən başlamış təhsil, ədəbiyyat, teatr, muzey və s. sahələrə qədər – yalnız AXC tarixini deyil, ümumiyyətlə 1918-1920-ci illər Azərbaycan həyatını, daha geniş mənada isə qonşu və aparıcı dünya ölkələrində baş verən hadisələri izləmək və öyrənmək baxımından mühüm mənbə sayılır. Bu sırada qəzetin cümhuriyyət dövrünün əlamətdar hadisələrinə həsr edilmiş xüsusi nömrələri ayrıca qeyd edilməlidir. "Azərbaycan" qəzetinin 1918-ci il Bakıda mart soyqırımı, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, Bakının azad edilməsi, Azərbaycan parlamentinin açılması kimi hadisələrin 1-ci ildönümünə, 1920-ci il Azərbaycanın müstəqilliyinin de-fakto tanınmasına həsr edilmiş xüsusi sayları bu gün də həmin tarixi hadisələrin dolğun və düzgün qiymətləndirilməsi üçün ən parlaq nümunə hesab edilə bilər.

Azərbaycanın istiqlal və milli dövlətçilik hərəkatı tarixinin "tədqiq və tənqidində" özünün ən yüksək qiymətini almış "Azərbaycan" qəzetinin 100 yaşı tamam olur.



**Nazim MUSTAFAYEV,**
*tarix üzrə fəlsəfə doktoru, Dövlət mükafatı laureatı*

# Qaçqın və məcburi köçkün problemi "Azərbaycan" qəzetində: *100 ilin xronologiyası*

**XX əsrin əvvəllərində olduğu kimi, sonlarında da yenidən dövlət müstəqilliyini bərpa edən Azərbaycanın üzləşdiyi əsas problem qaçqınlarla bağlı idi.**

**Qaçqınlar problemi Azərbaycan Xalq Cümhuriyyətinə Birinci Dünya müharibəsindən və 1918-ci il mart-may aylarında Bakı, Gəncə (Yelizavetpol) və İrəvan quberniyalarında ermənilərin törətdikləri kütləvi qırğınlar və azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri etnik təmizləmə nəticəsində miras qalmışdı. Birinci Dünya müharibəsi dövründə Şərqi Anadolu, Balkanlar və s. yerlərdəki münaqişə və müharibə ocaqlarından Bakı və Gəncə quberniyalarına on minlərlə qaçqın pənah gətirmişdi. İlk dövrlərdə Şərqi Anadoludan Bakıya gələn qaçqınların əksəriyyətini qeyri-müsəlmanlar, əsasən də ermənilər təşkil edirdi.**

Həmin dövrdə Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti ilə yanaşı, Erməni Qaçqınlarına Yardım Komitəsi, Latış Qaçqınlarına Yardım Komitəsi, Müharibə Nəticəsində Dağılmış Polyak əhaliyə Kömək Komitəsi, çar II Nikolayın qızı knyaginya Tatyana Nikolayevnanın müharibədən zərər çəkənlərə yardım məqsədilə təsis etdiyi komitənin Qaçqınların Qeydə Alınması üzrə Bakı Komitəsi, Qafqaz Cəbhəsində Qaçqınların Yerləşdirilməsi üzrə Baş Müvəkkilliyin Bakı şöbəsi və s. cəmiyyət və komitələr fəaliyyət göstərirdi.

❖❖❖

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra qaçqınlar probleminin həlli yeni qurulan hökumətin qarşısında bir nömrəli vəzifə kimi dururdu. Bu problem dəfələrlə Nazirlər Kabinetinin və parlamentin iclaslarında müzakirə edilmişdi.

İyunun 16-da AXC hökuməti Gəncədə yerləşdikdən sonra Cənubi Qafqaz Seyminin Müsəlman Milli Şurasının nəzdindəki qaçqınlar şöbəsi əsasında Səhiyyə və Himayəçilik Nazirliyi yaradılmış, Xudadat bəy Rəfibəyli nazir təyin edilmişdi.

AXC hökuməti oktyabr ayında Bakıya köçdükdən sonra bu nazirlik iki yerə – Səhiyyə Nazirliyinə və Himayəçilik Nazirliyinə ayrılmışdı. Himayəçilik Nazirliyinə doktor Musa bəy Rəfiyev başçılıq edirdi. 1919-cu ilin aprel ayından etibarən isə əvvəllər Himayəçilik Nazirliyinin qaçqınlar şöbəsinin rəisi işləmiş, parlamentdəki rus-slavyan fraksiyasının üzvü Viktor Klenevski himayəçilik naziri təyin edilmişdi.

Himayəçilik Nazirliyinin qarşısında iki əsas vəzifə dururdu:

1. Qaçqınlar məsələsi. Qonşu ölkələrdən – Ermənistan və Türkiyədən didərgin salınan qaçqınları qəbul etmək, onları ilkin zəruri ərzaq və qida məhsulları ilə təchiz etmək, əkin üçün toxum və işçi heyvanlarla təmin etmək, bəzi kənd icmalarında fərdi təsərrüfatları dirçəltmək üçün faizsiz kredit vermək və qaçqınları işlə təmin etmək.

2. Himayəçilik məsələsi. Azyaşlı yetim uşaqların saxlanması üçün yetimxanalar və düşərgələr təşkil etmək, kasıblar üçün ucuz qiymətlə yeməkxanalar, qida məntəqələri açmaq, fərdi və ictimai xeyriyyəçilik fəaliyyətinə nəzarət etmək, onun inkişafına yardım göstərmək.

Yerlərdə məsələləri həll etmək üçün 6 dövlət himayəçiliyi dairəsi təşkil edilmişdi: 1) Bakı dairəsi (Bakı şəhəri, Bakı və Quba qəzaları), 2) Gəncə dairəsi (Gəncə şəhəri, Gəncə və Qazax qəzaları), 3) Şamaxı dairəsi (Şamaxı və Göyçay qəzaları), 4) Nuxa dairəsi (Nuxa və Ərəş qəzaları, Zaqatala quberniyası), 5) Qarabağ dairəsi (Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları), 6) Lənkəran dairəsi (Lənkəran və Cavad qəzaları). Bu dairələrdə işlərə himayəçilik müfəttişləri rəhbərlik edirdilər.

Qaçqınlara yardım məsələsi üç əsas istiqamətdə qurulmuşdu: 1) Bakıda və onun mədən rayonlarında, 2) Ölkənin digər yerlərində, 3) Xarici dövlətlərdə.

Qaçqınlar problemi xalq cümhuriyyəti hökumətinin rəsmi orqanı olan, Azərbaycan türkcəsində və rus dilində işıq üzü görən "Azərbaycan" qəzetinin hər iki versiyasında əsas mövzulardan biri idi. Dövrün salnaməsi hesab olunan həmin qəzetlərdə parlamentin stenoqramları, hökumətin qərarları dərc edilir, əlaqədar nazirliklərin qaçqınlar problemi ilə bağlı fəaliyyətləri işıqlandırılır, müxbir məqalələri verilirdi. Oxuculara təqdim edilən bu məqalədə qaçqınlar problemi "Azərbaycan" qəzetinin rus dili versiyasının materialları əsasında işıqlandırılır.

O dövrün mətbuat və arxiv materiallarının təhlili göstərir ki, qaçqınlar probleminin həlli üçün hökumət və parlament mümkün olan işləri görmüşdür. Azərbaycan ərazisinə daxil olan və qaçqın kimi qeydə alınan hər bir ailəyə qaçqın kitabçası təqdim edilirdi. Həmin kitabçada qaçqın ailəsinin yerləşdiyi ünvan, ailə tərkibi, onun maddi vəziyyəti, nə kimi ev əşyalarına malik olduğu, aldığı yardımların növü və miqdarı ayrıca qeyd olunurdu. Xüsusi komissiya vasitəsilə həmin qeydlər aparılır, bununla da imkanlı və imkansız qaçqın ailələri bir-birindən fərqləndirilirdi. Yardımlar ucdantutma deyil, imkansız ailələrə və kimsəsizlərə verilirdi. Şübhəsiz ki, nöqsanlar da mövcud idi. Mövcud nöqsanlar parlamentin iclaslarında müzakirə edilir, onların aradan qaldırılması yolları göstərilirdi. Azərbaycan hökumətinin demokratikliyi və humanizmi onda özünü bariz şəkildə göstərirdi ki, problemə insanlıq nöqteyi-nəzərindən yanaşılır, milli ayrı-seçkiliyə yol verilmirdi.

"Azərbaycan" qəzeti (rusca) 25 sentyabr 1918-ci il tarixli nömrəsində yazırdı ki, aprel ayının sonlarınadək İrəvan quberniyasında 199 kənd dağıdılmış, bu kəndlərin 135 min nəfər əha-

lisinin bir qismini ermənilər öldürmüş, bir qismi aclıqdan tələf olmuş, bir qismi də yer-yurdlarından didərgin düşmüşdür.

Qəzetin müxbiri Xəlil İbrahimin 1918-ci il sentyabr-oktyabr aylarında "Azərbaycan" (rusca) qəzetində dərc edilən "Qarışıqlıq günlərində Qarabağda vəziyyət" başlıqlı silsilə məqalələrində ermənilərin Qarabağda törətdikləri qırğınlardan, "Qarabağ Respublikası" elan etmək cəhdlərindən, Andronikin qoşununun Zəngəzur istiqamətindən Şuşanı ələ keçirmək niyyətindən, Xalq Cümhuriyyətinin qurulmasından sonra komendantlıq üsuli-idarəsinin tətbiq edilməsindən, erməni komitələrinin Azərbaycan hökumətinə tabe olmalarından, Şuşadan didərgin salınan azərbaycanlı qaçqınların bir qisminin şəhərə qayıtmalarından, bir qisminin də ətraf kəndlərə paylaşdırılmalarından ətraflı bəhs edirdi.

"Azərbaycan" qəzeti 7 oktyabr 1918-ci il tarixli nömrəsində yazırdı ki, hökumətin qəbul etdiyi qərara əsasən Himayəçilik Nazirliyinin qaçqınlar məsələsi üzrə müvəkkillərinin hər dəfə təqdim etdikləri siyahı əsasında qaçqınlara Azərbaycan dəmir yolundan pulsuz gedişə icazə verilmişdir.

"Azərbaycan" qəzeti 27 fevral 1919-cu il tarixli nömrəsində (№ 44) yazırdı ki, fevralın 7-də Azərbaycan hökuməti Ermənistanda yaşayan müsəlman əhaliyə yardım edilməsi haqqında qərar qəbul etmişdir. Həmin qərarla Ticarət və Sənaye Nazirliyinə tapşırılırdı ki, Ermənistanda yaşayan müsəlman əhalinin ehtiyacları üçün Azərbaycanın İrəvandakı Diplomatik Nümayəndəliyinə 20 min pud kerosin buraxsın. Qərarda həmçinin göstərilirdi ki, İrəvan Müsəlman Milli Komitəsinin vasitəsilə satılan kerosindən əldə edilən 500 min rubl vəsait müsəlman qaçqınlar arasında bölüşdürülsün. Ayrılan kerosinin İrəvana çatdırılması üçün bütün xərclərin ödənilməsi isə himayəçilik nazirinə həvalə edilirdi. Qəzet həmin sayında Şamaxı qəzasında qaçqınların yerləşdirilməsi və məskunlaşdırılması məsələlərinin həlli məqsədilə Əkinçilik, Daxili İşlər və Himayəçilik nazirliklərinin nümayəndələrindən ibarət komissiyanın ezam edilməsi haqqında Azərbaycan hökumətinin qərar qəbul etdiyini yazırdı.

❖❖❖

1918-ci ilin aprel ayında erməni-rus birlikləri Şamaxı qəzasında törətdikləri qırğınlardan sonra Nikolayevka, Maryevka, Astraxanka və Çuxuryurd kəndlərində yaşayan rus icması (molokanlar) Stavropol quberniyasına köçmüşdü. 1919-cu ilin iyun ayında rus icmasının üzvləri Azərbaycanın Tiflisdəki Diplomatik Nümayəndəliyinə müraciət etmiş, Şamaxıya qayıtmaq üçün Tiflisdən Bakıyadək pulsuz dəmiryol bileti verilməsini xahiş etmişdilər. AXC hökuməti rus qaçqınlarının maneəsiz olaraq Şamaxıya qayıtmalarını təmin etmişdi. "Azərbaycan" qəzetinin 19 iyul 1919-cu il tarixli nömrəsində "Qaçınların qayıtması" başlıqlı yazısında qeyd edilirdi ki, Stavropol quberniyasından gələn, Tiflisin Navtluq stansiyasında gözləyən 36 ailəyə (189 nəfər) Şamaxı qəzasındakı yerlərinə qayıtmağa icazə verilmişdir.

Qəzetin 6 iyul 1919-cu il tarixli nömrəsində "Həkim Vladimirov" imzası ilə dərc edilən "Qarabağda" başlıqlı məqalədə qeyd edilirdi: "Rəsmi məlumata əsasən, Qarabağ General Qubernatorluğunun ərazisində İrəvan quberniyasından 50 min qaçqın cəmləşmişdir. Onların böyük əksəriyyəti qəti surətdə öz doğma yuvalarına geri qayıtmaqdan imtina edirlər, çünki evlərin bir qismi dağıdılıb, bir qismində isə ermənilər məskunlaşıb. Bu vəziyyət Himayəçilik Nazirliyində diqqətlə öyrənilmiş və Mil düzənliyində yarım milyon desyatin torpağın suvarıl-




ması məsələsi qaldırılmışdır... Mil düzünün suvarılması məsələsinin həlli üçün 15 mindən artıq əməkqabiliyyətli qaçqının bu işə cəlb edilməsi lazımdır". Daha sonra qəzet yazır ki, bu işin həllinə iki ictimai xadim – Həmidə xanım Cavanşir və Cəlil Məmmədquluzadə qoşulmuşlar. Onlar iyun ayının 18-də Ağdamdan aşağıdakı məzmunda teleqram göndərmişlər: "Bakıya. Ministr-sədr Usubbəyova. Surəti parlamentin üzvləri Məmməd Əmin Rəsulzadəyə və Əhməd bəy Pepinova. 50 min qaçqının ağır maddi vəziyyəti bizi vadar etdi ki, Mil düzündə 50 milyon desyatin torpağın suvarılması üçün Araz və Kür çaylarının köhnə "Gavur arxı" kanalı ilə birləşdirilməsi məsələsini qaldıraq..." Teleqramın sonunda qeyd edirlər ki, onlar bu məsələ ilə bağlı Əhməd bəy Cavanşirin XIX əsrin 60-70-ci illərində başlatdığı, lakin çəkişmələr üzündən yarımçıq qalan vacib işin tamamlanmasını istəyirlər və kanalın plan və layihəsini hökumətin sərəncamına təqdim etməyə hazırdırlar. Həmidə xanımın və Mirzə Cəlilin bu məsələni qaldırmaqlarından sonra Himayəçilik Nazirliyinin Qarabağ general-qubernatorluğundakı müfəttiş təlimatçısı Ryumin və müvəkkili Behbudov "Gavur arxı"nı tədqiq etmişlər. Nəticədə məsələ Himayəçilik və Əkinçilik, habelə Dövlət Əmlakı nazirliklərində müzakirə edilmiş, həmin ərazinin suvarılması üçün qısa müddətdə Nazirlər Kabinetinə qanun layihəsi vermək qərarlaşdırılmışdı. Məqalənin sonunda bu məsələnin müsbət həllini tapacağına və Mil düzünün 1920-ci ilin yazında məskunlaşdırılacağına inam ifadə edilirdi. Lakin xalq cümhuriyyətinin süqutu nəticəsində qaçqınların Mil düzündə məskunlaşdırılması layihəsini həyata keçirmək mümkün olmadı.

Qəzetin həmin sayında dərc edilən digər xəbərdə qeyd edilirdi ki, iyulun 4-də I Realnı məktəbin binasında Lənkərandan gəlib Bakıda müvəqqəti məskunlaşan müsəlman qaçqınların yığıncağı keçirilmişdir. İclasda iştirak edən Yusif Talıbzadə (Abdulla Şaiqin qardaşı) qaçqınların öz yer-yurdlarına qayıtmaları üçün Azərbaycan hökumətinin onları pulla və silah-sursatla təchiz edəcəyini bildirmişdir. Uzun müzakirələrdən sonra könüllülərin səfərbər edilməsi üçün komissiya yaradılmış, 150 könüllü qeydə alınmışdı.

Qəzetin 8 iyul 1919-cu il tarixli nömrəsində dərc edilən xəbərdə bildirilirdi ki, Şamaxı qaçqınlarına kömək məqsədilə Ağdamda tamaşa göstərilmiş, 5967 rubl vəsait toplanılmışdır.

Qəzetin növbəti sayında xalq cümhuriyyətinin Aşqabaddakı konsulluğundan alınan xəbərdə deyilirdi ki, bolşeviklərin İranla sərhəd bölgələrini ələ keçirmələrindən sonra Xəzərin o tayına keçən qaçqınların təmsilçiləri konsulla görüşmüş, çox ağır vəziyyətdə olduqlarını bildirmiş və kömək istəmişlər. Konsulluq qaçqınların vəziyyətini öyrənmək üçün öz agentini göndərmiş və kömək göstərilməsi üçün Azərbaycan hökuməti qarşısında vəsatət qaldırmışdır.

"Azərbaycan" qəzetinin 17 iyul 1919-cu il tarixli nömrəsində "Himayəçilik Nazirliyində" başlıqlı məqalə dərc edilmişdir. Məqalədə qeyd edilir ki, Azərbaycanın Gürcüstandakı nümayəndəliyinin başçısının müavini Himayəçilik Nazirliyinə məlumat vermişdir ki, hər gün qaçqınların böyük partiyası Ermənistandan Tiflisə gəlir və onların maddi yardıma çox böyük ehtiyacları var. Onların Azərbaycana göndərilməsi üçün ayrılan bir vaqonun kifayət etmədiyi və hər cür kömək göstərilməsi üçün təcili surətdə kredit açılmasının zəruri olduğu bildirilmişdir. Həmin məqalədə Zaqafqaziya Aysor Milli Şurasının sədrinin Himayəçilik Nazirliyinə etdiyi müraciətdən bəhs edilir. Müraciətdə bildirilir ki, Gəncə quberniyasının Yelenendorf, Georgiyevne və digər koloniyalarında Van vilayətindən gəlmiş 1500-dən artıq aysor qaçqın məskunlaşıb, hansı ki, birdəfəlik yardımdan və amerikalıların yardımından başqa heç nə almırlar. Himayəçilik Nazirliyi bu məsələ ilə əlaqədar nazirliyin Gəncədəki inspektoruna tapşırmışdır ki, aysorların vəziyyətinin yüngülləşdirilməsi istiqamətində nazirliyin zəruri tədbirlər görməsi üçün onların durumunu dərhal tədqiq etsin.

Həmin məqalədə bu gün də ibrət olası bir fakt da öz əksini tapmışdır. Qəzet yazır ki, Qadın Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri himayəçilik nazirinə məlumat vermişdir ki, müsəlman yetimxanasına müxtəlif vaxtlarda ayrı-ayrı şəxslər pul və əşyalarla ianə vermişlər. Məqalədə ianə verən şəxslərin adları aşağıdakı kimi qeyd edilmişdir: Nazirlər Kabinetinin sədri Nəsib bəy Usubbəyov – 1100 rubl, Ağa Baba Quliyev – 1000 rubl, doktor Gindes – 50 rubl, adlarını bildirmək istəməyənlər – 4000 rubl, A.Dadaşov 1000 rubl dəyərində medikament, Mustafa Abdullayev – 150 cüt çust, hər iki cins uşaqlar üçün 88 dəst kostyum.

Xalq cümhuriyyəti hökuməti Bakıda müvəqqəti məskunlaşan polyak qaçqınlarının vətənlərinə geri dönmələri üçün vəsait ayrılması məqsədilə iki dəfə qərar qəbul etmişdir. Bu barədə "Azərbaycan" qəzetinin 17 avqust və 25 oktyabr 1919-cu il tarixli saylarında qeyd edilirdi ki, birinci dəfə 224, ikinci dəfə isə 350 polyakın pulsuz geri qayıtmalarını təmin etmək üçün hökumət  Himayəçilik və Yollar nazirliklərinə müvafiq tapşırıqlar vermişdir.

❖❖❖

AXC parlamentinin 1919-cu il iyulun 19-da keçirilən iclasında qaçqınlara yardım edilməsi məqsədilə idarələrarası komissiya yaradılmışdı. Bu komissiya Gəncə quberniyasının Zəngəzur, Cəbrayıl, Cavanşir və Şuşa qəzalarında müvəqqəti məskunlaşmış qaçqınların iqtisadi vəziyyətini yüngülləşdirmək, onları boş torpaqlarda daimi məskunlaşdırmaq məqsədilə yaradılmışdı. Komissiyanın tərkibinə Torpaq, Daxili İşlər və Dövlət Nəzarəti nazirliklərinin, "Əhrar", "Müsavat" və "İttihad" partiyalarının nümayəndələri, Himayəçilik Nazirliyinin dairə inspektorları və s. daxil edilmişdi. Komissiyanın qarşısında duran vəzifəni həyata keçirməsi üçün 18 milyon 750 min manat vəsait ayrılmışdı.

Həmin qəzetin 11 oktyabr 1919-cu il tarixli nömrəsində məlumat verilirdi ki, hökumətin qərarına əsasən Lənkəran qəzasında bolşevik hakimiyyətindən (qondarma “Muğan respublikası”

nəzərdə tutulurdu – **N.M.**) zərər çəkən qaçqın əhaliyə yardım göstərilməsi üçün Himayəçilik Nazirliyinə 500 min rubl ayrılmışdır.

Ermənistan daşnak hökumətinin yeritdiyi etnik təmizləmə siyasəti nəticəsində qaçqın düşən müsəlman əhaliyə cümhuriyyət hökuməti büdcədən dəfələrlə vəsait ayırmışdı. "Azərbaycan" qəzetinin 26 oktyabr 1919-cu il tarixli nömrəsində qeyd edilirdi ki, hökumət növbəti dəfə Ermənistandakı müsəlman qaçqınlara yardım edilməsi məqsədilə 2 milyon rubl ayrılması üçün himayəçilik nazirinə tapşırıq vermişdir.

Azərbaycan hökuməti hətta Dağıstandan gələn qaçqınlara da 1 milyon rubl həcmində yardım ayırmışdı. Bu barədə həmin qəzetin 5 noyabr 1919-cu il tarixli nömrəsində məlumat verilmişdi.

"Azərbaycan" qəzeti 25 dekabr 1919-cu il tarixli nömrəsində yazırdı ki, cümhuriyyət hökuməti Himayəçilik Nazirliyinin məruzəsi əsasında qaçqınların Ağdaş, Göyçay, Qazax və Nuxa qəzalarında, xüsusən dəmiryol stansiyalarına yaxın ərazilərdə məskunlaşdırılmaları haqqında qərar qəbul etmişdir.

1920-ci ildə rus dilində çap edilən "Azərbaycan Respublikasının ünvan-təqvimi"ndə Himayəçilik Nazirliyinin 1918-1919-cu illərdə qaçqınlar probleminin həlli ilə bağlı gördüyü işlər təhlil edilmişdir. Həmçinin "Azərbaycan" qəzetində dərc edilən materiallardan istifadə edilməklə tərtib olunan həmin hesabatda qeyd edilir ki, 1919-cu ildə qaçqınlar, kimsəsizlər və qocalar üçün Suraxanı, Ramana, Maştağa, Bülbülə, Ermənikənd və Bayılda yeməkxanalar açılmışdı. Ümumiyyətlə, 1919-cu ildə bu cür yeməkxanaların sayı 17-yə çatdırılmış, 2 ərzaq paylanması məntəqəsi, 5 çayxana fəaliyyət göstərmişdi.

Himayəçilik Nazirliyində 1919-cu ilin yanvarından etibarən yeməkxanalarda pulsuz yemək yeyən əhalinin milliyyətinə görə hesabatı aparılmışdı. Həmin vaxtdan oktyabrın 1-dək ermənilər 428.214, ruslar 319.019, müsəlmanlar 300.936, almanlar və polyaklar 2.847, ləzgilər 296, gürcülər 248, isveçlər 225, yəhudilər 154 dəfə pulsuz yemək yemişdilər. Beləliklə, bir il ərzində Bakı şəhərində aclıq keçirən əhaliyə milliyyətindən asılı olmayaraq ərzaq paylanması məntəqələrindən 10.069.253 manatlıq yardım edilmişdi. Yerli xeyriyyə cəmiyyətlərinin himayəyə götürdükləri yetimxanalara, kimsəsiz uşaqlara qayğını gücləndirmək məqsədilə bu cəmiyyətlərə Himayəçilik Nazirliyi tərəfindən maddi yardımlar edilirdi.

Xeyriyyə cəmiyyətləri bir büroda birləşdikdən sonra Himayəçilik Nazirliyinə müraciət etmişdilər. Nazirlik öz fondundan hər yetim uşağa əvvəlcə 60 manat ayırmış, sonralar isə bu rəqəmi 200 manata çatdırmışdı. Ehtiyacı olanlara yardımlar milliyyətindən asılı olmayaraq bərabər miqdarda edilmişdi. Xeyriyyə cəmiyyətləri və milli şuralar arasında 2.114.501 manat yardım aşağıdakı qaydada bölüşdürülmüşdü: 1. Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinə – 220 yetim uşaq üçün; 2. Erməni Milli Şurasına – 2 yetimxanada 517 nəfər üçün; 3. Rus Xeyriyyə Cəmiyyətinə – 527 nəfərlik yetimxana üçün; 4. "Uşaq evi" cəmiyyətinə – 80 nəfərlik yetimxana üçün; 5. Doqquzuncu sahə komitəsinə – 30 nəfərlik yaşlılar evinə; 6. Yəhudi Xeyriyyə Cəmiyyətinə – qocalar və yoxsullar üçün. Bundan başqa, Nuxa və Ərəş qəzalarından olan erməni qaçqınlarına kömək üçün hökumət tərəfindən görülən tədbirlər haqqında parlamentdəki erməni fraksiyasının sorğusuna himayəçilik naziri belə cavab vermişdi: "Nazirlik tərəfindən teleqraf vasitəsilə Nuxaya 350.000 manat vəsait köçürülmüşdür. Həmin vəsaitdən 48.000 manatı erməni uşaq evlərinə veriləcəkdir".

1920-ci ilin təkcə yanvar ayı ərzində Bakıda sığınacaq tapan qaçqınlara, yoxsul əhaliyə müxtəlif qida məntəqələrindən 103.000 isti xörək verilmişdi. Həmin yeməklərin 30 faizi pulsuz, qalan 70 faizi isə bir nahar üçün əvvəlcə 50 qəpiyə, sonra isə bir manata satılmışdı. Ümumiyyətlə, 1920-ci il ərzində əhaliyə 3.082.000 manat maliyyə yardımı edilmişdi.

❖❖❖

Himayəçilik Nazirliyi Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin vasitəçiliyi ilə Qars vilayətindən didərgin salınmış və Ermənikənddə məskunlaşmış təqribən 700 qaçqının gündəlik çörək ehtiyacı xərclərini öz üzərinə götürmüşdü. Bu məqsədlə 1919-cu ilin noyabrından 1920-ci il yanvarın 1-nə qədər müddətdə 526.195 manat vəsait ayrılmışdı.

1919-cu ildə qaçqın dairələri üzrə mənzərə aşağıdakı kimi olmuşdu:

1. Gəncə dairəsində – qaçqınların sayı 21.098 nəfər, 5 qida məntəqəsi, üç yetimxana, bir xəstəxana açılmış, 18.244 pud taxıl məhsulları paylanmışdı.
2. Şamaxı dairəsində – qaçqınların sayı 26.877 nəfər, 13 qida məntəqəsi, iki yetimxana, bir erməni uşaq evi, bir xəstəxana açılmış, 18.244 pud taxıl məhsulları paylanmışdı.
3. Nuxa dairəsində – qaçqınların sayı 5.100 nəfər, bir qida məntəqəsi, bir müsəlman, 2 erməni uşaq evi açılmış, 2.623 pud taxıl məhsulları paylanmışdı.
4. Qarabağ dairəsində – 20 mindən artıq qaçqına yardım edilmiş, 3 ay ərzində Zəngəzur qaçqınlarına 187.500 manat kredit ayrılmışdı.
5. Lənkəran dairəsində 3.205 nəfərə ərzaq yardımı edilmiş, bir qida məntəqəsi, bir yetimxana açılmış, 4 min puddan artıq taxıl məhsulları paylanmışdı.

1919-cu ildə Gəncə dairə müfəttişinin verdiyi məlumata görə, Gəncədə müsəlman qaçqınlarla yanaşı, 3.928 nəfər erməni (o cümlədən 1.818 nəfər Türkiyə ermənisi), Gədəbəyin Saratovka və Novo-İvanovka kəndlərindən erməni silahlı qüvvələri tərəfindən didərgin salınan 427 nəfər rus qaçqınları sığınacaq tapmışdı. Himayəçilik Nazirliyi, üstəlik, Gəncədə erməni qaçqınları üçün lazaret (hərbi xəstəxana) açmışdı.

1919-cu ilin əvvəlindən etibarən Gürcüstan ərazisindəki Sadaxlı və Sənain stansiyalarında Himayəçilik Nazirliyinin nümayəndəlikləri təsis edilmiş, qaçqınlara ilkin ərzaq və tibbi yardım göstərildikdən sonra Azərbaycan Yollar Nazirliyinin bu məqsədlə Gürcüstan Yollar Nazirliyinin hesabına köçürdüyü vəsait əsasında qaçqınlara pulsuz biletlər verilmiş, sonra Azərbaycana yola salınmışdı. Ümumiyyətlə, 1919-cu il ərzində Ermənistandan və Qars vilayətindən Tiflisə gəlib çatan qaçqınların Azərbaycana yola salınması üçün Azərbaycanın Gürcüstandakı Daimi Nümayəndəliyi Gürcüstan Yollar Nazirliyinə 171 vaqon sifariş vermişdi.

Qeyd etdiyimiz kimi, Himayəçilik Nazirliyinin fəaliyyət istiqamətlərindən biri də xaricdə yaşayan soydaşlarımıza, müsəlman qaçqınlara kömək etməkdən ibarət olmuşdu. AXC hökuməti 1919-cu il iyunun 4-də İrəvandakı diplomatik nümayəndəsi Məhəmməd xan Təkinskiyə tapşırıq vermişdi ki, İrəvan quberniyasının və Qars vilayətinin erməni silahlı qüvvələri tərəfindən dağıdılmış kəndləri, orada öldürülənlərin ad-familiyaları, əsir götürülənlər, oğurlanmış sürülər haqqında statistik rəqəmləri toplayıb Bakıya göndərsin. Azərbaycan hökuməti bu faktları Paris sülh konfransının işində iştirak edən Azərbaycan nümayəndə heyətinə göndərmək istəyirdi. İrəvan Müsəlman Milli Şurası da, öz növbəsində, bu faktlardan böyük dövlətlərin Qafqazdakı missiyalarının başçılarına müraciətində istifadə etmişdi.

❖❖❖

AXC dövründə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qarsda fəaliyyət göstərən şöbəsi əsasında nümayəndəlik açılmışdı. Qarsda yaradılan Cənubi-Qərbi Qafqaz hökuməti 1919-cu ilin yanvarında Azərbaycan hökumətinə müraciət edərək qaçqınların problemini həll etmək üçün maddi yardım və məmurlar istəmişdi. Azərbaycan hökuməti Çıldır, Ağbaba və Ərdəhan nahiyələrinin əhalisinə, İrəvan quberniyasının kəndlərindən qaçıb həmin ərazilərdə sığınacaq tapan qaçqınlara kömək göstərilməsi üçün diplomatik toxunulmazlığı olan bir neçə şəxs vasitəsilə xeyli miqdarda qızıl pul göndərmişdi. Azərbaycandan göndərilən zabitlərdən İsmayıl bəy Yadigarov, Yusif Kənan bəy, İsmayıl Nəzərəliyev yerli müsəlman əhalinin erməni silahlı qüvvələrinə qarşı müqavimət göstərmələri üçün həm də onların hərbi təlimini öz üzərlərinə götürmüşdülər.

Cümhuriyyət parlamenti 1920-ci il yanvarın 5-də və 8-də keçirilən iclaslarında "Qayət dərəcədə möhtac qaçqınların cümhuriyyətin məskun köylərində yerləşdirilməsi. Onların toxumçuluq taxıl tədarükü üçün smetadan xaric Ümuri Xeyriyyə nəzarətinə 21.000.000 rubla buraxılması haqqında qanun layihəsi"ni müzakirə etmişdir. "Azərbaycan" qəzetinin 13 yanvar tarixli nömrəsində həmin iclasların stenoqramı dərc edilmişdir. Məruzəçi Mustafa Vəkilov bildirmişdir ki, Azərbaycanda 300 mindən ziyadə qaçqın var və onların hamısı Ermənistandan qaçıb gələnlərdir. O, həmçinin Borçalı və Qazax qəzalarında 160 min qaçqının toplandığını və onların oradan Ərəş və Nuxa qəzalarında yerləşdirilmək istənildiyini bildirmişdir. Sonuncu iclasda qanun layihəsi təsdiq edilmişdir.

Himayəçilik Nazirliyinin Ermənistandakı nümayəndəsinin verdiyi məlumatlar əsasında nazirlik Ermənistandakı əhaliyə yardım göstərilməsi üçün AXC parlamentinə qərar layihəsi təqdim etmişdi. 1919-cu ilin iyulunda bu məqsədlə (3 milyon manat) vəsait ayrılmış və bu vəsait hesabına Ermənistana 15 vaqon un, taxıl və arpa göndərilmişdi. Bundan əlavə, 1919-cu il sentyabrın 1-dən etibarən İrəvanda müsəlmanlar üçün ambulatoriya açılmış, orada 85 nəfərlik uşaq evi təşkil edilmişdi. Sonralar bu uşaq evi Amerikanın Uşaqlara Yardım Komitəsinin sərəncamına verilmişdi. Ermənistandan və Qars vilayətindən qaçqın düşən müsəlmanlara yardım göstərilməsi üçün onların keçdiyi yolların üzərində səyyar qida məntəqələri (pulsuz yeməkxanalar) açılmışdı. Himayəçilik Nazirliyinin göstərişi ilə belə qida məntəqələri Aşağı Saral stansiyasında və Tiflis yaxınlığında da açılmışdı.

❖❖❖

AXC parlamentinin 5 yanvar 1920-ci il tarixli iclasında qaçqınların məskunlaşdırılması məsələsi yenidən müzakirəyə çıxarılmışdı. Millət vəkili Mustafa Vəkilov öz məruzəsində bildirmişdi ki, artıq Ermənistandan 300 min qaçqın Azərbaycan ərazisinə gəlmişdir. O, Himayəçilik Nazirliyinin həmin vaxtadək məskunlaşdırılmayan qaçqınlardan 16 min nəfərini Nuxa və Ərəş qəzalarında məskunlaşdırmaq istədiyini bildirmişdi.

Yuxarıda sadalanan faktlardan göründüyü kimi, AXC dövründə parlament və hökumət, xüsusən də Himayəçilik Nazirliyi qaçqınlar probleminin həllinə xüsusi diqqət yetirmiş, bu problemi mütərəqqi yollarla, milli ayrı-seçkiliyə yol vermədən həll etməyə çalışmışdı. Lakin problemin həllinə nə hökumətin kifayət qədər imkanı, nə də ki, onu axıradək həll etmək üçün vax-

tı çatdı. Azərbaycanlı qaçqınların öz əzəli torpaqlarına qayıtması problemi AXC hökumətindən sovet Azərbaycanı hökumətinə miras qaldı. Təəssüf ki, bu problem Azərbaycanda sovet hakimiyyəti dövründə də ədalətlə həll edilmədi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə və müasir Azərbaycan Respublikası dövründə milli-ərazi münaqişələri və qaçqınlar probleminin müqayisəli təhlili istər tarixdən nəticə çıxarılması, istərsə də qaçqınlar probleminin tarixşünaslığı baxımından geniş elmi araşdırmalar dövriyyəsinə cəlb edilməsi vacib məsələdir.

❖❖❖

İstər XX əsrin əvvəllərində, istərsə də sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa edən zaman qaçqınlar problemi əsas məsələ kimi qarşıya çıxmışdır. Hər iki dövrdə də bu problemin yaranmasının səbəbi Ermənistanın azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi etnik təmizləmə və işğalçılıq siyasəti olmuşdur. Tarixi şəraitin verdiyi fürsətdən istifadə edən sovet Ermənistanının 1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətini ilhaq etmək siyasəti əvvəlcə orada yaşayan azərbaycanlıların tarixi-etnik torpaqlarından deportasiyası, sonrakı mərhələdə isə Dağlıq Qarabağın və ətraf rayonların işğalı ilə nəticələndi. XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan artıq azərbaycanlı əhali qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu insanlar ölkə ərazisinin 62 şəhər və rayonunda, 1.600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti yaşamaq məcburiyyətində qalmışlar.

İstər dövlət müstəqilliyinə qovuşma ərəfəsində, istərsə də müstəqilliyin ilk illərində qaçqın və məcburi köçkünlər probleminin həllinə hakimiyyət orqanları tərəfindən kompleks yanaşma yox idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev yenidən hakimiyyətə qayıdan zaman ölkədə mürəkkəb şərait hökm sürürdü.

Ümummilli lider Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün məsələyə kompleks yanaşılması, mühüm daxili və xarici siyasət amillərinin nəzərə alınması siyasətini yürütdü. Bunun üçün öncə ölkədə ictimai-siyasi sabitliyi təmin etmək, nizami ordu yaratmaq, dağılmış iqtisadiyyatı bərpa etmək və köklü idarəçilik islahatları həyata keçirmək, xalqı azərbaycançılıq ideologiyası ətrafında birləşdirilmək lazım gəlirdi. Lakin ölkənin iqtisadi və maliyyə vəziyyətinin ağır olması qaçqınlar və məcburi köçkünlərin sosial problemlərini həll etməyə imkan vermirdi.

Milli Məclisin orqanı "Azərbaycan" qəzeti nəşr edildiyi gündən qaçqın və məcburi köçkünlərlə bağlı rəsmi materiallar dərc etməklə yanaşı, Ermənistanın hərbi təcavüzünün nəticələri, çadır düşərgələrində, ictimai obyektlərdə sığınacaq tapan qaçqınların vəziyyəti barədə mütəmadi olaraq müəllif yazıları da dərc edir. "Azərbaycan" qəzetində bu mövzu ilə bağlı çıxan məqalələri dövrün salnaməsi hesab etmək olar. Qəzeti vərəqlədikcə ölkənin necə ağrılı-acılı günlər yaşadığı, hansı faciələrdən keçib bu günlərə çatdığı göz önündə sərgilənir.

❖❖❖

Qaçqın və məcburi köçkünlərin faciəsini Heydər Əliyevin öz şəxsi faciəsi kimi qəbul etdiyini qəzetdə dərc edilən materiallardan hiss etmək olur. 1993-cü il iyulun 25-də ölkənin vətəndaş müharibəsinə sürükləndiyi, bölgələrdə separatizmin baş qaldırdığı dövrdə Azərbaycan

Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən ulu öndər Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində bölgədə yaranmış vəziyyətlə əlaqədar Bərdəyə səfər etmiş, məcburi köçkünlərlə görüşmüş, onların vəziyyətinin yüngülləşdirilməsi məqsədilə operativ müşavirə keçirmişdi. Həmin müşavirə qəzetdə tam genişliyi ilə öz əksini tapmışdı. Sonda ümummilli lider demişdi: "Xalqımız mütləq birləşməli, səfərbər olmalı, özünün vətənpərvərlik hislərini geniş nümayiş etdirməli, torpaqlarımızı düşməndən azad etməlidir. Bu, hər bir azərbaycanlının borcudur. Mən sizi, Azərbaycan xalqını bu müqəddəs borcu yerinə yetirməyə çağırıram".

Məhz xalqımızın Heydər Əliyevin ətrafında səfərbər olması, ölkədə sabitliyin bərqərar edilməsi sayəsində qaçqın və məcburi köçkünlərin probleminin kompleks şəkildə həllinə start verildi.

Ümummilli lider 11-12 dekabr 1993-cü ildə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış vəziyyətlə tanış olmaq üçün İmişli, Füzuli, Beyləqan və Şəmkir rayonlarında olmuş, yığıncaqlarda iştirak etmişdir. Ağcabədi və Gəncədə qaçqınların vəziyyətinə həsr olunmuş xüsusi müşavirələr keçirmişdi.

"Azərbaycan" qəzetini vərəqlədikcə dövrün ab-havasını, yaşantılarını, addım-addım irəliyə doğru yerişini, uğurlarını xatırlayırsan... Ümummilli liderin memarı olduğu neft strategiyasının reallaşdırılmasına başlanılması, "Əsrin müqaviləsi"nin, Ermənistanla atəşkəs sazişinin imzalanması qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin tədricən yaxşılaşdırılmasına təkan verdi. Onların statusu, sosial müdafiəsi, iş və yaşayış yerləri ilə təmin olunması ilə bağlı müvafiq hüquqi aktlar qəbul edildi, həyat şəraitinin yaxşılaşdırılması üçün müxtəlif növlü güzəştlər tətbiq edildi.

1995-ci ildə bu problemlərlə daha da ciddi məşğul olmaq üçün Nazirlər Kabinetində xüsusi vəzifə – Baş nazirin müavini vəzifəsi təsis edildi və qaçqınların, məcburi köçkünlərin problemi ilə əlaqədar hökumət komissiyası yaradıldı.

Heydər Əliyev Azərbaycana səfərə gələn dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri ilə görüşdən sonra, bir qayda olaraq, qonaqları Bakı şəhərində qaçqın və məcburi köçkünlərin müvəqqəti sığınacaq tapdıqları yerlərə baxmağa dəvət edir, bununla da Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranan humanitar fəlakəti əyani şəkildə göstərirdi.

"Azərbaycan" qəzetində oxuyuruq: "1998-ci il iyun ayının 27-də Heydər Əliyevin sədrliyi ilə Respublika sarayında qaçqın və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş ümumrespublika müşavirəsi keçirildi. Müşavirədəki nitqində ümummilli lider dedi: "Bu gün sizə bir daha bəyan etmək istəyirəm ki, bu, Azərbaycan dövlətinin, hökumətinin və şəxsən Azərbaycanın dövlət başçısı, Prezidenti kimi mənim qarşımda duran ən əsas vəzifədir və daim – hər gün, hər saat mənim diqqət mərkəzimdədir... Mən xarici ölkələrdən gələn dövlət başçılarını, hökumət üzvlərini, elm, mədəniyyət xadimlərini, çalışıram ki, qaçqınların yaşadıqları yerlərə, çadır şəhərciklərinə göndərim. Nə üçün? Bəzən onların vaxtı olmur. Ancaq mən xahiş edirəm və buna nail oluram. Ona görə ki, görsünlər. Görməyəndə təsəvvür edə bilmirlər ki, insan altı il çadırda, vaqonun içində, vaqonun altında yaşaya bilər, – bunu təsəvvür edə bilmirlər".

Heydər Əliyevin bu humanitar fəlakət probleminin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində gördüyü işlər sayəsində 1993-2002-ci illərdə ayrı-ayrı dövlətlər, maliyyə qurumları, beynəlxalq humanitar təşkilatlar tərəfindən qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə müxtəlif layihələr üzrə 640 milyon ABŞ dollarından çox həcmdə humanitar yardım göstərilmişdi.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 17 sentyabr tarixli sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramı təsdiq edilmişdi. Dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan qaçqın və məcburi köçkün ailələrindən olan tələbələr təhsil haqqını ödəməkdən azad edilmişdilər.

Prezident Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli fərmanı əsasında Dövlət Neft Fondu təsis olunmuşdu. Neft fondunda toplanan ilk vəsaitin 72 milyon dolları Ermənistandan qaçqın düşmüş soydaşlarımızın məskunlaşması və Biləsuvarda çox ağır vəziyyətdə olan, Füzuli, Cəbrayıl və bir neçə rayondan köçüb çadırlarda yaşayanların şəraitinin yaxşılaşdırılması üçün ayrılmışdı.

"Azərbaycan" qəzetində əksini tapan bir görüşü xüsusi vurğulamaq istəyirəm. Ümummilli lider Heydər Əliyev 13 sentyabr 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistan Respublikasından olan qaçqınlar və Xocalıdan olan məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində iştirak etmişdi. Bu, Heydər Əliyevin qaçqınlar və məcburi köçkünlərlə son görüşü idi. Həmin görüşdə ümummilli lider demişdi: "Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm. Ancaq indi sizə bu şəraiti yaratmaq mümkün olub, mən də bunu yaratmışam".

Həmin görüşdə Heydər Əliyev bir arzusunu da dilə gətirmişdi: "Avtomobillə gələndə yuxarıdan baxdım. Fikirləşdim ki, bəlkə mən də buradan bir ev götürüm, hərdənbir istirahətə gəlim. Çünki evlər xoşuma gəldi. Özü də buranın təbiəti çox gözəldir..." Heydər Əliyev qaçqınların və məcburi köçkünlərin dərdini öz dərdi hesab edir, onların vəziyyətinin yüngülləşdiyini görəndə özünü xoşbəxt hesab edir, sevincini də onlarla bölüşmək istəyirdi. Lakin çəkdiyi yükün ağırlığına ürək tab gətirmədi. Ancaq bu problemin həlli üçün nə mümkündürsə, onu elədi!



❖❖❖

2001-2002-ci illərdə Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına 6.411 fərdi yaşayış evi, 3.150 yerlik 18 məktəb, 18 uşaq bağçası, 16 tibb məntəqəsi tikilib istifadəyə verildi, Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi ləğv edildi, 1.329 qaçqın və 5.081 məcburi köçkün ailəsinin 32 min nəfərinin mənzil-məişət şəraiti yaxşılaşdırıldı.

Ümumiyyətlə, Heydər Əliyevin dövlət başçısı olduğu dövrdə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı 43 fərman və sərəncam imzalanmış, Milli Məclis 23 qanun, Nazirlər Kabineti isə 192 qərar və sərəncam qəbul etmişdir.

Qaçqınların və məcburi köçkünlərin problemlərinin birdəfəlik və tamamilə həlli Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasından keçir. Bu məqsədlə Heydər Əliyev Ermənistan prezidentləri ilə müxtəlif formatlarda, ayrı-ayrı dövlətlərdə 45 dəfə görüşmüşdür. Bu görüşlərin 18-i LevonTer-Petrosyanla, 27-si isə Robert Koçaryanla baş tutmuşdur. Bütün bunlar "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapmışdır.

❖❖❖

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu proqram Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək bu gün daha geniş miqyasda və hərtərəfli, sistemli və ardıcıl şəkildə həyata keçirilməkdədir.

2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində Baş nazir, prezidentliyə namizəd İlham Əliyev Biləsuvar rayonunda məcburi köçkünlər üçün yeni inşa edilmiş qəsəbənin açılışında iştirak etmiş, Heydər Əliyev siyasi xəttinin davam etdiriləcəyini, qaçqınların və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində olacağını bəyan etmişdi.

Prezident İlham Əliyev ilk xarici səfərində – 2003-cü il dekabrın 11-də Cenevrədə BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarlığının iqamətgahında bu qurumun rəhbəri ilə görüşmüş, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yurdundan didərgin düşmüş bir milyondan artıq soydaşımızın ağır vəziyyətinin, yaşayışının yüngülləşdirilməsi üçün hökumətin gördüyü tədbirlər haqqında ətraflı məlumat vermişdir.

1 iyul 2004-cü ildə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

2007-ci ildə məcburi köçkünlərin olduqca ağır şəraitdə yaşadıqları 12 çadır və 3 dəmir yolu üzərindəki yük vaqonlarından ibarət düşərgə, 2016-cı ildə isə fin tipli evlərdən ibarət 16 qəsəbədən sonuncusu ləğv olunub və orada müvəqqəti məskunlaşmış məcburi köçkün ailələr yeni salınmış qəsəbələrə köçürülmüşdür. Qaçqın və məcburi köçkünlər üçün indiyədək ümumilikdə 3,3 milyon kvadratmetr yaşayış sahəsi olan 100-dək müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb.

Yeni qəsəbələrdə insanların rahat yaşaması üçün bütün zəruri infrastruktur da yaradılıb: 153 məktəb, 59 mədəniyyət, 60 səhiyyə müəssisəsi, 61 uşaq bağçası, 2 olimpiya idman kompleksi tikilib. 745 kilometr yol, 985 kilometr su, 1.720 kilometr elektrik, 487 kilometr qaz xətti çəkilib. İndiyədək 52 min 300 ailə və ya 265 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 24 ildə 6,6 milyard manat vəsait sərf olunmuşdur. Ondan 3,1 milyard manat dövlət büdcəsinin, 2,1 milyard manat

Dövlət Neft Fondunun, 1,4 milyard manat isə beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitidir.

Sahibkarlığın inkişafı məqsədilə Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min nəfər məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə 2.074 nəfər məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib və xeyli əlavə iş yerləri yaradılıb. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı – əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 14 ildə 75 faizdən 12 faizədək azalıb, 2017-ci ildə hər məcburi köçkünə 785 manat vəsait sərf olunub.

"Azərbaycan"dakı məqalələri oxuduqca görürsən ki, qəzetin yazarları bu gün ölkədə baş verən köklü inkişaf proseslərinin yanındadır, günümüzün salnaməsini yaratmaqla öz tarixi missiyalarını yerinə yetirirlər. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

❖❖❖

2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində İlham Əliyev Biləsuvar rayonunda məcburi köçkünlərlə görüşü zamanı bir arzusunu dilə gətirmişdi, hansı ki, o arzu artıq çin olmuşdur. İlham Əliyev demişdi: "Bu gün buraya gələndə bir ailəyə qonaq oldum. Məni çox mehriban qarşıladılar. Mənim bir arzum var ki, – hesab edirəm, bu, hamının arzusudur, – Cəbrayıla qonaq gəlim. Cəbrayıl işğaldan azad olandan sonra sizin üçün bundan da gözəl evlər tikəcəyik. Və mən də gəlib sizin qonağınız olacağam".

Bu gün dövlət başçısının arzusu Cocuq Mərcanlının timsalında qismən gerçəkləşib. 2016-cı ilin aprel ayında ordumuzun strateji Lələtəpə yüksəkliyini qaytarması torpaqlarımızın azad ediləcəyinə inamı daha da artırıb. Prezident İlham Əliyevin "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" 2017-ci il 24 yanvar tarixli sərəncamına əsasən ayrılmış 4 milyon manat vəsait hesabına kənddə birinci mərhələdə 50 evin, 96 şagird yerlik məktəbin və infrastrukturun tikintisi həyata keçirildi. Əlavə ayrılmış 4,3 milyon manat vəsait hesabına isə Cocuq Mərcanlıya gedən 9 km uzunluğunda yol çəkildi. Cocuq Mərcanlı kəndində Şuşadakı Yuxarı Gövhər ağa məscidinin bənzəri olan məscid tikildi. 2017-ci il iyunun 14-də dövlət başçısı bərpa edilmiş Cocuq Mərcanlı kəndinin açılış mərasimində iştirak etdi. Prezident 2017-ci il iyunun 15-də "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında" daha bir sərəncam imzaladı. Sərəncama əsasən ikinci mərhələdə 100 fərdi yaşayış evinin, uşaq bağçasının, klub, icma mərkəzinin, həkim və poçt məntəqələrinin, digər zəruri sosial və infrastruktur obyektlərinin tikintisi məqsədilə 9 milyon manat ayrıldı. Bu işlər qısa zaman ərzində başa çatdırıldı.

Birinci vitse-prezident təyin edildikdən sonra Mehriban xanım Əliyevanın ilk müşavirəni məcburi köçkünlərin problemlərinə həsr etməsi bu sahədə mövcud problemlərin kompleks şəkildə həllinə yeni təkan vermişdir.

Prezident İlham Əliyev indiyədək məcburi köçkünlərlə yeni salınmış qəsəbələrdə 34 dəfə görüş keçirmişdir. Ölkə Prezidenti tərəfindən 110 fərman və sərəncam imzalanıb, Milli Məc-

lis 34 qanun, Nazirlər Kabineti isə 381 qərar və sərəncam qəbul edib. Dövlət başçısının uğurlu siyasəti nəticəsində Azərbaycan 2016-cı ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin tamhüquqlu üzvü seçilib.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün Prezident İlham Əliyev Ermənistanın sabiq prezidentləri ilə 31 görüş keçirmişdir. Ermənistan rəhbərlərinin mövcud status-kvonu qoruyub saxlamaq limiti artıq tükənmişdir.

"Azərbaycan" qəzetində dərc edilən "Onlar doğma yurda dönəcəklərinə inanırlar", "Lələtəpədən Xankəndiyə doğru!", "Böyük Qayıdışın böyük başlanğıcı", "Aprel şapalağı", "Böyük qələbənin parolu" və s. kimi məqalələri oxuduqda torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə, məcburi köçkünlərin öz doğma yurdlarına dönəcəklərinə inamımız daha da güclənir.

❖❖❖

Azərbaycan dövlətinin başçısının yeritdiyi balanslaşdırılmış xarici siyasət, ölkə iqtisadiyyatının gündən-günə güclənməsi, ordumuzun hərbi potensialının qat-qat artırılması sayəsində dövlətimizin ərazi bütövlüyü bərpa ediləcəkdir. O gün uzaqda deyil.

"Azərbaycan" qəzeti də peşəkar səviyyəsi, sözünün sanbalı, operativliyi, obyektivliyinə görə lider mövqeyini daim qoruyub saxlayacaqdır.



**Habil HƏMİDOV,**
*AMEA Fəlsəfə İnstitutunun Müasir siyasətin fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə doktoru*

# Dövrün salnaməsi

*100 il öncə millət fədailərinin yaratdıqları "Azərbaycan" qəzetinin fəaliyyətinə siyasi-tarixi baxış*

**Tarixi hadisələrin düzgün işıqlandırılması və araşdırılması problemi bəşəriyyəti düşündürən vacib məsələlərdəndir. İlk baxışdan sadə görünən bu faktın, yəni hər bir dövlətin müəyyən zaman kəsiyində mövcudluğu, əslində, onun ümumi tarixinin mühüm qollarından biridir desək, səhv etmərik. Bu mənada Şərqdə ilk demokratik respublika olan Azərbaycanda dövlət quruculuğu prosesindən, aparılan daxili və xarici siyasətdən, tarixi faciələrdən, soyqırımlarından, deportasiyalardan hələ də gənc nəslin, eləcə də ictimaiyyətin lazımi səviyyədə məlumatı yoxdur. Bugünün ziyalıları, alimləri tarixi faciələrimizi yazmaq, təfsilatı ilə gələcək nəsillərə, dünya ictimaiyyətinə çatdırmaq üçün öz vətəndaşlıq borclarını yerinə yetirməlidirlər.**

Qürur hissi ilə deyə bilərik ki, 1918-1920-ci illərdə bu şərəfli missiyanı "Azərbaycan" qəzeti çox ləyaqətlə yerinə yetirmişdir. Yəni müxtəlif ideyaların və fikir ayrılıqlarının mövcudluğu, xaos vəziyyətinə gətirilən bir cəmiyyətdə mətbuata təpkilərin göstərildiyi zamanda hadisələrin real şəkildə işıqlandırılması yazarlardan xüsusi cəsarət tələb edirdi. Məhz həmin dövrdə "Azərbaycan" qəzeti heç nədən çəkinmədən dövlət quruculuğu, siyasət, milli özünüdərk, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı prosesi və s. məsələlərin aynasına çevrilmişdi.

Məhz bu mətbuat orqanı Azərbaycan Xalq Cümhuriyyətinin dünya dövlətləri tərəfindən müstəqil ölkə kimi tanınmasına çalışan rəsmilərinin xarici əlaqələrin qurulmasını zəruri edən siyasət prioritetlərini dərc etməklə xalqın maarifləndirilməsində fəal rol oynayırdı. Məsələn, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın hüquqi cəhətdən tanınmasına göstərilən cəhdlərdən biri haqqında 1918-ci ilin dekabrında "Azərbaycan" qəzeti yazırdı ki, "...hazırda Avropa və Amerika qədər Azərbaycanın maraq-

larını müdafiə edə biləcək elə bir qüvvə yoxdur" *("Azərbaycan" qəzeti, 21 dekabr 1918-ci il).* Bu məqsədlə də həmin dövrdə vaxt itirmədən çoxpartiyalılıq əsasında Parisə gedəcək nümayəndə heyətinin tərkibi müəyyənləşdirildi. Onların əsas məqsədi Azərbaycan Respublikasının dünyəvi dövlət olduğunu bütün ölkələrə çatdırmaq idi.

"Azərbaycan" qəzeti, eyni zamanda, xalq cümhuriyyətinin digər rəsmi xəbərlərini də dərc edirdi. Onun 26 dekabr 1918-ci il tarixli sayında Azərbaycan hökuməti tərkibinin rəsmi şəkildə təsdiqləndiyi və fəaliyyət müddətinin müəyyənləşdirildiyi üçüncü kabinə haqqında dəqiq məlumat verilir. "Üçüncü kabinə; 26.12.1918-14.03.1919. Nazirlər Şurasının sədri və xarici işlər naziri – F.Xoyski (bitərəf), daxili işlər naziri – X.Xasməmmədov, maliyyə naziri – İ.Protasov (Slavyan-Rus Cəmiyyəti), yollar naziri – X.Məlikaslanov (bitərəf), ədliyyə naziri – T.Makinski, maarif və dini etiqad naziri – N.Yusifbəyli ("Müsavat"), poçt-teleqraf və əmək naziri – Ə.Səfikürdski (sosialist), hərbi nazir – S.Mehmandarov (bitərəf), sosial-təminat naziri – R.Xoyski (bitərəf), xalq səhiyyə naziri – Y.Gindes (Slavyan–Rus Cəmiyyəti), ticarət və sənaye naziri – M.Əsədullayev (bitərəf), ərzaq naziri – K.Lizqar (Slavyan-Rus Cəmiyyəti), əkinçilik naziri – X.Sultanov ("Müsavat")" və b. Təqdim olunan siyahıya diqqət yetirdikdə cümhuriyyətin nə qədər humanist prinsiplər əsasında qurulduğu aydın görünür. Yəni milli tərkib və partiya mənsubiyyətindəki demokratik yanaşma fikrimizin təsdiqinə heç bir şübhə yaratmır.

Xüsusi vurğulanmalıdır ki, "Azərbaycan" qəzetinin ən böyük xidmətlərindən biri də o dövrdə ordu və daxili işlər orqanlarının formalaşması, onların ölkədəki ictimai-siyasi sabitliyi qoruması və dövlət əleyhinə planlaşdırılan təxribatların, terrorçuluğun qarşısını almağa yönələn dönməz mübarizəsinin səhifələrində işıqlandırılması ilə bağlıdır. Qəzet Azərbaycanın bugünü və gələcəyi üçün həyati əhəmiyyət kəsb edən məsələləri elə bir oxunaqlı tərzdə təqdim edirdi ki, o, ictimaiyyətin maarifləndirilməsində mühüm vasitələrdən birinə çevrilirdi.

Həqiqətən, qısa müddət ərzində ordunun, xüsusi xidmət və təhlükəsizlik, daxili işlər orqanlarının həmin dövr üçün məqbul inkişaf səviyyəsinə cavab verən formada yaradılması yorulmaz xidmət tələb edən problem idi. Önəmli o idi ki, 23 ay ərzində mövcud olan hökumət dövlətin qorunub saxlanmasında, xarici təcavüzlərin, təxribatların və digər müdaxilələrin qarşısının alınmasında mühüm strateji əhəmiyyət kəsb edən bu qurumları yaratdı.

Dövlət quruculuğunun ən zəruri strategiyasını təşkil edən məsələlərdən biri kimi ordunun yaradılmasının və formalaşdırılmasının təxirəsalınmazlığı həmin dövrün real vəziyyətinin təsvirində daha aydın görünürdü. Bu barədə "Azərbaycan" qəzetinin 1918-ci il 11–25 sentyabr tarixli nömrəsində yazılırdı ki, Bakı şəhərinin əllərindən çıxması ilə barışa bilməyən erməni-daşnak elementləri evləri yandırır, qarşılarına çıxan azərbaycanlıları öldürür, talanlar törədirdilər. Bu isə həm azərbaycanlı əhalidə, həm də şəhərə girmiş azərbaycanlı döyüşçülərdə əks-reaksiya yaradırdı. Kütləvi anarxiyaya çevrilə biləcək bu hərəkətlərin qarşısının alınması üçün Qafqaz İslam Ordusunun Komandanlığı tərəfindən qalibiyyətli tədbirlər həyata keçirilirdi. Soyğunçuluqda, talanlarda, digər cinayət əməllərində təqsirləndirilən 100-dən çox adam güllələndi və dar ağacından asıldı. Görülən sərt tədbirlər nəticəsində tezliklə şəhərdə sakitlik bərpa olundu *("Azerbaydjan", 25.09.1918).*

Daşnakların fəaliyyət planına uyğun cəhdlərinin əks olunduğu "Azərbaycan"ın 11-21 oktyabr 1918-ci il nömrələrində isə qeyd olunurdu ki, Erməni Milli Şurasının fəallarından təşkil edilən oyuncaq qurumun bütün fəaliyyəti azərbaycanlıların fiziki məhvinə, onların ata-baba məskənlərindən sıxışdırılıb çıxarılmasına istiqamətlənmişdi. Erməni millətçiləri azərbay-

canlıları məcbur etmək istəyirdilər ki, Qarabağı Azərbaycandan ayrı qurum kimi tanısınlar. Bu məqsədə nail olmaq üçün onlar silahlı dəstələr yaradıb azərbaycanlıları təcrid etməyə çalışırdılar. Əsgərana, Ağdama və Qaryaginə gedən yollar kəsilməklə azərbaycanlıların Aran Qarabağla əlaqələrinin qarşısına çəpər çəkilmişdi. Erməni millətçiləri planlaşdırmışdılar ki, payızın və qışın gəlməsi və yaşayışın çətinləşməsi, ehtiyacların artması ilə bağlı azərbaycanlılara təzyiqi gücləndirsinlər və onlar Qarabağ erməni qurumunu tanımaq məcburiyyətində qalsınlar.

"Azərbaycan" qəzetinin elə həmin ilin oktyabr ayında nəşr olunan bir neçə sayında ermənilərin Qarabağdakı separatçı hərəkətləri dəqiq şəkildə ictimaiyyətin diqqətinə çatdırılırdı. Bu məqalələrdə vurğulanırdı ki, çətin şəraitdə yaşayan Azərbaycan hökumətinin kömək və yardımından uzaq düşən Qarabağ azərbaycanlıları erməni millətçilərinin təcavüzlərinə, təzyiqlərinə mərdliklə sinə gərir və hətta bu təzyiqlərin qarşısını almaq, özlərinin dinc yaşayışlarını qorumaq üçün qətiyyətli tədbirlərə də əl atırdılar. Şuşada azərbaycanlılardan ibarət könüllü müdafiə dəstəsi yaradılmışdı *("Azerbaydjan" 25.09.1918).*

Əsas mənbə kimi seçdiyimiz "Azərbaycan" qəzetinin sonrakı saylarında da hadisələrin necə cərəyan etdiyi canlı şəkildə təsvir olunur.

İstər Azərbaycan, istərsə də rus dillərində nəşr olunan qəzetlərdə Bakı şəhərinin azad olunması ilə bağlı maraqlı məlumatlar öz əksini tapmışdır. Yəni şəhərin erməni terrorundan azad edilməsində həyata keçirilən bəzi tədbirlərin müsbət nəticə verdiyi belə əsaslandırılırdı ki, "Azərbaycan hökumətinin Bakıya köçməsi və dövlət işlərinin nizamlanmasına başlandığı bir vaxtda ordunun təkmilləşdirilməsi və möhkəmləndirilməsi üçün daha müsaid bir zəmin yarandı. 1918-ci il oktyabr ayının 6-da müəyyən dəyişikliklərdən sonra hökumətin tərkibində Hərbi işlər üzrə Baş Müvəkkillik öz fəaliyyətini yenə də davam etdirirdi. Bu orqanın dəftərxanası "Metropol" mehmanxanasında yerləşdirilmişdi..."

Qəzet yazırdı ki, diqqət mərkəzində olan başlıca məsələlərdən biri də çağırış və səfərbərliklə bağlı idi. Bu iş Qafqaz İslam Ordusunun Əxzi-əsgər rəyasətinin nəzarəti altında aparılırdı. Bəzi hallarda xalqın milli xüsusiyyətlərini, dövrün və şəraitin tələblərini, ümumvətəndaşlıq borclarını nəzərə almadan aparılan bu iş müəyyən nöqsan və çatışmazlıqlarla müşayiət olunsa da, qoşun hissələrinin komplektləşdirilməsindən hiss olunacaq addımlar da atılmışdı. Bakının azad edilməsi, türk-Azərbaycan qoşunlarının müzəffər yürüşləri gənclərin müəyyən qismində vətənpərvərlik hislərini xeyli coşdurmuşdu və onlar könüllü surətdə xidmətə yazılırdılar. Qafqaz İslam Ordusunun Əxzi-əsgər rəyasəti bununla bağlı hətta qəzetə məlumat vermiş və xidmətə yollanmaq üçün kənd və şəhərlərdə müvafiq orqanlara müraciət edənlərin artmasından məmnun olduğunu bildirmişdi *("Azərbaycan", 20.10.1918).*

Həmin dövrün strateji tələbi kimi qoşun hissələrində xüsusi peşələrə olan ehtiyacı ödəmək üçün 19 yaşından 24 yaşına kimi olan bütün çəkməçilər, nəccarlar, dülgərlər, dəmirçilər, xarratlar, nalbəndlər, bərbərlər, dənizçilər və b. məcburi surətdə xidmətə cəlb olunurdular. Bu və ya digər peşələrə sahib olan 25-30 yaş arasındakı vətəndaşlar isə könüllü surətdə xidmətə yazıla bilərdilər *("Azerbaydjan", 23.10.1918).*

AXC-nin dünyəvi dövlətin təməl prinsipləri üzərində qurulmasının təsdiqini verən daha bir dövlət sənədi yenə də "Azərbaycan" qəzetində öz əksini tapmışdır. Qəzet yazır ki, Azərbaycanda hərbi çağırışın hüquqi əsaslarının müəyyənləşdirilməsi üçün 1918-ci il oktyabr ayının 11-də "Azərbaycan hökumətinin əsgəri mükəlləfiyyətinin müvəqqəti qanunu" qüvvəyə

mindi. Bu qanun Azərbaycan hökumətinin hərbi qanunvericilik sahəsində qəbul etdiyi ilk böyük sənədlərdən biri idi və şübhəsiz ki, həmin dövrdə əhali arasında bu işin nizamlanmasında müəyyən əhəmiyyət kəsb edirdi *(“Azerbaydjan”, 11.10.2018).* Daha sonra vurğulanır ki, Əxzi-əsgər şöbələrinin nəzdində həkim-müayinə komissiyaları da təşkil edilməli idi. Bu komissiya çağırışçıları müayinə etməli, onların xidmətə yararlılığını müəyyənləşdirməli idi. Çağırışçıların hansı qoşun növünə göndərilməsi üçün həkim komissiyasının qərarı nəzərə alınmalı idi. Çağırışçı və ya onun valideynləri həkim komissiyasının qərarı ilə razılaşmadıqda 2 nəfərdən az olmayaraq başqa bir həkim komissiyasının təyin edilməsini müəyyənləşdirmək hüququ da vardı *(“Azerbaydjan”, 11.10.2018).*

Həmin dövrün araşdırmaları göstərdi ki, “Azərbaycan” qəzeti dövlət quruculuğunun əsas təməl prinsiplərindən sayılan ordu quruculuğunda “müstəsna əhəmiyyət kəsb edən hərbi təhsil almaq üçün məktəblərin fəaliyyətini işıqlandırmağı da unutmamışdır. Qəzetin bildirdiyinə görə, 1918-ci ilin oktyabrında Gəncədəki Milli hərbiyyə məktəbinin ilk buraxılışı oldu. Bu hadisə Azərbaycanın ordu hissələrinin milli zabit kadrlarla təmin edilməsində tarixi əhəmiyyətə malik idi. İlk milli hərbi məktəbin birinci buraxılışı təntənəli şəkildə qeyd edildi. Bu münasibətlə oktyabr ayının 26-da Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın atası Hacı Əhməd paşa, Xüsusi Azərbaycan Korpusunun komandiri general-leytenant Ə.Şıxlinski, Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy, təhsil naziri N.Yusifbəyli və başqaları Gəncəyə gəldilər *(“Azerbaydjan”, 07.11.1918).* Bu məktəbdə nəzərdə tutulan tədris müddəti 4 aydan artıq çəkmişdi. Məktəbi müvəffəqiyyətlə bitirənlər buraxılış imtahanları verəcəyi təqdirdə hərbi qoşunlara göndərilməli və 6 aydan sonra onlar zabit rütbəsinə yiyələnməliydilər. Hərbi təhsillə bağlı “Azərbaycan” qəzetinin sonrakı açıqlamaları da maraqlıdır. Bu hissənin xüsusilə hərbi təhsillə bağlılığını nəzərə alaraq diqqətə çatdırmağı zəruri hesab edirik. Mənbədə qeyd olunur ki, 6 oktyabrda yunkerlər şəhər kənarındakı təlim meydanında buraxılış imtahanı verməli idilər. Burada imtahanın keçirilməsi üçün xəndəklər, səngərlər qazılmış, süni maneələr yaradılmış, zəruri olan əşya və cisimlər yerli-yerində sahmana salınmışdı. Səhər tezdən Bakıdan gələn qonaq-



lar təlim meydanına daxil oldular. Məktəbin ilk buraxılışını sevinclə qarşılayan xeyli şəhər əhalisi də bura toplaşmışdı. Azərbaycan Korpusunun komandiri Ə.Şıxlinski nizami sırada düzülmüş yunkerlərlə salamlaşdıqdan sonra buraxılış imtahanı başladı *("Azerbaydjan", 07.11.1918).* Daha sonra qeyd olunur ki, səhər saat 8-də başlayan imtahan günorta saat 2-yə kimi davam etdi. Bütün müdavimlər buraxılış imtahanlarını müvəffəqiyyətlə verdilər. Günortadan sonra şəhər rəhbərliyinin bu münasibətlə təşkil etdiyi ziyafətdə Milli hərbiyyə məktəbinin ilk buraxılışında türk zabitlərinin böyük zəhməti minnətdarlıqla qeyd olundu *("Azerbaydjan", 11.11.1918).*

Sadalanan qurumların yaranmasını zəruri edən amillərin bir neçəsinin adını çəkdik və bunlardan ən başlıcası, konkret tarixi şəraitdə Azərbaycanın istiqlaliyyətinə, onun ərazi bütövlüyünə, ictimai-siyasi sabitliyinə istiqamətlənmiş xarici təhlükələrin qarşısını güclü ordu, xüsusi xidmət və təhlükəsizlik, daxili işlər orqanları olmadan almaq olmazdı.

Göründüyü kimi, bu istiqamətdə islahatlar davam etdirilmiş və mənbələrin verdiyi məlumata görə, Azərbaycan polisinin təşkilində növbəti addım atılmış, yəni 26 dekabr 1918-ci il tarixindən Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini tanınmış ictimai-siyasi xadim Xəlil bəy Xasməmmədov davam etdirmişdir. Burada daha bir önəmli cəhəti qeyd etmək lazımdır ki, polis orqanları hərbi və xüsusi xidmət orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərmişlər.

Araşdırmalardan bəlli oldu ki, 1919-cu ildə də "Azərbaycan" qəzeti özünün prinsipial mövqeyinə sadiq qalaraq fəaliyyətini davam etdirmişdir.

Qəzet özünün 15 sentyabr 1919-cu il tarixli baş məqaləsində Bakı şəhərinin bir il əvvəl azad edilməsi ilə bağlı belə yazırdı: "Əgər mayın 28-ni biz müstəqilliyimizin rəsmi elan edilməsi günü sayırıqsa, sentyabrın 15-də Azərbaycan qoşunlarının və Azərbaycan hökumətinin Bakıya daxil olmasını müstəqilliyin, həqiqətən, əldə edilməsi, dövlətçiliyin başlıca əsaslarının və özülünün qoyulması günü hesab edə bilərik.

Bu gün bolşevik-daşnak qüvvələri tərəfindən təkcə Azərbaycanın və digər Zaqafqaziya respublikalarının müstəqilliyi əleyhinə deyil, həm də Zaqafqaziyanın türk xalqlarının fiziki mövcudluğuna qarşı yönəldilmiş xətərnak təhlükənin ləğv edildiyi gündür" *("Azerbaydjan", 15.09.1919).*

Daha sonra qəzetdə qeyd olunur ki, 1919-cu il sentyabrın 15-də həm Gəncədə, həm də Bakıda daha təntənəli bir parad keçirildi. Bu parad Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edilməsinin 1 illiyinə həsr edlmişdi. Bakıdakı parad bulvarla üzbəüz olan Naberejnıda olmalı və ona praporşiklər məktəbinin komandiri polkovnik R.Şıxlinski komandanlıq etməli idi. "Azerbaydjan" qəzeti qoşun hissələrinin parada gəlməsini belə təsvir edirdi: "Qoşunların qarşısında bir neçə generalın və ordunun yüksək çinlilərinin müşayiətilə at belində igid hərbçi, ordumuzun təşkilatçısı, tam artilleriya generalı Səməd bəy Mehmandarov gedirdi. Onlar şəhərin Şamaxı küçəsinə daxil olanda çoxsaylı publikanın gurultulu alqışları qopdu... Qoşunlar keçən küçələr adamla dolu idi. Hətta evlərin damları da "Yaşasın Azərbaycan", "Yaşasın bizim əsgərlər" şüarları qışqıran qadın və uşaqlarla tutulmuşdu" *("Azerbaydjan", 17.09.1919).*

Təcavüzkar ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları da "Azərbaycan" qəzetinin diqqətindən yayınmamışdır. Bu barədə qəzet 8, 12 fevral 1919-cu il tarixli saylarında yazırdı ki, Andronikin rəhbərliyi altında erməni quldur dəstələri Krasnoselo rayonunun bir sıra müsəlman kəndlərini – Gölkənd, Toxluca, Şorca, Ardanış və s. kəndlərdə misli görünmə-

yən vəhşiliklər törətmişlər. ...Andronikin quldur dəstəsi Şorca kəndinə hücum edərkən qaçmağa imkanı olmayan hamilə qadınları, qocaları, əlilləri, xəstələri yerindəcə güllələmiş, min bir işgəncə ilə öldürmüşdür. Bu vəhşilər uşaqları süngülərə taxıb gəzdirirmişlər.

Mənbələr göstərir ki, eyni vəziyyət Şamaxı kəndlərinin də başına gətirilmişdir. "Azərbaycan" qəzetinin 21 oktyabr 1918-ci il tarixli sayında bu barədə real faktlara əsaslanaraq qeyd olunur ki, bütövlükdə Şamaxı və onun ətraf kəndlərində 8 min nəfərə yaxın azərbaycanlı soyqırımına məruz qalmışdır. Şəhərin 58 kəndi xarabazara çevrilmişdir. Daha sonra "Azərbaycan" qəzeti yazır: "...Biz Şamaxı əksinqilabçılarının başına nə gəldiyini bilmirik, amma onu bilirik ki, başda sosialist Əmirov və Lalayev olmaqla qırmızı sosialist dəstəsi Şamaxıda olan bütün müsəlman əhalini kəsib doğramış, kəndləri dağıtmışdır. Lalayevin Şamaxı müsəlmanlarına qarşı törətdiyi vəhşiliklər bu müddət ərzində gördüyümüz bütün dəhşətləri kölgədə qoyur".

Mətndən aydın görünür ki, Şamaxıya göndərilən erməni silahlı dəstələri guya əksinqilabçıları cəzalandırmışlar. Halbuki qocaların, qadınların, məsum körpələrin əksinqilabi işlə əlaqəsi ola bilməzdi. Təbii olaraq qəzet bildirmək istəmişdir ki, bu, yalnız gözdən pərdə asmaq, əsl həqiqəti gizlətmək üçün vasitə idi.

Millət fədailərinin, azadlıq mücahidlərinin AXC-nin dövlət quruculuğu, daxili və xarici siyasəti, dövrün və zamanın reallıqlarını olduğu kimi əks etdirməyi müqəddəs amalı hesab edən "Azərbaycan" qəzetində bu səpkili məqalələr çoxdur. Lakin onların hamısı haqqında bir məqalədə geniş məlumat verməyin mümkünsüzlüyü bəllidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etmişdir. Artıq bununla bağlı xeyli iş görülmüşdür. AXC-nin varisi olan "Azərbaycan" qəzetinin müsəlman Şərqində ilk demokratik respublika sayılan ölkəmizdə dövlətçiliyin formalaşması prosesində əvəzsiz rol oynaması da şəksizdir. Odur ki, bu məsələnin problem kimi elmi tədqiqat mövzusu baxımından araşdırılmasının gələcəkdə də zəruri olması qənaətindəyik.

# "AZƏRBAYCAN"DAN VƏ TƏLATÜMLƏRDƏN KEÇƏN ÖMÜRLƏR



# Milli mətbuatımızın qüruru – *Üzeyir bəy Hacıbəyli*

**Azərbaycanın XX əsr mədəniyyət və musiqi tarixində Üzeyir bəy Hacıbəyli qədər hələ öz zamanında geniş şöhrət qazanaraq tanınan və sonralar da adı və xatirəsi daim əziz tutulan ikinci bir şəxs təsəvvür etmək çətindir. Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığına həsr edilmiş ən müxtəlif səpkili əsərlərin – irihəcmli monoqrafiya və tədqiqatlardan tutmuş məqalə, oçerk, esse və digər yazılara qədər – sayı minlərlə ölçülür və kiçik xülasələr, rəylər, xəbərlər hələ bu sıraya daxil edilmir. Onun haqqında onlarca sənədli və bədii filmlər çəkilmişdir. Yalnız Azərbaycan və ya keçmiş sovet məkanında deyil, xarici ölkələrdə də yaxşı tanınan, əsərləri haqqında müxtəlif dillərdə yüzlərlə yazılar dərc olunan bu böyük, sözün əsl mənasında, dahi bəstəkarın adı təkcə onun özünə deyil, mənsub olduğu xalqa və ölkəyə də şöhrət gətirmişdir.**

Bunun müqabilində istər xalq, istərsə də hökumət dairələri Üzeyir bəyin xidmətlərini layiqincə qiymətləndirmiş, xüsusilə sovet dövründə Ü.Hacıbəyli ölkənin və dövlətin ən yüksək ad və mükafatlarına layiq görülmüş, musiqi yaradıcılığı, təhsili və elmi sahələrində yüksək vəzifələr tutmuş, sovet dövlətinin ali seçkili orqanlarında təmsil olunmuş, böyük ehtiram, diqqət və qayğı içində yaşamışdır.

Lakin bütün bunlarla bərabər, Üzeyir bəy Hacıbəylinin şöhrət və məhəbbət dolu ömür yolu, xüsusilə sovet dövrü heç də zahirən göründüyü kimi sabit və təlatümsüz olmamışdır. İllərlə basqı və qorxu, təqib və təzyiq şəraitində yaşayıb-yaratmalı olan sənətkar öz həyatının bəlkə də ən əlamətdar və mühüm saydığı zaman kəsiyindəki fəaliyyətini və mövqeyini gizlətməyə, yaxud "unutmağa" sövq edilmişdir. Onu bu "unutqanlığa" sövq edən rejim də ən müxtəlif səbəblərdən, Üzeyir bəy Hacıbəylinin "unutduqlarını" "görməzliyə" vurmuş, "görməli" olanda da üstündən keçmişdir. Hətta bəstəkarın ölümündən çox illər sonra, onun anadan olmasının 80 illiyinin Sovet İttifaqında siyasi iqlimin "mülayimləşmə" dövrünə təsadüf etdiyi bir zamanda belə böyük sənətkarın həyatının "unudulmuş" 5 ilini açıqlamaq məqbul sayılmamışdır.

1964-cü ildə "Azərbaycan opera sənətinin banisi, SSRİ xalq artisti, iki dəfə Dövlət (Stalin) mükafatı laureatı, akademik, bəstəkar, ədib, mühərrir, maarifçi, tərcüməçi və müəllim" Üzeyir bəy Hacıbəylinin yubileyinin ən yüksək səviyyədə qeyd edilməsinə hazırlıq işləri başlayarkən Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Ü.Hacıbəylinin vaxtilə ilk direktoru olduğu Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu onun 10 cilddə əsərlərinin nəşrinə başlamışdır. Bu cildlərə görkəmli şəxsiyyətin ədəbi, publisistik və musiqi əsərləri daxil olmalı idi. Lakin 4-cü cilddən sonra "Əsərləri"n nəşri səbəb göstərilmədən dayandırılmış və bir daha davam etdirilməmişdir.

Əslində, bu səbəb Üzeyir bəyin tərcümeyi-halına və publisistik irsinə az-çox bələd olanlara məlum idi: "Əsərlər"in 4-cü cildi Ü.Hacıbəylinin redaktoru olduğu "Yeni İqbal" qəzetinin 1915-ci il 6 oktyabr tarixli nömrəsində dərc edilmiş "Ordan-burdan" başlıqlı felyetonu ilə bitirdi. Məntiqə görə, 5-ci cildə müəllifin sonrakı illərdə digər mətbuat orqanlarında dərc edilmiş məqalə və felyetonları daxil edilməli idi. Ortaya çıxan maneə də məhz bu mətbuat orqanları – ilk növbədə Məhəmməd Əmin Rəsulzadənin redaktoru olduğu "Açıq söz" qəzeti, daha sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı və Üzeyir bəyin özünün 15 ay redaktorluq etdiyi "Azərbaycan" qəzeti ilə bağlı idi.

Bu qəzetlərdəki yazılarında Üzeyir bəy Hacıbəyli tamamilə milli məfkurə daşıyıcısı, Azərbaycan istiqlalı tərəfdarı, onun ən mübariz və qətiyyətli müdafiəçisi, erməni-daşnak və rus ağqvardiyaçı-bolşevik qüvvələrin barışmaz tənqidçisi kimi çıxış edir, kəskin antibolşevik mövqe nümayiş etdirirdi.

Bolşevik-kommunist sovet rejiminin öz milli-mədəni siyasətinin təntənəsinin sübutu, partiya və hökumətin qayğısının nəticəsi olaraq yetişmiş milli sovet yaradıcı ziyalıları arasında ən böyük və nüfuzlu simalardan saydığı Üzeyir bəy Hacıbəylinin 1915-1920-ci illər fəaliyyətinin, hətta onun ölümündən sonra belə açıqlanması, doğrudan da, qeyri-mümkün idi. Çünki bu halda dahi bəstəkarın öz xalqı qarşısında böyük xidmətlərinin heç də yalnız onun ölməz musiqi əsərləri, yaxud musiqi mədəniyyəti və təhsili sahələrində fəaliyyəti ilə məhdudlaşmadığı meydana çıxardı. Bu xidmətlərdən ən mühümü isə onun Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetindəki fəaliyyəti ilə bağlı idi.

1918-ci ildə "Azərbaycan" qəzetinə gələndə Üzeyir bəy artıq özünü sırf milli məfkurənin daşıyıcısı olmaqla yetkin bir siyasi publisist və ictimai xadim kimi təsdiq etmiş və milli istiqlal arzusu ətrafında cəmlənmiş dövrün görkəmli ictimai xadim və ədiblərinin cərgəsində öz yerini tutmuşdu. Lakin Üzeyir bəyi bu cərgəyə gətirən yol çox uzaqlardan başlayırdı.

Hələ yeniyetməlik və ilk gənclik illərindən Üzeyir bəy çoxşaxəli istedadı, bacarığı, zəhmətsevərliyi və yüksək əxlaqi keyfiyyətləri ilə onu əhatə edən insanların, o cümlədən müx-

təlif millətlərin nümayəndələrinin diqqətini cəlb etmiş və onların dərin hörmətini qazana bilmişdi. Bu münasibətlərin ilkin təzahürləri artıq Qori Seminariyasında oxuduğu zaman meydana çıxmışdı. Seminariyada ilk dəfə Avropa klassik musiqisinin əsasları və not sistemi ilə tanış olan Üzeyir bəy Azərbaycan xalq havalarını nota köçürərək dəftərçəsində qeydlər edirdi. Həmin dəftər seminariya rəhbərliyinin diqqətini cəlb etmiş və "Qori dəftəri" adı ilə "ən yaxşı şagird işi kimi" 1902-1903-cü illər Paris sərgisinə göndərilmişdi.

1904-cü ildə Qori Seminariyasını bitirən Üzeyir bəy, bu təhsil ocağının qanunlarına görə, ən azı 3 il məcburi işləməklə Qarabağın Hadrut erməni kəndinə müəllim təyin olunur. Lakin bir ildən sonra, 1905-ci ildə erməni-müsəlman silahlı münaqişələrinin başlanması ilə Üzeyir bəy həmin kəndi tərk etməli olur: gecə vaxtı bir dəstə erməni kəndlisi azərbaycanlı müəllimi yuxudan oyadır və gözlənilən təhlükə qarşısında təcili Hadrutdan getməyi məsləhət bilir. Kəndlilər Üzeyir bəyi özləri ilə gətirdikləri ata mindirir və yandırdıqları məşəllərlə ətrafı işıqlandıraraq onu Bakıya gedən yola çıxana kimi müşayiət edirlər. Bu hadisə, təbii ki, gənc Üzeyirin hafizəsində iz buraxmaya bilməzdi və cəmi bir neçə ildən sonra, 1918-ci ildə Qarabağda erməni üsyanları yenidən baş qaldırdıqda Üzeyir bəy bu mövzuda yazdığı onlarca məqaləsində yerli erməni kəndli əhalini fitnəkar daşnak androniklərdən fərqləndirməyi və onların özlərini də erməni terrorçularından xilas etməyi zəruri sayırdı (Son nəticədə, həqiqətən, Azərbaycan hökumətinin və xüsusilə Qarabağın qubernatoru Xosrov bəy Sultanovun çox çevik, ehtiyatlı və cəsarətli siyasəti nəticəsində Qarabağın erməni əhalisinin böyük hissəsi Azərbaycanın tərkibində qalmağa üstünlük vermişdi).

1905-ci ildə Bakıya gələn 20 yaşlı gənc Üzeyiri bu böyük şəhərdə yeni həyat gözləyir. Mövcud bürokratik qayda-qanunlar çərçivəsində çətinliklə Bibiheybətdəki ibtidai məktəbə müəllim düzələn Üzeyir bəy qısa müddət ərzində azərbaycanlı–türk uşaqların tədrisi sahəsində bir çox problemlərin – dərsliklərdən ibtidai siniflər üçün hesab dərsliyi, rusca-türkcə, türkcə-rusca lüğət hazırlamaqla bu sahədə ilk addımlarını atır və gənc müəllim dərhal azərbaycanlı həmkarlarının diqqətini cəlb edir. 1907-ci ildən başlayaraq Bakıda müsəlman müəllimlərin elə bir yığıncağı, toplantısı olmur ki, orada Üzeyir bəy Hacıbəyli rəyasət heyətinə seçilməsin, yaxud hansısa bir komissiyaya sədrlik, nəzarət və s. ona tapşırılmasın. Birmənalı demək olar ki, Üzeyir bəy həyatını yalnız təhsil sistemi ilə bağlasaydı belə, Azərbaycanın böyük islahatçı-maarifçiləri cərgəsinə daxil olacaqdı.

Lakin 1905-ci il Bakının qaynar ictimai-siyasi və mədəni həyatı böyük istedadlar və cəsarətli arzular üçün geniş imkanlar açırdı. Həmin dövr Rusiya inqilabının təsiri ilə imperiyanın ucqarlarında da yaranmış nisbi azadlıqlar şəraitində Azərbaycan milli mətbuatının təşəkkülü fonunda Azərbaycan milli şüurunun formalaşması prosesi sürətlə güc toplamağa başlayır. Azərbaycan ictimai-siyasi və ədəbi-mədəni fikrinin tanınmış nümayəndələri Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Cəlil Məmmədquluzadə, Ö.F.Nemanzadə və başqalarının səyləri ilə bir-birinin ardınca yeni qəzet və jurnallar nəşrə başlayır, ilk müsəlman xeyriyyə cəmiyyətlərinin əsası qoyulur, gənc M.Ə.Rəsulzadə özünün ilk siyasi yönlü təşkilatını yaradır. Böyük istedad və fəaliyyət üçün son dərəcə münbit sayıla biləcək məhz bu mühitdə Üzeyir bəy Hacıbəylinin güclü publisistik və satirik qələmə malik olduğu üzə çıxır. 1905-1916-cı illərdə qısa fasilələrlə (Moskva və Peterburqda təhsil aldığı illər) Ü.Hacıbəyli dövrün ən ciddi və sanballı mətbuat orqanlarında – "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Molla Nəsrəddin", "Həqiqət", "İqbal" və s. ən müxtəlif mövzularda ən müxtəlif janrlarda 700-dən artıq məqalə və felyeton yazmış, "İrşad" və "Tərəqqi" qəzetləri redaksiya-



Üzeyir Hacıbəyli şagirdləri ilə birgə.
"Nəşri-maarif" cəmiyyətinin Bibiheybətdəki məktəbi. 1911-ci il

larında mütərcim və felyetonçu işləmiş, müxtəlif illərdə "Tərəqqi", "Yeni İqbal" və "Həqiqət" qəzetlərinin mühərriri və redaktoru olmuşdur.

Elə həmin dövr Üzeyir bəy özünün professional musiqi sahəsində ilk addımını atmış, 1908-ci ilin yanvarında "Leyli və Məcnun" operası ilə yalnız Azərbaycanda deyil, bütün müsəlman Şərqində operanın əsasını qoymuş, 1915-ci ilə qədər daha 5 opera və 3 operetta yazmaqla, onlara səhnə həyatı verməklə özünün bu sahədə də böyük istedad və təşkilatçılıq qabiliyyətini tam şəkildə təsdiq etmişdir.

Lakin bütün bu uğurlar heç də asan başa gəlmirdi. Rusiya imperiyasının idarə aparatı, Dövlət Dumasının fəaliyyəti, qeyri-rus xalqlara və millətlərə münasibət və s. kimi siyasi-ictimai mövzularda ciddi tənqidi mövqedən yazılmış məqalə və çıxışlara görə çar hökumətinin senzura orqanları qarşısında cavab verməli olduğu halda bəzi yerli mətbuatın açıq-aydın qərəzli, böhtan və təhqir dolu hücumları gənc mühərrir, jurnalist və bəstəkarı yalnız özünü deyil, həyatını həsr etdiyi işin və amalının müdafiəsinə qalxmağa vadar edirdi. Üzeyir bəyin ümummilli, xalq mənafeyini şəxsi maraqlarından üstün tutması kimi keyfiyyəti özünü hələ 1909-cu ildə "Zənbur" jurnalının ona və redaktoru olduğu "Tərəqqi" qəzetinə hücum kampaniyası zamanı büruzə verirdi.

"1908-ci ildə "Tərəqqi" qəzetinin təsisçisi və redaktoru Əhməd bəy Ağayev İstanbula uzunmüddətli səfəri ilə əlaqədar qəzetin müvəqqəti mühərrirliyini redaksiyanın gənc əməkdaşı Üzeyir bəy Hacıbəyliyə tapşırır. Bu qəzetin Azərbaycan cəmiyyətində nüfuzu, onun iti qələmli redaktorunun, üstəlik, bəstəkar şöhrəti, görünür, "Zənbur" satirik jurnalının rəhbərliyini narahat edir və onu hörmətdən salmaq, həm də öz adını qaldırmaq niyyəti ilə jurnalda bir

neçə qərəzli, fitnəkar məzmunlu yazılarla bərabər, həm də qarabağlılara məxsus geyimdə Ü.Hacıbəylinin karikaturası çap edilir.

Bu hücumlara cavab vermək qərarına gələn Üzeyir bəy öz yazısını heç bir giriş-filan etmədən birbaşa belə başlayır: "Ümum millətimizin asayiş və səlamətini gözləyən "Tərəqqi" kimi bir qəzetin mühərriri olduğum üçün "zənbur"çulara ciddi surətdə təklif edirəm ki, mənə qarşı hər nə həzyənat söyləyəcəklərsə, söyləsinlər. Lakin məni bəhanə edib də yekdil və yekvücud olması lazım gələn millətimizin içinə "qarabağlı", "bakılı" kimi fitnəəngiz məsələlər salmasınlar..."

"Tərəqqi" qəzetində dərc olunmuş və bir qədər emosional ruhda yazılmış bu cavabı İstanbulda oxuyan Əhməd bəy Ağayev 24 yaşlı gənc həmkarına göndərdiyi məktubda qəzeti və şəxsən Əhməd bəyi müdafiə etdiyi üçün təşəkkürünü bildirməklə yanaşı, sakit olmağı, bir daha belə şeylərə cavab verməməyi tövsiyə edir: "Sən öz işinlə məşğul ol, bacardıqca millətinə xidmət et... Əmin ol ki, əhali nə qədər avam olsa da, hər kəsi gözəlcə bilir, tanıyır. Ona görə də hər kəsi qədərincə təqdir edir!"

Bu tövsiyə Üzeyir bəyin qarşıdakı geniş siyasi və ictimai-publisistik fəaliyyətinin hər hansı şəxsi inciklik və emosiyalardan uzaq, təmkin və soyuqqanlılıq, eyni zamanda güclü məntiq, əsaslandırılmış təhlil və tənqid, inandırmaq məharəti kimi xüsusiyyətlərə malik olmaqla tamamilə yeni bir mükalimə aparmaq səviyyəsinə qalxmasında mühüm rol oynayır.

Məşğul olduğu bütün sahələrdə nümayiş etdirdiyi danılmaz istedadla yanaşı, ictimai fəallığı, iti müşahidə, nəticə almaq və qərar vermək qabiliyyəti, ən nəhayət, bütün qanına və canına hopmuş yüksək vətənpərvərlik və millətsevərlik hissləri Üzeyiri vətən və millətin taleyində daha yaxından iştirak etmək qənaətinə gətirir.

1915-ci ilin sonlarından başlayaraq Üzeyir bəyin imzası dövrün ən görkəmli ictimai xadim və ədibləri Ə.Ağayev, Ə.Haqverdiyev, H.Cavid, Ə.Cavad, T.Şahbazi, Y.V.Çəmənzəminli, N.Vəzirov, Ə.Əzimzadə və başqaları ilə birlikdə "Türkləşmək, islamlaşmaq, modernləşmək" şüarı altında çıxan "Açıq söz" qəzetinin fəal yazarlarının sırasında görünür. Azərbaycan milli ideologiyasının formalaşmasında müstəsna xidmətləri olan bu mətbuat orqanının səhifələrində Ü.Hacıbəyli artıq sırf milli məfkurənin daşıyıcısı, yetkin siyasi publisist və ictimai xadim kimi türk-azərbaycanlı kütlələrin milli şüurunun oyanması prosesində iştirak edir. Rusiyada 1917-ci il Fevral inqilabı, daha sonra Oktyabr çevrilişi Azərbaycan milli qüvvələrini və bu sıraya daxil olan Üzeyir bəy Hacıbəylini də Azərbaycan xalqının gələcək müqəddəratı ilə bağlı daha qətiyyətli mövqe nümayiş etdirmək zərurəti ilə üzləşdirir. Məhz həmin dövrdən başlayaraq Üzeyir bəy özünün gələcəkdə müsavatçılar barəsində dediyi kimi, "heç bir "sağ" ya "sol" cərəyanlara meyil etmədən" sırf milli-istiqlal tərəfdarı kimi çıxış edir.

Maraqlıdır ki, elə Üzeyir bəyin ictimai-siyasi fəaliyyəti ilə bəstəkarlıq fəaliyyətini birləşdirmək cəhdi ilk dəfə məhz bu dövrdən başlayır. 1917-ci ilin sonlarında Y.V.Çəmənzəminlinin "Açıq söz" qəzetində Üzeyir bəyə ünvanlanan "Hər millətin, xalqın öz milli marşı var, bizimki niyə olmasın?!" təklifini qəbul edən publisist-bəstəkar az sonra elə "Açıq söz" qəzetinin səhifələrində artıq belə bir "milli himn" yazdığını bildirir və bu musiqi növünün əhəmiyyətini izah etməklə marşın 1918-ci ilin ilk günlərində "O olmasın, bu olsun" tamaşasından qabaq çalınıb-oxunacağını xəbər verir. Həmin yazıda Üzeyir bəyin ilk himn bəstələmək təcrübəsi sayıla biləcək bu milli marşın tam mətni də dərc olunur və məşhur türk hökmdarlarının adları çəkilən, türkün qüdrətindən bəhs olunan həmin mətndən bu ilk milli marş-himnin tam türkçülük ruhu daşıdığı bəlli olur.

Yenicə istiqlalına yetişmiş vətənində Üzeyir bəy bəstəkar fəaliyyəti ilə deyil, dövrün siyasi-ictimai tələblərinə daha çox cavab verən "qəzetçiliklə" məşğul olmağı məqbul sayır və 1918-ci ilin sentyabrında Gəncədə nəşrə başlayan, 5-ci sayından isə Bakıda, kiçik qardaşı Ceyhun Hacıbəylinin redaktorluğu ilə çıxan "Azərbaycan" (Azərbaycan dilində) qəzetinin parlament müxbiri olmağa qərar verir. Qəzetdəki ilk yazılarını Ü.Hacıbəyli Azərbaycan parlamentinin açılış hazırlıqlarına həsr etməklə bu tarixi hadisəni – parlamentin açılış mərasimini böyük bir hüsn-rəğbətlə işıqlandırır. 1919-cu ilin yanvar ayında C.Hacıbəylinin Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin tərkibində Fransaya getməsi ilə bağlı Ü.Hacıbəyli M.Ə.Rəsulzadə ilə birlikdə qəzetin redaktorları təyin olunurlar. Lakin tezliklə Azərbaycan parlamentində "Müsavat" fraksiyasının başçısı Məhəmməd Əmin bəyin qəzetdəki fəaliyyətinin yalnız məqalə yazmaqla kifayətlənəcəyi məlum olduqdan sonra redaktorluq vəzifəsi Üzeyir bəyin öhdəsində qalır və arada 2 ay fasilə olmaqla təxminən 15 ay müddətində – Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər – Üzeyir bəy Hacıbəyli bu mühüm missiyanı ləyaqətlə yerinə yetirir.

"Azərbaycan" qəzetinin redaktoru olduğu müddətdə musiqi fəaliyyəti ilə çox az məşğul olan Üzeyir bəy Hacıbəyli, bununla belə, cümhuriyyət dövründə özünün ən möhtəşəm əsərlərindən birini – Azərbaycanın Dövlət himnini bəstələyir və özünün ən poetik yazısını üçrəngli bayrağımıza həsr edərək onu "Bayrağımız sarsılmaz" başlığı ilə qəzetdə dərc edir.

Azərbaycan parlamentinin iclaslarını daim geniş işıqlandıran "Azərbaycan" qəzetində Üzeyir bəy ayrı-ayrı fraksiyaların ən mühüm məsələlərin müzakirələrində, xüsusilə hökumətə münasibətdə tutduğu mövqeyə xüsusi diqqət yetirir. Azərbaycan hökumətinin fəaliyyətini ümumiyyətlə müdafiə edir, xüsusilə bir neçə kabinədə hökumət başçıları olmuş Fətəli xan Xoyskinin və Nəsib bəy Yusifbəylinin zəhmət və fədakarlığını çox yüksək qiymətləndirir. Azərbaycan tarixində artıq "mühüm mövqe" tutmuş olan F.X.Xoyskinin ən ağır şəraitlərdə hökumətin təşkilini öz boynuna götürməsini və sonrakı fəaliyyətini "ayrı-ayrı parçalardan əmələ gəlmiş" bir gəmini "fırtınalı gündə qorxulu dağların, daşların arasından kəmali-ehtiyat və ehtiram ilə fırtına sakit olana qədər salamat keçirmək" ilə müqayisə edir, ingilis generalı Tomsonun "Azərbaycanda ancaq Azərbaycan hökuməti tanınacaqdır" kimi fövqəladə əhəmiyyətli qərarının birbaşa F.X.Xoyskinin "səyi, çalışması və aqilanə siyasəti" nəticəsində verildiyini vurğulayırdı.

Eynilə Nəsib bəy Yusifbəyli hökumətinin parlamentdə "sağdan" və "soldan" aramsız tənqid edilməsi qarşısında Ü.Hacıbəyli hökumətin gördüyü mühüm işləri sadalayır: "Dağ böyüklüyündə iri olan Qarabağ məsələsini" Azərbaycanın xeyrinə həll edən, "Lənkəranı qan tökmədən, qurban vermədən yabançılar çənqalından qurtaran", "Ümumqafqaz" – Dağıstan müsəlmanlarına hərtərəfli yardım edən, mütəşəkkil ordu yaradan, ölkəni rüşvətxor məmurlardan təmizləməkdə olan, universitet açan, "kasıb-kusublara 3-4 manata çörək yedirdən", asayiş, əmin-amanlıq və rahatlığı bərpa edən, nəhayət, "qəlbində vətən və millət məhəbbəti olub da səmimi-qəlb ilə çalışan, vuruşan, istirahət nə olduğunu bilməyən hökuməti və onun rəisini işsizlikdə, bacarıqsızlıqda ittiham etməyi" Üzeyir bəy ya "əql və insafdan xali olmaq", ya da artıq başqa bir məqsəd güdməklə izah edir.

Parlamentdə yalnız "Müsavat" partiyasının hökuməti ardıcıl olaraq müdafiə etdiyini, bu fraksiyanın lideri M.Ə.Rəsulzadənin şəxsən "şücaətanə" bir bacarıq və əsaslı dəlillərlə hökumət "müxaliflərini" susdurduğunu və dəfələrlə növbəti hökumət böhranının qarşısını aldığını Ü.Hacıbəyli öz məqalələrində dönə-dönə vurğulayırdı. Görünür ki, bu yazılarına görə sosia-

listlərin "Zarya" qəzeti "Azərbaycan" qəzetini istehza və kinayə ilə "Müsavat" partiyasına mənsub "firqəvi qəzetə" adlandırır. Bu çıxışa dərhal cavab verən Üzeyir bəy nəzərə çatdırır ki, "Azərbaycan" partiya qəzeti deyil və məsləki "vətən istiqlalı yolunda çalışmaqdan ibarət" olmaqla "xüsusi firqəvi proqram daxilində məhdudlaşmır". Lakin elə bu cavabında da Üzeyir bəy "heç də gizlətmir ki, mövcud partiyalarımız arasında Azərbaycan istiqlalını kəmalınca, beduni-haşiyə arzu etmək və bu yol uzunu gedərkən sağa və sola dönmək tərəddüdündən azad olub rast bir istiqamət üzrə getmək qəsdini yalnız bir "Müsavat" firqəsində müşahidə etdiyimizdən bu firqəni istiqlal xadimlərindən ən sadiqi hesab edib, onun fikir və arzularına qəzetimizdə kəmali-məmnuniyyətlə yer verməyi özümüzə borc bilirik!"

Beləliklə, Azərbaycan istiqlalı məsələsi "Azərbaycan" qəzetinin və onun redaktorunun ətrafdakı bütün hadisələrə, partiyalara, siyasətçilərə münasibətdə əsas meyar olaraq qalır. Bu baxımdan Ü.Hacıbəyli düşmənlərin Azərbaycan istiqlalına digər yollarla zərbə vurmaq planlarını da açıqlayır, "dünən daşnak cərgəsində olub, bu gün bolşevik maskası" geyən, "utanmadan kələklər qurub" hətta Azərbaycan sosialistlərini də fəhlələr qarşısında nüfuzdan salan Mikoyanın, "vətən, millət tanımayan", "parlaman minbərini mitinq kürsüsünə döndərib bolşevikyanə çıxışlar edən" Əliheydər Qarayevin Azərbaycan "füqərayi-kasibəsini" Azərbaycan hökumətindən ayrı salmaq cəhdlərini, bu qüvvələrin təşkil etdikləri fəhlə tətillərinin, xüsusilə 1919-cu il may ayında hazırlanmış genişmiqyaslı iqtisadi tətilin arxasında məhz ölkədə xaos yaratmaq və çevriliş etmək niyyətlərinin durduğunu sübut edirdi.

"Ciddi imtahanla üzləşmiş" Azərbaycan hökumətinin müsəlman fəhlələri ilə birlikdə bu təhlükənin də qarşısını ala bildiyini böyük sevinclə qeyd edən Ü.Hacıbəyli düşmənlərinin qərəzlə "xan-bəy hökuməti" adlandırdığı hakimiyyətə zəhmətkeş təbəqələrin etimadının səbəblərini açıqlayırdı: "Azərbaycan füqərayi-kasibəsi, Ümumazərbaycan əhli öz hökumətinin səyi və təlaşı altında indi-indi ağ gün üzü görməyə qədəm qoymuşdur. İndi-indi öz varlığını, öz insanlığını dərk etməyə başlamışdır. İndi-indi öz vətənini vətən, öz millətini millət hesab edib, azad və asudə yaşamağa imkan bulmuşdur".

Lakin Azərbaycan istiqlalının təminatçısı olan Azərbaycan hökuməti yalnız mövcud hakimiyyəti yıxıb, "sosializm evi" qurmaq arzusunu gizlətməyən bu arxalı qüvvələrin hücumuna məruz qalmırdı. Parlamentdə təmsil olunan digər partiya və fraksiyaların, "İttihad", "Əhrar" və digər artıq adi hal alan hökumətə qərəzli, tənqidi münasibətinin arxasında çox vaxt şəxsi hakimiyyət arzusu dururdu. Bütün bu amillərin nə qədər təhlükəli olduğunu yaxşı başa düşən Ü.Hacıbəyli həmin qüvvələrə ən ciddi şəkildə xəbərdarlıq edirdi: "Parlaman üzvləri hökumət böhranlarına saymazyana bir nəzərlə baxmağı, zənnimizcə, dərk etməlidir. Bir şey ki yerindən oynamağa adətkərdə ola, axırda "laxlaq" olar. Dəqiqəbaşına bir böhran törətməklə axırda öylə fəna nəticələrə yetişərik ki, məmləkət və əhali böyük zərər və ziyanlara düçar olar..."

1920-ci ilin aprelində Azərbaycanın siyasi mühitində yaranmış vəziyyət Üzeyir bəyin bu xəbərdarlığının heç də əsassız olmadığını göstərdi. Hələ yanvar ayında keçirdikləri gizli qurultayda Azərbaycan Kommunist Partiyası adı altında birləşən Bakıdakı bütün bolşevik partiyaları və dəstələri sovet Rusiyasının güclü dəstəyi ilə "sosializm evinin" qurulması üçün "son və qətiyyətli döyüşə" başladılar və bu yolda ən müxtəlif vasitələrə, o cümlədən siyasi, iqtisadi təxribatlara əl atıldı. Geniş təbliğat və təşviqat maşını işə düşdü və hətta Bakıda olan türk zabitləri məharətlə bu oyunlara cəlb olundu. Həmişəki kimi, "daşnakdandönmə" erməni bolşevikləri bu işlərdə bilavasitə iştirak edirdilər və 1918-ci il hadisələrinin senarisi üzrə artıq neçə aylar əmin-amanlıq hökm sürən Qarabağda yenidən ermənilərin üsyanı başladı. Bütün

bu vəziyyətin mürəkkəbliyini yaxşı anlayan Azərbaycan hökuməti ciddi tədbirlər görür, təhlükənin qarşısını almağa çalışırdı. Lakin belə bir ciddi məqamda da Azərbaycan parlamentində hökumətə ünvanlanmış sorğuların, debatların, tənqid və ittihamların ardı-arası kəsilmirdi. Son nəticədə bir daha hökumət böhranı başladı və hətta hökuməti dəfələrlə bu vəziyyətdən qurtaran M.Ə.Rəsulzadə və "Müsavat" fraksiyası da onun qarşısını ala bilmədi. 1920-ci il aprelin 1-də Nəsib bəy Yusifbəyli hökumət kabinetinin istefasını elan etdi. Yeni hökumətin təşkili Məmməd Həsən Hacınskiyə tapşırıldı. Siyasi görüşlərindən və mövqeyindən asılı olmayaraq bütün Azərbaycan cəmiyyəti görkəmli ictimai və dövlət xadimi, Azərbaycanın istiqlalı uğrunda böyük xidmətlər göstərmiş və "İstiqlal Bəyannaməsi"ni imzalamış, bütün hökumət kabinetlərində ən mühüm vəzifələrdə təmsil olunmuş, "Müsavat" partiyasının üzvü, kifayət qədər təcrübəli və qətiyyətli siyasətçi kimi tanınan M.H.Hacınskinin yeni hökumət başçısı kimi işə başlayacağını gözləyirdi...

Bütün bu olayları çox diqqətlə izləyən "Azərbaycan" qəzetinin redaktoru Üzeyir bəy Hacıbəyli öz müşahidələrindən gəldiyi qənaəti, görünür ki, artıq baş məqalə, yaxud heç olmasa, xülasə şəklində qələmə almağı lazım belə bilmir. "Azərbaycan" qəzetinin 1920-ci il 22 aprel sayında, hökumət kabinetinin istefasından 3 həftə sonra Üzeyir bəy Hacıbəylinin "Surna" başlığı ilə bir felyetonu dərc olunur və parlamentdə yenə də "firqə manevrlərinin" başlandığı, yeni baş nazirin "ləyaqətinin" bundan sonra kimləri "nazir kürsüsünə dəvət edəcəyi" ilə ölçüləcəyi kimi satirik qeydlər Üzeyir bəyin baş verənlərə münasibətini çox aydın əks etdirir. Lakin yeni hökumət kabinetinin təşkilini uzadan, parlament fraksiyaları, xüsusilə "sol"larla və bolşeviklərlə aşkar-gizli danışıqlar aparan M.H.Hacınskinin "ləyaqətini" heç bu yolla da ölçmək artıq "mümkün olmur".

Qəzetin 25 aprel 1920-ci il tarixli nömrəsində Ü.Hacıbəylinin yenə də "Surna" başlığı altında daha bir felyetonu dərc olunur. "Xammal" sözü üzərində qurulan və öldürücü satirik ruhuna görə siyasi pamflet sayıla biləcək bu yazısında Ü.Hacıbəyli Azərbaycan Cümhuriyyətinin son dərəcə gərgin və təhlükəli günlər yaşadığı bir zamanda parlamentdə və ümumiyyətlə, ölkənin siyasi dairələrində müzakirə olunan məsələlərə münasibət bildirir.

Bu felyeton-pamflet-rekviyem Üzeyir bəy Hacıbəylinin "Azərbaycan" qəzetində son yazısıdır və onun cümhuriyyətin süqutuna 3 gün qalmış – 1920-ci il 25 aprel tarixində dərc olunması Üzeyir bəyin Azərbaycanın istiqlalına və müstəqillik ideallarına sona qədər sadiq qaldığının bariz nümunəsidir.

"Candan əziz istiqlalın" itirilməsi, "vətən və millət bilməyənlərin" hakimiyyətə gəlməsi, yazılarında dönə-dönə adlarını çəkdiyi cümhuriyyət xadimlərinin bir çoxunun faciəli sonluğu, həbsi, vətəni tərk etməyə məcbur olması ... Bütün bu olayları Üzeyir bəyin hansı hislərlə yaşadığını və necə daxili sarsıntılar keçirdiyini təsəvvür etmək çətin deyil...

Burada xüsusilə nəzərə alınmalıdır ki, bu insanların çoxu Üzeyir bəy üçün yalnız hökumət, ya parlaman rəsmiləri deyildilər. Öz həmyaşıdları olan, eyni vaxtda fəaliyyətə başladıqları və uzun illərin əməkdaşlığından keçdikləri Məhəmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, eləcə də çox yaxın ünsiyyətdə olduğu Fətəli Xan Xoyski, Həsən bəy Ağayev və bir çoxları ilə Üzeyir bəyi yalnız əqidə və məslək birliyi deyil, həm də yaxın dostluq, səmimi yoldaşlıq, qarşılıqlı hörmət və rəğbət birləşdirirdi. Üzeyir bəyin Parisə, qardaşı Ceyhun bəyə göndərdiyi məktubların birində Məhəmməd Əmin bəyin, Nəsib bəyin öz xanımı ilə, Şəfi bəy Rüstəmbəylinin (rusca çıxan "Azərbaycan" qəzetinin redaktoru) 1919-cu il sentyabrın 18-də Üzeyir bəyin evində, onun ad gününə toplaşdıqlarından və həmin məclisdə xaricdə olan dost və həmkarlarını xatırladıqlarından ətraflı bəhs olunurdu.

"Azərbaycan" qəzetindəki fəaliyyəti və xüsusilə onun siyasi publisistikası Üzeyir bəy Hacıbəylini birmənalı olaraq cümhuriyyət liderləri ilə bir cərgəyə qoyur. Faciəli sonluğa və Üzeyir bəyi qarşıda hələ 28 illik hadisələrlə zəngin və şöhrət dolu bir həyatın gözlədiyinə baxmayaraq, tam əminliklə demək olar ki, 23 aylıq Azərbaycan Xalq Cümhuriyyəti dövrü Üzeyir bəyin həyatında ən azad və müstəqil, ən asudə və rahat, ən yüksək ruh və şövq, ən dərin vətən və millət sevgisi, ən etibarlı və səmimi dostların və məsləkdaşların əhatəsində qurmaq və yaratmaq ehtirası ilə yaşadığı işıqlı bir dövrdür.

Azərbaycanda siyasi hakimiyyətin dəyişməsi Üzeyir bəy üçün yalnız istiqlalın və dostlarının itkisi deyil, həyatı üçün də ciddi təhlükənin yaranması demək idi. "Azərbaycan" qəzetində dəfələrlə hədəfə aldığı "daşnakdandönmə nasional-bolşevik" mikoyanların, mirzoyanların, "vətən və millət bilməyən" "qırmızı qarayevlərin" hakimiyyətə gəlməsi ilə bu təhlükə kifayət qədər real şəkil alırdı. Lakin bütün bunlara rəğmən Üzeyir bəy bir çox səbəblərdən bu dəfə Bakını tərk etmir. İşğalçı ordu ilə bərabər Bakıya gəlmiş və dərhal işə başlamış bolşevik dövlətinin amansız cəza maşını da bir sıra səbəblərdən Üzeyir bəyə toxunmur. Həmin səbəblər üzərində dayanmadan, bu dövr Üzeyir bəy Hacıbəyli ilə sovet rejimi arasında dilə gətirilməyən və gözə görünməyən qarşılıqlı bir "sazişin" bağlandığını söyləmək olar. Bu "sazişlə" Üzeyir bəy özü və yaxınları üçün ən əvvəl yaşamaq və azadlıqda qalmaqla yazıb-yaratmaq haqqı əldə etmiş olur. Sovet hakimiyyəti də Üzeyir bəyə bu imkanları yaratmaq müqabilində məşhur bəstəkarın və ictimai xadimin adını, istedad və bacarığını öz dövlət və ideologiyası maraqlarında istifadə etmək qərarını verir.

Hər iki tərəfin bu rəsmən bağlanmayan "sazişə" nə dərəcədə əməl etdiyi Üzeyir bəy və sovet hakimiyyətinin münasibətləri müstəvisində ayrıca bir mövzudur. Lakin hakimiyyətin Üzeyir bəyin cümhuriyyət dövrü fəaliyyətinə "göz yumsa" da, onu heç də unutmadığı, əksinə, yeri gəldikcə ən müxtəlif məqsədlərlə istifadə etdiyi də danılmazdır.

Üzeyir bəyin "Azərbaycan" qəzetinin redaktoru kimi "müsavatçı fəaliyyəti" məsələsi bir də 1937-ci ildə, Stalin repressiya maşını artıq tam gücü ilə işlədiyi zamanda gündəmə gəlir.

Əvvəlcə Azərbaycan Filarmoniyası Həmkarlar İttifaqının sədri Akopyan, daha sonra Azərbaycan Konservatoriyasının partiya təşkilatının katibi Kiranov adlı şəxslər Azərbaycan daxili işlər xalq komissarı Sumbatova ünvanladıqları məktublarda bütün tutduğu vəzifələr sadalanmaqla Üzeyir bəy Hacıbəylinin "tərksilah edilməmiş müsavatçı" və "Azərbaycan" qəzetinin redaktoru olduğu, qardaşı Ceyhun bəyin həmçinin "Müsavat parlamentinin üzvü" kimi Parisə qaçdığı, Ü.Hacıbəylinin uzun illər ona maddi yardım göstərdiyi, 1918-ci il Bakıda sovet hakimiyyəti qurularkən İrana qaçdığı, rəhbərlik etdiyi dövlət xoruna sovet dövlətinin düşmənlərinin – vaxtilə güllələnmiş, həbs edilmiş insanların uşaqlarını götürdüyü, onların hamısını 1938-ci ildə Moskvada keçiriləcək Azərbaycan incəsənəti ongünlüyündə özü ilə birlikdə Moskvaya aparmağa hazırlaşdığı və digər bu kimi "faktlar" sadalanır və belə bir "qaranlıq keçmişi" olan şəxsin SSRİ Millətlər Şurasına deputatlığa namizədliyinin verilməsi qeyri-məqbul sayılırdı.

Akopyan "əməkdar incəsənət xadimi, dirijor İoanesyanın sözlərinə görə, bu qəzetin ("Azərbaycan" nəzərdə tutulur) bir nüsxəsinin xalq artisti Sarabskidə olduğunu da" xatırladırdı.

Təbii ki, aparılan qapalı istintaqın gedişində Ü.Hacıbəyli müvafiq orqanlara çağırılır və ondan izahat alınır. Çox qısa şəkildə yazdığı izahatında Üzeyir bəy "bütün bu ittihamları" rədd edir.

Üzeyir bəyin izahatında göstərdiyi məlumatları yoxlamaq və onların heç birinin həqiqətə uyğun olmadığını sübut etmək elə də çətin deyildi. Bunun üçün Şaumyan adına Partiya Arxivinin gizli fondlarında saxlanılan "Azərbaycan" qəzetinin nüsxələrini və AXC-nin sənədlərini qaldırmaq kifayət idi.

1937-ci ilin sonlarında Az.K(b)P MK Bürosunun qapalı iclasında bu məsələyə baxılır, Ü.Hacıbəylinin adının "ifşa edilmiş xalq düşmənləri Ruhulla Axundov və başqalarının ifadələrində də "tərksilah edilməmiş müsavatçı" kimi çəkildiyi nəzərə alınmaqla, Mir Cəfər Bağırovun imzası ilə qərar qəbul edilir. Bütün bu faktları yoxlamaq və bir daha büroya çıxarmaq qərarı ilə bərabər Hacıbəylinin "böyük bəstəkar kimi geniş şöhrətə malik olduğu, həmçinin Azərbaycan kəndlilərinin yerli feodallara və türk sultanlarına qarşı mübarizəsi mövzusunda ən uğurlu və istedadla yazılmış musiqi əsərinin – yeni "Koroğlu" operasının müəllifi olduğu üçün onun Millətlər Şurasına deputatlığa namizədliyinin hələlik geri götürülməməsi" məsləhət bilinir.

Lakin görünür ki, sonralar heç bu faktları yoxlamaq da lazım bilinmir və Mir Cəfər Bağırovun simasında Üzeyir bəy Hacıbəylinin Azərbaycan sovet hakimiyyət dairələrində ən yüksək səviyyədə hamisi olduğu aydınlaşır. Ədalət naminə deyilməlidir ki, repressiya olunmaq təhlükəsinin sovuşmasından cəmi bir neçə aydan sonra Moskvada keçiriləcək Azərbaycan incəsənəti ongünlüyünə qızğın hazırlıq işlərinin getdiyi və Ü.Hacıbəylinin özünün və əsərlərinin bu ongünlük proqramının əsasını təşkil etdiyi faktoru da az rol oynamır.

1938-ci ilin fevralında Moskvada Azərbaycan incəsənəti ongünlüyünü birmənalı şəkildə Üzeyir bəy Hacıbəylinin triumfu hesab etmək olar. "Koroğlu", "Arşın mal alan", "Stalinə salam" və digər əsərlərinin görünməmiş uğur qazanması Üzeyir Hacıbəylinin yerini artıq sovet musiqi olimpində möhkəmləndirir. Bəstəkara SSRİ xalq artisti adı, Lenin ordeni, Stalin mükafatı verilməklə, onun sovet hakimiyyəti qarşısında xidmətləri təsdiq olunur. Moskvadakı dekada zamanı həmçinin Üzeyir bəyin Mir Cəfər Bağırovdan qat-qat qüdrətli himayədarı olduğu üzə çıxır. Kremldə keçirilən təntənəli qəbulda sovet dövlətinin başçısı Stalin Üzeyir bəyi 5 saat öz yanında oturdur və onunla çox səmimi söhbətlər edir.

"Böyük rəhbər"in Üzeyir bəyə bu diqqəti onun bədxahlarına çox ciddi siqnal olur. Lakin rəhbərin qayğısı yalnız bununla bitmir. 1938-ci ilin may ayında Stalin Bakıya, Bağırova göndərdiyi teleqramda Ü.Hacıbəylinin növbədənkənar, dərhal partiya sıralarına qəbul edilməsi barədə göstəriş verir və Kommunist Partiyasına qəbul sistemində milyonda bir dəfə baş verən presedent yaranır – namizədlik müddəti keçmədən, heç kəsdən zəmanət almadan, M.C.Bağırovun adına 8 səhifəlik bir ərizə yazmaqla Üzeyir bəy Hacıbəyli heç vaxt, hətta cümhuriyyət dövrü can atmadığı bir işə təhrik edilir – siyasi təşkilata üzv olur. 1939-cu ilin əvvəllərində Üzeyir bəy Hacıbəyli Azərbaycan Dövlət Konservatoriyasına rektor təyin olunur. Ondan daha əvvəl, 1937-ci ilin əvvəllərindən isə Azərbaycan Bəstəkarlar İttifaqının sədri seçilməklə uzun illər yalnız müavin olduğu bu təşkilatlarda, nəhayət ki, birinci mövqelərə çıxır.

Lakin bütün bu vəzifələr, mükafatlar, diqqət və qayğı Üzeyir bəyi daim izləyən repressiya təhlükəsinin artıq arxada qaldığını göstərmirdi. 1940-cı ilin əvvəllərində 10 ildən çox əlaqə saxlaya bilmədiyi Parisdəki kiçik qardaşı Ceyhun bəyin ailəsindən aldığı bir məktub Üzeyir bəyi bir daha sovet siyasi orqanları ilə üzləşməyə vadar edir. Məktubda Ceyhun bəyin Birinci Dünya müharibəsinin başlanması ilə Fransa ordusuna çağırılan böyük oğlunun həlak olduğu bildirilir və bir sıra xahişlər edilirdi. Üzeyir bəy həmin məktuba cavab vermək üçün düz bir il yarım icazə gözləməli olur və sovet siyasi və kəşfiyyat orqanlarının tam nəzarəti altın-

da yazdığı 8 səhifəlik bu cavab, yəqin ki, onun həyatı boyu yazdığı yüzlərlə məktubun arasında ən ağırı olmaqla Üzeyir bəyin Bakıda, Ceyhun bəyin isə Parisdə girov vəziyyətinə salındıqlarını göstərir.

Təbii ki, bütün bu daxili sarsıntılar təsirsiz ötüb keçmirdi. 1945-ci il Üzeyir bəyin öz sağlığında sovet sistemi daxilində qazandığı şöhrət və ümumxalq məhəbbətinin təsdiqinin ən geniş şəkildə nümayiş olunduğu son il olur. Bütün Azərbaycan və sovet respublikaları, paytaxt Moskva və ölkənin mədəniyyət mərkəzi sayılan Leninqrad (indiki Sankt-Peterburq), bir sözlə, bütün ölkə, hətta sovet qoşunlarının himayəsi altında Cənubi Azərbaycan və İran Üzeyir bəy Hacıbəylinin anadan olmasının 60, musiqi fəaliyyətinin 40 illiyini böyük təntənə ilə qeyd edir və o, yeni yaradılan Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilir.

Lakin 1946-cı ildən ölkədəki siyasi ab-hava bir də dəyişir, yenidən ideoloji sahədə düşmən axtarışları başlanır. Bir neçə təhsil, musiqi, elmi müəssisə və yaradıcı təşkilatlara rəhbərlik edən və nüfuz sahibi sayılan Üzeyir bəy Hacıbəylinin bu geniş fəaliyyətində də nöqsanlar tapmaq meyilləri görünməyə başlayır. Vaxtilə Üzeyir bəyin ən ciddi "kompromatlar"ının üstündən keçən respublika rəhbərliyinin dövrün "bu yeni tələblərinə" cavab verməkvə "milli gənc kadrları sıxışdırmaq" kimi absurd şikayətləri araşdırmaq cəhdləri onsuz da gərgin və ağır zəhmət dolu illərin yorğunluğundan əziyyət çəkən Üzeyir bəyin səhhətində ciddi problemlər yaradır. Belə bir vaxtda konservatoriyaya böyük yoxlama komissiyasının göndərilməsi vəziyyəti daha da gərginləşdirir. Lakin bu dəfə də Üzeyir bəyin ən yüksək himayədarı işə qarışır. Bəstəkarın artıq ciddi surətdə xəstələndiyini eşidən Stalin onu Kreml xəstəxanasında müalicə olunmağa dəvət edir. Lakin 1947-ci ilin əvvəllərindən başlayaraq Üzeyir bəyin səhhəti ilə bağlı məsələlər dövlət nəzarətinə götürülsə də, onun ömrünü uzatmaq mümkün olmur. Sovet hakimiyyətinin 28 il əvvəl yaşamaq və yaratmaq imkanı verdiyi və bütün bu 28 ildə əzizləyib-qorxudaraq və qorxudub-əzizləyərək yaşatdığı və yaratdıqlarından tam surətdə dəyərləndiyi bu nəhəng tarixi şəxsiyyət respublika rəhbərliyi nümayəndələrinin çiynində və minlərlə xalq kütlələrinin müşayiəti ilə 1948-ci il noyabrın son payız günlərində həqiqətən layiq olduğu şərəf və hörmətlə son mənzilə yola salınır...

Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Üzeyir bəyin cümhuriyyət dövrü fəaliyyətinin layiqincə qiymətləndirilməsi və sovet dövrü fəaliyyətini hər hansı təftişə məruz qoymaq təşəbbüsü belə edilməməsi faktı özlüyündə bu həqiqəti bir daha təsdiq etdi. Bu baxımdan Üzeyir Hacıbəyli hər hansı ideologiya, rejim və hakimiyyətlərin fövqündə duran möhtəşəm tarixi şəxsiyyətdir və onun mənsub olduğu xalq və dövlət yaşadıqca Üzeyir Hacıbəylinin də adı, əməlləri və sənəti daim yaşayacaqdır.

# Məsləkinə sadiq böyük mücahid – *Şəfi bəy Rüstəmbəyli*

**XX əsrin əvvəlləri Azərbaycan tarixinin ən keşməkeşli dövrlərindən biri olub. İctimai-siyasi quruluşların dəyişdiyi, hakimiyyətlərin bir-birini əvəz etdiyi həmin vaxtda xalqımızın neçə-neçə istedadlı simasının, görkəmli ziyalısının, tanınmış şəxsiyyətlərinin taleyi "borana-qara düşüb". Bu insanların adlarını saymaqla qurtarmaz. Belələrinin bir çoxu hadisələrin hökmü, şəraitin tələbi ilə Azərbaycanı tərk etməyə məcbur olub və bir də geriyə dönə bilməyib. Əksəriyyəti son mənzilə də qürbətdə köçüb.**

Həmin şəxsiyyətlər arasında Ceyhun bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Behbud xan Cavanşir, Mirzəbala Məmmədzadə, Almas İldırım, Qurban Səid, Xəlil bəy Xasməmmədov, Ziyadxanovlar və onlarca digər Azərbaycan ziyalısı və ictimai xadimi var. Həyatını xalqının azadlığına və müstəqilliyinə, tərəqqisinə, hərtərəfli inkişafına həsr etmiş, lakin tutduğu yolu axıradək başa çatdırmağa imkan tapmamış hüquqşünas, jurnalist, naşir, redaktor və dövlət xadimi Şəfi bəy Rüstəmbəyli də bu sıradadır.

Son nəfəsinədək əqidəsindən dönməyən, məsləkinə sadiq qalan Şəfi bəy cümhuriyyət dövrünün rusca yazan jurnalisti, "Azərbaycan"ı yaradan böyük insanların sırasında dayanan mühərrir, qəzetin rus variantının ilk redaktoru olub. O, "Azərbaycan" qəzetinin tarixində həm də parlamentə üzv seçilən ilk redaktor kimi də qalıb.

Milli mətbuatımızın 140 illik yubileyinin qeyd olunduğu bu günlərdə adını hörmətlə çəkdiyimiz Şəfi bəy Rüstəmbəylinin keçdiyi yola nəzər salmaq istərkən onun iki yaxın qohumu – Hacıağa Rüstəmbəyli və Əliağa Şahmalıyevlə görüşdük. Bu insanlar görkəmli yazarın, vətən fədaisinin həyatı, ictimai-siyasi fəaliyyəti haqqında maraqlı məlumatlarla dəstəkçimiz oldular. Onların hər ikisi xalqımızın ləyaqətli ziyalısı, elm adamı, professordur. Şəfi bəy Hacıağa müəllimin atasının, Əliağa müəllimin isə anasının əmisi olub. Beləliklə, Ş.Rüstəmbəyli haqqında eşitdiklərimizi, öyrəndiklərimizi, oxuduqlarımızı oxucularla bölüşürük.

Əvvəla qeyd edək ki, Şəfi bəy Mustafa bəy oğlu Rüstəmbəyli adı təkcə "Azərbaycan" qəzetinin deyil, ümumiyyətlə, Azərbaycanın istiqlal tarixində əbədi qalan görkəmli şəxsiyyətlərdəndir. O, 1893-cü ildə Ağdaş qəzasının Məmmədli kəndində dünyaya gəlmiş, orta təhsilini Gəncə klassik gimnaziyasında almışdır. 1911-ci ildə Kiyev Universitetinin Hüquq fakültəsinə qəbul olunmuşdur. Həmin ilin sonunda universitetdə yaradılmış "Azərbaycan Həmyerlilər Cəmiyyəti"nin ("Zemlyaçestvo") rəhbərlərindən biri seçilmişdir. Cəmiyyətin sədri Kiyev Universitetinin Tibb fakültəsinin tələbəsi Mir Əbülfət xan Talışlı, katibi Xəliyulla Yenikeyev, xəzinədarı Şəfi bəy Rüstəmbəyli idi. Onlar Rusiya imperiyasında təhsil alan müsəlman tələbələrin bir-biri ilə əlaqələrini yaratmaq və qurultay çağırmaq üçün xüsusi komissiya təşkil etmişdilər. Şəfi bəy həm də Ümumrusiya müsəlman tələbələrinin qurultayının nizamnaməsinin hazırlanmasında fəal iştirak etmişdi.



Qurultaya hazırlıq zamanı cəmiyyətin üzvü, Kiyev Ali Qadın kurslarının dinləyicisi Sona xanım Axundovanın mənzilində 1913-cü il aprel ayının 17-də komissiyanın birinci iclası olur. Elə bu vaxt polis, Şəfi bəy də daxil olmaqla, cəmiyyətin 17 üzvünü həbs edir. Bir aydan sonra həbs edilənlərin dilindən iltizam alınır və onlar azad olunurlar.

Kiyev həyatı Şəfi bəy Rüstəmbəylinin ictimai-siyasi dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. O, demək olar ki, həmin dövrün bütün siyasi hadisələrinin fəal iştirakçısı olur və bu proseslərin önündə gedir. Şəfi bəy müsəlman tələbələr arasında islami birlik yaratmağa çalışır. Bilir ki, Qafqaz canişinliyində məskunlaşan müsəlmanlar çox ağır vəziyyətdə yaşayırlar. Onlar Rusiya imperiyası vətəndaşlarının malik olduğu ən adi hüquqlardan belə məhrum idilər.

Ş.Rüstəmbəylinin ali təhsil aldığı ilk dövr böyük Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminli tərəfindən gizli şəkildə müsəlman demokratik "Müsavat" partiyası Kiyev şöbəsinin yaradıldığı vaxta təsadüf edir. Gənc ziyalının buradakı fəaliyyəti də onun siyasi baxışlarına güclü təsir göstərir, Şəfi bəyin gələcəkdə həm siyasi, həm də ictimai xadim kimi yetişməsində dərin iz buraxır.

Təsadüfi deyil ki, Ş.Rüstəmbəylinin adı Azərbaycanın ilk ali təhsilli və diplomlu hüquqşünasları sırasında çəkilir. O zaman təhsil almış gənc hüquqşünaslar vətəndə heç də həmişə öz peşə qabiliyyətlərini tam tətbiq edə bilmirdilər. Yəni buna imkan məhdud idi. Dövlət hüquq müəssisələrində yerlər azlıq təşkil edirdi, üstəlik də müsəlman hüquqşünasların işə məhdud sayda götürülməsi yerli idarəetmə müəssisələrinin nəzarətində idi. Yalnız Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bu "ənənə"yə son qoydu. Hətta hökumətin tərkibinə Əmircanov, Vəkilov, Cəfərov, Ziyadxanov, Rüstəmbəyli kimi hüquqşünaslar daxil edildi.

1916-cı ildə ali hüquqşünas diplomu ilə vətənə qayıdan Ş.Rüstəmbəyli bütün qadağalara, məhdudiyyətlərə baxmayaraq, bir müddət Gəncə Dairə Məhkəməsində vəkil kimi fəaliyyət göstərir, bu bölgənin ictimai-siyasi həyatında yaxından iştirak edir. 1917-ci ilin aprelində Bakıda çağırılmış Azərbaycan müsəlmanlarının qurultayında Azərbaycana muxtariyyat verilməsini qətiyyətlə tələb edən şəxslərdən biri olur. Elə həmin ilin mayında o, Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında iştirak edir, 1917-ci ilin iyun ayında azadlıq mübarizlərinin bir araya gəlməsi nəticəsində yaradılan "Türk Ədəmi-Mərkəziyyət Müsavat" partiyası mərkəzi komitəsinin 8 üzvündən biri də Şəfi bəy olur. O, 1917-ci il noyabrın 15-də təsis edilmiş Zaqafqaziya Komissarlığının və Seyminin Müsəlman fraksiyasının fəallarından idi. Həmin dövrdə Şəfi bəy Azərbaycan Milli Şurasının Tiflis və Gəncə bölmələrində çalışır, dövlət qurumlarının yaradılmasında böyük əmək sərf edir.

Nəhayət, müstəmləkə zülmünə qarşı mübarizə 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması ilə bitir. Cümhuriyyətin yaranmasında fəal iştirak edən Şəfi bəy "İstiqlal Bəyannaməsi"ni – Azərbaycanın müstəqilliyi barədə sənədi imzalayan Milli Şuranın 27 üzvündən biri olur. 1918-ci il sentyabrın 15-də Azərbaycan və rus dillərində xalq cümhuriyyətinin rəsmi orqanı "Azərbaycan" qəzeti öz nəşrinə başlayır. Şəfi bəy Rüstəmbəyli "Azərbaycan"ın rus dilində nəşrinin redaktoru təyin edilir. Onun ilk dörd nömrəsi Gəncədə nəşr olunur. Beşinci nömrədən isə Bakıda çıxmağa başlayır. Qəzetin səhifələrində ədibin ölkənin siyasi həyatına həsr edilmiş xeyli məqalələri dərc olunur.

Cümhuriyyət dövrünün "Azərbaycan"ının rus variantı ilə maraqlanarkən buradakı yazıların əksəriyyətinin Şəfi bəyin özü tərəfindən qələmə alındığı aydınlaşır. İrili-xırdalı bu yazılar müxtəlif mövzulara həsr edilib. Hər birində də müəllifin analitik düşüncəsi, sərrast ifadə tərzi, fərdi üslubu özünü göstərir. Bu məqalələrdə görkəmli yazarın vətənə, millətə sədaqəti, azadlıq, istiqlal ehtirası parlaq şəkildə təzahür edir. Şəfi bəyin peşəkarlıq məharəti toxunduğu problemlərin prioritetliyini üzə çıxarır, məsələnin mahiyyətini açıq göstərir, həm də onu daim diqqətdə saxlayır, gedişatı da izləyir. O, oxucusunu inandırmağın, onun qəlbinə və beyninə təsir etməyin, rəy formalaşdırmağın mahir ustası idi. Təbii ki, bütün bunlar jurnalist sənətkarlığı məsələləri ilə bağlı idi. Ş.Rüstəmbəyli publisistikasının məğzi, amalı, ideyası maarifçilik missiyasına xidmətin əsasını təşkil edirdi. Onun da qida mənbəyi müəllifin təhsilə, məktəbə, elmə, mədəniyyətə tükənməz sevgisi idi. Görkəmli ədibin siyasi yazılarında bu xətt xüsusi bir istiqamət kimi özünü göstərirdi. O, oxucusunu səfərbər etməyi bacarır, güclü məntiqi, müşahidə və təhlil etmək qabiliyyəti, ən doğru qənaətləri, nəticəçıxarma bacarığı ilə seçilirdi.

Qəzetdə erməni-daşnak quldurlarının Zəngəzurda, Naxçıvanda, Qarabağda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, soyqırımları, İrəvanda yaşayan həmyerlilərimizin acı taleyi, onların kütləvi surətdə məhv edilməsi və ata-baba torpaqlarından qovulması haqqında çoxlu məqalələr, məlumatlar dərc edilirdi. Ş.Rüstəmbəyli "Düşünmək vaxtıdır" məqaləsində "Daşnaksütyun" partiyasının şovinist, qarşıdurma və terrorçuluq xəttini tənqid edərək yazırdı: "Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, nə qədər ki gec deyil ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır". Ədib bu məsələnin həlli vaxtının çatdığını, bu barədə düşünməyin vacibliyini diqqətə çəkirdi.

Şəfi bəy məqalələrinin bəzilərini öz imzası ilə yazır, bəzilərinə isə sadəcə "Azərbaycan" imzası qoyurdu. Qəzetin maraq doğuran yazılarından biri də jurnalistin tanınmış ictimai xadim və publisist Əhməd bəy Ağayevlə siyasi hadisələr haqqında müsahibəsidir. Müsahibənin "Qafqazın gələcəyi" bölməsində jurnalistin həmsöhbəti deyir ki, Qafqaz xalqlarının hər birinin öz varlığını digərlərindən təcrid olunmuş halda qoruyub saxlaya biləcəkləri barədə fikir irəli sürənlər çox səhv edirlər. Onlar yalnız birlikdə böyük qüvvə yarada bilərlər. Daha sonra müsahibədə Azərbaycan və Rusiya münasibətlərinə toxunulur. Qeyd edilir ki, Azərbaycanda rus xalqına, o cümlədən burada yaşayan ruslara qarşı heç bir düşmənçilik hissi yoxdur.

"Azərbaycan"ın rus variantı da o zaman dövrünün salnaməsinə çevrilmişdi. Məsələn, 1918-ci il noyabrın 4-də qəzetdə "İrəvan quberniyasında müsəlmanların vəziyyəti" sərlövhəli maraqlı yazı gedib. Yazıda özlərini Azərbaycanın bir hissəsi hesab edən İrəvan müsəlmanlarının nümayəndə heyətinin Bakıya gəlişi barədə məlumat verilir. Belə ki, Azərbaycan hökumətin-

dən onların təhlükəsizliyi üçün tədbirlər görülməsini, Ermənistan hökuməti ilə danışıqlar aparaq İrəvan müsəlmanlarının öz yerlərinə qaytarılmasını xahiş edirlər.

Elə həmin ayın 13-də Şəfi bəy öz inisialları ilə imzaladığı (R.Ş.) məqalə isə "Azərbaycan Milli Şurasının çağırılmasına dair" adlanır. "Ölkəmiz müstəqil parlament həyatına daxil olur" sözləri ilə başlanan yazı Azərbaycanın ovaxtkı ictimai-siyasi durumunu açıqlayır, ona qiymət verir. Şəfi bəy yazır ki, söhbət Tiflisdə yaradılan Milli Şuranın fəaliyyətindən gedir. Milli Şuranın yaradılması Azərbaycanda anarxiyanın zirvə nöqtəsinə çatdığı, Bakının bolşevik-daşnak quldurları tərəfindən ələ keçirilməsi ilə bir vaxta düşmüşdür. Burada fəaliyyət göstərən Milli Şura həmin səbəbdən Şərqi Zaqafqaziya ilə əlaqəsini itirmişdi. Nəticədə bir neçə aylıq mövcudluğu dövründə onun fəaliyyəti barədə nəinki əhalinin geniş təbəqələri, hətta Azərbaycanın bir çox siyasi xadimi də xəbərsiz olmuşdur. Məqalədə Milli Şuranın Azərbaycanın siyasi həyatında gördüyü işin çətinliyi barədə məlumat verilir: "Zaqafqaziya Seymi çağırılarkən bolşeviklər və daşnaklar Bakıda dərin kök salmış, milli təşkilatlarımızın hər cür ictimai və siyasi fəaliyyətini iflic etmişdi. Buna müəyyən dərəcədə daxili çəkişmələr və partiyalar arasında fikir ayrılıqları da səbəb olmuşdur... Zaqafqaziya Seyminin və onunla birlikdə qısa müddətdə fəaliyyət göstərmiş Müsəlman Milli Şurasının mövcudluğu dövrü Zaqafqaziya ilə Osmanlı imperiyası arasında münasibətlərin tənzimlənməsinə həsr olunmuşdur.

Hökm sürən anarxiya səbəbindən öz xalqından ayrı düşmüş Müsəlman Milli Şurası özünün siyasi fəaliyyəti və inadkarlıqla həyata keçirdiyi planlar barədə seçicilərini məlumatlandırmaq imkanından məhrum olmuşdur. Bundan əlavə, siyasi nöqteyi-nəzərdən və ovaxtkı şərait səbəbindən bir çox məsələlər geniş açıqlanmırdı. Həmin vaxt xalq instinktiv olaraq özünün fiziki mövcudluğunun xilası üçün xarici real qüvvəyə ehtiyac duyurdu. Xalqın nəzərləri qardaş Osmanlı ordusu tərəfinə yönəlmişdi. O öz xilasını osmanlı əsgərlərində görürdü".

Məqalədə həmçinin çox narahatlıqla vurğulanırdı ki, Tiflisdə müsəlman fraksiyası ağır və düşmənçilik atmosferi mühasirəsində idi – erməni və gürcü rəhbərlər müsavatçıları Osmanlı imperiyasının casusları kimi qələmə verir və dəfələrlə Zaqafqaziya Seyminin tribunasından onları satqın adlandırırdılar. Bütün iri siyasi məsələlər, xüsusilə beynəlxalq məsələlər müsəlman fraksiyasından, hətta hökumətin müsəlman üzvlərindən gizli şəkildə həll olunurdu...

Daha sonra müəllif yazırdı: "Osmanlı imperiyası Azərbaycan xalqının iradəsini nəzərə alaraq köməyə gəldi. Beləliklə, ölkənin ali orqanı kimi Milli Şuranın qarşısına qoyulmuş tarixi missiya həyata keçirildi. Osmanlı qoşunlarının hərtərəfli köməyi ilə Azərbaycan hökuməti özünün quruculuq işini davam etdirdi. Hər bir halda yenidən həyata qayıdan Azərbaycan Milli Şurası Azərbaycan dövlətçiliyinin həyatında böyük tarixi rol oynadı. Bəlkə də onun fəaliyyətində xeyli səhvlər olmuşdur. Lakin heç bir iş görməyən səhv etmir".

Bu analitik məqalədə sanki dövrün salnaməsi məntiqli, uzaqgörən şərhlərlə açıqlanmışdır.

Daha bir neçə gün sonra – noyabrın 17-də Şəfi bəy həmin mövzuda növbəti iri bir məqalə ilə çıxış edir ki, bu da əvvəlki yazının davamı təsirini bağışlayır.

Şəfi bəy Rüstəmbəyli qəzetdə ən müxtəlif janrlara müraciət edirdi. Məsələn, 1918-ci il dekabrın 7-də "Azərbaycan Respublikasının yaranma tarixi" adlı qəzet oçerkini yazır. O, bu məqaləni "Azərbaycan" imzası ilə verir. Əslində isə bu, kiçik bir tarixi əsərdir. Belə ki, yazıda Azərbaycanın ovaxtkı vəziyyəti, eləcə də onu əhatə edən Rusiya, Türkiyə, Gürcüstan kimi ölkələrin durumu, bizə münasibəti öz əksini tapır.

Şəfi bəy və onun qəzeti cümhuriyyətin son günlərinədək birlik, azadlıq, istiqlal qayəsi ilə işləyib, məqsədini, məramını dəyişməyib.


АЗЕРБАЙДЖАНЪ
ШЛИМАКЪ
МАСКА, КОТОРАЯ СМѢЕТСЯ
СКАЖИ ЗАЧѢМЪ
ПОЛИТЕХНИКУМЪ
КЛЮЧИ СЧАСТЬЯ
English Lessons
Объявленіе.
ОБЪЯВЛЕНІЕ.
Ч А Й
І. И. ИРМЕСЪ
ОБЪЯВЛЕНІЕ

İndi, illərin arxasından baxanda "Azərbaycan" qəzetinin rus variantının da əhəmiyyətini aydın görmək olur. Əvvəla, bu, cümhuriyyət dövründə də rus və digər xalqların Azərbaycanda yaşayan nümayəndələrinin maraqlarının nəzərə alınması demək idi. Digər tərəfdən, rusca çıxan "Azərbaycan" həm də tarixə töhfə idi. Şəfi bəyin siyasi fəaliyyəti və məntiqli, yüksək səviyyəli məqalələri, verdiyi çoxsaylı şərhlər onun hazırlıqlı siyasi xadim olduğunu göstərirdi. O, azərbaycançılıq ideyasının inkişafında mühüm rol oynayan yaradıcı ziyalılarımızdan biri, ömrünün sonunadək xalqının istiqlalı uğrunda mübarizə aparan vətən fədailərindən idi.

Yüksək intellekti, dərin biliyi, zəhmətsevərliyi və əlbəttə ki, seçdiyi yola sədaqəti, məsləki nəzərə alınaraq Ş.Rüstəmbəyli 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin üzvü seçilir. Sonra parlamentin mandat komissiyasının sədri, Müəssislər Məclisinin çağırılması üzrə mərkəzi komissiyanın tərkibinə daxil olur. "Türk Ədəmi-Mərkəziyyət Müsavat" partiyasının birinci (1917, 26-31 oktyabr) və ikinci (1919, dekabr) qurultaylarında mərkəzi komissiyanın üzvü, ikinci qurultayda həm də partiya sədrinin müavini seçilir.

Dövrünün uzaqgörən siyasi xadimi olan Ş.Rüstəmbəyli qəzet redaktoru olmaqla yanaşı, əvvəlcə xalq cümhuriyyətinin Daxili İşlər Nazirliyinin dəftərxana müdiri, 1920-ci il martın əvvəlindən isə nazir müavini vəzifəsini yerinə yetirir.

Şəfi bəy 1919-cu ildə milli mətbuat haqqında ilk qanunu işləyərək onun parlament tərəfindən qəbul edilməsinə nail olur. Qanun layihəsi barədə geniş məruzə edir. Həmin sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi, mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır. Düzdür, mətbuat azadlığına yekdilliklə tərəfdar olan parlament üzvləri bu qanun layihəsini ən ciddi sənədlərdən biri hesab edirdilər. Bununla belə, layihənin parlamentə hər üç oxunuşu qızğın müzakirələrlə keçirdi. "Hümmət" partiyası və onun sosialist fraksiyası layihənin əleyhinə çıxır və bildirirdilər ki, mətbuatı heç bir qanunla məhdudlaşdırmaq olmaz. Bu, demokratiya və müstəqil dövlətçilik prinsiplərinə ziddir. Maddələrin ayrı-ayrı müzakirəsi zamanı mətbuata ümumi nəzarət və rəhbərlik haqqında, redaktorun təbəəliyi, təhsil, yaş senzi, mətbəə yaradılmasına icazə verilməsi barədə maddələr geniş diskussiya doğururdu. İclasların birində bəzi bəndlərin qəbul olunması ilə razılaşmayan sosia-

listlər salonu nümayişkaranə tərk etmişdilər. Lakin Şəfi bəy hər maddənin, hər bəndin izahını verir, deputatların fikirlərinə, düzəlişlərə böyük həssaslıqla yanaşırdı. Qanun layihəsi oktyabrın 23-dən 30-dək parlamentin 87-90-cı iclaslarında müzakirə edildi və üçüncü oxunuşda bir deputat bitərəf qalmaqla, 21 səsə qarşı 28 səslə qəbul olundu.

Tarix çox həqiqətləri olduğu kimi hifz edib saxlamağa qadirdir. Əgər Azərbaycan Cümhuriyyətinin 1918-ci ilə aid iclas stenoqramlarını arayıb-axtarıb oxusaq, görərik ki, buradakı müzakirələrdə ən çox Şəfi bəy çıxış edib. O, əvvəla, parlamentin üzvü idi. Bir hüquqşünas kimi çox savadlı və bilikli idi, dərin mühakiməsi, hadisələrə öz münasibəti vardı. Qatı müsavatçı idi. 1918-ci ildə Zaqafqaziya Seyminin də üzvü kimi Müsavat fraksiyasında iştirak etmişdi. M.Ə.Rəsulzadə və M.H.Hacınski Trabzonda və Batumidə gedən danışıqlarda iştirak etdikləri zaman fraksiyanın mövqeyini qətiyyətlə müdafiə edən məhz Şəfi bəy olmuşdu. Təkcə bu faktın özü, həm də Ş.Rüstəmbəylinin cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin baş redaktoru olması və bir müddət daxili işlər nazirinin müavini vəzifəsində çalışması onun bacarıqlı, təşkilatçı və məsləkinə sadiq, vətənini sevən əsl mücahid olduğunu təsdiqləyir.

Təəssüf ki, Şəfi bəyin istiqlal arzuları yarımçıq qalır. Cümhuriyyətin çökməsini 27 yaşlı Şəfi bəy böyük üzüntü ilə qarşılayır. Xatırladaq ki, o, cümhuriyyətin ən gənc liderlərindən biri idi.

1920-ci il aprelin 27-də keçirilən son iclasda M.Ə.Rəsulzadə çıxış edir. Deyir ki, bizim partiya təslim olmağın əleyhinədir. Lakin vətəndaş qarşıdurmasına getməmək üçün və bir sıra başqa şərtlərə görə (6 belə şərt vardı) onlar hakimiyyəti verməyə məcburdurlar. Stenoqramda yazılıb ki, hakimiyyəti təhvil vermək məsələsi elan olunanda arxadan səs gəlir. Baxıb görürlər ki, Şəfi bəy hönkürtü ilə ağlayır...

1920-ci ilin aprelində Azərbaycanın bolşevik işğalından sonra o, Tiflisə köçməyə qərar verir. Lakin digər cümhuriyyət liderləri kimi, onun da Azərbaycanda qalan doğmaları təqib olunur. Şəfi bəyin atası Mustafa bəy və qardaşı Hacı bəy amansızcasına qətlə yetirilirlər. Ölüm məqamında Mustafa bəy özünün oğlundan əvvəl güllələnməsini xahiş edir. Qırmızı qatillər buna da məhəl qoymur, Hacı bəyi atasının gözləri qarşısında vəhşicəsinə öldürürlər.

Bütün bu keşməkeşlər, ağır iztirab verən hadisələr Şəfi bəy Rüstəmbəylini ruhdan salsa da, o, məsləkindən, əqidəsindən dönmür, Tiflisdə sakitcə həyat sürmək istəmir. Burada Şəfi bəyin rəhbərliyi ilə "Azərbaycanı xilasetmə komitəsi" yaranır. 1921-ci ilin fevralında sovet hakimiyyəti Gürcüstanı da işğal edir. Şəfi bəyin fəaliyyəti burada da yarımçıq qalır. Mübarizənin mümkün olmadığını görən ədib İstanbula köçür və orada mühacir həyatı yaşayır.

Türkiyədə imkanı və gücü çatdığı qədər mübarizəsini davam etdirir. Məqsəd qırmızı ordunun istilasından əzab çəkən vətəninə kömək etmək idi. Lakin bu, nə dərəcədə mümkün idi?..

Ş.Rüstəmbəylinin iştirakı ilə İstanbulda 1923-1927-ci illərdə "Yeni Qafqaziyyə", 1928-1931-ci illərdə "Azəri türkü", 1928-1930-cu illərdə "Odlu yurd" və 1932-ci ildə "Azərbaycan yurd bilgisi" jurnalları nəşr olunur. Təcrübəli mühərririn qələmindən çıxan hər məqalə maraqla oxunur!

O dövrdə xaricdə yaşayan mühacirlərin durumu çox ağır idi. Şəfi bəy də onlardan biri kimi bu cəhətdən əziyyət çəkirdilər. Lakin təqdirəlayiq hal idi ki, öz güzəranını qura bilən mühacirlər digərlərinin də dolanışığına kömək edirdilər. Onlar Şəfi bəyi də çətinlikdən çıxardılar. Mənbələrdən birində deyilir: "Şəfi bəyə kömək etdilər. Xəlil bəy Xasməmmədlidən, Ziyadxanovlardan, Xan Xoyskilərdən, Əmircanovlardan da orada yaşayanlar vardı – onlar kömək etdilər və o, təsər-

rüfatla məşğul olmağa başladı... Ferması vardı. Mağazaları da olub... 30-cu illərdən sonra isə Şəfi bəyin siyasi fəaliyyətini görmürük". Düzdür, bütün bunlar Şəfi bəyi yoxsulluqdan, aclıqdan xilas etsə də, bu barədə oxumaq və düşünmək bir qədər acınacaqlıdır. Çünki belə bir qələm sahibinin, görkəmli ziyalının bu cür işlərlə məşğul olması yalnız taleyin ədalətsiz hökmü idi!

Şəfi bəy Rüstəmbəyli haqqında onun öz doğmalarının dilindən qısaca bir məlumatı eşitmək belə çox maraqlıdır. Mühacir həyatı yaşayan ədibin qohumları çoxdur, lakin özünün ailəsinin olub-olmadığı barədə tam dəqiq söz deyən yoxdur. Yaxın qohumu – qardaşı nəvəsi Əliağa Şahmalıyev söyləyir ki, deyilənlərə görə, Şəfi bəy Sara adlı qəbələli xanımla evlənib, amma övladları olmayıb. Sonradan Şəfi bəyin Türkiyədə də evləndiyi ehtimal edilir. Bu izdivacdan da yadigarı qalmayıb. Doğrudur, Şəfi bəyin qızı olduğunu deyən bir xanım onları axtarıb tapıb. Qohumlar onunla görüşüblər. Lakin üst-üstə düşməyən tarixlər, hadisələr həmin xanımın başqa bir Şəfi bəyin övladı olduğunu göstərib.

Əliağa müəllim həmçinin Türkiyədə Şəfi bəyin baldızının (orada evləndiyi qadının bacısının) yaşadığını söyləyir. Adı, olsun ki, Pinar Kürdür. Yazıçılıqla məşğul olan bu xanım bildirib ki, onda Şəfi bəyin bir çox məqalələri, haqqında materiallar var. Onları yalnız qohumlarına verə bilər.

Nə etməli ki, uzun illər Şəfi bəyin adını belə çəkmək təhlükəli olub. Hətta doğmaları öz soyadlarından "bəy" sözünü çıxarıb ataraq "Rüstəmov" kimi sənəd alıblar. Təqiblərdən, güllələrdən, sürgünlərdən, böyüməkdə olan yeni nəslin taleyinə enəcək zərbələrdən qorxublar. Hətta Şəfi bəyin qürbətdə sağ olduğu barədə xəbərlər eşidəndə vahimələnib, dəhşətləniblər. Çünki zaman, dövr belə amansız olub, bu nəslin gözləri çox vəhşiliklər, dəhşətlər görüb...

Şəfi bəyin yaxın qohumu Hacıağa müəllim nənəsindən və valideynlərindən onun haqqında çox eşitdiyini söyləyir. Belə ki, Şəfi bəy Azərbaycanın Ərəş mahalının sayılıb-seçilən bəy ailələrindən birinin övladı olub. O zaman indiki Ağdaş, Göygöl, Qəbələ rayonlarının ərazisi Ərəş mahalında birləşirmiş. Şəfi bəy dörd qardaşın biridir: Hacı bəy, Cəfər bəy, Baxış bəy və Şəfi bəy. Onlardan Cəfər bəy və Şəfi bəy mükəmməl təhsil alıblar. Qohumu Şəfi bəyin fəal həyat mövqeyinə malik bir insan olduğunu söyləyir. Dörd dil, o cümlədən rus və fransız dillərini mükəmməl bilirmiş.

Deyilənlərə görə, sovet hakimiyyəti belə şəxsi həbs etmək deyil, birbaşa güllələmək qərarında imiş. Ona görə də Şəfi bəy cümhuriyyətin süqutundan dərhal sonra Azərbaycanı tərk etməli olur. Ağdaşdan keçərkən doğmalarına xəbər göndərir ki, ona dəyişək paltar çatdırsınlar. Lakin göndərilən şeylər ona onsuz da çatmır. Çünki izləndiyini hiss edən kimi yoluna davam etmiş olur.

Bəli, həyatını Azərbaycanın müstəqilliyinə, istiqlaliyyətinə həsr edən bir insanın bu yüksək amallarına görə "mükafat"ı bütün nəslinin onilliklər boyu "gözüqıpıq, gözükölgəli" qalması olub. Nəslin neçə nümayəndəsini qətlə yetiriblər...

Vurğulayaq ki, sovet hökuməti Mustafa bəyi məhz Şəfi bəyin atası olduğu üçün güllələyib. Hərçənd Mustafa bəyin özünün də cümhuriyyətə həddindən artıq rəğbəti olub. O, Qəbələ bölgəsində sayılıb-seçilən insanlardan idi. İndiyə qədər də o tərəfdə "Mustafa bəyin torpaqları, körpüsü, çəkdiyi yol" anımları xalqın dilində və xatirəsində yaşayır. Hətta Qəbələnin Pirəli kəndindəki evi indi də durur. M.Ə.Rəsulzadə özünün "Azərbaycan Cümhuriyyəti" kitabının sonunda verdiyi "Azərbaycan qurbanlarından bir listə"dəki istiqlal şəhidləri sırasında "Ağdaş əyanından" Rüstəmbəyli Mustafa bəyin də adını çəkmişdi. O, cümhuriyyət ordusuna 20 min çəkmə bağışlamış, onları paltarla, ərzaqla təmin etmişdi.

Sovetlərin gülləsi Şəfi bəyin qardaşı Cəfər bəyin də həyatına son qoymuşdu. Bu insan çox gözəl həkim, ziyalı idi, eyni zamanda Azərbaycan hökuməti 1919-cu il martın 19-dan doktor C.Rüstəmbəylini Kuban hökuməti yanında diplomatik nümayəndə təyin etmişdi. Həmin ilin iyun ayının 26-da ona Azərbaycan Xalq Cümhuriyyətini Don hökuməti yanında təmsil etmək mandatı da təqdim olunmuşdu. 1919-cu il sentyabrın 24-də Azərbaycanın Kubanda və Donda nümayəndəsi Cəfər bəyə Cənubi Rusiya Silahlı Qüvvələri Baş Komandanlığı yanında Xalq Cümhuriyyətinin mənafeyini müdafiə etmək səlahiyyəti də verilmişdi. 1919-cu ilin sonunda Denikinin Kuban Radasına qanlı divan tutması və Azərbaycana qarşı açıq düşmənçilik münasibəti bəsləməsi nəticəsində AXC-nin diplomatik nümayəndəsi Yekaterinodarı tərk edərək Bakıya dönmüşdü. Sonra Cəfər bəy xeyli müddət Tiflis şəhərinin baş terapevti olur. Bu ərəfədə, yəni 1924-cü ildə Şəfi bəylə də İstanbulda görüşür.

O vaxt Azərbaycanın rəhbəri Mir Cəfər Bağırov C.Rüstəmbəylini Bakıya dəvət edir və cəmi 6 aydan sonra güllələnməsinə hökm verir. Güllələnmədən əvvəl onu məhbəsdə xeyli ac saxlayıb olmazın işgəncə və əzabla sınağa çəkiblər. Yalnız bundan sonra hökmü yerinə yetiriblər. Bu da amansız münasibətin bir növü idi. Bir faktı xatırladaq ki, Cəfər bəy 1931-ci ildən tutulana kimi Zaqafqaziya Dəmir Yolu İdarəsinin səhiyyə şöbəsində işləyib.

Əliağa müəllimlə söhbət zamanı bir fotoşəkil diqqətimizi cəlb etdi. Şəkildə Şəfi bəyin yanında 3-4 yaşlı iki oğlan uşağı var idi. Əliağa müəllim deyir ki, bu foto 1927-ci ildə İstanbulda çəkilib. Həmin ağır, qarışıq illərdə Şəfi bəy doğmalarının təqib olunduğunu, acınacaqlı vəziyyətdə yaşadıqlarını yaxşı bilirdi. Ona görə də ailəsinə xəbər yollayır ki, heç olmasa kiçik yaşlı qardaşı uşaqlarına xətər dəyməsin deyə onları sərhəddən keçirib yanına göndərsinlər. Cəfər bəyin və Hacı bəyin oğlanlarını – Bəhram bəyi və Şükür bəyi gizli yolla İstanbula aparıb Şəfi bəyə təhvil verirlər. Bu insan həmin uşaqları bəlkə də ölümlərdən, təzyiq və təqiblərdən qurtarır. Onları böyüdür, oxutdurur, işlə təmin edir, hər cür şərait yaradır. Bəhram bəy Londonda, Şükür bəy Sorbonna Universitetində təhsil alır. Biri San-Fransiskoda, digəri İngiltərədə yaşayır. Amma onların da ömürləri qısa olur. Bəhram bəy ağır yol qəzasına düşüb faciəli şəkildə həyatdan gedir. Şükür bəy isə xəstələnib vəfat edir. Bu da taleyin bir hökmü imiş...

Türk yazıçısı Murat Gulçunun 1990-cı ildə İstanbulda nəşr olunmuş "Erməni intriqalarının pərdəarxası: Torlokyan davası" kitabı da Şəfi bəyin həyat yollarına müəyyən qədər işıq tutur. Bu kitab cümhuriyyətin daxili işlər naziri Behbud xan Cavanşirin qatili, erməni əsilli Torlokyanın məhkəmə prosesindən bəhs edir. Məlum olduğu kimi, istiqlal mücahidi Behbud xan Cavanşir 1921-ci ilin iyul ayında İstanbulun "Pere-Palas" hotelinin qarşısında qətlə yetirilir və onun qatili Torlokyanın məhkəməsi o zaman ingilis işğalı altında olan İstanbulda keçirilir.

Düşünmək olar ki, bu hadisənin Şəfi bəyə nə dəxli var? Məsələnin məğzi budur ki, Behbud xan tərəfdən məhkəmədə iştirak edən 6 şahiddən biri məhz Ş.Rüstəmbəyli idi.

Məhkəmədə şahid qismində ilk ifadə verən də Şəfi bəy olur. Burada onun istər hüquqşünas, istərsə də jurnalist kimi qabiliyyəti özünü tam göstərir. Belə ki, dəlil-sübutlar gətirir, hadisəni hamı üçün anlaşıqlı, rəvan dildə, savadlı şəkildə danışır. Şəfi bəy prokurorun, hakimin, vəkillərin suallarına güclü məntiqlə, böyük səbirlə cavab verir və yeri gəldikcə hətta sərtləşir.

Lakin məhkəmənin gedişi gözlənilmədən başqa bir istiqamət alır. Şəfi bəyə Azərbaycandakı fəaliyyəti barədə suallar verir və onu çaşdırmağa çalışırlar. Cinayətkar rahat oturduğu halda, sanki Şəfi bəy müttəhimə çevrilir. Ona məhkəmədə verilən qərəzli suallar çox söz deyir. Bunlar Şəfi bəyin qəzetçilik fəaliyyətini işıqlandırmaq üçün bəlkə də bir istiqamət rolunu oynaya bilər.




Suallar belə idi: "1918-ci ildə Bakıda partiyalar var idimi?", "Bu partiyaların birinə mənsub idinizmi?", "Azərbaycan" qəzetində fəaliyyətiniz nədən ibarət idi?", "Hansı mövzularda məqalələr yazırdınız?" və s.

Vəkil Hasruyanı Şəfi bəyin "İrəli" qəzetində dərc olunan məqalələri daha çox narahat edirdi. Odur ki, bu məqalələrə təkrar-təkrar qayıdır, "niyə yazdın, necə yazdın, faktları haradan götürdün" kimi suallar verir, fikri əsas məsələdən yayındırırdı. Bütün bunlara dözməyən Şəfi bəy məhkəmənin gedişinə kəskin etirazını bildirir və işin düzgün aparılmasını tələb edirdi. Onun üsyanı Hasruyanı çaşdırır və vəkil hazırladığı protokolda bunu belə ifadə edir: "...İndi şahidlərin gerçək durumlarını meydana qoymaq istəyirəm. O şahidlər kimlərdir? "Müsavat" partiyası üzvlərindən "Azərbaycan" qəzetinin redaktoru Şəfi bəy Rüstəmbəyli. Bu, elə bir qəzetdir ki, doğum tarixi və taleyi hər kəsə bəllidir. Dərhal əlavə edim ki, möhtərəm redaktor məndə bu təsiri yaratmışdır".

Çox təəssüf ki, məhkəmə prosesində cinayət tam sübut edilsə də, tribunalın qərarı ədalətsiz və sarsıdıcı olur. Qatil bəraət alır və cəzasız qalır.

Nəhayət, Məhəmməd Əmin Rəsulzadə və Şəfi bəy Rüstəmbəyli ziddiyyətləri barədə... Cümhuriyyətin tarixində böyük rolu olan bu iki şəxsiyyətin bir-birinə münasibəti də maraq doğuran və müxtəlif mülahizələrə səbəb olan mövzudur.

Deyilənlərə görə, Şəfi bəyin Türkiyədə qələmə aldığı bir sıra yazıları, məsələn, "Yıxılan bütlər", "Rəsulzadənin fəci süqutu" kitabları bəzi qruplaşmaların təsiri ilə yaranıb. Kitablardan birinə M.Ə.Rəsulzadə "Şəfibəyçilik" yazısı ilə cavab verib. Bu da Şəfi bəyin siyasi həyatda bir daha görünməməsinə səbəb olub.

Belə mülahizə yürüdənlər də var ki, o zaman ÇK (Fövqəladə Komissiya) Rusiya və Qafqaz mühacirləri arasına düşmənçilik salmağa və onların bir-biri ilə əlaqəsini parçalamağa çalışırdı. Bəziləri isə ziddiyyəti Rüstəmbəylinin xaricdə təhsil alması, dərin savada malik olması və bu cəhətdən Məhəmməd Əmin Rəsulzadəni üstələməsi, nəticədə onların bir çox hallarda bir-birini çətin başa düşməsi ilə izah edirlər.

Bəs faktlar nə deyir? Tədqiqatçıların araşdırmalarına görə, Ş.Rüstəmbəyli “Müsavat” partiyasının xarici bürosunun fəal üzvü olmuşdur. Partiyanın rəhbərliyində təmsil olunan Şəfi bəy Xəlil bəy Xasməmmədli ilə birlikdə müstəqil fəaliyyəti üstün tutmuşdur. Onların Azərbaycan Milli Mərkəzinin (İstanbul) fəaliyyətinə üstünlük vermələri müsavatçıların kəskin etirazına səbəb olmuşdur. Nəticədə müsavatçılar arasında təfriqə baş vermiş, Şəfi bəy və Xəlil bəy İstanbul təşkilatından xaric edilmişlər. M.Ə.Rəsulzadə "Şəfi bəy heç bir mərkəzə lüzum olmayıb, hər şöbənin özbaşına müstəqil olaraq çalışması tezisini müdafiə edirdi" deyirdisə, Şəfi bəy də Rəsulzadəni "əmrinə tabe olan tərəfdarlarını milli və firqə təşkilatından ayırıb yeni qrup təşkil etməklə yeni ixtilafa yol açmaqda" ittiham etmişdir. 1934-cü ildə dərc edilən bir neçə kitab mühacirlər arasındakı parçalanmaları daha da dərinləşdirmişdir. Rüstəmbəylinin "Yıxılan bütlər", Nağı Şeyxzamanlının "Biz və onlar" əsərləri müqabilində Rəsulzadə "Şəfibəyçilik" əsərini yazmışdır.

Ş.Rüstəmbəyli Xəlil bəylə birgə Qafqaz xalqlarının birliyi ideyasının qatı tərəfdarı olmuş, onun reallaşmasına çalışmışdır. 1943-cü ildə Berlində keçirilmiş Milli Birlik Məclisinin Ümumazərbaycan qurultayında rəyasət heyətinin fəxri üzvü seçilmişdir.

Hər halda cümhuriyyət qurulan vaxt Məhəmməd Əminlə Şəfi bəyin münasibətləri çox yaxşı olub. Hər iki istiqlal mücahidi eyni məqsədə, məsləkə qulluq edib, vətən fədaisi, şəxsiyyət olublar.

Ş.Rüstəmbəyli 1960-cı ildə Türkiyədə dünyasını dəyişib və son mənzilinə də orada qovuşub. 67 illik ömrünün 40 ilini qürbətdə keçirsə də, hər an qəlbində Azərbaycanı gəzdirib, son nəfəsində də "Azərbaycan", "Vətən" deyib.

Şəfi bəy o parlaq şəxsiyyətlərdəndir ki, vətəni üçün hələ çox böyük işlər görə bilərdi. Lakin zalım dövran buna aman vermədi. Ş.Rüstəmbəyli daim xatirimizdədir. Dövlət xadimi, vətəndaş, hüquqşünas və ən çox mühərrir kimi...

# "AZƏRBAYCAN"ın ilk redaktoru – *Ceyhun Hacıbəyli*

**Azərbaycanın ədəbi-mədəni, mətbu, ictimai-siyasi həyatında parlaq iz qoymuş, lakin sovet rejiminin və bolşevik ideologiyasının mövcud olduğu illərdə irsi, şəxsiyyəti unutdurulmağa cəhd edilən yazıçı-publisist, tərcüməçi, naşir, redaktor, folklorşünas, sovetoloq, diplomat, ictimai xadim, Azərbaycanın istiqlal mücahidi, mühacirətin fəal üzvlərindən və təşkilatçılarından biri Ceyhun Hacıbəyli xalqımızın tarixində və taleyində intibah dövrü kimi dəyərləndirilən XX əsrin əvvəllərində yetişən görkəmli xadimlərlə bir sırada durur. Azərbaycan istiqlal mücadiləsi və mətbuatı tarixində mühüm xidmətləri olan Ceyhun Hacıbəyli haqqında daha dolğun təəssürat yaratmaq üçün onun həyatı, fəaliyyəti və yaradıcılıq yolunu xronoloji ardıcıllıqla izləyək.**

## Şuşadan başlanan yol

Ceyhun bəyin təvəllüd tarixi ilə bağlı müxtəlif mənbələrdə fərqli tarixlərə təsadüf edilir. Onun vəfatı ilə əlaqədar Münxendə nəşr olunan "Naşe obşoye delo" adlı mühacir qəzetinin 1962-ci il 21 oktyabr tarixli 157-ci nömrəsində oxuyuruq: "C.Hacıbəyli 1891-ci il fevralın 3-də Şuşada (Azərbaycan) anadan olmuşdur. Orta təhsilini Şuşa və Bakının realnı məktəblərində almış, sonra Peterburq Universitetinə daxil olaraq hüquq fakültəsini bitirmişdir. Daha sonra o, Parisin Sorbonna Universitetində Ali Texniki Məktəbdə oxumuşdur". Salman Mümtaz adına Azərbaycan Respublikası Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində C.Hacıbəylinin fondunu işləyən arxeoqraf A.Aslanov sənədin müqəddimə hissəsində yazır ki, C.Hacıbəyli 1891-ci ildə fevral ayının 2-də məşhur Hacıbəyli qardaşları – Üzeyir, Zülfüqarın ailəsində anadan olmuşdur. Müəllif "fevralın 2-si" tarixini hansı məxəzdən aldığını göstərməsə də, fakt özlüyündə maraq doğurur. Bundan xeyli əvvəl – 1987-ci ildə arxivşünas Mövsüm Əliyev "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi *(№ 41 (2280))* "Ceyhun Hacıbəyli" adlı məqaləsində də Ceyhun bəyin 1891-ci il fevralın 2-də anadan olduğunu yazmışdı. Jozef Kastani adlı müəllif Parisin aylıq illüstrasiyalı "Frans-islam" adlı jurnalın 29-cu nömrəsində (1925-ci il) dərc etdirdiyi "Azərbaycanın teatrı Parisdə" adlı məqaləsində C.Hacıbəylinin 1891-ci ildə anadan olduğunu yazır. Ay və gün göstərilmir. Məsələ burasındadır ki, doğum günü barədə dolaşıqlığı Ceyhun bəy elə özü yaratmışdır. Parisdə öz xətti ilə doldurduğu anketlərdən birində təvəllüd tarixini "1891-ci il 3 fevral" göstərmişdir. 60-cı illərin əvvəllərində – ömrünün sonuna yaxın qələmə aldığı "İlk Azərbaycan operası necə yaranmışdır" əsərini C.Hacıbəyli belə başlayır: "Musiqi lap kiçik yaşlarımızdan qardaşım Üzeyirlə (o məndən üç yaş böyük idi) məni cəlb etmişdir". Təvəllüdlə bağlı məsələ maraqlı olsa da, onu şişirtməyə ehtiyac görmürük. Oğlu Timuçin Hacıbəyli, Azərbaycan Xalq Cümhuriyyəti nazirlərindən Mustafa Vəkiloğlu *("Parisdə daha bir məzar". "Mücahid" jurnalı, № 53-54, 1962)*, eləcə də silahdaşları Mehmet Altunbay, Məcid Musazadə, Əbdürrəhman Fətəlibəyli Düdənginski, həmçinin tədqiqatçıların əksəriyyəti Ceyhun Hacıbəylinin 1891-ci il 3 fevralda



anadan olduğunu yazmışlar. Belə hesab edirik ki, bu fakta diqqəti çəkməklə həm məsələyə bir aydınlıq gətirildi, yanlış rəqəmlərin dövriyyədən çıxarılması üçün əsas oldu, həm də C.Hacıbəyli şəxsiyyətinə maraq dairəsinin nə qədər geniş olduğuna diqqəti çəkdik.

Ceyhun Hacıbəyli Şuşada realnı məktəbdə – Haşım bəy Vəzirovun müdir olduğu ikisinifli rus-müsəlman məktəbində, Bakıda ilk, Peterburq və Parisdə ali təhsilə yiyələndikdən sonra hələ 15-16 yaşlarından başladığı mətbu fəaliyyətini daha da genişləndirmişdir. "İttihad" (1917), eləcə də "Kaspi"nin əlavəsi kimi çıxan "İzvestiya" qəzetlərinə redaktorluq edən C.Hacıbəyli "İrşad", "Proqres", "Tərəqqi", "Kaspi", "Baku" kimi qəzetlərə məqalə, felyeton və hekayələr yazırdı. C.Hacıbəyli 1907-ci ilin sonlarında "İslamiyyə" mehmanxanasında "Leyli və Məcnun" operasının tamaşasına səylə hazırlaşır, bu işdə qardaşı Üzeyir bəyə yaxından kömək göstərir, 1908-ci il yanvar ayının 12-də, Tağıyev teatrında operanın ilk tamaşasında İbni Səlam rolunu ifa edir. Bu vaxt o, Əlibəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində qardaşı Üzeyir bəylə birlikdə müəllim kimi fəaliyyət göstərirdi. Elə həmin il – 1908-ci ildə ali təhsil üçün Peterburq Universitetinə, bir il sonra – 1909-cu ildə Sorbonna Universitetinə daxil olur. Yeri gəlmişkən qeyd edək ki, Ceyhun bəy Parisdən Bakı qəzetləri üçün məqalələr göndərirdi. Onun XX əsrin ikinci onilliyindəki Bakı fəaliyyəti daha çox mühərrirlik, maarifçilik və müəllimliklə bağlıdır. Bakıda müəllimlərin birinci qurultayının keçirilməsi və tədbirin proqramının hazırlanması məqsədilə yaradılan komissiyada o, fəal iş aparmışdır. C.Hacıbəyli Birinci Dünya müharibəsi ərəfəsində Bakıya pənah gətirən Qars qaçqınlarına yardım etmək məqsədilə keçirilən xeyriyyəçilik tədbirlərində də fəal iştirak etmişdir. 1918-ci ilin avqustunda Ceyhun Hacıbəyli Gəncəyə gəlir və yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə sıx təmasa girir. Hökumətin başçısı Nəsib bəy Yusifbəyli ona və Şəfi bəy Rüstəmbəyliyə rəsmi "Azərbaycan" qəzetini nəşrə başlamağı təklif edir. C.Hacıbəyli bu işə böyük məmnunluqla razılıq verir və az vaxtdan sonra – sentyabrın 15-də onun redaktorluğu ilə "Azərbaycan"ın ilk nömrəsi işıq üzü görür və o, ümumilikdə 443 nömrəsi çıxan qəzetin 88 nömrəsinə redaktorluq edir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi gündəlik türk və rus dillərində buraxılan ictimai, siyasi və iqtisadi qəzetinə müxtəlif vaxtlarda Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və Xəlil İbrahim də redaktorluq etmişlər. "Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyətinin o dövrdə düşünən beyni, döyünən qəlbi, vuran nəbzi, görən gözü idi və qəzetin ən fəal əməkdaşlarından birinin – Yusif Vəzirin bütün zamanlar üçün məqbul sayılacaq "...Bu gün basılan kitablar kəsilən pullardan qiymətlidir" kəlamı digər nəşrlərin, o cümlədən "Azərbaycan" qəzetinin də tarixi əhəmiyyətini dəqiq və sərrast ifadə edir. "Azərbaycan" qəzeti Azərbaycan tarixinin ən parlaq dövrünü yaşadan salnamədir, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən etibarlı, ən obyektiv, ən mötəbər mənbəyi, məxəzidir. Bu salnaməyə, bu tarixə Mə-

həmməd Əmin Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Mirzəbala Məmmədzadə, Adil xan Ziyadxanov, Fərhad Ağazadə, Əhməd Cavad, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Cəfər Cabbarlı, Əliabbas Müznib, Hacı İbrahim Qasımov... kimi qüdrətli kəlam və qələm sahibləri ilə yanaşı C.Hacıbəyli də imza atmışdır. Qəzetdə dərc etdirdiyi yazılar Ceyhun bəyin nə qədər mahir, istedadlı və uzaqgörən publisist olduğuna dəlalət edir. Qırmızı imperiya təhlükəsinin real olduğunu dərk etsə də, Bakının erməni-bolşevik quldurlarından azad olunması münasibətilə "Tarixi gün" adlı məqaləsində Ceyhun bəy yazırdı: "15 Sentyabr bütün türk və islam aləminin ən səadətli və şövkətli günlərində nədd olunacağı (sayılacağı – **T.A.**) şübhəsizdir. Haman gün türk və islam tarixinə zərin (qızılı, zərli – **T.A.**) bir səhifə işğal edəcəkdir" *("Azərbaycan" qəzeti, №5, 3 oktyabr 1918)*. Tarix C.Hacıbəyli qələminin qüdrətini təsdiq etdi...

1919-cu ilin yanvarında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Versal (Paris) sülh konfransında iştirak etmək üçün Fransaya göndərdiyi nümayəndə heyətinin tərkibində C.Hacıbəyli də var idi. Nümayəndə heyətinin məsul katibi təyin olunan C.Hacıbəyli redaktoru olduğu qəzetin 1919-cu il 9 yanvar tarixli 83-cü nömrəsində "Möhtərəm oxucularımıza" adlı müraciətində yazırdı: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifəti ilə ifaya məşğul ikən vətən övladlarının xahiş və əmrinə müti olaraq Cahan sülh konfransına göndərilməklə üzərimə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü. Bu böyük xidməti möhtərəm yoldaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım olduğuna görə qəzet idarəsi işindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli-hüsn ifasından asılı olan məsul vəzifəmizin haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kamali-sidq və səmimiyyət ilə xudahafiz deməyi özümə fərz bildim".

Bu məsul və şərəfli vəzifə ona 1920-ci ildə süquta uğrayan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin son tapşırığı idi. Ceyhun bəy bir daha vətənə qayıda bilməsə də, Azərbaycana vəfat edənədək xidmət etdi: son nəfəsinədək Azərbaycanla yaşadı, onun istiqlalı uğrunda ideoloji mücadilə apardı, ölkəmizin mədəniyyətini xaricdə təbliğ etdi, onun mötəbər, xoşməramlı və fədakar təmsilçisi oldu.

Görkəmli xadim, Azərbaycan parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun (1862-1934) rəhbərlik etdiyi nümayəndə heyətinə Məmmədhəsən Hacınski (1875-1931), Əkbər ağa Şeyxülislamov, Mir Yaqub Mirmehdiyev (1891-1952), Məmməd Məhərrəmov (1909-1982), Əhməd bəy Ağaoğlu (1868-1939) ilə yanaşı C.Hacıbəyli də daxil idi. Azərbaycan Xalq Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün əsl fədakarlıq nümunəsi göstərən nümayəndə heyəti 1920-ci ilin mayınadək "Azərbaycan" adlı bülleten (cəmi 12 nömrə), fransız dilində Azərbaycanın rəngli coğrafi xəritəsini, üç kitab ("Qafqaz Azərbaycan Respublikası", "Azərbaycanın iqtisadi və maliyyə vəziyyəti", "Azərbaycan Respublikası əhalisinin antropoloji və etnik tərkibi") nəşr etmişlər. C.Hacıbəylinin 1919-cu ilin sonunda "Revyudömond musulman" jurnalında irihəcmli "İlk müsəlman respublikası" adlı əsəri, "Letemps" qəzetinə müsahibəsi (20 noyabr 1920) böyük maraq doğurur. 1925-ci ildə C.Hacıbəylinin təşəbbüsü və tərcüməsi ilə "Arşın mal alan" operettası səhnədə oynanılmışdır. Bir il sonra "Revyudömond musulman" jurnalının 3-cü nömrəsində dərc etdirdiyi "Azərbaycan teatrı" adlı məqaləsində Hüseyn Cavid və Cəfər Cabbarlı yaradıcılığından bəhs edilmişdir. Yeri gəlmişkən, bu jurnalla sıx əməkdaşlıq edən C.Hacıbəyli həmin nəşrdə 1918-ci ildə ermənilərin Bakıda, Şamaxıda, Kürdəmirdə, Xaçmazda törətdikləri vəhşiliklər barədə irihəcmli məqalə də dərc etdirmişdir. 1926-cı ildə Ceyhun bəyin redaktorluğu ilə mühacirətdə fransız dilində "Azərbaycan" jurnalı nəşrə başlamışdır.

1925-ci ildə "Sosiete Asiatique" cəmiyyətinin "Journal Asiatique" məcmuəsində C.Hacıbəylinin "XVIII əsrin əvvəllərinin Azərbaycan tarixçisi Abbasqulu Ağa Bakıxanov", 1933-cü ildə həmin nəşrdə "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" (əsər 1934-cü ildə Parisdə kitab halında da nəşr edilmişdir), 1930-cu ildə Londonda "Asiatic Revie" məcmuəsində "Azərbaycan mətbuat tarixi" məqalələri dərc edilmişdir. C.Hacıbəylinin mühacirət dövrünün araşdırıcısı Mirzəbala Əmrahovun fikrincə, C.Hacıbəyli "Kavkaz" jurnalının fransız nəşrinin redaktoru olmuş, mühacir Qafqaz mətbuatı ilə fəal əməkdaşlıq etmiş, "La Revue dömonde musulman", "Lebülletin dölomote France-Orient", "La Revue Contemporaine", "La Revue Politique et Parlamentarie", "La Revuedes Jeunes", "Le Fiqaro" və bu kimi mətbu orqanlarla birgə işləmiş, bir neçə il məşhur "La Revue de deux Mondes" fransız jurnalının əməkdaşı olmuşdur. Həmin jurnalın 1934-cü ilin ilk nömrəsində (yanvar) Ceyhun bəyin çox maraqlı "SSRİ-də ziyalılar" məqaləsi dərc edilmişdir.

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar mühacirlərin fəaliyyətinə bir durğunluq hakim kəsilir. Müharibə bitdikdən bir müddət sonra onların fəaliyyəti yenidən canlanır – dərnəklər fəaliyyətə başlayır, jurnallar nəşr edilir. Ankaradakı Azərbaycan Kültür və Dayanışma Dərnəyi, onun orqanı, "Azərbaycan" jurnalı və Münxendəki Azərbaycan Milli Birlik Məclisi, onun iki dildə (Azərbaycan, rus) nəşr olunan "Azərbaycan" jurnalı xüsusi fəallıq göstərir. Bu dərnəklər, ümumiyyətlə, mühacirətin Türkiyə və Avropa qanadları arasında bir sıra ciddi ixtilaflar olsa da (admiral Kerkin rəhbərlik etdiyi "Amerika Komitəsi" və rus mühacirləri ilə əməkdaşlıq məsələləri və s. kimi problemlərə görə), onların əsas ideyası, məqsədi Azərbaycanın istiqlalı məsələsi olmuşdur və hər iki düşərgə bu müqəddəs amal uğrunda mücadilə etmişdir.

Ceyhun Hacıbəyli Azərbaycan Milli Birlik Məclisi İdarə Heyətinin üzvü və məclisin orqanı olan "Azərbaycan" jurnalının (1952-1954) redaktoru olmuşdur. Azərbaycan legionerlərinin lideri Əbdürrəhman bəy Fətəlibəyli-Düdənginskinin sədrlik etdiyi Azərbaycan Milli Birlik Məclisi mühacirət tarixində qısa, lakin silinməz iz buraxmışdır. C.Hacıbəyli "Azadlıq" radiosunun yaradıcılarından, Münxendə fəaliyyət göstərən SSRİ-ni öyrənən institutun fəal üzvü olmuşdur. O, həmin institutun Parisdə fransızca nəşr etdiyi "Qafqaz" jurnalının Azərbaycan bölməsində gedən yazıları redaktə etmişdir. 1959-cu ildə institutun xətti ilə Ceyhun Hacıbəylinin məşhur "Azərbaycanda islam əleyhinə təbliğat və onun metodları" əsəri çap olunmuşdur.

Bəzən qələm sahibləri bir nəfərin öz əqidəsinə və məsləyinə sədaqətini izhar etmək üçün "son nəfəsinədək" ifadəsindən istifadə edirlər. Bu sözlər Ceyhun Hacıbəylinin ünvanına çox yaraşır. O, həqiqətən, mənalı həyatını bütünlüklə Azərbaycana, onun istiqlalı uğrunda mücadiləyə həsr etmişdir. Vəfatından üç gün əvvəl – 1962-ci ilin 19 oktyabrında yazdığı və Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu daxili işlər naziri Mustafa Vəkiloğluna ünvanladığı məktub fikrimizi bir daha təsdiqləyir. Bu gün də aktual səslənən həmin sənədlə bağlı H.Xəzərin "Mücahid" jurnalında "Ceyhun bəyin vəsiyyəti" adlı məqaləsi dərc olunmuşdur *(№ 53-54, fevral, 1963)*. Müəllif Ceyhun Hacıbəylinin Azərbaycanın istiqlalı üçün mühacirlərin tək bayraq altında birləşmələrini və mübarizə aparmalarını arzuladığını, hər cür qruplaşmaya qarşı olduğunu bildirdiyini qeyd edir və göstərir ki, onun M.Vəkiloğluna yazdığı "mühacirəti bir yerə toplamağa səy ediniz, bu, çox mühümdür" vəsiyyəti də bu istəkdən irəli gəlirdi. Ceyhun bəy bu arzu, ideal və məramla yaşadı, bu istəklə də həyatdan köçdü (1962-ci il). Qəbri qürbətdə – Parisin Sen-Klu qəbiristanlığında olan istiqlal aşiqinin ruhu istiqlalını qazanmış ulu Azərbaycandadır, erməni tapdağı altında inləyən doğma Şuşaya həsrətlə, ümidlə baxır.



## İmzaları

Ədəbi-mədəni-mənəvi irsimizə sinfi və partiyalı münasibət bəsləyən sovet rejimi və kommunist ideologiyası milli maraqlara xidmət edən sərvətə daim qərəzli və saxtakarcasına yanaşmışdır. Təsadüfi deyil ki, mətbuat tariximizin nəhəng simalarından olan Ceyhun Hacıbəylinin adına, təxəllüsünə, imzalarına sovet dönəmində nə elmi tədqiqat əsərlərində, nə müvafiq dərsliklərdə, nə də hansısa nəşrdə rast gəlinmişdir.

Ötən əsrin 80-ci illərinin ortalarında "Vətən" Cəmiyyətinin ünvanına Parisdən C.Hacıbəylinin oğlu Timuçin Hacıbəylidən daxil olan məktubda deyilirdi ki, onun atası inqilabdan əvvəl Azərbaycan mətbuatında "Dj.Dağıstani" imzası ilə çox sayda məqalə dərc etdirmişdir. Məhz bu informasiyadan sonra biz uzun müddət arxivdə qəzet səhifələrini, xüsusilə "Kaspi"ni vərəqləməyə başladıq…

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan müstəqilliyini yenidən bərpa etdiyi illər ərəfəsində ədəbi-mədəni, ictimai-siyasi fikir tariximizdə müstəsna rol oynamış C.Hacıbəylinin (1891-ci il, Şuşa – 1962-ci il, Paris) həyat və fəaliyyətinə dair bir neçə sanballı məqalə yazılmışdır. Bu mənada professor Şamil Qurbanovun "Üzeyir bəyin qardaşı" və "Ceyhun bəy Hacıbəyov (1891-1962)", professor Vilayət Quliyevin "Dünyanı dolaşan dünya ömürlü "Azərbaycan", Mövlud Yarəhmədovun "C.Hacıbəyli həm də şair idi", Nailə Muradəliyevanın "Naməlum tərcümə" məqalələri qeyd olunmalıdır.

Heç şübhəsiz, C.Hacıbəylinin mənən vətənə qayıtmasında, xaricdəki ədəbi-mədəni irsimizin toplanmasında Ramiz Abutalıbovun misilsiz xidmətləri olmuşdur. Təmənnasız, şəxsi təşəbbüsü

ilə mühacirətdəki mədəni-mənəvi sərvətlərimizi toplayan R.Abutalıbov C.Hacıbəyliyə məxsus yüzlərlə sənədi Parisdən gətirməklə böyük qələm sahibinin, alovlu vətənpərvərin həyat və fəaliyyətini dərindən öyrənməyə imkan yaratmış oldu. "Ceyhun Hacıbəyli" (tərtibçilər: M.Teymurov, A.Aslanov) adı ilə buraxılmış kitab bu mənada çox faydalıdır. Topluya C.Hacıbəylinin mühacirətdə yazdığı əsərlərin bir qismi daxil edilmişdir. Ceyhun bəyin mühacirətəqədərki fəaliyyəti də son dərəcə zəngin və maraqlı olmuşdur.

C.Hacıbəylinin 1919-cu ilədək yaradıcılığını araşdırmaq, bu barədə qəti söz demək üçün hər şeydən əvvəl müəllifin həmin dövrdəki imzalarını müəyyənləşdirmək lazımdır. Məhz bundan sonra C.Hacıbəylinin Parisə getməsinədək olan dövrdə mətbuat və ədəbiyyatımızdakı yeri və rolu barədə danışmaq olar.

"Ədəbiyyat qəzeti" 1993-cü il 5 mart tarixli 9-cu nömrəsində C.Hacıbəylinin Əhməd Cavadla bağlı "Azərbaycan" *(Münxen, 1952, № 4)* jurnalında dərc edilmiş iki məqaləsini vermişdir. Məqalələrin təqdim olunması münasibətilə yazılmış ön sözdə oxuyuruq: "Ceyhun Hacıbəyli yeddiyə qədər imza ilə məqalələr yazıb. "C.H." da həmin imzaların biridir. Yazılanlar böyük maraq doğursa da, C.Hacıbəylinin imzaları barədə ətraflı təsəvvür yaratmır.

Professor Ş.Qurbanov Ceyhun bəyin imzası haqqında aşağıdakıları deməklə kifayətlənmişdir: "Ceyhun Hacıbəyov bütün məqalələrini "Dağıstani" ləqəbi ilə imzalamışdır. Bu da təsadüfi deyildir: o, əslən Dərbənddən idi".

Əlbəttə, deyilənlərlə razılaşmamaq mümkün deyil. Lakin fikrimizcə, C.Hacıbəylinin imzası haqqındakı bu qeydləri qənaətbəxş hesab etmək olmaz. Yeri gəlmişkən onu da əlavə edək ki, Ceyhun bəy yalnız yaradıcılığının ilk dövründə yazılarına "Dağıstani" imzasını qoyardı *(Bax: "Proqres", 1907, № 5)*.

Tanınmış jurnalist-tədqiqatçı Qulam Məmmədli 1977-ci ildə "İmzalar" adı ilə nəşr etdirdiyi kitabda yazırdı: "...Göstərilən çətinliklər üzündən bunların bəziləri tam dəqiqləşdirilməmiş, bir çox gizli imzalar kitaba daxil edilməmişdir". "Dağıstani" – Cəmaləddin Məmmədzadə, "Kaspi", "Səda" (səh.32). "Dj.Dağıstani" – Cəmaləddin Məmmədzadə, "Kaspi", 1910-1911 (səh.37). "C.Dağıstani" – Cəmaləddin Məmmədov, jurnalist" (səh.105).

Bir çox tutarlı, təkzibolunmaz faktlar imkan verir ki, göstərildiyi kimi, "Kaspi" qəzetində "Dağıstani", "Dj.Dağıstani", "C.Dağıstani" imzalarının Cəmaləddin Məmmədzadəyə aid olmadığını söyləyək. Bunun üçün C.Məmmədzadə barədə qısaca da olsa bəhs etmək lazımdır. C.Məmmədzadə 1864-cü ildə Dərbənddə anadan olmuş, ilk təhsilini aldıqdan sonra İstanbula getmiş, bir müddət orada qalıb, sonra Tiflisə dönmüş, Şahtaxtinskinin buraxdığı "Şərqi-Rus" (1904) qəzetində çalışmışdır. Bolşevik ideyalarının alovlu təbliğatçısı kimi çıxış edən C.Məmmədzadə az sonra Bakıya gəlir.

"Yeni İrşad"ın 1911-ci il 45-ci nömrəsindən məlum olur ki, C.Məmmədzadənin gizli imzası "Dani" olmuşdur. Beləliklə, C.Məmmədzadə bolşevik əqidəli jurnalist olmuş, əsasən "Şərqi-Rus", "Qoç-Dəvət", "Səda" qəzetlərində çalışmış, məqalələrini daha çox "Dani" gizli imzası ilə dərc etdirmişdir. Bütün bunlardan fərqli olaraq, C.Hacıbəyli, əsasən, adları çəkilən qəzetlərdən məramına, məqsədinə, məzmununa görə tamamilə seçilən "Kaspi" qəzeti ilə əməkdaşlıq etmişdir. C.Hacıbəylinin dəsti-xətti, toxunduğu mövzular, məsələlərə münasibəti də özünəməxsusluğu ilə seçilir. C.Hacıbəyli "Kaspi"də, demək olar ki, bütün yazılarını "Müsəlmanın qeydləri" rubrikası ilə çap etdirmişdir. Bu rubrika isə qəzetin səhifəsindən 1917-ci ilədək (C.Məmmədzadə 1911-ci ildə vəfat etmişdir) düşməmişdir. C.Hacıbəyli bu müddət ərzində "Kaspi"də "D.", "Dj.", "D.", "D.ni", "D.Dağıstani", "Ceyhun Dağıstani" imzaları ilə yazılar vermişdir.

Dil, üslub, mövzu, xüsusilə başqa digər təkzibolunmaz faktlar da sübut edir ki, həmin imzalar məhz C.Hacıbəyliyə məxsusdur. Başqa fakt da dediklərimizi bir daha təsdiq edir. "Kaspi" qəzetinin 1915-ci ilin 13 fevral tarixli 34-cü sayındakı "Biz nə etməliyik" adlı məqaləsinin sonunda "D.Dağıstani" imzası yazılmışdır.

C.Hacıbəylinin imzası haqqında bir qədər ətraflı bəhs etməyimiz bu mövzuda geniş diskussiya açmaq niyyətindən yox, yüzlərlə məqaləsi, onlarca bədii əsəri, xeyli tərcüməsi olan böyük qələm sahibinin mətbuat və ədəbiyyat tariximizdə layiq olduğu qiyməti vermək istəyindən irəli gəlir.

## Yaradıcılığı

Ceyhun Hacıbəylinin zəngin bədii və publisistik yaradıcılığından bəhs edərkən bu irsin məzmununun, məziyyətlərinin, məram və məqsədinin daha qabarıq şəkildə diqqətə çatdırılması, dəyərləndirilməsi üçün onun ədəbiyyat və jurnalistika sahəsindəki fəaliyyətinə iki dövrün kontekstində nəzər salmaq vacibdir: mühacirətəqədərki və mühacirətdənsonrakı dövrlər.

Birinci dövr fəaliyyəti daha çox maarifçi xarakter daşıyırsa, ikinci dövrdə ideoloji-təbliğati səciyyə üstünlük təşkil edir. Bu fikri C.Hacıbəylinin həm bədii əsərlərinə, həm də publisistikasına şamil etmək olar. Beləliklə, mühacirətəqədərki dövrlə bağlı qısaca aşağıdakıları söyləməklə kifayətlənirik. Ceyhun bəyin mühacirətəqədərki dövr yaradıcılığında bədii əsərlərindən "Hacı Kərim", yaxud "Zaqafqaziya müsəlmanlarının həyatından etüdlər" povesti, "Doğru cavab", "Tamamilə qənaətbəxşdir", "Pristav ağa", "Bu elə özüdür", "Zaqafqaziya kəndlisinin həyatından", "Barışmaz ata", "Nümunəvi ata" kimi hekayə və felyetonları diqqəti çəkir. "Hacı Kərim" povestini müəllif 1909-1910-cu illərdə qələmə almış, əvvəlcə hissə-hissə "Kaspi"də dərc etdirmiş, 1911-ci ildə rus, 1917-ci ildə 6 hekayədən ibarət kitab şəklində Azərbaycan dilində nəşr etdirmişdir. Yeri gəlmişkən qeyd edək ki, C.Hacıbəyli sonralar da bu mövzuya qayıtmış, həmin silsilədən olan daha bir neçə hekayə yazmışdır. "Əziz müəllimim Həsən bəy Məlikovun həyat yoldaşı Hənifə xanımın xatirəsinə" cümləsi ilə başlayan kitabın yalnız fotoplyonka variantı M.F.Axundov adına Milli Kitabxanada saxlanılmışdır. Bu sətirlərin müəllifi 1995-ci ildə kitabı təkrar nəşr etdirmişdir. Əsər kompozisiya baxımından maraqlıdır. Hər biri 6 hekayədən ibarət povest eyni zamanda vahid süjet xəttinə, ideya və məzmuna malikdir. "Hacı Kərimin səhəri", "Zəruri şər", "Hacı Kərim işdə", "Hacı Kərim qonaqlıqda", "Hacı Kərimin romanı", "Hacı Kərimin səfərə hazırlığı" adlı hekayələrdən ibarət əsərin ideyası cəhalətin, qadın hüquqsuzluğunun, təhsilə laqeyd münasibətin, yalançı möminliyin, xəsisliyin... amansız tənqidi, eyni zamanda maarifə, mədəniyyətə yiyələnməyin vacibliyinin təbliğidir. Əsərin baş qəhrəmanı Hacı Kərim xəsislikdə M.F.Axundovun Hacı Qarasından, nadanlıqda C.Məmmədquluzadənin Novruzəlisindən, qadına münasibətində Xudayar bəydən heç də geri qalmır.

C.Hacıbəylinin digər əsərlərinin – hekayə və felyetonlarının da başlıca mövzusu müsəlman məişətindən götürülmüş və mövcud cəmiyyət həyatının naqis cəhətlərinin tənqidinə xidmət etmişdir. Maarifçi-yazıçının əsas ideyası təhsilə, elmə yiyələnməklə cəhalətdən, nadanlıqdan, mövhumatdan xilas olmaqdır. Bu əsərlərin bir yerə toplanılması, nəşri C.Hacıbəyli irsinin tədqiqinə yeni təkan verərdi.

Ceyhun Hacıbəylinin mühacirətəqədərki yaradıcılığında publisistika mühüm yer tutur. Ədibin publisistikasının özünəməxsus məziyyətləri, cəhətləri var: bu keyfiyyətlər mövzu rəngarəngliyində və peşəkarlıqda daha qabarıq təzahür edir. Mövzu baxımından C.Hacıbəylinin publisistik məqalələrini aşağıdakı kimi təsnif etmək olar:

– məktəb, təhsil problemləri;
– dini dəyərlərin təbliği, cəhalət və fanatizmin tənqidi;
– xeyriyyəçilik, onun cəmiyyət həyatı üçün faydası, formaları, xeyriyyə təşkilatları;
– Qars qaçqınları, onların problemləri, qaçqınlara yardımın təşkili məsələləri;
– nadanlığın, laqeydliyin, çürük adət-ənənələrin tənqidi;
– mətbuat, nəşriyyat məsələləri;
– ədəbi-mədəni mühit, onun problemləri;
– tarixi şəxsiyyətlər, onların xidmətlərinin dəyərləndirilməsi, xatirələrinin əbədiləşdirilməsi;
– ilin ədəbi-mədəni, ictimai-siyasi hadisələrinə həsr olunmuş hesabatlar və qarşıda duran vəzifələr;
– Birinci Dünya müharibəsi cəbhələrində döyüşən müsəlman-azərbaycanlı zabitlər;
– erməni məkrini, hiyləsini və vəhşiliyini ifşa edən məqalələr.

Tərəfimizdən C.Hacıbəylinin bu mövzularda yazılmış və yalnız "Kaspi"də dərc olunmuş 237 məqaləsinin biblioqrafik göstəricisi tərtib edilmişdir.

Publisistin peşəkarlıq məharətindən danışarkən xüsusilə vurğulanmalıdır ki, Ceyhun bəy toxunduğu problemi taleyin ixtiyarına buraxmır, məsələ həll olunmayanadək onu diqqətdə saxlayır, izləyirdi. O, oxucunu inandırmağın, onun qəlbinə və beyninə təsir etməyin, rəy formalaşdırmağın mahir ustası idi. Habelə oxucunu səfərbər etməyi, istiqamətləndirməyi bacarır, xarakterik faktları seçmək, güclü müşahidə və hərtərəfli təhlil etmək qabiliyyəti, ən doğru qənaətləri, nəticələri çıxarma qabiliyyəti ilə seçilirdi. Ceyhun Hacıbəyli publisistikasının məğzi, mahiyyəti, ideyası, amalı maarifçilik missiyasına xidmət etməsidir ki, onun da qida mənbəyi müəllifin təhsilə, məktəbə tükənməz sevgisidir.

Böyük yazar qələmi ilə həmişə millətin, dinin təəssübkeşi, müdafiəçisi rolunda çıxış etmişdir. Bu mənada onun "Sərhəddə" adlı məqaləsi çox ibrətamizdir. Məqalədən aydın olur ki, bir sıra Qafqaz qəzetləri İranla sərhəddə yerləşən xristian əhalinin silahlandırılmasını, yerli müdafiənin təşkilini canfəşanlıqla təbliğ və müdafiə edirlər. "Həm rus dilində, həm də başqa xalqların (ermənilər nəzərdə tutulur – **T.A.**) dilində çıxan bir sıra qəzetlər ali hakimiyyət orqanlarını bu məsələnin müsbət həllinə çağırır, bu zaman onu əsas tuturlar ki, İranın vəhşi tayfaları bizə hücum edən təqdirdə sərhəd vilayətlərdəki xristian əhali basqınçıların zərbəsinə məruz qalacaqlar". C.Hacıbəylini təəccübləndirən, təəssüfləndirən həm də odur ki, Arazın o tayından gözlənilən təhlükəyə daha çox məruz qala biləcək əhalinin həyəcanı "bu çalınan səslər arasında" eşidilmir. Müəllif yazır ki, qəzetlərin xristian pərdəsi ilə təqdim etdiyi əhali, əsasən, ermənilərdən ibarətdir. Onların yerləşdiyi yaşayış məntəqələri üçün heç yerdə real təhlükə yoxdur. Bu kəndlərin əksəriyyəti dağlarda yerləşir və ora getmək üçün hökmən müsəlman kəndlərindən keçmək lazımdır. "Bax bütün bunlar silahlanmağa, xristian əhalini özünümüdafiəyə hay-küylə çağıran qəzetlərin diqqətindən niyə yayınmışdır? Yoxsa yenə "müsəlman həmrəyliyi" ifadəsi rəhbər tutulur? Doğrudanmı belə fikirləşirlər ki, münasib məqamda sərhədi keçən şahsevənlər öz müsəlman qardaşlarının başlarını sığallayacaqlar?" C.Hacıbəyli çox böyük məharətlə opponentlərinin mənfur niyyətlərini faş edir. Bu zaman o, hay-küydən, pafoslu ifadələrdən yox, ağlın, məntiqin, faktların gücündən istifadə edir: "Hər hansı Qafqaz qəzetini götürün və sərhəd komissarlığının məlumatlarını izləyin: şahsevənlərin hücumuna məruz qalan müsəlman kəndidir, öldürülən müsəlmandır, əmlakı talan edilən müsəlmandır, mal-qarası sürülüb aparılan müsəlmandır. Ən əvvəl, yaxşı coğrafi mövqedə yerləşdiklərinə görə, ikincisi isə, xeyli yaxşı müdafiə işi görüldüyünə görə bu günə kimi erməni kəndlərinə heç bir ziyan dəyməmişdir".

Müəllifin fikrincə, quldur üçün heç bir din, dil fərqi yoxdur. O, yolunun üstündəki kəndin xristian, ya müsəlman əhalisinin olduğunun fərqinə varmayacaq. Onun bir şüarı var: "talan etmək". Quldurda başqa stimul, ideya axtarmaq ən azı sadəlövhlükdür. Quldurların basqınında müsəlman "həmrəyliyi", "dözümsüzlüyü" axtarmaq ən azı gülüncdür. C.Hacıbəyli böyük kədərlə yazırdı: "Erməni-tatar qırğını zamanı qarışıqlıqdan istifadə edən şahsevənlər Arazdan bu tərəfə keçmiş və Arazboyu kəndləri talamışlar, hətta onların silahlarını da almışlar. Budurmu müsəlman həmrəyliyi?" Müəllifin qənaətinə görə, bütün deyilənlər onu göstərir ki, bəzi Qafqaz qəzetlərinin söylədikləri təhlükə daha çox sərhəddəki müsəlman əhali üçün realdır və ən əvvəl zərər çəkən onlar olacaqlar. Xristianları əslində təhlükə gözləmir. C.Hacıbəyli məqaləni belə yekunlaşdırır: "Əgər ali hakimiyyət orqanları sərhəddəki xristian əhalinin silahlanmasına razılıq versə, həmin tədbir müsəlmanlara da şamil edilməlidir. Yalnız bu şərtlə – sərhəd əhalisinin silahlandırılması deyilən ideya doğru məqsədə xidmət etmiş olardı".

Bu məqalə ilə Ceyhun bəy islam "fanatizmi", "həmrəyliyi", "dözülməzliyi" ibarələri ilə hay-həşir salan, mətləbə dəxli oldu-olmadı islama hücum edənlərə layiqli cavab verirdi. Maraqlı və təqdirəlayiqdir ki, C.Hacıbəyli öz fikrində, mövqeyində möhkəm, əməlində ardıcıldır. Toxunduğu mövzunun nəticəsini, əks-sədasını izləyir, lazım gələndə mövzuya yenidən müraciət edir.

"Kaspi" qəzetinin 1915-ci il 6 mart tarixli 52-ci nömrəsindəki "Ordan-burdan" adlı məqaləsində oxuyuruq: "Əgər oxucu xatırlayırsa, sərhəd əhalisinin bir qismini silahlandırmağa həsr olunmuş məqalədə demişdik ki, şahsevənlərin "panislamist" ideyasından qorxub əhalinin bir hissəsini silahlandırmaq, digər hissəsini taleyin ixtiyarına buraxmaq sadəlövhlük olardı. Sanki mənim o vaxt dediklərimi sübut etmək üçün qəzet səhifələri şahsevənlərin quldurluğundan bəhs edən materiallarla doldurulmuşdur". C.Hacıbəyli "müsəlman həmrəyliyi" deyə hay-küy qaldıranlara qəzəbli suallarla müraciət edir: "Quldurlar öz qurbanlarını seçmişlərmi? Müsəlman həmrəyliyi onlarda öz dindaşlarının həyatına və əmlakına qarşı az da olsa mərhəmət hissi oyatmışdırmı?" Daha sonra müəllif öz fikrini faktlarla möhkəmləndirir. Aydın olur ki, bir gün ərzində quldurların basqını zamanı müsəlmanlar 21 at, 1 samovar, 1 xalça, 1 yəhər, 4 qatır, 1 xurcun, 12 inək, 17 öküz, 4 çuxa, 4 arxalıq, 1.436 rubl, 10 döyüş patronu, 6 dəvə, 1.220 baş qoyun, 1 buzov, 60 pud un, 1.400 rublluq zinət əşyaları, 6 keçi, 20 rublluq mal-qara, 1.818 rublluq digər əşya itirmişlər. Bir nəfər öldürülmüş, iki nəfər yaralanmışdır. Bir mülk dağıdılmış, 10 desyatin meşə qırılmışdır. Məqalədə müəllif zərər çəkən müsəlman kəndlərinin adını sadalayır. Aydın olur ki, zərər çəkən yaşayış məntəqələri arasında erməni kəndi yoxdur. "İndi baxaq ki, xristian əhali nə qədər zərər çəkib? Şahsevənlərin basqın etdiyi bütün müddət ərzində yoldan keçən bir erməninin 60 rublluq malı qarət edilmişdir". C.Hacıbəyli bütün faktları sadaladıqdan sonra nəticə çıxarmağı oxucunun ixtiyarına buraxır: "İndi ədalət naminə oxucu hökm çıxarsın: sərhəd quldurlarından daha çox kimin müdafiəyə ehtiyacı var?"

Görkəmli publisist adamlara təsir etmək, onların hislərinə toxunmaq, onları hərəkətə gətirmək üçün sözün qüvvəsindən çox məharətlə istifadə edir. C.Hacıbəylinin toxunduğu mövzuları, onun publisistikasını maraqlı edən cəhətlərdən biri də faktları, hadisələri müqayisələrlə təqdim etməsidir. C.Hacıbəylinin publisistikasını cəsarətlə ideyalar publisistikası adlandırmaq olar. Onun qələmə aldığı elə bir mövzu, toxunduğu elə bir problem yoxdur ki, müəllif təklifsiz keçinsin. Maraqlı və təqdirəlayiqdir ki, C.Hacıbəyli eyni mövzuya nə qədər müraciət edir-etsin, oxucunu yormur. Təsvir, ifadə, ona yanaşma tərzi rəngarəng, müxtəlif olduğundan, məqalə oxucunu cəlb edir. Bu mənada Qars qaçqınlarına yardım mövzusuna həsr olunmuş "Bu bayramın fitrəsi" məqaləsi istisna deyil *("Kaspi" qəzeti, 1915-ci il, 31 iyul, № 170)*. Məlum olur ki, Zaqafqaziya müftisi və şeyxülislamı builki bayram fitrəsini qarslı qaçqınlara verməyi məsləhət bil-

mişlər. Müəllif bu təşəbbüsü alqışlayır və arzu edir ki, təkcə Qafqaz yox, bütün Rusiya müsəlmanları gərək bu nəcib işə qoşulaydı. Məqalə belə qurtarır: "Qoy oruc bayramı günü hər bir müsəlman yalnız bir sözü yada salsın: "Qars!" Sonra vicdanı necə məsləhət bilərsə, o cür hərəkət etsin".



Üzeyir və Ceyhun Hacıbəylilər

Dini görüşləri ilə bağlı "Quranın tərcüməsinə dair", "Müsəlman ruhanilərinin səlahiyyəti haqqında", "Avropalılar islam haqqında", "Aşura haqqında", "Ramazan başladı", "Bir daha ruhani seminariyası barədə", "Ruhani idarəsində islahatlar haqqında", "İslamın biliciləri", "Müfti barədə məsələ haqqında", "Qurban bayramı" və s., ailə-məişət, maarif, teatr, mədəniyyət, təhsil problemlərinə həsr olunmuş "Etinasızlığımız", "Ev tərbiyəsi haqqında bəzi qeydlər", "Zülmət və işıq", "Müəllimlərin təqdimatı", "Qan düşmənçiliyi", "Aktyora kömək edin", "Cəmiyyətin artistə ehtiramı", "Müsəlman teatr mövsümü", "Kömək lazımdır", "Bizdə cəmiyyət varmı?", "Şəhər ibtidai məktəbinin müəllimləri haqqında", "Nuxada gimnaziya", "Qadın təhsilinin ehtiyacları" və s., Qars qaçqınları və xeyriyyəçiliklə bağlı "Qadın qaçqınların məsələsi haqqında", "Böyük ehtiyac", "Unutmayın", "Qardaş köməyi", "Yetimləri yada salın", "Nəhayət, nə vaxt?", "Dəri məsələsi" və sair kimi onlarca məqalədə qaldırılan məsələlər bir çox cəhətdən bu gün də aktualdır, əhəmiyyətlidir. Ceyhun Hacıbəylinin H.Zərdabi, İ.Qaspıralı, Azərbaycanın qadın aşıq-şairləri, Hüseyn Ərəblinski, Haşım bəy Vəzirov, Hüseyn əfəndi Qayıbov barədə yazdıqları maraqlı olduğu qədər də aktual və faydalıdır.

Onu da qeyd edək ki, Ceyhun Hacıbəylinin mühacirətəqədərki həyat və yaradıcılığı 90-cı illərdə ilk dəfə elmi-tədqiqat mövzusu kimi tərəfimizdən işlənilmiş və 1996-cı ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə edilmişdir.

Ceyhun Hacıbəylinin mühacirətdən sonrakı həyatı, fəaliyyəti də maraqlı, zəngin və şərəfli olmuşdur. Onun həyatının bu hissəsini bir cümlə ilə ifadə etmək, belə söyləmək mümkündür: Azərbaycanın istiqlalı uğrunda ideoloji mücadilə. Bu mübarizə 1919-cu ildən başlamış, 1962-ci ilədək – vəfatına qədər fasiləsiz davam etmişdir.

Qeyd etmişdik ki, Ceyhun bəyin seçilmiş əsərlərindən ilk kitabı M.Teymurov və A.Aslanov tərtib etmiş və bura C.Hacıbəylinin mühacirətdəki irsinin bir qismi, o cümlədən "Bərpa-quruculuq işinin ümumi problemində Azərbaycanda iqtisadi vəziyyət", "İslam əleyhinə təbliğat və onun Azərbaycanda yeni metodları", "Rus demokratları bolşeviklərlə harada birləşir", "Söz və əməl", "İlk Azərbaycan operası necə yarandı" kimi məşhur 6 əsəri daxil edilmişdir ki, həmin əsərlərdə sovet rejimi, kommunist ideologiyası, kolxoz-sovxoz həyatı, ateist tərbiyəsi, din siya-

səti və s. konkret, tutarlı faktlarla kəskin, eyni zamanda yüksək sənətkarlıqla tənqid edilir. Kitab 1993-cü ildə "Azərbaycan" nəşriyyatı tərəfindən buraxılmışdır.

C.Hacıbəyli irsinin mühacirət dövrü yaradıcılığının tədqiqatçılarından Mirzəbala Əmrahov "Ceyhun Hacıbəylinin mühacirət dövrü yaradıcılığı" adlı elmi iş üzərində işləyərkən Ceyhun Hacıbəylinin seçilmiş əsərlərini toplayıb nəşr etdirmişdir. M.Əmrahovun tərcüməsi, ön sözü və tərtibi ilə buraxılan kitabda isə "Müəzzinin lənəti", "Baş tutmayan ziyarət", "Stalinin öpüşü və ya staxanovçu Fatimə", "Nejdanovun işi", "XIX əsrin azərbaycanlı tarixçisi Abbasqulu ağa Bakıxanov" və "SSRİ-də ziyalılar" adlı hekayə və məqalələri daxil edilmişdir.

İstedadlı qələm sahibinin diqqətçəkən publisistika nümunələrindən biri irihəcmli memuarı "Bir il xəyallarda və ... bütöv bir ömür" adlanır. Fransız dilində qələmə alınmış memuar mövzusunun genişliyi, aktuallığı, toxunulan problemlərin taleyüklülüyü, tarixi və ədəbi dəyəri baxımından Azərbaycan bədii publisistikasının, mühacirət ədəbiyyatının ən parlaq və nadir nümunələrindəndir.

## Məsləkdaşları, qəhrəmanları

Ceyhun Hacıbəyli elə böyük sənətkarlardandır ki, onun əsərlərini müəllifin tərcümanı hesab etmək olar. Bu əsərlər Ceyhun bəyin keçdiyi şərəfli həyat yoluna işıq salır, onun vətənə, millətə, dinə sədaqətini, azadlıq, istiqlal ehtirasını parlaq təzahür etdirir. C.Hacıbəylinin ictimai fəaliyyəti də onun ünvanına ən dəyərli fikirlərin söylənilməsinə əsas verir. Digər tərəfdən isə, Ceyhun bəyin təmasda olduğu, birgə çalışdığı, əməkdaşlıq etdiyi insanlar C.Hacıbəylinin əqidəsi, mənəviyyatı, şəxsiyyəti barədə fikrin formalaşmasına kifayət edir. Qardaşları Üzeyir və Zülfüqar Ceyhun bəyin həm də ən yaxın mənəvi dostları olmuşlar. O, "Azərbaycan mədəniyyətinin pioneri" adlandırdığı Həsən bəy Zərdabinin vurğunu idi. Məqalələrində, xüsusən böyük maarif xadiminin vəfatının ildönümünə həsr etdiyi yazılarında Həsən bəyin xidmətlərini yüksək qiymətləndirir və cəmiyyətdən inadla, israrla xalq xadiminin xatirəsinin əbədiləşdirilməsini tələb edir. İllər ötür, nəticə isə yoxdur. Ceyhun bəy isə yenə qələmi yerə qoymur. Həsən bəyin vəfatının 7-ci ildönümü münasibətilə yazdığı məqalədə isə, deyəsən, Ceyhun bəyin səbri tükənmişdir. Bu dəfə qəzəblə ittiham edir: "Bu gün müsəlmanların (azərbaycanlıların – **T.A.**) mədəni-maarifçilik sahəsində pioneri sayılan Həsən bəy Məlikovun vəfatının 7 ili tamam olur.

Bakılıların pafoslu nitqləri və təntənəli mərasimlə öz xadimlərini dəfn etdikləri həmin gündən vur-tut 7 il keçir. Hələ tam soyumamış meyit üzərində səslənən o çıxışlar mənim indi də qulaqlarımdadır. Aman Allah, həmin nitqlərdən necə od-alov püskürürdü, çıxışlar ürəklərdə necə bir ümid çırağı yandırır, mərhumun xatirəsi minnətdarlıq hissi ilə necə yad edilirdi. Həmin gündən cəmi yeddi il ötmüşdür.

Nə olsun? O təmtəraqlı, ibarəli nitqlərdən nə qaldı? Deyəsən, külək elə həmin gün o çıxışları sovurub apardı. Həsən bəy təntənəli şəkildə dəfn olundu, onun haqqında 2-3 gün də orda-burda danışdılar, qəzet və jurnallar onun bioqrafiyasını dərc etdilər, portretini verdilər – vəssalam. Müsəlman cəmiyyəti ona müxtəlif sahələrdə ilk addımı atmağı öyrədən, ona zəngin miras, irs qoyan, onu mədəni həyata alışdıran xadimi ilə beləcə üzülüşdü. Deyəsən, hər şey bitdi..." C.Hacıbəyli Həsən bəyin tamamilə yaddan çıxarıldığını acı təəssüflə qeyd edərək yazır: "Digər xalqlar ona xidmət göstərən övladlarının xatirəsini əziz tutur, ona abidə qoyur, adını əbədiləşdirir, ailəsinə qayğı göstərir və s. Bizdə isə tamamilə əksinədir.

Biz nəinki Həsən bəyə abidə ucaltmadıq, heç adi qəbirüstü daş qoymaq üçün onun həyat yoldaşına kömək etməyə gəlmədik, biz nəinki Həsən bəyin adını və xatirəsini əbədiləşdirmədik, hətta onun tamamilə unudulması üçün çalışdıq, nəinki onun ailəsinə qayğı göstərmədik, əksinə, elə bil ona əlavə dərd, kədər gətirmək prinsipi ilə bəhsə girdik". Müəllif cəmiyyətin biganəliyi heyrətə gətirir, bu bəlanın səbəbini izah etməkdə çətinlik çəkdiyini, eyni zamanda onun öyrənilməsinin, aradan qaldırılmasının zəruriliyini vurğulayır, xəbərdarlıq edir: "Yoxsa öz canyandıranımızın, himayədarımızın xatirəsinə bu cür münasibət az-çox mədəni cəmiyyətdə hələ təsadüf olunmayan xüsusiyyətlərimizi üzə çıxara bilər. Hətta vəhşilər belə öz başçılarının məzarlarını bəzəyirlər".

Ceyhun Hacıbəyli məqalələrində Hüseyn Ərəblinskinin, Haşım bəy Vəzirovun xalq işi uğrunda fədakarlığını yüksək dəyərləndirir. Müəllifin 1911-ci ildə "Kaspi" qəzetində dərc etdirdiyi Ağabəyim Ağa, Aşıq Pəri, Gövhər Ağa, Fatma xanım Kəminə, Xurşudbanu Natəvan, Fatma Bikə, Qubalı Bikə kimi yeddi nəfər Azərbaycan şairinin həyat və yaradıcılıq yolundan bəhs edən irihəcmli "Azərbaycanın gülləri" adlı məqaləsi ədəbiyyatşünaslığımızın ilk nümunələrindən biri kimi də mühüm əhəmiyyət kəsb edir. 1950-ci illərdə Ceyhun bəy həmin yazını tərcümə etməklə fransız oxucularını da qadın şairlərimiz haqqında məlumatlandırmışdır. XIX əsrin sonları, XX əsrin əvvəlləri Rusiya müsəlmanlarının şəriksiz lideri, məşhur "Sözdə, fikirdə, işdə birlik" ideyasının sahibi, "Tərcüman"ın redaktoru, naşiri İsmayıl Qaspıralını Ceyhun bəy şəxsən tanıyır və onun sözünü, əməllərini yüksək qiymətləndirirdi. "Millətin atası"nın – İsmayıl Qaspıralını dövrün xadimləri belə adlandırırdı – vəfatı ilə əlaqədar "Kaspi"də *(1914, № 204)* dərc etdirdiyi "İsmayıl bəy Qaspıralının xatirəsinə" adlı yazısında C.Hacıbəyli sonsuz kədər və eyni zamanda qədirbilənliklə yazırdı ki, 32 il ərzində Rusiyanın türk müsəlmanlarını birliyə çağıran İ.Qaspıralı ölümü ilə də onları birləşdirdi, onun vəfatı ümumxalq kədərinə çevrildi. Əgər desəm ki, dövründə yalnız İ.Qaspıralıya yüksək münasibətinə görə Ceyhun Hacıbəyli ən ali sözlərə layiqdir, fikrimdə mübaliğə axtarmayın...

## Folklor toplayıcısı, folklorşünas

Ceyhun Hacıbəylinin Qarabağ folklorunun toplanılmasında, tədqiqində və təbliğində bənzərsiz xidmətləri olmuşdur. 1919-cu ilədək Qarabağı oymaq-oymaq gəzmiş, ağsaqqallar və ağbirçəklərlə görüşmüş, şifahi söz bilicilərini dinləmiş, yüzlərlə bayatı, alqış, qarğış, yalvarış, and, məzhəkə, oyun, müraciət formaları, hərbə-zorba, oxşama, layla, yanıltmac, ağı, zarafat, məzəli deyimlər və s. kimi şifahi xalq ədəbiyyatı nümunələrini toplamış, mühacirətdə ikən onları fransız dilinə çevirmiş və 1934-cü ildə Parisdə nəşr olunan "Asiya" jurnalında "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" adı ilə nəşr etdirmişdir. Ceyhun bəy folklor nümunələrini toplamağa görkəmli türkoloq Radlovun tədqiqatlarının davamçısı olan M.Samoyloviçin məsləhəti və köməyi ilə başladığını yazır. Sonralar baş verən ictimai-siyasi proseslər bu işi yarımçıq qoyur...

Ceyhun bəy folklor nümunələrini toplamaqla kifayətlənməmiş, Qarabağ dialekti və folklorunun özünəməxsus məziyyətləri, ölkəmizin digər bölgələrinin şifahi ədəbi nümunələri ilə onların oxşar və fərqli cəhətləri barədə maraqlı mülahizələr irəli sürmüş, yeri gəldikcə xalq deyimlərinin yaranma səbəbləri, məna, məzmun və mahiyyəti, işlənmə məqamı barədə dolğun məlumat vermişdir. Onun fikrincə, Qafqaz Azərbaycanında işlənən müxtəlif dialektlər içərisində Qarabağ dialekti səslənməsinə görə çox zəngin, formasına görə çox cazibədardır. Bir sözlə, bu əsəri ilə o, mahir folklorşünas kimi də diqqəti çəkir.



C.Hacıbəylinin təxminən 100 il əvvəl topladığı, 80 il əvvəl Parisdə fransız dilində nəşr etdirdiyi "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" kitabı ilə Azərbaycan oxucusu, elmi ictimaiyyəti yalnız 1999-cu ildə tanış olmuşdur: AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı, f.e.n. Bayram Ağayev həmin əsəri "Asiya" jurnalındakı variantına əsasən tərcümə və kiril əlifbası ilə nəşr etdirmişdir *(Bakı, "Ozan", redaktoru prof. Məhərrəm Qasımlı, 1999, 48 səh.)*. Əsər bu gün də aktuallığını saxlamaqdadır və Qarabağ etnoqrafiyasını, dialekt və folklorunu öyrənmək üçün mötəbər məxəzdir.

## Mətbuat tariximizin ilk tədqiqatçısı

Ceyhun Hacıbəyliyədək mətbuat tariximizlə bağlı xatirələr, müəyyən icmallar yazılmışdır. Ceyhun bəy ilk dəfə Azərbaycan mətbuat tarixinin elmi, sistemli və əhatəli tarixini qələmə almışdır. Firidun bəy Köçərli ədəbiyyat tariximizin, C.Hacıbəyli mətbuat tariximizin bünövrəsini, təməlini qoymuşlar. Onun 1909-cu ildə mətbuat tarixi ilə bağlı araşdırmasını *(MDƏİA, fond 649, iş 104)* ilk dəfə AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı, f.e.n. Mənzər İbrahimova üzə çıxarmış və "Molodyoj Azerbaydjana" qəzetinin iki nömrəsində "Əkinçi"dən "Həqiqət"ədək" adı ilə dərc etdirmişdir *(3, 6 iyul 1994, №73, 74)*. C.Hacıbəyli əsərin əvvəlində mətbuat tarixinin yazılmasının vacib olduğunu göstərir, sonra milli mətbuatımızın ilki "Əkinçi"dən, onun naşiri və redaktoru H.Zərdabidən geniş bəhs edir. O yazır: "Bu insan Qafqaz müsəlmanları arasında mətbuatın meydana gəlməsinin pioneridir. Əfsus ki, o, geridə qalmış milləti, xalqı üçün səmimi, təmənnasız işləyən, yalnız xeyirxahlıq duyğuları ilə zəhmət çəkən bəlkə də yeganə xadim idi". Sonra tədqiqatçı qəzetin bağlanma səbəblərini araşdırır və qəzetin nəşrinin dayandırılmasını milli itki hesab edir. C.Hacıbəyli "Şərqi-Rus", "Həyat", "İrşad", "Rəhbər", "Dəbistan", "Təkamül", "Yoldaş", "Molla Nəsrəddin", "Füyuzat", "Tazə həyat", "Tərəqqi", "Proqres", "İttifaq", "Zənbur"... kimi mətbu orqanların da məramı, ideya-istiqaməti, toxunduğu problemlər, redaktor və mühərrirləri haqqında geniş bəhs edir, onların cəmiyyət həyatında yeri və rolunu dəyərləndirir.

Məsələ burasındadır ki, bütün həyatını mətbuata həsr edən C.Hacıbəyli bu tədqiqat əsərindən əvvəl də, sonra da mətbuat, mətbəə-nəşriyyat problemlərinə dair xeyli məqalə yazmış və dərc etdirmişdir. "İncəsənət və müsəlmanlar" adlı məqaləsində *("Baku" qəzeti, №196, 2 sentyabr, 1909)* "Qələm qələbənin və təntənənin simvoludur" yazan Ceyhun bəy təəssüflə göstərirdi ki, bir nəfər də olsun rəssamımız, heykəltəraşımız, artistimiz yoxdur və əgər xalqın mədəni səviyyəsi onun mətbuat orqanlarının miqdarı ilə müəyyən edilir fikri ilə razılaşsaq, o zaman bizim müsəlmanlar yalnız amerikalı hindilərlə rəqabət apara bilərlər". "Qəzet işi haqqında" məqaləsində *("Kaspi", №226, 1912)* C.Hacıbəyli kədərlə qeyd edir ki, Rusiya imperiyasında yaşayan 20 milyon müsəlmanın 4 adda gündəlik qəzeti olmaqla, cəmi 8 qəzeti və 3 jurnalı var: hər 2 milyon yarım adama 1 qəzet, hər 7 milyona 1 jurnal.

Mətbuatın problemlərinə həsr etdiyi çoxsaylı məqalələrində C.Hacıbəyli qəzet və jurnalların mövzu, onun aktuallığı, əhəmiyyəti, ideya-istiqaməti, oxucu, dil-üslub, sənətkarlıq, eləcə də maliyyə-texniki məsələləri ilə bağlı peşəkar münasibət bildirir, mülahizələrini bölüşür.

Ceyhun Hacıbəyli İranın mətbuat tarixi ilə də bağlı irihəcmli məqalə qələmə almışdır *("Kaspi", №103, 1913)*. Məqalənin əvvəlində müəllif göstərir ki, Rəşt şəhərindəki İngiltərənin vitse-konsulu İran mətbuatı tarixinə dair maraqlı araşdırma aparmış, ilk qəzetin nəşrindən bugünədək çıxan bütün orqanlar haqqında məlumat toplamış və bununla bağlı Fransa mətbuatında məqalə dərc etdirmişdir. Ceyhun bəy həmin məqalənin məzmunu ilə oxucuları tanış etməklə kifayətlənmir, materialı yeni faktlarla zənginləşdirir.

Ceyhun Hacıbəyli xalq xadimlərinin xatirələrinə həsr etdiyi məqalələrində onların xatirəsinin əbədiləşdirilməsinin vacibliyini, xalqın hafizəsində daim yaşamaq haqqını qazandıqları üçün həmişə xatırlanmalarını ürəkdən arzu edirdi. Eyni haqqı mərhum Ceyhun Hacıbəylinin də qazandığını tam məsuliyyətlə söyləmək olar.

# Ən böyük "günahları" vətəni sevmək idi – *Xəlil İbrahim*

**Böyük bir yola çıxmışdılar. Məqsədləri, amalları bir idi. Millətin gələcəyini düşünmək, azad dövlət qurmaq onlar üçün vəzifələrin ən alisi, ən müqəddəsiydi. Yollarına daşlar yağdıranlar çox idi. Onlar isə ümidlə, qətiyyətlə sabaha üz tutmuşdular.**

**Çıxdıqları yolun rahat, enişsiz-yoxuşsuz olmadığını əzəldən bilirdilər. Və tarixin axarını o zaman dəyişdilər ki, doğma milləti əsarətdən, müstəmləkə boyunduruğundan xilas etdilər, ona müstəqil dövlətə sahib olmaq fürsəti verdilər, bayrağını ucaltdılar, məktəblər, səhiyyə ocaqları, mətbuat orqanları açmağa başladılar.**

Onlar sayca çox deyildilər. Yəqin, buna görə hərəsi bir yox, bir neçə işin qulpundan yapışmışdı. Bacarıqları, savadları yetən, gücləri çatan bütün sahələrdə fəaliyyət göstərir, yorulmadan çalışırdılar. Xəlil İbrahimin də silahı söz, mübarizə meydanı mətbuat oldu. Azərbaycan Xalq Cümhuriyyətinin ilk rəsmi mətbuat orqanının – "Azərbaycan" qəzetinin rusdilli nəşrinin redaktorlarından biri vəzifəsi ona həvalə ediləndə 1919-cu il idi. O zaman Xəlil İbrahimin cəmi iyirmi yeddi yaşı vardı. Bu gənc yaşınadək həyatın çox sərt sınaqlarından keçmişdi...

Zamanın tufanlarına, burulğanlarına düşmüş Xəlil İbrahim ömrünə bələdçimiz qızı Solmaz İbrahimova oldu. 92 yaşlı Solmaz xanımın "yadımdadır...", "xatırlayıram..." kəlmələri ilə başlayacağı çox söhbətləri var. Amma o, hələ ki bizə görmədiyi illərdən söz açır. Atasından – Xəlil İbrahimdən eşitdiklərini danışır.

...XIX əsrin son onilliyində Azərbaycanın gözəl Qarabağının göz bəbəyi sayılan Şuşada çoxu ailəsini sənətkarlıqla dolandırırdı. İbrahimin də sənəti pinəçilik idi. Həyat yoldaşı da, şuşalı qadınların əksəriyyəti kimi, yaxşı xalça toxuyurdu. Onların Göyçək adlı qızları, Abış adlı oğulları vardı. 1892-ci il martın 25-də dünyaya gələn oğullarının adını isə Xəlil qoydular. Daha sonra dördüncü övladları – Məhəmməd doğuldu.

Kasıbçılıq çəksələr də, həyatlarından narazı deyildilər. Kədərli günləri 1897-ci ildə İbrahimin cavan yaşında vəfat etməsi ilə başladı. Başçısını itirmiş ailə ehtiyacla üz-üzə qaldı. Evin yükü, uşaqların qayğısı ana ilə qızın çiyinlərinə düşdü. Onların toxuyub satdıqları xalçalardan gələn gəlir yeganə dolanışıq yerləri oldu. Bir neçə il sonra anaları da dünyasını dəyişdi. Dörd uşaq taleyin ümidinə qaldı.

Bu boyda dərdin, ehtiyacın balaca Xəlilə oxumaq arzusunu unutdurmağa gücü yetmədi. Uşaq yaşlarından taleyin zərbələrinə mərd-mərdanə sinə gərdi. Yəqin, arzuları uğrunda mübarizə aparmağı, niyyətindən dönməməyi də elə o zaman öyrəndi. Ən böyük müəllimi həyatın özü oldu. Ona baxıb müvazinətini düzəltdi, çətinliklə də olsa, gedəcəyi yolu seçdi, ilk addımlarını atmağa başladı...

Xəlil İbrahim ibtidai təhsilini Şuşadakı rus-tatar məktəbində aldı. 1907-ci ildə Bakıya gəldi. Həmin il daxil olduğu Bakı realnı məktəbində iki il oxudu. Sarıcalılı xeyriyyəçinin göstərdiyi



maddi yardım kəsildiyindən təhsilini tamamlaya bilmədi. Üç şəhəri – Gəncə, Tiflis və Bakını dolaşıb özünə iş axtarır, tapa bilmirdi. 1911-ci ildə Sarıcalıda Qasım bəy Zakirin nəvələrinin ev müəllimi oldu. Ona qalmaq üçün ərzaq anbarında yer də verdilər. Səhərədək siçanlar anbarda ora-bura vurnuxurdular. Amma on doqquz yaşlı gənc xoşbəxt idi. Çünki yeməyə çörəyi, qalmağa yeri vardı və işləyə bilirdi. "Kənd həyatından lövhələr" adlı ilk oçerkini də orada qələmə aldı. Bu oçerk 1913-cü ildə "Səda" qəzetində dərc olundu.

1912-ci ildə "Nəşri-maarif" cəmiyyətinin Əmircandakı məktəbində müəllimlik etdi. İyirmi yaşında həm müəllim işləyir, həm də bədii yaradıcılıqla məşğul olur, qəzetlərə məqalələr yazırdı. Xalqın sosial vəziyyəti, qadın azadlığı, savadsızlıq, teatrın problemləri və digər onu düşündürən, narahat edən mövzulara tez-tez müraciət edirdi. Xəlil İbrahim xeyriyyə və mədəni-maarif cəmiyyətlərinin işində də yaxından iştirak edirdi. 1916-cı ildə "Möhtaclara kömək" adlı qəzet çıxarmağa başladı. Birinci Dünya müharibəsinin ağır günlərində nəşrə başlayan qəzetin cəmi bir neçə sayı işıq üzü gördü.

1914-1918-ci illərdə dünyanı cənginə alan müharibənin gətirdiyi bəlalardan bəhs edən "Dəhşətli yanğın qarşısında", "Avropa müharibəsi nə qədər baha ilə bitəcəkdir", "Alban inqilabı" və başqa publisistik məqalələri dərc olundu.

XX əsrin əvvəllərindən böyük çar imperiyasının ərazilərini bürüyən siyasi iğtişaşlar getdikcə güclənirdi. Çarizm sərt tədbirlərə əl atsa da, inqilabi hərəkatın qarşısını ala bilmirdi. Çar Rusiyasının müstəmləkəsi altında olan ölkələrin qabaqcıl ziyalıları yaranmış vəziyyətdən istifadə edir, dövlət müstəqillikləri uğrunda mübarizə aparırdılar. Bakıda baş verən ciddi ictimai-siyasi hadisələrə Xəlil İbrahim də qoşulmuşdu. O, "Müsavat" partiyasının üzvü idi.

1917-ci ildə Hüseyn Cavid, Seyid Hüseyn, Abdulla Şaiq, Xəlil İbrahim və başqaları Bakıda yaradılan "Mühərrirlər və ədiblər cəmiyyəti"nin üzvləri oldular. İkinci iclasda Xəlil İbrahim cəmiyyətin katibi seçildi.

## Mübarizə meydanına çevrilən "Azərbaycan"

Uğrunda canlarını fəda etməyə hər an hazır olduqları müstəqil dövləti – Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar. 1918-1920-ci illərdə cümhuriyyət qurucuları ilə birlikdə böyük coşquyla bütün sahələrdə fəaliyyətə başladılar. Onlar dövlət orqanlarının da təşkilatlanma işini qurur, azad ölkənin ordusunu yaradır, Azərbaycanın dövlət müstəqilliyinin dünya ölkələri tərəfindən tanınması istiqamətində böyük işlər görürdülər. Məqsədyönlü işlərin sırasında azad ölkənin mətbuatını yaratmaq və inkişaf etdirmək də əsas məsələlərdən idi. Bu mühüm sahədə Xəlil İbrahim də xüsusi xidmətlər göstərdi. Mətbuat işində təcrübəliydi. Əvvəllər "Səda", "Tuti", "Açıq



söz", "İqbal", "Bəsirət", "Qurtuluş yolu" qəzet və jurnallarında müntəzəm çıxış etmiş, bəzilərinin qısa müddətdə redaktoru olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti illərində də Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Seyid Hüseyn, Səməd Mənsur, Fərhad Ağazadə kimi fəal jurnalistlərlə çiyin-çiyinə çalışdı. 1919-cu ilin 4 iyulundan "Azərbaycan" qəzetinin rus dilində nəşrinin 216-cı sayından 265-ci sayınadək redaktoru oldu. Ziddiyyətli bir dövrdə yeni hökumətin rəsmi orqanında məsul vəzifə daşımaq asan deyildi. İş rejimləri gərgin olsa da, ruh yüksəkliyi ilə çalışırdılar. Çünki ən böyük arzularına çatmış, müstəqil ölkənin vətəndaşları olmuşdular. Xəlil İbrahim qəzetdə həm də ictimai-siyasi hadisələrə, parlamentə dair maraqlı yazılarla çıxış edirdi. O, həmin il yaradılmış Jurnalistlər və Ədiblər İttifaqının sədr müavini də oldu.

Gənc dövlətin varlığına qəzəblənən, Azərbaycanın müstəqilliyinə son qoymağa çalışan qüvvələr geri çəkilmək niyyətində deyildilər. Belə bir vaxtda "Azərbaycan" da mübarizə meydanına çevrildi.

### Gedənləri qəriblik və ehtiyac, qalanları sovet hökumətinin zindanları gözləyirdi...

1920-ci ilin 28 aprelində bolşeviklər Azərbaycanın müstəqilliyinə son qoydular. Aprel işğalı milli qeyrətli, təəssübkeş yurddaşlarımızın məşəqqətli günlərinin başlandığı tarixdir. İşgəncələr, haqsızlıqlar çoxlarını xarici ölkələrə getməyə, mühacirətdə yaşamağa məcbur etdi. Xəlil İbrahim vətəndə qalanlardan oldu. Gedənləri qəriblik və ehtiyac, qalanları sovet hökumətinin zindanları gözləyirdi...

Sovet hakimiyyətinin qələbəsindən sonra "Azərbaycan" qəzeti də, Jurnalistlər və Ədiblər İttifaqı da fəaliyyətini dayandırmalı oldu. Ədəbiyyat, mədəniyyət xadimi, ictimai xadim, görkəmli jurnalist, tənqidçi, teatrşünas, tərcüməçi Xəlil İbrahim bundan sonra da bədii-publisistik fəaliyyətini davam etdirdi. Yazıları "Kommunist", "Ədəbiyyat", "Kəndçi" qəzetlərində, "Maarif və mədəniyyət" jurnalında dərc olundu. O, ictimai-siyasi məsələlərə, mədəni-maarif, teatr, dil və ədəbiyyat problemlərinə aid 200-dən çox məqalənin müəllifidir.

Teatrın vəziyyəti, yeni tamaşalar, aktyorların oyunlarından bəhs edən yazıları Xəlil İbrahimi obyektiv teatr tənqidçisi kimi tanıdırdı. Onun 1921-ci ildə səhnəyə qoyulan "Şeyx Sənan" haqqında yazdığı məqalə tamaşanı sovet quruluşunun tələbləri baxımından təhlil və tənqid edənlərə tutarlı cavab verdi. Xəlil İbrahim yazırdı: "Şeyx Sənan" Cavidin qüvvəli, ən gözəl əsəridir. Həm şəriət cəhətdən bu əsərdə Cavid müvəffəq olmuşdur, həm də seçmiş olduğu mövzunun ən mühüm hissəsini təşkil edən bir məsələdə qətiyyət, səbat və məntiq vardır, o da din məsələsidir... Əsərdəki oyuna gəlincə, aktyorlar da öz rollarını qənaətverici dərəcədə oynadılar. Xüsusən baş rolları: Xumarı Mərziyə xanım, Şeyx Sənanı A.M.Şərifzadə, Platonu Atamalıbəyov və Papası Cabbarzadə Qacar çox yaxşı oynadılar".

Xəlil İbrahimin məqalələrində rəğbətlə adları çəkdiyi aktyorların da çoxu sonralar sovet hökumətinin repressiya siyasətinin qurbanı oldular.

1922-ci ildə Cəfər Cabbarlının "Aydın" tamaşası barəsində tənqidçi yazırdı: "O, bir dünya yaratmaq istəyir ki, nə zülm olsun, nə zalim, nə hökm olsun, nə hakim, millətlər azad, fərdlər azad, zəhmət azad olsun. Hər kəs ancaq öz zəhmətinin və başqalarına zərər yetirməmək, hər tələblə öz arzusunun qulu olsun; istila olmasın. Bunun üçün də bir çarə var: üsyan! Kimə qarşı? Zülmə, istilaya... Azərbaycanı istila edən ruslara, Afrikada hakimiyyət sürən ingilislərə..."

Bolşeviklər qanla, qırğınlarla ələ keçirdikləri hakimiyyəti qorumaq üçün ilk gündən vətənini sevən, onun müstəqilliyi yolunda mübarizə aparmış ziyalıları hədəfə aldı. AXC-nin və "Müsavat" partiyasının qabaqcıl xadimlərindən olduğu üçün 1923-cü ilin yayında Azərbaycan Fövqəladə Komissarlığının və XI ordunun xüsusi şöbəsinin əsgərləri tərəfindən həyata keçirilən kütləvi həbslər zamanı tutulanlar sırasında Xəlil İbrahim də var idi. Ancaq bu dəfə o, sovet hakimiyyətinin qanlı caynaqlarından xilas ola bildi.

"Kommunist" qəzetində 1928-ci ildə dərc etdirdiyi "Teatr məsələləri" adlı məqaləsində teatrın tərbiyəvi və ictimai əhəmiyyətini belə ifadə edirdi: "Teatra gedənin özünəməxsus zövqü, tələbi və ehtiyacı var. Teatr kütlə üçündür. O, kütlənin ehtiyacını ödəməli, zövqünü oxşamalıdır. Lakin unutmamalı ki, teatr hər tamaşaçının hər tələbinə tabe olmaz. Belə ki, biz teatra tamaşaçını tərbiyə edən, ona müəyyən ruh verən müəssisə kimi baxırıq və böylə olduğu üçün də teatrın sabit bir xətti olmalıdır".

1935-ci ildə "Ədəbiyyat qəzeti"ndə "Tərcümə keyfiyyəti haqqında" adlı məqaləsində də tərcümənin xalqların mədəni həyatında oynadığı rolu yüksək qiymətləndirirdi.

Elmi-tədqiqat işləri aparmaq üçün Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yaradılanda Xəlil İbrahim respublikanın baş elmi müəssisəsi sayılan bu cəmiyyətin üzvlərindən biri oldu. O il Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin nəzdində yaradılan elmi terminologiyanın işlənib hazırlanması üzrə komissiyanın əvvəl üzvü, sonra məsul katibi seçildi və həm də komissiyanın "Dilimizin islahı" adlı mətbuat orqanının redaktoru oldu. Xəlil İbrahim görkəmli elm xadimləri Hənəfi Zeynallı, Hümbət Əlizadə, Əmin Abid, Yusif Vəzir Çəmənzəminli, Vəli Xuluflu, Salman Mümtaz, Balabəy Həsənbəyov, Bəkir Çobanzadə, Mövsüm Qədirli, Əziz Qubaydulin və başqaları ilə dil və əlifba problemlərinin həllində birgə layihələrdə iştirak etdi.

1930-cu ildən "Azərnəşr"də bədii ədəbiyyat üzrə redaktor işləyən Xəlil İbrahim ictimai-siyasi ədəbiyyatın, dünya ədəbiyyatı klassiklərinin – Şekspir, Şiller, A.Tolstoy və başqalarının əsərlərinin ana dilimizə tərcüməsində xeyli iş gördü.

Xəlil İbrahim Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda türk ədəbi lüğətinin hazırlanmasında da fəal iştirak etdi.

Azərbaycan dilində birinci dəfə V.İ.Leninin əsərlərindən ibarət 6 cildlik hazırlananda Ruhulla Axundovun rəhbərliyi altında o zaman "Kommunist" qəzetində işləyən Xəlil İbrahim də daxil olmaqla altı nəfərdən ibarət heyət yaradıldı.

## Gecə döyülən qapılar...

Xəlil İbrahim yaxın dostlarından biri ilə – şair Əhməd Cavadla İçərişəhərdə həyət qonşusuydu. İndi o evdə keçən illəri Solmaz xanımın ən kövrək xatirələridir: "Uşaq vaxtı ən çox gördüklərimiz Hüseyn Cavidlə Əhməd Cavad idi. Hüseyn Cavidin qızı Turan xanımla qardaşım bir si-

nifdə oxuyurdu. Əhməd Cavadgillə İçərişəhərdə qonşu idik. Cavad əmini, Şükriyyə xalanı, oğlanları Niyazini, Tuqayı yaxşı xatırlayıram".

1937-ci ildə repressiya bəlası qara bulud kimi dünyalarını qaraltdı. Sabahlarından nagüman yaşayırdılar. Hər gün Əhməd Cavad işdən gələndə evlərinin küçəyə baxan pəncərəsinin qabağında dayanır, şüşəni döyürdü. Xəlil İbrahim pəncərəyə yaxınlaşanda ucadan salam verir, sonra astadan: "Xəlil əfəndi, bu gün də filankəsi apardılar" deyib gedirdi.

1937-ci il iyunun 3-dən 4-nə keçən gecə Əhməd Cavadı həbs etdilər. Ondan sonra bir gecə Şükriyyə xanımla oğlu Aydını apardılar.

...Əhməd Cavadın həbsindən beş ay ötürdü. Noyabrın 6-sı idi. On bir il idi ki, həmin gün Xəlil İbrahimin evində xüsusi gün kimi qeyd edilirdi. 1937-ci ilin 6 noyabrında isə evlərindəki əhvali-ruhiyyə Solmaz xanımı xeyli təəccübləndirdi. Gündüz yoldaşları gəldi. Axşam isə qonaq olmadı. İlk dəfəydi ki, onun ad günü belə soyuq, səssiz-səmirsiz keçirdi. Xəlil İbrahim qonaqsevən idi. Ona görə evləri gediş-gəlişli olardı. Son aylar hamının ayağı onlardan çəkilmişdi. Evləri suyu sovulmuş dəyirmana bənzəyirdi. Artıq uşaqlar da hiss edirdilər ki, nə isə baş verir. Amma nə olduğunu bilmirdilər. Ataları işsiz qalmışdı, həbs olunmaq qorxusu vardı... Bunları anlayacaq yaşda deyildilər.

Sonralar başa düşdülər ki, dostlarının, məsləkdaşlarının, əqidə yoldaşlarının həbsindən sonra Xəlil İbrahim, əslində, təklənibmiş. Yaxın dostlarının ardınca gec-tez ona da növbənin çatacağını duyanlar Xəlil İbrahimdən kənar gəzirmişlər.

O illərin ən böyük qorxusu gecənin bir aləmi qapıların döyülməsiydi. Çünki, adətən, "NKVD"-nin əməkdaşları gecə yarıdan keçmiş gəlirdilər. Noyabrın 11-dən 12-nə keçən gecə növbə onlara çatdı. Gələnlər üç nəfər idilər, biri erməni, biri rus, biri isə azərbaycanlı.

Xəlil İbrahimin evində çoxlu nadir kitab, əlyazmalar, hərəsi bir tarix olan şəkillər, sənədlər var idi. Bunlar bir nəfərin, bir ailənin deyil, bütövlükdə millətin mənəvi xəzinəsiydi. Xəlil İbrahimi həbs etməyə gələnlər onları dağıdıb talan etdilər, lazım bildiklərini daşıyıb maşına yüklədilər.

Ayrılıq anları gəldi. Xəlil İbrahim qapının ağzında dayanan, bənizi avazımış oğluna diqqətlə baxa-baxa dilləndi: "Oğlum, mən sizin qarşınızda təmizəm, heç bir günahım yoxdur. Qorxma, çox çəkməz, aydınlaşdırarlar. Ürəyinizi sıxmayın, mən uzağı bir aya, ay yarıma gələrəm".

Həyat yoldaşı Gülüstan xanım qızı ilə birlikdə "NKVD"-nin zirzəmisində saxlanılan Xəlil İbrahimə hər həftə "peredaça" aparırdı. Gülüstan xanım Elxanı getməyə qoymurdu, onu qoruyurdu. Qorxurdu bir gün yenə gecəyarı qapıları döyülər, bu dəfə on altı yaşlı oğlunun ardınca gələrlər.

1938-ci il martın 18-də ana-qız yenə Xəlil İbrahimə bağlama apardılar. Çox keçmədi ki, göndərdiklərini geri qaytardılar. Üstündə bir parça kağızda yazılmışdı: "Gülüstan, sağ ol, özündən və uşaqlardan muğayat ol. Xəlil". "Xətt və imza Xəlilindi, – Gülüstan xanım qızına Xəlil İbrahimin imzasını göstərərək izah etdi: – Bax görürsən, latın qrafikasıyla Xəlil yazılıb, sonuncu hərf – *l* hərfi üstdən aşağı sanki burulub, əslində, bu da əski ərəb əlifbasıyla Xəlil oxunur. Xəlil, adətən, belə qol çəkir". Bunu bir Xəlil İbrahim, bir də Gülüstan xanım bilirdi.

Gülüstan xanım bilmirdi gedənin dərdinə yansın, yoxsa özünün, uşaqlarının günlərinə ağlasın. Gecələr hər səsə, hənirtiyə diksinirdilər. Onlara elə gəlirdi ki, "NKVD"-nin qara maşını yenə qapılarında dayanacaq. Bu dəfə onların ardınca gələcəklər.

Xəlil İbrahim ağlı kəsəndən ata qayğısı görməmişdi. Övladlarını da sovet hakimiyyəti atasız yaşamağa məhkum etdi. O gedəndə kiçik qızı 3 yaşındaydı. Solmaz xanım deyir: "Güllər atamı dumanlı şəkildə xatırlayırdı. Bacımın yadında daha çox bir xatirə qalmışdı ki, anamla Elxanı

apardılar. Amma bu, sonralar oldu. Əslində, atamın həbsindən sonra bizə toxunmadılar. Hamı buna təəccüblənirdi, elə özümüz də! Məhəllənin Nağı adlı süpürgəçisi vardı. Gözləri bir balaca zədəli olduğundan adına Kor Nağı deyirdilər. Şübhəli adam idi. Anamın həbs olunmaması, bizim uşaq evlərinə verilməməyimiz nədənsə onu bərk narahat edirdi. İçindəki paxırı gizlətməyə heç cəhd də eləmirdi. Anamdan soruşurdu ki, necə olub səni tutmayıblar? Atamdan bir-iki il sonra istəyinə çatdı, anamı tutdurdu, adını da qoydular alver eləyib. Göstərilən səbəb tamamilə mənasız, əsassız idi. Anam iki ay həbsdə qaldı. Bakının ovaxtkı hərbi prokuroru Davud atamın dostlarından idi. Sanballı, sözükeçən adamdı. Arvadı Məsmə xanım da anamın rəfiqəsiydi. Elxanla Davud əminin yanına gedib anamın həbs olunduğunu xəbər verdik. O buraxdırdı. Yoxsa anam həbsdə qalacaqdı".



Atası həbs olunandan aylar sonra Solmaz İbrahimova Sovet İttifaqında birinci şəxsdən – Stalindən tutmuş aşağılara qədər bütün səlahiyyətli şəxslərə məktublar göndərməyə başladı. Ümidlə atasını axtarırdı. Böyük Vətən müharibəsi başlayanda Solmaz İbrahimovanı prokurorluğa çağırıb xəbərdarlıq etdilər: "Müharibə gedir, xalq düşmənlərinin işi ilə məşğul olmaq vaxtı deyil. Nə qədər sizə dəyib-toxunmuruq..." Məsələ aydın idi. O gündən Solmaz xanım məktub yazmağı dayandırdı.

## Onları ölümə göndərirdilər, çünki "xalq düşmənləri"nin uşaqları idilər...

1941-ci ildə, Böyük Vətən müharibəsi başlayan kimi Elxanı əsgər apardılar. "Xalq düşmənləri"nin oğullarını cəbhəyə deyil, cərimə batalyonlarına təyin edirdilər. Onları ölümə göndərirdilər, çünki "xalq düşmənləri"nin uşaqları idilər. Elxan da "cəzasını" Mozdokda çəkirdi.

Müharibənin ilk günlərində Gülüstan xanımı da tibb işçisi kimi səfərbərliyə aldılar. Solmaz xanım danışır: "Gülləri də əlimdən alıb uşaq evinə verdilər ki, mən saxlaya bilmərəm. Anam çox bacarıqlı qadın idi. Gülləri ordan çıxartdı. Elxan cərimə batalyonundan ölümcül qayıtdı. Onu da sağaltdı. Elxan müharibədən əvvəl universitetə daxil olmuşdu. Qayıdandan sonra oxuduğu kursa – ikinci kursa götürdülər. Orada Elxana göz verib, işıq vermirdilər. Onu hədələyirdilər ki, "xalq düşməni"nin oğlusan, atanın yolu ilə gedirsən, filologiya fakültəsinə daxil olmusan ki, onun işlərini davam etdirəsən".

Elxanın yaxın dostlarından biri həbs olunandan sonra Gülüstan xanım əmin oldu ki, növbə oğlunundur. Ovaxtkı Azərbaycan SSR-in maarif naziri Mirzə İbrahimova zəng vurdu. O, Xəlil İbrahimi yaxşı tanıyırdı. Gülüstan xanıma dedi ki, mən yalnız təhsilləri ilə bağlı uşaqları Bakıdan çıxara bilərəm. O il birinci dəfə Bakıdan Moskvaya oxumağa tələbə göndərirdilər. Elxan xilas edilməliydi. Ancaq Mirzə müəllim Solmaz İbrahimovanın da adını o siyahıya saldı. Moskvaya 1944-cü ilin avqustunda getdilər. Elxan Bakı Dövlət Universitetinin ikinci kursundan getdiyi üçün onu Moskva Dövlət Universitetinin ikinci kursuna qəbul etdilər. Solmaz xanım isə Bi-



Oturanlar (soldan sağa): Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əbdürrəhim bəy Haqverdiyev, Cabbar Əfəndizadə, Süleyman Sani Axundov, İbrahim Eminbəyli, Hacı Kərim Sanılı
Ayaq üstə duranlar (soldan sağa): Xəlil İbrahim, Cəfər Cabbarlı, Seyid Hüseyn, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Abdulla Şaiq, Əhməd Cavad, Məmməd Rahim
Tiflis: "Zarya Vostok" qəzetinin redaksiyası – 1929-cu il

rinci Moskva Dövlət Xarici Dillər İnstitutunun 1-ci kursuna daxil oldu. 1948-ci ildə hər ikisi təhsilini bitirib Bakıya qayıtdı. Elxana heç yerdə iş vermədilər. Solmaz xanımı isə Bakıda açılmış Xarici Dillər İnstitutuna (indi Azərbaycan Dillər Universiteti) ingilis dili müəllimi kimi işə qəbul etdilər. Dörd ay sonra – 1949-cu il fevralın 2-də onu guya təyinat üzrə işləmədiyi üçün işdən azad etdilər.

## Xalqını sevənlər "xalq düşməni" adıyla ittiham olundular

İşsiz qaldıqları günlərdə yenidən atasını axtarmağa başladı. Elə bir səlahiyyətli şəxs, orqan yox idi ki, müraciət etməsin. Hətta Moskvaya, K.E.Voroşilovun qəbuluna getdi. Sanki Xəlil İbrahim adında adam heç olmamışdı. Solmaz xanım yada salır: "Moskvadan verilən axırıncı cavab bu oldu ki, belə bir adam yoxdur. 1956-cı ildə Mir Cəfər Bağırovun məhkəməsi olanda teleqram vurdum ki, məni qəbul eləyin, atamı axtarıram. Bağırovun məhkəməsini SSRİ-nin baş prokuroru Rudenko aparırdı. Məni Bazinov soyadlı prokuror qəbul etdi. Bazinov mənə dedi ki, sabah gəlin, mən aydınlaşdıraram. Səhəri gün yenidən onunla görüşdüm. Bildirdi: "Görürəm güclü adamsız... Sizin atanız güllələnib". "Biz isə elə bilirdik o sağdır, Sibirdədir. Anama hərdən deyirdim, Allahın altında biləydim, kimin aqibəti daha ağırdır, – orada atamın, ya burada bizim..."

Xəlil İbrahim "Müsavat" partiyasının üzvü olmuşdu, Azərbaycanın müstəqilliyi uğrunda fəal mübariz idi. Repressiya illərində ittiham üçün başqa nə lazım idi ki?! Möcüzə o zaman ola bilərdi ki, Xəlil İbrahimi həbs etməyəydilər. Belə bir möcüzə baş vermədi. Xəlil İbrahim o dəhşətli günlərdə tutuldu, "NKVD" zirzəmisində dəfələrlə məşhər ayağına çəkildi. Ağır işgəncələrlə "gərəkli ifadə" alındı. 1938-ci ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı "üçlüy"ünün 11 mart tarixli qərarıyla "xalq düşməni" elan olundu, martın 23-də güllələndi.

Xəlil İbrahimin "cinayət işi"nə 1956-cı ilin aprelində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən yenidən baxıldı. Xəlil İbrahimin işində cinayət tərkibi olmadığı üçün ona bəraət verildi.

Bundan sonra, 1957-ci ildə Xəlil İbrahimin ailəsinə Nizami küçəsi, 45 ünvanında iki otaq verdilər. Bu da həyatlarının daha bir nisgili: "Bəraət çox gec gəldi. Anam 50 yaşında qoca qarıya dönmüşdü. Sağlamlığını itirmişdi. Sağ yeri yox idi. Ağır diabet idi. Sonra gözləri tamamilə tutuldu. Onda hamımız ali təhsil almışdıq, anamın yanında idik. O, 1966-cı il yanvarın 15-də vəfat etdi".

Sovet hakimiyyəti, əslində, repressiya qurbanlarının ailə üzvlərini də sağ buraxmırdı. 1937-ci ildən sonra çəkdikləri qorxu hisləri – hər an həbs olunacaqları, güllələnəcəkləri, sürgünə göndəriləcəkləri təhlükəsi ömürlərini gilə-gilə əridirdi. Gülüstan xanımın da gəncliyini, gözəlliyini, sağlamlığını məhv etdilər. Övladları gözləri qarşısında zülm, zillət çəkdilər. Xəlil İbrahimin uşaqları olduqlarına görə Elxan da, Solmaz da, Güllər də dönə-dönə haqsızlıqlara uğradılar, işlərinə maneçilik törətdilər. Repressiya qurbanlarının uşaqlarının çoxunun həyatı həmişəlik tarmar oldu. Solmaz xanım danışır: "Elxan evlənəndə 35 yaşı vardı. Mən isə ailə qurmadım. Kim bizimlə evlənərdi?! Bacıma gəlincə, o, institutu bitirəndə biz artıq bəraət almışdıq. İctimai statusumuz başqa idi".

Xəlil İbrahimin övladları mübarizələrdən keçə-keçə atalarının adına layiq ömür sürdülər. Elxan atasının yolunu davam etdirdi. Uzun illər müxtəlif redaksiyalarda çalışdı, jurnalist, baş redaktor, tərcüməçi işlədi. SSRİ Yazıçılar İttifaqının və SSRİ Jurnalistlər İttifaqının üzvü oldu. 1981-ci ilin yanvarında vəfat etdi.

Solmaz xanım Moskvaya köçdü. Moskva Dövlət Pedaqoji Universitetinin İngilis dili fakültəsinin dosenti oldu. Təqaüddədir. Hər yay Moskvadan Bakıya istirahətə gəlir. Güllər xanım isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun dosenti kimi təqaüdə çıxdı.

Xəlil İbrahimləri qurban seçdilər, həbsxanalara atdılar, sürgünlərə yolladılar, güllələdilər. Çünki "günahkar" idilər. "Günahları" doğma millətini sevmək, onun yolunda səməndər quşu kimi yanmaq, haqq səsini ucaltmaq idi.

Onların çoxunu belə suçlayırdılar: "Sovet hökumətinə qarşı gizli fəaliyyət göstərir". Əslində, bu, bəhanə deyildi, sovet hökumətinin qorxusu, xofu idi. Xalqını sevənlər "xalq düşməni" adıyla ittiham olundular. Canlarını fəda etdikləri vətənlərində bir məzarlıq yer də qıymadılar onlara...

Solmaz xanım gözlərini boşluğa zilləyir, öz-özü ilə danışırmış kimi pıçıldayır: "Nargin adasında dəniz atamın da son mənzili oldumu? Elə deyirlər. Amma kim bilir..."






# Vətən sevdalılar –
# *Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə*

**...Burada zaman ağır keçirdi. Hər günləri bir ilə bərabərdi. Ən gözəli xatirələrə sığınmaqdı. Ancaq onlar da payız günəşinə bənzəməyə başlamışdılar. Hicran soyuğundan üşüyən ürəklərini isidə bilmirdilər.**

Həbsxananın bir küncündə oturmuşdu. Bu kamera adlanan on beş kvadratmetrlik otağın yarım kvadratmetr böyüklükdəki pəncərəsindən saçılan günəşin ziyası bir payız gününün son saatını andırırdı. Ümmügülsüm Sadıqzadəyə elə gəldi ki, zaman donub. Bir də nə axşam düşəcək, nə də sabah açılacaq. Buradakı otuz altı nəfər məhbus qadın da, beləcə, azadlıqda qalan doğmalarının həsrəti ilə sonsuzadək sızlayacaqlar.

Başını divara söykəyib gözlərini bərk-bərk yumdu. Özünü inandırmaq istəyirdi ki, içərisində olduğu bu vaxt gerçəklik deyil, dəhşətli yuxudur. Deyəsən, yenə reallığı aldada bildi...

Evlərindədir. Mətbəxdə şam yeməyi hazırlayır. Seyid Hüseyn iş otağına çəkilib. Oğlanları Oqtay, Cığatay və Toğrul gözə dəymirlər. Mələklərə bənzəyən kiçik qızı Qumral isə yenə ətrafında dolanır. Axşam düşsə də, taybatay açdığı pəncərələrdən içəri sərinlik gəlmir. Ümmügülsüm xanım düşünür ki, yayda şəhərin istisindən bakılıları xilas edən dənizin havası, suyudur. Seyid Hüseyn də hər il mayın axırlarında ailəsi ilə birgə Şüvəlandakı bağına köçürdü. Bu il iyun ayı başlasa da, hələ İçərişəhərdəki evlərindədirlər.

Bir azdan süfrə başına yığışırlar. Analarının bağ tədarükündən söz salması uşaqları sevindirir. Onların ovqatı Ümmügülsüm xanıma da təsir edir. Təkcə Seyid Hüseynin eyni açılmır. Onun üzündə aylardır kölgələnən sabahlarından nagümanlıq Ümmügülsüm xanımın da ürəyinə çöküb. İstəyir özünü ələ alıb ərinə təsəlli versin, kövrəlib uşaqları narahat edəcəyindən qorxur. Baxışları otağın nəzərəçarpacaq yerində divara vurduqları təqvimə dikilir. Təqvimdə 1937-ci ildir...

## Yaddaşlarda qalan tarix

Sanki xəyallarının da qanadlarını qırmışdılar. Onlar da 1937-ci ili adlayıb keçə bilmirdilər. Halbuki sevimli həyat yoldaşıyla, əziz övladlarıyla, çox mehriban olduğu qohumlarıyla ən gözəl günləri ondan o üzdə qalmışdı. 1937-ci ildən bu tərəfdə nə vardısa, hamısına təşviş, həyəcan qarışmışdı...

Əslində, bütün bunlar birdən-birə başlamadı. 1937-ci ilə enişli-yoxuşlu yollardan keçib gəldilər. Hüseyn Cavid, Əhməd Cavad, Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə və sovet hökumətinin qənim kəsildiyi yüzlərlə belə vətən sevdalısının unutmadığı, unutmaq istəmədiyi bir tarix vardı. Adı Azərbaycan Xalq Cümhuriyyəti idi. Bolşeviklər nə qədər səy göstərsələr də, Azərbaycan tarixinin bu möhtəşəm səhifələrini poza bilməyəcəkdilər. Onun qurucularından, ona rəğbət bəsləyənlərdən əlləri çatanlarını məhv, çatmayanlarının adlarını çəkməyi qadağan edə bilərdilər, amma Azərbaycan Xalq Cümhuriyyətinin izlərini yaddaşlardan silməyə gücləri yetməzdi. Çünki müstəmləkə əsarətindən qurtulmaq, Azərbaycanın müstəqilliyini xəyallardan, arzulardan, ideyalardan gerçəkliyə çevirmək, azad ölkənin vətəndaşı olmaq vardı bu adda.

## "Səni sevən sənsiz ömrü neyləsin?"

...Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətə gəlməsi vətən təəssübkeşlərinin ən ali məqsədləri, ən ülvi arzularıydı. Gənc şairə Ümmügülsüm xanım da özünü dünyanın bəxtəvəri sayırdı. O vaxtlar hələ ata ocağından ayrılmamışdı. 1900-cü ilin yayında dünyaya göz açdığı, böyüyüb boya-başa çatdığı Bakının Novxanı kəndindəki o evdə keçən günlərinin qayğıları da şirin idi. Çünki qəlbi gələcəklərinə inamla, ümidlə doluydu.

Sayılıb-seçilən bir ailənin qızıydı. Atası Əbdüləziz el-obanın nüfuzlu kişilərindən sayılırdı. Çoxları kimi, Ümmügülsüm xanım da ilk təhsilini ruhani atasından aldı. Klassik Azərbaycan və Şərq ədəbiyyatını da əvvəlcə valideynlərindən öyrəndi. Doqquz yaşından özü də şeirlər yazmağa başladı. 1914-cü il 1 dekabrda "Vətən sevgisi" hekayəsi "Dirilik" jurnalında dərc edildi. 1915-ci ildə "Qurtuluş" jurnalında elan olunmuş müsabiqədə "Solğun çiçək" hekayəsi ilə iştirak etdi və birinci yeri tutdu. Əsərləri "İqbal", "Yeni iqbal", "Açıq söz", "Birlik", "İstiqlal", "Azərbaycan", "Ədəbiyyat", "Şərq qadını", "Məktəb", "Füqəra füyuzatı" və başqa mətbuat orqanlarında da işıq üzü gördü. Onu ədəbi aləmdə milli ruhlu şeirləri tanıtdı. Seyid Hüseyn də Ümmügülsüm xanımı həmin əsərlərində "gördü". 1907-ci ildən müxtəlif mətbuat orqanlarında çıxış edən Seyid Hüseyn o vaxtlar artıq istedadlı publisist, tənqidçi, yazıçı kimi məşhurlaşmışdı. Ümmügülsüm xanım da onun qəzet və jurnallarda işıq üzü görən yazılarını böyük maraqla oxuyurdu. Qadınların savadlanması, hüquqlarının, azadlıqlarının qorunması Seyid Hüseynin daim müraciət etdiyi mövzulardan idi. Elə gənc şairə də cəsarəti, mübarizliyi ilə diqqətini cəlb etmişdi.

"Ölülər"in ilk tamaşasına getdikləri gün onları şair Hüseyn Cavid tanış etdi. 1917-ci ildə nişanlandılar.

Ölkədə mürəkkəb ictimai-siyasi hadisələr tüğyan edirdi. Erməni daşnaklarının törətdikləri mart soyqırımı, inqilablar toylarının təxirə düşməsinə səbəb oldu. O illərdə baş verən ən xoş hadisə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması idi. Yeni hökumət ağır sınaqlarla üzləşdi. Həmin günlərdə fəaliyyətə başlayan "Azərbaycan" qəzeti dövrün görkəmli ziyalıları üçün mübarizə meydanına çevrildi. Müstəqil dövlətin qorunması, yaşadılması amalı ilə yazıb-yaradan qələm adamlarının sırasında qadınlar da var idi. Onlardan biri də Ümmügülsüm xanım oldu.

1918-1920-ci illər arzuları kimi, yaradıcılığının da çiçəklənən dövrü oldu. Xalqın milli istiqlala qovuşmasını "Türk ordusuna", "Ey türk oğlu!", "Çəkil, dəf ol!", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" və başqa şeirlərində tərənnüm edirdi. 1919-cu ildə "Azərbaycan" qəzetinin 352-ci sayında yazırdı:

*Annəciyim, ağlama, xeyir-dua söylə sən,*
*Göz yaşınla saxlama haqq yoluna gedəni.*
*Onun çarpan qəlbinə çalış fərəh verəsən,*
*Onun şux gənc həyatı qurtaracaq vətəni!*

"Əsgər analarına" adlı bu şeirdə müəllif Milli Ordunun yaradılmasını, səfərbərliyə alınan Azərbaycan gənclərinin və onları yola salan anaların rəşadətini alqışlayırdı.

1920-ci ildə evləndilər... Həmin il bolşeviklər bir millətin müqəddəratını dəyişən, sabahını aydınladan cümhuriyyət işığını söndürdülər. Ümmügülsüm xanımın şair ruhu o gündən kədərə büründü. "Hicran" adlı şeirində bildirirdi:

*Ayrılınca hilal qaşlı yarımdan,*
*Mən yaslara batdım, geymədim əlvan.*
*Düşünüb o yıldız gözləri hər an*
*Ağlarkən kəndini yorma dedilər.*
*Könül şəkvəsini kimə söyləsin,*
*Qəlbimin dərdini kimlər dinləsin?*
*Səni sevən sənsiz ömrü neyləsin?*
*Dalınca qoşarkən varma dedilər...*

"Bayrağımız enərkən" şeirində isə şairə Azərbaycanın müstəqilliyinin rəmzi olan üçrəngli bayrağın daha başları üzərində dalğalanmadığına belə yas tuturdu:

*Yazıq səni, Bayrağım, endirdilər, öyləmi?*
*Səni yıxıb devirən o zəhərli ruzigar,*
*O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar*
*Yanar ocağımı da söndürdülər, öyləmi?*

1920-ci ilin 28 aprelində cümhuriyyətin süqutuna nail olanlar millətin azadlıq ruhunu yenidən oyada biləcək şəxsiyyətlərə düşmən kəsildilər. Gənc ailə də onları gözləyən təhlükədən uzaqlaşmaq üçün Xızıya yollandı. Orada Seyid Hüseyn məktəbdə müəllim işləməyə başladı. 1921-ci il fevralın 21-də ilkləri dünyaya gəldi. Seyid Hüseyn körpənin adını Oqtay qoydu.

Qış sərt keçirdi. Səbirsizliklə qarla örtülmüş yolların açılmasını gözləyirdilər ki, şad xəbəri şəhərdəki qohumlarına çatdırsınlar. Oğullarının dünyaya gəldiyi gün Seyid Hüseynin qardaşı Mir Paşanın şəhid olduğundan xəbərsizdilər. Mir Paşanın da daxil olduğu Azərbaycan Dövlət Teatrının truppası Bakı Sovetinin sədri Əliheydər Qarayevin tapşırığı ilə Qarabağ kəndlərinə getmişdilər ki, orada azərbaycanlılara dinclik verməyən ermənilərlə söhbət aparıb, onları sülhə çağırsınlar. Gecə hücum edən ermənilər aktyorları qaldıqları evdə qətlə yetirmişdilər.

Bakıya Mir Paşanın 40-na az qalmış gələ bildilər. Daha Xızıya dönmədilər. Tezliklə Seyid Hüseyn həbs olundu. Bir neçə ay sonra onu buraxdılar. 1923-cü ildə yenidən tutuldu. O zaman da iki aya yaxın həbsdə qaldı. Ruhulla Axundovun köməyi ilə azad olundu.



Seyid Hüseyn 1920-ci ildən "Kommunist" qəzeti redaksiyasında ədəbi işçi, orta məktəbdə, texnikumlarda müəllim işləyirdi. Bir neçə yerdə çalışmağa məcbur idi. Çünki yalnız öz ailəsini dolandırmırdı, ona ana əvəzi olmuş bacısı Rübabə xanımın və bolşeviklər hakimiyyətə gəldikdən sonra mühacirətə yollanmış bacanağı Məhəmməd Əmin Rəsulzadənin ailəsinə də əl tuturdu.

Son illər isə "Azərnəşr"in bədii ədəbiyyat şöbəsinin redaktoruydu. 1934-cü ildə onu Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul etdilər. 1936-cı ildə üzvlükdən çıxarıldı, əsərləri daha sərt, daha kəskin tənqid olunmağa başladı.

Başları üstünü almış qara buludlar 1937-ci ilin əvvəllərindən sıxlaşırdı. O gün – iyulun 15-də bağ evlərində Seyid Hüseynin də, Ümmügülsüm xanımın da kədərli görünmələrinin səbəbi bunlar idi. Repressiya fəlakəti addım-addım onlara yaxınlaşırdı. "NKVD"-nin kabusa dönən qara maşını o gün yaşadıqları ünvana, Şüvəlandakı Zamkovski döngəsi 74-ə doğru istiqamət almışdı...

Ayrılıq anlarında Seyid Hüseyn təmkinini pozmadı. Evdəkilərlə vidalaşanda: "Ağlamayın, belə də olmalıydı", – dedi. Oğlu Toğrulun həyəcanla verdiyi: "Ata, nə vaxt qayıdacaqsan" sualının cavabı Seyid Hüseyn üçün də müəmmalıydı.

O gün Novxanıda da Ümmügülsüm xanımın bacısı oğlu, on doqquz yaşlı Rəsul Rəsulzadə həbs olundu. Xalasıgildə qonaq olan Oqtay valideynlərinin Bakıda olduğunu güman edirdi. Acı xəbəri vermək üçün xalası qızı Xalidəylə şəhərə gəldi. Bibisi qızı Səyyarə evdə tək idi. Axşam düşürdü. Qərara gəldilər ki, Şüvəlana sabah getsinlər. Gecə saat 1-in yarısında qapıları döyüldü. Gələnlər "NKVD"-nin əməkdaşlarıydı. Evdə axtarış apardılar. Haradansa "Müsavat" partiyasının nizamnaməsini tapdılar. Evdəki kitabları, əlyazmaları, sənədləri, şəkilləri Qala qapısının ya-



nında dayanan maşına daşıdılar. Axtarış səhərə yaxın bitdi.

Baş verənləri atasına danışmaq üçün sübh tezdən Şüvəlana yollanan Oqtay onun da bir gün qabaq həbs olunduğunu öyrəndi. Daha bağda qalmadılar. Şəhərdəki evlərinə daşındılar.

Seyid Hüseyn tutulduğu gündən Ümmügülsüm Sadıqzadə həbsini gözlədi. Gecənin birində aparılarkən uşaqlarının yalnız qalıb qorxacaqlarından narahat idi. Buna görə bacısı Ümbülbanu xanım onlarda qalırdı.

1937-ci ilin yağışlı, küləkli payız gecəsi qapıları döyüldü. Ümmügülsüm xanım şübhə etmirdi ki, onu aparmağa gəliblər. Təmkinlə qapıya yaxınlaşdı. Bacısının kiçik oğlu Azər "NKVD"-nin əməkdaşları ilə gəlmişdi. Ümbülbanu xanımı götürüb getdilər. Ümmügülsüm xanım öz həbsini gözlədiyi vaxt "NKVD"-nin əməkdaşları başqa qapıları döymüşdülər. Qardaşı Məmmədəli Rəsulzadənin həyat yoldaşı Raziyə xanımı, oğlanları Musa, Gündüz və Aydını, bacısı Ümbülbanu xanımı, onun qayınanası Maral xanımı, qızı Xalidəni, oğlu Azəri apardılar. Onları Qazaxıstana sürgün etdilər. Ümmügülsüm xanım üçün əziz olan həyət boş qaldı.

Bacısının böyük qızı Lətifənin də əvvəlcə həyat yoldaşı Damad həbs olundu. Çox keçmədi ki, Lətifə iki qızı ilə Qazaxıstana sürgün edildi. Üç yaşlı qızı isə o zaman xəstə olduğu üçün Bakıda qaldı...

Ona "növbə" Seyid Hüseyndən beş ay sonra – noyabrın 10-da çatdı. Ümmügülsüm Sadıqzadə Bayıl həbsxanasına salındı. Noyabrın 11-də XDİK-in göstərişi ilə evlərində yenidən axtarış aparıldı.

Ümmügülsüm xanım həbs olunanda da özündən çox uşaqlarını düşünürdü. Onların uşaq evlərinə veriləcəyindən, qapılarına qıfıl vurulacağından qorxurdu. Ancaq baldızının iyirmi bir yaşlı qızı, Seyid Hüseynlə doğma övladları kimi baxdıqları Səyyarə ocaqlarını sönməyə qoymadı. Dayısı uşaqlarının qəyyumluğunu öhdəsinə götürdü.

## Qaladan xatirələr

...Hələ günlərin sırasını unutmağa başlamamışdı. 1937-ci il 12 noyabr idi. Həbsxanada keçirdiyi bu iki gün ona yuxu kimi gəlirdi. Burada, dörd divar arasında kədərinə yoldaş yenə qələm olacaqdı. Qarşısındakı şagird dəftərində "Qala xatirələrim" yazdı. Bu dəftərdə yalnız özünün deyil, Bayıl həbsxanasında onun kimi işgəncələrə məruz qalan yüzlərlə məhbus qadının müsibətlərini əks etdirəcəkdi. Salındıqları kameranı Ümmügülsüm Sadıqzadə belə təsvir edirdi: "Bütün yorğan-döşəklər yerə sərilib. Axşamdan bəri 36 adamın bir subaşı kimi istifadə etdikləri ağzına qədər dolu çirkab vedrəsinin və onunla yanaşı qoyulmuş su-çay vedrəmizin ağzı açıqdır. Nə bu murdarlığı və üfunəti, nə də bu qədər adamın balaca, bir tərəfi bağlı otaqda bütün sutka ərzində aldıqları nəfəsdən kəsif havanı təmizləyəcək bir şey yoxdur. Burada hər şey fövqəladə bir şəkildədir. Axşam yatanda soyunmayan məhbuslar geyinməkdən də azaddırlar. Ye-

rimizdən qalxıb bayıra çıxırıq. "Uborniya"dan qayıdanda ibtida çay içirik. Çay vedrəyə tökülüb qoyulmuşdur. Kamerada çay içmək və xörək yemək üçün cəmi on səkkiz qab vardır. Bu qablar həbsxananındır. 36 arvad bu qabda həm xörək yeyəcəyik, həm də çay içəcəyik. Xörəkdən sonra yuyulmadan qablarda növbə ilə çay içmək qanımızı yemək kimi bir şeydir. Bunu Allah düşmənə də qismət eləməsin.

Günorta yeməyimiz də gəlmişdir. Vedrəmizi şorba ilə doldurmaq üçün qapı ağzına qoydular. Biz bunu yeməliyik. Lakin bu, yeyiləcək bir şey deyil. Yeyilməsi mümkün olmayan ağ rəngli şorbanı taxta qabdan növbə ilə yemək lazımdır. Güc-zor, ağlaya-ağlaya, ögüyə-ögüyə yeyirik. Aclıqla oyun olmaz, düz iki gündür acıq".

Həbsxananın gündüzü də, gecəsi də eyni idi. Ümmügülsüm xanım yazırdı: "Axşam oldu. Bir çox tərəflərdən insan səsləri eşidilir. Hay-küydən qulaq tutulur. Hamı danışır, dinləyənin kim olduğu bilinmir. Bir azdan səs-küy nisbətən azaldı. İndi adamların üçü-dördü bir olub xüsusi söhbətə məşğuldur. Söhbətlərinin əsas mövzusu buraya gələnə qədər evlərində keçirdikləri səadətli günlərdir. Hər kəs həzin bir surətdə keçmiş şirin həyatlarını anaraq, anladaraq bütün vücudu ilə yanır. Hər kəs bir gün belə ayrılığına dözə bilmədiyi əziz balaları üçün ağlayır. İndi bura zənənə hamamı deyil, bir yasxanadır".

Gecələr gözlərindən qaçaq düşmüş yuxulardan imdad diləyirdi. Onda bəlkə balalarına röyalarında qovuşa bilərdi. Dekabrın 14-də səhərə yaxın Qumuş deyə çağırdığı qızını yuxuda gördü. Təzə paltar geyinib, alnına xırdaca qızıllar bağlamışdı. Gülürdü, yanaqları allanmışdı. Ümmügülsüm xanım elə xoşbəxt idi ki... Yuxudan ayılmağına peşman oldu.

## "Nəymiş təqsirimiz, neyləmişik biz?"

Ümmügülsüm Sadıqzadənin "Qala xatirələrim"ində ürəkparçalayan bir hekayət də var. "25 fevral 1938-ci il. ...Səhər tezdən bizim kamera ilə üzbəüz kameradan dəhşətli hay-küy qopdu. Hamımız qapıya toplaşdıq. Nə qədər acı bir mənzərə... Şair Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər ağlını itirib. Bu sözü dünəndən bəri eşidirdik. Biz elə zənn edirdik ki, Dilbər, sadəcə, əsəbi hallar keçirir. Amma vəziyyəti, sən demə, doğrudan, ciddi imiş. Nə qədər acı da olsa, onunla bir kamerada olan qadınlar Dilbərin onların kamerasından çıxarılmasını istəyirdilər".

Kamerada yatmağa yer tapmaq da zülm idi. Həbsxanaya düşənədək hərəsi bir evin xanımı olmuş qadınlar burada hər gecə yer üstündə bir-birlərini söyür, dalaşırdılar. Ümmügülsüm xanım yazırdı: "23 dekabr 1938. Yatmaq zamanıdır. Yenə hər gecəki kimi yer üstündə narazılıq başlandı. Doğrudan da, yer darısqallığına dözmək çox çətindir. Bu, aclıqdan da pisdir. Bütün günü səhərdən axşama qədər ayaqlarımı altıma yığaraq oturmuş və heç olmasa axşam əl-ayağımı uzatmaq, istədiyim hərəkəti etmək istəyirəm. Bu da qətiyyən mümkün deyildir".

O, bu qovğalardan, mərəkələrdən uzaq durmaq istəyirdi: "23 yanvar 1937. ...Mən nə qədər güzəştə gedir, ehtiyatlı dolanıramsa, yenə də bu çirkinliklərdən mənim üzərimə də sıçramamış olmayır. Dünən mənə də bir dəfə "yalan deyirsən" yükləndi. Bu bir kəlmə mənim üçün böyük söyüşdür. Adamlar bir-birinə nalayiq sözlər söyləyirlər".

Doğmalarından nigaranlıq, həsrət həbsxananı epidemiya kimi bürümüşdü. Ümmügülsüm xanım sıxıntılarını "Qala xatirələrim"inə köçürürdü: "4 fevral 1938. Bir neçə gündür yenə halım çox pisdir. Nigarançılığın son pilləsindəyəm. Canım köz üstündə kabab kimi yanır. İki aydan bir qədər artıqdır ki, uşaqlarımın heç birisindən məktub almıram..." Ayrılıq anları, Qumralın yaşlı gözləri, Toğrulun saralmış bənizi xəyalından çəkilmirdi. İstəyirdi həbsxanada saatları, dəqiqələri dağ çayının suları kimi sürətlə axıb keçsin. Amma sanki burada zamana da cəza kəsilmişdi.

Keçib getmək bilmirdi. Ona elə gəlirdi ki, təbiətin qanunu dəyişib, sutkalar o qədər uzundur ki, 24 saatın miqyası əqlə sığışmır. Tez-tez həbsxanada şayiələr yayılırdı. Bir gün kimsə dedi ki, uşaqları ilə birlikdə sərbəst surətdə sürgün ediləcəklər. Yenə ağladılar, amma bu dəfə sevinc göz yaşlarıydı...

Həbsxananın ayrı-ayrı kameralarında 350-400 qadın cəza çəkirdi. "Təqsirləri" "xalq düşmənləri"nin ailə üzvləri olmaları idi. Amma Ümmügülsüm xanımın "günahı" daha böyükdü. O, "xalq düşməni" Seyid Hüseynin həyat yoldaşı, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin əmisi qızı və baldızı, Məmmədəli Rəsulzadənin bacısı idi. Həyat yoldaşından fərqli olaraq, Ümmügülsüm xanım "Müsavat" partiyasının üzvü olmuşdu.

O, Azərbaycan Xalq Cümhuriyyətini əsərləri ilə təbliğ və vəsf etmişdi. 1930-cu illər ədəbi tənqidində cümhuriyyət dövründə yazdığı şeirləri, daha çox da "Hicran", "Bayrağın enərkən" və Məhəmməd Əmin Rəsulzadəyə həsr etdiyi "Bən" şeirinə görə ittiham olunurdu.

Martın 14-də dustaq qadınlar haqsızlıqlara cavab olaraq aclıq elan etdilər. Bu da "Qala xatirələrim"ə martın 16-da düzülən sətirlər: "Aclığımız davam edir. Ayağa duranda dizlərim əsir, gözlərim yaşıl-qırmızı görür. Axşamdır. Sözümüzə baxan, dərdimizə qalan yoxdur. Qərara gəldik ki, yeməyə başlayaq. Çünki olan-olmaz canımız da əldən gedir".

Aprelin 20-də Ümmügülsüm xanım yazırdı: "Bu gün beş ay on gündür burada, Bayıl həbsxanasındayam. Yüz altmış gün! Bir o qədər də gecədir ki, uşaqlarımı görmürəm". Həmin gecə səhərədək çimir eləmədi. Aprelin 21-də səhər görüş icazəsi verilənlərin siyahısında onun da adını oxudular. Özünə verdiyi sözə əməl edə bilmir, göz yaşları aramsız axırdı.

## "Məni nigaran qoymayın"

Uzun ayrılıqdan sonra Bircəbacı dedikləri baldızı Rübabə, baldızı qızı Səyyarə və övladları ilə görüşdü. Oqtayın yanında dayanmış Qumralı əvvəl tanımadı. O da, Toğrul da arıqlamışdılar. Uşaqları məhzun görünürdülər.

Ümmügülsüm xanım israrla tapşırdı: "Seyid Hüseyndən xəbər çıxan kimi mənə çatdırın. Məktubu lap bir cümlədən ibarət olsa da, mütləq mənə göndərin". Cığatay onu arxayınlaşdırmaq istədi: "Bizim heç birimizdən narahat olma. Hamımız yaxşı oxuyuruq. Sən özündən danış, nəyin çatmır, nə lazımdır, de, göndərək". Ümmügülsüm xanım: "Dəftər göndərin, kağızım qurtarıb, bir də yatab gedəndə, yəqin ki, isti paltar lazım olacaq", – dedi. Sonda bir xahişi oldu: "Məni nigaran qoymayın, tez-tez məktub yazın".

SSRİ Ali Hərbi Məhkəməsinin Səyyar Sessiyasının 5 yanvar 1938-ci il tarixli qərarı ilə Seyid Hüseyn Sadıqzadəyə güllələnmə hökmü verildi. Hökm bir gün sonra yerinə yetirildi. Çox sevdikləri dənizin Seyid Hüseynə məzar olduğundan xəbərsiz Ümmügülsüm Sadıqzadə Bayıl həbsxanasında "Xəzərə xitab" edir, onu sorğuya çəkirdi:

*Nəymiş təqsirimiz, neyləmişik biz?*
*Bunu sən sual et, mənim dilim yox.*
*Hansı xəyanətin şərməndəsiyiz?*
*Bunu sən sual et, mənim dilim yox.*

...Ümmügülsüm Sadıqzadəyə kamera yoldaşları ilə eyni gündə – 1938-ci ilin 10 mayında istintaqsız, məhkəməsiz hökm oxundu. 8 il həbs cəzasına məhkum edildilər. Mayın 21-də Temlaq İslah-Əmək Düşərgəsinə göndərildilər.



Həbsxanadan qurtulmağı çox arzulamışdı. Oradan çıxanda anladı ki, dünyanı ona qəfəs edib-lər. Yenə evinə, ailəsinə həsrət qaldı. 1941-ci ilin aprelində vətənindən uzaqlarda eşitdiyi doğma musiqi şairəyə bu misraları yazdırdı:

*Titrərkən telləri tar-kamançanın*
*Ürəyim döyündü, əlim titrədi.*
*Ey gözəl vətənim! Eşqinlə sənin*
*Gözlərim yaşardı, dilim titrədi.*

Düşərgədə tikişçi işləyir, verilən tapşırıqları artıqlaması ilə yerinə yetirirdi. 1941-ci ildə əmək yarışındakı fəallığına görə düşərgə rəhbərliyi ailə üzvlərinə məktub yazmağa icazə verdi. Bundan sonra təsəllini uşaqlarına məktub yazmaqda tapdı. Tərs kimi, gözləri də gündən-günə zəifləyirdi. 1941-ci ilin 17 martında Cığatay anasına məktubunu bu sətirlərlə bitirmişdi: "...Sən özündən, o yerlərdən bildikcə çox yaz. Oranı hər bucağına qədər gəzib  təsvir elə..." Ümmügülsüm xanım fevralın 24-də oğluna cavabında yazırdı: "Bir tərəfdən düz deyirsən, digər tərəfdən baxanda bir qədər gülməli çıxır. Buranın hər yerini gəzmək üçün ayaqlarımın ixtiyarı

axı məndə deyil?! Ancaq bununla bərabər yenə söyləniləcək sözlər var. Bir aydan bəridir zonadan (hasardan) bayırda hazırlanmış sexə işləməyə gedirik. Bu bizim üçün böyük azadlıqdır! Hər gün səhər saat 7-də qar qalanmış düzəngahdan saldığımız qar rizlə yola düzülür, ayaqlarımızın altında çaxmaqdaşı kimi bərkimiş buzların üstü ilə çox ehtiyatla ayaqlarımız qoyulacaq yerləri yoxlaya-yoxlaya işə gedirik. Bu yolda neçə dəfə sürüşüb yıxılmışam. Sonra saat 12 üçün zonaya gəlib bir də işə qayıdırıq. Axşam saat 8-də işdən çıxırıq".

1941-ci il fevralın 10-da övladları və onlara dayəlik edən Səyyarə xanımla dörd illik ayrılıqdan sonra görüşmək üçün Ümmügülsüm xanım 4 saylı düşərgə məntəqəsinin rəisinə müraciət etdi. Böyük Vətən müharibəsinin başlanmasını səbəb gətirərək görüşə icazə verilmədi.

Stalinə və Beriyaya dönə-dönə müraciət etmişdi. 1943-cü ildə yenidən SSRİ XDİK-in Xüsusi Müşavirəsinə yazdı. Azad olunmasına 1944-cü ilin aprelində qərar verildi. Bakıya həmin ilin iyununda dönə bildi. Nə şəhər, nə də sakinləri həminki idi. Repressiyanın vurduğu yaralara müharibənin itkiləri də əlavə olunmuşdu.

İllər sonra evinin qapısından içəri girib hər şeyi əvvəlki qaydasında görə bilsəydi... Alt-üst edilmiş həyatlarını, pərən-pərən düşmüş arzularını xəyalında sahmana salırdı. Qapılarını döyür, qarşısında Seyid Hüseyni görürdü. Övladları da evdəydi... Ancaq nə Seyid Hüseyni görə bildi, nə də Oqtayı...

Onlardan sonra balaları çox zülmlər çəkmişdilər. Oqtay rəssamlıq məktəbinin ikinci kursundan qovulmuş, sonralar əzab-əziyyətlə bərpa olunmuşdu. Məktəbi bitirib işə başlayan oğlunu 1941-ci ildə həbs edərək sürgünə göndərmişdilər. Cığatayı da “xalq düşməni”nin övladı kimi əsgərlik adı ilə cərimə batalyonuna yollamışdılar. Ağır katorqa işlərində çalışmaqdan vərəm xəstəliyinə tutulub geri dönmüşdü. Oqtay isə hələ də sürgündəydi.

İyirmi gün sonra Ümmügülsüm xanıma Bakıda qalmaq yasaq edildi. Bu dəfə də vətənində sürgün olundu. Şamaxıya qızı Qumralla yollandı. Ağır sürgün illəri sağlamlığını əlindən almışdı. 1944-cü il sentyabrın 17-də Şamaxıda dünyasını dəyişdi. Qonşuları Ümmügülsüm xanımı məşhur Şahxəndan qəbiristanlığında dəfn etdilər. On beş yaşlı qızı Bakıya yalnız, pərişan döndü...

Ümmügülsüm Sadıqzadə çox faciələr gördü. Bunlar yalnız bir insanın başına gətirilən müsibətlər deyildi. Gözlərinin önündə millətinin işığını söndürdülər, milli hökumətini yıxdılar, bayrağını endirdilər. Ümmügülsüm xanımın tək qardaşı Məmmədəli Rəsulzadə, əmisi oğlu və bacısının əri Məhəmməd Əmin Rəsulzadə vətən həsrətlisi oldular, mühacirətdə yaşayıb, orada vəfat etdilər. Yeganə bacısı Ümbülbanu, onun qayınanası və əmisi arvadı Maral xanım, bacısı qızı Lətifə və onun ortancıl qızı sürgündə çəkdikləri iztirablara dözməyib qürbət diyarda gözlərini əbədi yumdular. Qardaşı oğlu Musa, həyat yoldaşı Seyid Hüseyn, bacısı oğlu Rəsul, baldızı oğlu Tağı həbs edilərək güllələndilər. Bacısı qızı Xalidə, Lətifənin üç yaşlı qızı itkin düşdülər.

Oqtay Sadıqzadə 1946-cı ildə sürgündən qayıtdı. Anasının geri döndüyünü, üç ay sonra vəfat etdiyini öyrəndi. Vərəm xəstəliyi 1948-ci ildə 24 yaşlı Cığatayın da həyatına son qoydu.

Həyatları repressiya burulğanlarına düşmüş, doğmalarını itirmiş övladları Ümmügülsüm xanımla Seyid Hüseynin adına layiq övladlar oldular. Qumral yazıçı, Oqtayla Toğrul rəssam kimi tanındılar. Ancaq o illərin ağrıları həyatlarının son anlarınadək səngimədi. Ömürlərinə qasırğa kimi gələn repressiya onların da yalnız doğmalarını deyil, uşaqlıqlarını, gəncliklərini alıb aparmışdı, sevinclərinin, səadətlərinin üzərinə əbədi kölgə salmışdı...



# Bir ömürlük intizar – *Mirzəbala Məmmədzadə*

**Dənizin üzü dönəndə, dalğalarını şahə qaldırıb tufan qoparanda evlərində intizarın soyuq nəfəsi dolaşırdı. Hələ yaxşı dərk etməsə də, anası Fatma xanımın, özündən altı yaş böyük qardaşı Həsənbalanın baxışlarında görüb tanıdığı o qüssə, təşviş, həyəcanqarışıq intizarı balaca Mirzəbala da duya bilirdi...**

Gözlərini dənizin bərəkətinə dikmişdilər. O da bəzən öz səxavətini bütün balıqçılar kimi, Əlibala kişidən əsirgəyirdi. Hər dəfə köhnə balıqçı qayığından evə əliboş dönəndə, gözlərini uşaqlarının nəzərlərindən yayındırır, günahkarmış kimi onlara baxmağa üzü gəlmirdi. Onda Əlibala kişiyə elə gəlirdi ki, bütün dünyanın ən ağır yükünü onun çiyinlərinə yükləyiblər...

XX əsrin əvvəlləri idi. Günü-gündən çətin gəlirdi. Əlibala kişi dolanışıq dərdindən ailəsini götürüb Zirədən Bakıya köçməli oldu. Çəmbərəkəndin yuxarı məhəlləsində qurduğu evə heç isinişməmiş əcəl qapısını döydü. Əlibala kişi bu dünyadan özü ilə ailəsinin onsuz necə yaşayacağının, övladlarının necə böyüyəcəklərinin intizarını apardı. Üç övladı – iki oğlu və bir qızı Fatmanın ümidinə qaldı.

Atası ilə birlikdə uşaqlığını da itirən Mirzəbala Məmmədzadə balalarını heç kimə möhtac etməmək üçün çırpınan anasının köməyinə çatdı. O, Fatmanın bişirdiyi çörəkləri küçələrdə, bazarda satır, evə qazanc gətirirdi.

## Zamanın qovğalarında...

Təhsil almağa çox qarışıq, ziddiyyətli bir zamanda başladı. Əvvəlcə "7-ci müsəlmani və rusi" məktəbində, sonra Alekseyev adına 3-cü Ali-ibtidai məktəbdə oxudu. Böyük maddi sıxıntı-

lar içərisində təhsil alırdı. Ailənin problemlərini çörək bişirib satmaqla həll etmək çətin idi. Mirzəbala 1912-ci ildə İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsində fəhlə kimi işə başladı. Ancaq oxumaq arzusunu yenə qəlbində susdurmadı. Çətinliklərdən qurtulmaq, təhsilini davam etdirmək üçün mübarizə apardı. 1915-ci ildə xeyriyyəçi İsa bəy Aşurbəylinin yardımı ilə Bakı Politexnik Məktəbinin Elektromexanika şöbəsində oxumağa başladı.

O vaxta qədər də çox dəyərli müəllimləri olmuşdu. Dövrün tanınmış maarif xadimlərindən – Abdulla Şaiq, Süleyman Sani Axundov, Rəhim bəy Şıxlinski və Əlimәmməd Mustafayevdən dərs almışdı. Təhsil illəri bir də ona həyatının ən mükəmməl dostunu – Cəfər Cabbarlını tanıtmışdı. Sinif yoldaşı kimi qurduqları ünsiyyət dostluğa çevrilərək gündən-günə möhkəmlənirdi.

Bir-birlərinə bənzərlikləri çox idi. Uşaqlıq çağında ata itkisi yaşamaq, maddi sıxıntılar, kasıblıq çəkə-çəkə böyümək, məktəbin yoxsul şagirdləri kimi ianə ilə oxumaq hər ikisinin qismətinə düşmüşdü. Amma onları bir-birinə bağlayan təkcə tale oxşarlığı deyildi. İkisi də oxumağa, öyrənməyə istəkli idi. Vaxt keçdikcə başqa ortaq maraqlarını da kəşf edirdilər. Mirzəbala da, Cəfər Cabbarlı da məktəbdə açılmış dram, şeir, rus dili dərnəklərinə həvəs göstərirdilər. Dostlar təkcə məktəbdə bir yerdə olmurdular. Yaxın məhəllələrdə yaşadıqları üçün evə getdikdən sonra da tez-tez görüşürdülər. Əvvəllər oxuduqları nağılları bir-birlərinə danışırdılar. Yaşları ilə birlikdə ədəbiyyata maraqları da artır, böyüyürdü. Yenə mütaliə etdikləri kitablar barədə fikirlərini bölüşür, bir də yazdıqları bədii əsərləri bir-birlərinə oxuyurdular.

İstedadı, zəhmətsevərliyi o vaxtadək oxuduğu məktəblərdə də Mirzəbalaya sinif yoldaşlarının, müəllimlərinin ehtiramını qazandırmışdı. Ancaq Bakı Politexnik Məktəbi həyatına böyük coşqu gətirdi. Bu ab-havaya təkcə Mirzəbala Məmmədzadənin qəlbi köklənməmişdi. Elə bir dövr gəlmişdi ki, qayğıları yalnız oxumaq, peşə sahibi olmaq deyildi. Gərgin ictimai-siyasi hadisələr gənc tələbələri öz ağuşuna almışdı. Oxuduqları Bakı Politexnik Məktəbi o illərdə inqilab əhvali-ruhiyyəsinə bürünmüşdü. Tələbələr çarizmin müstəmləkəçilik siyasətinə qarşı çıxır, Azərbaycanın istiqlalı uğrunda mübarizələrini birləşdirmək, gücləndirmək üçün gizli təşkilatlar qururdular. Məktəbdə qeyri-leqal Məmmədiyyə təşkilatı bu məqsədlə yaradıldı. Gənc Mirzəbala da onun ən fəal üzvlərindən oldu.

Fikirlərini ifadə və bəyan etmək üçün ən təsirli vasitə olan mətbuatda Mirzəbala Məmmədzadə çox gənc yaşlarından çıxış etməyə başladı. O, 1915-ci ildən "Açıq söz" qəzeti ilə əməkdaşlıq etdi. Bu qəzetdə xalqın tərəqqisində təhsilin, maarifin rolu, məktəblərdə mövcud olan problemlər barədə yazırdı.

Doğma vətəninə, millətinə sevgisi Mirzəbala Məmmədzadəni Azərbaycanın müstəqilliyi uğrunda mücadilə edənlərin sırasına qoşdu. Bu yol onu siyasətə gətirdi.

## Sizi vətən yaşadar...

Mirzəbala "Açıq söz"lə yanaşı, "Bəsirət" qəzeti ilə də sıx əməkdaşlıq etdi. Bu qəzetin hətta bir neçə nömrəsinin baş redaktoru oldu. Bakıda 1917-ci ildə tələbələrin yayım orqanı olan "Gənclər sədası" və "İttifaqi-mütəllim" qəzetlərinə redaktorluq etdi.

1918-ci ilin yanvarında o, böyük cəsarətlə soydaşlarına səslənirdi: "Bu gün Kəbeyi-müqəddəsiniz olan vətəninizi azad ediniz... Sizi bir insan olaraq vətən yaşadar! Sizin diliniz, sizin irz və namusunuz yenə vətəniniz içində səlamət qala bilər..." *("Açıq söz!", 4 yanvar, 1918).* Həmin ilin martında azadlıq və müstəqillik arzularını gözündə qoymaq, yenidən sinəsinə dağlar çəkmək üçün Azərbaycan xalqının qətliamına fərman verildi. Dinc əhali daşnak-bolşevik birləşmələrinin silahlı hücumlarına məruz qaldı. Şahidi olduğu o ağır faciələri Mirzəbala Məmmədzadə

belə təsvir edirdi: "31 mart 1918-ci sənə. Bu gün Bakımızda qanlar axıdılmış, evlər talanmış, ata-babalarımız şəhid düşmüş, ana-bacılarımız əsir edilmişdi. Bu gün Bakı xəlqi kəndi yurdunda qətliamə, əsarətə və məhkumiyyətə məruz qalmışdı. Bu gün Bakının ətrafından axan neft çeşmələri qan çeşmələrinə müqəddəl olmuşdu. Bu gün Bakı sahilini yuyan Quzğun dənizi qan dənizinə çevrilmişdi. Bu gün suxartsevlər, şaumyanlar oyanmış türk mənliyini öldürmək üçün daşnak qüvvələrinə müraciətən unudulmayacaq qanlı günlər vücuda gətirmişdilər".

Daşnak-bolşevik birləşmələrinin Bakını qan gölünə çevirdikləri o dəhşətli günlərdən sonra Mirzəbala Məmmədzadə siyasi hərəkatda daha da fəallaşdı. Üzvü olduğu “Müsavat” partiyasının tapşırığı ilə Zaqafqaziya Seymində iştirak etmək üçün Tiflisə getdi. Həmin şəhərdə türk gənclərini ətrafına toplayaraq "İttifadi-mütəəllimin" (Tələbələr İttifaqı) təşkilatını qurdu. Təşkilatın ideya və məqsədini geniş yaymaq üçün Mirzəbala Məmmədzadənin Tiflis türk gəncləri ilə birlikdə hazırladığı və baş redaktoru olduğu "Gənclər yurdu" adlı jurnalın ilk nömrəsi iyulun 23-də işıq üzü gördü. "İki inqilablar arasında" adlı məşhur əsərini də o, həmin vaxtlar yazdı.

1918-ci ilin 28 mayı bütün vətənsevərlər kimi, Mirzəbala Məmmədzadənin də həyatının ən unudulmaz, ən xoş arzularına, ümidlərinə yol açan gün oldu. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti “İstiqlal Bəyannaməsi”ni qəbul etdi və onu dünya dövlətlərinin diqqətinə çatdırdı.

Azərbaycan hökuməti Gəncədən Bakıya köçəndən sonra Mirzəbala Məmmədzadə cümhuriyyətin paytaxtına qayıtdı. Əvvəlcə "Açıq söz", sonra "İstiqlal" qəzetlərinin buraxılışlarında iştirak etdi, Azərbaycan xalqının istiqlalına qovuşmasından yazdı.

Dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti fəaliyyətə başladı. Mirzəbala burada dostu Cəfər Cabbarlı ilə stenoqrafçı vəzifəsinə işə düzəldi. Parlamentin bütün iclaslarında iştirak etməsi ona firqələrin fəaliyyəti, məqsədi, məramı ilə daha yaxından tanış olmaq imkanı yaratdı, partiya liderləri ilə birbaşa ünsiyyət, ayrı-ayrı firqələrin əməlləri ona zəngin material verdi.

Siyasi fəaliyyəti Mirzəbalanı bədii yaradıcılıqdan uzaqlaşdırmadı. Dostu, məsləkdaşı Cəfərlə tez-tez teatr tamaşalarına gedir, bir-birlərinə yeni əsərlərini oxuyurdular. Cəfər Cabbarlı mart hadisələrindən Bakının qurtuluşunadək olan dövrü əhatə edən "Bakı müharibəsi" adlı dramı, Mirzəbala isə "Bakı uğrunda müharibə" adlı beşpərdəli pyes yazdı. Əsər 1919-cu ilin sentyabrında Abbas Mirzə Şərifzadənin rejissorluğu ilə Dövlət Teatrında səhnələşdirildi.

Bədii yaradıcılıqla məşğul olsa da, 1918-1920-ci illərdə Mirzəbala Məmmədzadə daha çox jurnalist kimi tanınırdı. Onun ictimai-siyasi həyatın bütün sahələrini əhatə edən yazıları "Azərbaycan" və "Bəsirət" qəzetlərində dərc olunurdu. Doğma xalqın istiqlal ideyasını müdafiə edən müəllifin mübarizliyi, əqidəsinə sadiqliyi, cəsarəti publisistik əsərlərində əksini tapırdı. O, yazılarında müstəqil dövlətin inkişafını ləngidən problemləri, nöqsanları kəskin şəkildə tənqid edirdi. Mirzəbala "Azərbaycan" qəzetində yer verilmiş "Təşkilatlarımız" adlı məqaləsində yazırdı: "Mart faciəsi və ondan sonra uzanan istiqlaliyyət və paytaxtımızı xilas mübarizələri münasibətilə bütün mədəni təşkilatlarımızda tərki-fəaliyyətə məcbur olmuşlardır. O təşkilatlardan ən məşhurları "Cəmiyyəti-Xeyriyyə", "Nicat", "Səfa", "Nəşri-Maarif", "Tərəqqi" cəmiyyətləri, habelə "Qənaət", "İsmailiyyə" və bir çox bu kimi iqtisadi və kooperativ ittifaqları idilər ki, Azərbaycan türk xalqının mədəni və ictimai həyatında böyük rollar oynuyordular. Paytaxtımızın fəthindən sonra bu təşkilatlar fəaliyyətə şüru etmədilər. Ancaq bircə "Cəmiyyəti-Xeyriyyə" (erkək və xanımlarınkı) yenidən məhəlli olaraq icra etmişlərdir. Bunların əvəzində yeni mədəni təşkilatlar doğulmadı ki, hökumətimizin və millətimizin işlərini bir qədər yüngülləşdirsin. Fəqət böylə mədəni təşkilatlarımızın varlığını millət, xüsusən cəmaətimizin ziyalısı hiss ediyordu" *("Azərbaycan" qəzeti, 1919, 3 mart, № 127).*



Azərbaycan öz istiqlalına qovuşsa da, təhlükə bitməmişdi. Cümhuriyyət hökumətinin düşmənləri onu məhv etmək üçün məkrli planlar qururdular. Təəssüf ki, istiqlalımızın düşmənləri yalnız özgələr deyildi. Rusiya bolşeviklərinin tərəfdarları olan özümüzünkülər də doğma ölkəsinin azadlığını boğmağa, onu yenidən əsarətə məhkum etməyə çalışırdılar. Mirzəbala Məmmədzadə məqalələrində dövlət müstəqilliyimizin düşmənlərini ifşa edirdi.

1919-cu ilin 28 mayı cümhuriyyət sevdalılarının ömrünün ən gözəl günü oldu. O gün Azərbaycan xalqı dövlət müstəqilliyinin bir illiyini böyük təntənə ilə bayram etdi. İstiqlal bayramına bəzənib gəlmiş gənc qızların, qadınların üzlərindən sevinc yağırdı. Onların əhvali-ruhiyyələri, fəallıqları Mirzəbala Məmmədzadəyə "Təhlükə və qadınlarımız" adlı məqaləsini yazdırdı. O, təəssüratlarını belə ifadə edirdi: "Azərbaycan Cümhuriyyəti təşkilini bir çox nəfərin hasiliəməli bilənlərə və Avropa əfkari-ümumiyyəsini əleyhimizə qalxızmaq istəyənlərə millətimiz və zəhmətkeş Azərbaycan türk xalqı lazımi cavab verdi.

Hürriyyət bayramlarında, Qələ nümayişlərində, 31 mart tətilində intriqaçıların siyasi tətillərində xalqımızın göstərdiyi istedad nə qədər siyasi bir huşyarlığa malik olduğunu və istiqlaliyyət fikrilə nə qədər sıx surətdə mərbut bulunduğunu isbat etdi.

28 Mayıs istiqlal bayramı isə keçənlərdən daha qiymətli və daha tarixi bir nümayiş olunmuşdu. Burada millət heyəti-ümumiyyəsilə erkəkindən qadınına, cocuğundan böyükünə qədər iştirak ediyordu. 28 Mayıs bayramı millətin yarısı olan qadınlarımızı da həyati-ictimaiyyəyə dartmış, onların da canlı bir qüvvə olduqlarını isbat etmişdi.

Bunun daha əhəmiyyətli cəhəti bu idi ki, bu hiss, bu anlaqlığı türk qadınları xüsusi hazırlıq sayəsində degil, zamanın təsiri və kəndilərinin təbii dərrakələri, bərəkətilə kəsb etmişlərdi. Ona görə iman edirəm ki, bu gün üzərimizə gələn təhlükəni yalnız kişilərimiz degil, artıq intibaha başlamış qadınlarımız da hiss ediyorlar" *("Azərbaycan" qəzeti, 1919, 10 iyun, № 200).*

Vətən üçün, müstəqil milli dövlət üçün təhlükə yarandığı bir vaxtda hər kəsin sərvaxt olmasının, məsuliyyətini dərk etməsinin vacibliyini Mirzəbala Məmmədzadə xüsusi diqqətə çatdırırdı: "Bu gün gənclərimiz əskər surətində cəbhəyə gedir. Cəmaətimiz qocalarımız ilə ordusu, ehtiyat könüllü alayı yapıyor. Firqələrimiz, partiyalarımız bütün xüsusi firqə münaqişələrini unudaraq vətənin və istiqlaliyyətin müdafiəsi üçün mücahid və mübarizlər düzəltməgə məşğuldurlar.

Yazıçılarımız, mühərrirlərimiz bütün mahirlik və istedadlarını milləti ayıltmağa, vətən müdafiəsi hissi oyatmağa, dostunu və düşmənini tanımağa səy ediyorlar.

Natiqlərimiz xalqımızı ittihadə, birligə və hökumət ətrafına toplanıb Azərbaycanı qorumağa çağırıyorlar.

Bu təhlükə qarşısında qadınlar bütün qüvvələrini toplamalı, səfərbərlik halına gəlməlidirlər.

Təhlükənin acısını istibdad zamanı – martdan sentyabra kimi hiss etmiş, dadmış olan xüsusən Bakı türk qadınları bilməlidirlər ki, imdiki təhlükə keçənkindən daha böyük əsarət və vəhşət gətirir. Əgər kişilərimizin silah başına qoşduğu bu vaxtda qadınlar da dəzgah başına, əsgərlərimizi arxadan təmin etmək işinə qoşmasalar, tarix qarşısında, məsul və mədənilər qarşısında yenə "vəhşi" görünərlər.

...Əgər 28 May nümayişini Bakı türk qadınları heç bir təşkilat tərəfindən, hazırlıq olmadan icra etdisə, ümidvarıq ki, bu işdə qadınlar cəmiyyəti tərəfindən hərəkət olunsa, qadınlarımız atil (ətalətli) qalmazlar. Öz gənc və zərif qüvvələrilə gənc vətənimizə böyük xidmət edərlər" *("Azərbaycan" qəzeti, 1919, 10 iyun, № 200).*

Tarix vətən aşiqlərinə, millət sevdalılarına müstəqil dövlət yaratmaq fürsəti vermişdi. Onu qanları, canları bahasına quranlar hər vasitə ilə qoruyub yaşatmağa, inkişaf etdirməyə səy göstərirdilər. Belə bir vaxtda cümhuriyyət hökumətinin təhsil məsələsinə böyük əhəmiyyət verməsinin səbəbi də bu idi. Universitet açmaq, milli kadrlar yetişdirmək həm parlamentdə, həm də mətbuatda qızğın müzakirə olunurdu. Çünki bu məsələnin əleyhdarları da az deyildi. Bəziləri öz fikirlərini belə əsaslandırırdı ki, ölkədə yüksəksəviyyəli mütəxəssislər olmadığı üçün dərslərin rus dilində aparılması azərbaycanlılar üçün çətinliklər yaradacaq. Universitet açılması məsələsini qızğın müdafiə edən Mirzəbala Məmmədzadə "Darülfünun haqqında" adlı məqaləsində təkliflərini irəli sürürdü: "Darülfünun mütləqa... türkcə olmalıdır. Başqa şöbələri olmasa da, ədəbiyyat və tarix şöbəsini türkcə aparmaq çətin deyildir. Bunun olacağına ümid vardır.

...Gənclərdən, tələbələrdən fəal millət və xəlq xadimləri vücudə gətirmək üçün hökumət tələbələrimizin milli tərbiyəsinə ciddən əhəmiyyət verməlidir. İstər Bakıda, istər Avropaya göndəriləcək indiki dilsiz tələbələrimizdən ana lisanını, milli tarix və ədəbiyyat bilməsi tələb olunmalıdır. Bu olmazsa, millət onun gətirəcəyi elmdən əsla fayda görməz" *("Azərbaycan" qəzeti, 9 iyul, 1919).*

Yüksəksəviyyəli milli kadrların yetişdirilməsi üçün cümhuriyyət hökumətinin bir qrup gənci xarici ölkələrə təhsil almağa göndərməsi məsələsinə vətəndaş, ziyalı məsuliyyəti ilə yanaşan Mirzəbala Məmmədzadə çox da uzaq olmayan tarixə nəzər salırdı. O, böyük qürurla bildirirdi ki, üç il qabaq Avropaya əsir bir ölkənin məhkum bir oğlu gedirdi, indi isə müstəqil bir hökumət halındayıq. "Tələbələrimiz haqqında" adlı məqaləsində yazırdı: "Həyatımız dəyişmiş, cərəyan və tələbatı da başqa hal almışdır. Bu gün istiqlalımızı təmin etmək və onun içərisində yeni bir həyat, mədəni bir dünya yaratmaq projesi cızılmışdır.

...Avropaya getmədən, mükəmməl ana dilini bilmək, milli tarix, milli ədəbiyyat, milli mədəniyyət və həyat haqqında məlumata malik olmaq lazımdır...

İstiqlaliyyətə kimi qayıdan tələbələrimizdə çox şeylər – nöqsanlar və bəlkə həyatımız üçün "zəhərli" gördük.

İlyaslar "Alyoşa" oldular, Məhəmmədlər "Mişa" qayıtdılar. Vəlilərə "Vladimir" deyildilər. Tələbələr evlənib gəldilər.

Milli həyat ilə yaşamadılar. Bununla da xəlqimizi "avropalılıqdan" ürkütdülər. Cəmaətimiz maarifi yanlış anladı, tərəqqidən qaldı" *("Azərbaycan" qəzeti, 1919, 29 yanvar, № 100).*

O təəssüflənirdi ki, ölkənin müstəqilliyi elan edilsə də, dövlət quruculuğu sahəsində ilk addımlar atılsa da, hətta parlament üzvləri arasında da milli ruhdan uzaq olanlar var. Mirzəbala Məmmədzadə öz məqalələrində xalqının və dövlətinin azadlığını sevən, qoruyan milli düşüncəni təbliğ edirdi.

## İstiqlal arzularının çilikləndiyi tarix...

1920-ci ilin 27 apreli... Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sonuncu fövqəladə gecə iclası... Hökumətin bolşeviklərə təslim edilməsi təklifi müzakirəyə çıxarılır. Azərbaycanın müqəddəratı həll olunur. Hamı həyəcan içərisindədir. Mirzəbala Məmmədzadə də, Cəfər Cabbarlı da son iclası kağıza köçürməkdə çətinlik çəkirlər...

1920-ci ilin 28 aprel işğalından sonra bütün təhlükələri, təhdidləri göz önünə alaraq Azərbaycanda qalan vətən övladlarından biri də Mirzəbala Məmmədzadə oldu. O, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında tərcüməçi və orta məktəbdə müəllim işlədi.

Aprel işğalından sonra Cəfər Cabbarlının Çəmbərəkənddəki evində keçirilən gizli iclasda yaradılan gizli "Milli müqavimət komitəsi"nin Mirzəbala Məmmədzadə rəhbəri, Əbdül Vahab Yurdsevər müavini, Cəfər Cabbarlı isə baş katibi seçildi. 1923-cü ilədək gizli mətbəədə "İstiqlal" qəzeti nəşr edildi.

1922-ci ildə Bakıda Mirzəbalanın "Azərbaycan türk mətbuatı" adlı tədqiqat əsəri çapdan çıxdı. Bu, cümhuriyyət dövrünün mətbuatı haqqında ilk sanballı əsərdə 1905-1917-ci illər arasında Azərbaycanda mətbuat, maarif, ədəbiyyat, teatr və digər məsələlər araşdırılmışdı.

O, 1924-cü il yazın sonunadək gizli fəaliyyət göstərdi. Həmin ilin mayında İranın Ənzəli şəhərinə getmək məcburiyyətində qaldı. Oradan Tehrana, sonra Təbrizə yollandı. Bakı Politexnik Məktəbində təhsil alması köməyinə çatdı. Bir müddət şose yolu çəkilişində mühəndis-texnik işlədi. Cənubi Azərbaycanda mühacirətdə qaldığı 1924-1927-ci illərdə Mirzəbala mühacirlərin fəaliyyətinə başçılıq etdi.

1927-ci ildə Türkiyəyə köçdü. İstanbul Universitetinin Hüquq fakültəsinə daxil oldu. Mühacirətdə də publisist kimi fəaliyyətini davam etdirən Mirzəbala Məmmədzadə "Yeni Qafqasiya", "Odlu yurd", "Azərbaycan yurd bilgisi" jurnalları ilə yaxından əməkdaşlıq etdi.

## Vətənsiz ölmək varmış...

Mirzəbala Məmmədzadənin mühacir həyatı da fırtınalarda keçdi. O, bir sıra ölkələrdə vətənin azadlığı naminə çalışdı. Məhrumiyyətlərlə dolu mühacir həyatı, gərgin iş və qəlbində heç zaman susmayan vətən harayı ömrünü zərrə-zərrə əritdi.

Azərbaycandan gedəndə özü ilə bir intizar aparmışdı. Bir də geri dönəcəkdimi? Ölkəsini yenidən azad, müstəqil görəcəkdimi? Həsrətinin yaşı artdıqca onun ömrü tükənirdi. Xəzərin ətrinə bürünmüş o qumlu sahillərdə bir də gəzmək, dəlisov küləkli havasını içinə çəkmək üçün dözmək, tab gətirmək istəyirdi. Amma köksündə sızıldayan ürəyi daha ağrılara qatlaşa bilmirdi.

1959-cu il martın 1-də Münxendən İstanbula döndü. Ürək ağrıları rahatlıq vermirdi. Mirzəbala Məmmədzadənin 1898-ci ilin 24 mayında Bakının Zirə kəndində başlanan ömür yolu son dayanacağına yetirdi...

Martın 8-də həyat yoldaşı Bəhirə xanıma və müsavatçı İldəniz Qurtulana dedi: "Ölürəm, deyəsən, əlimi tut, İldəniz, Bəhirə, yanımda dur. Vətən torpağına ayaq basmadan ölmək varmış". Mirzəbala Məmmədzadə can üstəydi. Onun gözlərində bu dünya özü boyda intizara dönmüşdü. Bu, vətənin bir gün yenidən müstəqil olacağından nagümanlıq deyildi. Ömrünü mühacirətdə başa vuran vətənpərvərlərimizin əksəriyyəti kimi, o da bilirdi ki, Azərbaycanın azadlıq günəşi bir gün yenidən parlayacaq. Mirzəbala Məmmədzadə görə bilmədiyi o günlərin intizarı, son dəfə vətənin havasını ciyərlərinə çəkə bilməməyin xiffəti ilə vidalaşırdı bu dünya ilə...

# Ümidin sönməyən işığı – *Cəfər Cabbarlı*

**O il bahar gəlməyə tələsmişdi. Yazın xoş havası Novruz bayramı ovqatına qarışmışdı. Xızılı Qafar kişinin kasıb komasına parlaq işıq, hərarət gətirən isə bahar nəfəsli günəş deyil, ailənin yeddinci övladının dünyaya gəlişi idi. Ata-anasının istəyi onun ayağı sayalı, xoş taleli, uzun ömürlü olmasıydı. Ondan qabaq doğulan uşaqların üçü körpə ikən tələf olduğundan ürəkləri yaralı idi...**

Azərbaycanın əksər kəndlərində o dövrdə rəsmi qeydiyyat aparılmırdı. Xızı kəndinin sakini Qafar kişi də nə böyük uşaqlarına, nə də sonbeşiyinə doğum şəhadətnaməsi götürdü. Cəfər adını verdikləri bu uşaq sonralar ictimai-siyasi xadim, istiqlal mücahidi, dramaturq, şair, yazıçı, publisist, tərcüməçi kimi məşhurlaşacaq, istedadı ilə hər kəsi heyrətdə qoyacaqdı. Həyatını, yaradıcılığını, ictimai-siyasi fəaliyyətini araşdırmağa aylarını, illərini sərf edən tədqiqatçılar onun doğum tarixini fərqli yazacaqdılar. Ən çox istinad olunan tarix isə belə olacaqdı: Cəfər Cabbarlı 1899-cu il martın 20-də Novruz bayramında dünyaya gəldi.

## Həyatın ilk sınaqları

Günlər keçirdi. Kömürçü Qafar kişi görmə qabiliyyətini itirdikdən sonra ailənin dolanışığı daha da ağırlaşdı. Kasıblıq onları Xızıdan Bakıya köçməyə məcbur etdi. Şəhərin Dağlı məhəlləsiində yaşamağa başladılar. Burada da həyat Qafar kişinin üzünə gülmədi. İki il keçməmiş dünyasını dəyişdi. Ailənin qayğılarını həyat yoldaşı Şahbikə ilə böyük oğlu Hüseynqulu çəkməli oldular. Atası vəfat edəndə evin sonbeşiyinin – Cəfərin üç yaşı var idi. Onun oxuması anasının ən böyük arzularından idi. Varlı ailələrin paltarlarını yuyub, çörək bişirərək uşaqlarını dolandıran Şahbikə kiçik oğlunu dini məktəbə qoydu. Cəfər əvvəlcə məhəllə mollasının, bir müddət sonra isə Molla Qədirin yanında "Quran" dərsi keçdi. Ailəsinə də bacardığı qədər əl yetirir, altı-yeddi yaşında anasının bişirdiyi çörəkləri alverçilərin dükanına daşımaqda qardaşına kömək edirdi.

Gözüaçıq uşaq idi. Yeniliklərə meyil göstərirdi. Bu cür düşüncələri onu mollaxanadan ayırdı. Özünə başqa təhsil yolu seçdi. 1905-ci ildə "Starıy Poçtovıy–25"də Hacı Məmmədhüseyn Bədəlovun şəxsi mülkündə açılan üçsinifli "7-ci müsəlmani və rusi" məktəbinin birinci sinfinə daxil oldu. Dünyagörüşünün formalaşmasında məktəbin müəllimləri – Süleyman Sani Axundov, Abdulla Şaiq, Rəhim bəy Şıxlinski, Əlməmməd Mustafayev böyük rol oynadılar.

Məktəb yoldaşları, əsasən, Cəfər Cabbarlı kimi kasıb balaları idi. Təhsil haqları ödənilərkən ailə vəziyyətləri, çalışqanlıqları nəzərə alınırdı. Xüsusilə məktəb naziri Süleyman Sani Axundovun təşəbbüsü ilə ən yaxşı oxuyan şagirdlər nəinki təhsil pulundan azad edilirdilər, həm də ianə ala bilirdilər.

1908-ci ilin yazında "7-ci müsəlmani və rusi" məktəbini bitirdikdən sonra bir müddət ailəsinə kömək etdi. 1909-cu ilin payızında imtahan verib Alekseyev adına 3-cü Ali-ibtidai məktəbə qəbul olundu. Bu təhsil ocağında da bəxti gətirdi. Mahmudbəy Mahmudbəyov, Pənah Qasımov kimi görkəmli pedaqoqlar onlara yalnız elm öyrətmədilər, həm də milli-mənəvi dəyərlərini sevən, ana dilinin saf-

lığını qoruyan şəxsiyyətlər kimi yetişmələri üçün çalışdılar.



Sonralar uzun illər dostluq edəcəyi Mirzəbala Məmmədzadə məktəb yoldaşlarından biri idi. Oxşar taleləri onları bir-birinə yaxınlaşdırdı. Hər ikisinin uşaqlıq çağlarına kasıblığın, ata dərdinin ağrıları, qüssəsi çökmüşdü. Böyüdükcə düşüncələrinin, arzularının, ideallarının bənzərliyi dostluqlarını daha da möhkəmləndirirdi. Yalnız məktəbdə bir yerdə olmurdular, yaxın məhəllələrdə yaşadıqlarından dərsdən sonra da görüşür, mütaliə etdikləri nağıllar, hekayələr barədə fikirlərini bölüşür, bir-birlərinə öz şeirlərini oxuyurdular.

İlk şeirinin, ilk mətbu əsərinin nə vaxt və harada çap olunduğu barədə tədqiqatçılar müxtəlif fikirlər söyləsələr də, bir həqiqət dəyişməz qalır: Cəfər Cabbarlı yaradıcılığa erkən yaşlarından başlamışdı. Onun istedadını uşaqlıq illərində bədahətən dediyi şeirləri bəlli etmişdi.

1915-ci ilin aprelində məktəbi bitirən Cəfər Cabbarlı imtahan verərək Bakı Politexnik Məktəbinin elektromexanika şöbəsinə daxil oldu.

Dövr təlatümlü idi. Çarizmin sərt qadağalarına, cəza tədbirlərinə baxmayaraq, hakimiyyətə qarşı etirazlar güclənir, ictimai-siyasi hadisələr getdikcə gərginləşirdi. İnqilab coşqusu XX əsrin ikinci onilliyində daha da yüksəlirdi.

Siyasi hadisələr Bakı Politexnik Məktəbinin tələbələrini də öz axarına saldı. Zamanın çağırışına səs verən gənclər inqilabi hərəkata sonsuz ümidlərlə qoşuldular. Cəfərin tələbə yoldaşı Mirzəbala Məmmədzadə sonralar həmin günləri belə təsvir edəcəkdi: "Gənclər arasında isə vəziyyət belə idi: Hər orta-lisey dərəcəli məktəbdə bir tələbə cəmiyyəti vardı. Bu cəmiyyətin nümayəndələrindən ibarət bir də məktəbdəki gizli təşkilatın adı "İrşad" idi və özümüzə məxsus "Arzu" adlı əl ilə yazılı, rəsmli bir də məcmuəmiz vardı. Cəfər bu təşkilatın ən fəal üzvlərindən biri idi. Zatən o zaman Bakı məktəbləri arasında ən fəal və inqilabçı olanlar bizim məktəblə Bakı oğlan liseyi (realnı məktəb) və qız gimnaziyası idi".

Üsyanlar, inqilablar, Birinci Dünya müharibəsinin gətirdiyi bəlalar gələcəklə bağlı arzularına kölgə sala bilmirdi. Cəfərin xəyalları, istəkləri bahar suları kimi aşıb-daşır, qəlbinə sığışmırdı. Ancaq dövrün ağır şərtləri, sıxıntıları bu coşqun təbiətli gəncdən uzaq deyildi. Zamanəyə münasibətini, haqsızlıqlara etirazlarını, eyni zamanda bədii yaradıcılıqla bağlı düşüncələrini ən yaxın sirdaşı Mirzəbala ilə bölüşürdü. Artıq on altı-on yeddi yaşlarına çatmış gənclərin söhbətləri daha ciddi ictimai, siyasi mövzuları əhatə edirdi. Bir də bədii yaradıcılığa maraqları sanki onlarla birlikdə böyüyürdü. Yeni əsərlərini həvəslə bir-birlərinə oxuyurdular.

1915-ci ildə "Qurtuluş" jurnalının ikinci sayında elan edilən "Yazı yarışımız" adlı müsabiqəyə Cəfər Cabbarlı "Qürub çağı bir yetim" adlı şeirini, Mirzəbala Məmmədzadə isə "Çoban Vəli" adlı hekayəsini göndərdi. Əsərlər nəzm və nəsr sahələrində birinci yerlərə layiq görüldü və "Qurtuluş"un 16 noyabr 1915-ci il tarixli 4-cü sayında dərc edildi.



1916-cı il Cəfər Cabbarlının ən uğurlu illərindən biri oldu. Yeni bədii əsərlər yazdı. "Solğun çiçəklər" pyesi "İsmailiyyə" binasının salonunda tamaşaya qoyuldu.

## Dur, ey xar olan millət

1917-ci ildə Fevral burjua inqilabının qələbəsi ilə Romanovlar taxtdan salındı. Çar hökumətinin süqutundan sonra senzura qadağalarına son qoyuldu. Bundan ruhlanan gənc Cəfər bədii yaradıcılıqla daha böyük şövqlə məşğul oldu.

Növbəti il – 1918-ci il tufan kimi, qasırğa kimi gəldi. Həmin ilin martında daşnak-bolşevik silahlı dəstələrinin törətdikləri dəhşətli faciələr çoxlarının ocağını söndürdü, yurd-yuvasından ayırdı. Cəfər də o ağır günlərdə yaxınlarını Bakıdan Xızıya aparmaq üçün yola düşdü. Şəhərdən çıxarkən atəşə tutuldular. Ölümdən qurtulmaqları möcüzə oldu...

Cəfər Cabbarlı ailəsini əvvəlcə Xızının Upa kəndinə, sonra Qılızıya apardı. Şəhər azad edildikdən sonra ermənilərin zülmlərindən baş götürüb gedənlər geri döndülər. Cəfər də ailəsini Bakıya gətirdi.

Daşnak-bolşevik qətliamında qurban gedən soydaşlarının müsibətlərini heç zaman unutmadı. 1918-ci ilin mart soyqırımında şəhid olan yurddaşlarına "Dur, ey xar olan millət" adlı mərsiyə yazdı. Bu ağrılı mövzuya sonralar "Əhməd və Qumru" hekayəsini, "Bakı müharibəsi", "1905-ci ildə" dramlarını həsr etdi.

1918-ci il Azərbaycan tarixinə ziddiyyətlərlə dolu il kimi yazıldı. Daşnak-bolşevik silahlı birləşmələri o il yalnız Bakını qana boyamadılar. Azərbaycanın əksər bölgələrində soyqırımı törətdilər. Dinc, günahsız insanlara işgəncələr verdilər, vəhşiliklə qətlə yetirdilər.

O dəhşətli günlərdə aldıqları ən xoş xəbər əvvəlcə Tiflisdən 1918-ci ilin mayında gəldi. Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdi. Sonra həyəcanlı baxışlar Gəncəyə dikildi. Bakı ermənilərin işğalı altında olduğundan cümhuriyyət hökuməti Tiflisdən həmin şəhərə köçüb, orada fəaliyyət göstərirdi.

1918-ci ilin 15 sentyabrında Bakı azad edildi və sentyabrın 23-də cümhuriyyət hökuməti Gəncədən öz paytaxtına köçdü. Dörd nömrəsi həmin şəhərdə işıq üzü görmüş cümhuriyyət hökumətinin rəsmi mətbuat orqanı – "Azərbaycan" qəzeti də redaksiya heyəti ilə Bakıya gəldi, Azərbaycan və rus dillərində nəşrini burada davam etdirdi.

Cəfər Cabbarlının müxtəlif vaxtlarda "Sovqat", "İstiqlal", "Azərbaycan füqərası", "Azərbaycan", "Zəhmət", "Kommunist", "Maarif və mədəniyyət", "Yeni yıldız" və digər mətbuat orqanlarında şeir, hekayə və məqalələri işıq üzü gördü. Ancaq həyatında da, yaradıcılığında da "Azərbaycan" qəzetinin xüsusi yeri oldu. O, 1918-ci ilin oktyabrında bu qəzetə mütərcim vəzifəsinə işə qəbul edildi. Od parçası olan bu gənc tezliklə "Azərbaycan"çıların sırasında özünə yer tutdu. Onu fəallığı və istedadı ilə tanıdılar. Bu qəzetdə hökumətin qərarlarını, rəsmi xəbərləri Azərbaycan dilindən rus-

caya, ruscadan isə azərbaycancaya çevirir, həm də vətənə sevgini tərənnüm edən şeirlərini dərc etdirirdi.

1918-ci ilin noyabrında "Azərbaycan"da Cəfər Cabbarlının "Parapetdən Şamaxı yoluna qədər" adlı felyetonu verildi. Müəllif Bakı şəhərinin sosial problemlərini satirik üslubda tənqid edirdi: "Parapetdə, "Azərbaycan" kontorunda yağış bizi tutdu. "Nə qədər gec deyil, özümüzü evə çatdıraq", – deyən bədbinlərə cavab olaraq mən inamla söylədim:

– Yağır, yağır, axır kəsər; tələsməyin lüzumu yoxdur.

Küçəyə çıxmaq mümkün deyildi: ələlxüsus, ona görə ki, köpüklənib qıjıltı ilə axan zəhmli sellər sanki aləmə daha bir cüt imperator və vəliəhdin taxt-tacından əl çəkdiyini xəbər verir və hazırda millətlərin öz müqəddəratını təyinetmə hüququnun darmadağın edildiyi bir etinasızlıqla küçələri gəmirirdi. Şəhərdə gəzən yapıncılı süvarilər sel axınında vəcdə gələrək güllə atır və qara camaatı təbii fəlakətdən daha betər dəhşətə salırdılar.

Bircə çarəmiz qalırdı: redaksiyada gecələmək. Özümüzə köhnə qəzet qalıqlarından rahat yatacaq düzəltməyə başladıq. Ancaq hər şeyə şəxsi münasibətləri olan qadınlar (redaksiya həmkarlarımız) buna qəti etiraz edib bildirdilər ki, özlərini Bakını basmış dəniz və okean sularına atarlar, amma azad mətbuat üstündə yatmazlar" *("Azərbaycan" qəzeti (rus dilində), 26 noyabr 1918).*

Azərbaycan Xalq Cümhuriyyətinin istiqlalpərvər gəncləri böyük sevgi ilə, sevinclə müxtəlif sahələrdə fəaliyyət göstərirdilər. 1918-ci il dekabrın 7-də cümhuriyyət hökuməti parlamentinin rəsmi açılışı oldu. Parlament aparatına Cəfər Cabbarlı, Mirzəbala Məmmədzadə, Əbdül Vahab Yurdsevər, Seyid Hüseyn Sadıqov, Şəfiqə xanım Əfəndizadə və digər gənclər işə qəbul edildilər.

## "Bir çağ varmış, ölkəm azad yaşarmış"

Parlamentin stenoqrafçısı vəzifəsi Cəfər Cabbarlıya cümhuriyyətin yaradıcıları, ictimai-siyasi xadimləri ilə ünsiyyətdə olmaq, onların dövlət quruculuğundakı xidmətlərini görmək, nitqlərini qeydə almaq fürsəti verdi. Bu məsuliyyətli iş onu "Azərbaycan" qəzeti redaksiyasındakı mütərcimlik fəaliyyətindən də ayırmadı. Gənc Cəfər parlamentin həm stenoqrafçısı, həm də hökumətin rəsmi mətbuat orqanının mütərcimi kimi böyük həvəslə çalışır, eyni zamanda məqalələr, bədii əsərlər yazırdı.

1919-cu ilin dekabrında "Müsavat" partiyasının II qurultayı keçirildi. Dekabrın 2-dən-12-dək davam edən qurultayda respublikanın bütün bölgələrindən gəlmiş 140 nümayəndə, çoxsaylı qonaq və mətbuat işçiləri iştirak edirdi. Nümayəndələr arasında Cəfər Cabbarlı da var idi. Qurultayın gedişi haqqında "Azərbaycan" qəzetində yazılırdı: "Natiqlər firqənin xarici və siyasi məsələlərində tutmuş olduğu xətti-hərəkəti təsvib və təqdir ediyorlar. Fəqət daxili işlər barəsində natiqlər iki qismə ayrılıyor.

Birinci qism natiqlər – Xəlil İbrahim, Məmmədzadə Mirzəbala, Cabbarzadə Cəfər, Axundzadə Cavad, Məhəmmədzadə Əbdül Vahab, Seyid Hüseyn Münsif və sairləri xarici və siyasi məsələlərdə firqə mərkəzinin və fraksiyanın fəaliyyətini təqdirlə daxili, xüsusən təşkilat məsələsindəki işlərini tənqid ediyorlar. Daha doğrusu, az hesab ediyorlar.

Digər qism isə – Rəsulzadə Məhəmmədəli, Kazımzadə Abbasqulu, Mürsəlzadə Piri və qeyriləri bütün fəaliyyəti təqdir ediyorlar" *("Azərbaycan" qəzeti, 1919, 5 dekabr, №338).*

Qurultayda müzakirəyə çıxarılan aqrar məsələsi mübahisələrə səbəb oldu. "Azərbaycan" qəzeti bu barədə bildirirdi: "Cəfər Cabbarzadə, Cavad bəy Məlik-Yeqanov, Mustafa Mahmudov, Seyid Hüseyn Münsif, Zülfüqar Məhəmmədov və İsgəndər Hüseynzadə əfəndilər layihəyə tərəfdar və onu müdafiə ediyorlar" *("Azərbaycan" qəzeti, 1919, 15 dekabr, №344).*



Qurultayda çıxış edənlər cəmiyyətin, dövlətin inkişafında əngələ çevrilən problemləri nəzərə çatdırır, onların həlli yollarını axtarırdılar. Cəfər Cabbarlı da "Dağ kəndlərindən – Sayad Xızı" mövzusunda danışdı. O, Azərbaycanın əksər dağ kəndlərinin acınacaqlı sosial-iqtisadi vəziyyətini diqqətə çatdırdı.

1920-ci ilin fevral-aprel aylarında onun yazdığı şeirlərdən kədər, qüssə, nigaranlıq boy verirdi. Çünki başı üzərində qara buludlar dolaşan Azərbaycan Xalq Cümhuriyyətinin gələcəyindən narahat idi. Parlamentdə eşitdikləri, gördükləri, duyduqları ağır yük kimi qəlbinə çökürdü.

Həmin ilin 27 aprelində parlamentin sonuncu fövqəladə gecə iclasında XI qırmızı ordunun təzyiqi ilə milli hökumət istefa verdi. Azərbaycanın işğalından sonra Cəfər Cabbarlı "Kommunist" qəzetində və Xalq Ərzaq Komissarlığında tərcüməçi, Azərbaycan Şura Mərkəzi İcraiyyə Komitəsində stenoqrafçı işləməyə başladı. Görünən bu idi...

Vətəndə qalan vətənpərvərlərimiz Azərbaycanın azadlığı uğrunda mübarizə yollarını müəyyənləşdirmək üçün gizli təşkilatlanmağı qərara aldılar. Siyasi fəallardan birinin – Cəfər Cabbarlının evində toplaşdılar. Yaratdıqları gizli "Milli müqavimət komitəsi"nin baş katibi Cəfər Cabbarlı, rəhbəri Mirzəbala Məmmədzadə, onun müavini isə Əbdül Vahab Yurdsevər oldu. Böyük çətinliklərlə də olsa, gizli mətbəədə "İstiqlal" qəzetini də çap etdilər.

Sovet hökumətinin təhlükəsizlik orqanlarının amansız təqiblərinə sinə gərərək gizli təşkilatı bir müddət qoruya bildilər. Ancaq 1923-cü il iyunun 14-dən 15-nə keçən gecə Cəfər Cabbarlı və digər ictimai-siyasi xadimlər həbs olundular. Onlar avqustun 12-də azadlığa çıxa bilsələr də, qara günləri bitmədi. Sovet hakimiyyəti ilk günlərindən Azərbaycanın müstəqilliyi uğrunda çalışmış, cümhuriyyət hökumətinə xidmət etmiş, onun rəsmi qəzetində – "Azərbaycan" qəzetində işləmiş şəxsiyyətlərə qarşı xüsusilə qəddar oldu.

Həbsxanadan çıxdıqdan sonra da Cəfər Cabbarlının "cəzası" bitmədi. Təhsil aldığı Bakı Dövlət Universitetinin Tibb fakültəsinin ikinci kursundan, iş yerlərindən çıxarıldı.

1923-cü il oktyabrın 5-də istiqlal fədailərinin bir neçəsi yenidən həbs edildi. Həbslər zamanı "İstiqlal" qəzetinin də çap olunduğu mətbəə aşkarlandı. Oktyabrın 13-dək zindanda mücahidlərə işgəncələr verildi.



Bu dəfə də həbsdən buraxıldılar. Amma Cəfər Cabbarlı sovet hökumətinin işgəncə maşınını xatırladan həbsxanasından xilas olsa da, ruhən azad deyildi. O, qeyri-adi istedadının diktəsi ilə yeni əsərlər yazırdı. Azərbaycan teatr səhnəsi Cəfər Cabbarlının "1905-ci ildə", "Od gəlini", "Sevil", "Almaz" və digər dramları ilə zənginləşdi. Sovet ədəbi tənqidində isə onun əsərləri bolşevik ideologiyasına uyğun təhlil və tədqiq edilirdi. Cümhuriyyət dövrü yaradıcılığına qərəzli yanaşılır, haqqında yazılırdı: "...Bu qaragüruhçu, əksinqilabi təbliğat o zaman bəzi gənclərin şüurunu zəhərləyə bilmişdi. Bu gənclərin arasında Cəfər Cabbarlı da vardı. 1918-1919-cu illərdə Cabbarlı millətçi burjua ziyalıları arasında yaşamağa, "Müsavat" partiyasının orqanı olan "Azərbaycan" qəzetinin redaksiyasında işləməyə məcbur olmuşdu. Bu illərdə Cabbarlı millətçilik ruhunda bir neçə əsər yazmışdı". Sovet mətbuatında da guya onu mədh edirdilər: "Cəfər ilk öncə müsavat ideolojisinə qapılsa da, panislamist və pantürkist ikən, sonradan yanıldığını bilərək, qəti surətdə və bütün enerjisini sosializm quruluşuna həsr etmişdir". Əslində isə sovet hökuməti onun 1919-cu ildən "Müsavat" partiyasının üzvü olduğunu, Azərbaycan Xalq Cümhuriyyətinə ürəkdən xidmət etdiyini, onun parlamentində və rəsmi qəzetində – "Azərbaycan"da çalışdığını, milli hökumət devrildikdən sonra gizli təşkilatın yaradıcılarından olduğunu unutmurdu.

Cəfər Cabbarlı "Aydın" əsərində yazırdı: "Mən istərəm ki, insan azad, fikir azad, millət azad, hər şey azad olsun!" Bu istək bolşevik ideologiyasına uyğun gəlmədi. Ancaq digər cümhuriyyət aşiqləri kimi, Cəfər Cabbarlı da Azərbaycanın yenidən müstəqilliyinə qovuşacağı günə ümidini itirmədi.

...Bu dəfə onun ömrünə bahar deyil, ölüm gəlməyə tələsdi, 31 dekabr gecəsi Azərbaycanın istedadlı, vətən eşqli övladı Cəfər Cabbarlını həyatdan qoparıb apardı. O, bu dünyadan vətənini, dövlətini yenidən azad görməyin həsrəti ilə köçdü. Cəfər Cabbarlının məsləkdaşlarının – Azərbaycanın istiqlal aşiqlərinin ömrünün qışı isə bundan sonra heç zaman bitməyəcəkdi. Sovet hakimiyyəti onların müstəqillik arzularına son qoymağın mümkünsüzlüyünü bildiyi üçün repressiya siyasəti yürüdəcəkdi. Hələ ki 1934-cü ilin qışı idi. Kütləvi həbslərə üç il qalırdı...

# Oxşar talelər

**Azərbaycan mətbuatı tarixinin 1918-1920-ci illəri bütün əvvəlki dövrlərə nisbətən özünün ən yüksək inkişaf mərhələsini keçmişdir. Bu dövrün mətbuatı həm keyfiyyət, həm də kəmiyyət baxımından milli mədəniyyətin mühüm tərkib hissəsi kimi Azərbaycan həyatının canlı salnaməsinə çevrilmişdir. İki il ərzində ölkədə 100-ə yaxın müxtəlif adda qəzet və jurnal çapdan çıxmışdır. Bu dövr mətbuatının səciyyəvi xüsusiyyəti təkcə onun say göstəricisində deyildi, həm də ideya-məzmun zənginliyində idi.**

Cümhuriyyətin xalqımıza dəyərli yadigarları çox olub. Onların içərisində dövlətimizin adını daşıyan, 2018-ci ildə nəşrinin 100 iliyini qeyd edəcəyimiz "Azərbaycan" qəzetidir. Bu qəzetin taleyi də cümhuriyyətin taleyinə bənzəmişdi. Onun sonuncu nömrəsinin tarixi hər nəzər yetirdikdə insan yaddaşında böyük bir təəssüf və iztirab anına çevrilir: 28 aprel 1920-ci il. Həmin gün çıxmış axırıncı nömrədən sonra "Azərbaycan"ın nəşri dayandırıldı. Müəlliflərinin bir çoxu repressiyalarla üzləşərək qırmızı terrorun qurbanı oldu. Digər bir qismi isə təqiblərdən yaxa qurtarmaq üçün xaricə üz tutaraq ömürlərini vətən həsrəti ilə mühacirətdə başa vurdular.

Ceyhun bəy Hacıbəyli, Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli və Xəlil İbrahimin redaktorluq etdiyi "Azərbaycan" qəzetinin səhifələrində XX əsrin əvvəllərində milli ictimai fikrin ən görkəmli nümayəndələrinin, qüdrətli qələm sahiblərinin siyasi, bədii, publisistik yazıları dərc olunurdu. Onların ölkəmizin tarixinə, mədəniyyətinə, mövcud ictimai-siyasi vəziyyətinə, cümhuriyyətin həyata keçirdiyi islahatlara və qarşıda duran vəzifələrə dair silsilə məqalələri böyük maraq oyadır, cəmiyyəti düşündürən məsələlər ətrafında ictimai rəyi formalaşdırır və milləti yeni dövlət quruculuğuna səfərbər edirdi. Azərbaycanın tam müstəqilliyi və istiqlalı ideyası dövrün qabaqcıl ziyalılarını bir amal, bir ideal altında birləşdirir, mətbuat və ədəbi hərəkat da bu yöndə irəliləyirdi.

"Azərbaycan"ın müəllifləri sırasında geniş jurnalistlik fəaliyyəti göstərən, haradasa taleləri bir-birinə bənzəyən yazarlar da olub. Onlardan biri Əliabbas Müznibdir.

## Kəlamı dövrün sözü idi

Əliabbas Müznib XX əsr Azərbaycan ədəbi-ictimai fikir tarixində əbədiləşən şair, publisist, ədəbiyyatşünas, tərcüməçi idi. O, 1909-1910-cu illərdə "Zənbur", 1911-ci ildə "Səhabi-saqib", 1915-1916-cı illərdə "Babayi-Əmir" jurnallarının naşiri və redaktoru kimi fəaliyyət göstərib. Ədəbiyyatımızda 1914-cü ildə nəşr edilən "Yusif və Züleyxa", 1917-ci ildə işıq üzü görən "Tikan kolu", 1927-ci ildə çıxan "Nəsrəddin məzhəkələri" və bir il sonra oxuculara təqdim olunan "Aşıq Pəri və müasirləri", eləcə də digər kitabların müəllifi kimi qalıb. Təbii ki, bu kiçik təqdimat Əliabbas Müznib haqqında ötəri bir təsəvvür yaratmaq üçün belə çox azdır. Çünki Müznib geniş, çoxşaxəli yaradıcılığa malik qələm sahibi idi.

Əsl soyadı Əhmədov olan Əliabbas Mütəllib oğlu bəzi mənbələrdə Mütəllibzadə kimi də qeyd olunur. Müznib isə onun gənc yaşlarından seçdiyi təxəllüsdür. Maraqlıdır ki, bu söz ərəb-



cədən tərcümədə "günahkar", "müqəssir" mənasını verir. Müznibi isə, doğrudan da, günahsız müqəssir taleyi həyatı boyu son anadək izləyir. Cəmi 55 il ömür sürüb amansız repressiya "maşın"ına tuş gələn ədib günahsız ikən günahlı sayılıb güllələnir.

Lakin heç də uzun olmayan həyatı boyu yazıb-yaratdıqlarını sadalamaqla tükənməz. "Azərbaycan"çılar üçün Müznib yaradıcılığı ikiqat əzizdir. Çünki cümhuriyyət dövründə "Azərbaycan" qəzetinin səhifələrində onun bir sıra dəyərli məqalələri dərc olunub. Təəssüflər olsun ki, onların hamısı bizə məlum deyil.

Ə.Müznib 1883-cü ildə Bakıda anadan olub. Atası daşyonan olduğundan Əliabbasın özü də uşaqlıqda təhsil ala bilməyib. Yalnız mədrəsədə oxuyub, burada ərəb və fars dillərini öyrənə bilib. İlk şeirlərini 1907-ci ildən başlayaraq "Tazə həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda dərc etdirib. Yazılarının altından gizli imzalar qoyub: "Vaq-vaq cinani", "Lagər", "Azər", "Arıq", "Babayi-Əmir", "Qəsim", "Nəsim" və s. Mətbuatdakı satiralarını əsasən "Bərq" və "Bəriqə" imzaları ilə dərc etdirib.

1905-ci ilin siyasi hadisələri Müznibin dünyagörüşünə, nəticə etibarilə həyatına ciddi təsir göstərmişdi. Yəni o, inqilabi hərəkata qoşularaq intibahnamələrin yayılmasında iştirak etməyə başlamışdı. Bu, Müznibin jurnalistlik fəaliyyəti ilə məşğul olmasına da təkan vermişdi. Artıq 1908-ci ildən o, həmin dövrün bir sıra mətbu orqanlarında çıxış etmiş və imzası ilə tanınmışdı.

1910-cu ildə Əliabbas Müznib "Hilal" qəzetini nəşr etməyə başlayır. Lakin bu qəzetin kəskin siyasi mövqeyi çar senzurasının diqqətindən yayınmır və bu səbəbdən də bağlanır. Müznib dekabrın 25-də qəzetin növbəti nömrəsini buraxır. Bu dəfə bütün nüsxələr polis tərəfindən müsadirə olunur və redaktor haqqında cinayət işi açılır. Bundan sonra da tutduğu yoldan dönməyən ədib növbəti ilin əvvəlində yenidən "Hilal"ı çıxarmağa nail olur. Redaktor həmin nömrədə "Binəva islam" adlı məqaləsində xalqın ağır vəziyyətini qələmə alaraq insanlara bir sıra həqiqətləri anlatmağa çalışır. Beləliklə, senzura və polis "Hilal"a aman vermir, Əliabbas Müznib isə nəzərdə tutduğu ideya xəttini davam etdirərək "Şəhabi-saqib" jurnalını buraxmağa başlayır.

Mövzu həminki idi – çar zülmünə qarşı etirazlar, xalqın ağır vəziyyəti... Odur ki, jandarmlar redaktorun evinə basqın edir, orada axtarışlar aparır, nəticədə jurnalın nəşrini dayandırır və Müznibi həbs edirlər. Jurnalist 25 gün Bayıl həbsxanasında saxlanılır.

Hökumətin Əliabbas Müznibə qarşı qəzəbi o qədər böyük idi ki, bununla da kifayətlənməyib onu Sibirə sürgünə göndərir. Vətənə yalnız 1913-cü ildə çar hökumətinin elan etdiyi əfv sayəsində qayıdır.

Sürgündən qayıtdıqdan sonra Əliabbas Müznib "Dirilik" jurnalını çıxarır. Məqsədi bu jurnal vasitəsilə Azərbaycan türk millətinin şüurunu formalaşdırmaq, xalqda milli müstəqillik inamını gücləndirmək idi. Bunu jurnalın adından da görmək olurdu və bu nəşr Azərbaycanın ictimai-siyasi həyatında bir oyanış yaradır. Azərbaycanda türkçülük fikrinin yayılmasında Müznib və onun "Dirilik" jurnalının ətrafına topladığı ədəbi qüvvələr əhəmiyyətli rol oynayır. 1915-ci ildə Müznib bu jurnalın səhifələrində rus imperatorunun türk müsəlmanlara düşmənçiliyi ilə bağlı "Vəsiyyət"ini nəşr etdikdən sonra yenidən təqiblərə məruz qalır. Nəhayət, jurnal bağlanır.

Müznibin nəşr etdiyi və müəllifi olduğu mətbu orqanlar bağlansa və dəyişsə də, onun özünün əqidəsi, məsləki və fəaliyyətinin istiqaməti dəyişməz olaraq qalırdı.

1915-ci ilin aprelində çıxarmağa başladığı "Babayi-Əmir" satirik jurnalında ətrafına M.S.Ordubadi, C.Cabbarlı, Ə.Nəzmi, Ə.Vahid kimi ziyalıların toplaşması Əliabbas Müznibin böyük nüfuzundan xəbər verir. Müznib bu jurnalında da xalqın ağır sosial vəziyyətindən bəhs edirdi. O, bu cür vəziyyəti yaradan bəlalara qarşı mübarizə aparırdı.

Daha sonra fədakar mühərrir "Türkün səsi" adlı qəzet çıxarmaq niyyətində olsa da, rəsmi dairələrdən icazə ala bilmir. Sonrakı illərdə o, müxtəlif mövzularda əsərlər yazmaqla yanaşı, Şərq və Qərb ədəbiyyatından tərcümələr edir, kitablar çıxarırdı. Rus imperiyasının süqutundan sonra o, ədəbi və siyasi sahələrdə daha geniş fəaliyyət göstərir. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət marşını yazır. Bu dövrdə o, cümhuriyyətin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetində türkçülüyün tarixi və cari məsələləri barədə silsilə məqalələrini dərc etdirir.

Əliabbas Müznibin bu dövrə aid yaradıcılığından danışarkən 1918-ci ildə Bakıda ermənilərin törətdiyi qırğınlara aid "Mart hadisələri" kitabçası mütləq qeyd edilməlidir. Həmin əsərdən ayrı-ayrı parçaları "Azərbaycan" qəzetində də nəşr etdirir. Digər bir kitabçası isə "Ənvər paşa" adlanır ki, burada da Azərbaycanda əmin-amanlığı bərpa etmiş türk generalının igidliyi qələmə alınır. Həmin vaxt Əliabbas Müznib Türkiyədən Bakıya erməni-bolşevik qırğınlarının qarşısını almaq üçün gəlmiş hərbi dəstələrin komandanlığı idarəsində katib vəzifəsində çalışırdı.

Artıq o dövr idi ki, Əliabbas Müznib Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarının güclü təbliğatçılarından birinə çevrilmişdi. Onun fikirlərinin əhəmiyyəti, sözünün kəsəri vardı. Ümumiyyətlə, Müznibin bütün yaradıcılığından onun özünəməxsus olan "Mətbuatın kəlamı əsrin kəlamı olmalıdır" fikri qırmızı xətlə keçir.

Bütün bunlar dövrün nüfuzlu qəzeti olan "Azərbaycan"da öz əksini tapmaya bilməzdi. Məsələn, 1919-cu il mayın 28-də Əliabbas Müznibin "Azərbaycan" qəzetində milli hökumətin bir illik yubileyi münasibətilə "Azərbaycan istiqlalı" məqaləsi dərc edilir.

Görkəmli ədib "Azərbaycan" qəzetinə şeirlər, publisistik məqalələr də yazırdı. Şeirlərinin birində bülbülə müraciət edərək ağlamağın, sızlamağın arxada qaldığını söyləyir, baharın gəlişini salamlayır, laləzarı vəsf edirdi.

1926-cı ilə qədər mətbuatda çalışan Müznib sovet dövrü olmasına baxmayaraq, yenə də təqib edilir. Beləliklə, hələ cavan olsa da, təqaüdə çıxır və siyasətdən uzaqlaşır. Yalnız ədəbiyyatla məşğul olur.

Əliabbas Müznibin son taleyi onun müasirləri olan bir çox görkəmli şair və yazıçıların taleyinə bənzəyir. Ona millətçi və pantürkist damğası vurulur. "Xalq düşməni" kimi 1937-ci il avqustun 27-də güllələnir. Günahsızlığı yalnız 1956-cı ildə elan edilir.

## "Müqtədir münəqqid" – qüdrətli tənqidçi

XX əsrin birinci yarısında yazıb-yaratmış yazıçı, tənqidçi, pedaqoq və jurnalist Seyid Hüseyn Sadiqin (Hüseyn Mir Kazım oğlu Sadıqzadə) mükəmməl qələm təcrübələri cümhuriyyət dövrünün "Azərbaycan" qəzetində də işıq üzü görüb.

Seyid Hüseyn Sadiq 1887-ci ildə Bakıda anadan olub. Atası dünyasını erkən dəyişdiyindən o, babasının himayəsində böyüyüb. Əvvəl mollaxanada, sonra Mahmud bəy Mahmudbəyovun rus-tatar məktəbində təhsil alıb. Uşaq yaşlarında rus və fars dillərini mükəmməl öyrənə bilib. Seyid Hüseyn 17 yaşına çatanda babası da vəfat edib və beləliklə, o, çiynini həyatın ağır yükləri altına verməli olub. "Kaspi" qəzetinin mətbəəsində işə düzələrək 1912-ci ilədək orada mürəttib kimi



çalışıb. 1907-ci ildən ədəbi və jurnalistlik fəaliyyətinə başlayıb. Bu vaxtdan etibarən qəzet və jurnallarda "Kazımoğlu", "Hüseyn Sadiq", "Seyid Hüseyn", "Mühərrir" imzaları ilə məqalələr, hekayə və felyetonlar dərc etdirib. Müəllifin "Gələcək həyat yollarında", "Şirinnaz", "İki həyat arasında", "Yatmış kəndin qış gecələrində", "Gilan qızı" və bir sıra hekayələri, "Altun", "Yalan", "Gözəllik nədir?" və başqa çoxsaylı məqalələri oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Əvvəlcə digər naşirlərlə şərikli surətdə "Bəhlul", "Kəlniyyət" və "Qurtuluş" jurnallarını çıxaran Seyid Hüseyn 1913-1914-cü illərdə artıq "İqbal"ın baş redaktoru olur. O öz əsərləri ilə Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparır, eləcə də Azərbaycan ədəbiyyatı və ədəbiyyat xadimləri haqqında məqalələr, yaşadığı dövrün həyatını əks etdirən hekayələr yazır. Müəllifin müxtəlif illərdə "Ağvalideyn, yaxud zavallı Məşədi Zaman", "Qaçaq oğul, yaxud ata məhəbbəti", "Yeni həyat yollarında" və bir sıra digər kitabları nəşr olunur.

Seyid Hüseyn C.Məmmədquluzadə, N.Vəzirov, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Nərimanov, F.Köçərli, M.S.Ordubadi, S.M.Qənizadə, Y.V.Çəmənzəminli, A.Divanbəyoğlu, M.Hadi, A.Səhhət, C.Cabbarlı, A.Şaiq kimi görkəmli şair və yazıçıların əsərlərini təhlil etmişdir. Tənqidçi, eləcə də o vaxt əbədiyyata təzəcə gələn müəlliflərin ilk əsərlərinə münasibət bildirmişdir. Təsadüfi deyil ki, böyük dramaturq Cəfər Cabbarlı Seyid Hüseyn haqqında çox yüksək fikirdə olub, onu "müqtədir münəqqid", yəni qüdrətli tənqidçi adlandırıb.

Seyid Hüseyn ictimai hadisələrə münasibətdə Üzeyir bəy Hacıbəyli ilə həmfikir idi. Onların arasındakı səmimi münasibət ədibin yaradıcılığına da müsbət təsir göstərirdi. Belə ki, o, Hacıbəylinin redaktorluq etdiyi "Yeni iqbal" və "Azərbaycan" qəzetlərinə də xeyli məqalələr yazmışdır.

Görkəmli yazar cümhuriyyət dövründə qələmə sarılaraq məhsuldar fəaliyyət göstərməyə başlamışdır. 1919-cu ildə erməni daşnakların vəhşicəsinə yandırdıqları abidələrdən biri də milyonçu Musa Nağıyevin oğlu İsmayılın xatirəsinə ucaltdığı "İsmailiyyə" binası idi. Millətə qənim kəsilən daşnaklar binanın sökülməsinə çalışırdılar. Bu qəsdin üstünü açmaq üçün o zaman Seyid Hüseyn "Həzin bir xatirə" və "İsmailiyyə" hekayələrini qələmə almışdı. Həmin hekayələr "Azərbaycan" qəzetində dərc olunmuşdu. Dövrün qabaqcıl ziyalıları bu binanı xalqın, millətin amal və əməl dayağı, müqəddəs və toxunulmaz məbədi sayır, azadlıq və istiqlal rəmzi kimi dəyərləndirirdilər. Ürək ağrısı ilə yazılmış hər iki hekayənin sonluğu həyəcanlı və dərin vətəndaş narahatlığı ilə bitirdi. Seyid Hüseyn xalq cümhuriyyətinin həyata keçirdiyi mədəni quruculuqda, o cümlədən "Azərbaycan" qəzetinin başçılıq etdiyi "Yaşıl qələm" ədəbi birliyinin işində yaxından iştirak edirdi. O, AXC devrildikdən sonra "Müsavat" partiyasının Bakıda gizli fəaliyyət göstərən mərkəzi komitəsinin üzvü idi. 1923-cü ilin avqustunda gizli təşkilat aşkar edilərkən o, "Kommunist" qəzetində xüsusi bəyannamə ilə çıxış etmişdi. "Müsavat"ın məxfi təşkilatının buraxıldığını elan edənlər arasında Seyid Hüseynin də imzası vardı. Məhz buna görə də repressiya dalğası yazıçının həyatına son qoydu. Ədibin "Yeni həyat yollarında", "İki həyat arasında", "Şirinnaz" kitabları o dövrün ən yaxşı nəşrlərindən idi.

Azərbaycanın tanınmış şairəsi, Seyid Hüseynin ömür-gün yoldaşı Ümmügülsüm Sadıqzadənin yaradıcılığında da ən məhsuldar dövr 1918-1920-ci illərə təsadüf edir. O, xalq cümhuriyyətinin qurulmasını sevinclə qarşılayır, şeirlərində xalqımızın milli istiqlala qovuşması tərənnüm olunurdu. Əksəriyyəti "Azərbaycan" qəzetində dərc olunan "Türk ordusuna", "Çəkil, dəf ol!", "Əsgər anasına", "Dərdli nəğmə", "Yurdumuzun qəhrəmanlığına", "Yollarını bəklədim" və s. şeirlərində milli istiqlalın qorunmasına çağırış ruhu yüksək səviyyədə qələmə alınmışdır. Şairənin 1920-ci il aprelin 28-də cümhuriyyətin devrilməsi ilə bağlı yazdığı "Hicran" və "Bayrağım enərkən" şeirləri Azərbaycan ədəbiyyatının ən dəyərli əsərlərindən hesab olunur.

1937-ci ildə Seyid Hüseyn həbs edildikdən sonra Ümmügülsüm də "xalq düşməni"nin həyat yoldaşı kimi bir müddət Bayıl həbsxanasında saxlanılır, sonra Rusiyanın Mordva vilayətinə 8 illik sürgünə göndərilir. Əsərləri yasaqlanır. Sürgündən sonra şairə Bakıya dönsə də, burada yaşamasına icazə verilmir.

Ailənin böyük oğlu, xalq rəssamı Oqtay Sadıqzadənin valideynləri haqqında xatirələrini həyəcansız oxumaq mümkün deyil: "O vaxt mənim 16 yaşım vardı. Valideynlərimin ikisi də 1937-ci ildə tutuldu. Atam Seyid Hüseyn güllələndi, anam Ümmügülsüm isə şimala, Mordva vilayətinə sürgün olundu. O vaxt xalamgilin bağlarında qonaq idim. Xalamın böyük oğlu Rəsulu bağda olarkən tutdular və üç gündən sonra güllələdilər. Eyni gündə də öz bağımızda atamı tutmuşdular. Atamı ya millətçi, ya da Məhəmməd Əminin qohumu olduğuna görə həbs etdilər".

Bütün bunlarla qəzəbi soyumayan bolşeviklər 1941-ci ildə 20 yaşlı Oqtayı da həbs edərək sürgünə göndərirlər. O, Bakıya yalnız 1946-cı ildə qayıdır.

Qaldı ki Seyid Hüseynin öz taleyinə... Onun harada qətlə yetirildiyi barədə iki müxtəlif söhbət mövcuddur. Bəziləri Seyid Hüseynin Sibirdə sürgündə olarkən güllələndiyini söyləyirlər. Həqiqət isə başqadır. Bu günahsız müqəssir həbs olunandan bir neçə ay sonra, yəni 1938-ci il yanvarın 5-dən 6-na keçən gecə Bakı yaxınlığında – Qum adasında qətlə yetirilib.

## Söz fədaisi, mətbuat cəfakeşi

Mətbuat həqiqətən tarixdir. Və bu tarixi araşdırarkən adına rast gəldiyimiz və heç zaman unutmayacağımız görkəmli simalardan biri də məhz Ömər Faiq Nemanzadədir. O, Azərbaycan tarixinə publisist, istedadlı ədib, naşir, pedaqoq, ictimai-siyasi xadim kimi düşüb. Nemanzadə qələmə sarılaraq işlədiyi, müəlliflik etdiyi mətbuat orqanları vasitəsilə fikirlərini, ideyalarını xalqa öz doğma dilində çatdırmağa çalışırdı. Onun haqqında danışanda mütləq mollanəsrəddinçi olduğu xüsusi vurğulanırdı. İstər "Qeyrət"in, istərsə də "Molla Nəsrəddin"in fəaliyyəti dövründə ədib dostu Mirzə Cəlillə birlikdə irticanın hücumlarını dəf edib, lazım gəldikdə hətta qaragüruhçularla açıq mübahisələrə qoşulub. Öz kəsərli qələmi ilə ictimai həyatda və xalqın maariflənməsində inamla mübarizə aparıb.

Ömər Faiq Nemanzadənin "Azərbaycan" qəzetinin müəllifi kimi fəaliyyəti də xüsusi vurğulanmalıdır. Görkəmli ədib dövrünün bir çox siyasi hadisələrini, o cümlədən qanlı olaylarını gözləri ilə görmüşdü. Ahıskada erməni və gürcü dəstələrinin terror fəaliyyətinin şahidi olmuşdu. Bu, onun məqalə və felyetonlarının adından da aydın görünür: "Tiflisdə 1905-ci il oktyabr nümayişi", "Çarizmin növbəti fitnəsi", "Günah kimdədir?", "Sülh məclisi" və s. Bu yazılarda mətbuatla bağlı problemlərə də toxunulurdu.

Ö.F.Nemanzadənin publisistik yaradıcılığında dil məsələlərinə həsr etdiyi məqalələr xüsusi yer tutur. "Dil yoxdur, millət yoxdur", "Mən inanmıram ki, dilini sevməyən xalqını sevsin", "Məhəbbətimizin ən üstün qatına dil məhəbbətini çıxarmalıyıq" və s. fikirləri onun ana dilinə olan



sevgisinin ifadəsi idi. "Azərbaycan", "Tərəqqi", "İrşad", "Həyat", "Açıq söz" və s. qəzetlərdə çap olunan "Yazımız, dilimiz", "İkinci ilimiz", "Dərdimiz və dərmanımız", "Dilimiz, imlamız", "Dil məsələsi", "Eşq və məhəbbət" və digər məqalələrində doğma dilimizi ərəb-fars qəlibinə salmaq istəyənlərə haqlı cavab verirdi. Dilimizdə öz sözlərimiz olduğu halda alınma sözlərin işlədilməsinə etirazını bildirirdi. Ö.F.Nemanzadənin qələmə aldığı ən dəyərli yazılarından biri də "Mən kiməm?!" məqaləsi idi. O, burada dövrün aktual və maraqlı məsələlərinə toxunaraq yazırdı: "Ey türk, zamanımız özgə zamandır. Əgər bundan sonra özümüzü tanımayıb qalırsaq, qorxuram ki, gec ayıldığımız vaxt sağalıb sakitcə yaşamağa vücudumuzda qüvvət və taqət qalmamış ola. Ey türk, keçmişindən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsl vücudunu tanı, qədrini anla".

1919-cu ildə "Azərbaycan" qəzetində çıxan "Milliləşmək" məqaləsində isə ədib yenə də azərbaycançılığın əsas atributları olan milli dil və ədəbiyyata yüksək dəyər verirdi: "...Bir millətin ədəbiyyata malik dili o millətin ruhu, nişaneyi-mövcudatıdır. Ondan məhrum olduğu gün məhrum olmuş, ondan uzaqlaşdığı gün qəbrinə yaxınlaşmış deməkdir... Dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz".

Ömər Faiq ömrünün müxtəlif dövrlərində dəfələrlə həbs edilmişdi. Cəsarətli çıxışlarına, prinsipial və barışmaz mövqeyinə görə həmişə təqib olunmuşdu. Dəfələrlə onun evində axtarışlar aparılmış, yazıları müsadirə olunmuş, felyetonları jurnal və qəzet səhifələrindən çıxarılmışdır. Onun son həbsi isə "Stalin repressiyaları" adı ilə tarixə düşmüş, ədalətsiz və amansız həbslərdən biri olmuşdur. 65 illik ömründə öz xalqına heç vaxt xəyanət etməmiş, fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq həmişə ona sədaqətlə xidmət etmiş bu insanın da həyatına 1937-ci ildə son qoyulmuşdu.

...Hər bir mətbu orqan xalqın, ölkənin tarixinin bir parçası, dərc olunduğu dövrün salnaməsidir. Bu salnaməni yaradan isə həmin qəzetin əməkdaşları, müəllifləridir. Bu baxımdan yanaşdıqda xalqımızın və dövlətçiliyimizin şanlı dövrlərindən olan xalq cümhuriyyətinin yaşadığı aylarda çap olunan "Azərbaycan"ın müəlliflərinin hər birinin yazdıqları bizim üçün dəyərli, xatirələri isə əzizdir.

# M.Hadi "Azərbaycan" qəzeti səhifələrində

**"Azərbaycan" qəzeti ölkəmizin mərkəz şəhərinin – Bakının bolşevik-daşnak birləşmələrinin işğalından azad olunduğu gündə nəşrə başladı. İlk nömrəsini xoş xəbərlər, təbrik teleqramları bəzədi.**



Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və milli hərbi hissələrimiz qalibiyyətlə Bakıya daxil olmuşdular. Cümhuriyyət hökuməti hələ ki Gəncədə fəaliyyətini davam etdirirdi. "Azərbaycan" qəzetinin ilk nömrəsi də həmin şəhərdə işıq üzü gördü. Qəzetin rus dilində sentyabrın 19-da çapdan çıxan ikinci nömrəsində yazılırdı: "Hökumət idarələri hələlik Gəncədə fəaliyyət göstərir. Bu günlərdə hökumət imkan düşən kimi mərkəzi idarələri Bakıya köçürəcəkdir". Qəzetin Gəncə dövrü on gün çəkdi. 1918-ci il sentyabrın 25-də "Azərbaycan" qəzeti "Heyəti-idarə"si (redaksiya heyəti) Nazirlər Şurası və mühüm dövlət idarələri ilə birlikdə Bakıya köçdü.

"Azərbaycan" qəzetinin Bakıda ilk nömrəsinin dərc olunmasından da 100 il keçir. Bir əsrdə qəzetin başından çox qovğalar ötdü. Azərbacan Xalq Cümhuriyyətinin süquta uğradılması ilə birlikdə onun da fəaliyyətinə son qoyuldu.

Ölkəmiz XX əsrin sonuncu onilliyində müstəqilliyinə qovuşdu. "Azərbaycan" qəzetinə də yenidən azad vətənimizin, demokratik respublikamızın uğurlarından yazmaq müyəssər oldu. Arzumuz və ümidimiz budur: oxucuların görüşünə hər zaman qələbə soraqlı xəbərlərlə gələk!

1918-ci ildə Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti işə başlayanda Hadi də orada idi. Milli Azərbaycan dövlətinin yaradılması onun böyük sevincinə səbəb olmuşdu.

Romantik şair, publisist və tərcüməçi Məhəmməd Hadi daim inqilab təşnəsi, azadlıq eşqi ilə çırpınmış, bu ideal uğrunda vətəndaş coşqunluğu ilə yazıb-yaratmışdır. Ona görə də Azərbaycanın müstəqilliyini – AXC-ni sevinclə qarşılayaraq istiqlaliyyətimizin qorunub möhkəmləndirilməsi naminə ömrünün sonunadək usanmadan qələm işlətmişdir.

Şairin yaradıcılığının cümhuriyyət dövründə marş və hərbi-vətənpərvərlik ruhlu şeirlər də diqqəti cəlb edir. Bu sıraya "Türkün nəğməsi", "Zəfəri-nəhayəyə doğru", "Əsgərlərimizə-könüllülərimizə", "Azərbaycan dövləti-növzadına", "Vaxtın səsi və həyatın sözü" və s. şeirlər, həmçinin "İki simayi-siyasinin müharibə haqqında mütaliələri münasibətilə", "Zərbeyi-inqilab", "Ümid ilə yaşayın" və s. məqalələr daxildir. Həmin silsiləyə son zamanlar M.Hadinin yeni bir əsəri – "Qəhrəman türk əsgərlərinə" şeiri də əlavə edilmişdir. Bu şeiri tanınmış türk alimlərindən olan Yavuz Akpınar görkəmli ictimai xadim və mütəfəkkirlərimizdən Əli bəy Hüseynzadənin Türkiyədəki arxivindən üzə çıxararaq "Kardeş kalemler" dərgisinin 2007-ci il 7-ci sayında onun əslinin fotosu ilə birlikdə çap etdirmişdir.

Məlum olduğu kimi, AXC hökuməti Bakı azad edilənədək bir müddət Gəncədə fəaliyyət göstərmişdir. Bu zaman Azərbaycanın köməyinə gələn Qafqaz İslam Ordusunun baş qərargahı da Gəncədə idi. Qarşıdakı həlledici döyüşlərə ciddi hazırlıq aparılırdı. Həmin günlərdə Gəncədə olan Məhəmməd Hadi, digər həmvətənləri kimi, Qafqaz İslam Ordusunun Azərbaycana kömə-

yə gəlişini böyük sevinclə qarşılamışdır. O öz vətəndaşlıq duyğularını bu münasibətlə qələmə aldığı digər əsərləri ilə yanaşı, 13 iyun 1918-ci ildə Gəncədə yazdığı "Qəhrəman türk əsgərlərinə" şeirində də ifadə etmişdir. Marş-şeir türk əsgərlərinə, onların döyüş əzminə həsr olunmuşdur. Əli Yavuzun da yazdığı kimi, "...bu da bizə əsgəri marşların xalq yığınları (kütlələri – **A.B.**) üzərində olduğu kadar, aydınlar (ziyalılar – **A.B.**) arasında da coşkunluk yaratdığını, Azərbaycan toplumunun o dönəmdə yaşadığı sevinc və bahtiyarlığı, kəndinə güvən duyğusunu peşikdirdiyini göstərməkdədir".

Şeirdəki vətənpərvərlik, milli qürur duyğusu ilə yanaşı, türk birliyinin poetik pafosla tərənnümünü nəzərdə tutan Əli Yavuz sözünə davam edərək bildirir ki, "Hadinin bu mənzuməsi ogünkü ortaq vicdanın səsi olaraq da dəyərləndirilə bilir".

Türkün öz soyundan güc alan döyüş və qəhrəmanlıq əzmi marş-şeirdə belə ifadə edilmişdir:

*Qorxmaz yürəkli ərləriz,*
*Həp əsgər oğlu əsgəriz.*
*Türk oğlu qaçmaz hərbdən,*
*Qeyrətliyiz, cəngavəriz.*

*...Türk milləti, türk milləti*
*Qəhr etdi canlı zülməti.*
*Əlhəmdülillah parladı*
*Türkün hilalü şövkəti.*

Şair bu təntənə ilə sözünə davam edərək dörd ildən bəri davam edən Birinci Dünya müharibəsində türklərin xeyli qəhrəmanlıqlar göstərib öz şanlı tarixlərinə yeni və şöhrətli səhifələr yazdıqlarını da qürurla diqqətə çatdırmışdır.

Hadi illər boyu öz xalqının, ümumən türklərin genetik bağlarının, soykökünün qədim və sağlam olması qənaəti ilə onların dünya xalqları arasında ən uca pillələrdən birində durmağa layiqliyi fikrini təbliğ, tərənnüm və təlqin etmişdir. Odur ki, AXC-nin ilk günlərində Gəncədə bacısının evində yaşayan M.Hadi Azərbaycan hökumətinin yenicə təsis etdiyi "Azərbaycan" qəzetinin təşkili və nəşrində fəal iştirak edir. Şairi Azərbaycan xalqının öz istiqlaliyyətinə gec-tez çatacağı inam və amalı daim həyata və mübarizəyə ruhlandırmaqla yanaşı, azadlıq yolunda düçar olduğu olmazın müsibətlər və faciələr, verdiyi çoxsaylı qurbanlar da daim düşündürürdü. O, bütün bu itkilərin və ardıcıl, inadlı mübarizənin müqabilində soydaşlarının azadlıq, istiqlaliyyət haqqının qələbə çalacağına inanırdı. Odur ki, qələmə alıb elə "Azərbaycan" qəzetinin orada (Gəncədə) çıxan 15 sentyabr 1918-ci il tarixli 1-ci nömrəsində çap etdirdiyi "Türkün nəğməsi" şeirində yazırdı:

*Türkün tökülən qanları bihudə gedərmi?*
*Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?*
*Dörd ildə verilmiş bu qədər can hədər olmaz,*
*Məfkurə yolunda tökülən qan hədər olmaz,*
*Qiymətli olan xuni-şəhidan hədər olmaz...*
*...Bədbəxt olan əfğani-yetiman hədər olmaz.*

Şeirdən göründüyü kimi, dörd il ərzində (müəllif Birinci Dünya müharibəsini nəzərdə tutur), türklər, o cümlədən Azərbaycan türkləri azadlıq və istiqlaliyyət məfkurəsi uğrunda qan tökür, şəhid verir, övrətlər dul, uşaqlar yetim qalır. Bütün bunlar həm də ona görə bihudə, yəni boş-boşu-

na gedə bilməz ki, onlar aydın məqsəd – azadlıq və istiqlaliyyət məfkurəsi yolunda tökülmüşdür. Odur ki, şair sözünə qətiyyətlə belə davam edirdi:

*Qan ilə qazandıq zəfəri, verməyiz əldən,*
*Xof eyləmədik atəşi-dəhhaşe dövəldən*
*Bir zərrə belə qorxmayırız dəsti-əcəldən,*
*İstərsə cahan çevrili, varsın da təməldən,*
*Türkün üzü çevrilməyəcək səmti-əməldən...*

Məhəmməd Hadinin dünyaya belə meydan oxumasının başlıca səbəbi həm də türklərin "atəşi-dəhhaşe-dövəldən", yəni türk dünyasının məhvi üçün ağzından dəhşətli alov püskürən dövlətlərdən belə qorxmayıb, ayağını yerə möhkəm dayayaraq məqsədinə çatmaq əzmi ilə zəfərlər qazanmasıdır. Hadi daxildən gələn qürur və cəsarətlə bəyan edir ki, lap dünya alt-üst olub, məhvərindən çıxsa da, türkün üzü "səmti-əməldən", öz amalı uğrunda irəliləməkdən çevrilməyəcək, o, geri dönməyəcək. Şairin sinəsini qürurla qabardan tarixən türklərin dizinin heç bir döyüşdə, o cümlədən istiqlal savaşında da titrəməməsidir. Bu qənaət onda belə bir dərin inam yaradırdı ki, dünya dövlətlərinin Birinci Cahan savaşında da türklər, türk ordusu qalib çıxacaq. Buna onun həm mənəvi, həm fiziki, həm də əqli imkanı var. Şair həmin fikirlərini Birinci Dünya müharibəsinin sonlarına yaxın – 1918-ci ilin 20 oktyabrında dərc etdirdiyi "İki simayi-siyasinin müharibə haqqında mütaliələri münasibətilə" *("Azərbaycan", 20 oktyabr 1918)* və "Zərbeyi-inqilab" *("Azərbaycan", 22 oktyabr 1918)* məqalələrində elmi-publisistik şəkildə ifadə edib.

Birinci məqalə iki siyasi simanın – Almaniya və İngiltərənin "hərbiyyə nazirləri"nin dünya müharibəsinin taleyi ilə əlaqədar söylədikləri mülahizələr üzərində qurulub. Burada M.Hadini Almaniyanın hərbi naziri, feldmarşal Kuçnerin belə bir fikri cəlb edir: "Bu təxribatlar dünya müharibəsində (Birinci Dünya müharibəsi nəzərdə tutulur – **A.B.**) hankı millətin, hankı müharib dövlətin ürvət və əshabı mətin və sağlam isə, o, zəfəryab olacaqdır".

Burada vətənpərvər mütəfəkkirin diqqətini cəlb edən "ürvəq və əshabı", yəni genetik əlaqə və bağları güclü olan xalqların, bütövlükdə millətlərin yarış və vuruş meydanı olan yer üzündə qalib, bu keyfiyyəti olmayanların isə məğlub və daim başqalarının tapdağında qalacağı qənaətidir. Buna görə o öz xalqının parlaq gələcəyinin təmini üçün həmin keyfiyyətlərə möhkəm sahib olmağın vacibliyini bildirir. Çünki bunsuz həyatda heç bir millət qalibiyyət və əmin-amanlıq qazana bilməz. Müəllif bildirirdi: "Öylə isə miləli-şümuli-hərb qarşısında qayətlə, qüvvətli və mətanətli bir mövcudiyyətlə durmalıyız ki, hüsara bir həyati-zəfərpərvəranəyə böhq-məzhər ola biləlim. Nasıl ki, böyük qardaşımız olan osmanlılar beş yaşına qədəm qoymuş şu müdhiş müharibeyi-əzimdə nə dərəcədə sağlam olduqlarını bütün mənasilə göstərmiş oldular və hərb davam etdiyi müddətdə də göstərəcək, səməreyi-müvəffəriyyətlərini də üqdə ifa eliyəcəklərdir. Bütün yar və əğyara isbat etmiş olacaqlardır ki, türklərin ürvət və əshabı heç bir zaman, heç bir hərbdə titrəmədi, titrəməyir və titrəməyəcəkdir".

Deməli, həyatda və mübarizədə qalib çıxmaq üçün qüvvət və mətanətə sahib olmalıyıq ki, hər bir güc qarşısında "böyük qardaşımız osmanlılar" kimi layiqincə dayanıb türk xalqlarının öz ləyaqət və şərəflərini qorumağa, nəticə etibarilə müstəqil yaşamağa qabil və layiq olduqlarını bütün dünyaya sübut edə bilək.

M.Hadi başa düşürdü ki, xalqın müstəqillik və azadlığı onun fiziki qüdrəti ilə yanaşı əqli və zehni qabiliyyəti ilə də qorunmalıdır. Bu bir həqiqətdir ki, ağıl və düşüncə ilə idarə oluna bilməyən güc öz sahibinə heç bir səmərə vermir. Ona görə müəllif – "Zərbeyi-inqilab" *("Azərbaycan", 22 oktyabr 1918)* adlı başqa bir məqaləsində göstərirdi ki, ulularımızın, müdrikləri-

mizin əsrlərin sınağından çıxan kəlam və nəsihətlərini mənimsəməli, onları həyata tətbiqetmə vərdişlərinə yiyələnməliyik ki, istiqbala, istiqlala sahib ola bilək. O, tarixə nəzər salaraq göstərir ki, əvvəllər bu təşəbbüsdə ola bilmədiyimiz üçün idrakımız boş qaldı və yeraltı-yerüstü sərvətləri, gözəl təbiəti ilə əvəzsiz olan Qafqazımızı – yaşadığımız müddətdə beşiyimiz, öləndə məzarımız olacaq vətənimizi düşmən taladı və indi də talamaqdadır. Axı bu rəngin və zəngin vətənimiz Qafqaz bizi öz isti qucağında bəsləyir ki, ona layiq olaq. Heç olmasa, indi nəticə çıxarıb hərəkətə gələk.

M.Hadini narahat edib qəlbən ağrıdan, soydaşlarının qəflətdə qalaraq nəinki əcdadlarının, hətta çağdaşları olan ziyalı vətənpərvərlərin belə səslərini eşidə bilməmələri mənəvi qəflətidir. O, irşad  sözünü həm qəzetin adı kimi, həm də lüğəvi – yolgöstərən mənasında alaraq, təəssüf və vətəndaş yanğısı ilə bildirirdi ki, ulularımızın və ziyalılarımızın parlaq fikirləri belə fikrimizi və beynimizi oyada, bizə yol göstərə bilmədi. Odur ki, M.Hadi soydaşlarını, "gec də olsa", heç olmasa, "bundan sonra" ayıqlığa, fəallığa, mətanət və mübarizliyə, vətənin laləzara çevrilməsi yolunda çarpışmalara çağıraraq, fikrinə belə davam edirdi: "Bilməyənlər var isə bilsinlər, ögrənsinlər ki, Qafqasiya pək çox sərvətdar bir vətəni-müqəddəsdir. Fəqət, heyhat ki, kiseyi-idrakımız boş, əfkarımız yoxsuldur. ...Qafqasiyadan behəqqi istifadə edə bilmək üçün kiseyi-idrakımızı mərifət sərvətilə, fənn sərmayəsi ilə doldurmalıyız".

M.Hadi bu məhsuldar, zəngin və səfalı, səxafətli diyara, vətənimiz Qafqaza əsl sahibi-ixtiyar hüququnu qazanmaq üçün düşüncə kisəmizi, beynimizi mərifət sərvəti, elm, fənn sərmayəsi ilə doldurmağa, daha doğrusu, elmi biliklərə yiyələnib, dünyanın, həyatın gedişatından baş çıxarmağa, xeyir və şərini anlayaraq fəal, ayıq, mübariz, mətin, dönməz olmağa çağırır, fikrini belə yekunlaşdırırdı: "Nəsihət kövsərləri bizi ayıltmadı isə də, barı içində qovrulduğumuz müsibət atəşləri, inqilab zərbələri bizi bidar və huşiyar etsin..."

Məhz bu düşüncə və narahatlıqların nəticəsidir ki, 1918-ci il sentyabrın 15-də Bakı düşmənlərimizdən azad edilib, qanuni və hüquqi paytaxtımız olanda Hadi türk xalqlarının öz milli şərəf və ləyaqətini əzm və mətanətlə qoruyub, düşmənə qalib gəlməsi münasibətilə yazdığı "Zəfərinəhayəyə doğru" *("Azərbaycan", 6 oktyabr 1918)* şeirində həmin qələbəni vəcdlə, poetik pafosla belə tərənnüm edirdi:

*Mərd olan əsgərligi təqdir edər əzyan ilə,*
*Əsgər olmaq fərzdir hər möminə “Quran” ilə.*
*Əsgər olmaq bir şərəfdir türk üçün, islam üçün,*
*Əsgəriyyətlə yaşar millət həyatı şan ilə.*
*Ən işıq bir ömr istərsək günəş altında biz,*
*Durmalı iddiayə qarşı qeyrəti-rəxşan ilə.*
*Daima türk oğlu hifz etmişdir öz namusunu,*
*Əldəki süyfu-şücaət, dildəki iman ilə.*

Deməк, əsl kişi əsgər olmağı özünə şərəf bilməlidir. Çünki vətən və milləti qoruyan, onun şərəfini uca saxlayan qüvvə əsgərdir, ordudur. Təsadüfi deyil ki, bu kainatda, günəş altında işıqlı, xoşbəxt bir ömür sürmək istəyən hər bir fərd və xalq onun varlığına, hüququna təcavüz edən hər hansı bir qüvvəyə, cəbrə qarşı rəşadət və mətanətlə, əzmkarlıqla durmağı bacarmasa, daim tapdaq altında qalmağa məhkumdur. Hadi fəxr və sevinclə bildirir ki, türk oğlu öz namusunu əldəki sıyrılmış qılınc, dildəki iman, ədalətlə daim hifz edib, qoruyubdur. Odur ki, onlar dünya atəşə dönsə də, qorxmurlar. Çünki döyüşdə bərkiyiblər.

M.Hadini vəcdə gətirən bir də türkün, Azərbaycanın yüksələn hilalının bütün Şərq aləminə bir nur bəxş edəcəyi inamıdır. Odur ki, o, millətin və vətənin səadəti yolunda ölümlə qarşılaşsa belə, yenə əzmlə, sevinclə, gülər üzlə yoluna davam edəcəyini bəyan edir.

Şair inanırdı ki, vətəninin və xalqının azadlığı, səadəti və işıqlı istiqbalı yolunda çalışıb gedən qurbanların adı əbədi, diri olmaqla, ruhları "behişti-əlada"dır. O, "A.Səhhətin üfuli əbədisi" *("Azərbaycan", 18 noyabr 1918)* məqaləsində ermənilər tərəfindən törədilən Şamaxı soyqırımı nəticəsində öz ev-eşiyindən didərgin düşüb Gəncədə ağır bir vəziyyətdə vəfat edən A.Səhhətin yoxluğunu ədəbiyyatımız üçün bir boşluq hesab edirdi. Ancaq şair dostunun "əsəri-qələmiyyəsinin, sərvəti-fikriyyəsinin" əbədiliyinə inanırdı. Həmin fikri o, 1918-ci ildə Bakıda daşnak-bolşevik qüvvələri tərəfindən törədilən mart qırğınlarının və azadlığımız uğrunda mübarizə qurbanlarımızın xatirəsinə həsr etdiyi 31 mart 1919-cu il tarixli "Şühədayi-hürriyyətimizin ərvahına ithaf" şeirində belə əsaslandırırdı:

*...Müəbbədən diridir namınız bu dünyada,*
*Sizin də ruhunuz uçsun behişti-əlada.*
*Bizi xilas edərək pənceyi-əsarətdən,*
*Nicatbəxş olaraq dəsti-əhli vəhşətdən,*
*Çəkildiniz əbədi xüldzari-rəhmanə,*
*Behişti-rəhmətə, yəni diyari-rəxşanə.*
*O xuninizlə açıldı bəhari-hürriyyət,*
*Sizin də yurdunuz olsun behişti-ülviyyət.*

Bütün bu şərəf və ləyaqətə şəhidlər ona görə layiqdirlər ki, millətimiz məhz onların şücaətləri sayəsində "şərəfli istiqlal, həyati-püriqbal bulub..." Lakin qanımıza susayan bədxahlar Azərbaycan türklərinin bu cavan istiqlal quşunun qol-qanadını qırıb, özünü məhv etmək üçün dünyanı heyrətdə qoyan vəhşiliklərə əl atır, milli müqəddəratımızı və vətənimizi daim təhdid edirlər.

M.Hadi bütün aydınlığı ilə dərk edirdi ki, istiqlalın əldə edilməsi hələ işin hamısı deyil. Bu istiqlalı qeyrət və mətanətlə qorumaq gərəkdir. Odur ki, üzünü vətən oğullarına tutaraq "Əsgərlərimizə, könüllülərimizə" *("Azərbaycan", 22 nisan (aprel) 1919)* şeirində yazırdı:

*Millətin namusu sizdən çox şücaət gözləyir,*
*Dövləti-növzadi-milli qalibiyyət gözləyir,*
*Bəkləyir sizdən zəfər atimiz, istiqlalımız,*
*Şanlı qeyrət, şanlı hikmət, şanlı cürət gözləyir.*
*Bir baxın nisvani-iffətpərvəri millimizə,*
*Dideyi-ümmid ilə sizdən həmiyyət gözləyir.*
*Payimali-düşmən olsunmu çəmənzari-vətən?!*
*Yurdumuz sizdən bu gün çox ali himmət gözləyir.*

İnsan övladında vətən torpağına hədsiz bağlılıq xisləti yaranışdan hakim kəsilib. Bu hiss həyatın sonrakı mərhələlərində daha da möhkəmlənir və İNSAN vətən torpağı uğrunda fədakarlıq edir. Bu, həyatın qanunudur. Belə ki, vətən torpağını qoruyan insan, əslində, öz varlığını qoruyur. Çünki həmin varlıq elə vətən torpağıdır. Axı insan varlığının bütün mayası vətən torpağı, ana yurdun şəhdi-şirəsidir. O, həmin torpaqdan çıxan nemətlərlə, deməli, torpağın özü ilə qidalanıb ərsəyə çatıb. Axırda da həmin torpaq (yəni insan) başqa şəkildə özünə qayıdır. Yəni vətən torpağından yaranıb onu qoruyan, abadlaşdıran varlıq, insan axırda həmin torpağa qayıdıb

vətənləşir. Bizcə, insanın torpağa, vətənə bağlılıq hissi dünyanın bu əzəli və əbədi qanunundan mayalanır. Vətən torpağının, millətin şərəf və ləyaqətinin, milli dövlətin varlığının yağılardan qorunmasının vacibliyini söyləyib yurddaşlarını həmin şərəfli vəzifəni yerinə yetirməyə çağıran şair onların bu amal uğrundakı mübarizədə əzm və mətanətlərini artırmaq üçün belə bir fikri təlqin edir ki:

*İlk cəhdin ilə son yerin ağuşi-vətəndir,*
*Xaki vətənin, bilməlisən, mayeyi-təndir.*
*Gülzari-vətən cənnət, həp qönçədəhandır,*
*Ziruh çiçəklər yaradan işbu çəməndir.*
*Hifz etməyə bu gülşəni qurban bədəndir,*
*Rüxsareyi-gülrəngi-əməl rövşəni-şəndir;*
*Amalımıza doğru şitaban olalım, gəl!*
*Millətlə vətən rahinə qurban olalım, gəl!*

M.Hadi bu alovlu çağırışları onunla əsaslandırır ki, vətəni azad olmayan millət öz varlığını qoruyub yaşaya bilməz. Ona görə də vətənə sevgimizi əməlimizlə sübut etməli, haqqımızı almalıyıq.

Şair başa düşürdü ki, bütün bu vəzifələri həyata keçirmək üçün millətin başında ləyaqətlə durub onu təmsil etməyə qadir olan bir dövlətin olması da zəruridir. Bunsuz bütün cəhdlər uğursuzluğa düçar olmağa məhkumdur. Odur ki, iki hissədən ibarət "Məfkureyi-aliyyəmiz. Azərbaycan dövləti növzadına" *("Azərbaycan", 3 aprel 1919)* adlı şeirində gənc Azərbaycan dövlətini xalq və vətənin şərəf və ləyaqətini lazımınca təmsil etməyə çağırırdı:

*Qaldır səmayi-şövkətə nəcmü-hilalını,*
*Göstər bu ərzin əhlinə qayeyi-cəlalını!*
*İsbat qıl həyatını, əqvami-aləmə,*
*Bəxş eylə bir həyati-nuyin şərqi-əzimə!*
*Əzmü nəbatın ilə görün, düşmən ağlasın,*
*Millət yüzində xəndeyi-ümmid parlasın!..*

Millətin, dövlətin və vətənin işıqlı gələcəyi, xoşbəxt sabahı, bu sabaha çıxmaq üçün qarşıda duran vəzifələrin dərki və onların həyata keçirilməsinin vacibliyi M.Hadini düşündürən problemlər olmuşdur. Şair artıq keçmişi yad, romantik gələcəyi vəsf etməklə qalmayıb, reallıqdan çıxış edərək, onillərlə bəslənən arzuya, uğrunda mübarizə aparıb qanlar tökülən amala çatmağın və qazanılmışların, milli müstəqilliyin, dövlətçiliyin möhkəmləndirilməsinin yollarını da göstərməyə çalışırdı. O, cümhuriyyətin ilk aylarında, ölkədaxili sabitliyin və istiqlaliyyətin hələ qarışıq, xalqın güzəranının isə ağır olduğu dövrdə dərin narahatlıq hissi keçirirdi. Odur ki, həmin günlərdə çap etdirdiyi "Həyati-hazirəmizin ilhamları" *("Azərbaycan", 19 təşrini-sani, 1918)* şeirində "bütün dünyanın başdan-başa sanki kölgəyə bürünməsi, üzlərdə ümidsizlik və matəm görkəminin nümayan olmasını" görərək, vicdan əzabı çəkirdi.

M.Hadi vəziyyətdən çıxış yolunu bədbinlikdən uzaq olmaqda, gələcəyə nikbin gözlə baxmaqda, ruh yüksəkliyini və həyat eşqini qoruyub saxlamaqda görürdü. Odur ki, həmin şeirdən cəmi bir həftə sonra qələmə aldığı məqaləsinə "Ümid ilə yaşayın!" *("Azərbaycan", 25 təşrini-əvvəl, 1918)* başlığı qoyaraq fikrinə belə davam edirdi: "Ümid ölməməlidir. Məazüllah, ümidimiz ölərsə, yas dirilir, yas dirilərsə, bizi boğar! Binayi-aliyə parlaq bir ümid ilə istiqbala baxmalı, bizi boğmaq istəyən yası biz özümüz boğmalıyız".

M.Hadi həmvətənlərini Birinci Cahan müharibəsinin sona yaxınlaşması ilə əlaqədar dünya siyasətində baş verib, Azərbaycanın da ictimai-siyasi və milli-tarixi müqəddəratına təsir edən dəyişikliklər qarşısında sarsılıb öz iradi keyfiyyətlərini itirməməyə, bizi boğmaq istəyən yası özümüzün boğmağımıza çağırır. Sonra dünyada gedən proseslərdə ilk baxışda gözlənilməz hadisə və vəziyyətlərin üzə çıxmasını təbii və mümkün hesab edərək göstərirdi ki, "arzularımızın xilafına olaraq törəyən şu hallar əzmi-xüruşanımızı dayandırmamalıdır. Belə ki, daha da bizə mətanəti-qəlbiyyə bəxş etməlidir". O, Ç.Darvinin təbii seçmə qanununa istinad edərək həyatda yalnız "yaşamağa layiq olanların yaşaya biləcəyini" nəzərə çatdırıb, bizi yaşamağa layiq olduğumuzu öz işimizlə sübut etməyə ruhlandırır, eyni zamanda, bunun üçün cəmiyyətin inkişaf qanunlarından və dövlətlərin siyasət işlərindən baş açmağa çalışmağımızın da xüsusi əhəmiyyət daşıdığını göstərib xəbərdarlıq edirdi ki: "Yas ruhun ölümü, ümid isə ruhun həyatıdır. Siyasəti-milliyyə nə simada görülürsə-görülsün, ancaq millətimizdəki çöhreyi-ümid yasdar olmamalıdır".

Bütün bu izahatlardan sonra M.Hadi üzünü həmvətənlərinə tutub deyirdi ki, uğrunda mübarizə apardığımız amala, işıqlı sabaha çatmaq üçün "ümmidi-iqbal və istiqbal ilə yaşayalım, qardaşlar!" Şairin qəti qənaətinə görə: "İstiqbal məyusi-həyat olanların deyil, qırılmaz və ölməz bir ümid ilə çalışanlarındır".

M.Hadinin bütün bu şair-vətəndaş narahatlıqları bütövlükdə dövrün ictimai-ədəbi fikrinin mövqeyini ifadə etməsi ilə qiymətlidir. O, bir tərəfdən "türkün tökülən qanlarının bihudə" getməyib, nəticə verəcəyindən yazır, bir tərəfdən vətəndaşları həyatda ümid və inamla yaşamağa çağırır, bir tərəfdən əsgərlərimizi və dövlətimizi vətəni, qazanılmış istiqlaliyyəti qorumağa səsləyir, öz soydaşlarının, türk xalqlarının qüvvətli, mətanətli və dəyanətli olub, azad yaşamağa haqqı çatdığına oxucularını inandırmağa çalışır, digər tərəfdən də bütün bunlara nail olmağın yollarını və üsullarını göstərərək, hər şeydən əvvəl elmi biliklərə, bəşəriyyətin idrak xəzinəsinin açarlarına sahib olmağın vacibliyini xüsusi olaraq nəzərə çatdırırdı. Çünki şairin qəti qənaətinə görə, dövlətin və millətin tərəqqisi onun fəallığından, əqli və elmi qüdrətindən, əzmkarlığından, işıqlı sabaha bəslədiyi ümid və inamını qoruyub saxlamaq bacarığından da asılıdır.

Əbdülsəlimzadə Məhəmməd Hadi öz xalqının – Azərbaycan türkünün və ümumən türk millətinin qüdrət və qabiliyyətinə inanaraq belə bir xalqın oğlu olması ilə həmişə fəxr edib. Lakin tarixin müəyyən dolaylarında soydaşlarının "büdrəmələrini", özünə tarixin layiqli səhnəsində yer edə bilmədiyini görəndə bir vətəndaş kimi qəlbən ağrıyaraq onları ayıqlığa, öz şərəfini qorumaq uğrunda zəfərli yürüşlərə səsləyib. Tarix səhnəsində qələbələrimizi görəndə vəcdə gəlib. Vətənin istiqlalı, istiqbalı, xoşbəxt gələcəyi və müstəqilliyi, firavanlığı uğrunda atılan hər bir addımın gələcək nəslə və vətənimizə nurlu sabah bəxş edəcəyinə inanıb. Bu gün bu inam bizim yol yoldaşımız, mübarizə dayağımız olmalıdır.

***Alxan BAYRAMOĞLU,***
*filologiya üzrə elmlər doktoru, professor*

# Dost sözü, oxucu arzusu


AzerGold



**Əli ƏHMƏDOV,**
*Azərbaycan Respublikası*
*Baş nazirinin müavini,*
*Yeni Azərbaycan Partiyasının*
*sədr müavini-icra katibi*

# "Azərbaycan" milli mətbuatımızın şanlı ənənələrinin bayraqdarıdır

*"Azərbaycan" qəzetinin kollektivinə*

Müasir tariximizin ən şanlı, cahanşümul hadisələrinin canlı şahidi və möhtəşəm salnaməsi "Azərbaycan" qəzetinin təsis edilməsinin 100 illiyi münasibətilə onun yaradıcı kollektivini və çoxsaylı oxucularını təbrik etməkdən xüsusi məmnunluq duyuram.

Azərbaycan Xalq Cümhuriyyətinin həmyaşıdı və yadigarı olan "Azərbaycan" qəzeti ölkəmizin mədəniyyət tarixinin əhəmiyyətli hissəsini təmsil edir. Əlamətdar haldır ki, dövlət müstəqilliyinin hər iki dövründə rəsmi dövlət qəzeti statusu daşıyan "Azərbaycan" milli mətbuatımızın şanlı ənənələrinin bayraqdarı olmuş, dövlətçilik mənafeyinin qorunması, müstəqillik və cümhuriyyət ideallarının təbliği prosesində müstəsna xidmətlər göstərmişdir.

100 il öncə Azərbaycan Xalq Cümhuriyyətinin mətbuat tribunası kimi fəaliyyətə başlayan "Azərbaycan" yalnız dövlət qəzeti missiyasını daşımamışdır. Dövrünün ən nüfuzlu nəşri olaraq görkəmli ictimai-siyasi xadimləri, fikir adamlarını, bu gün də qürur mənbəyimiz olan vətənpərvər ziyalıları ətrafına toplamış, istiqlal məfkurəsinin mərkəzi, ideoloji dayağı kimi tanınmışdır. Təsadüfi deyildir ki, cümhuriyyət dövrünün araşdırmaçıları o illərin tarixi proseslərini öyrənərkən ən dəqiq, obyektiv və qərəzsiz mənbə kimi məhz "Azərbaycan"ın arxiv nömrələrinə müraciət edirlər.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı zamanı Qurtuluş missiyasının əsas təbliğat və təşviqatçılarından olan "Azərbaycan" bütün zamanlarda ümummilli liderin ideyalarına sonsuz sədaqətlə xidmət göstərmiş, bu irsin milli dövlətçilik konsepsiyasına çevrilməsi prosesində ardıcıl və qətiyyətli mövqe nümayiş etdirmişdir. Ölkədə gedən ictimai-siyasi proseslərə obyektiv və prinsipial yanaşmaları ilə ictimaiyyəti düzgün məlumatlandıran və maarifləndirən, həmçinin genişmiqyaslı quruculuq və inkişaf mərhələsinin mahiyyətini, qarşıda duran vəzifələrin məsuliyyətini vətəndaşlarımıza operativ, dövlətçilik mövqeyindən çatdıran "Azərbaycan" qəzetinin fəaliyyətinə, fikrimcə, ən düzgün qiyməti də məhz böyük şəxsiyyət Heydər Əliyev vermişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran "Azərbaycan" qəzeti xalqımızın 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatla-

rın həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır".

Ulu öndər respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında qəzetin fəaliyyətini yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaşlıq mövqeyi kimi dəyərləndirmişdir.

Tarixinin ən qüdrətli müstəqillik və əzəmətli tərəqqi dövrünü yaşayan Azərbaycanda ölkəmizin adını daşıyan qəzetin də üzərinə böyük məsuliyyət və vəzifələr düşür. Çox sevindiricidir ki, bu məsuliyyət lazımınca dərk edilir, yüksək peşəkarlıq və yaradıcılıqla icra olunur. Prezident İlham Əliyev tərəfindən son 15 ildə həyata keçirilən möhtəşəm quruculuq və inkişaf dövrünün misilsiz nailiyyətləri "Azərbaycan"ın səhifələrində, onun konseptual və fundamental araşdırmalarında geniş və əhatəli şəkildə əksini tapır, maraqlı, rəngarəng yazılarda və fotoşəkillərdə əbədiləşir, tarixə çevrilir.

"Azərbaycan" qəzetinin 100 yaşının tamam olması hər birimizdə böyük qürur, iftixar hissi doğurur. Qəzetin yaradıcı kollektivinə xitabən demək istəyirəm ki, siz bu yaşa böyük yaradıcı nailiyyətlərinizlə, cəmiyyətdə qazandığınız yüksək nüfuzla, oxucuların sevgisi ilə qədəm qoyursunuz. Əminəm ki, xalq cümhuriyyətinin yadigarı və müasir inkişafın salnaməçisi olan "Azərbaycan" qəzeti qarşısına qoyulan bütün yaradıcı hədəflərə çatacaq, müstəqilliyimizin, dövlətçiliyimizin, Heydər Əliyev ideallarının təbliğində yeni, daha böyük uğurlara imza atacaqdır.

Cümhuriyyət yaşın mübarək, "Azərbaycan"!



**Əli HƏSƏNOV,**
*Azərbaycan Respublikası*
*Baş nazirinin müavini,*
*Yeni Azərbaycan Partiyasının*
*sədr müavini*

# "Azərbaycan" qəzeti vətənpərvərlik ruhunun aşılanmasında və dövlətçilik ideyalarının təbliğində önəmli yer tutur

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Doğma vətənimiz, müstəqil Azərbaycanımızın adını daşıyan və 100 illiyini qeyd etdiyimiz xalq cümhuriyyətinin həmyaşıdı olan "Azərbaycan" qəzetinin bir əsrlik yubileyi münasibətilə Sizi və peşəkar redaksiya kollektivinizi səmimi-qəlbdən təbrik edirəm.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli mətbuata xüsusi diqqət və qayğının bariz nümunəsini biz bu gün sevə-sevə oxuduğumuz "Azərbaycan"ın timsalında bir daha görürük. Möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə redaksiya əməkdaşlarının yüksək dövlət təltiflərinə layiq görülməsi və baş redaktor kimi Sizin "Şöhrət" ordeni ilə təltif edilməyiniz məhz bu diqqət və qayğının təzahürüdür.

Hər gün ölkənin ictimai, siyasi, iqtisadi və mədəni həyatına dair yeni-yeni xəbərlərlə, maraqlı məqalələrlə oxucuların görüşünə gələn qəzet vətənpərvərlik ruhunun aşılanmasında önəmli yer tutur, vətəndaşlar arasında yüksək dövlətçilik ideyalarının təbliği yolunda var qüvvəsi ilə çalışır. Ötən əsrin əvvəllərində fəaliyyətini erkən dayandıran qəzet əsrin sonlarında yenidən işıq üzü görərək, Azərbaycanda milli oyanış hərəkatının yeni dalğasının başlanmasında özünəməxsus rol oynamağa başladı.

Respublikamızda müstəqil dövlət quruculuğu, demokratik inkişaf, Qarabağ problemi, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizələr, bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımızın sosial problemlərinin həlli kimi mühüm mövzuları daim diqqət mərkəzində saxlayan "Azərbaycan" qəzeti xalqın həyatı ilə yaşayaraq, onun uğurlarını və qayğılarını hər zaman obyektivcəsinə işıqlandırmağa nail olmuşdur.

Vətən oğullarının düşmən üzərində şanlı qələbələrindən biri kimi Aprel döyüşləri zamanı əks-hücum əməliyyatı aparan hərbi hissələrimizin mühüm mövqelərə sahiblənməsi, Lələtəpə yüksəkliyinin ələ keçirilməsi, nəticədə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyinin təmin olunması ordumuzun gücünün, xalqla Prezident və ordunun birliyinin, vətənpərvərliyin göstəricisi kimi tarixə qızıl hərflərlə həkk olunmuşdur. O tarixi hadisədən dərhal sonra hörmətli Prezidentimiz cənab İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən çox

qısa müddətdə Cocuq Mərcanlı kəndinin bərpası və həmin ərazidə Şuşa məscidinin bənzərinin tikintisi, dövlət başçısının işğaldan azad olunmuş ərazilərin məskunlaşmasına göstərdiyi xüsusi qayğısı, düşmənə bir qarış belə torpaq güzəşt edilməyəcəyi barədə qətiyyətli və prinsipial mövqeyi ümumiyyətlə xalqına, dövlətinə və vətən torpaqlarına olan münasibətinin bariz nümunəsidir.

Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı cənab Prezidentin tapşırığı ilə "İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" kitabının hazırlanmasında Sizin xüsusi rolunuza, kitabın təqdimatı mərasiminin təşkilindəki zəhmətinizə görə və həmin kitabın həm Azərbaycan oxucularının, həm də bütün dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında göstərdiyiniz köməyə görə bir daha Sizə təşəkkürümü bildirirəm.

Bunlardan əlavə, dövlət başçısının 15 illik fəaliyyəti dövründə qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə ümumilikdə 3,6 mln. kv.m sahəsi olan 58 min mənzilli 101 müasir tipli qəsəbə və yaşayış komplekslərinin tikilib bilavasitə onun rəhbərliyi ilə istifadəyə verilməsi bir daha hörmətli Prezidentimizin bütün vədəndaşlara, xüsusilə də qaçqın və məcburi köçkünlərə olan qayğısının canlı təzahürüdür. Bu sahədə görülən bütün işləri məhz nüfuzlu "Azərbaycan" qəzetinin yaradıcı əməkdaşları Sizin rəhbərliyiniz ilə vaxtlı-vaxtında öz məqalələrində ictimaiyyətin diqqətinə çatdırmışdır.

Yüksək vətənpərvərlik hislərinizə, vətən torpağına sıx bağlılığınıza, düz, açıq sözlü, sənətini sevən təcrübəli jurnalist olduğunuza görə dərin təşəkkürümü bildirir, Siz başda olmaqla bütün peşəkar, fədakar kollektivinizi "Azərbaycan"ın 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, şərəfli işinizdə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.



**Ramil USUBOV,**
*Azərbaycan Respublikasının*
*daxili işlər naziri, general-polkovnik*

# "Azərbaycan"ın yubileyi dövlətçilik tariximizin əlamətdar hadisələrindəndir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Milli mətbuatın flaqmanı, ölkəmizin müstəqilliyinin yaşıdı olan "Azərbaycan" qəzetinin 100 illiyi son bir əsrlik dövlətçilik tariximizin əlamətdar hadisələrindən biridir.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış bu qəzet nəşr olunduğu qısa dövr ərzində görkəmli ziyalıların, ictimaiyyət nümayəndələrinin tribunasına çevrilmiş, milli-mənəvi dəyərlərin qorunmasında önəmli rol oynamışdır.

Ötən əsrin sonlarında nəşri bərpa olunmuş "Azərbaycan" qəzetinin fəaliyyətində məhz ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra əsaslı dönüş yaranmış və qəzet öz dəyərli ənənələrini davam etdirmişdir. Ulu öndərin azərbaycançılıq və milli dövlətçilik konsepsiyasının, habelə möhtərəm Prezident İlham Əliyevin respublikamız haqda həqiqətlərin dünyaya çatdırılmasına, onun demokratik imicinin yüksəldilməsinə, müstəqilliyinin möhkəmləndirilməsinə yönəlmiş siyasi kursunun fəal təbliğatçısına çevrilmiş və bu gün də daşıdığı yüksək ideallara sədaqət nümayiş etdirir. Rəhbərlik etdiyiniz yaradıcı kollektiv peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərini rəhbər tutaraq Azərbaycanın tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması və digər sahələrdə həyata keçirilən dövlət siyasətinin təbliğində mühüm rol oynayır. Eyni zamanda, ölkəmizin maraqlarına, ictimai-siyasi sabitliyin, əmin-amanlığın pozulmasına, dövlətin konstitusion əsaslarına, milli həmrəyliyə qarşı yönəlmiş təxribat cəhdlərinə hər zaman öz kəsərli, prinsipial və obyektiv mövqeyi ilə cavab verir.

Əlamətdar yubiley münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Sizin "Şöhrət" ordeninə layiq görülməniz, habelə bir qrup əməkdaşın digər dövlət mükafatları ilə təltif olunması Zati-alilərinin qəzetin bütün əməkdaşlarına ali diqqətinin və qayğısının təzahürü, əməyinizə verilən yüksək qiymət olmaqla daxili işlər orqanlarının şəxsi heyətini də ürəkdən sevindirir.

"Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz yaradıcı kollektivin hər bir üzvünü səmimi-qəlbdən təbrik edir, cansağlığı, ailə səadəti və xoşbəxtlik, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.



**Şahin MUSTAFAYEV,**
*Azərbaycan Respublikasının iqtisadiyyat naziri*

# "Azərbaycan" qəzeti xalqa, dövlətçiliyə və Prezidentə möhkəm bağlılığı, sədaqəti ilə ən ön mövqedədir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Azərbaycan mətbuatında özünəməxsus yeri və dəst-xətti ilə seçilən "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və qəzetin yaradıcı heyətini İqtisadiyyat Nazirliyi adından təbrik edirəm.

Ümummilli lider Heydər Əliyev ölkəmizdə söz və mətbuat azadlığına böyük önəm vermiş, medianın inkişafını daim diqqətdə saxlamışdır. Ulu öndərin hərtərəfli inkişaf strategiyasını böyük uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hazırda güclü iqtisadi potensiala malik olan və davamlı inkişaf edən Azərbaycanda digər sahələrlə yanaşı, kütləvi informasiya vasitələrinin inkişafına da hərtərəfli dövlət dəstəyi göstərilir.

İlk sayı 100 il əvvəl – Azərbaycan Xalq Cümhuriyyəti dövründə işıq üzü görən "Azərbaycan" qəzeti bütün fəaliyyəti dövründə "Əkinçi"dən başlanan yola şərəflə xidmət edir, ölkəmizin mütərəqqi mətbuat ənənələrini layiqincə yaşadır. Rəsmi dövlət qəzeti statusunu daşıyan və ölkənin əsas nəşri hesab olunan "Azərbaycan" qəzeti dövlət və vətəndaş mövqeyindən çıxış edir, xalqa və dövlətçiliyə, Azərbaycan Respublikasının Prezidentinə möhkəm bağlılığı, sədaqəti ilə ən ön mövqedədir. Fəaliyyətini tarixi ənənələr üzərində quran, qarşıya qoyduğu prinsipial hədəflərə sadiqlik nümayiş etdirən "Azərbaycan" qəzeti peşə meyarlarına tələbkar münasibəti, ölkədə və beynəlxalq aləmdə cərəyan edən hadisələrə operativ yanaşması və ətraflı təhlilləri ilə digər KİV-dən seçilir. Qəzetin hazırladığı xəbərlər və analitik materiallar cəmiyyətimizin tərəqqisinə, qloballaşan dünyada milli-mənəvi dəyərlərimizin, milli maraqlarımızın qorunmasına, dövlətimizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini verir.

Qəzetin peşəkar kollektivi tərəfindən digər sahələrdə olduğu kimi, Azərbaycan iqtisadiyyatının inkişafına, bu sahədə aparılan genişmiqyaslı islahatlara və həyata keçirilən layihələrə dair mütəmadi olaraq qəzetdə dərin təhlilə əsaslanan sanballı materiallar dərc olunur, İqtisadiyyat Nazirliyi ilə səmərəli əməkdaşlıq həyata keçirilir.

Əminik ki, hamımızın doğma qəzeti, etibarlı informasiya mənbəyimiz olan "Azərbaycan" qəzeti qazandığı nüfuzu ilə daim milli mətbuatımızın önündə olacaq, əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Sizi, "Azərbaycan" qəzetinin peşəkar kollektivini və çoxminli oxucularını qəzetin 100 illik yubileyi münasibətilə bir daha təbrik edir, yeni uğurlar arzulayıram.



**Fikrət MƏMMƏDOV,**
*Azərbaycan Respublikasının ədliyyə naziri,*
*I dərəcəli dövlət ədliyyə müşaviri*

# "Azərbaycan" müstəqillik ideyalarının təbliğində mühüm rol oynayır

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunduğu 2018-ci il bir çox tarixi hadisələrlə zəngin olmaqla, həm də istiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi ilə əlamətdardır.

Bu münasibətlə Sizi və qəzetin bütün kollektivini səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.

Mətbuat tariximizin şanlı səhifələrindən olan "Azərbaycan" qəzeti cümhuriyyət dövründə müstəqillik ideyalarının, azadlıq və istiqlal məfkurəsinin təbliğində layiqli xidmətlər göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin KİV-lərin inkişafına dövlət dəstəyi bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkədə söz və mətbuat azadlığı təmin olunur, redaksiyalara maliyyə yardımları ayrılır, jurnalistlərin sosial müdafiəsi gücləndirilir. Dövlətin diqqət və qayğısı ilə daim əhatə olunan "Azərbaycan" qəzeti də ulu öndərin yüksək amallarına sadiq qalaraq səhifələrində hüquqi dövlət quruculuğu, vətənpərvərlik və azərbaycançılıq ideyalarını təbliğ edir, dövlət əhəmiyyətli tədbirləri, ictimai-siyasi hadisələri, ölkədə həyata keçirilən hərtərəfli islahatları işıqlandırmaqla geniş maarifləndirmə işi aparır.

Müasir mətbuatımızda özünəməxsus dəst-xətti ilə seçilən bu nüfuzlu rəsmi dövlət qəzetinin ictimai maraq doğuran məsələlərə, vətəndaşların problemlərinin həllinə dair analitik təhlilləri, müxtəlif aktual mövzularla bağlı peşəkar jurnalist qələmindən çıxan mötəbər yazıları cəmiyyətimiz tərəfindən maraqla oxunur.

"Azərbaycan" qəzetinin səmərəli xidmətləri daim qiymətləndirilərək bu ərəfədə Sizin "Şöhrət" ordeni ilə təltif olunmağınız və bir qrup əməkdaşınızın fəxri adlara və medallara layiq bilinməsi dövlət başçısının qəzetin fəaliyyətinə diqqət və qayğısının əyani təzahürüdür.

Geniş oxucu auditoriyası olan "Azərbaycan" qəzetində ədliyyə fəaliyyətinin mütəmadi işıqlandırılması əhalinin hüquqi maariflənmdirilməsinə xidmət edir.

Hörmətli Bəxtiyar müəllim!

Əlamətdar yubiley münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə və peşəkar kollektivinizə uğurlu fəaliyyət və yeni-yeni nailiyyətlər diləyirəm.



**Mikayıl CABBAROV,**
*Azərbaycan Respublikasının vergilər naziri*

# Prezident İlham Əliyevin qəzetinizə münasibəti "Azərbaycan"a verilən ən yüksək qiymətdir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza qoyub getdiyi irsi və bəşəri dəyərlərdən biri olan "Azərbaycan" qəzeti ölkəmizdə maarifçiliyin və milli-mənəvi dəyərlərin təbliğinə, milli mətbuatın inkişafına, milli dövlət quruculuğu prosesinə əvəzsiz və böyük töhfələr verib.

Rəhbərlik etdiyiniz kollektiv bu gün də ölkəmizdə söz və məlumat azadlığının təmin edilməsi, vətəndaş cəmiyyətinin formalaşması, dövlətimizin qarşısında duran ümummilli məsələlərin həlli, hökumətin ölkəmizin sosial-iqtisadi tərəqqisi istiqamətində fəaliyyətinin obyektiv şəkildə Azərbaycan ictimaiyyətinə çatdırılması üçün səylə çalışır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qəzetin kollektivinə təbriki və onun əməkdaşlarını təltif etməsi, hesab edirəm ki, sizin fəaliyyətinizə verilən ən yüksək qiymətlərdən biridir.

İcazə verin Sizi "Şöhrət" ordeni, qəzetin kollektivinin ayrı-ayrı üzvlərini "Tərəqqi" medalı və "Əməkdar jurnalist" fəxri adları ilə təltif olunması münasibətilə ürəkdən təbrik edim, Sizin simanızda "Azərbaycan" qəzetinin kollektivinə cansağlığı, çətin və şərəfli peşənizdə uğurlar arzulayım.



**Əbülfəs QARAYEV,**
*Azərbaycan Respublikasının*
*mədəniyyət naziri*

# "Azərbaycan" qəzeti çağdaş mətbuatımızda özünəməxsus mövqeyə, böyük nüfuza malikdir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı və yadigarı, milli mətbuatımızın inkişafında özünəməxsus yeri olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi-qəlbdən təbrik edirəm.

1918-ci il sentyabrın 15-də mətbuat tariximizdə ilk rəsmi dövlət qəzeti kimi nəşrə başlayan "Azərbaycan" milli dövlətçilik məfkurəsinin möhkəmləndirilməsində, xalqımızın azadlıq ideallarının, mədəniyyətinin, irsinin yaşadılması və təbliğində müstəsna rol oynamışdır. Bu qəzetin işıq üzü görməsi tariximizin şanlı hadisəsi – Bakının bolşevik-daşnak işğalından azad edilməsi, müstəqil Azərbaycanın öz paytaxtına qovuşması ilə bir günə təsadüf etmişdi. Bu, cümhuriyyət tariximizin, eyni zamanda mətbu fikir salnaməmizin yeni bir səhifəsinin açılması idi. "Azərbaycan" qəzeti fəaliyyəti dövründə xalq cümhuriyyətinin ən mötəbər söz tribunası olmaqla yanaşı, 1875-ci ildə "Əkinçi" ilə başlanan və XIX əsrin sonu – XX əsrin əvvəlində digər nəşrlərimizin davam etdirdiyi milli oyanış, özünüdərk və istiqlaliyyət yolunun avanqardı olaraq bu salnamədə dərin iz qoymuşdur.

Dahi Üzeyir Hacıbəylinin və qələmdaşlarının son dərəcə mürəkkəb ictimai-siyasi şəraitdə gərgin, yorulmaz fəaliyyəti sayəsində nəşr olunan qəzet ilk respublikamızın varolma mübarizəsində öz missiyasını sonadək, layiqincə yerinə yetirmişdir. Cümhuriyyət tarixinin öyrənilməsində 1918-1920-ci illərdə bu qəzetdə dərc olunmuş materialların müstəsna əhəmiyyəti var. Cümhuriyyətin süqutundan sonra "Azərbaycan" qəzeti də eyni aqibəti yaşamış, sovetləşmədən sonrakı siyasi-ideoloji reallıqlar onu mətbu fikir tariximizdən silməyə çalışmışdır. Bu gün biz həmin tarixi xatırlamaqla bərabər, "Azərbaycan" qəzetinin taleyinə mühacirət, nisgilli ömür, repressiya yazılmış redaktorları – Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, eləcə də qəzetin o dövrdəki yazarlarının xatirəsini minnətdarlıqla yad edirik.

XX əsrin sonunda ölkəmiz yenidən istiqlaliyyət yoluna qədəm qoyduqdan sonra "Azərbaycan" qəzeti də fəaliyyətini bərpa edərək milli mətbuat ənənələrini uğurla davam etdirmiş, müstəqilliyimizə öz töhfələrini vermişdir. Bu gün əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlətçilik kursu, davamlı

və dinamik inkişaf strategiyası "Azərbaycan" qəzetinin səhifələrində yüksək peşəkarlıqla işıqlandırılır.

Hörmətli Bəxtiyar müəllim!

Rəhbərlik etdiyiniz qəzetin ölkəmizin ictimai-siyasi, sosial və mədəni həyatındakı proseslərə hər zaman fəal jurnalistika və vətəndaşlıq mövqeyindən yanaşması xüsusilə təqdirəlayiqdir. "Azərbaycan" qəzeti dövrün taleyüklü məsələləri ilə bağlı dövlətçilik mənafelərinə, milli-mənəvi dəyərlərə xüsusi diqqəti ilə seçilir və bütün bunların sayəsində çağdaş mətbuatımızda özünəməxsus mövqeyə, böyük nüfuza malikdir. Qəzet həmçinin mədəniyyətimizin inkişafı və təbliğini daim diqqətdə saxlayır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, mədəniyyətimizin himayədarı Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə ölkəmizdə və xaricdə reallaşan mədəniyyət layihələri qəzetdə geniş əks olunur. O cümlədən, Azərbaycanda uğurla gerçəkləşən beynəlxalq festivalların, digər irimiqyaslı mədəni tədbirlərin qəzetdə dolğun şəkildə işıqlandırılması məmnunluq doğurur. Bu fəaliyyətinizdə rəhbərlik etdiyiniz kollektivə yeni-yeni uğurlar arzulayıram.

"Azərbaycan"ın 100 illik yubileyi münasibətilə Sizi və qəzetin bütün kollektivini bir daha təbrik edir, hər kəsə möhkəm cansağlığı, işdə və həyatda daim xoş günlər diləyirəm.



**Ceyhun BAYRAMOV,**
*Azərbaycan Respublikasının*
*təhsil naziri*

# "Azərbaycan" dövrün ən nüfuzlu mətbu orqanıdır

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Milli mətbuatımızın inkişafında müstəsna rolu olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi və Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilməyiniz, redaksiya əməkdaşlarının yüksək dövlət təltiflərinə layiq görülməsi münasibətilə Sizi və bütün yaradıcı kollektivinizi Təhsil Nazirliyi və ölkəmizin bütün təhsil işçiləri adından ürəkdən təbrik edir, şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Xalq Cümhuriyyətinin həmyaşıdı və yadigarı olan "Azərbaycan" qəzeti zəngin inkişaf yolu keçmiş, müstəqillik ideallarının təbliği sahəsində ulu öndər Heydər Əliyevin böyük quruculuq fəaliyyəti, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı sosial-iqtisadi strategiya və əldə edilən misilsiz nailiyyətlərin təşviqi və təbliğində müstəsna xidmətlər göstərmişdir.

"Azərbaycan" qəzeti ölkəmizdə təhsilin inkişafına, gənclərin milli-mənəvi dəyərlər, azərbaycançılıq ideyaları ruhunda tərbiyəsinə də böyük töhfələr vermiş, ölkə Prezidentinin rəhbərliyi ilə reallaşdırılan təhsil islahatları, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təhsil sahəsində həyata keçirilən proqram və layihələr qəzetin səhifələrində yüksək peşəkarlıqla işıqlandırılmışdır və bu fəaliyyət hazırda da uğurla davam etməkdədir.

Hörmətli Bəxtiyar müəllim!

Dövrünün ən nüfuzlu mətbu orqanı olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və kollektivinizi bir daha təbrik edir, son dərəcə məsul fəaliyyətinizdə uğurlar arzulayıram. Əminəm ki, "Azərbaycan" qəzeti bundan sonra da milli mətbuatın inkişafına, müstəqillik və dövlətçilik ideallarının təbliğinə öz layiqli töhfəsini verəcəkdir.



**Mübariz QURBANLI,**
*Azərbaycan Respublikası*
*Dini Qurumlarla*
*İş üzrə Dövlət Komitəsinin sədri*

# Şərəfli və müqəddəs fəaliyyət

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi və rəhbərlik etdiyiniz kollektivi "Azərbaycan" qəzetinin yaranmasının 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə yaradıcılıq uğurları arzulayıram.

Fəxrlə deyə bilərik ki, müstəqil, demokratik respublikamızda söz və mətbuat azadlığının inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin atdığı addımlar bu gün də dövlət siyasətinin prioritetlərindən biri kimi diqqət mərkəzində saxlanılmaqdadır. Ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı nəticəsində milli mətbuatın dünya təcrübəsindən bəhrələnməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, o cümlədən jurnalistlərin peşə səviyyəsinin yüksəldilməsi və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atılmaqda, məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Bu qayğıdan bəhrələnən, cəmiyyətə sağlam ideyaların çatdırılması missiyasını şərəflə yerinə yetirən və Azərbaycan mətbuatı tarixində xüsusi yeri olan "Azərbaycan" qəzeti özünə böyük oxucu auditoriyası toplamağı bacarıb.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan və bir əsrdir fəaliyyət göstərən bu qəzet hər zaman azərbaycançılıq, dövlətçilik ənənələrinə sadiq qalıb. Ulu öndərin parlaq ideyalarının geniş təbliğ edilməsində danılmaz əməyi olan "Azərbaycan" qəzeti bu gün dövlət başçımız İlham Əliyevin rəhbərliyi ilə dünyanın lider ölkələrindən birinə çevrilən respublikamızda baş verən müsbət dəyişikliklərin, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı faktların ictimaiyyətə dəqiq və qərəzsiz çatdırılmasına xidmət edir.

Əminliklə deyə bilərik ki, milli və bəşəri dəyərlərin təbliğ olunmasında mühüm rol oynayan, həmçinin milli mətbuat salnaməmizdə özünəməxsus yerə və nüfuza malik olan "Azərbaycan" qəzeti bundan sonra da şərəfli və müqəddəs fəaliyyətini uğurla davam etdirəcək.

Hörmətli Bəxtiyar müəllim!

Sizi bir daha bu əlamətdar gün və Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilməyiniz münasibətilə təbrik edir, "Azərbaycan" qəzetinin kollektivinə yeni-yeni nailiyyətlər arzulayıram.



**Şeyxülislam**
**Allahşükür PAŞAZADƏ,**
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*

# Müstəqil dövlətçilik ideallarının carçısı

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Uca Allahın adı ilə!

Hörmətli Bəxtiyar müəllim!

Sizi və Sizin simanızda "Azərbaycan" qəzetinin bütün əməkdaşlarını, yaradıcı kollektivini və çoxsaylı oxucularını şanlı yubiley – qəzetin təsis edilməsinin 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Müqəddəs Kitabımız Qurani-Kərimin "Nun" (Qələm) surəsinin ilk ayəsi belə başlayır: "And olsun qələmə!" Əlində qələm tutan hər bir şəxs bunun dəyərini və məsuliyyətini dərk etməlidir. "Azərbaycan" qəzeti yaranan andan bugünədək məhz belə şəxsiyyətlərin bir araya gəldiyi məkan, yaradıcı kollektiv olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti ilə yaşıd olan, millətimizin tarixində ən mühüm, möhtəşəm və taleyüklü hadisələrin şahidi olmuş və bunları öz səhifələrində həkk etmiş, müstəqillik tariximizin salnaməsini yaratmış bir qəzetin öz uğurları, keçdiyi şanlı yolla fəxr etməyə mənəvi haqqı vardır. Milli mətbuatımızın şərəfli ənənələrinin önündə gedən, müstəqil dövlətçilik ideallarımızın carçısı olmaq missiyasını həyata keçirmiş "Azərbaycan" qəzetinin xidmətləri müstəsnadır. Dövlət qəzeti statusu, dövlətçiliyə, xalqa xidmət məramı, maarifçilik missiyası, milli-mənəvi dəyərlərin təbliği, prinsipiallıq, obyektivlik, peşəkarlıq – budur "Azərbaycan" qəzetini səciyyələndirən məqamlar.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra fəaliyyətini dayandıran, xalqımızın yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş "Azərbaycan" qəzeti müstəqilliyə xidmət missiyasını uğurla davam etdirdi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı zamanı "Azərbaycan" qəzeti ümummilli liderin milli dövlətçilik konsepsiyasının əsas təbliğat və təşviqatçılarından oldu. Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzetinin səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət quruculuğu, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan işlər, ictimai-siyasi proseslər qərəzsiz, yüksək peşəkarlıqla işıqlandırılır.

Vətənimizin adını daşıyan qəzetin üzərinə olduqca böyük məsuliyyət və vəzifələr düşür. Çox sevindiricidir ki, bu məsuliyyət lazımınca dərk edilir, yüksək peşəkarlıq və yaradıcılıqla icra olunur. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin həyata keçirdiyi misilsiz quruculuq işləri və ölkəmizin nailiyyətləri, milli-mənəvi dəyərləri, o cümlədən dini-mədə-

ni irsi "Azərbaycan"ın səhifələrində geniş və əhatəli şəkildə əksini tapır, maraqlı materiallarda əbədiləşərək tarixə çevrilir.

Hörmətli Bəxtiyar müəllim! Bir daha Sizi və kollektivinizi "Azərbaycan" qəzetinin 100 yaşının tamam olması münasibətilə ürəkdən təbrik edir, Uca Allahdan ən gözəl nemətləri Sizə diləyirəm. Xoş fürsətdən istifadə edərək Sizi Azərbaycan dövlətinin ali mükafatı – "Şöhrət" ordeni ilə təltif olunmağınız münasibətilə təbrik etməkdən məmnunam. Sizə verilən mükafat və qəzetin bir qrup əməkdaşının fəxri adlar və medallarla təltifatı, heç şübhəsiz, "Azərbaycan" qəzeti kollektivinin uzun illər ərzində səmərəli fəaliyyətinə dövlət rəhbəri tərəfindən verilən yüksək dəyərin göstəricisidir. Hər birinizə böyük qürur, iftixar hissi yaşadan bu şərəfli ildönümü günlərində xalq cümhuriyyətimizin yadigarı və müasir, müstəqil dövlətimizin salnaməçisi olan "Azərbaycan" qəzetinə daha böyük uğurlara imza atmağı arzu edirəm.

Allah köməyiniz olsun!



**Fəttah HEYDƏROV,**
*Milli Məclisin komissiya sədri,*
*Respublika Ağsaqqallar Şurasının sədri*

# "Azərbaycan" son 25 ildə qazanılan möhtəşəm nailiyyətlərin mükəmməl salnaməsidir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Milli mətbuatımızın flaqmanı, ölkəmizin baş qəzeti olan "Azərbaycan"ın 100 illik yubileyi münasibətilə Sizi və yaradıcı kollektivinizi səmimi qəlbdən təbrik edirəm.

Çox çətin, eyni zamanda şərəfli bir dövrdə – 1918-ci il sentyabrın 15-də xalq cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlayan "Azərbaycan" ilk gündən etibarən məmləkətimizin ən vətənpərvər, dəyərli ziyalılarını, publisistlərini ətrafına topladı, qısa müddətdə ölkənin ən oxunaqlı qəzetinə çevrildi. İstiqlalçılıq ideyalarının mükəmməl təbliğatçısı olan "Azərbaycan" həm də ictimai şüurlarda hələ yeni formalaşan dövlətçilik, müstəqillik məfkurəsinin də öncül tərənnümçüsü, ideoloji tribunası oldu.

Fəqət 23 aydan sonra süquta uğrayan xalq cümhuriyyətinin taleyini onun rəsmi orqanı olan "Azərbaycan" qəzeti də yaşadı. Əslində, hesab edirəm ki, "Azərbaycan" qəzeti ilə şanlı Azərbaycanımız hər zaman eyni taleyi bölüşmüşlər. Belə ki, ötən əsrin 90-cı illərinin əvvəllərində – ölkəmizin formal müstəqillik əldə etməsinə baxmayaraq, böyük təlatümlər, böhranlar yaşadığı dövrdə "Azərbaycan" qəzeti də fəaliyyətini bərpa etməsinə baxmayaraq, mövcud olan ideoloji boşluq, milli-mənəvi aşınma onun da fəaliyyətinə ciddi problemlər yaratmış, dövlət qəzeti kimi tam formalaşma prosesini ləngitmişdi.

Lakin ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanda başlayan QURTULUŞ missiyası elə "Azərbaycan" qəzetinə də mühüm töhfələr vermiş, onun yaradıcılıq imkanlarını artırmış, milli-mənəvi ideyalar ətrafında sıx səfərbər etmişdir. Məhz ümummilli liderin qayğısı və diqqəti nəticəsində "Azərbaycan" qəzeti müstəqil Azərbaycanın fəal tribunasına, mətbuatımızın bayraqdarına çevrilmişdir.

Rəsmi dövlət qəzeti statusunu və ənənəsini uğurla davam etdirən "Azərbaycan" siyasi təlatümlərdə, müstəqilliyin və dövlətçiliyin böhranlı dövründə xalqın maraqlarının müdafiəsini uğurla təşkil etmiş, Heydər Əliyevin siyasi amallarının cəmiyyətdə geniş dəstək tapmasına ideoloji zəmində böyük töhfə vermiş, Qurtuluş missiyasının fəal təbliğatçısı olmuşdur.

Son 15 ildə qəzet öz fəaliyyətini daha da təkmilləşdirmiş, yeni əsrin ən fəal dövlətçilik və inkişaf tribunasına çevrilmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin tarixin ən qüdrətli Azər-

baycanına çevirdiyi ölkəmizin qazandığı tarixi nailiyyətləri, möhtəşəm zəfərləri "Azərbaycan" qəzeti sistemli, peşəkar səviyyədə işıqlandırmışdır.

Məhz buna görə də hörmətli Prezident İlham Əliyev qəzetin bu sahədəki fəaliyyətini 100 illik yubiley münasibətilə göndərdiyi təbrik məktubunda çox dəqiq səciyyələndirib: "XX əsrin sonlarında ölkəmiz yenidən müstəqilliyə qovuşduqdan sonra nəşri bərpa olunmuş "Azərbaycan" qəzeti öz ənənələrini davam etdirərək, milli dövlət quruculuğu prosesində fəal iştirakı ilə seçilmişdir. Demokratik inkişafın tərkib hissəsi kimi söz və məlumat azadlığının təmin edilməsi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün əlverişli şəraitin yaradılması milli mətbuatımızın, o cümlədən "Azərbaycan" qəzetinin öz missiyasını daha səmərəli şəkildə yerinə yetirməsinə yeni imkanlar açmışdır. Qəzet peşəkarlıq, obyektivlik və vətənpərvərlik prinsiplərinə dönmədən əməl etmiş, ölkəmizin sosial-iqtisadi tərəqqisi, vətəndaş cəmiyyətinin formalaşması, milli həmrəyliyin möhkəmlənməsi və digər sahələrdə həyata keçirilən dövlət siyasəti barədə həqiqətlərin Azərbaycan ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir".

"Azərbaycan" qəzeti dövlət quruculuğu prosesinə mühüm ideoloji töhfələr verməklə yanaşı, həm də indiyədək xeyli oxunaqlı və məzmunlu kitablar nəşr edib. Bu kitablar müstəqillik dövrünün siyasi, iqtisadi, hüquqi, elmi, mədəni sahəsində əldə olunan nailiyyətlərinin mükəmməl salnaməsidir.

Ziyalıların, ictimai-siyasi xadimlərin tribunasına çevrilən "Azərbaycan" şəxsən mənim də ən sevimli, ən oxunaqlı qəzetimdir. Təsadüfi deyildir ki, uzun illərdir müxtəlif mövzularda – ulu öndər Heydər Əliyevin siyasi irsi, Prezident İlham Əliyevin quruculuq və inkişaf missiyası, ölkədə gedən proseslər barədə fikirlərimi, açıqlamalarımı, məqalələrimi məhz bu qəzet vasitəsilə ictimaiyyətə çatdırıram.

Eyni zamanda, rəsmi dövlət qəzeti olan "Azərbaycan"la respublika Ağsaqqallar Şurası arasında yaranan səmimi və səmərəli əməkdaşlıq əlaqələrini də xüsusi qeyd edirəm. Bu əməkdaşlığın real nəticəsi olaraq paytaxtda və bölgələrdə birgə görüşlər, "dəyirmi masa"lar, konfranslar keçirmişik.

Bəxtiyar müəllim, təsadüfi deyildir ki, şəxsən Siz özünüz də respublika Ağsaqqallar Şurasının üzvü olaraq qurumda fəallıq nümayiş etdirirsiniz və Məclisin üzvü kimi təşkilatımızın fəaliyyətinə mühüm töhfələr verirsiniz.

Şəxsən mən Sizin ölkədə gedən nəhəng quruculuq işlərinə həsr olunan və ictimaiyyətin maariflənməsində, xüsusən gənc nəslin tərbiyəsində çox mühüm əhəmiyyət kəsb edən, əxlaqi, mənəvi, ictimai-siyasi ümumiləşdirmələrlə zəngin olan məqalələrinizi həm də bir ağsaqqal töhfəsi kimi qiymətləndirir və bu sahədə Sizə daha böyük yaradıcılıq uğurları diləyirəm.

Sevimli qəzetimiz "Azərbaycan"ın 100 illik yubileyi və möhtərəm Prezidentimiz tərəfindən Sizin "Şöhrət" ordeni, əməkdaşlarınızın isə fəxri adlar və dövlət mükafatları ilə təltif olunmaları münasibətilə səmimi-qəlbdən təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

100 yaşın mübarək, "Azərbaycan"!



**Məzahir PƏNAHOV,**
*Azərbaycan Respublikası*
*Mərkəzi Seçki Komissiyasının sədri*

# "Azərbaycan" əsl jurnalistika məktəbinə çevrilib

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar Yusif oğlu!

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı və milli mətbuatımızın avanqardı olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və redaksiyanın peşəkar kollektivini şəxsən öz adımdan və Mərkəzi Seçki Komissiyası adından ürəkdən təbrik edirəm.

Xalqımızın milli oyanış və özünüdərkində, istiqlal ruhunun və milli şüurunun formalaşmasında milli mətbuatımız müstəsna rola malikdir. "Əkinçi" qəzetinin yaranması ilə əsası qoyulan bu irs görkəmli maarifpərvər ziyalılarımızın da dəstəyi ilə milli azadlıq hərəkatını və müstəqil dövlətçilik ideyalarını inkişaf etdirərək müsəlman Şərqində xalq hakimiyyətinə və insanların bərabərliyi prinsiplərinə əsaslanan ilk parlamentli demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına vəsilə olub. Olduqca çətin və mürəkkəb ictimai-siyasi şəraitdə 1918-ci il sentyabrın 15-də ilk nömrəsi işıq üzü görən "Azərbaycan" qəzeti bütün fəaliyyəti boyunca xalqımızın şərəfli istiqlal yolunun, müstəqil dövlətimizin qarşıya qoyduğu ali məqsədlərin və demokratik prinsiplərin carçısına və canlı salnaməsinə çevrilib.

Cümhuriyyətin süqutu ilə ölkə həyatının bütün sahələri kimi, milli mətbuatımıza da ağır zərbə vurularaq ən sərt şəkildə senzuralaşdırılıb, cəmiyyətdəki problemləri işıqlandırmaq qadağan olunub və müstəqil mediamız tamamilə sıradan çıxmaq təhlükəsi ilə üz-üzə qoyulub. Sonradan ümummilli lider Heydər Əliyev tərəfindən media üzərindəki bütün dövlət tənzimləmə mexanizmləri ləğv edilib, senzura aradan qaldırılıb və beləliklə, milli mətbuatımızın inkişafı üçün geniş imkanlar yaranıb.

Prezident İlham Əliyevin sərəncamları ilə Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyasının qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması, media qurumlarına birdəfəlik maliyyə yardımı göstərilməsi, qəzetlərin nəşriyyata olan borclarının ləğv edilməsi, jurnalistlərin sosial problemlərinin həll edilməsi, eləcə də mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması üçün yüzlərlə media nümayəndəsinə dövlət hesabına mənzillər verilməsi və s. ölkəmizdə azad medianın inkişafı üçün atılan addımların bariz göstəriciləridir.

Hazırda milli mətbuatımız dinamik inkişaf edərək müasir informasiya cəmiyyəti quruculuğunda, milli və dövlətçilik maraqlarının, milli-mənəvi dəyərlərin qorunmasında və geniş təbliğində

əhəmiyyətli rol oynayır. Milli mətbuatımızın bayraqdarı olan "Azərbaycan" qəzeti də Sizin və redaksiyanın təcrübəli kollektivinin peşəkarlığı nəticəsində ölkəmizdəki hərtərəfli söz və fikir azadlığı, siyasi plüralizm mühitində sərbəst şəkildə fəaliyyət göstərən çoxsaylı mətbu orqanlar arasında özünəməxsus dəst-xətti, aydın və prinsipial mövqeyi, ölkədə və beynəlxalq aləmdə cərəyan edən hadisələrə dəqiq, obyektiv və operativ yanaşması ilə cəmiyyətdə yüksək nüfuz və statusa malik əsl jurnalistika məktəbinə çevrilib.

Məmnuniyyətlə vurğulamaq istərdim ki, Mərkəzi Seçki Komissiyasının sıx əməkdaşlıq etdiyi "Azərbaycan" qəzeti ölkəmizdə seçkilərin yüksək səviyyədə təşkil olunması və keçirilməsi üçün qanunvericiliklə müəyyənləşdirilmiş səlahiyyətlərinin öhdəsindən də ləyaqətlə və peşəkarlıqla gələrək seçkilərin azad, ədalətli və şəffaf keçirilməsində mühüm rol oynayır və vətəndaşlarımızın birbaşa Konstitusiya ilə təsbit olunan seçki hüquqlarının təmin olunmasına əhəmiyyətli töhfə verir.

İnanıram ki, milli mətbuatımızın şanlı və mütərəqqi ənənələrini layiqincə davam etdirən "Azərbaycan" qəzeti milli və dövlətçilik mənafeyinin qorunmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, milli və bəşəri ideyaların təbliğində, ölkəmizdə demokratiyanın, siyasi plüralizmin və aşkarlığın təmin olunmasında öz fəaliyyətini bundan sonra da uğurla davam etdirəcək.

Bu əlamətdar gündə Sizi və milli istiqlalımızın həmyaşıdı və layiqli tərənnümçüsü olan "Azərbaycan" qəzetinin bütün kollektivini bir daha səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, yeni-yeni müvəffəqiyyətlər arzulayıram.



**Sahil BABAYEV,**
*Azərbaycan Respublikasının*
*əmək və əhalinin sosial müdafiəsi naziri*

# "Azərbaycan" milli mətbuatımızda örnəkdir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif edilməyiniz və "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və kollektivinizi səmimi-qəlbdən təbrik edirəm.

İlk sayı 1918-ci ilin sentyabr ayında işıq üzü görən, dövlətçilik ənənələrini daima yaşadan, xalqın maariflənməsinə və tərəqqisinə xidmət edən "Azərbaycan" qəzeti tariximizin qan yaddaşını səhifələrinə əks etdirərək bir əsrlik keşməkeşli yollardan keçmişdir.

Qəzet bu gün də üzərinə düşən şərəfli vəzifənin öhdəsindən layiqincə gəlir. Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni həyatında baş verən hadisələri operativ, obyektiv və ətraflı işıqlandıraraq xalqın mənafeyini daima uca tutan "Azərbaycan" qəzeti milli mətbuatımızda yazı üslubu, tərzi, ana dilimizin mükəmməl istifadəsi ilə də örnək olmaqda davam edir.

Yüksək oxunaqlığı ilə seçilən "Azərbaycan" qəzeti ölkəmizin bütün sahələrdəki inkişafının aynasıdır. Adını milli mətbuata qızıl hərflərlə yazdıran "Azərbaycan" qəzeti oxucuları üçün əsas informasiya mənbəyi olmaqla yanaşı, ölkəmizin digər mətbuat orqanları üçün də əsl jurnalistika məktəbidir.

Ölkə gündəminin nəbzini tutaraq rəsmi xronika və qanunvericilik bazasını da ətraflı işıqlandıran "Azərbaycan" qəzeti ensiklopedik səciyyəyə malik zəngin bir mətbu orqandır.

Vətəndaşlarımızı dövlətçilik ideyaları ətrafında sıx birləşdirən və ölkənin əsas mətbu orqanı olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi, kollektivinizi və oxucularınızı təbrik edir, uğurlarınızın davamlı olmasını arzu edirəm.



**Əhməd ƏHMƏDZADƏ,**
*"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri*

# "Azərbaycan" qəzetinin dövlət müstəqilliyimizin möhkəmləndirilməsində müstəsna rolu var

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin çoxminli kollektivi adından Sizi və kollektivinizi "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Əsası 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti ötən 100 ildə çox böyük tarixi inkişaf yolu keçmiş, xalqımıza istiqlal mübarizəsində mühüm xidmətlər göstərmiş və müstəqilliyimizin möhkəmləndirilməsi prosesinin fəal iştirakçısı olmuşdur.

Böyük dövlət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik irsini ölkə mediasının inkişafı sahəsində də davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətə uyğun olaraq digər kütləvi informasiya vasitələrimiz kimi, "Azərbaycan" qəzeti də dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub.

Rəhbərlik etdiyiniz "Azərbaycan" qəzetinin dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, demokratik cəmiyyət qurulması, görülən işlərin və qarşıda duran vəzifələrin ölkə vətəndaşlarına düzgün çatdırılması, ictimai-siyasi ideyaların formalaşması və başqa sahələrdə üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirir.

İnanırıq ki, bundan sonra da ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması, gənclərin maarifləndirilməsi və digər sahədə aparılan məqsədyönlü işlərin işıqlandırılmasına öz töhfələrini verəcəkdir.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC Sizinlə əməkdaşlığı yüksək qiymətləndirir və ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyəti olan meliorasiya və su təsərrüfatı işlərinin mətbuatda işıqlandırılmasına görə təşəkkürümüzü bildiririk.

Hörmətli Bəxtiyar müəllim!

Sizi bir daha "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə təbrik edir, Sizə və bütün kollektivinizə möhkəm cansağlığı, uzun ömür, xoş əhvali-ruhiyyə, respublikamızın sosial-iqtisadi inkişafı naminə məsul və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.



**Rövşən RZAYEV,**
*Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri*

# "Azərbaycan" dövlətçilik ideyalarına sədaqəti ilə müasir jurnalistikamız üçün əsl örnəkdir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi və rəhbərlik etdiyiniz kollektivi əlamətdar hadisə – "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə dərin səmimiyyətlə təbrik edirəm!

İlk nömrəsi 15 sentyabr 1918-ci ildə işıq üzü görən "Azərbaycan" qəzeti milli məfkurənin və azadlıq ideyalarının yayılmasında, xalqımızın müstəqil dövlətçilik ənənələrinin formalaşdırılmasında, qorunmasında və təbliğində tarixən mühüm rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi müstəqil dövlət quruculuğu və hərtərəfli tərəqqi, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar və sürətli inkişaf dövrünün salnaməçisi olan bugünkü "Azərbaycan" xalq cümhuriyyəti zamanında çıxan "Azərbaycan"ın layiqli varisi kimi cəmiyyətimizdə böyük nüfuz və rəğbət qazanmışdır.

Söz və mətbuat azadlığının tam təmin olunduğu ölkəmizdə "Azərbaycan" qəzeti özünün yaradıcılıq mövqeyi və peşəkarlıq xüsusiyyətləri, milli-mənəvi dəyərlərə və dövlətçilik ideyalarına sədaqəti ilə müasir jurnalistikamız üçün əsl örnəkdir.

Sizi bir daha yubiley münasibətilə təbrik edir, şəxsən Sizə və kollektivinizin hər bir üzvünə möhkəm cansağlığı, uzun ömür, şərəfli yaradıcılıq fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!



**Elmira SÜLEYMANOVA,**
*Azərbaycan Respublikasının*
*İnsan hüquqları üzrə müvəkkili (ombudsman)*

# "Azərbaycan" qəzeti milli mənlik şüurunun oyanışında və dirçəlişimizdə əvəzsiz rol oynayıb

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Milli mətbuatımızın fəxri sayılan "Azərbaycan" qəzetinin ilk sayının çapdan çıxmasının 100 illik yubileyi münasibətilə bu mətbu orqana bacarıqla, yüksək peşəkarlıqla rəhbərlik edən Sizi, ailənizi, əməkdaşlarınızı və oxucularınızı səmimi-qəlbdən təbrik edir, sizlərə möhkəm cansağlığı, uzun ömür, sevinc dolu günlər, səadət, fəaliyyətinizdə uğurlar arzulayıram.

"Azərbaycan" qəzetinin ilk sayı 1918-ci il sentyabrın 15-də, kifayət qədər çətin və mürəkkəb tarixi şəraitdə işıq üzü görmüşdür. Bu qəzet uzun və şərəfli bir yol keçmiş, Azərbaycanın istiqlalının, çağdaş tarixinin təbliğatçısı olmuş, dövlətçiliyimizə, xalqımızın yüksəlişinə, tərəqqisinə və maariflənməsinə xidmət etmiş, milli mənlik şüurunun oyanışında və dirçəlişimizdə əvəzsiz rol oynamışdır.

Azərbaycan həqiqətləri, əzəli yurd yerimiz olan Dağlıq Qarabağın işğalı nəticəsində yaranmış problemlər, doğma torpağında qaçqına və məcburi köçkünə çevrilən soydaşlarımızın vəziyyəti, onların kütləvi surətdə pozulmuş insan hüquq və azadlıqlarının müdafiəsi və həyata keçirilməsi həmişə qəzetinizin işıqlandırdığı mövzulardan olmuşdur.

"Azərbaycan" qəzeti bütün dövrlərdə öz amalına, əqidəsinə sadiq qalmış, dövlətçiliyimizin, xalqın mənafeyinin keşiyində durmuş, mətbu sözün dəyərini uca tutmuşdur.

Milli jurnalistikamızın zəngin ənənələrini davam etdirən "Azərbaycan" qəzeti bu gün də ölkəmizdə baş verən mühüm ictimai-siyasi prosesləri, xalq cümhuriyyətinin 100 illiyini, hüquqi dövlət quruculuğunda qazandığımız nailiyyətləri, ölkəmizdə insanların hüquq və azadlıqlarının təmini istiqamətində uğurları öz səhifələrində obyektiv işıqlandırır və burada Sizin zəhmətiniz böyükdür.

Sizi və qəzetin bütün kollektivini əlamətdar yubileyiniz münasibətilə bir daha ürəkdən təbrik edir, yeni yaradıcılıq uğurları arzulayıram.



**Baba RZAYEV,**
*"Azərenerji" ASC-nin prezidenti*

## "Azərbaycan"ın ölkəmizin sosial-mədəni həyatında mühüm yeri var

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi və şəxsinizdə yaradıcı kollektivinizi Azərbaycanın rəsmi dövlət qəzeti – "Azərbaycan" qəzetinin 100 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoş əhval-ruhiyyə və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

"Azərbaycan" qəzetinin milli dövlətçiliyimizin təkamülündə, Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin və onun mənəvi-siyasi varisi sayılan Azərbaycan Respublikasının sosial-mədəni həyatında mühüm yeri və rolu vardır.

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla və uğurla gerçəkləşdirilən mütərəqqi dövlət siyasəti milli mətbuatımızın da tərəqqisinə əsaslı zəmin yaratmış, kütləvi informasiya vasitələrinin inkişafı istiqamətində əməli addımlar atılmış, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilmişdir. Təbii ki, bu, "Azərbaycan" qəzetindən də yan keçməmişdir.

Siz öz məhsuldar işinizlə Azərbaycan Respublikasında milli mətbuatın inkişafına xidmət edirsiniz.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə fəaliyyətinizə verilən yüksək qiymət və şəxsən Sizin "Şöhrət" ordeni ilə təltif edilməyiniz qeyd edilənlərin bariz təzahürüdür.

Sizi bir daha təbrik edir, Sizə rəsmi dövlət məlumatlarının cəmiyyətə çatdırılması və ictimaiyyətdə sağlam informasiya mühitinin yaradılması kimi yaradıcılıq işlərinizdə yeni-yeni nailiyyətlər diləyirəm.



**Vüqar GÜLMƏMMƏDOV,**
*Azərbaycan Respublikası*
*Hesablama Palatasının sədri*

# "Azərbaycan" bütün dövrlərin ən populyar və oxunaqlı qəzetidir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

"Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə qəzetin kollektivini və şəxsən Sizi ürəkdən təbrik edir, ən səmimi hislərimi, xoş arzularımı və ehtiramımı bildirirəm.

Ötən 100 il Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə 1918-ci il sentyabr ayının 15-də ilk nömrəsi çapdan çıxan, Azərbaycan Xalq Cümhuriyyətinin yaşıdı və inkişafının şahidi olan, onunla eyni taleyi yaşamış "Azərbaycan" qəzetinin səhifələrində öz əksini tapmışdır.

Bütün bu, bəzən ölkəmiz üçün çox mürəkkəb onilliklər ərzində yüz minlərlə oxucuya "Azərbaycan" qəzeti əsas və nüfuzlu informasiya mənbəyi olmuşdur.

Dövlət ideologiyasını təbliğ edən, siyasət, iqtisadiyyat, təhsil məsələlərindən, paytaxtda və ucqar regionlarda sosial-mədəni, sosial təminat, bank və pensiya məsələlərindən tutmuş bütün mövzularda yazan "Azərbaycan" qəzeti ölkənin ən kütləvi qəzetidir.

Görünüşü və dizaynı dəyişsə də, işə məsuliyyəti, səriştəsi, yüksək jurnalist mədəniyyəti və etikası dəyişməz qalan qəzetin əməkdaşlarının respublikanın həyatında baş verən mühüm hadisələrə canıyananlıqla, vətən qarşısında borcuna peşəkarlıqla xidməti "Azərbaycan"ı fərqləndirən əsas meyardır.

Qəzet öz inkişafı boyu nəsil-nəsil peşəkar jurnalistlər yetişdirmiş, mühüm və dəqiq məlumat mənbəyi olmaqla yanaşı, həm də ölkədə obyektiv informasiya mühitinin yaranmasına töhfə vermişdir.

"Azərbaycan" qəzetində, rəsmi dövlət qəzetində belə yazılıb" – bu cümlə hər hansı problemin həlli üçün müxtəlif instansiyalara müraciət edən vətəndaşların ən əsas arqumentidir.

Bütöv bir əsr boyu bütün dövrlərin ən populyar və oxunaqlı qəzeti olan "Azərbaycan" qəzetində ölkədə görülən işlər və qarşıda duran vəzifələr barədə ciddi analitik, həm də publisistik yazılar, məqalə, reportaj, müsahibə və xəbərlər ölkə vətəndaşlarına düzgün məlumat çatdırmaqla yerlərdə ictimai rəyin formalaşmasında aktiv rol oynayır, ölkəmizi dəyişməyə, inkişaf etməyə, daha da gözəlləşdirməyə kömək edir.

Hörmətli Bəxtiyar müəllim!

Sizi və "Azərbaycan" qəzetinin bütün əməkdaşlarını bu əlamətdar gün münasibətilə bir daha ürəkdən təbrik edir, uzun ömür, möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.



**Səttar MÖHBALIYEV,**
*Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,*
*Milli Məclisin deputatı*

# "Azərbaycan" milli mətbuatımızın avanqardı, bayraqdarıdır

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi və bütün kollektivinizi "Azərbaycan" qəzetinin fəaliyyətə başlamasının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı kimi fəaliyyətə başlamış "Azərbaycan" qəzeti yarandığı gündən milli-azadlıq mübarizəsinin ön sırasında addımlamış, xalqımızın çoxillik arzu və istəklərinin ifadəçisinə çevrilmiş, onun mənəvi dəyərlərini, ictimai-siyasi ideallarının formalaşması işinə önəmli töhfə vermişdir. 1991-ci ildə yenidən müstəqillik qazanması ilə öz fəaliyyətini bərpa etmiş, azadlıq və suverenlik ideyalarının həyata keçirilməsində fəal surətdə iştirak etmişdir.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra "Azərbaycan" qəzeti, sözün həqiqi mənasında, əsl rəsmi dövlət qəzeti kimi fəaliyyət göstərməyə başlamışdır. Bu dövrdən etibarən müstəqil Azərbaycan mövzusu və azərbaycançılıq "Azərbaycan" qəzetinin əsas qayəsinə çevrilmişdir.

Mətbuat aləmində özünəməxsus dəst-xətti ilə seçilən, fəaliyyətini mütərəqqi tarixi ənənələr üzərində quran, qarşıya qoyduğu prinsipial hədəflərə bu gün də sadiqlik göstərən "Azərbaycan" qəzeti respublikanın keçmişinə, bugününə, sabahına mükəmməl elmi-fəlsəfi baxışı özündə əks etdirir, xalqa, dövlətçiliyə bağlılığını nümayiş etdirir.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin bu gün uğurla davam etdirdiyi dövlətçilik kursu, davamlı və dinamik inkişaf strategiyası "Azərbaycan" qəzetinin səhifələrində yüksək peşəkarlıqla işıqlandırılır.

Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır. Onun səhifələrində Azərbaycan həqiqətləri, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadi islahatların həyata keçirilməsi, sağlam mənəvi-psixoloji mühitin, vətəndaş həmrəyliyi və milli birliyin yaradılması sahəsində aparılan məqsədyönlü işlər və ictimai-siyasi proseslər qərəzsiz işıqlandırılır.

Öz səhifələrində işçilərin sosial-iqtisadi hüquqlarının qorunması, onların sağlamlıqlarının və əməyinin mühafizəsinin təmin edilməsi və sosial problemlərinin həlli istiqamətində həmkarlar

ittifaqları tərəfindən həyata keçirilən çoxsahəli tədbirlərin vaxtaşırı olaraq dolğun şəkildə işıqlandırılması Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında məmnunluq doğurur.

İnanırıq ki, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və azad, demokratik cəmiyyət qurulması işində "Azərbaycan" qəzeti fəaliyyət göstərdiyi bütün dövrlərdə öz yüksək amallarına sadiq qalaraq respublikamızda baş verən həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında, dünyaya yayılmasında yüksək professionallıq, obyektivlik, prinsipiallıq, əsl dövlətçilik və vətəndaş mövqeyi nümayiş etdirərək xalqımızın mütərəqqi mətbuat ənənələrini layinqincə davam etdirə biləcəkdir.

Azərbaycan həyatının bütün sahələrini əhatə edən dolğun, özünəməxsus yaradıcılıq ənənələri ilə püxtələşmiş, rəngarəngliyi, aktual mövzuları ilə geniş oxucu auditoriyası qazanmış, öz məsuliyyətini dərindən dərk edən "Azərbaycan" qəzeti bu gün milli mətbuatımızın ilk cümhuriyyət dövrünün bu müqəddəs ənənəsini şərəflə davam etdirir. Müasir milli mətbuatımızın avanqardı, bayraqdarı olan "Azərbaycan" qəzetinin yubileyi münasibətilə kollektivinizin sevincinə qoşulur, bu mətbu orqanda bacarıqla, yüksək peşəkarlıqla çalışan əməkdaşları və çoxminli oxucuları təbrik edir, yeni-yeni uğurlar arzulayıram.



**Kamran İMANOV,**
*Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri*

# "Azərbaycan" – milli dövlətçiliyimizin möhtəşəm salnaməsi

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi müasir Azərbaycan dövlətçiliyinin möhtəşəm salnaməsi olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi və "Şöhrət" ordeni ilə təltif edilməyiniz münasibətilə Əqli Mülkiyyət Agentliyi adından səmimi-qəlbdən təbrik edirəm.

"Azərbaycan" qəzeti 100 illik tarixi dövründə həmişə milli mətbuatımızın ön sırasında olmuş, milli ideyaların tərənnümündə və müstəqil dövlətçiliyimizin təbliğində, milli dirçəlişin, milli qürur hislərinin oyanışında müstəsna xidmətlər göstərmişdir.

"Azərbaycan" qəzeti fəaliyyətinin ilk günlərindən Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Əhməd Cavad, Firidun bəy Köçərli və bir çox digər görkəmli ziyalıları ətrafına toplamış, istiqlal məfkurəmizin dayağına çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra öz fəaliyyətini müvəqqəti dayandıran qəzet 1991-ci ildə dövlət müstəqilliyimizin bərpasından sonra öz fəaliyyətini bərpa etmiş, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulması, milli birliyin yaradılması işində Azərbaycan milli mətbuatının ən yaxşı carçısına çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, "Ölkəmizin mütərəqqi mətbuat ənənələrini ləyaqətlə davam etdirən "Azərbaycan" qəzeti bu gün demokratiyanın, siyasi plüralizmin, aşkarlığın təmin edilməsində müstəsna rol oynayır".

Dövlət başçısının diqqət və qayğısı sayəsində digər sahələrdə olduğu kimi, ölkəmizin milli əqli mülkiyyət sahəsində də genişmiqyaslı tədbirlər həyata keçirilir. Bütövlükdə əqli mülkiyyət sisteminin təkmilləşdirilməsi, müasir dövrün tələblərinə uyğun olaraq daha da modernləşdirilməsi istiqamətlərində ardıcıl və məqsədyönlü işlər görülür. Əqli mülkiyyət sahəsində görülən işlər həmişə qəzetin peşəkar kollektivinin diqqət mərkəzində saxlanılır, mütəmadi olaraq bu sahədə aparılan islahatlar, həyata keçirilən layihələr haqqında geniş və dərin məzmunlu materiallar dərc olunur. Biz "Azərbaycan" qəzetinin peşəkar kollektivi ilə səmərəli əməkdaşlıqdan məmnunluq hisləri duyuruq.

"Azərbaycan" qəzetinin yaradıcı kollektivinin milli mətbuatımızın inkişafındakı xidmətləri dövlət tərəfindən həmişə yüksək dəyərləndirilir. Bu günlərdə kollektivin bir qrup əməkdaşının ölkə başçısının sərəncamları ilə müstəqil dövlətimizin orden və medalları ilə təltif edilməsi və fəxri adların verilməsi qürur hisləri doğurur.

Bu əlamətdar hadisələr münasibətilə bir daha Sizi və "Azərbaycan" qəzetinin peşəkar kollektivini ürəkdən təbrik edir, doğma Azərbaycanımızın tərəqqisi və xalqımızın rifahı naminə şərəfli fəaliyyətinizdə Sizə yeni böyük uğurlar arzulayıram!



**Məmməd MUSAYEV,**
*Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti*

## "Azərbaycan" daim dövlətçilik ənənələrinə sadiq qalır, milli maraqların müdafiəsində dayanır

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası adından Azərbaycan mətbuatında öz nəşrləri ilə xalqın hörmətini qazanmış "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə təbrik edir, Sizə gərgin və şərəfli işinizdə uğurlar arzulayırıq.

Yaranmasının 100-cü ildönümü təntənə ilə qeyd olunan "Azərbaycan" qəzetinin ilk nömrəsinin nəşri 1918-ci il sentyabrın 15-nə təsadüf edir. Şərəfli inkişaf yolu keçmiş bu qəzet hər zaman milli dövlətçilik ideyalarının təbliğatçısı kimi maarifçilik bacarığı ilə başqa nəşrlərə nümunə olmuşdur.

Ümummilli lider Heydər Əliyevin çoxşaxəli inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında son illərdə ölkədə Azərbaycan milli mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Sərbəst bazar iqtisadiyyatı institutlarının və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin yaradılması istiqamətində aparılan iqtisadi islahatların təbliğatçısı olmaqla, "Azərbaycan" qəzeti geniş oxucu auditoriyasının dolğun məlumat almaq imkanlarını təmin edir.

"Azərbaycan" qəzeti sahibkarlara dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi, ölkədə liberal biznes mühitinin formalaşdırılması, vətəndaşların mənafeyinə xidmət edən sosial islahatların reallaşdırılması sahəsindəki ardıcıl dövlət siyasətini öz səhifələrində işıqlandırmaqla kifayətlənmir, eləcə də islahatların real mahiyyəti, milli inkişafa və sosial rifaha müsbət təsirləri ilə bağlı analitik təhlillərə geniş yer verir.

Dünyada baş verən iqtisadi proseslər fonunda ölkə iqtisadiyyatının inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın genişləndirilməsi üçün əlverişli imkanlar yaradılması, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsinə həsr olunan çoxsaylı yazılar, publisistik məqalələr, aktual müsahibələr və reportajlar Azərbaycan Sahibkarlar Konfederasiyasının çoxminlik üzvləri tərəfindən yüksək qiymətləndirilir.

Bütün bunların məntiqi nəticəsi olaraq, bu mətbu orqanın bacarıqlı rəhbəri kimi, Azərbaycan milli mətbuatının inkişafındakı xidmətlərinizə görə ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən Siz "Şöhrət" ordeni ilə təltif olunmusunuz, "Azərbaycan" qəzetinin digər əməkdaşları isə "Əməkdar jurnalist" fəxri adı və "Tərəqqi" medalı ilə təltif olunmuşlar.

"Azərbaycan" qəzeti dövlətçilik ənənələrinə daim sadiq qalır və milli maraqlarımızın müdafiəsində dayanır. Əminik ki, qəzet bu missiyanı şərəflə davam etdirəcək.



**Vidadi MURADOV,**
*"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti*
*İdarə Heyətinin sədri*

# "Azərbaycan" dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar müəllim!

Sizi və qəzetin kollektivini "Azərbaycan"ın nəşrə başlamasının 100 illik yubileyi münasibətilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin kollektivi adından təbrik edirəm.

"Əkinçi" qəzeti ilə əsası qoyulan milli mətbuat tariximizdə "Azərbaycan" qəzetinin öz yeri, öz dəst-xətti vardır. Cümhuriyyətimizin yaşıdı olan bu qəzet müstəqillik ideyalarının həyata keçirilməsində müstəsna rol oynayıb. Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı kimi fəaliyyətə başlayan qəzet həmin dövrdə cümhuriyyətçilik ideyalarını təbliğ edib, xalqımızın görkəmli ziyalılarının tribunasına çevrilərək millətimizin maariflənməsinə öz töhfəsini verib.

Ölkəmiz müstəqillik qazandıqdan sonra yenidən nəşrə başlayan "Azərbaycan" qəzeti öz ənənələrinə sadiq qalaraq milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib.

Bu, bir həqiqətdir ki, "Azərbaycan" qəzetinin inkişafı, ölkəmizdə söz və mətbuat azadlığının etalonuna çevrilməsi ulu öndərimiz Heydər Əliyevin adı və dövlətçilik fəaliyyəti ilə sıx şəkildə bağlıdır. Mətbuatın inkişafına xüsusi fikir verən Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində qəzet öz həyatının yeni dövrünü yaşayır. Qəzetin kollektivi üçün yaradılan şərait, jurnalistlərin fəxri adlarla, mənzillərlə təmin edilməsi onların daha yaxşı fəaliyyət göstərməsinə, yaradıcılıq imkanlarını genişləndirməsinə səbəb olub.

Hörmətli Bəxtiyar müəllim!

"Azərbaycan" qəzeti bu gün tariximizi, mədəniyyətimizi, dəyərlərimizi, ölkəmizin sürətli inkişafını, dövlət başçımızın rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq işlərini təbliğ edən, antiazərbaycan şəbəkəsinə tutarlı faktlarla cavab verən milli ruhlu ziyalıların tribunasına, bütün oxucuların etibarlı informasiya mənbəyinə çevrilib. Düşündürən, istiqamət verən publisistik, təhlili məqalələrlə, müxtəlif mətbuat janrlarında olan yazılarla çıxış edən müəlliflər həm oxuculara zövq verir, həm də zəngin mətbuat ənənələrimizi yaşadırlar. "Azərbaycan" qəzeti milli dəyərlərimizin təbliğində ön mövqedə dayanıb. Qəzet milli dəyərimiz olan xalçaçılığın yaşadılmasına da öz töhfəsini verir. Son illər ölkə rəhbərinin bu sahədə həyata keçirdiyi nəhəng işləri oxucularına çatdıran bu mətbuat orqanı xalçaçılığın tarixinə də işıq salır.

Əminik ki, "Azərbaycan" qəzeti bundan sonra da ölkəmizi təbliğ edən əsas mətbuat orqanı olaraq qalacaq, qazandığı oxucu rəğbətini və sevgisini heç vaxt itirməyəcək, öz adına layiq şəkildə fəaliyyət göstərəcəkdir.

100 yaşın mübarək, "Azərbaycan"!



**Cəmilə SƏTTAROVA,**
*Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri*

# "Azərbaycan"ın xidmətləri əvəzedilməzdir

*"Azərbaycan" qəzetinin kollektivinə*

Əziz həmkarlar!

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi sizi "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayır!

"Azərbaycan" qəzetinin zəngin və şərəfli tarixi vardır. Milli təfəkkürün, azərbaycançılıq ideyalarının inkişafında, vətəndaş cəmiyyətinin formalaşmasında və digər istiqamətlərində qəzetin xidməti əvəzedilməzdir.

Müasir dövrdə, müstəqil Azərbaycanımızın inkişafında, ümumbəşəri dəyərlərin, demokratiyanın, söz və fikir azadlığının, insan hüquqlarının qorunmasında siz öz şərəfli ənənələrinizi davam etdirərək cəmiyyətimizin əsas aparıcı qüvvəsinin birinə çevrilmisiniz.

Əminik ki, hamımızın ana yurdu olan Azərbaycanda demokratik ənənələrin bərqərar olması, beynəlxalq aləmdə onun nüfuzunun gücləndirilməsi istiqamətindəki yorulmaz fəaliyyətiniz bundan sonra da daima davam edəcəkdir.

Uzun illərdir ki, "Azərbaycan" qəzetinin kollektivi ilə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi arasında konstruktiv əlaqələr, işgüzar və xoş münasibətlər yaradılmışdır. Əminik ki, bundan sonra da bu istiqamətdə ardıcıl və məqsədyönlü iş aparılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən qəzetin əməkdaşlarının orden, medal və fəxri adlarla təltif olunması və yubileyiniz ilə əlaqədar sizi bir daha təbrik edir, cansağlığı və fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

# Xarici ölkə səfirlərinin təbrikləri



**Erkan ÖZORAL,**
*Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri*

## "Azərbaycan" qəzeti Türkiyə ilə Azərbaycanı daha da yaxınlaşdırır, aramızdakı tellərin daha da möhkəmlənməsinə təkan verir

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Cənab Bəxtiyar Sadıqov!

"Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə ən səmimi təbriklərimi çatdırır və müvəffəqiyyət dolu arzularımı bildirirəm.

"Azərbaycan" qəzeti ilə Azərbaycan Cümhuriyyətinin eyni yaşda olmaları heç də təsadüfi deyil. "Azərbaycan" qəzeti 1918-ci ildə ilk müstəqil cümhuriyyətlə birgə yaranmış, bugünkü müstəqil Azərbaycana ötürülən ən mühüm əsərlərdən biridir.

Bu əsər Azərbaycanın səsini bütün dünyaya çatdırmaqla eyni zamanda Azərbaycan xalqına da dünyadan məlumat vermiş və beləliklə, Azərbaycanla dünya arasında əhəmiyyətli körpülərdən birinə çevrilmişdir.

"Azərbaycan" qəzeti bu gün də öhdəsinə götürdüyü bu mühüm missiyaya uyğun olaraq fəaliyyət göstərir və Azərbaycanın həqiqətlərini bütün dünyaya çatdırır.

Qəzetinizin mühüm vəzifələrindən biri də Azərbaycanın digər dövlətlərlə münasibətləri haqqında xalqı məlumatlandırmaqdır. Bu nöqteyi-nəzərdən Türkiyə ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük töhfə verir.

Türkiyə ilə Azərbaycanın bir-birini daha yaxından tanıması bu "bir millət, iki dövlət" üçün çox əhəmiyyətlidir. "Azərbaycan" qəzetinin bu istiqamətdə göstərdiyi səylər, şübhəsiz ki, bizi bir-birimizə daha da yaxınlaşdırır, aramızdakı tellərin daha da möhkəmlənməsinə təkan verir.

Bu mühüm yubiley münasibətilə Siz başda olmaqla "Azərbaycan" qəzetinin bütün əməkdaşlarını bir daha səmimi-qəlbdən təbrik edir, qəzetinizin qarşıdakı uzun illər boyunca təsis olunduğu ilk gündən etibarən qəbul etdiyi prinsiplərdən uzaqlaşmayaraq Azərbaycan və Türkiyə qardaşlığına xidmətinin davam edəcəyinə olan inamımı ifadə edirəm.



**Cavad CAHANGİRZADƏ,**
*İran İslam Respublikasının*
*Azərbaycan Respublikasındakı*
*fövqəladə və səlahiyyətli səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Hörmətli Bəxtiyar Sadıqov!

Dəyərli "Azərbaycan" qəzetinin təsis edilməsinin 100 illik münasibətilə Sizi və möhtərəm həmkarlarınızı səmimi-qəlbdən təbrik edirəm.

Sizə, həmçinin Azərbaycan xalqı və Azərbaycan Respublikasına müvəffəqiyyət və başucalığı arzulayır, iki ölkənin müxtəlif sahələrdə, xüsusilə də media sahəsində əməkdaşlığının daha da artmasını diləyirəm!



**Sanjay RANA,**
*Hindistan Respublikasının*
*Azərbaycan Respublikasındakı*
*fövqəladə və səlahiyyətli səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Rəsmi "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə Sizi və kollektivinizi səmimi-qəlbdən təbrik edirəm.

Qəzetinizin Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni həyatında, o cümlədən xarici əlaqələrində mühüm rol oynadığını qeyd etmək istəyirəm. Bir daha bu mühüm hadisə münasibətilə təbriklərimi çatdırır və davamlı uğurlarınız üçün ən xoş arzularımı bildirirəm.



**Mohamed ALQUBAİSİ,**
*Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

"Azərbaycan" qəzetinin 100 illiyi münasibətilə ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Bu qəzet aktual mövzuları işıqlandıran, Azərbaycanda baş verən hadisələri izləməyə kömək edən önəmli media platformasıdır.

Lakin o, ilk növbədə tarixi çətinliklər fonunda Azərbaycan xalqının müstəqilliyə nail olmasının rəmzidir.

Bütün kollektivə təbriklərimi izhar edirəm.



**Beybit İSABAYEV,**
*Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Artıq 100 ildir fəaliyyət göstərən "Azərbaycan" qəzeti ölkə mətbuatına öz töhfəsini verib.

Ölkənin baş qəzeti sayılan "Azərbaycan" qəzetinin 100 illiyi münasibətilə bütün kollektivə təbrik və ən xoş arzularımı çatdırıram. Ümid edirəm ki, Azərbaycanın demokratik dövlət siyasətini təmsil edən bu qəzetin fəaliyyəti bundan sonrakı dövrdə də uğurlu şəkildə davam edəcək.



**Nikolas D.KANELLOS,**
*Yunanıstan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

Azərbaycan Xalq Cümhuriyyətinin yaşayan xatirəsi olan "Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə səmimi təbriklərimi çatdırıram. Qəzetiniz bütün çətinliklərə rəğmən doğruluq və vətənpərvərlik ruhunu qoruyub.

Bütün kollektivə gələcək işlərində uğurlar arzulayıram!



**Nasser Abdel KAREEM,**
*Fələstin Dövlətinin səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

"Azərbaycan" qəzetini təsis edilməsinin yüz illiyini qeyd etməsi münasibətilə təbrik edir, ona keçən onilliklərdən günümüzə qədər Azərbaycan oxucusuna keçmişdə və indi təqdim etdiyi xidmətlərə görə təşəkkür edirik.

"Azərbaycan" qəzetinə Azərbaycan Respublikasında çiçəklənmə və tərəqqinin gedişinə xidmət naminə Azərbaycan oxucusunun biliklərinin zənginləşdirilməsində maarifləndirici və etibarlı məlumatları təqdim etməkdə uğurlarının davamını diləyirik.



**Xanım Oreliya BUŞEZ,**
*Fransa Respublikasının*
*Azərbaycan Respublikasındakı səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

"Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə səmimi təbriklərimi çatdırır və redaksiya heyətinə öz fəaliyyətində daha böyük uğurlar arzulayıram.



**Kim Chang-gyu,**
*Koreya Respublikasının*
*Azərbaycan Respublikasındakı*
*fövqəladə və səlahiyyətli səfiri*

*"Azərbaycan" qəzetinin baş redaktoru,*
*Milli Məclisin deputatı cənab Bəxtiyar Sadıqova*

"Azərbaycan" qəzetinin 100 illik yubileyi münasibətilə ilk növbədə Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycanın siyasi-ictimai həyatında önəmli yer tutan, qərəzsiz, dəqiq xəbərlərin ünvanı olan qəzetinizə daha çox yüzilliklər fəaliyyət göstərməyi, əməkdaşlarınıza isə uğurlu və sağlam həyat arzulayıram.

# "Azərbaycan"ın kitabları:

## Milli intibahın konseptual şərhləri, tarixin fundamental araşdırmaları




# "HEYDƏR ƏLİYEV DÜNYANIN GÖZÜ İLƏ"

*Bakı, 2003*

Kitabda ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, zəngin dövlətçilik irsi öz əksini tapmışdır. Xüsusi olaraq qeyd edilmişdir ki, Heydər Əliyev siyasi xətti müstəqil Azərbaycan dövlətçiliyinin ideya-siyasi məzmununu, onun söykəndiyi dəyərlər sisteminin mahiyyətini özündə ehtiva edən mükəmməl bir konsepsiya olaraq daim öyrəniləcəkdir. Ümummilli liderin Azərbaycan xalqının gələcəyi naminə göstərdiyi misilsiz xidmətlər ona tarixin yaddaşına əbədi olaraq həkk edilmək haqqı qazandırmışdır. Bu kitab məhz həmin danılmaz həqiqətlərə dərin ehtiram hissinin təzahürü kimi qiymətləndirilə bilər.

Nəşrdə dünyanın ən məşhur siyasi və ictimai xadimlərinin, dövlət başçılarının ulu öndər Heydər Əliyev haqqında fikirləri, eləcə də ümummilli liderin fəaliyyətinə dair məqalələr toplanmışdır. Bu materiallar dahi rəhbərimizin məşhur siyasət adamları tərəfindən nəinki Azərbaycan tarixində, həm də dünyanın siyasi düzəninin müəyyənləşməsində kifayət qədər ciddi rol oynayan dövlət xadimi kimi qiymətləndirildiyini təsdiqləyir. Nəşrdə xüsusi vurğulanır ki, bu böyük şəxsiyyətin siyasi fəaliyyətinin araşdırılmasına həmişə ehtiyac duyulacaq və onunla bağlı hələ çox kitablar yazılacaq, tədqiqatlar aparılacaqdır.

"Heydər Əliyev dünyanın gözü ilə" kitabında fenomenal insana, böyük rəhbərə onun fəaliyyətini birbaşa izləmiş, beynəlxalq münasibətlər sistemində Heydər Əliyev amilinin təsirini bilavasitə hiss etmiş, onunla təmasda olmuş siyasətçilərin gözü ilə qiymət verilir.

Ulu öndər Heydər Əliyevin tariximizin təxminən 35 illik bir dövrünü əhatə edən siyasi fəaliyyəti milli-mədəni intibah və sosial-siyasi tərəqqi mərhələsi kimi yadda qalmışdır.

Kitabda toplanan materialların əsas qayəsi budur!




# "HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA"

*Bakı, 2005*

"Azərbaycan" qəzeti redaksiyasının "Azərbaycan qədər əbədi" silsiləsindən nəşr etdirdiyi bu növbəti kitab ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə konkret şəxslərə göstərdiyi diqqət və qayğıları, xeyirxahlıqları, çoxsaylı insanların həyatında oynadığı müstəsna rolu əks etdirilir. Sadə, zəhmətkeş insanların, əmək qəhrəmanlarının, elm adamlarının, ictimai və siyasi xadimlərin xatirələri əsasında hazırlanmış bu məqalələr toplusunda alicənablıq və mərhəmət mücəssəməsi olan Heydər Əliyev şəxsiyyətinin ucalığı, ali insani keyfiyyətləri real faktların dili ilə oxuculara təqdim edilir.

Kitab 2002-2005-ci illər ərzində "Azərbaycan" qəzetində çap edilən məqalələr əsasında ərsəyə gəlib. Altı fəsildən ibarət olan nəşrdə görkəmli ictimai-siyasi xadimlərin, əmək qəhrəmanlarının, sadə vətəndaşların böyük şəxsiyyət haqqında xatirələri toplanıb. Bu məqalələrdə Heydər Əliyev fenomeni, onun nəhəng dövlət və siyasi xadim olduğunun elementləri göstərilir. Böyük rəhbərin idarəçilik prinsipləri, dövlət quruculuğundakı fədakarlığı ayrı-ayrı insanlar tərəfindən təsdiqlənir. Bir fakt da qeyd olunmalıdır ki, məqalələrin müəyyən hissəsi ümummilli lider Heydər Əliyevin hələ sağlığında yazılmışdı. Oxuculara təqdim olunan bu kitab rəğbətlə qarşılanmışdır.

Əbədiyaşar liderimizin ölməz ruhuna böyük ehtiramın nümunəsi olan bu nəşr Heydər Əliyev irsinin tədqiqatçıları, eləcə də geniş oxucu kütləsi üçün dəyərli töhfədir.




# "VƏTƏNDAŞ CƏMİYYƏTİNƏ YOL AÇAN İDEYALAR"

*Bakı, 2006*

Azərbaycanın müstəqillik dövrünün fundamental salnaməsi olan bu nəşrdə ölkəmizdəki sosial-iqtisadi inkişaf, baş verən mütərəqqi siyasi dəyişikliklər, aparılan hüquqi, demokratik islahatlar konseptual şəkildə şərh edilmiş, Heydər Əliyev irsinin milli inkişaf strategiyasına çevrilməsi və bu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi əsaslandırılmışdır.

Görkəmli elm xadimlərinin, ziyalıların, mütəxəssislərin rəylərində Azərbaycanın 13 illik – 1993-2006-cı illəri əhatə edən intibah mərhələsi məhz bu araşdırmalar kontekstində təhlil olunmuşdur. Yazılarda vətəndaş cəmiyyətinin Heydər Əliyev konsepsiyasında insanlararası münasibətlərin və mütərəqqi inkişafın başlıca qarantı kimi dövlətin rolunun möhkəmləndirilməsi məsələsi xüsusi önəm kəsb etmişdir. Vətəndaş cəmiyyəti hər bir dövlətdə sadəcə müəyyən hüquqi mexanizm və qurumların yaradılması deyil, hər şeydən əvvəl vətəndaş-dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur. Ulu öndər təməlini qoyduğu Azərbaycan modelində sübut etdi ki, vətəndaş cəmiyyəti bir tərəfdən dünyanın demokratik, siyasi-hüquqi təşkilatlanmasının universal modelidirsə, digər tərəfdən sosial münasibət və strukturların möhtəşəm müxtəlifliyini, vətəndaşların fikir və təşkilatlanma plüralizmini, qarşılıqlı dialoq və tolerantlığı tələb edir. Kitabda xüsusi qeyd edilir ki, əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yadda qalacaqsa, XIX əsrə və yeni minilliyə Azərbaycan hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur.

Bu nəşr xalqımızın ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə həsr olunmuşdur. Məqalələrdə ulu öndərin irsi fəlsəfi-tarixi kontekstdə şərh edilmişdir. "Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi bu kitab elmi ictimaiyyət, geniş oxucu kütləsi və Heydər Əliyev irsinin tədqiqatçıları üçün dəyərli töhfədir.




# "YENİ SİYASƏT: İNKİŞAFA DOĞRU"

Bakı, 2008

"Azərbaycan" qəzetinin bu ikicildlik nəşri respublikamızın seçdiyi inkişaf yolunun təməl prinsiplərinin müasir dövrün tələbləri baxımından elmi-nəzəri cəhətdən araşdırılmasına həsr edilmişdir. İkicildlikdə toplanmış müstəqillik dövrünün fundamental salnaməsini əks etdirən əsərlərdə ölkəmizdəki sosial-iqtisadi tərəqqi, baş verən mütərəqqi siyasi dəyişikliklər, aparılan hüquqi-demokratik islahatlar konseptual şəkildə şərh edilmişdir. Heydər Əliyev irsinin milli inkişaf strategiyasına çevrilməsi və bu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi əsaslandırılmışdır. Tanınmış elm xadimlərinin, ziyalıların, mütəxəssislərin məqalə və rəylərində Azərbaycanın son 15 illik dövrünü əhatə edən intibah mərhələsi təhlil olunmuşdur. Bu əsərlərin hər biri respublikanın çağdaş inkişaf vektorları, ölkənin qloballaşan dünya iqtisadiyyatında və siyasətində yeri, milli demokratiya modeli, modernləşmə xətti, innovasion cəmiyyətin qurulması xüsusiyyətləri ilə bağlı dərin elmi-fəlsəfi fikir və mülahizələrlə diqqəti çəkir.

İkinci cilddə bəşəriyyətin alternativsiz inkişaf yoluna çevrilmiş demokratikləşmə prinsipləri və modernləşmə xətti respublikamızın hazırkı inkişaf strategiyası kontekstində elmi-fəlsəfi təhlil süzgəcindən keçirilmişdir.

İkicildlik respublikanın sivilizasiyalı və mütərəqqi inkişaf yolunun canlı mənzərəsini özündə təcəssüm etdirən sanballı nəşr kimi elmi ictimaiyyət və ümumən cəmiyyətdə geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılanmışdır.




# "AZƏRBAYCAN" – 90"

Bakı, 2008

Bu nəşrdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə meydana gələn dövlətin müstəqillik və istiqlal rəmzinə çevrilən qəzetin fəaliyyətinin ayrı-ayrı səhifələri öz əksini tapmışdır. Burada o zamanın bir çox nüfuzlu ziyalılarının – Üzeyir bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Ceyhun bəy Hacıbəyli, Xəlil İbrahim, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Məhəmməd ağa Şahtaxtlı, Firidun Köçərli və digərlərinin "Azərbaycan"la əməkdaşlığı, habelə qəzetin səhifələrində dərc olunmuş məqalələri xüsusi maraq doğurur.

Kitabda həmçinin "Azərbaycan" qəzetinin Gəncədə işıq üzü görmüş 4 nömrəsi haqqında geniş məlumatlar yer almış, ilk baş redaktorlarının həyat və yaradıcılığından bəhs olunmuşdur.

"Azərbaycan" – 90"-da mətbuat tarixinin ayrı-ayrı nüfuzlu tədqiqatçılarının "Azərbaycan" qəzetinin tarixi keçmişi ilə bağlı maraqlı araşdırmaları, habelə müasir dövrdəki fəaliyyəti ilə bağlı fikir və mülahizələri də öz əksini tapmışdır. Yeni nəşrdə yubiley ərəfəsində qəzetin oxucularla keçirdiyi görüşlər, habelə "dəyirmi masa"lar və digər maraqlı materiallar, fotolar yerləşdirilmişdir. Ayrı-ayrı ziyalıların, elm adamlarının, ictimai-siyasi xadimlərin qəzetin müstəqillik illərindəki fəaliyyəti ilə bağlı rəy, fikir və mülahizələri də nəşrdə toplanmışdır. Fəaliyyətini mütərəqqi tarixi ənənələr üzərində quraraq qarşıya qoyduğu prinsipial hədəflərə bu gün də sadiqlik göstərən "Azərbaycan" xalqa, dövlətçiliyə bağlılığı, dəyişməz ideya-siyasi xətti, peşə meyarlarına tələbkar münasibəti, ölkədə və beynəlxalq aləmdə cərəyan edən hadisələrə operativ yanaşma tərzi ilə digər qəzetlərdən fərqlənir.

"Azərbaycan" – 90" kitabı "Azərbaycan" qəzetinin yubileyinə layiqli töhfə olmaqla yanaşı, mətbuat tarixinin araşdırıcıları, gənc tədqiqatçılar üçün də qiymətli mənbədir.




# “İCTİMAİ VƏ HUMANİTAR ELMLƏR: ZAMAN KONTEKSTİNDƏ BAXIŞ”

*Bakı, 2010*

Konseptual elmi araşdırmaların, dərin müşahidələrin nəticəsi kimi ərsəyə gəlmiş bu nəşrdə humanitariyanın ideya əsasları, ictimai şüura təsir edən effektiv humanitar texnologiyalar, milli-mədəni, mənəvi oriyentasiya məsələləri, əski ideologiya və milli məfkurə kimi ciddi problemlər əksini tapmış, ilk növbədə humanitar və ictimai elmlərin qarşısında duran prioritet vəzifələr müəyyənləşdirilmişdir. Eyni zamanda, bu sahədə müşahidə olunan əsas nöqsanlar göstərilmiş, müvafiq elmi tədqiqat institutlarının yeni dövr üçün vəzifələri diqqətə çəkilmiş, bununla da ölkənin intellektual elitası açıq fikir mübadiləsinə, müzakirələrə dəvət edilmişdir. Nəşrdə xüsusi vurğulanır ki, elmin inkişaf təmayüllərinin respublikanın müasir reallıqlarına nəzərən müəyyənləşdirilməsi, bu sahədə mövcud problemlərin həlli, elmlə idarəçiliyin səmərəli vəhdətinin təmini, bu sahəyə yönəldilən vəsaitlərin rentabelliliyinə nail olunması yeni mərhələdə alimlərin qarşısında ciddi vəzifələr kimi dayanır.

Kitabda respublikanın tanınmış elm xadimləri, ayrı-ayrı tədqiqatçılar, filosoflar, siyasətşünaslar, jurnalistlər, Azərbaycan elminin mövcud problemlərinin aradan qaldırılmasına yeni imkanlar açan, ictimai fikri intellektual sferada həllini gözləyən aktual məsələlərə yönəldən ictimai və humanitar elmlərə yeni zaman kontekstində münasibət bildirmiş, dəyərli fikirlər, təkliflər, rəylər irəli sürmüşlər.

Kitabın birinci və ikinci fəsillərində bu məsələlərlə bağlı keçirilmiş "dəyirmi masa"lar, habelə müəllif yazıları verilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf olunan kitabın ictimai dəyəri ilk növbədə onunla şərtlənir ki, burada bütövlükdə ölkə elminin inkişaf perspektivləri ilə bağlı qiymətli təkliflərin yer aldığı çoxsaylı müəllif məqalələri toplanmışdır.




# "İNKİŞAFIN AZƏRBAYCAN MODELİ"

*Bakı, 2010*

Silsilə məqalələr toplusundan ibarət olan bu kitab iqtisadi sahədə keçid dövrünün mühüm istiqamətlərini, milli inkişaf strategiyasının əsas nəticələrini müfəssəl şəkildə əks etdirir. Ensiklopedik səciyyəyə malik nəşr faktoloji baxımdan zəngin xarakterlidir.

Bu kitab ön söz və üç fəsildən ibarətdir. Burada 2003-2010-cu illərdə Azərbaycanda elmi əsaslarla hazırlanıb həyata keçirilən sosial-iqtisadi siyasət, reallaşdırılan islahatlar milli inkişaf modelini səciyyələndirən məsələlər kimi önə çəkilir. 1994-2009-cu illərdə iqtisadi sahədə keçid dövrünü təmin edən əsas sosial-iqtisadi hadisələrə, ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən verilən sərəncam və fərmanlara, təsdiq olunan dövlət proqramlarına, digər qanunvericilik aktlarına nəzər salınır, əldə olunan nailiyyətlərin xronologiyasına diqqət yetirilir. İqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycanda əvvəlki sosial-iqtisadi münasibətlərin, institutların bazar iqtisadiyyatına uyğun olaraq transformasiyası, islah olunması, yenilərinin formalaşması prosesinə nəzər salınır.

Kitabda sürətlə qloballaşmaqda olan dünyada həlli getdikcə daha böyük zərurətə çevrilən enerji təhlükəsizliyində Azərbaycanın rolu, yeni neft strategiyası, neft-qaz gəlirlərindən məqsədyönlü istifadə olunması, dünya iqtisadiyyatına çevik inteqrasiya məsələləri təhlil edilir, tarixi-faktoloji əsasda oxucuların diqqətinə çatdırılır.

Bu nəşrdə azad bazar münasibətləri şəraitində Azərbaycan iqtisadiyyatının inkişaf tempinin daha mütəhərrik hala gəlməsi üçün qəbul olunan müvafiq dövlət proqramları və onlara əlavələr, paytaxt və regionların tarazlı, davamlı inkişafı, onların potensialının bir-birinə kömək mexanizmi üzərində qurulması, qeyri-neft sektorunun daha da möhkəmlənməsi, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, infrastrukturun yeniləşdirilməsi sahəsində uğurlar təhlil olunur. Kitabda Azərbaycanın inzibati-amirlik iqtisadiyyatından bazar iqtisadiyyatına keçidi ehtiva edən dövrün sosial-iqtisadi hadisələri, onların nəticələri müvafiq fəsillər üzrə qruplaşdırılır. Bu mənada kitab Azərbaycanın iqtisadi sahədə keçid dövrünü başa vurmasına yol açan dövlət siyasətinin əsas mahiyyəti, görülən işlər, onların nəticəsində hansı uğurların əldə olunması, bazar iqtisadiyyatı şəraitində qarşıda duran vəzifələrə nəzər salınması baxımından zəruri ədəbiyyatlar siyahısına daxil edilir.

Nəşrin ensiklopedik səciyyə daşıması təkcə iqtisadçılar, filosof və siyasətşünaslar üçün deyil, ümumən Azərbaycanın keçdiyi yolun ayrı-ayrı mərhələlərini öyrənmək istəyən tədqiqatçılar, geniş oxucu kütləsi üçün də maraqlı mənbə rolunu oynayır.




# "MÜASİR AZƏRBAYCAN DÖVRÜN BAXIŞINDA"

*Bakı, 2011*

Dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümü ərəfəsində işıq üzü görmüş kitabda suveren Azərbaycanın qısa müddətdə sosial-iqtisadi sahədə qazandığı möhtəşəm uğurlarda ulu öndər Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində böyük müdrikliklə formalaşdırdığı resurslardan geniş söz açılmışdır. Qeyd edilmişdir ki, ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci dövründə – 1969-1982-ci illərdə həyata keçirilən kompleks tədbirlərin uğurlu nəticələri bir neçə onillikdən sonra Azərbaycanın müstəqil dövlət kimi mövcudluğuna etibarlı zəmin olmuşdur.

Kitabda ulu öndər Heydər Əliyevin böyük zəhmət, dəmir iradə, sarsılmaz qətiyyət bahasına qurub-yaratdığı, uğur magistralına çıxardığı, onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək hər bir Azərbaycan vətəndaşının milli qürur yerinə çevirdiyi müstəqil dövlətin ötən müddətdə qət etdiyi möhtəşəm yola nəzər salınmış və qazanılmış nailiyyətlərin düzgün dəyərləndirilərək gələcək nəsillərə çatdırılması bir missiya olaraq qarşıya qoyulmuşdur.

Bu nəşrdə habelə müstəqillik yollarında qarşıya çıxan və uğurlu həllini tapan iqtisadi problemlərdən, həyata keçirilən möhtəşəm layihələrdən, Azərbaycanın dünyanın ən sürətli inkişaf edən ölkələrdən biri olmasından, beynəlxalq aləmdə nüfuz sahibinə çevrilməsindən, respublikada aparılan islahatlardan, demokratik vətəndaş cəmiyyəti quruculuğu sahəsində əldə olunan uğurlardan maraqlı və publisistik dillə söz açılır. Bu kitabın ən maraqlı və üstün cəhətlərindən biri ondan ibarətdir ki, müəlliflər peşəkar jurnalist qələminin məharətindən çox uğurla istifadə edərək buradakı materialları sadə, rəvan, oxunaqlı dillə oxucuya çatdırmışlar.

Nəşrin Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyətinə həsr olunmuş fəsli "Yeni hədəflərə doğru" adlanır və inkişafımızın istiqamətlərini olduqca dəqiq səciyyələndirən bir cümlə ilə tamamlanır: "Müstəqilliyimizin əbədiliyinin, dövlətin hərtərəfli yüksəlişinin ən etibarlı təminatçısı olan, Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, ideyalarını yaşadan və həyata keçirən Prezident İlham Əliyevin ətrafında daha sıx səfərbər olan xalqla onun lideri arasında özünü göstərən birlik sarsılmaz və əbədidir".

Tariximizin 20 illik dövrünü əks etdirən kitab dövlətin keçdiyi inkişaf yolunun öyrənilməsi üçün mühüm mənbə rolunu oynayır.




# "VƏKİL MƏSLƏHƏTLƏRİ TOPLUSU"

*Bakı, 2012*

Kitabda "Azərbaycan" qəzetinin "Bakı Hüquq Mərkəzi oxucuların suallarına cavab verir" rubrikası çərçivəsində 2009-2012-ci illər ərzində işıq üzü görən sual-cavablar toplanmışdır. Kitabın ön sözündə xüsusi olaraq qeyd edilmişdir ki, son zamanlar Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi məsələsi məxsusi olaraq diqqət mərkəzinə çevrilmişdir. Sosial münasibətlərin tarazlaşdırılmış qaydada inkişafı isə birbaşa şəkildə istənilən cəmiyyətin hüquqi maariflənməsi səviyyəsindən asılıdır. Respublikamızda insan hüquqlarının səmərəli müdafiəsi sahəsində aparılan mütərəqqi hüquq islahatlarının əsasında məhz cəmiyyətin hüquq biliklərinin zənginləşdirilməsi, onların məhkəmələrə, o cümlədən müxtəlif dövlət orqanlarına çıxışlarının təmin edilməsi durur.

Bu kitabda hüququn müxtəlif sahələri – ailə, mülki, əmək, pensiya və s. ilə bağlı tez-tez rastlaşdığımız problemlərin həlli barədə məlumatlar öz əksini tapıb, fərqli hüquqi vəziyyətlərdə hansı hərəkətlərin zəruri olduğu göstərilib.

Nəşr ölkə əhalisinin hüquq düşüncəsinin inkişafına müsbət töhfə verərək rəğbətlə qarşılanmış və o, hər bir ölkə vətəndaşının stolüstü kitabına çevrilmişdir.




# "AZƏRBAYCANLILARIN SOYQIRIMI: TARİXİN QANLI SALNAMƏSİ"

Bakı, 2012

31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində işıq üzü görən ikicildlikdə erməni faşizminin mahiyyəti, xalqımızın əsrlər boyu məruz qaldığı qanlı qırğınların baiskarları və təşkilatçıları, soyqırımı haqqında əsl həqiqətlər təkzibolunmaz faktlar əsasında ictimaiyyətə çatdırılır. Kitabda toxunulan məsələlərin əhatə dairəsi çox genişdir. "Ermənilərin Azərbaycana köçürülməsi və məskunlaşdırılması", "Ermənilərin Osmanlı imperiyasında türklərə qarşı törətdikləri soyqırımı", "1905-1920-ci il soyqırımları", "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyası", "Sonuncu deportasiyanın qanlı olayları", "Sumqayıt – erməni təxribatının yeni ünvanı", "Qarabağ müharibəsinin qara salnaməsi", "20 Yanvar faciəsi" və s. məqalələrdə Qarabağ probleminə münasibət, dünyada ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar, torpaqlarımızın işğalı ilə bağlı faktlar, rəqəmlər, ümumiyyətlə, xronologiya üzrə bütün məlumatlar öz əksini tapmışdır.

Birinci cilddə XIX-XX əsrlərdə azərbaycanlılara qarşı törədilmiş soyqırımları haqqında ensiklopedik xarakterli məqalə və materiallar yer almışdır. Bu dövrdə ermənilərin Azərbaycana köçürülməsindən başlamış bugünə qədər bizim yaşayış məntəqələrində baş vermiş soyqırımları ilə bağlı informasiyalar verilmişdir. Kitabda dəqiqləşdirilmiş rəqəmlərdən istifadə olunmuşdur.

Kitabın ikinci cildində beynəlxalq təşkilatların Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini pisləyən və işğalçı qoşunların torpaqlarımızdan çıxarılmasını tələb edən sənədləri, BMT-nin qətnamələri, ulu öndər Heydər Əliyevin beynəlxalq təşkilatların tribunalarından çıxışları, bu məsələ ilə bağlı Prezident İlham Əliyevin qətiyyətli və prinsipial fəaliyyəti, nitqləri və onun təşəbbüsü ilə Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi sənədlərlə də tanış olmaq mümkündür. Yəni tədqiqatçılar üçün bütün bunların böyük əhəmiyyəti vardır.

Nəşrin sonuncu bölməsi ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərindən bəhs edən fotoxronikadan ibarətdir. Burada xalqımızın son iki əsrdə məruz qaldığı qırğınların faktlarla sübuta yetirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən fotolar toplanmışdır. Kitabın üz qabığında Quba kütləvi soyqırımı məzarlığının şəkli verilmişdir.

Bu kitab informasiya müharibəsində uğurlarımızı təmin etmək üçün daha bir tutarlı mənbədir.




# "AZƏRBAYCANDA OLİMPİYA HƏRƏKATI: DAİM YÜKSƏLİŞDƏ"

*Bakı, 2013*

"Azərbaycan" qəzetinin redaksiyası tərəfindən hazırlanmış bu ikicildlik kitab müasir Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə və Milli Olimpiya Komitəsinin yaranmasının 20-ci, Azərbaycan Olimpiya hərəkatının inkişaf mərhələsinə qədəm qoymasının 15-ci ildönümünə ithaf edilmişdir. Bu nəşri ölkəmizdə idman və bədən tərbiyəsinin, xüsusən də olimpiya sahəsinin mükəmməl salnaməsi hesab etmək olar. Kitabda İdman və Olimpiya hərəkatının ölkəmizdə ta qədimdən dövrümüzədək inkişaf prosesi, müasir zamanda əldə edilən nailiyyətlər təhlil edilir. Həmçinin olimpiya sahəsi ilə bağlı dövlət başçılarının çıxışları, görüşləri, rəsmi sərəncamlar, fərmanlar, qərarlar və digər bu kimi zəruri sənədlər nəşri faktoloji baxımdan olduqca maraqlı edir.

İkicildlikdə habelə müstəqillik dövründə Azərbaycan idmanının inkişafı, ölkədə olimpiya oyunlarına hazırlığın təhlili, bu sahədə görülən işlər və son 5 olimpiya oyunlarında iştirakımızla bağlı bütün məsələlər geniş şərh edilmişdir. Belə bir nəşrin buraxılmasında əsas məqsədlərdən biri Azərbaycanın idman tarixini dolğun və geniş şəkildə yazmaqdan ibarət olmuşdur.

Ölkə başçısı İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda Olimpiya hərəkatının yeni inkişaf dövrü başlamışdır. İnkişaf təkcə olimpiya oyunlarında hər dəfə medalların sayının artması ilə deyil, həm də ölkədə idman infrastrukturunun yenilənməsi, olimpizmin inkişafı, o cümlədən bu sahəyə aid nəşrlərin çoxalması, gənclərin idmana həvəsinin əhatə dairəsinin genişlənməsi ilə müşahidə olunur. Kitabın digər əhəmiyyəti burada yer alan bölmələrdə ölkəmizdə Olimpiya hərəkatının ən incə detallarına belə diqqət yetirilməsi və heç bir faktın nəzərdən qaçırılmamasıdır. Bu kitab gələcəkdə idman tariximizi tədqiq etmək istəyənlər üçün dəyərli mənbədir.




# “HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA”

*Bakı, 2013*

"Azərbaycan" qəzeti tərəfindən hazırlanmış bu ikicildlik nəşr ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur. Kitabın hər iki cildi 7 fəsildən ibarətdir. Fəsillərdə ulu öndərin sovet dövründə və müstəqillik illərində müasiri olmuş, bir yerdə işləmiş, xeyir-duasını almış, alicənablığını görmüş, mərhəmətini hiss etmiş sadə insanların, sənət adamlarının, dövlət xadimlərinin, siyasətçilərin, idmançıların, ümumiyyətlə, taleyinə ümummilli lideri şəxsən tanımaq kimi gözəl bir qismət yazılmış insanların maraqlı xatirələri, ulu öndərin görkəmli dövlət xadimi kimi siyasi, ictimai və dövlətçilik fəaliyyətinə dair fikirləri məqalələr şəklində toplanmışdır.

Kitabda 74 müəllifin fikri yer almışdır. İkicildliyin hər bir fəslində olan yazılarla tanışlıq bir daha göstərir ki, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz ulu öndərin adı ilə bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı inkişaf yoluna çıxarmış, bir dövlət kimi zamanın ağır və sərt burulğanlarından xilas etmişdir. Kitabın ön sözündə deyilir: "İstər Azərbaycan tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaq. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir. Bu gün biz azərbaycanlıların ölkəmiz haqqında danışanda fəxr edə biləcəyi, qürurla öyünəcəyi çox uğurlar var. Onların istisna olmadan hamısı Heydər Əliyevin adı ilə bağlıdır".

Bu nəşrdə həmçinin əbədiyaşar liderimizin Azərbaycan dövlətinə və xalqına həsr edilən ömür yolunda aldığı böyük mükafatlarla bağlı məlumatlar da verilir.

Kitabda fotolar və arxiv sənədlərinin surətləri də yer almışdır. Əbədiyaşar liderimizin ölməz ruhuna və xatirəsinə böyük ehtiramın nümunəsi olan ikicildlik ulu öndərin irsinin tədqiqatçıları, eləcə də geniş oxucu kütləsi üçün dəyərli töhfədir.




# "İLHAM ƏLİYEV BİZİ COCUQ MƏRCANLIYA QAYTARDI"

*Bakı, 2017*

Bu kitab Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ilk dəfə olaraq baş verən keyfiyyət dəyişikliyindən bəhs edir. Nəşrdə tarixi baxımdan zəruri olan sənədlərə, Aprel zəfərinin səbəb və nəticələrinə, Prezident İlham Əliyevin Aprel döyüşləri barədə fikirlərinə geniş yer ayrılıb. İşğal nəticəsində həm Cocuq Mərcanlı kəndinə, həm Cəbrayıl rayonuna vurulan ziyan fakt və sənədlərlə göstərilib.

Kitabda baş məqalə kimi verilən "Böyük qayıdışın başlanğıcı" adlı yazıda Prezident İlham Əliyevin rəhbərliyi altında respublikanın dinamik inkişafından, dövlətçilik ənənələrinin yüksək səviyyədə qorunmasından, müstəqil, balanslaşdırılmış siyasətin yürüdülməsindən bəhs edilir. Məqalədə deyilir: "Cənab Prezident dəfələrlə bəyan edib ki, bu gün qarşımızda duran əsas strateji vəzifə müstəqilliyimizi daha da möhkəmləndirməkdən, ərazi bütövlüyümüzü bərpa etməkdən, Azərbaycanı bütün sahələr üzrə dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaqdan ibarətdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, bu münaqişə nəticəsində doğma ocaqlarından didərgin salınmış qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz yurdlarına qaytarılması, bu təbəqədən olan vətəndaşlarımızın sosial mənzil şəraitlərinin yaxşılaşdırılması bu gün Azərbaycan dövlətinin əsas prioritetlərindəndir".

Kitabda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Cəbrayıl rayonundan olan məcburi köçkünlərlə görüşləri, Cocuq Mərcanlı kəndi barədə məlumat, 1993-cü il Horadiz əməliyyatı, Cocuq Mərcanlı kəndinin azad olunması, 2016-cı il Aprel döyüşləri, Lələtəpənin azad olunması, Prezident İlham Əliyevin Lələtəpəyə səfəri və s. maraqlı yazılar oxuculara təqdim olunur.

Kitaba həm Aprel zəfəri, həm də Böyük qayıdışın başlanğıcı ilə bağlı Milli Məclisin deputatlarının, politoloqların, müxtəlif sahələrdə çalışan insanların fikirləri də daxil edilib.




# "XOCALI ŞAHİDLƏRİ DANIŞIR"

Bakı, 2018

Xocalı soyqırımının 26-cı ildönümü ərəfəsində işıq üzü görən bu nəşrdə Xocalı faciəsinin canlı şahidlərinin xatirələri xüsusi önəm daşıyır. Kitab 2015-2017-ci illər ərzində "Azərbaycan" qəzetində dərc olunmuş materialların toplusudur.

Şəhərin 47 sakininin yaşadığı dəhşətləri, faciəvi əsirlik həyatını, məruz qaldığı maddi-mənəvi itkiləri ətraflı əks etdirən məqalələr tarixi sənəd səviyyəsi daşımaqla bərabər, ermənilərin törətdiyi soyqırımı cinayətlərini müfəssəl və real faktlarla isbat edir. Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov kitaba yazdığı ön sözdə bu hadisələrin xronologiyasını, tarixi köklərini ətraflı şəkildə göstərib. Kitab Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində mühüm əhəmiyyət daşıyır. Burada 200 il ərzində ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları, onların Azərbaycan ərazilərinə köçürülməsi, terror təşkilatları yaratmaları barədə konkret faktlar yer alıb.

Toplunun hər bir səhifəsi, xüsusilə bu müsibətləri görmüş həmvətənlərimiz, öz həyatlarının ən qanlı, unudulmaz anlarını böyük dəhşətlər içərisində danışan insanların dilindən çıxan hər kəlmə, zaman gələcək, ermənilərə qarşı ittiham aktının tərkib hissəsi olacaq. Kitabda Xocalı faciəsinin statistik rəqəmləri öz əksini tapmışdır. Bildirilmişdir ki, bu soyqırımı nəticəsində 613 nəfər öldürülmüşdür. Onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. Bunların içərisində 8 ailə tamamilə məhv edilmiş, 56 insan işgəncə ilə öldürülmüş, 27 ailənin yalnız bir üzvü qalmışdır. 25 uşaq hər iki valideynini itirmiş, 130 uşaq valideynlərindən birini, 230 ailə öz başçısını itirmişdir. 487 insan şikəst olmuşdur. Onlardan 76 nəfər həddibuluğa çatmayanlardır. 1275 insan girov götürülmüş, 1165 nəfər girovluqdan azad edilmişdir. 150 nəfərin taleyindən isə indiyə kimi heç bir məlumat yoxdur.

Kitab Xocalı soyqırımının araşdırılması və nəticələrinin dünyaya tanıdılması prosesində dəyərli vəsaitdir.

# Mündəricat


Prezident İlham Əliyevin "Azərbaycan" qəzetinin kollektivinə təbrik məktubu və qəzetin əməkdaşlarına fəxri adların, yüksək dövlət mükafatlarının verilməsi haqqında sərəncamları . . . . . . . . . . . . . .4
Ulu öndər Heydər Əliyevin "Azərbaycan" qəzetinin kollektivinə təbrik məktubları . . . . . . . . . . . . . . . . . . . .8

<u>*Ön söz əvəzi.*</u> 100 yaşlı "Azərbaycan" *(Bəxtiyar SADIQOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .11

**Azərbaycanın "Azərbaycan"ı**

İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .37
Müstəqil Azərbaycanın güzgüsü "Azərbaycan" *(İsa HƏBİBBƏYLİ)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .73

**Mətbuatımızın bayraqdarı, milli ideyanın baş qəzeti**

100 ilin "Azərbaycan"ı *(Mübariz QURBANLI)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .87
Gənclərin və idmançıların doğma qəzeti *(Azad RƏHİMOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .95
Heydər Əliyev irsinin sadiq tərənnümçüsü,
İlham Əliyev siyasi kursunun fəal təbliğatçısı *(Fərhad MƏMMƏDOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .103
"Azərbaycan" qəzetinin tarixi mədəniyyət və
mətbuat tariximizin parlaq səhifəsidir *(Əbülfəs QARAYEV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .111
Azərbaycan qadın siyasətinin təbliğatçısı *(Hicran HÜSEYNOVA)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .115

**Dövlətçilik və inkişaf tribunası**

1 nömrəli qəzet *(Hadi RƏCƏBLİ)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .121
Azərbaycanımız var olduqca "Azərbaycan"ımız da yaşayacaq *(Ziyad SƏMƏDZADƏ)* . . . . . . . . . . . . . . . . . . .128
Hamımızın qəzeti *(Hüseynbala MİRƏLƏMOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .133
Milli publisistikamızın öndəri, fəxri və iftixarı *(Möhsün NAĞISOYLU)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .142
Zərif güclülərin tribunası *(Nurlana ƏLİYEVA)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .150
İqtisadi islahatların və sahibkarlığın inkişaf
strategiyasının peşəkar təbliğatçısı *(Qüdrət KƏRİMOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .158

**Tarixin ən qüdrətli Azərbaycanının salnaməçisi**

Tariximizin qan yaddaşı "Azərbaycan"ın səhifələrində *(Yaqub MAHMUDOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . .165
Dövlət quruculuğu və hüquqi islahatlar prosesinin nəzəri tribunası *(Əmir ƏLİYEV)* . . . . . . . . . . . . . . . . . . . . .171
Söz və mətbuat azadlığının salnaməçisi *(Vüqar ZİFƏROĞLU)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .186

**Azərbaycanın tarixi – tarixin "Azərbaycan"ı**

"Azərbaycan" qəzetinin dünyaya gəlişi *(Şirməmməd HÜSEYNOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .193
"Həyat" belə başladı... *(Şakir YAQUBOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .195
İki "Azərbaycan" arasındakı körpü *(Bəxtiyar SADIQOV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .204
Tariximizə qayğı və məsuliyyətlə yanaşaq *(Elçin VƏLİYEV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .211
Azərbaycan həqiqətləri "Azərbaycan"ın internet səhifəsində *(Cəfər KƏRİMOV)* . . . . . . . . . . . . . . . . . . . . . .216

**Ümummilli qəzet**

Azərbaycan parlamenti "Azərbaycan" qəzetində *(Nizami CƏFƏROV)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .221
"Azərbaycan" cümhuriyyət dövrü tarixinin öyrənilməsində qiymətli mənbədir *(Elmi konfrans)* . . . . . . . . . . .227
"Azərbaycan" qəzetinin çapı mühüm siyasi-ictimai hadisə oldu *(Solmaz RÜSTƏMOVA)* . . . . . . . . . . . . . . . . .236

Qaçqın və məcburi köçkün problemi "Azərbaycan" qəzetində:
100 ilin xronologiyası *(Nazim MUSTAFAYEV)* . . . . . 241
Dövrün salnaməsi *(Habil HƏMİDOV)* . . . . . 255

## "Azərbaycan"dan və təlatümlərdən keçən ömürlər

Milli mətbuatımızın qüruru – Üzeyir bəy Hacıbəyli . . . . . 263
Məsləkinə sadiq böyük mücahid – Şəfi bəy Rüstəmbəyli . . . . . *274*
"Azərbaycan"ın ilk redaktoru – Ceyhun Hacıbəyli . . . . . 284
Ən böyük "günahları" vətəni sevmək idi – Xəlil İbrahim . . . . . 298
Vətən sevdalılar – Seyid Hüseyn, Ümmügülsüm Sadıqzadə . . . . . 306
Bir ömürlük intizar – Mirzəbala Məmmədzadə . . . . . 315
Ümidin sönməyən işığı – Cəfər Cabbarlı . . . . . 322
Oxşar talelər . . . . . 328
M.Hadi "Azərbaycan" qəzeti səhifələrində *(Alxan BAYRAMOĞLU)* . . . . . 334

## Dost sözü, oxucu arzusu

"Azərbaycan" milli mətbuatımızın şanlı ənənələrinin bayraqdarıdır *(Əli ƏHMƏDOV)* . . . . . 344
"Azərbaycan" qəzeti vətənpərvərlik ruhunun aşılanmasında və
dövlətçilik ideyalarının təbliğində önəmli yer tutur (*Əli HƏSƏNOV*) . . . . . 346
"Azərbaycan"ın yubileyi dövlətçilik tariximizin əlamətdar hadisələrindəndir *(Ramil USUBOV)* . . . . . 348
"Azərbaycan" qəzeti xalqa, dövlətçiliyə və Prezidentə möhkəm bağlılığı,
sədaqəti ilə ən ön mövqedədir *(Şahin MUSTAFAYEV)* . . . . . 349
"Azərbaycan" müstəqillik ideyalarının təbliğində mühüm rol oynayır *(Fikrət MƏMMƏDOV)* . . . . . 350
Prezident İlham Əliyevin qəzetinizə münasibəti "Azərbaycan"a
verilən ən yüksək qiymətdir *(Mikayıl CABBAROV)* . . . . . 351
"Azərbaycan" qəzeti çağdaş mətbuatımızda özünəməxsus mövqeyə,
böyük nüfuza malikdir *(Əbülfəs QARAYEV)* . . . . . 352
"Azərbaycan" dövrün ən nüfuzlu mətbu orqanıdır *(Ceyhun BAYRAMOV)* . . . . . 354
Şərəfli və müqəddəs fəaliyyət *(Mübariz QURBANLI)* . . . . . 355
Müstəqil dövlətçilik ideallarının carçısı *(Şeyxülislam Allahşükür PAŞAZADƏ)* . . . . . 356
"Azərbaycan" son 25 ildə qazanılan möhtəşəm nailiyyətlərin
mükəmməl salnaməsidir *(Fəttah HEYDƏROV)* . . . . . 358
"Azərbaycan" əsl jurnalistika məktəbinə çevrilib *(Məzahir PƏNAHOV)* . . . . . 360
"Azərbaycan" milli mətbuatımızda örnəkdir *(Sahil BABAYEV)* . . . . . 362
"Azərbaycan" qəzetinin dövlət müstəqilliyimizin möhkəmləndirilməsində
müstəsna rolu var *(Əhməd ƏHMƏDZADƏ)* . . . . . 363
"Azərbaycan" dövlətçilik ideyalarına sədaqəti ilə müasir
jurnalistikamız üçün əsl örnəkdir *(Rövşən RZAYEV)* . . . . . 364
"Azərbaycan" qəzeti milli mənlik şüurunun oyanışında və
dirçəlişimizdə əvəzsiz rol oynayıb *(Elmira SÜLEYMANOVA)* . . . . . 365
"Azərbaycan"ın ölkəmizin sosial-mədəni həyatında mühüm yeri var *(Baba RZAYEV)* . . . . . 366
"Azərbaycan" bütün dövrlərin ən populyar və oxunaqlı qəzetidir *(Vüqar GÜLMƏMMƏDOV)* . . . . . 367
"Azərbaycan" milli mətbuatımızın avanqardı, bayraqdarıdır *(Səttar MÖHBALIYEV)* . . . . . 368
"Azərbaycan" – milli dövlətçiliyimizin möhtəşəm salnaməsi *(Kamran İMANOV)* . . . . . 370
"Azərbaycan" daim dövlətçilik ənənələrinə sadiq qalır,
milli maraqların müdafiəsində dayanır *(Məmməd MUSAYEV)* . . . . . 371
"Azərbaycan" dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır *(Vidadi MURADOV)* . . . . . 372
"Azərbaycan"ın xidmətləri əvəzedilməzdir *(Cəmilə SƏTTAROVA)* . . . . . 373
"Azərbaycan" qəzeti Türkiyə ilə Azərbaycanı daha da yaxınlaşdırır, aramızdakı tellərin
daha da möhkəmlənməsinə təkan verir *(Erkan ÖZORAL)* . . . . . 374
Xarici ölkə səfirlərinin təbrikləri . . . . . 375

## "Azərbaycan"ın kitabları: milli intibahın konseptual şərhləri, tarixin fundamental araşdırmaları

"Heydər Əliyev dünyanın gözü ilə" . . . . . 381
"Heydər Əliyev mənim həyatımda" . . . . . 382
"Vətəndaş cəmiyyətinə yol açan ideyalar" . . . . . 383
"Yeni siyasət: inkişafa doğru" . . . . . 384
"Azərbaycan" – 90" . . . . . 385
"İctimai və humanitar elmlər: zaman kontekstində baxış" . . . . . 386
"İnkişafın Azərbaycan modeli" . . . . . 387
"Müasir Azərbaycan dövrün baxışında" . . . . . 388
"Vəkil məsləhətləri toplusu" . . . . . 389
"Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi" . . . . . 390
"Azərbaycanda Olimpiya hərəkatı: daim yüksəlişdə" . . . . . 391
"Heydər Əliyev mənim həyatımda" . . . . . 392
"İlham Əliyev bizi Cocuq Mərcanlıya qaytardı" . . . . . 393
"Xocalı şahidləri danışır" . . . . . 394

**Redaksiya heyəti:**

İradə ƏLİYEVA

Zöhrə FƏRƏCOVA

Rəşad CƏFƏRLİ

Rəşad BAXŞƏLİYEV

Elçin CƏFƏROV

Fərizə ƏHMƏDOVA

**Texniki redaktor:**

Cəfər KƏRİMOV

**Tərtibçi:**

Daşdəmir TAĞIYEV

Şakir ALIYEV

**Korrektor:**

Kəmalə CƏFƏROVA